ISSN 2221-8432

AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ
BAKI SLAVYAN UNİVERSİTETİ

HUMANİTAR ELMLƏRİN ÖYRƏNİLMƏSİNİN AKTUAL PROBLEMLƏRİ

Ali məktəblərarası elmi məqalələr məcmuəsi

АКТУАЛЬНЫЕ ПРОБЛЕМЫ ИЗУЧЕНИЯ ГУМАНИТАРНЫХ НАУК

Межвузовский сборник научных статей

THE ACTUAL PROBLEMS OF STUDY OF HUMANITIES

Interuniversity collection of scientific articles

№5

2019

Məcmuə 1997-ci ildən nəşr olunur.

İldə 6 nömrə çıxır.

Redaksiyanın ünvanı:
Bakı şəh., Rəsul Rza küç., 125/139b
Tel.: 596 21 44
Faks: 5962144
e-mail: mutarjim@mail.ru
www.mutercim.az

Bakı – 2019

Humanitar elmlərin öyrənilməsinin aktual problemləri
Rüblük elmi nəşr

Redaksiya heyəti:

Dilçilik
filol. e. d., prof. **Məmmədli Aslan**
filol. e. d., prof. **Məmmədov Nəsirağa**
filol. e. d., prof. **Veysəlli Fəxrəddin**
filol. e. d., prof. **Cahangirov Fikrət**
filol. e. d., prof. **Nurqali Kadişa (*Qazaxstan*)**
filol. e. d. **Qurbanova Fidan**
filol. e. d., prof. **Cəfərov Mikayıl**
filol. f. d. **Korotışev Aleksandr (*Rusiya*)**

Ədəbiyyatşünaslıq
filol. e. d., prof. **Qocayev Məmməd**
filol. e. d., prof. **Novruzov Rafiq**
filol. e. d., prof. **Xəlilli Şahin**
filol. e. d., prof. **Qeybullayeva Rəhilə**
filol. e. d., prof. **Rəsulov Rüstəm**
filol. f. d. **Ağamirzəyev Əliş**
filol. e. d., prof. **Travnikov Serqey** (***Rusiya***)

Pedaqogika
ped. e. d., prof. **Abbasov Akif**
ped. e. d., prof. **Rəcəbov Oqtay**
ped. e. d., prof. **Tağıyev Şahin**
ped. e. d., prof. **Xəlilov Vidadi**
ped. e. d., prof. **Cəbrayılov İntiqam**
ped. e. d., prof. **Quliyeva Ellada**
ped. f. d., dos. **Səmədov Oktay**
filol. f. d., dos. **Carçıyeva İlahə**

İctimai elmlər
tarix e. d., prof.,
AMEA-nın müxbir üzvü **Qasımlı Musa**
tarix e. d., prof. **İbrahimli Fəzail**
fəlsəfə e. d. **Məmmədov Cahangir**
tarix e. d., prof. **Əmrahov Mais**
fəlsəfə e. d., prof. **Əliyev Məmməd**
tarix e. d., prof. **Məmmədov Habil**
tarix f. d., dos. **Əhməd Əsgər**
siyasi elmlər f. d. **Abdullayev Natiq**

Buraxılışa məsul: filol.e.d., prof. **Cəfərov Telman**

Humanitar elmlərin öyrənilməsinin aktual problemləri. Ali məktəblərarası elmi məqalələr məcmuəsi. **№ 5/2019.** – Bakı: Mütərcim, 2019. – 312 s.

Məcmuə Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyası tərəfindən Dissertasiyaların əsas nəticələrinin dərc olunması tövsiyə edilən dövri elmi nəşrlərin siyahısına daxil edilmişdir.

Сборник включен в Перечень рекомендуемых научных журналов, в которых должны быть опубликованы основные научные результаты диссертаций Высшей аттестационной комиссией при Президенте Азербайджанской Республики.

© Məqalə müəllifləri, 2019
© "Humanitar elmlərin öyrənilməsinin aktual problemləri" məcmuəsi redaksiyası, 2019

DİLÇİLİK - ЛИНГВИСТИКА

Ə.Ə.ABDULLAYEV
professor

Azərbaycan Dillər Universiteti
(Bakı şəh., R.Behbudov küç., 60)

KONSEPTUAL İNTEQRASİYA VƏ ANLANMA

Bizi anlamaq isə zor deyil. Yetər ki, anlada bilək.

Açar sözlər: *konseptual məna, anlama, mənanın inteqrasiyası, süni intellekt*
Ключевые слова: *концептуальное значение, понимание, интеграция смысла, искуственный интеллект*
Key words: *coneptual meaning, understanding, meaning integration, artificial intellect*

Biliyin strukturlaşmasının iki əsas vasitəsi vardır. 1) Biliyin konseptuallaşması, 2) Biliyin kateqoriyalaşması. Jilles Fokonye və Mark Turnerin (2002) XX əsrin sonlarında irəli sürdükləri konseptual inteqrasiya nəzəriyyəsi (buna "konseptual qovuşma-birləşmə nəzəriyyəsi" də deyilir) dilçilikdə mübahisəli olan bir çox məsələlərə, o cümlədən anlama məsələlərinə də aydınlıq gətirməkdə mühüm rol oynamışdır, xüsusilə mətnin başa düşülməsi məsələlərində həllini çoxdan gözləyən problemlərin araşdırılmasında.

Bu nəzəriyyənin əsas mahiyyəti ondan ibarətdir ki, insan beynində baş verən və dil və təfəkkürü birləşdirən koqnitiv əməliyyatlar müxtəlif mənaları yarada bilər. Bunlar ən sadə mənalardan, anlayışlardan tutmuş, ən mürəkkəb nəzəriyyələri əhatə edir. Amma ilk baxışda bizə sadə görünən bu cür anlayışlar əslində heç də belə deyil. Biz danışanda, fikirləşəndə, hətta eşidəndə belə beynimizdə hansı mürəkkəb əməliyyatların getdiyinin mahiyyətinə varmırıq.

Məlumdur ki, dil və təfəkkür 3 cür inikas-təsvir (J.Fokonye və M.Turnerdə bu «mappings» kimi izah edilir) vasitəsilə bir-birilə əlaqələnir. Birincisi proyeksiya təsviri, ikincisi praqmatik-funksional təsvir, üçüncüsü sxematik təsvir. Məhz mental sahə bazasında Fokonye-Terner cütlüyü dilçilikdə unikal bir nəzəriyyənin - konseptual inteqrasiya nəzəriyyəsinin ortaya atılmasını şərtləndirdi. Bunun da mahiyyəti ondan ibarətdir ki, konseptuallaşma əsasən konseptlərin yaranmasına gətirib çıxaran informasiyanın anlaşılması, başa düşülməsi prosesidir.

Bügün konseptual inteqrasiya nəzəriyyəsi adı altında dilçilikdə əsas koqnitiv prosesslər başa düşülür ki, bunun da mücərrədləşmənin müxtəlif səviyyələri ilə həyata keçirilən müəyyən sxemi vardır. Bu sxem də özündə çıxış sahəsini (buna Fokonye-Terner cütlüyü «input spaces» deyir) və qarışıq sahəni («blended space») cəmləşdirir.

Bu sadalanların hamısı «mental sahə»ni təmsil edir. Onların (mental sahənin) da hamısı konseptual inteqrasiyaya aiddir.

Bəs onda konseptual inteqrasiyanın insanların bir-birini anlamasında, oxuduqları, eşitdikləri informasiyaların hərtərəfli başa düşülməsində rolu nədən ibarət ola bilər? Çünki bizim gündəlik həyatımız rəngarəng olduğu kimi, gün ərzində alınan informasiyalar da rəngarəngdir, müxtəlif janr xüsusiyyətləri var. Bədii mətnlərdə, elmi mətnlərdə, siyasi mətnlərdə, akademik-tədrisyönlü mətnlərdə biz informativ, estetik, didaktik səpkidə məlumatlarla qarşıla-

şırıqsa, məlumat-reklam xarakterli mətnlərdə isə biz bu sadaladıqlarımızın hamısı ilə praqmatik nöqteyi-nəzərdən rastlaşırıq. Yeni məna da məhz üç mental (əqli) əməliyyatın – təsəvvürün, inteqrasiyanın, oxşarlığın mürəkkəb bir işi birgə yerinə yetirməsi nəticəsində yaranır. Konseptual inteqrasiya proseslərinin öyrənilməsində çətinlik ondan ibarətdir ki, göstərilən proseslər bizim şüurumuzun sərhədlərini aşır.

Bu qısa bir məlumatdan göründüyü kimi, konseptual inteqrasiya məsələsinin mətnin başa düşülməsində, anlanılmasında oynadığı rol əvəzedilməzdir. Məhz bu əhəmiyyətinə görə qeyd olunan məsələyə zaman-zaman müraciət olunması da onun aktuallığını şərtləndirir.

Məlumdur ki, oxuyub anlama, yazıb anlama, eşidib anlama tədris prosesində də mühüm rol oynayır. Bu proseslərin hamısı elə əqli proseslərdir ki, bu zaman hərəkəti icra edənlə (oxuyan, yazan, dinləyən) mətnlər arasında interaktiv fəaliyyət yaranır. Mətni o zaman tam başa düşürük ki, bizdə müxtəlif bacarıqlar (vərdişlər) – mətndə gəzişmək, informasiyanı lokallaşdırmaq, mətnin ruhunu hiss etmək, hadisələri uzlaşdırmaq olmalıdır. Belə keyfiyyətləri olmayan oxucu, dinləyici mətnin ancaq səthi başa düşülməsindən başqa heç nə əldə edə bilməyəcək.

Kommunikasiya prosesində iştirak etməklə biz gah danışılanı başa düşürük, gah da özümüz mətni-söyləmi yaradırıq. Birinci aktda bizim ən əsas məqsədimiz dildə ifadə olunan fikirlərin başa düşülməsidir. Dil fikri təcəssüm etdirmə vasitəsidir. Ancaq dilin kodlaşdırılması zamanı istifadə olunan bilik yalnız dil haqqında olan biliklərimizlə məhdudlaşmır. Dünya haqqında olan biliklərimizlə yanaşı mətnin sosial konteksti, yaddaşda olan informasiyanın bildirilməsi bacarığı, diskursu planlaşdırmaq və idarə etmək və digər cəhətlər da burada mühüm rol oynayır. Bu zaman mövcud bilik formalarının heç biri o birindən anlama prosesində daha çox əhəmiyyət kəsb etmir. Onlardan heç birinə açiq-aşkar üstünlük verilmir. Yalnız qarşılıqlı əlaqə vasitələrının öyrənilməsı, bütün biliklərin səfərbər olunması dil kommunikasıyasının mahiyyətini başa düşməyə kömək edir və gündəlik həyatda işlənən dil təcrübəsi ilə həyata keçirilən semantik nəticələrin təbiətının aydınlaşdırılmasını şərtləndirir.

Dil ünsiyyəti zamanı biliyin öyrənilməsi koqnitiv elmin əsas istiqamətlərindən biri kimi tədqiq olunur. 70-ci illərin ortalarından başlayaraq "koqnitiv elm" insanın informasiyanı toplaması, ondan istifadə etməsi və mənimsəməsi prosesləri kimi işlənməyə başlanmışdı. Təsadüfi deyil ki, psixologiyanın əsas məsələlərindən biri koqnitiv psixologiyada öz həllini belə tapdı: insanın davranışı onun biliyi ilə müəyyənləşdirilir. Bilik burada süni intellekt sistemində də həlledici rol oynayır. Burada intellekt anlayışının özü tez-tez lazımı biliyi "yeri gələndə işlətmək" qabiliyyəti ilə bağlıdır.

Süni intellektə dair bir çox tədqiqatlarda dilin ümumi nəzəriyyəsinin əsas məqsədi təbii dil mexanizminin, onun başa düşülməsi mexanizminin izahı hesab olunur. Heç şübhəsiz ki, bu cür modelin əsasını müxtəlif bìlìk növlərinin qarşılıqlı əlaqəsi təşkil edir, artıq dilçilik dilin ümumi modelinin hazırlanmasında "tək hakimiyyətliyə" malik deyil. Belə bir ümumi dil modelinin işlənib hazırlanması ancaq bütün koqnitiv elmlər çərçivəsində həll oluna bilər.

Koqnitiv dil aspektlərinin tədqiqinə həsr olunmuş müxtəlif səviyyəli araşdırmaların olmasına baxmayaraq, həllini gözləyən çoxlu məsələlər hələ açıq qalır. Bununla belə son illərin tədqiqatlarında iki əsas problem daha çox müzakirə olunur.

1. Müxtəlif növ biliklərin verilməsi strukturu.

2. Anlama prosesində biliyin konseptual təşkili vasitələri və dil məlumatının qurulması.

Dil kommunikasiyası zamanı müəyyən biliyin verilməsi çox mürəkkəb və mübahisəlı məsələdir. Eksplisit formada ifadə olunmuş bilik ancaq ümumi bilik bazasının bir hissəsidir. Bu bilik bazasında informasiyanın saxlanılması donuq deyildir, əksinə bu öz-özünü yaradan və özözünü tənzim edən elə bir sistemdir ki, yeni məlumatlar əsasinda daim hərəkət edir, dəyişir.

Bilik bazasinin əsasini ən azi aşağidaki komponentlər təşkil edir:

1) Dil haqqinda biliklər; a) qrammatika (fonetika və fonologiya ilə birlikdə), (Leksik semantika ilə tamamlanan); b) dilin işlənməsi qaydalarí haqqinda bilik; v) nitq mübadiləsi prinsipləri haqqında bilik.

2) Dil xarici biliklər: a) kontekst və situasiya, adresat haqqında biliklər (adresatin qarşıya qoyduğu məqsəd və planlar, danışan haqqında, şərait haqqında onun təsəvvürü; b) ümumi fonda məlumat (dünya haqqında), hadisələr, vəziyyətlər, hərəkətlər və proseslər haqqında biliklər.

Biliklərin əsasını təşkil edən məsələlər kifayət dərəcədə tədqiq olunub. Çətinlik əsasən mövcud biliklərin verilməsinin uyğun strukturunu aydınlaşdırmaqda meydana çıxır. Məsələn, praqmatık informasıyanın verilməsi üçün nəzərdə tutulan struktur sintaktik informasiyanın verilməsində istifadə olunan strukturdan nə ilə seçilir? Daha doğrusu, sintaktik təqdim olunmanın xüsusi səviyyəsi varmı? Dili anlama prosesində insan hansi təsəvvürlərə əsaslanır?

Bu həllini gözləyən siyahini uzatmaq da olar. On illərdir ki, koqnitiv təlim nəzəriyyəsində ən vacib nəticələrdən biri insan yaddaşında baş verən proseslərin ayrılmaz qarşılıqlı əlaqəsi, həmçinin dil məlumatlarının qurulması və başa düşülməsinin aydınlaşdırılması ideyası olmuşdur. Doğrudan da hər hansı bir yeni situasiyanın anlaşılması hər şeydən əvvəl yaddaşda ona yaxın, bir az oxşar olan situasiyanı tapmağa gətirib çıxarır. Biz yeni məlumatları təhlil etmək, qavramaq üçün artıq yaddaşımızda əvvəllər toplanmış təcrübəyə müraciət etməlı oluruq. Bu axtarış ona əsaslanır ki, yeni məlumatın təhlili və qavranılması strukturu yaddaşın təşkili üçün istifadə olunan strukturla oxşar olur.

Keçmiş təcrübənin yadda saxlamada və məlumatımızın anlaşılmasında əsas əhəmiyyəti barədə hələ keçən əsrin 30-cu illərində ilk dəfə F.Bartlet tərəfindən tədqiqat aparılmışdir. O, mətnlərin başa düşülməsi xüsusiyyətlərini öyrənərkən belə qənaətə gəlir ki, yaddaş heç vaxt həqiqi xarakterə malik olmur. Mətnlərin yenidən yaranması, təsəvvürə gətirilməsi zamanı yaddaşda sosial mühitdən asılı olaraq tez-tez onun (mətnin) forması dəyişir. O, məlumatın yaddaşda məqsədəuyğun saxlanması üçün "sxem" anlayışından istifadə edirdi. Bu "sxem" adı altında o, keçmiş təcrübənin fəal təşkilini başa düşürdü.

Yüksək səviyyəli semantik məlumatların təsəvvürə gətirilməsi üçün strukturlardan biri və ən sadəsi ssenarilər hesab olunur. (1, s.231). Ssenari zaman etibarilə stereotip hadisələrin qaydaya salınmasını, nizama düzülməsini təsvir edən zaman və səbəb-nəticə əlaqəli aşağı səviyyəli anlayışların yığımı, toplusudur.

Süni təfəkkür nəzəriyyəsindən fərqli olaraq dilçilikdə "ssenari" anlayışı deyil, daha çox "freym" anlayışı işlədilir. Ç.Fillmor freymlər nəzəriyyəsinin hərtərəfli səciyyəsini vermiş, anlamanın semantikası ilə həqiqətin semantikasını müqayisə etmışdir.

Freymlərlə, sxemlərlə, ssenarilərlə, planlarla və s. adlandırılan biliklər strukturunun özü məlumat paketi-toplusu deməkdir.

Bu məlumat toplusu yaddaşda olur, yaxud yaddaşımızda artıq mövcud olan komponentlərdən lazım gəldikdə yaradılır. Məhz bu məlumat toplusu standart situasiyaların uyğun koqnitiv-təfəkkür formasına düşməsini təmin edir. (7, s.121)

Bu strukturlar təbii dilin fəaliyyət göstərməsində həlledici rol oynayır. Onların vasitəsilə mətnlərin istər mikro, istərsə də makro səviyyədə əlaqəliliyi müəyyən edilir, lazımı nəticəyə gəlmək təmin olunur; onların fəallaşdırılması yollari aydınlaşdirilir (məs. artikl olan dillərdə müəyyənliyin - qeyri-müəyyənliyin verilməsinin bəzi xüsusiyyətləri). Nəhayət, onlar quruluşca oxşar olan keçmiş hadisələrin əsasinda gələcək hadisələrin proqnozlaşdırılmasına imkan verən kontekstin vacibliyini şərtləndirir.

Praqmatik biliklərin verilməsi üçün nəzərdə tutulan strukturlara ən yaxşı mısal "strategiyalar" hesab olunur. Məşhur holland dilçisi T van Deykin B.Kinçlə birlikdə yazdığı "Əlaqəli mətnin başa düşülməsi strategiyası" (10) adlı kitabda bu məsələnin təhlili çox gözəl verilir. Müəlliflər əlaqəli mətnin başa düşülməsinin dinamik aspektinə xüsusi diqqət yetirərək yazırlar ki, anlama prosesi strateji təbiətə malikdir. Mətnlərin anlanmasında istifadə olunan strategiyalar əksər hallarda əvvəldən proqramlaşdırılmır, onlar dil daşıyıcılarının şüurlu nəzarətindən kənarda qalırlar. Onlar eyni zamanda tez dəyişən və koqnitiv strukturlardan (bilik, plan, göstəriş, məqsəd) asılı olurlar. Strategiyaların hərəkəti fərziyəyə əsaslanan və ağlagələn səciy-

yəlidir. Onların köməyi ilə tez və ən çox ehtimal olunan strukturlar, həmçinin verilən məlumatın qəbul olunma əhəmiyyəti aşkar edilir. Strategiyalar həmçinin eyni zamanda mövcud olan bir neçə səviyyədə hərəkətlə səciyyələnir, yarımçıq məlumatlardan istifadəyə və onları induktiv və deduktiv təhlil vasitələri ilə birləşdirməyə qabildir.

Müəlliflər qeyd edirlər ki, strategiyaların bir hissəsi dilçilik xüsusiyyətlərinə malikdir. Bura mətnlərin semantik təhlili zamanı mətnlərin səthi quruluşuna aid olan strategiyalar daxildir. Digərləri əsasən koqnitiv strategiyalara aiddir. Onların hərəkəti üçün həlledici əhəmiyyəti obyektiv varlıq haqqında olan biliklər, situasiya və digər koqnitiv informasiyalar oynayır. (10, s.92)

Burada təlimin tam əksi olan başqa bir nöqteyi-nəzəri də qeyd etmək yerinə düşərdi. Onun tərəfdarları hesab edirlər ki, dilin təhlili problemlərinin həllində bilik heç də əsas rol oynamır. Bir halda ki, təhlil prosesi konkret şəxslər tərəfindən edilir, onda bu dilçilərin fikrincə stereotipləşdirməyə və konseptual modelləşdirməyə uğramayan xüsusiyyətlər həlledici əhəmiyyət kəsb edir. Burada dünyabaxışının, örtülü (gızlı) dəlillərin, emosional vəziyyətlərin, tələbatların məqsədyönlülüyü, yaranması və təmin edilməsi başa düşülür.

Ümumilikdə biliyin təşkili problemləri və onların verilməsi vasitələri təbii dilin təhlilinin daha geniş çərçivəsi daxilində bir-biri ilə çox sıx surətdə bağlıdır. Əgər biliyin təqdim olunma metodları son iki on illikdə süni təfəkkür problemlərinə həsr olunmuş əsərlərdə mütəmadi olaraq inkişaf etdirilibsə, biliyin təşkili məsələləri yalnız son illərdə diqqət mərkəzində olmuşdur.

Keçən əsrin 80-ci illərində biliyin konseptual təşkilinin öyrənilməsinə həsr olunmuş bir neçə konstruktiv ideyalar formalaşmışdı. Buraya R.Şenk və onun tərəfdarlarının dilin təhlilinin inteqral xarakteri haqqında irəli sürdüyü fərziyyələr aiddir (9). Onların fikrincə dil məlumatlarının verilməsi vahid - bütöv bir prosesdir və paralel olaraq dilin bütün səviyyələrində - sintaktik, semantik və praqmatik - baş verir. Semantik şərhin verilməsi heç də mütləq sintaktik analizdən sonra tələb olunmur. O, sintaktik struktur haqqında artıq məlum olan informasiyalar əsasında da tez başlana bilər, sintaktik təhlil zamanı isə həm semantik, həm də praqmatik informasiyalardan istifadə oluna bilər.

Dil səviyyələrinin hər hansı birində alınmış təhlilin nəticələri, digər bütün səviyyələr üçün yararlıdır. Səviyyələrarasi əlaqələrin iki mümkün forması var. Birinci halda qarşılıqlı əlaqə ierarxik surətdə təşkil olunur. (Qarışıq olmayan səviyyələr aralıq səviyyələr vasitəsi ilə qarşılıqlı əlaqə saxlayırlar). İkinci halda səviyyələr arasında "çarpaz kommunikasiya" baş verir. Bu zaman hər səviyyə digər bütün səviyyələrlə qarşılıqlı surətdə birbaşa əlaqədə ola bilər (1, s.94).

Dilin inteqral təhlili haqqında olan ideyaların əsasında biliyin verilməsinin vahid səviyyəsinin olması barədə daha geniş ideya durur. Bu ideyanın əsasında dilin, hissi və hərəki informasiyaların birləşə bilməsi durur.

Konqret nitq aktları zamanı danışan və dinləyənin ixtiyarında olan bütün bilik və təsəvvürlərin cəmindən istifadə olunur desək, səhv etmiş olardıq. Ona görə elə bir konseptual vasitənin işlənib hazırlanması lazımdır ki, o, mətnlərin şərhində mövcud amillərin çoxluğu ilə kifayətlənsin. Bununla əlaqədar dilçilik ədəbiyyatında "fokus" və "relevant" kimi anlayışların adı tez-tez çəkilir.

M.Minskiy biliyin konseptual problemlərindən danışarkən "koqnitiv senzorlar" sistemini tətbiq etməyi təklif edir. Bu sistem nitq davranışının müəyyən formalarını qadağan edir. (8, 351)

Məşhur dilçi C. Lakoffun tədqiqatları bu sahədə daha geniş problemləri əhatə edir. Müasir dövrdə biliyin təqdimi və təşkili problemləri ilə səsləşən daha perspektiv bir istiqamət "semantik üsul" geniş yayılıb. Dinamik əhatə haqqında biliyin verilməsi burada, qaydalar yığımı formasında deyil, prosedur formasındadır. (4, s.128) Bu cür tədqiqat daha çox ekspert sistemlərinin yaranması üçün daha məqsədəuyğun hesab olunur. Burada həmçinin, F. Conson-Lerdin göstərdiyi kimi, prosedur formada biliyin təşkili vasitələri də fərqlənir. (4, s.215)

Dilə koqnitiv cəhətdən yanaşma dinamik inkişaf edən elə bir cərəyandır ki, əldə olunmuş nəticələr tez bir zamanda təzələnir. Dilin tədqiqi zamanı əldə olunan uğurlu tapıntılar heç şübhəsiz ki, hesablama sistemləri nəzəriyyəsi və praktikasında, maşın tərcüməsində, axtarış-informasiya sistemlərində böyük əhəmiyyət kəsb edəcək. Ancaq yaddan çıxarmaq lazım deyil ki, dilin koqnitiv aspektlərinin tədqiqi yalnız tətbiqi vəzifələrin effektli həllinə, həmçinin bizim dil kommunikasiyasının sirli mexanizmləri haqqında təsəvvürlərimizi dərinləşdirəcək. Bizi isə yüz illiklər ərzində həmişə narahat edən problemlər düşündürür. Necə etmək lazımdır ki, biz bir-birimizi daha yaxşı başa düşək? Dil bizim hiss və fikirlərimizi nə dərəcədə dəqiq və tam ifadə edir? Göründüyü kimi, biz yenə də bu və ya buna yaxın problemlərin tam həllindən hələ çox uzaqdayıq.

Qəribə bir atalar sözü var: Çox bilən çox çəkər! Görəsən, niyə çox bilən çox çəkməlidir? Hörmətli yazıçımız Anar bunu Cəlil Məmmədquluzadənin həyatından bəhs edən "Anlamaq dərdi" əsərində məharətlə açıb göstərib. Qələmi, işıqlı fikirləri, gözəl bədii və publisist əsərləri ilə xalqına uzun illər boyu xidmət göstərən Mirzə Cəlilin başı olmazın müsibətlər çəkdi! Bu, o dövrdə, sovetlər quruluşunda yaşanmışdı. İndi isə hərdən "anlamazlıq dərdi" baş alıb gedir, əsəbilik, qanqaralığı gətirir. Nədədir bunun sirri! Niyə anlamırıq bir-birimizi, niyə anlaşılmırıq, ya da anlamaq istəmirik bir-birimizi? Bu niyələr nə zaman azalacaq? (2)

Q.Q. Markes "Anlatmaq üçün yaşamaq" romanının epiqrafında təqribən belə bir fikir səsləndirir ki, əslində, həyat insanın necə yaşadığı deyil, onu necə xatırladığı, həm də başqalarına anlatmaq məharətidir. Tənhalıq, yalqızlıq, mühacirət halları bütün zamanlarda, bütün ölkələrdə burdan qaynaqlanır. Dünyanın başlıca problemi düşüncə köçüdür, müasir dillə desək, beyin axınıdır. Aparıcı ölkələr bu mənada cəlbedici görünür və ağıllı şəkildə qucaq açır.

Ədəbiyyat

1. Abdullayev Ə.Ə. Mətni anlama modelləri. Kommunikativ-koqnitiv təhlil, Bakı, Səda,1998
2. Ziyalılar kütləvi istehsala aid deyillər // "Reytinq" qəzeti, 2 oktyabr, 1999 (müsahibə götürdü: Sevinc Telmanqızı).
3. Кубрякова Е. С. Язык и знание. На пути получения знания о языке: части речи с когнитивной точки зрения. Роль языка в познании мира. М., 2004.
4. Лакофф Дж., Джонсон М. Метафоры, которыми мы живем; пер. с англ.; под ред. и с предисл. А. Н. Баранова. М., 2004.
5. Fauconnier G., Turner M. The way we think: Conceptual Blending and the Mind's Hidden Complexities. N. Y., 2002.
6. Bartlett, F. C. Remembering: A study in experimental and social psychology. Cambridge, UK: Cambridge University Press. 1932
7. Fillmore, Charles. "Frame semantics". In Linguistics in the Morning Calm. Seoul, Hanshin Publishing Co., 1982, 111-137.
8. Minsky, Marvin... Nicola Lacey & M. Lee - A Framework for Representing Knowledge · 2003 - Minds and Machines 13 (3):339-365.
9. Schank, Roger; Abelson, Robert P. Scripts, plans, goals and understanding: An inquiry into human knowledge structures. New Jersey: Erlbaum. 1977
10. Teun van Dijk and Walter Kintsch. Strategies of Discourse Comprehension. New York: Academic Press, 1983.

A.A.Абдуллаев

Концептуальная интеграция и понимание

Резюме

В данной статье дается оценка, а также анализ перспективных и текущих исследований концептуальной интеграции и понимания смысла в нашей жизни, а также роли фреймов, знаний и искусственного интеллекта. Анализируются исследования таких когнитивных

лингвистов, как Филлмор, Минский, Ван Дейк, Бартлетт, Лакофф и многих других. Эта статья обнаруживает, что проблема концептуальной интеграции и понимания все еще остается предметом обсуждения и нуждается в дальнейшем изучении когнитивной лингвистики.

A.A.Abdullayev

Conceptual integration and understanding

Summary

This article provides an evaluation, as well as analysis of prospective and current researches conceptual integration and understanding of meaning in our life, as well as the role of frames, knowledge and artificial intellect. The researches of such cognitive linguists as Fillmore, Minsky, van Dijk, Bartlett, Lakoff and many others are analized. This article finds that the problem of conceptual integration and understanding is still open to discussion and needs further studies in cognitive linguistics.

Rəyçi: filol.e.d., prof. T.H.Cəfərov

Redaksiyaya daxil olub: 14.10.2019

K.Q.ALLAHYAROVA
e-mail: konulallahyarova@yahoo.com

Azərbaycan Dövlət Pedaqoji Universiteti (Şəki filialı)
(Şəki şəh., M.Rəsulzadə küç., 305)

EKSTRALİNQVİSTİK AMİLLƏR VƏ FONOSTİLİSTİKA

Açar sözlər: *dialoq, monoloq, nitq, üslub, spontan, rəsmi, qeyri-rəsmi, nitqin hazırlılığı*
Ключевые слова: *диалог, монолог, речь, стиль, стихийная, формальная, неформальная, готовность речи*
Key words: *dialogue, monologue, speech, style, spontaneous, formal, informal, speech preparedness*

20-ci əsrin birinci yarısında dilçilər dilin yazılı formasına maraq göstərirdilər və yalnız son 40 ildə vəziyyət dəyişdi. Səs yazanların ixtirası ilə dilçilər danışıq nitqini öyrənmək üçün yaxşı bir fürsət əldə etdilər. Lakin mexaniki yardımların olmaması danışıq nitqinin nəzərə alınmamasının yeganə səbəbi deyil. Fakt budur ki, son vaxtlara qədər dil haqqında nəzəriyyə və tədqiqat yalnız dilin həyata keçirilməsinin yazılı forması etibarlı bir araşdırma obyektinə xidmət edə biləcəyi fərziyyəsinə əsaslanır. Lakin dilçilər istifadə olunan dilin araşdırılması ilə məşğul olduqda, dilin cəmiyyətin bir hissəsi olduğunu başa düşdülər. Gerçək həyatda insanlar müxtəlif vəziyyətlərdə olurlar və müəyyən vəziyyətlərin ehtiyaclarına uyğun olan linqvistik elementləri seçməlidirlər. Bu fakt dilə olan bütün yanaşmanı dəyişdirdi. Dilçilər dili ünsiyyət vasitəsi kimi öyrənməyə başladılar. Etiraf etdilər ki, yalnız bir kommunikativ vəziyyət kontekstində bir dil sisteminin vacib xüsusiyyətlərini aşkar və təhlil etmək mümkündür. İnsanların istifadə etdikləri nitq müxtəlif vəziyyətlərdən asılıdır. Bir tərəfdən, müxtəlif vəziyyətlərdə dilin fərqliliyi çoxdur, digər tərəfdən, dil vasitələrindən məqsədyönlü istifadə vacibdir. Bu seçim və birləşmə yolları "üslub"u formalaşdırır. Funksional üslub problemləri ilə əlaqəli olan dilçilik sahəsinə funksional üslubiyyat deyilir. Stilistika dilçiliyin bu kimi elementləri ilə deyil, onların ifadəlilik potensialı ilə əlaqəli spesifik bir qolu kimi qəbul edilir. Funksional üslubların təsnifatını hazırlamaq üçün çoxsaylı cəhdlərə baxmayaraq, bu, hələ də açıq məsələdir. Alimlərin qəbul etdiyi universal təsnifat yoxdur. Elmi üslub, publisistik üslub, iş üslubu, ədəbi (belles-lettres) üslub və danışıq üslubunu fərqləndirən müxtəlif funksional üslublar mövcuddur. Bu üslubların dillərdəki dəyişiklikləri üç səviyyədə öyrənmək olar: fonetik, leksik və qrammatik. Məhz birinci səviyyə fonostilistika sahəsidir. Beləliklə, fonostilistika fonetik vasitələrin bu və ya digər vəziyyətdə istifadə edilməsini araşdırır. (5, s.29) Fonostilistikanın məqsədi müəyyən növ kontekstdə məhdudlaşan həm seqmental, həm də supraseqmental fonetik xüsusiyyətlərin müəyyənləşdirilməsi məqsədi ilə bütün mümkün danışıq növlərini təhlil etmək, bu xüsusiyyətlərin niyə istifadə olunduğunu izah etmək və onların funksiyasına görə təsnif etməkdir.

Şifahi nitqin fonostilistik fərqləndirilməsinə sistemli bir nəzər salmaq üçün kommunikativ ekstralinqvistik vəziyyətin nizamlı təhlili məcburi görünür. Təhlil göstərir ki, kommunikativ ekstralinqvistik vəziyyət üç komponent tərəfindən təyin edilə bilər, yəni, a) məqsəd b) iştirakçılar və c) yer. Bu komponentlər ekstralinqvistik vəziyyəti ünsiyyətin daxil olduğu kontekst daxilində ayırır. Beləliklə, bir nitq müəyyən bir şəkildə bir-biri ilə əlaqəli 2 və ya daha çox həmsöhbətin ortaq şəkildə iştirakı, ünsiyyətin müəyyən bir mövzuda və müəyyən bir yerdə baş tutması ilə müəyyən edilə bilər.

Əvvəlcə bir vəziyyət ünsiyyətin məqsədi və mövzusu ilə əlaqəlidir. Məqsəd, iştirakçıların fəaliyyətini istiqamətləndirir. Bu cür məqsədlərə ümumi fəaliyyət növlərini (iş, tədris, iclas keçirmək, oyun oynamaq, söhbət etmək və s.) və fəaliyyət növü + spesifik mövzu baxımından nəzərdən keçirmək olar.

Vəziyyətin digər bir hissəsi iştirakçılardır. Nitq ondan istifadə edən şəxslərə görə dəyişir. O, dildən istifadə edən individual şəxslərin müxtəlif xüsusiyyətlərini, eləcə də iştirakçılar arasındakı münasibətləri göstərən bir işarədir. Bundan əlavə, iştirakçıların yaşı da sosial qarşılıqlı əlaqə üçün vacib bir kateqoriyadır. Bir insanın nitq davranışı yalnız yaşı haqqında deyil, həm də şifahi mesajı qəbul edən şəxs haqqında məlumat verir. Beləliklə, yaşlı insanlar gənclərdən fərqli şəkildə danışırlar. Məsələn, yaşlı bir insan ümumiyyətlə yüksək səslə danışır (tanınmış filmdəki xanım Marple kimi); insanlar daha kiçik uşaqlarla danışarkən daha yüksək səviyyəli səs tonundan istifadə edirlər. Digər bir amil danışanın cinsidir. Söz tələffüzündəki cins fərqləri qrammatika fərqlərindən qat-qat çoxdur. Məsələn, qadınların daha çox standart tələffüz etmələri üçün ardıcıl bir meyil var. Sonu "ing" sonluğu ilə bitən sözləri qadınlar (reading, speaking) şəklində kişilər isə daha çox (readin, speakin) şəklində tələffüz edirlər. Natiq çıxışı anında spikerin emosional vəziyyəti fonetiklər üçün də böyük maraq doğurur, lakin problem öz tədqiqatçısını gözləyir.

Sonuncu komponent yer və ya səhnədir (2, s.20). Bu komponent bir neçə xüsusiyyət ilə müəyyən edilir. Onların çoxu iştirakçıların fiziki yerləşməsidir. Mühazirə zamanı məruzəçi auditoriyadan bir qədər məsafədə dayanır və fərdi söhbətdə isə üz-üzə yerləşirlər.

Dil istifadəsində dəyişkənliyi müəyyən edən əsas amillər çoxdur, lakin maraq fonetik vasitələrin dəyişməsinə yönəlmişdir. Bir qrup rus alimləri (Соколова Марина Алексеевна, Тихонова Раиса Михайловна və başqaları) fonostilistikaya aid olan aşağıdakı amilləri ayırırlar: 1) nitqin məqsədi; 2) ünsiyyət forması; 3) rəsmiyyət dərəcəsi; 4) spontanlıq dərəcəsi (2, s.19) Faktorların hər birini nəzərdən keçirməzdən əvvəl qeyd etmək lazımdır ki, nitqin məqsədi fonetik üslubu yaradan amil adlandırıla bilər. Digər amillər bu və ya digər üslubda dəyişikliklərə səbəb olur və buna görə də stil dəyişdirən amillərdir. Diqqət yetirilməli daha bir şey var. Bütün bu amillər qarşılıqlı və bir-birinə bağlıdır.

Nitqin məqsədi və mövzu. Daha əvvəl qeyd etdiyimiz kimi, mövzu leksik maddələri müəyyənləşdirir və sözün məqsədi tələffüzə təsir göstərir. Beləliklə, məqsəd spikerin strategiyasıdır və üslub yaradan amil adlandırıla bilər. Fonetik səviyyədə vəziyyətin hansı dildə istifadə olunduğunu izah etməklə bağlı dəyişikliklər var: natiq inandırmağa çalışırmı, tərbiyə edirmi, Öyrədirmi, Reklam edirmi? və s. Yuxarıda göstərilən variantların hər biri natiqin məqsədin reallaşmasını daha təsirli etmək üçün funksional fonetik vasitələr seçməsinə imkan verir.

Ünsiyyət forması. Burada 2 mümkün çeşid var: monoloq və dialoq. (2, s.19) Monoloji nitq bir şəxsin təkbaşına, dialoji nitq isə iki şəxs arasında olan nitq formasıdır. Hər şeydən əvvəl dialoji nitq bilavasitə reaksiya tələb edən nitqdir. Belə ki, dialoji nitq zamanı həmsöhbət deyilənlərə öz münasibətini bildirir: ya sual verir, ya təsdiq edir, ya inkar edir. Dialoji nitqin bu cəhəti danışanan öz fikrini ifadə etmək istiqamətinə təsir göstərir, onu müəyyən səmtə yönəldir. Hər iki növün hər ikisinin fonetik təşkili oxşar ola bilməz, çünki hər üç növün dil vasitələrindən xüsusi istifadə ilə xarakterizə olunur. Psixolinqvistik baxımdan monoloqlar daha mürəkkəb vahidlərdir.

Stilistik vasitələrin istifadəsini müəyyən edən sosial amillər arasında nitqin formallıq dərəcəsi də var. Nitq rəsmi və ya qeyri-rəsmi, ictimai və ya qeyri-ictimai ola bilər. Formallıq spikerin dinləyici ilə necə qarşılıqlı əlaqəsini əks etdirir. Müəyyən bir şəxs cəmiyyətdə müəyyən bir rütbəyə sahib ola bilər ki, ona tabe olanlar tərəfindən müəyyən bir şəkildə müraciət edilsin. Bir dil istifadəçisinin fərqli üslublarda danışma qabiliyyətinə sahib olduğunu göstərir. Bu amilin nitqin fonetik formasına təsiri artikulyasiya sürətinin dəyişməsi ilə ortaya çıxır. Rəsmi vəziyyətdə məruzəçi nitqini fərqli və hərtərəfli etməyə çalışır. Qeyri-rəsmi vəziyyətdə danışan daha az açıq və daha sürətli bir forma istifadə edir.

Nitqin hazırlıq dərəcəsi. Fonetiklər bu amilin şifahi mətnin fonetik quruluşuna həlledici təsir göstərdiyini qəbul edirlər. Burada əsas fərq nitq fəaliyyətinin iki növü arasındakı fərqdir: danışma və oxu (yazılı mətn olmadan və danışmadan). Psixolinqvistik baxımdan danışmaq və oxumaq iki fərqli psixi prosesdir; onlar tamamilə fərqli yollarla əmələ gəlir. Oxuyar-

kən oxucu yazılı mətndəki fikirləri yetərincə ifadə etmək üçün dilin fonetik vasitələrindən istifadə etməlidir; çünki nə deyiləcəyini düşünmək lazım deyil. Nəticədə, fonetik vasitələrin istifadəsi çox yüksək dərəcədə müntəzəmliyi ilə xarakterizə olunur. Mətnin melodik, müvəqqəti, ritmik təşkili bərabərdir; fasilələr sintaktik nöqtələrdə edilir; mətn yüksək və fərqli səslənir. Spontan nitq baş verdikdə (qeydlər istifadə edilmədikdə), psixi mexanizm tamamilə fərqlidir. Nəticə etibarilə fonetik vasitələr də fərqli şəkildə istifadə olunur. Tərəddüd kortəbii nitqə xasdır (danışan düzgün bir söz seçməyi dayandırır və ya düzgün qrammatik quruluşa malikdir). Söz tələffüz ilə eyni vaxtda baş verir. Mikro fasilələr, müxtəlif uzunluqlu fasilələr, sözlər daxilində və sözün son vəziyyətində səslərin uzanması görünür. Kortəbii bir mətn həm seqmental, həm də yuxarı səviyyələrdə bir sıra xüsusiyyətlərlə xarakterizə olunur: assimilyasiya, azalma, elision; qeyri-bərabər ritm, fasilələrin bolluğu, fərqli yüksək səs və temp. Beləliklə, kortəbii bir mətnin əsas fonetik işarələri var. Hər hansı bir təsnifat verməzdən əvvəl, üslubu fərqləndirən xüsusiyyətləri, yəni şifahi mətnin hansı qavrayış xüsusiyyətlərini nəzərə almaq lazımdır.

Fonetik üslubların təsnifatı problemləri. Fonetik üslubların məşhur təsnifatları arasında bunları qeyd edərdik: S.M. Gaiduchic 5 fonetik üslubu fərqləndirir:

1) təntənəli; 2) elmi; 3) rəsmi; 4) gündəlik; 5) tanış.

Üslublar diskurs sahələri əsasında fərqləndirilir. J.A. Dubovski aşağıdakı 5 üslubu ayırd edir: 1) qeyri-rəsmi adi; 2) rəsmi neytral; 3) rəsmi rəsmi; 4) qeyri-rəsmi tanış; 5) deklamasiya.

Bu bölgü natiq və dinləyici arasındakı müxtəlif formalı formalara əsaslanır. M.A. Sokolova və başqaları aşağıdakı üslubları qeyd edirlər:

1. İnformasiya; 2. Akademik (elmi); 3. Publisistik (şifahi); 4. Dekorativ (bədii); 5. Danışıq (tanış). Bu təsnifat ünsiyyət məqsədinə əsaslanır.

Sonda deyək ki, çox az istisna olmaqla hər hansı bir üslub nadir hallarda təmiz formada həyata keçirilir. Hər mətndə müxtəlif üslubların fonetik xüsusiyyətlərinin olması ehtimal olunur. Belə hallar üslubların üst-üstə düşməsidir (birləşməsidir).

Nəticə. Nitq ünsiyyət prosesidir və bu proses özünəməxsus şəkildə reallaşır. Nitq insanlara məxsus ümumi mədəniyyətin ən vacib və aparıcı tərkib hissələrindən biridir. Fonostilistikanın məqsədi isə müəyyən növ kontekstdə məhdudlaşan həm seqmental, həm də supraseqmental fonetik xüsusiyyətlərin müəyyənləşdirilməsi, bu xüsusiyyətlərin niyə istifadə olunduğunu izah edilməsi və onların funksiyasına görə təsnif edilməsidir.

Ədəbiyyat

1. Abdullayev N.Ə. Nitq mədəniyyətinin əsasları. Dərs vəsaiti. Bakı, 2013

2. T.T.Vrabel Lectures in theoretical phonetics of the English language and method guides for seminars, Poli Print, 2009, 176

3. Vassilyev V.A. English Phonetics: A theoretical course. – Moscow: Higher School Publishing House, 1970. 324

4. Verdonk P. Stylistics. Oxford University Press, 2002. 124

5. Zukovska V.V. English stylistics: fundamentals of theory and practice, Jitomir, 2010, 240

К.Г.Аллахярова

Экстралингвистические принципы и фоностилистика

Резюме

Речь - это процесс общения, и этот процесс уникален. Речь является одним из важнейших и ведущих компонентов общей культуры людей. Цель фоностилистики состоит в том, чтобы идентифицировать как сегментарные, так и супрасегальные фонетические функции, которые ограничены в конкретном контексте, объяснить, почему эти функции используются, и классифицировать их в соответствии с их функциями.

K.G.Allahyarova

Extralinguistic principles and phonostylistics

Summary

Speech is a communication process, and this process is unique. Speech is one of the most important and leading components of the general culture of people. The purpose of phonostilistics is to identify both segmental and suprasegal phonetic features that are limited in a particular context, to explain why these features are used, and to classify them according to their function.

Rəyçilər: filol.f.d., dos. U.B.Mürşüdova,
ADPU-nun Şəki filialının Dillər kafedrası
(13.09.2019-cu il tarixli iclasın qərarı (pr. №01)).

Redaksiyaya daxil olub: 04.10.2019

A.B.AMANƏLİYEVA
e-mail: amaneliyeva@mail.ru

AMEA-nın Nəsimi adına Dilçilik İnstitutu
(Bakı şəh., H.Cavid pr., 115)

DİLÇİLİKDƏ KƏMİYYƏT KATEQORİYASI ANLAYIŞININ MAHİYYƏTİ
(Azərbaycan və ingilis dillərinin materialları əsasında)

Açar sözlər: *qrammatika, qrammatik anlayış, qrammatik kateqoriyalar, kəmiyyət kateqoriyası, leksik, morfoloji, sintaktik, kəmiyyət məzmunlu say vahidləri, motivləşmiş saylar*

Ключевые слова: *грамматика, грамматическая концепция, грамматические категории, категория количества, лексический, морфологический, синтаксический, количественные единицы контента, мотивированные числа*

Key words: *grammar, grammatical concept, grammatical categories, category of quantity, lexical, morphological, syntactic, quantitative units of content, motivated numbers*

«Qrammatika» sözü yunanca «qramma», yəni «hərf» sözündən götürülmüşdür. Əvvəlcə «yazı» mənasında işlədilmiş, sonra isə dilin quruluşu haqqında elm kimi başa düşülmüşdür. «Qrammatika» termini ilk dəfə Şərq aləmində *Əflatun* adı ilə tanınmış *Platonun* (e.ə. 427-348-ci illər) əsərində işlənmişdir. O zaman bu termin fəlsəfə və ritorika mütəxəssisləri (o zaman bunlara «sofistlər» deyirdilər) tərəfindən oxumaq, yazmaq, savad mənasında işlədilmişdir. Qrammatika bir elm kimi qədim yunanlarda meydana gəlmiş və onun banisi Şərq aləmində *Ərəstun* kimi tanınmış *Aristotel* olmuşdur. Qrammatika elminin əsası təqribən 2.500 il bundan əvvəl qədim Yunanıstanda və Hindistanda qoyulub. *Qrammatik kateqoriyaların* tədqiqinə isə ilk dəfə qədim yunan alimləri başlamışlar. Qədimliyinə baxmayaraq, «Qrammatika» İsgəndəriyyə dilçilik məktəbi meydana çıxana qədər müstəqil fənn hesab olunmurdu. Aristotelin qrammatika ilə bağlı bir sıra fikirləri, o cümlədən müddəaları indi də əhəmiyyətini saxlayır (3, s. 46). Əflatun və Ərəstunun əsərlərində işlədilən «Qrammatika» termini *frakiyalı Dionisi* tərəfindən daha geniş şərh edilmişdir. Dionisi əsərində söz və cümlənin tərifini verir, nitq hissələrinin təsnifinə isimlərlə felləri fərqləndirməkdən başlayır. Dionisi «sözü cümlənin ən kiçik sintaktik ünsürü» adlandırmışdır. Cümləni isə belə şərh etmişdir: cümlə bitmiş fikri ifadə edən konstruksiyadır. Dionisi özündən əvvəlki tədqiqatçılara əsaslanmaqla 8 nitq hissəsi müəyyənləşdirmişdir: ad (isim), fel, sifət, artikl, əvəzlik, qoşma, zərf, bağlayıcı. Şərq, o cümlədən ərəb dilçiliyi tarixində Bəsrə və Kufə qrammatika məktəbləri də mühüm rol oynamışdır. Bəsrə və Kufə qrammatika məktəbləri arasında bir çox mübahisəli məsələlər mövcud olmuşdur (12; 13). Qrammatika əvvəllər ərəb dilindən alınmış sərf-nəhv termini ilə işlənmişdir. Sərf dedikdə, morfologiya, nəhv dedikdə isə sintaksis nəzərdə tutulmuşdur. Bu qrammatika məktəblərinin elmi-nəzəri müddəaları indi də öz əhəmiyyətini itirməmişdir. Qrammatika dilçiliyin bir çox şöbələrini ümumiləşdirir. Ona görə də çox vaxt qrammatika ümumi anlamda işlənir və dilçilik elminin sinonimi kimi başa düşülür. Qrammatikanın vəzifəsi ana dilində danışmaq qaydalarını öyrətməkdir. Qrammatika sözlərin dəyişməsi və onların cümlədə birləşməsi qaydalarının məcmusudur. Qrammatika bizə nitqimizi düzgün qurmaq, fikrimizi səlis və aydın ifadə edə bilmək, sözləri cümlədə necə dəyişdirmək və işlətmək, onları bir-biri ilə necə əlaqələndirmək, hansı ardıcıllıqla düzmək və s. qayda-qanunlarını öyrədir. Hər hansı bir fikri ifadə etmək üçün sözlər qrammatik qayda və qanunlara yiyələnməlidir. Belə olmasa insanlar bir-birini başa düşə bilməzlər. Ona görə də sənətindən və vəzifəsindən asılı olmayaraq qrammatik qayda-qanunlara riayət etmək hamının borcudur. Eyni zamanda hamının qrammmatikaya ehtiyacı vardır. Əgər dilin qrammatikası olmasa, onda sözlərin düzülüşü fikir ifadə etməyəcəkdir. Qrammatik qayda və qanunların köməyi ilə biz

sözləri dəyişdirərək bir-biri ilə elə əlaqələndiririk ki, bitmiş fikri ifadə edən cümlə yaranır. Konkret maddi-əşyavi mənasını nəzərə almadan sözlərin, söz birləşmələrinin və cümlələrin quruluşunu və dəyişmək qaydalarını öyrənən dilçilik bölməsi *qrammatika* adlanır (17, s. 65).

Hər bir dilin qrammatikasında özünəməxsus xarakterik ***qrammatik anlayış*** da vardır. Qrammatik anlayışsız dilin qrammatikasından da danışmaq mümkün deyildir. Qrammatik anlayışlar dilin qrammatikasına aid olan qayda-qanunlardan ibarətdir. Azərbaycan dilçiliyində qrammatik anlayış ifadəsi qrammatik məfhum kimi də adlandırılmışdır. Həm də qrammatik məfhumlar dedikdə, «dildə obyektiv olaraq mövcud olan qrammatik qaydalar sisteminin ümumiləşmiş şəkildəki inikası» başa düşülür. Qrammatik anlayış hər hansı bir dildə morfoloji və sintaktik cəhətdən ifadə oluna bilən müşayiətedici mənalardır. Qrammatik anlayışa *qrammatik məna, qrammatik kateqoriya, qrammatik forma, qrammatik üsul (ifadə vasitələri), qrammatik quruluş* daxildir (1, s. 96).

Dilçilikdə ***qrammatik kateqoriya*** anlayışı haqqında bir sıra alimlərin fikirləri vardır. Qrammatik kateqoriya dedikdə əşya və hadisələrin müəyyən qruplar üzrə toplanması haqqında anlayışlar nəzərdə tutulur. Başqa sözlə desək, qrammatik kateqoriya məna, bu mənanı ifadə edən vahidlərin və yekcins qrammatik mənaların məcmusudur. Ümumiyyətlə, qrammatik kateqoriya dilçilik vahidlərinin və ya onların bəzi qruplarının dildə öz qrammatik ifadəsini tapan ən ümdə xüsusiyyətlərdən biridir. Dilçilərin bir qismi qrammatik kateqoriyadan danışarkən nitq hissələrini nümunə göstərirsə, digər dilçilər nitq hissələrinin daxilində müəyyən söz qruplarının müxtəlif cəhətdən qruplaşmalarını özündə ehtiva edən hal, mənsubiyyət, xüsusilə də cəm kateqoriyalarını qrammatik kateqoriya kimi xarakterizə edir. Əslində ikinci fikir daha çox məqsədəuyğun sayılıb. Kateqoriya nitq hissələri daxilində söz qruplarının müəyyən cəhətdən qruplaşmasıdır. Azərbaycan dilində cəm tarixən, əsasən, dəyişməz qalmışdır. İngilis dilində isə tarixən çoxlu dəyişikliklər olmuşdur (17, s. 20). Qrammatik hadisələr dedikdə həm onların qrammatik əlamətləri, həm də onların əmələ gətirdikləri qrammatik mənalar nəzərdə tutulur. Məhz buna görə də, qrammatik kateqoriyalar sözlərdə müəyyən məna xüsusiyyətləri əmələ gətirməklə onların nitq hissələri kimi formalaşmasında da müəyyən rol oynayır (9, s.36). Hər bir qrammatik kateqoriya bir sıra qrammatik mənaları özündə əks etdirir. Məsələn: *qrammatik fel kateqoriyasına* zaman, şəxs, tərz, növ və s. kimi qrammatik mənalar aiddir. *Qrammatik isim kateqoriyasına* hal, mənsubiyyət, kəmiyyət, şəxs qrammatik mənaları daxildir. Azərbaycan dilində qrammatik kateqoriyalar əsasən morfoloji vasitələrlə ifadə olunur. Azərbaycan dilindəki ümumi qrammatik kateqoriyalar aşağıdakılardır (4, s.65):

Hal kateqoriyası;
Mənsubiyyət kateqoriyası;
Şəxs kateqoriyası;
Kəmiyyət kateqoriyası;
İnkarlıq kateqoriyası.

İnsanın əşya haqqqındakı anlayışlarından biri də onun *kəmiyyətidir*. Əşyanı hərtərəfli dərk etmək prosesi onun *azlıq-çoxluğunu*, ondakı *əlamətin qədərini* bilməyi də tələb edirdi. Ona görə də insan əşyanı dərk etmək üçün onun *mücərrəd kəmiyyətinə* də nüfuz etməli olmuşdur. Hələ qədim insanlarda əşyanın konkret miqdarını hesablamaq, bunun üçün hansı ədədi etalon götürmək kimi biliklər olmadığı vaxtlarda onun qeyri-dəqiq kəmiyyəti haqqında anlayışlar olmuşdur. Bu onu göstərir ki, konkret saylardan daha əvvəl kəmiyyət anlayışı yaranmış və o hər bir dilin özünəməxsus vaitələrilə ifadə edilmişdir. Kəmiyyət anlayışı *aqlütinativ (iltisaqi)* dillərdə daha asan üsulla-konkret qrammatik forma ilə ifadə edilir. Qeyd edildiyi kimi kəmiyyət dedikdə kəmiyyətin yalnız şəkilçilərlə ifadəsi nəzərdə tutulmur. Kəmiyyət həm *leksikologiyada*, həm *morfologiyada* və həm də *sintaksisdə* özünü müxtəlif şəkildə göstərir. Məsələn: zərflərdə, saylarda, əvəzliklərdə, isimlərdə kəmiyyət bildirən sözlərin olması, isimlərdə, fellərdə kəmiyyət bildirən şəkilçilərin olması, uzlaşma əlaqəsi, tabeli mürəkkəb

cümlələrdə kəmiyyət budaq cümləsi və s. kəmiyyətin müxtəlif üsul və vasitələrlə ifadəsinin göstəriciləridir.

Kəmiyyət kateqoriyası ənənəvi təsnifatlara görə qrammatik kateqoriyalara aiddir və *morfoloji vasitələrlə* ifadə olunmalıdır. Əks tədqirdə müvafiq dildə həmin kateqoriyadan danışmaq mümkün olmaz. Kəmiyyət kateqoriyası ümumi qrammatik kateqoriyalardan biri olmaqla geniş əhatə dairəsinə malikdir. Kəmiyyət anlayışı təkcə dilçilikdə deyil, həm də riyaziyyatda özünü göstərir. Lakin riyaziyyatdan fərqli olaraq, dilçilikdə kəmiyyət anlayışı qrammatik kateqoriya kimi öyrənilir (6, s.123). Onun ifadə vasitələri və morfoloji göstəriciləri vardır. Kəmiyyət kateqoriyasını hər hansı bir nitq hissəsi ilə məhdudlaşdırmaq olmaz. Ona görə ki, bu kateqoriya ***ismə, sifətə, saya, əvəzliyə, felə*** aid olan ümumi qrammatik kateqoriyadır. Bunun səbəbi isə kəmiyyət kateqoriyasının obyektiv reallıqla, praktik həyatla bağlı olmasıdır. Misallara diqqət yetirək. Məsələn: *ev - evlər, gözəl - gözəllər, yeddi - yeddilər, o - onlar, bu - bunlar, hansı - hansılar, uzaq - uzaqlar, danışan - danışanlar, oxuyan - oxuyanlar* və s. Kəmiyyət kateqoriyasının morfoloji əlaməti substantivləşmədə fəal iştirak edir: *oxuyan (adamlar) - oxuyanlar, birinci (sinif) - birincilər* və s. Beləliklə, misallarda substantivləşmə kəmiyyət kateqoriyası daxilində baş verir. Kəmiyyət kateqoriyasını *mənsubiyyət*, o cümlədən *şəxs* kateqoriyalarından ayrı təsəvvür etmək və öyrənmək də düzgün deyildir. Ona görə də kəmiyyət kateqoriyasını ***mənsubiyyət kateqoriyasında*** da görmək olar (8, s.42). Məsələn: *-ım, -im, -um, -üm; -m (kitab-ım, ana-m) şəkilçisi*. Bu şəkilçini birinci şəxsin cəmində olan mənsubiyyət şəkilçisi ilə müqayisə edək: *kitab-ım - kitab-ımız*. Yaxud, ikinci və üçüncü şəxsin cəmində olan mənsubiyyət şəkilçili sözlərlə müqayisə edək: *kitab-ım - kitab- ınız- kitab- ları.* Göründüyü kimi, hər üç şəxsin cəmində mənsubiyyət şəkilçili sözlərdə kəmiyyətin cəmdə olmasını ayırmaq olur. Bunu hər üç şəxsin təkində olan mənsubiyyət şəkilçili sözlə qarşılaşdırmaqla bir daha ayırmaq mümkündür. Məsələn: Mən-im kitab-ım, Sən-in kitab-ın. O-nun kitab-ı. Biz-im kitab-ımız. Siz-in kitab-ınız. O-n-ların kitab-(lar)-ı (14, s.87).

Kəmiyyət kateqoriyası ***şəxs kateqoriyasının*** şəkilçilərində də iştirak edir. Məsələn: *Mən müəllim-əm. Sən müəllim-sən. O müəllim-dir. Biz müəllim-ik. Siz müəllim-siniz. O-n-lar müəllim-dirlər.* Maraqlıdır ki, üçüncü şəxsin cəmində - onlar oxuyur-lar, onlar yazır-lar, onlar gəlir-lər misallarında *oxuyurlar, yazırlar, gəlirlər* sözlərində -lar, -lər kəmiyyət şəkilçisi, həm də şəxs şəkilçisi funksiyasında olur. Bu da kəmiyyət kateqoriyasının morfoloji göstəricisinin şəxs kateqoriyasının funksiyasını əvəz etdiyini göstərir. Dilçilikdə beş, üç, on və s. saylarda kəmiyyət nə qədər *konkretdirsə*, kitablar, dəftərlər, evlər və s. sözlərdə isə bir o qədər *qeyri-müəyyəndir*. Hətta *ordu, sürü, ilxı, camaat* tipli toplu isimlərdə də kəmiyyət mücərrəddir, qeyri-müəyyəndir. Qeyd etmək lazımdır ki, kəmiyyət kateqoriyası tam konkret kateqoriya olsa da, nitq fəaliyyətində onlar *dinamik vahidlər* kimi özlərini göstərirlər. Yəni, bu bir tərəfdən başqa kateqoriyalarla əlaqə şəraitində, o biri tərəfdən isə müxtəlif tipli konstruksiyalarda da özünü bir daha göstərir. Bu mənada kəmiyyət kateqoriyası anlayışı bu günün özündə də ən aktual dilçilik məsələlərindən biri sayılır. Təsadüfi deyil ki, indinin özündə də elə bir nəzəri qrammatika kitabı tapmaq çətindir ki, orada kəmiyyət kateqoriyası anlayışına diqqət yetirilməsin. Kəmiyyət kateqoriyası digər kateqoriyalardan fərqli olaraq daha mürəkkəb xüsusiyyətlərə, daha rəngarəng ifadə vasitələrinə və məzmun müxtəlifliyinə malikdir. Kəmiyyət kateqoriyasını dildə olan ən mürəkkəb və çoxcəhətli kateqoriyalardan biri hesab etmək olar. Bu kəmiyyət məfhumunun özünün mürəkkəb xarakterli olmasından irəli gəlir. Kəmiyyət kateqoriyasının daxilində iki subkateqoriyanın – ***ölçü*** və ***miqdar*** subkateqoriyalarının olduğunu söyləmək olar. *Miqdar* ayrı-ayrı hissələrdən ibarət olduğuna görə onu bölünən, *ölçü* isə belə hissələrə ayrıla bilmədiyinə görə onu bölünməyən kəmiyyət kimi müəyyənləşdirmək olar. Həm bölünən, həm də bölünməyən kəmiyyət əşyaların, hərəkətlərin və proseslərin keyfiyyətində miqdar, ölçü, həcm və s. kimi təzahür edir. Buna görə də kəmiyyəti əşyalarla deyil, hərəkət və keyfiyyətlə də müəyyənləşdirmək olar. Bu fikirlərə *Məmmədəli Novruzovun* əsərlərində də rast gəlmək olar. Ümumiyyətlə, dilçilikdə kəmiyyət kateqoriyası qrammatika elminin

mühüm bir vahidi hesab edilir. Çox vaxt qrammatik kateqoriyalar haqqında danışarkən *morfoloji kateqoriyalar* nəzərdə tutulur. Amma bir sıra hallarda morfoloji və sintaktik kateqoriyaları qarışdırırlar (15).

Dilçilərin bir qismi kəmiyyət kateqoriyasından danışarkən, onun leksik, morfoloji və sintaktik yolla yaranmasını nəzərə çatdırırlar. Lakin hələ qrammatik kateqoriyalardan danışarkən vurğulamışdıq ki, qrammatik kateqoriya dedikdə, biz morfoloji kateqoriyanı nəzərdə tuturuq. Yəni, kəmiyyət anlayışı dildə müxtəlif vasitələrlə ifadə oluna bilər, amma kəmiyyət kateqoriyasından danışarkən, yalnız morfoloji yolla yaranan kəmiyyətdən danışa bilərik.

A.Aslanov yazır: "Müasir Azərbaycan dilində kəmiyyət kateqoriyası, əsasən, üç vasitə ilə ifadə olunur: **1. Leksik. 2. Morfoloji. 3. Sintaktik.**

Kəmiyyət kateqoriyasının ifadə edilməsində başlıca rol oynayan həmin üç vasitənin hər birinin özünəməxsus formal əlamətləri, müəyyən məna xüsusiyyətləri və müxtəlif məna çalarları vardır. Bu vasitələrin bəzisi geniş, bəzisi isə məhdud əhatə dairəsinə malikdir. Bu vasitələrlə ifadə olunan kəmiyyətlər konkret ola bildiyi kimi, ümumi və qeyri-müəyyən də ola bilər. Hər üç vasitə ilə təklik, cəmlik və topluluq ifadə olunur. Morfoloji təsnifatın əsasında sözün struktur tərtibatı prinsipləri dayanır. Buradan belə çıxır ki, qrammatik kateqoriyaların ifadəsi dilin morfoloji tipindən asılıdır. Eyni miqdarda qrammatik kateqoriyaları ifadə etmək üçün iltisaqi dilə daha çox şəkilçi lazım olur, nəinki flektiv dilə. Ona görə də iltisaqi dillər əhəmiyyətli dərəcədə sintaktikdirlər. Aqlütinativ dil olan Azərbaycan dilində hər bir qrammatik məna bir forma ilə ifadə olunur. Qrammatik kateqoriyaları ifadə etmək üçün flektiv dildən fərqli olaraq, iltisaqi dilə daha çox şəkilçi lazım olur. Qrammatik kateqoriyaların dilçilik tarixində müxtəlif təyinləri olmuşdur. Müasir dövrümüzdə o, bir tərəfdən dilin morfoloji tipi ilə əlaqədə götürülür (11, s.184).

Tarixən kəmiyyət ***topluluq*** bildirib, indiki zamanda isə sözlərin tərkibində daşlaşmış şəkildə mövcud olan formantlara aşağıdakıları nümunə göstərə bilərik:

-an,-ın (Turan, aran, bodun - *xalq, qoşun*),

-ar (xəzər, avar, suvar),

-aq (*topluluq bildirir* - dırnaq, barmaq, yığnaq; *cütlük çaları bildirir* - qulaq, dodaq, dirsək, yanaq, topuq),

-iz (*topluluq bildirir* - oğuz, qırğız, qaqauz),

-z (*cəmlik bildirir* - biz, siz, işiniz; *cütlük bildirir* - üz, göz, diz, əkiz, buynuz) və s.

Beləliklə müasir dövrdə topluluq, kəmiyyət bildirən sadə sözlərin tərkibində tarixən kəmiyyət şəkilçilərinin olduğunu görə bilirik. Qeyd etdiyimiz kimi ədəbi dilimizdə kəmiyyət yalnız şəkilçilər vasitəsi ilə deyil həmçinin ***çoxluq*** bildirən sözlərlə də ifadə olunur. Qədim türk dilində sözün təkrarı çoxluq anlayışını bildirmişdir. Məsələn: *ağca-ağca, qat-qat* və s. Bu xüsusiyyət müasir dilimizdə də müşahidə olunur. Məsələn: *kənd-kənd, çadır-çadır, ev-ev* və s. Kəmiyyət kateqoriyası yalnız isimlərə məxsus deyildir. Bunu biz digər nitq hissələrində də müşahidə edə bilərik. Dilimizdəki isimlərin müəyyən qismi məzmunca həm tək, həm də cəm kimi dərk edilir. Belə isimləri mətndən xaricdə tək və cəmə ayırmaq qeyri-mümkün olur: *üzüm, tut, alma, gul, balıq, daş* və bu kimi sözlər həm bütövü, həm də onu təmsil edən bütövün ayrı-ayrı vahidini bildirir. Məsələn: *Üzüm faydalı meyvədir; Biz tut yedik; Şərif bazardan alma aldı; Bağçada gül əkmişlər; Dənizdə balıq tuturdular; Uşaq çaydan daş yığırdı* kimi cümlələrdə bütövün vahidi olan tək bir üzüm, tut, alma, gül, balıq və daş dərk edilmir, eyni zamanda bütöv də dərk edilir. *Ə. Dəmirçizadə* cəm şəkilçisinin üslubi məqamda işlədilməsi, bununla da üslubi norma yaradılmasında iştirakı ilə əlaqədar fikir və mülahizələrini aşağıdakı kimi ümumiləşdirir: *"Heç bir şəkilçi qəbul etmədən bir ismin həm çoxluq, həm də təklik bildirməsi ilə məna çalarlığı meydana çıxdığı kimi, cəm şəkilçisi qəbul etmiş isimlərlə cəm şəkilçisi qəbul etməmiş isimlərin kəmiyyət anlayışına görə sinonimliyi də yaranmış olur ki, bu da üslubi imkanı doğurur. Məqsəddən asılı olaraq cəm əşkilçisinin işlədilməsi və ya işlədilməməsi ilə əlaqədar üslubi imkanlar bu şəkilçinin, xüsusən, məna çalarlı-*

ğı və hansı sözə bitişərək işlədilməsi ilə üzvi surətdə bağlıdır. Çünki cəm şəkilçisi bütün isimlərlə eyni dərəcədə bitişdirilmir və bitişdiyi hər isimdə də çoxluq anlayışını eyni rəngdə, eyni dərəcədə ifadə etmir. Bir sıra isimlərdə isə cəm şəkilçisi, ümumiyyətlə, əşyanın qeyri-müəyyən çoxluluğunu deyil, dolayı yollarla əlaqədar olan başqa bir anlayışın çoxluluğunu, bəzən də tamam başqa bir anlayış çalarlığını ifadə edir" (5, s.36).

Ümumi isimlərin çoxu tək bir sözdən ibarət olub, ayrı-ayrı varlığın adını bildirdiyi halda, bir qismi də cəmlik şəkilçisi qəbul etmədən tək bir sözlə varlığın topluluğunu-çoxluğunu bildirir: adam, quş, at (***təklik bildidrir***); xalq, el, cəmiyyət, ordu, sürü, naxır, ilxı (***topluluq bildirir***). Topluluq bildirən adlar şəkilcə başqa ümumi adlardan fərqlənmədiyi kimi, morfoloji əlamət qəbul etdiyi zaman da onlardan fərqlənmir. Onlar da cəmlik şəkilçisi qəbul edib *xalqlar, ellər, cəmiyyətlər, ordular, sürülər, naxırlar, ilxılar* şəklində işlənə bilir. Azərbaycan və ingilis dilində ismin tək halı sıfır morfemlə ifadə olunur, məsələn: *uşaq-child məktəb-school, ağac-tree, ölkə-country*. İsimlərin cəm halının yaranma yolları isə müqayisə olunan dillərdə müxtəlifdir. Azərbaycan dilində ismin cəmi ***-lar, -lər*** şəkilçiləri ilə düzəlir və ahəng qanununa uyğun olaraq sözün son saitindən asılı olaraq iki cür yazılır. Cəmlənmiş toplu isimlərdə topluluq məzmunu sözün kökündə özünü saxlayır və *-lar, -lər* cəmlik şəkilçisi kəmiyyət şəkilçisi kimi işlənir və bu məzmunun qeyri-müəyyən miqdarının artmasını bildirir. Mübtəda ilə xəbər üçüncü şəxsin cəmində uzlaşdıqda şəxs sonluğu kimi işlənir: *Onlar gəlirlər, uşaqlar oynayırlar* və s. Digər dillərdən fərqli olaraq, türk dillərində, o cümlədən, Azərbaycan dilində külli miqdarda ***qoşa sözlər*** vardır. Qoşa sözlərdə konkret leksik məna ilə yanaşı, cəmlik anlayışı olduğundan, qoşa sözlərdə cəmlik -lar / -lər şəkilçisiz ifadə olunur. Məsələn: ata-ana, çəngəl-bıçaq, qab-qacaq, tanış-biliş, dost-tanış, qohum-qardaş, əl-ayaq və b." ***Toplu isimlərdə*** kütləvilik anlayışı əks olunur. Bu isimlərin qrammatik cəmlik əlaməti qəbul etdikdə topluluğa aid çoxluq təsəvvürü yaradır: *el-ellər, dəstə-dəstə-lər, qoşun-qoşunlar*. *Y.Seyidov* topluluq bildirən isimlərin xarakter xüsusiyyətini izah edərkən onları təklik bildirən sözlərlə qarşılaşdırır [16, s.108]: "İsimlərin bir qismi öz leksik-semantik mənalarına görə eyni əşyaların yığımını bildirir: *sürü, naxır, ilxı.* Belə isimlər çox deyil, lakin onlar hər halda var və varsa, deməli, təklik bildirən isimlərlə qarşı-qarşıya dayanır". Azərbaycan dilində bəzi hallarda, isim mücərrəd məna ifadə edirsə, cəmlik nəzərdə tutulsa da belə ***-lar / -lər*** cəm şəkilçisi işlədilməyə bilər. Məsələn: *Daş bərk cisimdir* yaxud *insan gərək ehtiyacı olanlara əl tuta* cümlələrində *daş* və *insan* sözləri formaca təkdə olsa da, əslində *daşlar* və *insanlar* nəzərdə tutulur. ***-lıq (-lik, -luq, -lük)*** şəkilçisi əşyalılıq bildirən sözlərə qoşulub müxtəlif məna çalarlığı əmələ gətirir. *S.Cəfərovun* qeyd etdiyi 11 məna çalarlıqdan yalnız biri kəmiyyət, ***çoxluq anlayışına*** aiddir. Məsələn: *ağaclıq, dağlıq, bağlıq, odunluq, üzümlük, meşəlik, çiçəklik* və s. Maşının gurhagur səsi dayananda qamışlıqda xışıltı eşidildi cümləsində də *qamışlıq* sözündə -lıq şəkilçisi çoxluq bildirir.

Azərbaycan dilində ***–lar, –lər*** şəkilçilərindən başqa digər şəkilçilər də var ki, onların vasitəsi ilə də cəmlik yaradılır. Bu şəkilçilərdən biri də ***–gil*** şəkilçisidir. Bu morfemin kəmiyyət anlayışı ifadə edən digər morfemlərdən fərqi ondadır ki, onun istifadə dairəsi çox dardır. Azərbaycan və türk dilləri istisna olmaqla bu şəkilçi digər türk dillərində işlənmir. ***–gil*** morfeminin birvariantlı olması, həmçinin müəyyən qrup sözlərdə, məsələn, *xüsusi adlar* və *mənsubiyyət şəkilçisi qəbul etmiş qohumluq terminləri* ilə işlənməsi ona müstəqil şəkildə yanaşmanı tələb edir. ***–gil*** şəkilçisi haqqında *A.Aslanov* yazır: *"Bu şəkilçi ədəbi dildə az işlənsə də, xalq danışıq dilində, bir çox dialekt və şivələrdə geniş dairələrdə işlənməkdədir."* Ümumiyyətlə, ***–gil*** şəkilçisinin Azərbaycan dilində işlənməsi çox da qədimə gedib çıxmır (1). Belə ki, bu şəkilçidən danışarkən *A.Əlizadə* XIX əsrdən əvvəl bu formanın işlənmədiyini qeyd edir.

Xüsusi isimlər qeyri-müəyyən yiyəlik halda cəm şəkilçisi qəbul etməklə işlənir və ümumilik bildirir. Məs.: *Nizamilər yurdu, Məhsətilər yurdu* və s. Belə birləşmələrin birinci tərəfi müəyyən yiyəlik halda işləndikdə konkretlik bildirir. Məs.: Nizamilərin yurdu, Məhsəti-

lərin yurdu və s. Əslində xüsusi isimləri cəmdə işlətmək düzgün deyildir. Ona görə ki, xüsusi isimlər təkdir, xüsusidir, onlardan biri digərindən fərqlənir. Azərbaycan dilində bir qisim xüsusi sözlər vardır ki, onlar yalnız təkdə olurlar. Bu qəbildən olan sözlərə ***-lar, -lər*** cəm şəkilçisini əlavə etmək olmur. Buraya daxil olan sözlər, əsasən, bunlardır:

Şəxs adları: Toğrul, Tuqay, Eşqin, Əziz və s.
Ölkə adları: Azərbaycan, Türkiyə, Özbəkistan və s.
Şəhər adları: Bakı, Şəki, Lənkəran, Gəncə və s.
Kənd adları: Ellərkənd, Güllücə, Quşçu və s.
Dəniz adları: Xəzər dənizi, Qara dəniz və s.
Çay adları: Kür çayı, Arpa çayı, Araz çayı və s.

Azərbaycan dilində bütöv bir qrup isimlər *özünəməxsus leksik mənası* olduğu üçün cəm şəkilçisi qəbul etmir:

1) **mücərrəd anlayış ifadə edən sözlər**: əxlaq, mənəviyyat, qeyrət, namus, şərəf, şöhrət, vicdan və s.; bu qrupa **məkan cəhətlərinin də adları** daxildir: şimal, cənub, şərq, qərb, şimal-şərq, şimal-qərb, cənub-şərq və cənub- qərb;

2) **-lıq / -lik / -luq / -lük** şəkilçiləri vasitəsilə düzələn mücərrəd anlayış bildirən sözlər: böyüklük, kiçiklik, təhlükəsizlik, uşaqlıq, qonşuluq, soyuqluq, istilik, ucalıq və b. Qeyd etmək lazımdır ki, bu qəbildən olan isimlər arasında da bəzi istisnalar vardır. Məs.: yaxşılıq, pislik, hörmətsizlik, qeyri-müəyyənlik və b. kimi sözlər cəm şəkilçisi qəbul edir: yaxşılıqlar, pisliklər, hörmətsizliklər, qeyri-müəyyənliklər və s.;

3) mürəkkəb **-çılıq / -çilik /-çuluq /-çülük** şəkilçiləri ilə düzələn və peşə, sənət, məşğuliyyət, həmfikirlilik, bildirən mücərrəd anlayışlı sözlər: xalçaçılıq, dulusçuluq, quşçuluq, pambıqçılıq, üzümçülük, arıçılıq, dəmirçilik, üzgüçülük, millətçilik və b.

4) **sayılmayan maddələrin topluluq mənasında adları:** bal, ot, yun, qum, süd, un, şəkər, duz, neft, qaz, kürü, piy, oksigen, hidrogen, azot, uran və b.

5) **insanın hissləri, ruhi vəziyyəti, psixoloji durumu kimi mücərrəd anlayışları ifadə edən isimlər:** hirs, qəzəb, nifrət, hiddət, nəzakət, hörmət, hövsələ, qısqanclıq, nadinclik, düşmənçilik, peşmançılıq, simiclik, əliaçıqlıq və b.

Azərbaycan dilində bəzi ***kəmiyyət məzmunlu say vahidləri*** vardır ki, onlar müəyyən tarixi, ictimai hadisələrlə, inamlarla, adət-ənənlərlə bağlı olaraq seçilir, təsəvvürdə fərdiləşir. Müəyyən hadisələrin motivi əsasında fərdiləşə bilən saylar ***motivləşmiş saylar*** sırasına daxil edilir. Belə saylar qrammatik cəhətdən cəm şəkilçisi ilə işlədilsə də, onlar məntiqə görə fərdilik bildirir, bu fərdiliklə başqalarından seçilir. *M.Hüseynzadə* motivləşmiş sayların xüsusiyyətləri haqqında aşağıdakı fikri irəli sürmüşdür: "Sayların təklikdə hal və kəmiyyətcə dəyişməsi onların cümlə daxilində müəyyən bir əşya kimi təsəvvür edilməsindən irəli gəlir. Məsələn: *iyirmialtı-iyirmialtılar, qırmızı-qırmızılar, bolşevik-bolşeviklər, şah- Şahlar, bəy-Bəylər, xan-Xanlar və s. Üçlər* yaxud *iyirmi altılar* dediyimiz zaman kəimyyət təsəvvüründən artıq əşya təsəvvürü dərk edilir." İngilis dili ilə müqayisədə, Azərbaycan dilində ictimai-siyasi terminoloji səciyyə daşıyan və yalnız cəmdə işlədilən bir neçə ismə rast gəlmək olur: *ağlar, qırmızılar, yaşıllar, sağlar, sollar, gənclər*. Bu isimlər sifətdən yaranmış və tək halda işlədilmir. Cəm halının göstəricisi olan -lar /-lər şəkilçisiz işlədildikdə, sadəcə olaraq, onlar sifətdən törənərək substantivləşir (7, s.113).

Məlumdur ki, bütün inkişaf etmiş kamil dillərdə olduğu kimi, Azərbaycan və ingilis dillərində də say kateqoriyası mövcuddur. ***Say kateqoriyası*** əşya və ya şəxslər arasında say, miqdar münasibətlərini əks etdirir və məhz bu səbəbdən də hər şeydən əvvəl isimlə nisbətdə götürülə bilər. Müqayisə edilən hər iki dildə isimlərin tək və cəm formaları vardır. Azərbaycan dilində normaya uyğun olaraq birinci tərəfdə çoxluq bildirən miqdar sayı işlədildiyi zaman ikinci tərəfdə cəm şəkilçisi işlədilmir. *M.Hüseynzadə* saylara məxsus bu normanın səciyyəvi cəhətini aşağıdakı kimi izah edir: "İsimlərin təklikdə kəmiyyətcə xüsusi şəkilçisi (-lar şəkilçisi) vasitəsi dəyişməsinin saylarla birgə işləndiyi zaman mümkün olmaması onların saylar-

dan asılı olmasından başqa bir şey deyildir; çünki müəyyən kəmiyyət bildirən saydan sonra isimlərin qeyri-müəyyən kəmiyyət şəkilçisini qəbul etməsinə Azərbaycan dilinin məntiqi də imkan vermir. *Beş kitab* birləşməsində *kitab* sözünün cəm şəkilçisi qəbul etməməsi həmin sözün konkret miqdarını bildirən *beş* sözünün tələbindən irəli gəlir ki, bu da bir tərəfdən, sayın sintaktik cəhətdən isimdən asılı olmamasını, digər tərəfədən, sifətdən tamamilə fərqləndiyini göstərir." Belə ki, bu halda ingilis dilində işlənən isim mütləq cəmlənməlidir. Yəni, ingilis dilində sayla isim Azərbaycan dilindən fərqli olaraq kəmiyyətə görə uzlaşır. İngilis dilində artıq qeyd etdiyimiz kimi, say əgər birdən çoxunu ifadə edirsə, o zaman isim mütləq şəkildə çəmdə işlənməlidir. İngilis dilində isimlə say uzlaşır. Azərbaycan dilində isimlər saylarla işlənərkən cəm şəkilçisi qəbul etmir. Məsələn, *bir kitab* və *beş kitab, bir müəllim* və *yeddi müəllim* birləşmələrindəki *kitab* və *müəllim* sözləri cəm şəkilçisi qəbul etmir. Lakin ingilis dilində bunun tam əksi olan vəziyyətlə rastlaşırıq. Məsələn, *bir kitab – a book (one book), beş kitab – five books,* a *teacher (one teacher-bir müəllim) – seven teachers (yeddi müəllim).*

Kəmiyyət kateqoriyası *Azərbaycan dilində*, əsasən, yalnız bir cür, yəni ***–lar, –lər*** şəkilçiləri ilə yaransa da, müqayisə edilən digər ikinci dil olan *ingilis dilində* isə cəmlənmənin müxtəlif formaları vardır. İngilis dili ilə müqayisədə Azərbaycan dilində isimlərin cəm halının yaranmasının təkcə bir yolu vardır – iki fonetik variantı olan - lar/-lər şəkilçisi: *məktəb-məktəblər, ağac-ağaclar, ölkə-ölkələr* və s. İngilis dilində isimlərin cəm halının yaranmasının əsas yolu tək halda olan ismə cəm hal şəkilçisi adlandırılan - **s**, - **es** şəkilçisinin artırılmasıdır. Məsələn: *school-schools, tree-trees, student-students, boy-boys, girl-girls, box-boxes* və s. Ümumiyyətlə, hər iki dilin kəmiyyət kateqoriyasını bir-birilə müqayisə etdikdə, belə qənaətə gəlmək olur ki, Azərbaycan dilindən fərqli olaraq, ingilis dilində kifayət qədər sözlər vardır ki, onlar adi qaydada deyil, özünəməxsus şəkildə cəmlənir. Azərbaycan dilində isə belə istisnalar demək olar ki, yoxdur. İngilis dilində isimlərin *səs tərkibindən asılı olaraq* aşağıdakı istisna halları mövcuddur (10, s.225):

1) isim **-sh, -ch, -ss, -x, -s** sonluqları ilə bitərsə, **-s** cəm şəkilçisinə **e** ara saiti əlavə olunur **(-es)**: *dish-dishes, fishfishes, watch-watches, lunch-lunches, dress-dresses, box-boxes, bus-buses* və s. b) söz **-*y*** samiti ilə bitirsə və **[ɪ]** saiti kimi tələffüz olunursa, **-s** cəm şəkilçisi artırıldıqda **-y** samiti **-ie** hərf birləşməsi ilə əvəz olunur. Məsələn: *city-cities, beauty-beauties, ability-abilities*; 2) **ox "öküz"** sözünün cəm forması, fox "tülkü", box "qutu" və s. sözlərdən fərqli olaraq, **-en** sonluğunun artırılması ilə əmələ gəlir: *ox – oxen*; *child [ʧaıld]* "uşaq" sözünün cəm halında isə **-en** sonluğundan əvvəl söz kökünə **r** samiti əlavə edilir, və sözün tələffüzü də dəyişir: *children [ʧıldrən]; brother [brʌðə] "qardaş" - brethren ['bfreðrın] "qardaşlığın üzvü";*

3) bəzi sözlərdə kök saitləri dəyişməklə cəm halı yaranır: *tooth-teeth, goose-geese, foot-feet, mouse-mice;* d) bir sıra alınma isimlərin cəm forması mənbə dilindəki cəm formasını saxlayır, məsələn: *criterion-criteria, phenomenon-phenomena, datum-data, nucleus-nuclei, formula-formulae*; 4) Bəzi isimlərin həm tək, həm də cəm formaları üçün sıfır şəkilçisi səciyyəvidir, yəni isim həm təkdə, həm də cəmdə eyni formada işlədilir: *sheep, deer, trout, salmon, swine* və b.

5) İngilis dilində sayılmayan isimlər yalnız tək halda işlədilir:

a) maddə, ərzaq və s. bildirən maddi isimlər: *butter, oil, gas, water, wine, air, milk, beer və s.* b) mücərrəd isimlər: *friendship, courage, happiness, enmity, hospitality, truth, kindness, knowledge, information və s.*

c) xüsusi adlar: *the Thames, the Kura, the Nil, Asia, Europe, London, Baku, John, Nargiz, Turkey, Azerbaijan və s.*

6) Qeyd etmək lazımdır ki, yuxarıda sözügedən isimlərin bəziləri bəzən cəm halda da işlədilə bilər (2, s.96). Məsələn, **maddə bildirən isimlər cəm halda işləndikdə:**

a) müxtəlif növlərə işarə edilərkən: *oils, teas, wines, milks;*

b) böyük mühit, məkan bildirdikdə, məsələn, suyun, qumun və s.: *the waters of the Atlantic; the sands of the Sahara Desert;*

c) bəzən cəm hal məcazi mənada da işlədilə bilər: *Deep waters run deep.*

7) **Müasir ingilis dilində bəzi isimlər yalnız cəm halda işlədilir:**

a) iki ayrılmaz eyni hissədən ibarət əşyaların adını bildirən isimlər: *trousers, tongs, scissors, spectacles;*

b) az, yaxud çox dərəcədə qeyri-müəyyən cəmlik bildirən isimlər: *environs;*

c) bəzi xəstəlik adlarını bildirən isimlər: *measles, mumps, rickets;*

ç) cəmlik bildirən bəzi isimlər: *clothes, belongings;*

d) yalnız cəmdə işlənən isimlər: *goods.*

8) Yuxarıda qeyd olunan qruplara daxil olan isimlər müəyyən qaydalara tabe olmur və cümlədə xəbərlə müxtəlif cür uzlaşır. Belə ki, 3-cü və 5-ci qrupa aid olan isimlər tək halda olan fellə yalnız formaca uzlaşır. Məsələn: *Mahtematics is not an interesting subject for me*.

9) Eyni 2 hissədən ibarət olan əşyanı bildirən və yalnız cəm halda işlədilən ingilis mənşəli isimlərdən fərqli olaraq, Azərbaycan dilində bu cür isimlər həm təkdə, həm də cəmdə işlədilə bilər. Məsələn: *spectacles – gözlük / eynək – gözlüklər / eynəklər, scissors – qayçı, qayçılar, trousers – şalvar – şalvarlar* və s.

10) İngilis dilindən fərqli olaraq, Azərbaycan dilində elm sahələrinin adları tək halda işlədilir: *fizika–(physics), fonetika–(phonetics), leksika–(lexics), elekrtonika–(electronics)* və b. Yuxarıda deyildiyi kimi, ingilis dilindən fərqli olaraq, Azərbaycan dilində bütün isimlər, əsasən, həm tək halda, həm də cəm halda işlədilir. Amma bu məsələdə də bəzi istisnalar vardır.

Ədəbiyyat

1. Aslanov A. Müasir Azərbaycan dilində qrammatik kateqoriyalar. ADU, Bakı, 1985.
2. Axundov A. İngilis və Azərbaycan dillərində kəmiyyət kateqoriyası, I c. Bakı: Gənclik, 2003.
3. Aristotel. Poetika. Bakı, 1974.
4. Babayev A. Dilçiliyə Giriş, Bakı, Nurlan, 2004.
5. Dəmirçizadə Ə. Azərbaycan dilinin üslübiyyatı. Bakı, 1962.
6. Dünyanın dil mənzərəsində "kəmiyyət" konsepti//Akademik Ağamusa Axundovun 85 illiyinə həsr olunmuş "Ağamusa Axundov və Azərbaycan Filologiyası" Beynəlxalq Elmi Konfransın Materialları. Bakı, 2017.
7. Hüseynzadə M. Müasir Azərbaycan dili. Morfologiya, III hissə, Bakı, 1983.
8. Kəmiyyət və mənsubiyyət kateqoriyaları: linqvokulturoloji aspekt. Monoqrafiya, Bakı-Mütərcim-2017.
9. Qrammatik kategoriya dil hadisəsi kimi// Dil və Ədəbiyyat. Bakı: ADU, 2012, №1.
10. Müxtəlifsistemli dillərdə kəmiyyətin ifadə olunmasının spesifik xüsusiyyətləri//İSSN 2313-5204, Türkologiya № 2, Azərbaycan Milli Elmlər Akademiyasının Rəyasət Heyəti, Beynəlxalq elmi jurnal , Bakı-2017.
11. Məmmədov A. Dilçiliyin müasir problemləri. Bakı: ADU nəşriyyatı, 2008.
12. Məmmədəliyev V. Bəsrə qrammatika məktəbi. ADU, Bakı, 1983.
13. Məmmədəliyev V. Kufə qrammatika məktəbi. ADU, Bakı, 1988.
14. Müxtəlif dillərdə mənsubiyyət kateqoriyasının ifadə formalarına dair// Filologiya məsələləri, №4, Bakı: Elm və təhsil, 2012.
15. Novruzov M. Kəmiyyət anlayışının dildə ifadəsi, Bakı, 2000.
16. Seyidov Y. Azərbaycan dili (rus bölməsi üçün dərslik). Bakı, 2001.
17. Tanrıverdi Ə. Azərbaycan dilinin tarixi qrammatikası, Bakı, Elm və Təhsil, 2010.

А.Б.Аманалиева

Сущность понятия количественной категории в лингвистике (на материале азербайджанского и английского языков)

Резюме

В статье исследуется сравнительно-типологическое исследование количественной категории и единиц количественного содержания на основе материалов разных систематических языков. Таким образом, в исследовании выявляются грамматика, грамматическое понятие, грамматическая категория, определения количественной категории, и особенно количественные единицы и их место в лингвистике. В частности, недавние исследования в азербайджанской лингвистике дали много ясности в этой области. Основная цель исследования - выявить лингвистический характер понятия грамматической категории и выявить их общие и отличительные черты путем составления количественных категорий на основе материалов сравнительного азербайджанского и английского языков. Для этого необходимо определить сущность понятия количественной категории в лингвистике, расположение количественных категорий в системе грамматических и морфологических категорий, способы выражения количественных категорий на азербайджанском и английском языках и их типологическое значение и структурно-семантическая архитектура количественных единиц.

A.B.Amanaliyeva

Essence of the concept of quantitative category in linguistics (on the materials of Azerbaijan and English languages)

Summary

The article explores the comparative-typological study of the quantitative category and units of quantitative content based on materials of different systematic languages. Thus, the study identifies grammar, grammatical concept, grammatical category, quantitative category definitions, and especially quantitative units and their place in linguistics. In particular, recent studies in Azerbaijani linguistics have given much clarity to this area. The most important of these differences is the theoretical importance of comparative study of non-related languages. The main purpose of the research is to identify the linguistic nature of the concept of grammatical category and to reveal their common and distinctive features by drawing quantitative categories on the basis of the materials of the comparative Azerbaijani and English languages. To achieve this, it is necessary to define the essence of the concept of quantitative category in linguistics, the location of quantitative categories in the system of grammatical and morphological categories, the means of expression of quantitative categories in Azerbaijani and English, and their typological value and structural-semantic architecture of quantitative units.

Rəyçi: filol.f.d., dos. B.Məhərrəmli

Redaksiyaya daxil olub: 12.11.2019

G.V.ASLANOVA

Gəncə Dövlət Universiteti
(Gəncə şəh., Şah İsmayıl Xətai pr., 187)

PREPOZİTİV MÖVQEDƏ SAMİT BİRLƏŞMƏLİ FUZİAL ELEMENTLƏRİN FLEKSİYASI VƏ DERİVASİYASI

Açar sözlər: *fuziya, fleksiya, prosedur, tonallıq, dillərarası universallıq, kökyaratma*
Ключевые слова*: фузия, флексия, процедура, тональность, межъязыковая универсальность, образование корня*
Key words: *fusion, flexion, procedure, tonality, interdisciplinary universality, root formation*

Annotasiya Dillərin genetik tərkibində prosodik monosillabların işlənməsi ümumi əlamətlərlə səciyyələnmişdir. Monosillabların əsas informasiya vasitəsi kimi işlədildiyi mərhələdə affiksal elementlər mövcud olmadığı üçün qrammatik və derivativ funksionallıq kök daxilində sinkretik üsulla ifadə olunmuşdur. İnformasiya intensivliyinin aktuallaşması isə qrammatik və derivativ funksionallığın üzvlənməsi ilə nəticələnmişdir. Beləliklə, sözlər həm müvafiq qrammatik vasitələrlə və derivativ elementlərlə təzhiz olunmağa başlamışdır. Dillərdə derivativ element kimi tonallıqdan flektivliyə keçid mərhələsi başladıqda flektivliyin özünün müxtəlif üsulları da peyda olmuşdur. Flektivlik vasitəsi isə bir kökün daxilindən omonim xarakterli digər köklər də törəməyə başlamışdır. Flektivlik sözün daxilindən törədiyinə görə bu hadisə müxtəlif dillərdə universal səciyyə daşımışdır. İngilis dili analitik-flektiv quruluşlu olduğu üçün bu dildə flektivliyin özünün təkamülündə yeni bir mərhələ də yaranmışdır. Azərbaycan dilində isə flektivlik daha çox ilkin informasiya mühiti çərçivəsindəki izlərini saxlamışdır.

Dillərin ilkin informasiya prosesində prosedik tərkibli monosillablar aparıcı rola malik olmuşdur. Monosillabik modellər heç bir affiksal elementlərlə təchiz edilməyindən onlarda qrammatik və derivativ məna ümumi, sinkretik səciyyə daşımışdır. Monosillabizm mərhələsinə və monosillabların funksionallığına həsr olunmuş tədqiqatlarda da onların tonallıq, ritmiklik və ahəng, darlıq xüsusiyyətlərinin araşdırılması başlıca problemlərdən birinə çevrilmişdir (1, s.58; 2, s.17, 29; 7, s.58; 8, s.26-31; 49-65; 13, s.38-51). Monosillabların təşkilində və formalaşmasında sait səslərin aparıcı rolu tədqiqatçılar tərəfindən təqdir edilir. Nəzərə aldıqda ki, monosillabizm dövründə affiksallıq mövcud olmamışdır, onda belə nəticəyə gəlmək olur ki, dillərin hamısında prosodika əsasında formalaşmış köklər ümumi və universal səciyyə daşımışdır. Ancaq əlbəttə ki, monosillablar daim sükunətdə qalmamış, mərhələ-mərhələ informasiya aktivliyinin təsiri ilə dəyişmişdir. İlkin mərhələdəki dəyişmələrdə füziyanın və fleksiyanın rolu artdıqca ayrı-ayrı dillərdə onun struktur və funksional təbiəti də müvafiq dəyişikliyə uğramışdır. İlkin monosillabik modellərdə informativlik ilk növbədə qrammatik və derivativ variantların meydana çıxmasına, daha sonra isə onların üzvlənməsinə öz təsirini göstərmişdir. Belə bir mərhələdə dillərarası universallıq əlamətləri güclü olduğundan həmin əlamətlər sonrakı inkişaf dövrlərində öz ilkin ənənələrini saxlamışdır. Monosillabik köklər, onların quruluşu və təkamülü barədəki tədqiqatlarda da onların törəmə variantlarının informativliklə bağlı baş verməsi barədə maraqlı fikir və mülahizələr söylənmişdir (5, s.170-175; 6, s.136-148; 9, s.17-48; 38-65; 10, s.49-68; 11, s.131-182). Bəzi tədqiqatlarda isə monosillabik köklərin universal xarakter daşıması heçdə həmişə birmənalı qarşılanmır. Belə tədqiqatların nəticələri bir qayda olaraq dillərin tipoloji fərqləri çərçivəsinə sığışdırılır. Tədqiqatların müəyyən qismində isə mütəxəssislər daha irəli gedərək oxşar elementlərin movcudluluğu nostratik problemlərlə əlaqələndirirlər. Lakin hər halda ilkin birhecalı köklərin mövcudluğu və bu cür köklərin formalaşmasında sait səslərin aparıcı mövqeyə malik olması mütəxəssislər arasında etirazla qarşılanmır (3, s.29-46; 4, s.208-216; 12, s.39-63). İlkin informasiya mərhə-

ləsində monosillabik kök modelləri oxşar olsa da sonrakı mərhələlərdə füziallığın və flektivliyin təbiəti ayrı-ayrı dil tiplərində fərqlənməyə başlanmışdır. Analitik-flektiv dillərdə fuziya və fleksiya əlamətləri genişləndiyi halda aqlütinativ dillərdə onun şəbəkəsi daralmış, mövqeyi zəifləmiş, əlamətləri isə bir çox hallarda gizli qalmışdır. Füziallığın və flektivliyin xarakter əlamətləri analitik-flektiv dillərdən biri kimi ingilis dilində daha aşkar xarakter qazandığı halda Azərbaycan dilində bir qədər üstüörtülü şəkildə mühafizə olunmuşdur. Belə ki, məsələn, prepozitiv mövqedə ingilis dilinə məxsus samit birləşməli fuziallıq və funksiya özünəməxsus əlamətlərə malik olsa da Azərbaycan dilində samit birləşməli funksiyanın başlanğıcda işlənməsi mümkün hadisə kimi baş verməmişdir. Bununla belə, Azərbaycan dilində də samit birləşməli füziallığın özünəməxsus əlamətlərinin mövcudluğu istisna deyildir. Başlanğıcda samit birləşməli flektivlik analitik-flektiv dillərdən biri kimi ingilis dilində qanunauyğun hal hesab edilsə də köklərin ilkin monosillabik təbiətinə uyğun deyildir. Odur ki, başlanğıcdakı samit birləşməli elementləri, bir qayda olaraq ilkin variant hesab etmək mümkün deyildir. Samit birləşməli elementlər sonrakı derivativ tələblər üzrə sıxlaşıb bir vahidə çevrildiyinə baxmayaraq onların prosodik monosillab variantları dildə bu və ya digər şəkildə mühafizə olunur.

Azərbaycan dilində də samit birləşməli flektiv elementlərin baş verməsinə aid nümunələr vardır. Müqayisə yolu ilə hər iki dildə samit birləşməli fleksiya əlamətlərini açmaq və fərqləndirmək mümkündür. Dillərin inkişaf mərhələlərində monosillabların tərkibində və semantik mühitində dəyişmələr baş verdiyindən onların məna uyğunluğunu müvafiq derivativ variantlar əsasında təyin etmək ciddi çətinlik yaratmır. Məsələn, ingilis dilindəki *blend* sözünün başlanğıcında *bl* samit birləşməsi işlənir. İlkin köklərin prosodik monosillablardan ibarət olduğunu nəzərə aldıqda *bl* samit birləşməsinin sonradan fuzial yolla yarandığını söyləmək olur. *Blend* sözünün özü ingilis dilində *qatışıq rənglilik, bir rəngdən digərinə keçmək* mənasını bildirir. *Bl* tərkibinin prosodik monosillab adekvatı ingilis dilindəki *bel* variantında mühafizə olunur. *Bel* kökü özünün ilkin anlayışını alabəzək örnək mənasında işlənən *belcher* sözündə nümayiş etdirir. İlkin monosillablarda omonimlik xarakteri, həmçinin samit birləşməli flektivləşmiş fuzial variantlarda da müşahidə edilir. Bu mənada, *bl* samit birləşməli tərkib həmçinin, *mələmək, böyürmək, mələrti çıxarmaq* mənasındakı *bleat* sözünün başlanğıcında da işlənir. Sözün omonim *bel* monosillabı əsasında formalaşmış derivatlarında da səs çıxarmaq anlayışı ilə bağlı məna çalarlıqlarının ifadə edilməsi müşahidə olunur. Məsələn, buna uyğun məna çalarlıqlarını *zəng, zəng etmək, qırqırmaq, bağırmaq, böyürmək* anlayışlarını özündə əks etdirən *bell* və *carçı* mənası bildirən *bellman*, *böyürmə, bağırtı, qışqırtı, fəryad, nalə, böyürmək, qışqırmaq, coşmaq* anlayışlarını ifadə edən *bellow* sözündə müşahidə etmək olur.

İngilis dilindəki *cr* tərkibli sözlərdə də samit birləşməli elementlərin prosedik monosillabik adekvatını müqayisə yolu ilə müəyyənləşdirmək mümkündür. *Cr* tərkibli *crimson* sözü ingilis dilində *tünd qırmızı, moruq rəngli, qızartılı, qızarmaq* mənalarında işlənir. İngilis dilində *cr* tərkibinin daxili saitin *car* adekvatı müstəqil şəkildə qırmızı anlayışı üzrə işlənir. Lakin *car* adekvatının müvafiq derivatlarında qırmızılıqla bağlı anlayışları bildirən məna çalarlıqlarını müşahidə etmək olur. Məsələn, *car* tərkibinin işləndiyi *caramel* derivatı *qəhvəyi rəng, carnation* sözü isə *qərənfil, tünd qırmızı, moruq rəngli, qızarmaq, qızartılı olmaq* mənalarını bildirir. *Cr* tərkibinin qırmızı rıng anlayışı bildirməsini analitik-flektiv quruluşlu rus dilində də müşahidə etmək olur. Belə ki, rus dilindəki *красный* (qırmızı), *краснеть* (qızarmaq), *краснота* (qırmızılıq), *окрасить* (rəngləmək, qızartmaq), *кров* (qan), *украшение* (bəzək) sözündə qırmızılıqla və rənglə bağlı anlayışlar ifadə olunur. Rus dilində *kr* tərkibinin prosodik monosillab adekvatını *перегар* (yanmaq), *перегарньит* (yanıb qaralmaq) sözlərindəki *гар* tərkibi ilə müqayisə etmək mümkündür. Azərbaycan dilində *qr* tərkibinin adekvatı *qır-qız* monosillablarında ifadə olunur. *Qır* monosillabı qırmızı sözünün tərkibində işləndiyi kimi *qız* – monosillabı *qızarmaq, qızartı, qızdırmaq* kimi sözlərin tərkibində işlənərək qırmızılağa aid ümumi anlayışla səsləşir. İngilis dilində *cr* – tərkibi omonim xarakterinə görə *create (qurmaq,*

yaratmaq) sözünün də tərkibində işlənir. *Cr*-tərkibinin iştirak etdiyi derivatlarda da *create* sözünün məzmununa uyğun məna çalarlıqları ifadə olunur. Məsələn, *creative* sözü *yaradıcı, creater* sözü *yaradan, yaradıcı, creature* sözü *yaranış, yaranmış, məxluq* mənalarını bildirir. Buna uyğun məna çalarlıqları həmçinin, *cr*-tərkibinin *car*- monosillab adekvatı üzrə formalaşan digər sözlərdə də müşahidə edilir. Məsələn, *carrer* sözü *məşğuliyyət, mənsəb, uğur, koryera, iş, careful* sözü *qayğılı, çalışqan, care* sözü isə *qulluqetmə, prinsipiallıq, maraq göstərmək* mənalarını bildirir. *Cr* fuzial tərkibinin *qur*-adekvatı Azərbaycan dilindəki oxşar mənalı *qurğu, qurmaq, quraşdırmaq, qurulmaq* sözlərin tərkibində də işlənir.

İngilis dilində *cr* – fuzial tərkibinin omonim variant, eyni zamanda *çayçı, şaqqıltı, yarıq, çatlaq* mənası bildirən *crack* sözündə işlənir. *Cr* – tərkibinin *cur* – adekvatının işləndiyi müvafiq derivatlarda da bu mənaya uyğun çalarlıqlar bu və ya digər dərəcədə ifadə olunur. Məsələn, *curb* sözündə *quyu qatı, quyu qırağı*, *curve* sözündə isə *əymə, qövs, əyilmə, qırılma* mənaları bildirilir. *Qr* –fuzial tərkibi uyğun adekvat kimi eyni zamanda, rus dilindəki müvafiq sözlərdə də işlənərək ümumi məna çalarlığını əks etdirir. Belə ki, məsələn, ingilis dilində cr-tərkibinin iştirak etdiyi sözlərdəkinə uyğun olaraq rus dilindəki *кривать* (əyri-üyrü) oxşar məna çalarlıqları bildirilir. Azərbaycan dilində *qr* –füzial tərkibinin qır-adekvatında da ingilis və rus dillərindəki kimi məna xüsusiyyətləri ifadə olunur. Məsələn, *qırıq, qırılmaq, qırışıq, qırışdırmaq* kimi sözlərdəki məna uyğunluğu bu cəhətdən maraq doğurur.

İngilis dili analitik-flektiv quruluşa malik olduğu üçün bu dildə samitlərin yanaşması üzrə baş verən fuziallıq derivativ prosesdə xüsusi əhəmiyyətə malikdir. Azərbaycan dilində isə daha çox bu tipli fuzial elementlərin monosillabik vahidlərlə ifadə edilən adekvatlarının mövcudluğu müşahidə olunur. Ancaq bəzi sözlər də vardır ki, onlarda yanaşı samitlər sözün başlanğıcında yox, ortasında işlənməklə ingilis dilindəki variantla adekvatlıq təşkil edir. Məsələn, Azərbaycan dilindəki büdrə, titrə kimi sözlərdə *dr-, tr-,* samit yanaşmaları əslində ilkin monosillab tərkibin füziallaşmış tərkibindən ibarətdir. İlkin monosillabik kök füziallıqla flektiv variant düşərək quruluşca dəyişmiş və onun yaranan *bud-* və *tut-* tərkiblərinin özləri də müstəqil mənadan məhrum olmuşdur. Onlara məxsus olan təməl məna isə müvafiq derivatlarda ifadə edilmişdir.

Büdrəmək sözünün ümumi anlayışında *silkələnmək, yıxılmaq, dağılmaq* kimi məna çalarlıqları əks olunur. Sözün ilkin kök əsasını təşkil edən monosillabik variant itirildiyindən onu təxmini *dar* - tərkibi üzrə bərpa etmək olur. *Dar* –tərkibinin özü müstəqil olmadığından onun məna izi darmadağın sözünə görə təyin edilə bilər. *Dr* –tərkibini həmçinin, *dur* – sözünün mənası ilə də müqayisə etmək olar. *Dur* – sözünün durmamaq *(biryerdə dura bilməmək, ayaq üstə dayana bilməmək)* sözündə ifadə edilən məna çalarlığını *büdrəmək* sözü ilə müqayisə etdikdə müəyyən məna yaxınlığının mövcudluğu müşahidə olunur. *Büdrəmə* sözünə məxsus məna yaxınlığı, həmçinin, *tr* tərkibli titrəmə sözündə də müvafiq çalarlıqla ifadə edilir. *Titrəmə* sözünün *tr* tərkibi də *tir-tir əsmək* reduklikativ variantında öz məna çalarlığını əks etdirir. Rus dilində *dr* tərkibini *дрожяние* (titrəmə, əsmə, titrəyiş), *дрожать* (titrəmək, əsmək), *дрожев* (titrəmə, əsmə) sözləri ilə müqayisə etmək olur.

İngilis dilində isə *tr-, dr-* tərkiblərini *tremble* (titrəmək, əsmək), *trembling* (titrəyiş, əsmək), *tremor* (titrəyiş, əsmək) kimi derivatlarla müqayisə etmək mümkündür (14, 145-146).

Müqayisələrdən göründüyü kimi, fuziallıq və fleksiya daha çox analitik və flektiv dillərə xas olan əlamət kimi təsəvvür edildiyinə baxmayaraq ilkin informasiya mərhələsinə xas olan universallığa görə yeni kök modellərinin formalaşması prosesi ayrı-ayrı dillərdə ümumi əlamətlərlə səciyyələnmişdir. Müqayisəli tədqiqatlar nəticəsində bu ümumiliyin və oxşarlığın genetic səbəblərini axtarmaq, araşdırmaq və təyin etmək imkanlarını reallaşdırmaq mümkündür.

Ədəbiyyat

1. Алиев И.З. Типология структурно-коммуникативных и интонационных систем высказывания в якутском языке. Автореф. дисс. докт. филол. наук. Алма-Ата, 1994

2. Алексева Т.И. Описание единиц просодии русского и болгарского языка. Дисс. канд. филол наук. Москва, 1995

3. Абазбаев Н. Фонологическая структура-односложного слова во флективных и агглютинативных языках. Дисс. докт. филол. наук. Москва , 1988.

4. Аврорин В.А. Об основных различиях между агглютинативной и флективной аффиксацией. «Морфологическая структура слов в различных типов языка. Москва-Ленинград, 1963, с.

5. Баскаков Н.А. Историко типологическая морфология тюркских языков. Москва, Наука, 1979

6. Cəmilov F.A. Azərbaycan dilinin morfologiyası. Bakı, Maarif. 1989.

7. Джунусбеков А. Проблемы тюркской словесной проседики. Автореф. дисс. докт. филол. наук. Алма-Ата, 1988

8. Дубовский Ю.А. Анализ-синтез-анализ просодис устного текста и его составляющие (эксперментально-фонотическое исследование). Дисс. докт. филол. наук. Минск, 1978

9. Кайдаров А.Т.Структура односложных корней и основ в казахском языке. Алма-Ата, Наука, 1986.

10. Кайдаров А.Т. Кажибеков Е.З. Из опыта этимологических исследований корневых моносиллабов казахского языка. «Теория и практика этимологических исследований. Москва, Наука, 1986

11. Məhərrəmli B. Türk dillərinin qədim leksikası. Bakı, Xəzər Universiteti nəşriyyatı, 2017

12. Омарива С. Типология корневых слов английского языка в сопоставлении их русскими аналогами. Дисс. канд. филол наук. Уфа, 2006.

13. Лалимов Х.Х. Просодическая система татарского языка. Елабуса, 1999

14. Yusifov M. Linqvistik tipologiya. Bakı, Elm və təhsil, 2017

Г.В.Асланова

Фузиальные элементы с интимной связью
в предварительно положительном положении сгибание и отвод

Резюме

Развитие просодических односложных в генетическом составе языков характеризуется общими симптомами. Грамматическая и производная функциональность выражены в корне, т.к. в составе корня в качестве основной среды используются односложные элементы и не существует прикрепленного элемента. Актуальность интенсивности информации приводит к приобретению грамматической и производной функциональности. Следовательно, слова стали снабжаться соответствующими грамматическими средствами и производными элементами. Также появились различные способы гибкости, когда языки начинают переходить от тональности к плавности производного элемента. Средства гибкости также начали появляться из того же корня, как и другие производные . Однако в азербайджанском языке гибкость сохранила свои следы в рамках первичной информационной среды.

G.V.Aslanova

Fusial elements with intimate coupling in the pre-positive position flexion and derivation

Summary

The development of prosodic monosyllabs in the genetic composition of languages is characterized by common symptoms. The grammatical and derivative functionality is expressed by the syncretic method within the root., as there is no affixed element at the stage when monosyllabs are used as the main medium. The actualization of information intensity has resulted in the integration of grammatical and derivative functionality. Thus words began to be refined with appropriate grammatical means and derivative elements. The means of flexibility have also begun to emerge from the same root as other roots of survival. In the Azerbaijani language, however, flexibility has retained its traces in the framework of the primary information environment.

Rəyçi: filol.f.d., dos. H.Quliyev
Redaksiyaya daxil olub: 23.10.2019

F.Q.AYDƏMİROVA
e-mail: farida@mail.ru

Bakı Slavyan Universiteti
(Bakı şəh., S.Rüstəm küç., 25)

AZƏRBAYCAN DİLİNDƏ DÜZƏLTMƏ QURULUŞLU TERMİNLƏR

Açar sözlər: *termin, terminologiya, şəkilçi, alınma söz, terminyaratma.*
Ключевые слова: *термин, терминология, окончание, заимствованное слово, терминообразование.*
Key words: *term, terminology, affix, borrowed word, termin creating.*

Morfoloji üsulla terminlərinin əmələ gəlməsi digər yollarla yaranan terminlərə nisbətən öz məhsuldarlığı ilə seçilir. Bu da türk dillərindəki leksik şəkilçilərin çoxluğu ilə izah oluna bilər. Ümumiyyətlə, bütün tarixi dövrlərdə termin yaradıcılığında morfoloji üsul aparıcı rol oynamışdır. Tədqiqatçıların əksəriyyəti bu yolla söz yaradıcılığının daha çox milli dil qanunlarına əsaslandığını və daha məhsuldar olduğunu qeyd edirlər (5, s.96). Bunun əsas səbəbi türk dillərinin həm iltisaqi dil quruluşuna malik olması, həm də bu dillərdə sözdüzəldici şəkilçilərin kifayət qədər çox olması ilə əlaqədardır. M. Qasımovun araşdırmalarına görə "Hazırda təkcə Azərbaycan dilində terminlər yaradılarkən əlliyə qədər leksik şəkilçidən istifadə olunur" (4, s.127). Morfoloji üsulla termin yaradıcılığı da Azərbaycan dilində müxtəlif məfhumların milli dil vahidləri ilə ifadə olunması imkanlarının genişlənməsinə və dilin leksik qatında bu vahidlərin üstünlük təşkil etməsinə şərait yaradır. Morfoloji üsulla termin yaradılması əsasən məhsuldar şəkilçilərin ayrı – ayrı termin və sözlərə artırılması nəticəsində yeni yaranan terminlərlə izah oluna bilər.

Azərbaycan dilində morfoloji yolla əmələ gələn maliyyə terminlərinin yaradılmasında iştirak edən şəkilçiləri iki qrupa ayırmaq olar: a) milli şəkilçilər; b) alınma şəkilçilər.

Türk dillərinə xas olan şəkilçiləri demək olar ki, mənşəyindən asılı olmayaraq bütün sahə terminlərinə artırmaq mümkündür. Bu şəkilçilərdən fərqli olaraq, alınma şəkilçilər, əsasən, alınma terminlərə artırılır.

Morfoloji üsulla termin yaradıcılığı zamanı dildə mövcud olan və fəal işləkliyə malik olan sözdüzəldici şəkilçilərin müxtəlifliyi və onların qoşulduğu sözlərlə birlikdə malik olduqları semantik mənalar da diqqətdən kənarda qalmamalıdır. Terminlər nominativ funksiya daşımaq xüsusiyyətinə malik olduğundan onların böyük bir qismini isimlər təşkil edir. Yeni terminlərin formalaşması prosesində daha çox isimlərə leksik şəkilçilər artırmaqla peşə - sənət, ixtisas, müxtəlif fəaliyyət növü bildirən sözlərinin yaranması müşahidə olunur və məlum olduğu kimi Azərbaycan dilində çoxlu sayda məhsuldar və qeyri – məhsuldar leksik şəkilçilər vardır ki, onlar vasitəsilə adlardan və feillərdən yeni – yeni terminlər yaratmaq mümkündür. Prof. İ.Qasımov terminlərin yaranmasını: adlardan düzələn və feillərdən düzələn terminlər şəklində qruplaşdırmışdır (3, s.23). Bu baxımdan düzəltmə termin köklərini ifadə olunduqları nitq hissələrinə görə aşağıdakı kimi qruplaşdırmağı məqsədəuyğun hesab edirik:

1) kökü isim olan düzəltmə terminlər;
2) kökü feil olan düzəltmə terminlər.

Kökü isim olan düzəltmə terminlərdən yeni məzmunlu terminlər yaradarkən əsasən aşağıdakı sözdüzəldici şəkilçilərdən istifadə olunur:

I Adlardan maliyyə terminləri yaradan leksik şəkilçilər:

–çı[4] şəkilçisi. Bu şəkilçi məhsuldar şəkilçilərdən biri olub həm türk mənşəli, həm də alınma sözlərdən peşə, sənət, ixtisas, vəzifə və s. məzmunlu terminlər yaradır və bir çox terminoloji sahələrdə də öz aktivliyi və işlənmə tezliyi ilə seçilir və əsasən, isimlərə artırılaraq

müxtəlif məzmunlu terminlər yaradır. Məs: *əczaçı*, *icraçı*, *podratçı, payçı, inhisarçı, istehsalçı, iqtisadçı, əmanətçi və s.*

–lıq[4] şəkilçisi. Morfoloji üsulla formalaşan terminlər bəzən düzəltmə söz köklərinə sözdüzəldici şəkilçilər artırılması vasitəsilə də əmələ gələ bilir. – lıq şəkilçisi həm sadə, eyni zamanda düzəltmə söz köklərinə artırılaraq yeni terminlərin yaranmasına səbəb olur. Belə sözlərin kökü müxtəlif nitq hissələrinə aid ola bilər. Bu şəkilçi müxtəlif nitq hissələrinə artırılaraq konkret və ya mücərrəd terminlər yaradır. Türk dillərində isim köklərindən feil əmələ gətirmək üçün bir qayda olaraq – la, – lə şəkilçiləri işlənir. Sonra bu şəkilçilərə q, k əlavə edildikdə feillər yenidən ismə çevrilir. Dildə gedən bəzi semantik kombinasiyalar nəticəsində həm –laq, -ləк, həm də -lıq, -lik, -luq, -lük şəkilçiləri sabitləşmişdir. Bu şəkilçi bütün tarixi dövrlər ərzində yeni söz yaradılmasında ən fəal şəkilçilərdən biri olmuşdur. Dilimizdə bu şəkilçi vasitəsilə çoxlu sayda maliyyə termini yaradılmışdır və bu proses bu gün də davam edir: *hüquqşünaslıq*, *təbiətşünaslıq, inhisarlıq, partnyorluq, sahibkarlıq, mülkiyyətçilik, geoloqluq, icarəçilik, sələmçilik, qənaətçilik, israfçılıq, fakturaçılıq, agentlik və s.*

-lıq, (-liq, -luq, -lük) şəkilçisi əsasən müxtəlif sözdüzəldici şəkilçilərdən sonra sözə qoşularaq yeni terminlər əmələ gətirir ki, göstərilən nümunələr fikrimizi bir daha təsdiq etmiş olur.

–sız[4] şəkilçisi. -lı çəkilçisi ilə antonim mənalar yaradan bu şəkilçi də məhsuldar şəkilçilər sırasına daxil olub, həmin şəkilçilərin (-lı, -li,-lu,-lü) artırıla bildiyi sözlərə əlavə edilərək onlarla əks mənalı terminlər yaradır: *hüquqsuz*, *məcəlləsiz, güzəştsiz, əmlaksız, qiymətsiz, səmərəsiz, əmtəəsiz, ödənişsiz və s.*

–lı[4] şəkilçisi əşyalıq və keyfiyyət, əlamət bildirən terminlər yaradır, eləcə də isim və sifət düzəldən sözdüzəldici şəkilçilərdəndir: *gəlirli, səmərəli, güzəştli, lissenziyalı, rəqabətli, təhkimli, sığortalı, riskli və s.* Bu şəkilçilər də həm Azərbaycan mənşəli sözlərə, həm də alınma sözlərə artırılaraq müxtəlif sahə terminləri əmələ gətirir.

-laş[2], -laşdır şəkilçiləri vasitəsilə yaranan terminlər bunlardır: *dövrləşdir, səmərələşdir*, *özəlləşdir, qiymərsizləşdir, kooperativləşdir, maliyyələşdirmə*, *indeksləş, modelləşdir və s.*

Müasir türk dillərində bəzi alınma şəkilçilər vasitəsilə leksik vahidlər formalaşır ki, bunlar kəmiyyətcə azlıq təşkil etsələr də, Azərbaycan dilinin lüğət tərkibinin terminoloji sisteminin müəyyən bir hissəsi bu şəkilçilər vasitəsilə yaranmış sözlərdən ibarətdir. Ümumiyyətlə, alınma terminlərin bir hissəsi alınma şəkilçi ilə birlikdə dilə daxil olur ki, bunlar da, əsasən, bir cür yazılan şəkilçilərdir:

- dar şəkilçisi. Fars dilindən türk dillərinə keçən bu şəkilçi isimlərə qoşulur və müxtəlif sahələrə aid terminlər yaradır: *xəzinədar, icarədar, sərmayədar və s.*

-iyyat, -iyyət, -at, -ət şəkilçisi. Türk dillərinə ərəb dilindən keçmiş bu şəkilçi vasitəsilə yeni terminlər formalaşır: *ilahiyyat, mülkiyyət, kəmiyyət, əməliyyat, nisbiyyət, təxsisat və s.*

–iv şəkilçisi. Bu şəkilçi vasitəsilə yaranan terminlər bunlardır: *subyektiv, obyektiv, normativ, formativ, kooperativ, proqressiv və s.*

-izm, -ist şəkilçisi. Bu şəkilçi rus dilindən Azərbaycan dilinə keçmiş şəkilçilərdən olub, qoşulduğu sözlərdən iqtisadi – siyasi anlam kəsb edən terminlər düzəldir: *sosializm, kapitalizm, bimettolizm, bullionizm, sosialist və s.*

-ma[2] şəkilçisi. Omonim şəkilçi olan –ma şəkilçisi həm suffiks, həm də prefiks rolunda çıxış edir: *mədaxil, məxaric və s.*

II Feillərdən termin yaradan sözdüzəldici şəkilçilər:

– ış[4] şəkilçisi feillərə artırılaraq müxtəlif mənal terminlər yaradır və məhsuldar şəkilçilərdən hesab olunur. Bu şəkilçi vasitəsilə hərəkət və proses mənası ifadə edən terminlər yaranır: *artış, satış, ödəniş, atış, uduş, yüksəliş və s.*

- ıcı[4] şəkilçisi. Bu şəkilçi vasitəsilə peşə, sənət və ixtisas bildirən terminlər yaranır: *göstərici, səmərələşdirici, satıcı və s.*

-ma[2] şəkilçisi də məhsuldar şəkilçilərdən olub, feillərə artırılaraq ad bildirməklə müxtəlif səciyyəli sözlər yaradır. S.Cəfərov bu münasibətlə yazır: "Öz mənşəyi etibarı ilə -maq, -mək məsdər şəkilçilərindən törəmiş olan bu şəkilçi vasitəsilə dilimizdə atributiv isimlər əmələ gətirilir" (2, s.193). S.Sadıqova yazır: "Bu şəkilçidən terminlərin yaranmasında daha çox istifadə olunmasının əsas səbəbi də elmdə hərəkət və proseslə bağlı anlayışların daha zəngin olmasıdır". (5, s.79)

Fikrimizcə, kəmiyyət etibarilə daha çox termin düzəldən –ma, –mə şəkilçisi feil köklərinə qoşularaq müxtəlif sahələrə aid terminlər yaratmağa xidmət edən şəkilçilər arasında ən məhsuldarıdır. Çünki terminologiyada –ma, –mə şəkilçilərinin feillərə artırılması yolu ilə terminlərin yaradılması üsulundan geniş istifadə olunur: *adekvatlaşma, standartlaşma, kreditləşmə, smetalaşdırma* və s.

Deyilənlərdən belə bir qənaətə gəlmək olar ki, morfoloji üsulun termin yaratmaq sahəsindəki rolu bütün dövrlərdə böyük əhəmiyyət kəsb etmişdir. Morfoloji üsulla termin yaradıcılığı Azərbaycan dilinin lüğət fondunun zənginləşməsində xüsusi rol oynayır və bu üsulla termin yaradıcılığı Azərbaycan dilində ən fəal və əlverişli sözyaratma üsullarından biri olmaqla bu gün də öz məhsuldarlığı ilə seçilir.

Ədəbiyyat

1. Xəlilov B. Müasir Azərbaycan dilinin leksikologiyası. Bakı: Zərdabi LTD, 2015.
2. Cəfərov S. Müasir Azərbaycan dili. Bakı: Maarif, 1970.
3. Qasımov İ. Müasir Azərbaycan dilində hərbi terminlərin yaranma yolları. Bakı: Nurlan, 2000.
4. Qasımov M. Azərbaycan dili terminologiyasının əsasları. Bakı: Elm, 1973.
5. Sadıqova S. Azərbaycan dilində fizika-riyaziyyat terminlərinin formalaşması və inkişafı. Bakı: Elm, 1997.

Ф.Г.Айдамирова

Условия исправления в азербайджанском языке

Резюме

В данной статье анализируется морфологический способ образования терминов, дается сравнение данного способа с другими способами словообразования. Анализируется особенности лексических суффиксов, с помощью которых образуются термины. В Азербайджанском языке суффиксы присоединяясь как к исконно азербайджанским, так и к заимствованным словам, могут образовать финансовые термины. Наоборот, заимствованные суффиксы присоединяются только к заимствованным словам и образуют термины.

F.G.Aydamirova

Terms in the Azerbaijani language

Summary

This article analyzes the morphological way of term formation, compares this method with other word-formation methods. Are analyzed the peculiarities of lexical suffixes, with the help of which terms are formed. In the Azerbaijani language, suffixes joining both native Azerbaijani and borrowed words can form financial terms. On the contrary, borrowed suffixes are added only to borrowed words and form terms.

Rəyçi: prof. İ.Z.Qasımov

Redaksiyaya daxil olub: 20.09.2019

C.M.BABAYEV

Azərbaycan Dillər Universiteti
(Bakı şəh., R.Behbudov küç., 60)

ÇOXMƏNALI SÖYLƏMLƏRİN KOMMUNİKATİV-PRAQMATİK XÜSUSİYYƏTLƏRİ

***Açar sözlər**: söyləm, çoxmənalılıq, immanentlik, işarələyən, işarələnən, asimmetriya, semantika*
***Ключевые слова**: высказывание, полисемия, имманентность, означающее, означаемое, асимметрия, семантика*
***Key words**: utterance, polysemy, immanent, signifier, signified, asymmetry, semantics*

Kommunikativ-praqmatik yanaşma çərçivəsində söyləmin polisemantik vahid kimi daha dərindən araşdırılması, habelə çoxmənalı söyləmlərin şərhi üçün metodların işlənib hazırlanması sintaktik tədqiqatların aktual məsələlərindən biridir. Sintaktik strukturların öyrənilməsinə həsr edilmiş çoxsaylı fundamental tədqiqatların olmasına, o cümlədən həmin tədqiqatlarda inkişaf etdirilən nəzəriyyələrin müxtəlifliyinə baxmayaraq, çoxmənalı söyləmlərin kommunikativ məqsədə çatmaq, daha dəqiqi, praqmatik yönümlü söyləmlərin funksional baxımdan təsvir və şərhinə dair araşdırmalara dilçilikdə hələ də ehtiyac duyulmaqdadır. Çoxsəviyyəli işarələr sistemini təmsil edən təbii dilin immanent xüsusiyyətlərindən biri dil işarəsinin asimmetrikliyi, yəni işarələyən və işarələnən arasımda tam üst-üstə düşmənin olmamasıdır. Dil işarəsinin asimmetrik dualizmi ideyası dilçilikdə S.O.Karsevskiyə məxsusdur. Onun fikrincə, "işarələyən (səslənmə) və işarələnən (funksiya) "reallığın maili müstəvisində" daima sürüşməkdədir. Onlardan hər biri tərəf müqabilinin onun üçün hazırladığı çərçivəsindən çıxır: işarələyə başqa funksiyalara malik olmağa can atır, işarələnən isə özünün başqa vasitələrlə ifadə etməyə cəhd edir. Onlar cütlük olmalarına baxmayaraq, asimmetrikdirlər, sabit olmayan tarazlıq vəziyyətindədirlər" (1, s.90).

İşarələnənin öz çərçicəsindən çıxması sinonimiyanı, işarələyənin analoji cəhdi isə polisemiyanı törədir. Deməli, hər bir işarə eyni zamanda həm sinonimik, həm də çoxmənalıdır. Başqa sözlə, bir işarə bir neçə məzmun elementinə uyğun gələ bilər və, əksinə, bir məzmun elementi müxtəlif işarələrlə ifadə oluna bilər. Dil işarələrinin universallığını nəzərə alsaq, onda polisemiyanın universallığını hadisə hesab edə bilərik. Polisemiya ümumsemiotik baxımdan dildə qənaətin təzahürü, insan təfəkkürünün təsnifləşdirmə və ümumiləşdirmə fəaliyyətinin nəticəsidir. Omonimik və polisemik vasitələrin hesabına eyni bir dil forması müxtəlif işlənmə məqamlarında eyni bir zamanda fərqli mənalar ifadə edə bilər. Məsələyə münasibət bildirən S.Ulmann qeyd edirdi ki, "polisemiya, çox ehtimal ki, dilin fundamental strukturunda kök atmış semantik universaliyadır" (2, s.267).

Dilin ontoloji və funksional xüsusiyyətini təmsil edən polisemiya nominasiya məsələsidir. Forma və məzmunun münasibətlərini araşdıran Y.S.Stepanov qeyd edirdi ki, "dilin təbii fəaliyyəti "birin birə" münasibətinin yerdəyişməsinə gətirib çıxarır və "birin iki və daha artığa, bir fonetik sözün çoxlu predmet və mənalara münasibəti" kimi çoxmənalılığı törədir" (3, s.20).

Dil vahidlərinin polisemiyası dil işarəsinin iki tərəfinin asimmetriyasına, dil və təfəkkürün əksetdirmə və ümumiləşdirmə qabiliyyətinə əsaslanan linqvistik universaliyadır. Dilin təhlilinə kommunikativ-praqmatik yanaşma onun göstərir ki, kommunikasiya prosesində dil forması və məna 1:1 nisbəti kimi deyil, bir forma bir neçə məna və ya, əksinə, bir məna bir necə dil formasının reprezentasiyası kimi müəyyənləşdirilir. Kommunikativ-praqmatik yanaşma çərçivəsində dil vahidlərinin təhlili konkret reallaşma şəraitində götürülür və dilin təhlilində çıxış nöqtəsi kimi söyləm qəbul edilir. Q.V.Kolşanskiyə görə, "söyləm təkcə və abstrakt olanın dialektikasını özündə ehtiva edən real vahiddir, başqa sözlə, forma və mənanın (onların

konkret dolumu) predikasiya yalnız tipinə görə deyil, kommunikatiş şəraitin (kontekstlərin) bütün məcmusu ilə müəyyənləşdirilən struktura malikdir (4, s.60).

Danışan ötürülən məlumatın dillə ifadəsini tapmaq üçün sintaktik konstruksiyaları müəyyən bir məqsədlə işlədir, halbuki həmin konstruksiyalar digər mənalara da malik olur və danışan əksər hallarda işlədilən mənaları hiss etmir. Dinləyən isə danışanın söylədiyini dil materialı əsasında açmağa və dərk etməyə çalışır. Sintaktik sinonimliyi adətən ayrıca bir cümlə səviyyəsində nəzərdən keçirmək mümkündür. Cümlənin ikili anlaşılmasının əsasında onda reallaşan çoxmənalı sözün olmasından asılıdır. Müxtəlif məna ifadə edən, lakin formasına görə üst-üstə düşən sintaktik konstruksiyalar çoxmənalı hesab edilir. Bu zaman əsa şərt üst-üstə düşən nitq kəsiklərinin sintaktik strukturların daxilən fərqlənmələridir. Məsələn, /Mən onu hələ uşaq ikən tanıyırdır// cümləsi iki cür şərh edilə bilər: /Mən onu hələ özüm uşaq olandan tanıyırdım// və /Mən onu hələ onun uşaq olduğu vaxtdan tanıyırdım//.

U.Çeyf də sintaktik formanın çoxmənalılığına oxşar şərhi verir: "çoxmənalılıq iki və daha artıq söyləmin fonetik cəhətdən deyil, semantik cəhətdən fərqlənməsidir. /*Peter is standing up//* söyləmi /Pyotr dayanır// və /Pyotr qalxır//" (5, s.94). Bu, ona görə, "mümkün şərhlərin qeyri-müəyyənliyi yox, iki tam fərqli mənadır"(5, s.94).

Sintaktik çoxmənalılığı dil və danışıq dixotomiyasından çıxış edərək dil və danışığa aid olmaqla fərqləndirmək olar. Dil xas ikimənalılığı ya dilin qrammatikasında (sintaktik konstruksiyaların çoxmənalılığı) və ya leksik sistemdə (leksik çoxmənalılıq) gizlənir. Cümlənin bu cür üzvlənməsinə onun tərkibinə daxil olan sözün ikimənalılığı yox, ona iki cür sintaktik strukturun – isimlər arasında obyektiv və təyini əlaqə aid edilməsindən asılı olaraq iki cür anlaşılması imkan verir. Məsələn, /Mən xəstəxanaya düşdüm// cümləsində referentin birliyi saxlanılmaqla siqnifikativ səviyyədə ikimənalılıq meydana çıxır. 1-ci halda /Mən müəyyən təsiqlərə məqruz qalmışam//, 2-ci halda isə /Mənim müəyyən məkana daxil olmağım// kimi şərh edilə bilər.

Danışığa aid çoxmənalılığa gəldikdə isə onu mətndə cümlənin ekstralinqvistik amillərin təsiri altında ikili anlaşılması kimi şərh edilə bilməsi kimi başa düşmək olar. Məsələn, ¿İstanbulu kim fəth edir? və ya ¿Qutuda nə var? söyləmləri iki cür şərh edilə bilər. Bu söyləmlərdə sualı verən şəxs informasiya almaq və ya adresatın məlumatlılıq səviyyəsini yoxlamaq məqsədi daşıdığı ifadə olunur. Bu isə bizə sintaktik konstruksiyaların çoxmənalılığında yalnız sintaktik və leksik amillər deyil, həm də kommunikativ-praqmatik amillərin xüsusi rol oynadığını qeyd etməyə əsas verir.

Polisemiya yalnız sintaktik vasitələrlə baş tutduqda sintaktik polisemiya adlandırıla bilər. Məsələn, /Qoca odunla dolu saraya girdi// cümləsində sintaktik üzvlənmədən asılı olaraq üst qatda fərqli mənalar ifadə olunur. Birinci halda /Qoca odunla / dolu saraya girdi//, ikinci halda isə /Qoca odunla dolu/ saraya girdi//.

Söyləmin polisemiyasına kontekstin təsiri var. V.A.Zvegintsevin qeyd etdiyi kimi, "cümlə yuxarıdan – mətndən öz mənasını alaraq kommunikativ (informasiya) sinsemantiyaya malikdir" (6, s.88). M.M.Baxtin yazırdı: "konkret söyləm bir qayda olaraq dəyər-məna kontekstində verilir. ... yalnız kontekstdə söyləm canlı və mənalıdır ... o doğrudur, ya yalandır, ya gözəldir, ya da aldadıcıdır və s." (7, s.294). S.D.Katsnelson haqlı olaraq qeyd edir ki, "ardıcıllıqlarından nitqin yarandığı cümlələr avtonom vahidlər deyillər. Cümlənin tərkibi yalnız propoziaiyanın məzmunu ilə deyil, həm də tərkibinə daxil olduğu mətnin strukturu ilə müəyyən edilir" (8, s.423). Cümlənin siqnifikatı təsvir olunan hadisənin prototipi çıxış edir. Propozisiya semantik təhlilin mərkəzi anlayışıdır. E.V.Paduçevanın fikrincə, propozisiya "cümlənin dildə predikativ qruplarla ifadə olunan potensial konseptidir" (9, s.36-37). Məsələn, Azərbaycan dilində /Yağış yağır// və rus dilində /Идет дождь// cümlələri eyni təsəvvürlərin kompleksini təmsil edirlər.

Semantik amillərin vacibliyi alt və üst qatların fərqləndirilməsinə, transformasiya isə alt qatın üst qata çevrilməsi kimi izah edilməsini tələb edir. Cümlənin alt və üst qatlarının müna-

sibəti məsələsi forma və məzmun kimi ümumi problemin aspektlərindən biridir. Semantik amilin vacibliyini şərtləndirən əsas məqam ondan ibarətdir ki, alt və üst strukturlar ideyası sintaksisdə müxtəlif interpretasiyalara imkan verənə mforma və məzmun arasındakı münasibətlərin birmənalı olmamasının səmərəli həllini tapmaq cəhdindən yaranmışdır. Cümlələrin çoxmənalılığı leksikvə qrammatik amillərlə şərtlənə bilər. N.Xomski cümlənin alt qatı altında onun semantik şərhini təyin edən strukturu, üst qatını isə həmin cümlənin fonetik şərhini müəyyənləşdirən struktur kimi başa düşür (10, s.20). N.Xomskinin fikrincə, "üst struktur adətən özündə cümlənin mənasına olduqca az işaréni ehtiva edir" (11, s.43). Dildə üst strukturda aşkarlanmayan sonsuz sayda çoxmənalı cümlələr vardır. Məsələn, /I disapprove of John's drinking// (Mənim xoşuma gəlmir ki, Con içir) cümləsi ya "Conun işməsi faktına", ya da bu hərəkətin xarakterinə aid edilə bilər. Cümlədəki bu cür ikimənalılıq fərqli şəkildə həll edilir: a) /I disapprove of John's drinking the beer// (Conun pivə içməsi mənim xoşuma gəlmir); b) /I disapprove of John's excessive drinking// (Conun həddindən artıq işdiyi mənim xoşuma gəlmir) (11, s.43).

Hər bir sintaktik formanın mənası alt qatdan semantik şərh qaydaları vasitəsilə üzə çıxarılır. Dildə yeni cümlə danışana məlum və hazır model və ya sxem üzrə həmin konstruksiyanın konkret leksemlərlə dolumu hesabına qurulur. Alt və üst sintaktik strukturlar nəzəriyyəsi cümlədə iki tip sintaktik münasibətlərin olmasından – üst, yəni həmin cümlədə formal bilavasitə ifadə olunanlardan (morfoloji, söz sırası və s.) və alt, yəni həmin cümlənin semantik cəhətdən identik digər cümlələrlə müqayisəsindən aşkar olunur. Cümlənin alt struktur anlayışı işarələyənlə, yəni onun ifadə etdiyi münasibətlərlə bağlıdır. Cümlə özünün işarələdiyi olan işarələyənlər sinfinə aiddir. Bir faktda əhəmiyyətlidir ki, eyni tip sintaktik əlaqə üst qatda müxtəlif strukturlarla ifadə oluna bilər. V.İ.Qak alt strukturu situasiyaya izomorf leksik-sintaktik struktur kimi təsvir edir: "sintaktik kateqoriyalar (cümlə üzvləri) substansiyaların real funksiyalarına və prosesdə əlamətlərə uyğun gəlir. Cümlə üzvləri arasında münasibətlər prosesin elementləri rasında real münasibətləri ikonik şəkildə əks etdirir. Lakin üst strukturlarda sintaktik funksiyalar özlərinin təsviri xarakterini əhəmiyyətli dərəcədə itirirlər və daha çox xalis quruluş, təşkiledici funksiya qazanırlar (12, s.80).

Məsələn, /Tələbə imtahan verdi//, /İmtahanı tələbə verdi//, /İmtahan verən tələbə// və b. konstruksiyalarda alt sintaktik münasibətlər eyni olduğu halda, üst sintaktik münasibətlər hər dəfə fərqli şəkildə ifadə olunmuşdur. Əks münasibət xarakteri - yəni eyni üst struktur müxtəlif alt qatlarla ifadə olunması da geniş yayılmışdır. Məsələn, /Professorun dəvəti hamını sevindirdi//. Birinci halda /professor kimisə dəvət edir/, ikinci halda isə /professor dəvət edirlər/.

Söyləmin sintaqmatk üzvlənməsi danışanın öz fikrini dinləyənə çatdıqmasında mühüm rol oynayır. Məsələn, /Gənc jurnalist müsahibinə sual verdi// cümləsi sintaqmatik üzvlənmədən asılı olaraq fərqli mənalar ifadə edə bilər: *1) /Gənc (NP)/ jurnalist müsahibinə(NP)/ sual verdi (VP)//; 2) /Gənc jurnalist (NP)/ müsahibinə (NP)/ sual verdi (VP)//.*

Cümlə üzvlərinin sintaktik funksiyalarının dəyişməsi üst strukturda sabit qalan cümlənin alt qatda iki sintaktik strukturla ifadə olunur. Sintaqma danışıq konsituasiyasında konkret məna kəsb edir. Bu zaman, F.Y.Veysəllinin də qeyd etdiyi kimi, "deyilənin anlaşılmasında kontekst mühüm rol oynayır" (13, s.292). Cümlənin formal-qrammatik strukturu fonetik vasitələrin təsiri altında dəyişir - "sintaqmlara üzvlənmə linqvstik, fizioloi və psixoloji amillərin sayəsində baş tutut" (14, s.91).

Bəzi cümlələr müxtəlif dillərdə işlənməsindən asılı olmayaraq ikimənalılıq kəsb edir: /Преследование тигра закончилось неудачей// - (Pələnglərin təqibi uğursuzluqla nəticələndi) cümləsi hər iki dildə fərqli mənada şərh edilə bilir: 1) /Pələnglər təqib edir və bu uğursuzluqla nəticələndi//; 2) /Pələnglər təqib edilirlər və bu uğursuzluqla nəticələndi//.

Cümlənin semantikasını ifadə edən alt qat mənanın, transformasiya qaydalarının tətbiqi ilə alt qatdan çıxarılan üst strukturlar sintaktik vahidlərin fonoloji şərhinə xidmət edirlər. Sintaksisdə çoxmənalılıq müxtəlif nitq hissələrin omonimliyi, yəni eyni bir əşyavi formaya

müxtəlif formal semantik söz siniflərinin uyğunluğu kimi başa düşülən konversion omonimlik nəticəsində yaranır. Bu zaman nitq hissələrinin cümlə üzvlərinə konversiyası baş verir. Məsələn, /İşçi briqadaları vəzifələrini yerinə yetirdilər// cümləsi aşağıdakıları ifadə edə bilər: /Briqada işçiləri vəzifələrini yerinə yetirdilər// və ya /İşçi briqadaları vəzifələrini yerinə yetirdilər//. 1-ci nümunədə /briqada işçiləri/ isim/, 2-də isə /işçi/ təyin funksiyasında çıxış edir.

Sintaktik çoxmənalılıq hadisəsinə cümlənin müxtəlif cür sintaqmatik üzvlənməsində müşahidə etmək olar: /Xahiş edirəm ikinci dəfə axtarış aparın//. Cümlədə təkrar bir halda /axtarışa/, digər halda isə /xahiş edirəmə/ aid ola bilər. Bu səbəbdən də verilmiş nümunədə birinci sintaqmatik üzvlənmədə /Xahiş edirəm / təkrar axtarış aparın//, ikinci sintaqmatik üzvlənmədə isə /Xahiş edirəm təkrar / axtarış aparın//.

Çoxmənalılıq dil (alt qat) və danışıq (üst at) səviyyələrində nəzərdən keçirilə bilən nuniversal linqvistik kateqoriyadır və buna görə də hər iki səviyyədə araşdırıla bilər. Cümlə dil səviyyəsindən danışıq səviyyəsinə keçərkən müəyyən dəyişmələrə məruz qalır. Danışıq aktında alt qatın üst qatda təzahüründə çoxmənalılıq (ambiquentlik) yaranır. Söyləmin çoxmənalılığını müəyyənləşdirmək üçün onun leksik dolumunu və ya qrammatik strukturunu deyil, həm də onun reallaşdığı kommunikativ-praqmatik situasiya nəzərə alınmalıdır.

Ədəbiyyat

1. Карцевский С.О. Об асимметричном дуализме языкового знака // В.А.Звегинцев. История языкознания XIX-XX веков в очерках и извлечениях. М.: Просвещение, 1965, ч.2, с.85-90.
2. Ульманн С. Семантические универсалии // Новое в лингвистике. М., 1970, Вып.5, с. 250-299.
3. Степанов Ю.С. Основы общего языкознания: Учебное пособие для студентов филол. спец. пед. ин-тов. М.: Просвещение,1975, 271 с.
4. Колшанский Г.В. Коммуникативная функция и структура языка. М.: Наука,1984, 176 с.
5. Чейф У. Значение и структура языка. М.: Прогресс, 1975, 431 с.
6. Звегинцев В.А. Предложение и его отношение к языку и речи. М.: Изд-во Московского Университета, 1976, 308 с.
7. Бахтин М.М. Работы 20-х годов. Киев: Next, 1994, 384 с.
8. Кацнельсон С.Д. Послесловие. Семантико-грамматическая концепция У.Чейфа //У.Чейф. Значение и структура языка. М.: Прогресс,1975, с.407-427.
9. Падучева Е.В. Высказывание и его соотнесенность с действительностью (референциальные аспекты семантики местоимений). М.: 1985, 271 с.
10. Хомский Н. Аспекты теории синтаксиса. М.: МГУ, 1972, 259 с.
11. Хомский Н. Язык и мышление. М.: МГУ, 1972, 122 с.
12. Гак В.Г. К проблеме синтаксической семантики (семантическая интерпретация “глубинных” и “поверхностных” структур) // Инвариантные синтаксические значения и структура предложения. М.: Наука, 1969, с.77-86.
13. Veysəlli F.Y. Seçilmiş əsərləri. I cild, Bakı, Mütərcim, 2009, 640 s.
14. Veysəlli F.Y. Dilçiliyə giriş. Dərs vəsaiti Bakı, Mütərcim, 2017, 456 s.

Дж.М.Бабаев

Коммуникативно-прагматические особенности многозначных высказываний

Резюме

Статья посвящена исследованию коммуникативно-прагматических особенностей многозначных высказываний. В статье проблема изучается на основе конкретных источников. В ней авторам затрагивается проблема глубинной и поверхностной структуры. На основе существующих источников определяется уровень изучения проблемы. В статье также подчеркивается, что идея асимметричности языкового знака принадлежит С.О.Карцевскому. В статье также указывается, что при отстранении многозначности высказываний особую роль играют синтагматическое членение и конситуация. С этой целью в статье использованы конкретные примеры.

J.M.Babayev

The communicative-pragmatic features of polysemantic utterance

Summary

The article deals with the communicative-pragmatic features of polysemantic utterances. The article investigates the concrete sources relating to the discussed topic of the article. The author has touched upon the problems of the deeper and upper surfaces of the meanings. The problem's investigated level has been analyzed due to the current theoretical sources. The article underlines that the idea of the asymmetry of language signs belongs to S.O.Karsewsky who is known to have suggested the mentioned idea for the first time in linguistics. The syntagmatic linking as well as consituation have an important role in order to clarify the polysemy of the sentences. The concrete examples have been used for this purpose in the article.

Rəyçi: filol.e.d., prof. F.Y.Veysəlli

Redaksiyaya daxil olub: 29.09.2019

F.M.ƏMİROVA

Azərbaycan Dillər Universiteti
(Bakı şəh., R.Behbudov küç., 60)

AZƏRBAYCAN VƏ ALMAN DİLLƏRİNDƏ İSİMLƏRİN CƏM ŞƏKLİNİN DÜZƏLDİLMƏSİ

Açar sözlər: *isim, tək, cəm, suffiks, umlaut*
Ключевые слова: *имя существительное, единственное число, множественное число, суффикс, умлаут*
Key words: *noun, singular, plural, suffix, umlaut*

Azərbaycan dilində isimlər tək və cəm olur. Cəmdə işlənərkən isimlər lar[2] şəkilçisini qəbul edir, məsələn, dəftər-dəftərlər, şagird-şagirdlər və s. Lar[2] şəkilçisi əşyanın iki və ikidən artıq olan çoxluğunu bildirir. Əşyanın konkret çoxluğunu bildirmək üçün isə ismin əvvəlinə say artırılır, məsələn, iki bacı, on tələbə və s. Belə halda isimlər cəm şəkilçisini qəbul etmir. (demək, iki bacılar, on tələbələr işlətmək səhvdir) (1, s.35)

Xüsusi isimlər cəmdə işlənə bilir və bu zamanlar[2] şəkilçisini qəbul edir. Məsələn, a) bəzən qürur, vətənpərvərlik, fərəh hisslərini qabarıq vermək üçün xüsusiyyətlər (şəxs adları) lar[2] cəm şəkilçisi ilə işlənir, məsələn, Nəsimilər, Füzulilər və s.

b) Üslubla bağlı olaraq lar[2]cəm şəkilçisi şəxs adlarına qoşulmaqla kinayə, rişxənd mənalarını bildirir, məsələn, Bədbəxt Tükəzbanları neylərdin, İlahi və s.

Varlığı tək olması ilə fərqlənən əşyaların adlarına xüsusi isimlər deyilir. Xüsusi isimlərə aşağıdakılar daxildir:

1) İnsan adları, soyadlar, təxəllüs və ləqəblər: Fuad, Ləman, Həsənli, Qaraçuxurlu, Bakılı və s.
2) Coğrafi və astronomik adlar: Qarabağ, Şəki, Günəş, Planet və s.
3) Qəzet, jurnal və əsər adları: "Poliqlot", "İki sahil", "Xəmsə", "Komsomol" və s.
4) Heyvanlara verilən xüsusi adlar: Məstan, Alabaş və s.

Xüsusi isimlər böyük hərflə yazılır. Qəzet, jurnal, əsər, zavod və s. Adlar dırnaq içərisində və böyük hərflə yazılır. Məsələn: "Dəli Kür" (əsər), "Azərbaycan" (jurnal), "İki sahil" (qəzet) və s. (2, s.46)

Dilimizdə elə isimlər var ki, onların məzmununda çoxluq, topluluq anlayışı var. Belə isimlər toplu isimlər adlanır. Məsələn, camaat- bir yerin adamları, bir yerə yığışmış adamlar; xalq- ölkənin sakinləri, əhalisi; sürü- eyni cür heyvanların dəstəsi (qoyun sürüsü, ceyran sürüsü və s.) (1, s.37). Toplu isimlərin çoxu (camaat və əhali sözləri istisnadır) cəm şəkilçisi qəbul edir: xalqlar, ellər, sürülər, və s. Toplu isimlərlə əlaqədə olan xəbər təkdə işlənir. Məsələn, El yaylağa köçür. Xalq azadlığına qovuşdu və s. (2, s. 47).

Azərbaycan dilindən fərqli olaraq, Alman dilində ismin cəm şəklini düzəltmək üçün bir neçə vasitə vardır:

1) Suffiks
2) Umlaut
3) Artikl

İsmin cəmini düzəltmək üçün əsas vasitə suffikslərdir, amma bəzi isimlərin cəmi suffukssiz də düzələ bilir. Alman dilində ismin 5 tip cəmlənmə növü var.1-ci tipə aid olan isimlər cəmdə -e suffiksi qəbul edirlər. Kökündə a, o, u saiti olan isimlər bəzən Umlaut da qəbul edirlər. Bu tipə əksər tək hecalı kişi cinsli isimlər daxildir. Məsələn:

- der Tag- die Tage (gün)
- der Hund- die Hunde (it)

- der Stoff- die Stoffe (parça)
- der Tisch- die Tische (stol)
- der Schuh- die Schuhe (ayaqqabı)
- der Stuhl- die Stühle (stul)
- der Schrank- die Schränke (şkaf)
- der Sohn- die Söhne (oğul)
- der Gast- die Gäste (qonaq)
- der Kopf- die Köpfe (baş)
- der Ball- die Bälle (top)
- der Arzt- die Ärzte (həkim)

Bir qrup tək hecalı qadın cinsli isimlər də bu tipə aiddir. Məsələn:

- die Hand (əl)- die Hände
- die Wand (divar)- die Wände
- die Nacht (gecə)- die Nächte
- die Frucht (meyvə)- die Früchte
- die Kunst (incəsənət)- die Künste
- die Kuh (inək)- die Kühe
- die Luft (hava)- die Lüfte
- die Brust (döş, sinə)- die Brüste
- die Kraft (güc, qüvvət)- die Kräfte
- die Bank (bank, skamya)- die Bänke
- die Gans (qaz)- die Gänse

Bir sıra orta cinsli isimlər də bu tipə aiddir və Umlautsuz -e qəbul edirlər. Məsələn:

- das Heft (dəftər)- die Hefte
- das Jahr (il)- die Jahre
- das Tor (darvaza)- die Tore
- das Tier (heyvan)- die Tiere
- das Diktat (imla)- die Diktate
- das Lineal (xətkeş)- die Lineale
- das Dokument (sənəd)- die Dokumente və s.

Qeyd: -nis və -sal suffiksi ilə bitən orta cinsli isimlər də buraya daxildir: xüsusən, -nis suffiksi olan sözlərin sonundan -s cəmdə iki -s hərfi ilə yazılır. Məsələn:

- das Ereignis (hadisə)- die Ereignisse
- das Ergebnis (nəticə, nailiyyət)- die Ergebnisse
- das Verhältnis (münasibət)- die Verhältnisse
- das Schicksal (tale)-die Schicksale və s. (3, s.25)

Kişi cinsinə aid olan -al, -ar, -ier, -ienr, -an, -on, -är suffiksli alınma isimlər də Umlautsuz -e qəbul edirlər. Məsələn:

- der Admiral (admiral)-die Admirale
- der Kommissar (komisar)-die Kommissare

- der Offizier (zabit)-die Offiziere
- der Ingenieur (mühəndis)- die Ingenieure
- der Partisan (partizan)- die Partisane
- der Spion (casus)- die Spione
- der Sekretär (katib)- die Sekretäre və s. (3, s.25)

2-ci tipə aid olan isimlər cəmdə (e)n şəkilçisi qəbul edirlər.Bu tipə əksər qadın cinsli isimlər daxildir. Xüsusən də təkdə- e, -er, -el sonluğu ilə bitən qadın cinsli isimlər cəmdə -n, qalanları isə -en qəbul edirlər. Məsələn:

- die Lampe (lampa)- die Lampen
- die Karte (xəritə, bilet)- die Karten
- die Brille (eynək)- die Brillen
- die Blume (çiçək)- die Blumen
- die Kreide (təbaşir)- die Kreiden
- die Straße (küçə)- die Straßen
- die Schwester (bacı)- die Schwestern
- die Tafel (lövhə)- die Tafeln
- die Gabel (çəngəl)- die Gabeln

Sonu -ung, -hert, -keit, -schaft, -ei, -in suffikləri ilə bitən qadın cinsli isimlər cəmdə -en qəbul edirlər. Məsələn:

- die Übung (çalışma)- die Übungen
- die Gesundheit (sağlamlıq)- die Gesundheiten
- die Möglichkeit (imkan)- die Möglichkeiten
- die Gesellschaft (cəmiyyət)- die Gesellschaften
- die Bäckerei (çörəkxana)- die Bäckereien
- die Lehrerin (müəllimə)- die Lehrerinnen

Sonu -ie, -tät, -tion, -ik, -ur suffiksləri ilə bitən başqa dillərdən alınma qadın cinsli isimlər:

- die Melodie (melodiya)- die Melodien
- die Universität (universitet)- die Universitäten
- die Intonation (tələffüz)- die Intonationen
- die Politik (siyasət)- die Politiken
- die Kultur (mədəniyyət)- die Kulturen və s.

Zəif hallanmaya daxil olan sonu -e ilə bitən canlı kişi cinsli isimlərin hamısı bu cəmlənməyə aiddir. Məsələn:

- der Junge (oğlan)- die Jungen
- der Kollege (həmkar)- die Kollegen
- der Genosse (yoldaş)- die Genossen
- der Knabe (oğlan)- die Knaben
- der Russe (rus)- die Russen
- der Affe (meymun)- die Affen və s.

Əvvəllər sonunda -e olmuş, sonradan bu -e-ni itirmiş canlı varlıqları bildirən kişi cinsli isimlər:

- der Mensch (insan)- die Menschen
- der Held (qəhrəman)- die Helden
- der Herr (cənab)- die Herren
- der Hirt (çoban)- die Hirten
- der Bär (ayı)- die Bären
- der Graf (qraf)- die Grafen və s.

Sonu -ent, -ant, -ist, -at, -ot, -et, -it, -nom, -log, -soph, -arch, -graph suffiksləri ilə bitən başqa dillərdən alınmış kişi cinsli isimlər:

- der Student (tələbə)- die Studenten
- der Aspirant (aspirant)- die Aspiranten
- der Tourist (turist)- die Touristen
- der Advokat (vəkil)- die Advokaten
- der Poet (şair)- die Poeten
- der Patriot (vətənpərvər)- die Patrioten
- der Agronom (aqranom)- die Agronomen
- der Philolog (filoloq)- die Philologen
- der Philosoph (filosof)- die Philosophen

Qüvvətli hallanmaya daxil olan kişi cinsli isimlərin bir qrupu; Məsələn:

- der Staat (dövlət)- die Staaten
- der Sehmerz (ağrı)- die Sehmerzen
- der Nachbar (qonşu)- die Nachbarn
- der Nerv (əsəb)- die Nerven
- der See (göl)- die Seen
- der Vetter (əmioğlu)- die Vettern və s.

Qarışıq hallanmaya daxil olan kişi cinsli isimlər:

- der Buchstabe (hərf)- die Buchstaben
- der Gedanke (fikir)- die Gedanken
- der Same (toxum)- die Samen
- der Name (ad)- die Namen
- der Haufe (qalaq, yığın)- die Haufen
- der Funke (qığılcım)- die Funken
- der Friede (sülh)- die Frieden

Orta cinsli isimlərin bir qrupu da bu tipə aiddir. Məsələn:

- das Ende (son)- die Enden
- das Verb (feil)- die Verben
- das Bett (çarpayı)- die Betten
- das Interesse (maraq)- die Interessen

- das Hemd (köynək)- die Hemden
- das Auge (göz)- die Augen

-(i)um, -ion, -al, -a ilə bitən başqa dillərdən alınma orta cinsli isimlər:

- das Thema (mövzu)- die Themen
- das Museum (muzey)- die Museen
- das Studium (təhsil)- die Studien
- das Datum (tarix)- die Daten
- das Stadion (stadion)- die Stadionen
- das Laboratorium (laboratoriya)- die Laboratorien (4, s.30)

3-cü tip cəmlənməyə aid olan isimlər cəmdə -er şəkilçisi qəbul edirlər. Bu tipə əksər orta cinsli isimlər daxildir. Kökündə a, o,u saiti olan təkhecalı isimlər Umlaut da qəbul edirlər. Məsələn:

- das Bild (şəkil)- die Bilder
- das Kind (uşaq)- die Kinder
- das Lied (nəğmə)- die Lieder
- das Rind (mal əti)- die Rinder
- das Buch (kitab)- die Bücher
- das Dach (tavan)- die Dächer
- das Haus (ev)- die Häuser
- das Glas (şüşə, stəkan)- die Gläser
- das Dorf (kənd)- die Dörfer
- das Land (ölkə)- die Länder
- das Fach (fənn)- die Fächer
- das Volk (xalq)- die Völker
- das Loch (çuxur)- die Löcher
- das Fahrrad (velosiped)- die Fahrräder

Bir qrup kişi cinsli isimlər:

- der Mann (kişi)- die Männer
- der Wald (meşə)- die Wälder
- der Rand (kənar, qıraq)-die Ränder
- der Reichtum (bolluq, sərvət)- die Reichtümer
- der Irrtum (səhv, yalan)- die Irrtümer (5, s.37)

4-cü tipə aid olan isimlər cəmdə heç bir suffiks qəbul etmirlər, onların bəziləri Umlaut qəbul edir. Bu tipə sonu -er, -el və -en sonluğu ilə bitən kişi və orta cinsli isimlər daxildir. Məsələn:

- der Schüler (şagird)- die Schüler
- der Lehrer (müəllim)- die Lehrer
- der Arbeiter (işçi)- die Arbeiter
- der Vater (ata)- die Väter
- der Bruder (qardaş)- die Brüder

- der Onkel (əmi, dayı)- die Onkel
- der Sessel (kreslo)- die Sessel
- der Vogel (quş)- die Vögel
- der Fernseher (televizor)- die Fernseher
- der Computer (komputer)- die Computer
- der Mantel (palto)- die Mäntel
- der Fehler (səhv)- die Fehler
- das Fenster (pəncərə)- die Fenster
- das Zimmer (otaq)- die Zimmer
- das Mädchen (qız)- die Mädchen

-chen, -lein suffiksi ilə bitən orta cinsli isimlər

- das Büchlein (kitabça)- die Büchlein
- das Brüderchen (balaca qardaş)- die Brüderchen
- das Tischehen (balaca stol)- die Tischehen və s.

-ge prefiksi və -e suffiksi ilə bitən orta cinsli isimlər:

- das Gebirge (dağlıq)- die Gebirge
- das Gebäude (bina)- die Gebäude

Qeyd: istisna olaraq iki qadın cinsli isim bu tipə aiddir

- die Mutter (ana)- die Mütter
- die Tochter (qız)- die Töchter (4, s.32)

5-ci tip cəmlənməyə əsasən ingilis və fransız dillərindən keçmiş kişi və orta cinsli isimlər daxildir. Onlar cəmdə -s qəbul edirlər. Məsələn:

- der Klub (klub)- die Klubs
- der Schal (şal)- die Schals
- der Park (park)- die Parks
- der Chef (şef)- die Chefs
- das Sofa (divan)- die Sofas
- das Auto (maşın)- die Autos
- das Kino (kino)- die Kinos
- das Cafe (kafe)- die Cafes
- das Radio (radio)- die Radios
- das Büro (ofis)- die Büros
- das Bonban (konfet)- die Bonbans
- das Taxi (taksi)- die Taxis
- das Ticket (bilet)- die Tickets
- das Klima (iqlim)- die Klimas və Klimate olur. və s. (6, s.37)

Qeyd: a) Mann sözünün əlavə edilməsilə düzələn mürəkkəb isimlərin cəmində Mann əvəzinə Leute işlədilir; Məsələn:

- der Seemann (dənizçi)- die Seeleute
- der Zimmermann (dülgər)- die Zimmerleute
- der Kaufmann (tacir)- die Kaufleute

das Wort sözünün cəmi iki yolla düzəldilir:

- das Wort- die Wörter (ayrı-ayrı sözlər)
- das Wort- die Worte (nitq) və s.

İsimləri həmişə artikl ilə və cəm formasında öyrənmək lazımdır.

Ədəbiyyat

1. B. Əhmədov, A. Axundov, B. Xəlilov "Azərbaycan dili" Bakı- 2003
2. Möhsün Nağısoylu, Mehman Zeynallı "Azərbaycan dili" Bakı- 2008
3. Ə. Əliyev "Alman dilinin qrammatikası" Bakı- 1959
4. T. Əhmədova, R. Həsənova "Deutsch" 2006
5. Ender Erenel, Zafer Ulusoy "Deutsche Grammatik" 2007
6. Rosa Maria Dallapiazza, Eduard von Jan "Tangram aktuell" 2004
7. C. Mehdiyev "Deutsch-Aserbaidschanisches Wörterbuch" Bakı-1968

Ф.М.Амирова

Формирование формы множественного числа существительных в азербайджанском и немецком языках

Резюме

Эта статья посвящена образованию множественного числа существительных в азербайджанском и немецком языках. Существительные в азербайджанском языке образуются с использованием суффикса –lar[2]. В этой статье широко освещается множество способов образования множественного числа существительных в немецком языке.

Существительные во множественном числе образуются с использованием суффиксов, умлаутов. Улучшение языка невозможно без постоянного повторения и контроля, поэтому рекомендуется учить существительные с артиклем и во множественном числе.

F.M.Amirova

Forming plural form of nouns in Azerbaijani and German

Summary

This article deals with the formation of plural nouns in Azerbaijani and German. Nouns in Azerbaijani are formed by using -lar[2]suffix. Having many ways of forming plural nouns in German is widely covered in this article.

Plural nouns are formed using suffix, "umlaut" articles. Improvement of language is not possible without constant repetition and control, so it is advised to learn nouns with an article and in plural form.

Rəyçi: filol.f.d., dos. N.E.Camalzadə

Redaksiyaya daxil olub: 30.09.2019

E.İ.FƏRƏCOVA
filologiya üzrə fəlsəfə doktoru, dosent

Azərbaycan Dillər Universiteti
(Bakı şəh., R.Behbudov küç., 134)

TƏRKİBİNDƏ RƏNG ADLARI OLAN İNGİLİS İDİOMLARININ MİLLİ-MƏDƏNİ SPESİFİKASI

Açar sözlər: *idiom, etimologiya, konnotasiya, məcazi məna, etnokulturoloji amillər*
Ключевые слова: *идиома, этимология, коннотация, переносное значение, этнокультурные факторы*
Key words: *idiom, etymology, connotation, figurative meaning, ethnocultural factors*

Hər bir dildə rəng adları leksik vahidlərlə məna əlaqələrinə girərək birləşmələr əmələ gətirir. Vaxt keçdikcə həmin birləşmələr ilkin həqiqi mənasından uzaqlaşaraq məcazi məna ifadə etməyə və frazeologizmlərin xarakterik xüsusiyyətlərini qazanmağa başlayırlar. Fikrin daha canlı və maraqlı təqdim olunmasına xidmət edən rəng adları ilə formalaşan frazeologizmlər milli və kulturoloji vahidlərdir. Belə birləşmələr həqiqi və məcazi mənada işlənərək həm sərbəst, həm də sabit birləşmə funksiyasında işlənir. Məsələn, ingilis dilindəki *the red carpet* söz birləşməsi həm sərbəst birləşmə kimi (qırmızı xalça), həm də məcazi mənada (şərəf, şan-şöhrət) işlədilir. Müxtəlifsistemli dillərdə rəng adları semantik və emosional differensiyanın həcminə, təmsil olunma dərəcəsinə, yayılmasına və frazeoloji fəallığına görə bir-birindən fərqlənir.

İngilis dilində qara rəng adı frazeoloji birləşmə yaratmaq qabiliyyətinə malikdir və çox məhsuldardır. İngilis mədəniyyətində qara rəng zülmətin, cəhənnəmin, kədərin rəmzi hesab olunur. İngilislər qara rəngi "the colour of sin and sorrow" (günahın və qəmin rəngi) adlandırırlar (3, s.34). Məsələn, *black market* (qara bazar), *black frost* (quru şaxta), *black cap* (hakimlərin ölüm hökmü oxuyarkən geyindikləri qara papaq), *Black Death* (XIV əsrdə Avropada taun xəstəliyi), *black eye* (zərbədən qaralmış göz), *black flag* (dəniz quldurlarının bayrağı), *point the devil blacker than he is*– şişirtmək; və s. İngilis dilində "Black Monday"(uğursuz, maddi cəhətdən xeyli miqdarda itki baş vermiş gün) və "Black Friday" (gəlir, maddi rifah) frazeologizmləri quruluşca oxşar olsalar da, fərqli mənalar ifadə edirlər. *Black Monday* frazeologizmi 1987-ci il 19 oktyabr tarixində dünya fond bazarının anidən minimal dərəcəyə enməsi və iqtisadiyyatın çökməsi ilə əlaqədar yaranmışdır.

Ağ sözü ilə yaranan frazeoloji birləşmələr acizliyi simvolizə edir: *white feather* – qorxaq, ağciyər; *white lie* – ağ yalan; *white night* – yuxusuz gecə; *white as death* – ölü kimi ağappaq; *to bleed white* – gücdən salmaq, var-yoxunu əlindən almaq; və s. *A white feather* frazeologizminin etimologiyası onunla əlaqələndirilir ki, ingilis mədəniyyətində ağ xoruz, yaxud ağ xoruzun lələyi müharibəyə getməyənlərə hədiyyə edilərdi və bu qorxaqlıq rəmzi hesab olunurdu.

Psixoloji baxımdan göy rəng bütün hallarda müsbət hadisələr (həqiqət, sonsuzluq, əbədiyyət, sükut, sakitlik və s.) ilə bağlıdır. İngilis dilində tərkibində göy rəng olan idiomların əksəriyyəti mənfi hadisələri və hissləri bildirmək üçün istifadə olunur. Məsələn, *black and blue* – fiziki və ya emosional cəhətdən zərər görmüş; *have the blues* – qəmgin olmaq; *feel blue* – qəmgin olmaq; *blue Monday* – qanqaraldıcı gün; *to be between devil and deep blue sea* – iki xoşagəlməz seçim arasında qalmaq; İngilis dili frazeoloji fondunun tərkibində eyni rəng komponentinin işləndiyi müsbət mənalı (parlaqlığı, gözəlliyi təmsil edən) idiomlar da vardır. Məsələn, *blue-eyed* – məsum, günahsız; *true blue* – sadiq; *blue blood* – zadəgan ailəsinə mənsub;

İngilis dilində tərkibində sarı rəng olan idiomlara az təsadüf olunsa da, belə ifadələr mənfi hisslərlə, hadisələrlə əlaqədar olaraq işlənir. Belə idiomların etimologiyası maraqlı hadisələrə bağlıdır. Məsələn, *yellow-bellied* "qorxaq" mənasında işlənən idiomun insanla sarımtıl dərisi olan bir qurbağanın müqayisəsi nəticəsində yarandığı qeyd olunur. Metaforik mənada işlənən bu idiom qurbağa kimi qorxaq bir heyvandan belə qorxaq olan insanlar haqqında işlədilir. Sarı rəng ingilis mədəniyyətində qorxaqlıq, qısqanclıq və paxıllıq kimi mənfi keyfiyyətlərlə əlaqələndirilir. Lakin XIX əsrdən etibarən bu rəng ədalətsizlik və təhlükə mənalarında işlədilmişdir. Məsələn, *have a yellow streak down one's back* – qorxaq olmaq; *yellow journalism* – insanların diqqətini cəlb etmək üçün qəzetdə yanlış məlumat yazmaq, sarı jurnalistika; *yellow press* – sarı mətbuat. *Yellow journaılism* ifadəsi bilavasitə ABŞ-da yaranmışdır və lüğəvi mənası "sensasiya və reallığın şişirdilməsinə əsaslanan jurnalistika", "oxucuların diqqətini cəlb etmək məqsədilə ucuz sensasiyanın istifadəsinə, qeyri-vicdanlı iş metodlarına əsaslanan qəzet və s. media işi", mənasını ifadə edir.

İngilis dilində tərkibində qırmızı rəngın işləndiyi idiomların etimologiyası müxtəlif hadisələrlə bağlıdır. Tarixən qırmızı rəng müharibə və ya günəş tanrılarının simvolu kimi istifadə olunmuşdur. O dövrlərdən başlayaraq qırmızı rəngin müsbət və mənfi (aqressiya, qəzəb) mənaları yaranmışdır. İngilis dilində *a red-letter day* (əlamətdar gün) idiomu bəzi əlamətdar və müqəddəs günlərin təqvimdə qırmızı rənglə göstərilməsi ilə bağlı olaraq yaranmışdır. Tərkibində qırmızı rəngin işləndiyi idiomların bir qismi əsəb, nifrət, qəzəb və s. kimi mənfi mənalar ifadə edir: *to see red* – çox əsəbiləşmək; *like waving a red flag to a bull* – kimisə əsəbiləşdirmək; *red in the face* – utanmaq; və s. İngilis dilində qırmızı rəng təhlükə və təhlükəyə xəbərdarlıq mənalarında da istifadə olunur: *a red flag* – nəyinsə düz getmədiyi barədə xəbərdarlıq; *on red alert* – təhlükəli bir hadisənin olmasına hazırlanmaq. Tərkibində qırmızı rəng adı işlənən bəzi idiomlar vəhşilik və zorakılıqla bağlıdır. Məsələn, *red in tooth and claw* – zorakılıq olan yarışmaya daxil olmaq; *to be shown the red card* – işdən çıxarılmaq;

İngilis dilində tərkibində yaşıl rəng olan olan idiomların bəziləri (pul ilə bağlı olanlar) insanlarda müsbət hisslər oyadır. Bu da Amerika Birləşmiş Ştatlarının milli valyutası olan dolların yaşıl rəng olması ilə əlaqədardır: *green-money* – kağız pul; *long green* – çoxlu pul; *green folding-money* – kağız pul; *green stuff-money* – kağız pul və s.

Psixoloji nöqteyi-nəzərdən yaşıl rəng yaz fəslinin, yenilənmənin və canlanmanın rəngidir. İngilis dilində *give somebody or something the green light* – icazə vermək; *green as grass* – yamyaşıl; *have green fingers* – bitkilərə yaxşı baxmaq; və s. kimi tərkibində yaşıl rəng olan idiomların müsbət mənada və xüsusilə də təbiət, yaşıllıq, gül, meyvə, tərəvəz ilə əlaqədar işləndiyi məlum olur. Digər rənglər kimi, yaşıl rəngə mənfi mənada (paxıllıq, qısqanclıq, təcrübəsizlik) işlənən idiomların tərkibində də rast gəlmək olur. Məsələn, *be green about the gills* – solgun və xəstə görünmək; *green as a grass* – təcrübəsiz, naşı; *green horn* – təcrübəsiz; *be green with envy* – paxıl olmaq; *the green-eyed monster* – qısqanc;

Dilçilikdə müxtəlif dillərdəki frazeologizmlərin ümumi səciyyə daşıması və müəyyən məqamlarda struktur-semantik oxşarlıq təşkil etməsi qeyd olunur (2, s.12). Burada məna və üslubi çalarına görə oxşar, komponentlərin tərkibi və struktur-qrammatik təşkili cəhətdən uyğun gələn sabit birləşmələr nəzərdə tutulur. Məsələn: Ağ bayraq – white flag – birləşmələri ingilis və Azərbaycan dillərində "təslim olmaq" mənasında işlənir (1).

İdiomların anlaşılması onların kulturoloji xüsusiyyətlərinin nəzərə alınmasını tələb edir. Frazeoloji vahidlərin tam ekvivalentliyi onların əsas xarakteristikalarının tam üst-üstə düşməsi kimi başa düşülür və bunlar kontrast öyrənilmədə (semantik, stilistik, leksik və morfoloji) parametrlərə və ya meyarlarla modifikasiya olunur (4, s.92-94).

Frazeoloji birləşmələrdə yeni mənaların yaranma səbəbi əsasən ekstralinqvistik faktorlarla bağlıdır. Belə ki, ekstralinqvistik amillər hər bir dilin tarixi inkişafında yaranır və frazeoloji birləşmələrin yeni məna kəsb etməsinə səbəb olur. İngilis dilində yerli linqvokulturoloji mühit çərçivəsində formalaşmış, xeyli sayda *yellow* komponentli evfemistik frazeologizmlər

vardır: *yellow dog contract (yellow dog clause)* – işə cəlb olunduğu müddətdə işçinin heç bir həmkarlar ittifaqına üzv olmayacağı öhdəliyi ilə bağlı qeyri-qanuni əmək müqaviləsi , *yellow dog rules* – sarı it şərti (qaydaları), sarı it bəndi; *yellow dog fund* – hərfi tərcümədə "sarı it fondu") – kiminsə ələ alınması üçün fond, rüşvət üçün məbləğ və s. İngilis dilinin Amerikan variantında *yellow dog* zoomorfizmi "alçaq", "qorxaq" mənası ilə yanaşı "fəhlə əleyhinə qanun" anlamını da ifadə edir.

Linqvokulturoloji mahiyyət kəsb edən idiomların müqayisəli tədqiqindən məlum olur ki, hər dildə başqa dillərdə adekvat konnotasiyası olmayan, yəni yalnız bir dilin özünə məxsus frazeologizmlər də vardır. German xalqlarının milli-mədəni həyatı və tarixi faktları ilə bağlı yaranmış və tərkibində heyvan adları olan frazeologizmlərin çoxu ingilis və alman dillərinə məxsusdur. Məsələn, ingilis dilindəki *white elephant* (ağ fil) frazeoloji vahidi 'ağır yük, xoşagəlməz hədiyyə' mənalarında işlədilir. Dilin frazeoloji systemi həm də milli xüsusiyyətlərə malikdir. İngilis dilinin frazeoloji lüğətində *white elephant* – "*An extensive item that is troublesome or useless. The term comes from a story about the king of Siam, who was said to have given an albino elephant, considered sacred, to a member of the court whom he disliked, knowing that taking care of the animal would exhaust the person's fortune"* (3). kimi şərh olunur. Bu ifadə həmçinin "lazımsız, əhəmiyyətsiz" mənalarında da işlədilir: The whole complex was a *white elephant,* (completely useless) constructed at enormous expense but never used (5).

The black hand (qara əl) frazeologizmi amerikanizmdir. 1900-cu illərdə yaranmış Amerika-İtaliya qanqster təşkilatının emblemi "qara əl" olmuşdur. Bu frazeologizm qeyd olunan xüsusi mafiya təşkilatının adı ilə bağlı olaraq yaranmışdır.

A Purple Heart yumru üçbucaq formasında olan və ürəyə oxşayan çəhrayı rəngli həbə verilmiş addır, narkotik maddədir. Müasir dövrdə narkotik tərkibli həblər danışıq dilində bu birləşmə ilə ifadə olunur. Frazeoloji vahidin yaranmasında motivləşmə həm rəng, həm də formaca oxşarlığa əsaslanır. *A Purple Heart* frazeologizmi Amerikada döyüşdə yaralanmağa görə verilən medalın adını da bildirir. Motivləşmə yaralanma zamanı axan qanın rəngi də ürəklə əlaqələndirilir. Hər iki mənada frazeoloji birləşmə reali əsaslıdır və ekstralinqvistik amillə şərtlənir.

Qeyd olunanları ümumiləşdirərək belə bir nəticəyə gəlmək olar ki, idiomlar hər bir xalqın mədəniyyəti, ədəbiyyatı, məişəti, tarixi, etnopsixologiyası ilə bağlı olub linqvokulturoloji səciyyə daşıyır və etnokulturoloji amillərlə səciyyələnən belə ifadələr çox vaxt izah tələb edir.

Ədəbiyyat

1. Adilov M.İ.Qanadlı sözlər. Bakı: Yazıçı, 1988, 438 s.
2. Долгополов Ю.А. Сопоставительный анализ соматической фразеологии. Автореф. … кан. фил. наук. Казан, 1973.
3. Кунин А.В. Англо-русский фразеологический словарь. Москва, Русский язык, 1984, 944 с.
4. Рецкер Я. Н. Теория перевода и переводческая практика. Очерки лингвистическорй теории перевода. – М., 2004.
5. https://idioms.thefreedictionary.com/white+elephant

Э.И.Фараджова

Культурный аспект цветовых идиом в английском языке

Резюме

Идиомы, как национально-культурные единицы, являются результатом исторического и культурного процесса. Слова, которые выражают цвет, используются не только для выражения цвета, но и для поддержания образного значения идиоматических выражений. Цветовые идиомы всегда были в центре внимания лингвистических исследований. В статье рассматриваются

цветовые элементы идиом в английском языке. Этимология и эквиваленты таких идиом в Азербайджанском языке показывает ясный образ их использования в речи. Цветовые идиомы, выражающие такие эмоции, как зло, страх, трусливость, ревность, депрессия, счастье и стыд, являются самыми часто употребляемыми в английском языке.

E.I.Farajova

Cultural Aspect of Color Idioms in English

Summary

As national-cultural units idioms are the result of a historical and cultural process. Words denoting colors are used not only to refer to the color itself but also are used in idiomatic expressions and obtain a figurative meaning. Color idioms have always been an issue under linguistic investigation. The article considers idioms with elements of color denominations in English. The etymology and equivalents of such idioms in Azerbaijani language gives a clear picture of their usage. Color idioms expressing emotions are the most prominent in the English language. They express anger, fear, being a coward, jealousy, depression, happiness or shame.

Rəyçi: filol.f.d., dos. G.F.İsrafilova

Redaksiyaya daxil olub: 11.10.2019

F.İ.FƏRZƏLİYEVA

Azərbaycan Dillər Universiteti
(Bakı şəh., R.Behbudov küç., 60)

İNGİLİS DİLİNDƏ CÜMLƏNİN SİNTAQMATİK VƏ AKTUAL ÜZVLƏNMƏSİNİN FƏRQLİ CƏHƏTLƏRİNƏ DAİR

Açar sözlər: *aktual üzvlənmə, sintaqm, vurğu, prosodiya.*
Ключевые слова: *актуальное членение, синтагма, ударение, просодия.*
Key words: *actual division, syntagm, stress, prosody.*

"Sintaqm" termini ilk dəfə İ.A.Boduen de Kurtene və F.de Sössür tərəfindən işlənmişdir. İ.A.Boduen de Kurtene sintaqmı söz və onların müxtəlif formaları, daha doğrusu, leksem mənasında işlətmişdir. İ.A.Boduen de Kurtene qeyd edir ki, sintaqmlar cümlənin, morfemlər sintaqmın, fonemlər isə morfemin ayrılmaz tərkib hissələridir (1, s.97). F.de Sössür isə sintaqmı iki və daha artıq linqvistik elementlərin birliyi mənasında işlətmişdir. Sintaqmı müəyyən edən əsas əlamət onun fonetik xüsusiyyətlərə malik olmasıdır. H.E.Palmerin fikrincə, cümlənin mənası tamamilə sintaqmatik bölgüdən asılıdır (3, s.243). Sintaqmlar intonasiyanın yaradıcılarıdırlar. Sintaqm intonasiya ilə sıx bağlıdır. Onlar bir tərəfdən intonasiyanın məhsulu, digər tərəfdən isə onun tənzim edicilərididirlər. Sintaqmsız cümlə, cümləsiz isə sintaqm mövcud deyil.Yazılı nitqdə sintaqmatik üzvlənmənin özünəməxsus dəqiq sərhədləri vardır. Burada durğu işarələri ilə, sətirlərə bölünmə ilə yanaşı obyektiv şəkildə təzahür edən xüsusi formal, ritmik meyarlar da mövcuddur ki, bunları şərti olaraq ritmik fiqurlar adlandırmaq olar. Cümlədə vurğusuz ritmik qrup ola bilməz. Hər bir ritmik qrupda ən az bir vurğulu heca olmalıdır. Ritmik qrup cümlə daxilində vurğulu və vurğusuz hecaların növbələşməsi nəticəsində yaranır. Sintaqmlar iki cür olur; bitmiş və ya tam sintaqmlar, bitməmiş və ya natamam sintaqmlar. Bütün sintaqmlar əslində predikativ sintaqmlara uyğun gəlir. Danışıq zamanı cümlə və ya sintaqmın sonunda baş verən səsin qalxması ümumiyyətlə qətiyyətsizlik və inamsızlıq əlamətlərdən birini ifadə edir. İ.A.Boduen de Kurtene qeyd edir ki,dil strukturunun elementləri digər vahidlərlə yanaşı sintaktik elementlərə,yaxud cümlənin hissələri olan sintaqmlara və yaxud daha böyük sintaktik vahidlərə bölünür (1, s.56). Hər bir konkret cümlə özünün səs tərkibi və heca strukturu ilə yanaşı müəyyən prosodik, yaxud intonasiya strukturu ilə xarakterizə olunur. Kommunikativ məqsədə xidmət edən cümlə iki hissədən –tema və remadan ibarətdir. Tema danışana, dinləyənə məlum olan informasiyadır. Tema söhbətin, verilən məlumatın predmetidir. Başqa sözlə, cümlədə nə qədər söhbət gedirsə, o temadır. Cümlədə gedən yeni məlumat isə remadır. Eyni bir cümlədə rema müxtəlif yerdə ola bilir.

Məsələn, He shaved ` himself.(himself-rema)
` He shaved himself. (he-rema)
He ` shaved himself.(shaved-rema)

Söyləmlərdə remanı nişanlayan vasitələrə söz sırası, kontrastiv vurğu və intonasiya daxildir. Söz sırasını dəyişməklə eyni bir söz bir halda tema, digər halda isə rema ola bilər. Məsələn, Alex should be the first to receive her diploma.

The first to receive her diploma should be Alex.

Birinci cümlədə Alex-tema, ikinci cümlədə isə remadır. Rema dedikdə müəyyən aksent-melodik xüsusiyyətlərə malik söyləmin elə hissəsi nəzərdə tutulur ki, burada dinləyiciyə sadəcə olaraq hər hansı bir konkret məlumat, fakt deyil, modal və emosional xarakterli informasiya verilir. Nitqimizi təşkil edən cümlələr bir- birindən fərqlənən müxtəlif məqsədlərlə işlədilir. Cümlələrdə yürüdülən məqsədlərin dəyişkən olması həmin cümlələrin tələffüz xüsusiyyətini, aksent-melodik strukturunu, bütövlükdə onun intonasiyasını dəyişdirir. Danışanın

məqsədi və münasibəti intonasiyanın əsasıdır,intonasiya isə öz növbəsində, məqsədin, münasibətin göstəricisidir. Artikllı dillərdə bu qarşılaşmanı müəyyən və qeyri-müəyyən artikllar həyata keçirir. Yeni məlumatla köhnə məlumatın qarşılaşmasını həyata keçirən dil vasitələrindən biri də intonasiyadır. Kontrastiv vurğu ilə bir hecanı,hətta şəkilçini də nəzərə çarpdıra bilərik. Sintaktik bütövün üzvlənməsində intonasiyanın tərkib hissəsi olan cümlə vurğusunun da rolu vardır. Bütövlükdə cümlə vurğusu iki funksiya daşıyır. O bir tərəfdən cümləni bir bütövə çevirir, digər tərəfdən isə cümləni sintaqmlara bölür (4, s.254). Sintaqmatik vurğunun müxtəlif növləri vardır: 1. Sintaqmın sonunda səsin tonu kəskin qalxır, vurğulu hecadan qabaqda başlayaraq, vurğu zonasında daha da yüksəlir. Məsələn, İf you try, you will answer well. 2. Sintaqmda axırıncı heca vurğulu olarsa, səs kəskin qalxır, ikinci sintaqm yüksək, alçaq və ya eyni səviyyədən başlaya bilər. 3.Sintaqmda fikir tamlığı ifadə olunduqda ton enir.

Sintaqmatik vurğu cümlə vurğusunun tərkib elementidir və ondan müəyyən dərəcədə zəifliyi ilə seçilir.İngilis dilində yeni məlumatın imtonasiya bölgüsü onu bildirən sözün məntiqi vurğusu olması ilə müəyyənləşdirilir. Buna görə də məntiqi vurğu ingilis dilində remanın əsas göstəricilərindən biridir. Tema ilə remanın müəyyənləşməsində məntiqi vurğunun xüsusi rolu vardır. Bu mənada aktual üzvlənmədə məntiqi vurğuya toxunmaq lazım gəlir. Kontrastiv vurğu cümlənin aktual üzvlənməsində, yəni remanın nəzərə çarpdırılmasında mühüm rol oynayır. Sintaqmatik vurğu termini sintaqm anlayışıilə bilavasitə bağlı olub, sintaqmın fonetik, sintaktik və semantik xüsusiyyətlərini özündə əks etdirən supraseqment bir ünsürdür. Sintaqmı müəyyən edən əsas əlamət onun fonetik xüsusiyyətlərə malik olmasıdır. Sintaqmda bütün elementləri öz ətrafında birləşdirən söz fonetik cəhətdən xüsusilə nəzərə çarpdırılır. Sintaqmın özəyini təşkil edən bu sözün üzərinə düşən vurğu, funksional cəhətdən digər sözləri öz ətrafında birləşdirərək, nitqin müəyyən parçasını sintaktik, semantik və fonetik baxımdan bir bütövə çevirir. Sintaqmı sintaqmatik vurğusuz təsəvvür etmək mümkün deyil. Sintaqmatik vurğu sintaqmda bilavasitə yeni fikri ifadə edən, sintaqmın əsas mənasını özündə daşıyan sözün üzərinə düşür. Sintaqmın tərkibinə daxil olan sözlərin melodik səviyyəsini verən tonal ünsürlərin qovuşması onun melodik quruluşunu müəyyən edir. Sintaqmın ümumi fonundakı melodik tonal zirvə sintaqmatik mərkəz kimi qəbul edilir. Sintaqm daxilindəki sözlərdə tonun kritik nöqtələrinin bir-biri ilə əlaqəsi melodiya vasitəsi ilə realizə olunur. Enən melodiyalı sintaqmların əksəriyyəti xüsusiləşmə və məzmun müstəqilliyi ifadə edir. Enən melodiya təksintaqmlı sual əvəzlikli xüsusi sual cümlələrində də işlənir. Çoxsintaqmlı cümlələrdə enən melodiya təksintaqmlı cümlələrdəki funksiyanı yerinə yetirir. Burada fərq ondadır ki, enən melodiya mürəkkəb bir fikri ifadə edən çoxsintaqmlı mürəkkəb strukturun kommunikativ istiqamətini sonuncu sintaqmda müəyyənləşdirir, bütün əvvəlki sintaqmlardakı fikri cəmləyərək yekunlaşdırır. Məsələn, We noticed that the sea was not so calm than ealier in the morning.

Cümlədə vurğulu və vurğusuz sözlər əsas tonun daşıyıcısı kimi çıxış edir. Bu halda cümlə vurğusu melodiyanın bələdçisinə xidmət edir.İntonasiya qrupunda vurğuların sayı az olarsa,nitq sürətli templə, sözlər isə zəif formada tələffüz olunacaq. Məsələn, They are at the ˌcinema now.

Cümlə vurğusu intonasiyanın digər komponentləri ilə birbaşa və dolayı formada sıx bağlıdır. Cümlə daxilində ritm, melodiya,tembr,temp və fasilə cümlə vurğusu zəmnində reallaşır və kommunikativ xarakter alır.Bu mənada cümlə vurğusunu intonasiyanın nüvə komponenti adlandırmaq olar. Cümlənin sintaqmatik bölgüsü intonasiya ilə six əlaqədə olub ,onun köməkliyi ilə həyata keçirilir. İntonasiya sözlərdə, söz birləşmələrində məna birliyi yaradır, predikativliyi ifadə edir, cümlənin məna mərkəzini-yəni remanı göstərir. Tələffüz və ya oxu zamanı remanın ayırd edilməsində fasilənin də rolu vardır. Fasilə remadan əvvəl nisbətən qüvvətli, sonra isə zəif olur. Q.P.Torsuyev qeyd edir ki, cümlədə əvvəlki məna qruplarının tonu onların məna yükündən, fikrin tamlığının dərəcəsindən, cümlədə onun müstəqilliyindən asılıdır. Fikir nə qədər müstəqil olarsa, sərbəstdirsə, ton o qədər enməyə meyl edir. Düşən ton məna aydınlığı, fikrin tamlığını ifadə edir. Qalxan ton isə natamam, şübhəli fikri ifadə edir

(5, s.73). V.A.Vasilyev qeyd edir ki,nitq melodiyasının iki funksiyası vardır: 1)Cümlədə ifadə olunan fikrin mənasından asılı olaraq, cümlənin kommunikativ növünü göstərmək. Yəni cümlənin nəqli, sual, əmr və nida cümləsi olduğunu müəyyənləşdirməkdir. Bu isə cümlənin sonunda tonun qalxması və ya enməsi ilə ifadə olunur.

Məsələn, Sit ˌdown (əmr ifadə edir). Sit ˈdown (xahiş ifadə edir).

2) Melodiya cümləni ayrı-ayrı məna qruplarına ayırır və onların semantik əhəmiyyətinin cümlədə oynadığı dərəcəni göstərir (6, s.96).

Müasir dilçilikdə intonasiyanın əsas komponentləri melodiya, nitqin intensivliyi, cümlə vurğusu, səsin tembri, nitqin tempi və fasilə hesab olunur. Nitqin ritmik yaranmasında məhz vurğunun rolu böyükdür. Məntiqi, emfatik, sintaqmatik vurğu növləri cümlə vurğusunun tərkib hissələridir. Sintaqmatik vurğu sintaqmda bilavasitə yeni fikir ifadə edən, sintaqmın əsas mənasını özündə daşıyan sözün üzərinə düşür. Nitq zamanı sintaktik vahidlər üzərində artikulyator-akustik enerji qüvvəsi gah artır,gah da azalır. Sintaqmın əsas cəhəti odur ki, o, müəyyən bir mənaya malik olur, cümlədə obyektiv gerçəkliyin bir parçasını təşkil edir. Bundan əlavə, sintaqm müəyyən intonasiya qabığına və sintaktik xüsusiyyətə malik olur. Beləliklə, sintaqm müəyyən bir məna vahidi olub, intonasiya və digər vasitələrlə formalaşaraq nitq prosesində meydana gəlir. Sintaqm dildə fonem-morfem kimi verilmiş bir vahid deyil, o, fərdin ünsiyyətdə çıxış etməsi zamanı ifadə etdiyi fikrin məhsuludur. Kontrastiv vurğu cümlənin aktual üzvlənməsində, yəni remanın nəzərə çatdırılmasında mühüm rol oynayır. İntonasiya sözlərdə, söz birləşmələrində məna birliyi yaradır, predikativliyi ifadə edir, cümlənin məna mərkəzini –y əni remanı göstərir.

İntonasiya bir dil hadisəsi kimi semantik səviyyəyə aid edilir. İntonasiya dil və kommunikativ bir işarə kimi sintaktik-semantik baxımından xarakterizə edirsə, prosodika dil və nitq vahidlərini akustik-perseptiv baxımından xarakterizə edir. Prosodik ünsürlərin məcmusu intonasiyanı təşkil edir. Sintqamlar daha çox sintaktik amillərlə bağlı olduğundan onların tərkibi müxtəlif olur. Bu baxımdan sintaqmları minimal və əsas sintaqmlar olmaqla, iki yerə bölmək olar. Minimal sintaqmların tərkibinə təyinsiz, genişləndirilməmiş zərflik qrupu, feli sifət və feli bağlama tərkibləri, qoşma ilə ifadə edilən qoşmalı birləşmələr və həmcins üzvlər daxildir. Əsas sintaqmlar isə mürəkkəb cümlənin tərkib hissələri kimi xarakterizə olunur. Sintaqmlar intonasiya ilə qırılmaz tellərlə bağlıdır. Onlar bir tərəfdən intonasiyanın məhsulu, digər tərəfdən isə tənzim edicilərdir.

Ədəbiyyat

1. Бодуен де Куртенэ И. А. Изобранные труды и по общему языкознанию М., Изд-во АНСССР, 1963 Т1, 383, Т2.

2. Соссюр М. А. Труды по языкознанию М., «Прогресс» 1977

3. Palmer H.E.English Intonation with systematic exercises,Cambridge,1924.

4. Antipova E.Ya.English Intonation,Moscow,1958.

5. Торсуев Г.П. Проблемы теоретической фонетики и фонологии. Л., Изд-во «Наука» 1969.

6. Vassilyev V.A. English phonetics. (A theoretical course). M., “Higher school Publishing House”, 1970.

Ф.И.Фарзалиева

К вопросу о разных особенностях синтагматического и актуального членения предложения в английском языке

Резюме

Данная статья рассматривает разные особенности синтагматического и актуального членения предложения в английском языке. Сделана попытка изучения интонации и ее компонентов в связной речи. В статье анализируется важность синтагмы и ее особенностей. Изучены

актуальное членение предложения и его типы. В конце статьи синтагматическое и актуальное членения сопоставляются в английском языке.

F.I.Farzeliyeva

On different pecularities of syntagmatic and actual divisions of a sentence in the English language

Summary

This article deals with different pecularities of syntagmatic and actual divisions of a sentence in the English language. An attempt is made to study the role of intonation and its components in connected speech. In the article the importance of syntagm and its main pecularities is also analyzed.The actual division of a sentence and its types are studied.At the end of the article, syntagmatic and actual division of a sentence are opposed.

Rəyçi: f.f.d. C.H.Yaqubova

Redaksiyaya daxil olub: 20.09.2019

G.İ.MEHDİYEVA
filologiya üzrə fəlsəfə doktoru, dosent

Heydər Əliyev adına Hərbi Akademiya
(Bakı şəh., Nahimov küç., 18)

HƏRBİ ALINMALARIN ÇOXMƏNALILIĞI

Açar sözlər: *çoxmənalılıq, alınma sözlər, hərbi, terminologiya, variant*
Ключевые слова: *полисемия, заимствованные слова, военный, терминология, вариативность*
Key words: *polysemy, loan words, military, terminology, variation*

Hərbi alınmaların və dolayısı ilə hərb terminlərin ingilis dilinə təsiri çox güclüdür. Son illərdə hərb sahəsində işlənən sözləri əhatə edən çox sayda lüğətlər tərtib olunmuşdur. T.E.Mari yazır: "XX əsrin ingilis dilini tədqiq edərkən məlum olur ki, hərbi terminologiyanın dil yaradıcılığına, dildə yeni sözlərin yaranmasına və artmasına təsiri olduqca çoxdur" (7, s.126). U.Silket bununla bağlı olaraq əlavə edir ki, "İxtisaslaşmış hərbi lüğətlərin hazırlanması və öyrənilməsi vacibdir" (10, s.13). Hərbi terminologiyanın olduqca məhsuldar olması təəccüblü deyil: "hər dövr öz hərbi lüğətini yaradır və inkişaf etdirir (7, s.121). Bundan əlavə, silahlı qüvvələr və onların tərkib hissələri ilə bağlı sözlərin müxtəlif sahələrdə məsələn, siyasətdə, iqtisadiyyatda, məişətdə və s. işlədilməsi dil paylaşımını fərqli mühitlərdə müşahidə etməyə şərait yaradır (7, s.122). C.Algeo uzun illər üzərində işlədiyi "Yeni sözlər arasında 50 il: 1941-1945-ci illərdə neologizmlər" adlı kitabında dildə yaranan hərbi sözlər haqqında məlumat verir və yazır ki, dildə sözlərin dəyişməsi qrammatika ilə müqayisədə çox sürətlidir. Dildə sözlər yaranır, istifadəsini dəyişir və dildə asanlıqla işlədilir (1, s.264). C.Algeo "Bütün yeni sözlər haradan gəlir?" (1, s.265) kitabında 1963-1973-cü illər arasında yeni sözlərin mənbələrini müəyyənləşdirməyə çalışır və müəyyən edir ki, bu onillik müddətdə yeni yaranan hərbi sözlərin 63,9 faizi mürəkkəb sözlərdən, başqa sözlə "affiksasiya nəticəsində yaranan birləşmələr və ya formalar"-dan ibarətdir. C.Algeo, həmin onillikdə olan neologizmlərin 14,2 faizinin formasında dəyişiklik olduğunu müəyyən edir. O yazır ki, "hərbi sözlər ... yeni mənada istifadə olunur və bəzən də yeni nitq hissəsi kimi və, ümumiyyətlə, heç bir forma dəyişikliyinə uğramadan" işlədilə bilir (1, s.270). Daha sonra o yazır ki, dildə olan sözlərin 6,0 faizi alınmalar və nəhayət, 4,8 faizi qarışıq olan sözlərdən ibarətdir. Bundan əlavə, C.Algeonun kitabında qeyd olunur ki, sözlərin 76,7 faizi isim, 15,2 faizi sifət, 7,8 faizi fellər, 0,3 faizi digər nitq hissələri kimi işlədilir (1, s.271).

T.E.Mari 1986-cı ildə yazdığı "Dəniz döyüşçüsu pilotlarının dili" (The Language of Naval Fighter Pilots) məqaləsində yazır ki, dəniz döyüş təyyarəsi pilot terminologiyasında işlənən sözlər ingilis dili söz formalaşmasında ümumi meyillərə uyğundur. C.Marinin tədqiqatındakı terminlərin dörddə üçü nominal, digərləri sifətlər və feillərdir (7, s.127).

C.Marinin tədqiqatına əsasən bu qənaətə gəlmək olar ki, dəniz qırıcı pilot terminologiyasının ingilis dilinin söz yaradıcılığında rolu böyükdür. Dəniz qırıcı pilotlarının öz xüsusiləşmiş lüğətləri var (7, s.128). Donanma və hava qüvvələri arasında hər hansı bir ənənəvi rəqabəti nəzərə alsaq, onlar arasında dilçilik baxımından münasib olan sözlərin olmaması mümkündür. C.Marinin hazırladığı lüğətdə bəzi hərbi sözlərin mənalarını araşdıraq.

/Infantry/ sözünün hərfi tərcüməsi *piyada əsgər; atıcı əsgər* kimi müəyyən edilir. V.Silket yazır ki, bu sözün tarixi XV əsrə gedib çıxır. Həmin dövrdə bu söz "müxtəlif silahlarla döyüşən piyada əsgər" mənasında işlədilirdi. Qədim və orta əsirlərdə *infantry* sözü silahların və zirehlərin növünə görə də işlədilirdi. Məsələn, *ağır sılahlar* /hard infantry/; *yüngül silahlar* isə /light infantry/ kimi işlədilirdi. Odlu silahların yaranması ilə /*infantry/* termini yeni

mənada işlənməyə başladı. Məsələn, /*mechanized infantry/* "mexanikləşdirilmiş piyada", yaxud /*airborne infantry/* "hava-piyadası" və s.

/Infantry/ latın mənşəli sözdür. Latın dilində /*infantem/*, "piyada əsgər" "a foot soldier" mənasını ifadə edir. Qədimdə "piyada əsgər" (/a foot soldier/) "süvarilərə üzv olmaq üçün həddən artıq təcrübəsiz və ya dərəcəsi aşağı olan əsgərlərdən ibarət qruplarda xidmət edənlər" kimi başa düşülürdü. 1579-cu ildən /*infantry/* sözü fransız dilində /*infantrie/*, ispan dilində /*infanteria/* "mütəşəkkil döyüş dəstələri" mənasında işlədilməyə başladı (10, s.13).

Hərbi münaqişələrin artdığı zaman dildə olan hərbi sözlərin insanların psixologiyasına təsirini müşahidə etmək mümkündür. Bununla əlaqədar olaraq, artıq hərbi diskursda işlədilən sözlərin bir qədər implisit formada işlədilməsini müşahidə etmək olur. Bu da hərbi terminologiyada metafor, evfemizim kimi ritorik fiqurların işlədilməsini labüd edir. Məsələn, hərbi məqalədə, yaxud elanda işlədilən *müharibə, qəzəb, zorakılıq* və s. kimi terminlərin bir qədər yumuşaq işlədilməsi həmin məqaləni, yazını oxuyan şəxsdə qıcıqlandırma yaratmamalıdır. Tədqiqatlar göstərir ki, zorakılığı və təhlükəni yumoristik və ya yaxşı dil ilə izah edən hərbi terminologiya insan təfəkküründə hiss ediləcək şəkildə təsir göstərə bilir. Məsələn: /collateral damage/ "girov ziyanı" evfemizmi belə ifadələrdən biridir. Bu birləşmədəki sözlərin tərcüməsinə baxaq:

/Collateral/ "girov"; /*damage/* "ziyan" (9). Birləşmə kimi "girovdan olan ziyan" kimi tərcümə edə bilərik. Bu hərbi termin ABŞ və İraq arasında olan müharibə zamanı evfemizm kimi formalaşmışdır. Hərbi termin kimi "iraqlı mülki şəxs öldürüldüyü" zaman ictimai yazılarda evfemizm kimi işlədilir. Məsələn: "Los Ancels taymz" qəzetində yazılır: "Only twenty-one percent of those polled were 'very concerned' about the amount of 'collateral damage' produced by the war, while forty-nine percent of the respondents were 'very concerned' about 'the number of civilian casualties and other unintended damage' in Iraq" (11). (Sorğu keçirilən zaman insanların yalnız 21% müharibə zamanı "iraqlı mülki şəxsin öldürülməsi"-ndən "çox narahatdır". Sorğu aparılan insanların 49% isə İraqdakı mülki itkilərdən və digər gözlənilməz zərərlərdən "çox narahatdır"). M.Norris yazır ki, hərbi senzura və diskursiv nəzarətin məqsədi odur ki, müasir dünyada gedən çəkişmələrin qarşısı alınsın və mübahiribə gedən əraziləra nəzarət edilsin (8, s.223).

Müharibə zamanı işlədilən bəzi *qəzəbi, qırğını* implisit şəkildə əks etdirən hərbi terminlərə aşağıdakıları nümunə vermək olar (2, s. 380):

Assertive disarmament: war (ironic)	inadlı tərksilah – müharibə
Assets: weapons	mənafelər – silahlar
Clean bombing:	təmiz bombardman - dəqiq yerinə yetirilmiş bombardman
Coercive potential: military power	zorakı güc – hərbi güc;
Soften up, soften: bomb in preparation for a ground	yumşaltmaq – yer üçün hazırlanan bomba
Techno-war: war fought with advanced technology	Texno-müharibə - yüksək hərbi texnologiya ilə aparılan müharibə
Technomilitary: pertaining to the military use of advanced technology	Müharibə zamanı qabaqcıl texnologiyaların hərbi istifadəsi
Runaway denial device: Bomb that scatters clusters of cratering bombs over a wide area to destroy air base runaways	Hava bazası qaçışlarını məhv etmək üçün geniş bir əraziyə bomba partlayıcılarını səpən bomba;
Boys of Baghdad; *Baghdad Boys*: CNN reporters in Iraq	Bağdad oğlanları – CNN-nin İraqda olan müxbirləri
Brilliant weapon: advanced form of a smart weapon	Ağıllı (smart) silahların yüksək səviyyədə hazırlanan forması

Discriminate deterrence: pinpoint bombing	Təmkinli olma – dəqiq müəyyən edilmiş bombardman
Fire and forget: automatically guided [missal]	Avtomatik idarə edilən
Cleansed: cleared (of enemy troops)	Təmizlənmiş (düşmən qoşunları)
Collateral damage: civilian casualties and damage incidental to the bombing of military targets; any incidental, undesirable consequence	hərbi hədəflərin bombalanması ilə əlaqəli mülki itki və zərər; hər hansı bir təsadüfi, arzuolunmaz nəticə

Müharibə zamanı yaranan hərbi metaforlardan biri də "Mother of all" (hamının anası) söz birləşməsidir. Bu ifadə, yəni "mother of all" metaforik ifadəsi ABŞ-da çox işlədilir. Bu termini ilk dəfə keçmiş İraq lideri S.Hüseyin Bağdad Dövlət Radiosunda amerikalıların İraqa hücumu zamanı çıxışında işlətmişdir. Daha sonra bu termin çoxları tərəfindən işlədilməyə başladı. C.Algeo *Journal of American Speech* jurnalında bu terminin 37 müxtəlif variantını təqdim etmişdir (3, s.83).

Məsələn: 1) "mother of all" (hamının anası) birləşməsinin birinci mənası 'the origin or cause of' (mənşə, yaxud səbəb) (3, s.85), ikinci mənası "əxlaqsız qadın" (3, s.85), üçüncü mənası "İsa peyğəmbərin anası Məryəm" (2, s.380) və s. kimi verilir.

Mother of all birləşməsinin digər variantları (3, s.87):

mother of all	*mother of all bagels* (çox miqdarda olan bubliklər)
mother of all	Bu ifadəni "Vanity Fair" jurnalı D.Moru təsvir edərkən işlətmişdi
mother of all	Pepsi Kolanın reklamı zamanı işlədilmişdi

Hərbi terminologiyada işlədilən digər müharibə terminlərini təqdim edək. Məsələn, *operation* "əməliyyat".

Operation baby storm	Körfəz müharibəsindən sonra, daha dəqiq qoşunların geri qaytarılmasından doqquz ay sonra, Fort Kampbell Ordu Xəstəxanasında gözlənilən çox sayda doğuş;
Operation Desert Stork	Vin Ami Komyuniti Xəstəxanasında, döyüşdən qoşunların qaytarılmasından 9 ay sonra gözlənilən çox sayda doğuş;
Operation bonus bracket	Satışları artırmaq üçün broker evi proqramı;
Operation desert share	Körfəz müharibəsindən sonra ABŞ-da ehtiyacı olanlara hökumət tərəfindən edilən yardım;
Scud	Mərmi (1991-ci ildə ABŞ-da Soyuq müharibə zamanı işlədilən termin). Bu hərbi termin həmçinin "maliciously insulted or undermined" (acıqlı şəkildə təhqir edilmiş, yaxud aşağılanmış) mənasında da işlədilir. Terminin əksi kimi *scudless* işlədilir: "pleasant, carefree" (xoş, qayğıdan azad) mənasını verir. Məsələn: 'Y'all have a scudless day after the war' (Müharibədən sonra gözəl (xoş, qayğıdan azad) günün olacaqdır) (3, s. 88).

Stealth	Gizli; Bu hərbi termin bir neçə mənada işlədilir: 1) “airplane designed with stealth technology,” (gizli texnologiya ilə hazırlanan təyyarə); 2) “to kill” (öldürmək); 3) “hidden, undetected” (gizli, aşkarlanmayan); 4) “stealth woman” (qara niqab geyinən, özünü gilzi saxlayan qadın. Səudiyyə Ərəbistanından olan qadınları belə adlandırırlar); 5) “stealth bathing suit” (Naxışlı şəkildə qüsurları gizlətmək üçün hazırlanan hamam kostyumu)
To Shitcan	Atmaq, tullamaq. Bu ifadə ABŞ əsəgərləri tərəfindən işlədilən hərbi slənq hesab edilir. 1980-ci illərdə İkinci dünya müharibəsi zamanı işlədilmişdir (6, s. 100).

Hərbi terminologiya olduqca çətin və qarışıqdır. Dildə işlədilən hərbi sözlər öz mənalarını saxlamaqla yanaşı, həmçinin yeni və fərqli mənalarda da işlədilə bilər. Metaforik mənalı hərbi sözlərin işlədilməsi, hərbi sözlərin evfemiz kimi işlədilməsi, hərbi slənqlər, jarqonlar və s. dildə işlədilən hərbi sözlərin mənalarının daha aydın başa düşülməsinə xidmət edir.

Ədəbiyyat

1. Algeo J. Where Do All the New Words Come From? American Speech 55.4, 1980, pp. 264-77.
2. Algeo J., Adele A. Among the New Words. American Speech 66.4, 1991, pp.380-406.
3. Algeo J., Adele A. Among the New Words. American Speech 67.1, 1992, pp. 83-93.
4. Crystal D. The Cambridge Encyclopedia of Language. Cambridge: Cambridge University Press, 2010, 524 p.
5. Gilliland C. H. U.S. Naval Slang: Shitcan. American Speech 55.2, 1980, pp. 153-54.
6. Linville S. E. The “Mother” of all Battles: Courage Under Fire’ and the Gender Integrated Military. Cinema Journal 39.2, 2000, pp.100-120.
7. Murray T. E. The Language of Naval Fighter Pilots. American Speech 61.2, 1986, pp.121-29.
8. Norris M. Military Censorship and the Body Count in the Persian Gulf War. Cultural Critique 19, 1991, pp.223-45.
9. Oxford English Dictionary. Oxford: Oxford University Press, 2007, 2514 p.
10. Silkett W. A. Words of War. Military Affairs 49.1, 1985, pp.13-16.

İnternet mənbəsi:

11. Los Angeles Times, 25 March, 1991.

Г.И.Мехтиева

Полисемия военных заимствований

Резюме

Статья посвящена полисемии военных заимствований. Она показывает сложность военной терминологии. Она освящает тот факт, что военные слова сохраняют свою форму происхождения также как и включают некоторое дополнительное и новое значение. Военные слова могут иметь метафорические значения, которые помогают смягчить эффект военных терминов. В статье были затронуты и изучены происхождения некоторых военных терминов. Например, в статье было изучено слово ***nexoma***. Она показывает происхождение этого слова также как и его использование. Также была объяснена полисемия некоторых военных заимствований. В статье

был записан лист некоторых военных заимствований. Также был дан перевод на азербайджанский язык некоторых военных заимствований в английском языке.

G.I.Mehdiyeva

The polysemy of military borrowings

Summary

The article deals with the polysemy of military borrowings. It states the hardness of military terminology. It highlights the fact that military words keep their origin form as well as they include some additional and new meanings. The military words may have metaphorical meanings which help to soften the effect of the warfare terms. The origin of some military terms have been touched upon and analyzed in the article. For instance, the military word *infantry* has been analyzed in the article. It states the origin of the mentioned word as well as the usage of it in the article. The polysemy of some military borrowings has been explained too. The list of some military borrowings has been written down in the article as well. The Azerbaijan translation of the military borrowings in English has been written as well.

Rəyçi: filol.e.d., prof. F.Y.Veysəlli

Redaksiyaya daxil olub: 04.11.2019

A.F.QASIMOVA
e-mail: a-qasimova1973@mail.ru

Azərbaycan Dövlət Pedaqoji Universiteti (Şəki filialı)
(Şəki şəh., M.Rəsulzadə küç., 305)

FRANSIZ DİLİNDƏ SİFƏT VƏ ONUN DƏRƏCƏLƏRİ MÖVZUSUNDA İNNOVASİYALAR

Açar sözlər: *sifət, kişi cinsi, qadın cinsi, tək, cəm, adi dərəcə, müqayisə dərəcəsi,üstünlük dərəcəsi*
Ключевые слова: *прилагательное, мужской род, женский род, единственное число, множественное число, положительная степень, степень сравнения, превосходная степень*
Key words: *adjective, male, female, singular, plural, positive degree, comparison degree, superlative degree*

Azərbaycan dilində olduğu kimi fransız dilində də, sifət əsas nitq hissəsi olub, əşyanın əlamətini, keyfiyyətini bildirir. Əlamət dedikdə əşyanın zahiri görkəmi, keyfiyyət dedikdə onun daxili xüsusiyyətləri nəzərdə tutulur. Məs: əşyanın həcmi: long - uzun, court - qısa, grand - böyük, petit – balaca; zahiri görkəmi: vénérable - nurani, maigre - arıq, jeune - gənc, vieux – qoca - onun əlamətləridir. Əşyanını daxili xüsusiyyəti - yəni dadı, xasiyyəti, mənəvi cəhətləri: sage-ağıllı, appliqué-səliqəli, səyli, généreux - əliaçıq, alicənab, sensible - ürəyiyumşaq, həssas - onun keyfiyyətləridir. Ex: un mur blanc - ağ divar (rəng), une belle fille (zahiri görünüş) - gözəl qız, une grande chambre(həcm) - böyük otaq. Sifətlər əşyaları müxtəlif cəhətdən təyin edə bilir.

Ex: C`est un livre français - Bu fransız dili kitabıdır. C`est une porte métallique - Bu dəmir qapıdır.

Sifətlərin cinsi (genres des adjectifs)

Fransız dilində sifətlərin qadın və kişi cinsi var. Bu aşağıdakı qaydalarla düzəlir:

1. Kişi cinsində "e" ilə bitən sifətlər qadın cinsində dəyişmir: (5, s.46)

Ex: rapide - sürətli magnifique - dəbdəbəli, çox gözəl

Ex: Un large corridor - enli dəhliz, un livre rouge - qırmızı kitab

2. Kişi cinsinə "e" əlavə etməklə qadın cinsli sifətlər düzəlir. Bu zaman tələffüz dəyişə də bilər, dəyişməyə də:

a) "e"əlavə etdikdə tələffüz dəyişməyə bilər:

Ex: Joli – jolie (qəşəng), noir – noire (qara), vrai – vraie (düz, həqiqi)

Ex: Un joli garçon - une jolie fille (gözəl oğlan, gözəl qız)

Un cahier bleu - une robe bleue (mavi dəftər, mavi paltar)

b) "e" əlavə etdikdə tələffüz dəyişə bilər:

Ex: grand – grande (böyük), laid – laide (çirkin, kifir)

Un livre français - une chanson française - fransızca kitab, fransızca mahnı

c) "e" əlavə etdikdə son burun saiti saflaşır:

Ex: Plein - pleine - dolu, fin - fine – incə, certain - certaine – təsadüfi

d) "e" əlavə etdikdə son samit "e" dən əvvəl qoşalaşır.

Ex: Européen-européenne - avropalı, ancien-ancienne – qədim

e) "e" əlavə etdikdə sondakı "t" hərfi "e"dən əvvəl qoşalaşır.

Ex: Cadet-cadette - kiçik, muet-muette - lal.

Amma, aşağıdakı sözlərdə "t" qoşalaşmır, "e"-nün üzərinə (aksan qrav) işarəsi qoyulur.

Ex: Complet-complète - tam, dəst, concret-concrète - qısa,

f) Kişi cinsində - er, ier-lə bitən sifətlərə "e" əlavə etdikdə heca qapanır və"e"-nün üzərinə (aksan qrav) işarəsi qoyulur: léger-légère – yüngül

g) Kişi cinsində “eur”lə bitən sifətlər qadın cinsində “euse”lə əvəz olunur.

Ex: Paresseux – paresseuse (tənbəl), ingénieur – ingénieuse (alicənab)

h) Son samiti “f”olan kişi cinsli sifətlərin sonu qadın cinsində “v” ya çevrilir.

Ex: Actif – active (fəal), neuf-neuve (yeni, təzə), veuf – veuve (dul)

4. Bəzi qadın cinsli sifətlərin xüsusi forması vardır:

a) Bəzi kişi cinsli sifətlərə “e” əlavə etdikdə yazı forması dəyişir, tələffüz yox.

Ex: public – publique – ictimai; grec – grèque-yunan; aigu – aigue-iti. etc.

b) Bəzi kişi cinsli sifətlərə “e” əlavə etdikdə yazı da dəyişir, tələffüs də:

Ex: Blanc - blanche-ağ , frais – fraîche - sərin, gros – grosse - kök, franc - franche-səmimi, bas-basse - alçaq, faux – fausse - saxta, sec - sèche quru, long - longue, doux – douce - mülayim, gentil – gentille - ağıllı

c) Kişi cinsində sonu “é” ilə bitən sifətlərə qadın cinsində yenidən “e” əlavə olunur:

Ex: agé – agée (yaşlı,ahıl), aîné – aînée (yaşca böyük)

2. Aşağıdakı sifətlərin kişi cinsinin 2 forması, qadın cinsinin isə bir forması var.

a) Beau, bel, belle (tək) - beaux, belles (cəm) formasıdir, “gözəl” deməkdir.

Ex: Un beau monument - de beaux monuments (gözəl bina, gözəl binalar), un bel arbre - de beaux arbres (gözəl ağac, gözəl ağaclar).

Une belle amie - de belles amies (gözəl dost, gözəl dostlar, rəfiqələr), un beau garçon - de beaux garçons (gözəl oğlan, gözəl oğlanlar).

Un bel hôtel - des beaux hôtels (gözəl otel, gözəl otellər), une belle heure – de belles heures (gözəl saat, gözəl saatlar).

b) Vieux, vieil, vieille-tək, vieux, vieilles - “köhnə, qədim” deməkdir.

Ex: Un vieux bâtiment - de vieux bâtiments (qədim bina, qədim binalar), un vieil hôtel - de vieux hôtels (köhnə hotel, köhnə otellər).

Une vieille femme - de vieilles femmes (qoca qadın, qoca qadınlar), une vieille amie - de vieilles amies (köhnə dost, köhnə dostlar).

c) Nouveau, nouvel, nouvelle-tək, nouveaux, nouvelles-cəm formada işlənir və “yeni, təzə” deməkdir.

Ex: Un nouveau bâtiment - de nouveaux bâtiments (yeni bina, yeni binalar).

Un nouvel arbre - de nouveaux arbres (təzə ağac, təzə ağaclar), une nouvelle robe - de nouvelles robes (təzə don, təzə donlar).

Sifətlərin cəm forması – pluriel des adjectifs.

Sifətlərin cəm forması aşağıdakı yollarla düzəldilir:

1. Tək halda olan sifətlərin sonuna tələffüz olunmayan “s” artırmaqla:

Ex: une belle poupée - de belles poupées (gözəl gəlincik, gözəl gəlinciklər).

2. Sonu təkdə “s”, “x” lə bitən isimlər cəmdə dəyişmir:

Ex: un chapeau gris - des chapeaux gris (boz papaq, boz papaqlar), un enfant heureux - des enfants heureux (xoşbəxt uşaq, xöşbəxt uşaqlar).

3. Cəmdə “beau - beaux, bel - beaux, belle- belles (gözəl), nouveau - nouveaux, nouvel - nouveaux, nouvelle – nouvelles (köhnə) -olur”:

Ex: un beau garçon - de beaux garçons (gözəl oğlan, gözəl oğlanlar), une nouvelle idée - de nouvelles idées (təzə fikir təzə fikirlər), un bel ami - de beaux amis (gözəl dost, gözəl dostlar) etc.

4. Kişi cinsində “al”- la bitən sifətlər, cəmdə “aux”lə əvəz olunur.:

Ex: un problème principale - des problèmes principaux(əsas məsələ, əsas məsələlər)

Keyfiyyət sifətlərinin dərəcələri-Les degrès de comparaisons des adjectifs qualificatifs

Keyfiyyət sifətlərinin üç dərəcəsi vardır: adi dərəcə (degrè positif), müqayisə dərəcəsi (degrè comparatif) və üstünlük dərəcəsi – (degrè superlatif) (5, s.48)

1. Adi dərəcə - positif - əşyanın əlamətinin adi dərəcədə olduğunu bildirir:

Ex: Pierre est intelligent – Piyer ağıllıdır. La Volga est large - Volqa çayı enlidir.

2. Müqayisə-comparatif - əşyanın əlamətinin digəri ilə ya eyniliyini, ya üstünlüyünü, ya da azlığını bildirir. Bu dərəcəni düzəltmək üçün "plus","moins", "aussi" zərflərindən istifadə olunur. (3, s.49)

a) "plus" - əlamətin çoxluğunu bildirir:

Ex: Bakou est plus belle que Soumgaïte - Bakı Sumqayıtdan daha gözəldir.

b) "moins"əlamətin azlığını bildirir:

Ex: Soumgaïte est moins belle que Bakou – Bakı Sumqayıtdan az gözəldir.

c) "aussi" əlamətin eyniliyini bildirir:

Ex: Bakou est aussi belle que Soumgaïte - Bakı da, Sumqayıt kimi gözəldir .

3. Üstünlük – superlatif – Əşyanın əlamətinin adi dərəcədən daha çox və ya daha az olduğunu bildirir: Bu zaman yalnız "plus", "moins" zərflərindən istifadə edilir və onların qarşısında "le, la, les" artikllərindən biri işlədilir. Söhbət yalnız bir obyektdən gedir .

Ex: C`est l` élève le plus studieux de la classe - Bu sinfin ən çalışqan şagirdidir.

Cette oeuvre est la moins intéressente des livres - Bu əsər kitabların ən maraqsızıdır. Bu zaman "que"dən də istifadə edilmir. 4. "Bon, mauvais, petit" sifətlərinin müqayisə və üstünlük dərəcələri xüsisi yolla düzlir: (5, s.48)

Adi dərəcə:	**müqayisə dərəcəsi**	**üstünlük dərəcəsi**
Bon-bonne;	meilleur,e	le, la, les meilleur
Mauvais,e;	pire	le, la, les pire
Petit, petite	plus petit,e	le, la, les plus petit
	Moindre	le, la, les moindre.

Sifət cümlədə aşağıdakı qaydada yerləşə bilər:

a) Əlamət bildirəndə ismin qarşısında ;

Ex: un bon garçon - yaxşı oğlan, un beau garçon - gözəl oğlan, un grand garçon -böyük oğlan, un jeune garçon - gənc oğlan.

b) İsimdən sonra gəlir;

1. Rəng, forma, miliyyət bildirəndə:

Ex: une balle rouge - qırmızı top, une table ronde - dairəvi stol, un livre français -fransız dili kitabı.

2. Çoxmənalı sifətlər olduqda:

Ex: un pays extraordinaire - qeyri adi ölkə, un pays pittoresque - cazibədar ölkə.

c) Əgər cümlədə 2 sifət işlənirsə, biri isimdən əvvəl, digəri isə isimdən sonra yazılır:

Ex: İls sont entrés dans une grande salle claire - onlar böyük və işıqlı bir zala daxil oldular.

d) Bəzi sifətlərin əvvəl və ya sonra gəlməsi cümlənin mənasını dəyişə bilər:

Ex: Un homme grand - ucaboylu adam; un grand homme - dahi adam.

Un homme brave - cəsur adam - un brave homme - vicdanlı adam.

Les mains propres - təmiz əllər, les propres mains - şəxsi əllər

Nəticə. Fransız dilində sifətlərin qadın və kişi cinsi var. Sifətlər aid olduğu isimlə cinsə və kəmiyyətə görə uzlaşır. Cinsə görə "e", kəmiyyətə görə "s" yazılır. Sifətlər adətən isimdən sonra yerləşir, ancaq bəzi sifətlər var ki, onlar isimdən əvvəl yerləşir. Fransız dilində sifətlərin müqayisə dərəcəsi onların qarşısında işlənən **plus, moins**, **aussi** zərflərinin və **que** bağlayıcının köməyi ilə düzəlir.

Ədəbiyyat

1. M.Quliyeva. Fransız dilinin qrammatikasına dair qısa məlumat. 1962.
2. Grammaire Progressive du français. GLE international. Imprimé en France, 2004.
3. X.Həsənova, G.Məmmədova, X.İsayeva, F.Ağayeva. Le français pour tous. 2019. İSBN: 978-9952-8117-3-5
4. M.Quliyeva. Fransız dili dərsliyi. 1983.
5. Babaxanova Ç., İsayeva R., Cəfərova Ü. Le français. 2019. İSBN 978-9952-482-54-6

А.Ф.Гасымова

Инновации на французском языке и его цены

Резюме

Французские прилагательные имеют два пола: мужской и женский. Качества соответствуют типу пола и количеству, к которому они принадлежат. В зависимости от пола, “e”, в зависимости от количества “e”. Качества обычно следуют за именем, но есть некоторые прилагательные, которым предшествует имя. Степень сравнения прилагательных на французском языке состоит из большего, меньшего числа, большего количества конвертов и, с помощью компоновщика.

A.F.Gasimova

Innovations in French and its prices

Summary

French adjectives are singular and plural. Qualities comply with the type of gender and quantity they belong to. According to the gender, “e”, according to the quantity` “s”. Qualities are usually after a name, but there are some adjectives that are preceded by a name. The degree of comparison of adjectives in French is made up of more, fewer, more envelopes, and, with the help of a linker.

Rəyçilər: filol.f.d., dos. U.B.Mürşüdova,
ADPU-nun Şəki filialının Dillər kafedrası
(12.07.2019-cu il tarixli iclasın qərarı (pr. № 12)).

Redaksiyaya daxil olub: 09.09.2019

N.SƏLİMOVA

Azərbaycan Dillər Universiteti
(Bakı şəh., R.Behbudov küç., 60)

İNGİLİS DİLİNDƏ FRAZEOLOJİ BİRLƏŞMƏLƏRİN XÜSUSİYYƏTLƏRİ

***Açar sözlər**: frazeologiya, frazeoloji birləşmə, frazeoloji vahid, frazeologizm*
***Ключевые слова:** фразеология, фразеологические сращения, фразеологические единства, фразеологизм*
***Key words**: phraseology, phraseological combination, phraseological unit, phraseologism*

Dünyanın dil mənzərəsinə nəzər saldıqda müasir dillər arasında ən geniş yayılmış dillərdən biri də ingilis dilinin olduğunu görürük. Ingilis dili dünyanın bir sıra ölkələrinin dövlət dilidir. Bir sıra dövlətlərdə isə öz dilləri ilə yanaşı ingilis dilindən də istifadə edirlər.

Azərbaycan Respublikasının dünya dövlətləri ilə iqtisadi, siyasi, elmi-mədəni əlaqələri genişləndirdiyi bir dövrdə, hər bir sahədə dillərə, xüsusilə də ingilis dilinə böyük ehtiyac duyulur.

Frazeoloji birləşmələrin dildə işlənməsi dili zənginləşdirdiyi kimi, fikrin yığcam, dəqiq, obrazlı ifadəsi, bu və ya digər üslubi çalarlıqla deyilməsi üçün lazımi şərait yaradır. Hər dildə minlərlə frazeoloji birləşmələr olduğu kimi, İngilis dili də zəngin frazeoloji birləşmələr qrupuna malikdir. Müasir dövrdə frazeoloji lüğətlərə nəzər yetirdikdə, bunu əminliklə qeyd etmək olar ki, həm İngilis, həm də Azərbaycan dili frazeoloji lüğət tərkibinə görə çox geniş və zəngindir.

Hər hansı xarici bir dili mükəmməl şəkildə öyrənmək üçün, şübhəsiz ki, həmin dilin aspektlərini, dil fəaliyyətinin müxtəlif növləri üzrə bilikləri mənimsəmək şərtdir. Müasir dövrdə dilçilik elmi artıq elə bir mərhələyə çatmışdır ki, dillərin mükəmməl şəkildə öyrənilməsi üçün qeyd etdiyimiz şərtlər azdır. Bunlardan əlavə olaraq, bir dilin və yaxud da dillərin təsviri qrammatikası, leksik və frazeoloji materialları da öyrənilməlidir (1).

Frazeologizmlər milli xüsusiyyətə malik olduqları üçün, hər hansı bir xalqın həyat tərzi, tarixi və mədəniyyətini öyrənmək istəyiriksə, mütləq şəkildə həmin xalqın frazeologizmlərinə nəzər yetirməliyik. Bu frazeologizmlərdə həmçinin xalqın sevinc və kədəri, məhəbbət və nifrəti, mübarizəsi, bir sözlə, hər şey açıq şəkildə göstərir. Ümumilikdə hər hansı bir dilin mükəmməl öyrənilməsi, onun frazeologizmlərini öyrənmədən mümkün deyildir.

Müasir ingilis dilinin frazeologiya aləmi geniş və rəngarəngdir və onun hər bir aspektinin tədqiqatı, sözsüz ki, böyük diqqət tələb edir. İngilis dilini xarici dil kimi öyrənənlər üçün dilin bu bölməsini anlamaq ilk mərhələdə çətinlik törədir, lakin frazeologizmləri qavradıqdan sonra ingilissayağı danışmağa və onları bir sözdən anlamağa başlayırlar, beləliklə də, onların nitq hazırlığı zənginləşir. Öz fikirlərini qısa və dəqiq ifadə edə bilirlər. Bir çox hallarda isə ingilis frazeologiyasını bilmək cümlələrin Azərbaycan dilindən ingilis dilinə sözbəsöz tərcümə olunmasından uzaqlaşdırır.

Frazeologiya dilçiliyin sabit, formalaşmış ifadələri öyrənən bir bölməsidir. Bütövlükdə dildə, həmçinin bu və ya digər yazıçının və ayrıca hər bir bədii əsərin dilində olan bütün ifadələrin məcmusu frazeologiya adlana bilər. Frazeologiyanın predmeti, bu sahəyə aid olan anlayışların sərhədi tam müəyyənləşdirilməmiş, tədris metodu kifayət qədər dəqiqləşdirilməmiş və ətraflı öyrənilməmişdir. Frazeologizmlər haqqında dilçilərin fikirləri fərqlidir. Bir qrup tədqiqatçılar sabit, formalaşmış ifadələri frazeologiyanın tərkibinə daxil edir, digər qrup tədqiqatçılar yalnız müəyyən ifadələri aid edirlər.

Akademik V.V.Vinoqradov və bəzi dilçilər atalar sözlərini, deyimləri frazeologizmlər qrupuna daxil etmirlər. Onlar bu sözlərin öz semantik çalarlığına və sintaktik quruluşuna görə frazeoloji ifadələrdən fərqləndiyini iddia edirlər.

V.V.Vinoqradov təsdiq edirdi ki: "Atalar sözləri və deyimlərin öz cümlə quruluşları var, onlar sözlərin semantik ekvivalentləri deyildirlər. Bir linqvistik fənn kimi frazeologiyanın məqsədi bu və ya digər dilin frazeoloji fondunun hərtərəfli tədqiq olunmasıdır. Frazeologiyaya aid elmi tədqiqatın əsas aspektləri – frazeoloji ifadələrin sabitliyi, sistemliliyi, onların semantik quruluşu, mənşəyi və əsas funksiyalarıdır" (4).

İngilis dili frazeologizmlərinin əksəriyyəti Qədim Roma və Yunan ədəbiyyatlarından götürülmüşdür. Bu frazeologizmlər aşağıdakılardır: the golden age "qızıl əsr", Achilles' heel "axilles dabanı" (yeganə ən zəif yer). *the face that launched a thousand ships – çox gözəl qadın; herculean labour – müşkül məsələ;* (3)

Qədim dövrlərdən indiyədək Bibliya insanlar tərəfindən ən çox oxunan kitab olmuşdur. Buna görə də, ingilis dilindəki frazeologizmlərin əksəriyyəti Bibliyadan götürülmüşdür. Bibliyadan götürülmüş frazeologizmlər bibleizmlər adlandırılır. İngilis dilindəki geniş yayılmış bibleizmlərə misal olaraq:

Bite the dust-üzüqoylu düşmək,uğursuzluğa düçar olmaq;
eye for eye,tooth for tooth - gözə-göz dişə-diş,əvəz-əvəzə;
fall from grace – doğru yolunu azmaq,günaha batmaq;
wash one`s hands of the matter – yaxasını kənara çəkmək;
to be at one`s wit`s End – başını itirmək,nə edəcəyini bilməmək;
wolf in sheep`s clothing – qoyun dərisi geymiş canavar;
broken heart – qırıq qəlb;

Frazeologizmlər mənşəyinə görə iki cür olur:

1. Xalis (Öz dilinin imkanlarına).

Dilin özimkanı hesabına yaranan frazeologizmlərə xalqın qədim və zəngin söz xəzinəsinə malik olanlar nəzərdə tutulur əsrlər boyu insanlar arzu və istəklərini frazeologizmlərdə əks etdirmişlər. bu frazeologizmlər nəsildən – nəslə, dildən – dilə keçərək dövrümüzə qədər gəlib çatmışdır; to see with half an eye – gözüyumulu görmək, to have a free hand – sərbəst hərəkət etmək, to stay smb`s hand – kiminsə əlini saxlamaq (müəyyən bir işdən), to see no further than one`s nose// not to be able to see beyond one`s nose – burnundan qabağı görməmək, to make smb`s nose swell – qısqanclıq hissi göstərmək, to bite the hand that feeds you – çörək verən əli kəsmək, to get beautiful of smth – boğaza qədər doymaq, a burnt child dreads the fire – ilan vuran alaçatıdan qorxar, there is no rose without a thorn – qızıl gül tikansız olmaz.

2. Alınma (başqa dillərdən alınmalar şəklində).

Müasir dövrdə, xalqların bir-biri ilə sıx əlaqədə olduğu bir dövrdə (elmi, mədəni, siyasi, iqtisadi cəhətdən) bu dillərin yaxınlaşması, bir- birlərinə frazeoloji birləşmə verməkə üçün şərait yaradır. Elə bir dil yoxdur ki, onun lüğət tərkibi yalnız öz sözlərindən ibarət olsun. Başqa dillərdən alınan frazeologizmlər (alınma frazeologizmlər) digər dillərdə olduğu kimi ingilis dilində də böyük rola malikdir.

Frazeologizmlər ədəbi dilin yazılı növündə, əsasən bədii üslubda yazılan əsərlərdə, xüsusi üslubi rola malikdir. Frazeoloji birləşmələr yazıçı fikrinin tutumunu böyüdür, bədii əsərin emosionallığına,üslubi keyfiyyətlərinin zənginləşməsinə xidmət edir.Böyük yazıçı və şairlərin əlində frazeologizmlər bu və ya başqa surətin danışığını fərdiləşdirmək, tipikləşdirmək üçün əsas vasitələrdən birinə çevrilmişdir.Bədii üslubda işlənmiş frazeoloji birləşmələrə misal olaraq:

"İ`ve got my hands full". F.Scott Fitzgerald, The Great Gatsby
to have hands full – baş qaşımağa vaxtı olmamaq;
But I laughed and said, "Don't worry, Professor, I am not pullung her ladyship's leg. J.Cary, The Horse's Mouth.
To pull one`s leg-kiminləsə zarafat etmək;

Frazeologizmlər struktur tərkibinə görə müxtəlif olurlar.

1. İki sözdən ibarət frazeologizmlər: lose face – alçalmaq, əskilmək, shake hands - əl tutmaq, əl sıxmaq, penciled eyebrows – qələm qaşlar, toes up – ölü, cansız, kneel down – dizi üstə çökmək, Chin up! Burnunu sallama!, give cheek – qabarmaq, söz qaytarmaq, kobud/qaba cavab vermək, ədəbsizlik etmək/göstərmək, həyasızcasına danışmaq, utanmaz-utanmaz danışmaq, sit cheek – yanaşı oturmaq, ground arms (or lay down arms) – silahı yerə qoymaq, təslim olmaq, hands down – heç bir çətinlik olmadan,xmübarizəsiz, şübhəsiz, Handsoff! - əlini çək!

2. Üç sözdən ibarət frazeologizmlər: on the arm (jarqon) – havayı, cheek by jowl – yanbayan; böyür böyürə; göz-gözə; dostcasına/səmimi, be all ears – çox diqqətlə, həvəslə qulaq asmaq, axıracan dinləmək, raise the eyebrows – təəccübdən qaşlarını qaldırmaq/çatmaq, turn thums up (on) – lehinə olmaq, təviq etmək, həvəsləndirmək, bite one`s lip – dodaqlarını dişləmək, gəmirmək (qorxudan, həyəcandan, özünü bir iş görməkdən çəkindirmək üçün), face to face – üz-üzə, fold one's arms - əlini ağdan qaraya vurmamaq, call to arms – səfərbərliyə almaq, silahlanmağa çağırmaq, in safe hands – etibarlıəllərdə, out of hand –o saat, o dəqiqə, o an, fikirləşmədən, put in hand – işə başlamaq, işə girişmək, take in hand – məsuliyyəti öz üzərinə götermək, rap somebody's fingers- kimisə cəzalandırmaq, danlamaq, töhmət etmək, armed to teeth – təpədən dırnağa qədər silahlanmış, curl one's lip – ağzını əymək, set one's teeth – dözümlülük, möhkəmlik nümayiş etdirmək, dişini dişinə sıxıb dözmək, grin from ear to ear – sevinc- xoşbəxtlik, we've had a fantastic response, he said, grinning from ear to ear. Burada "olduqca xoşbəxt görünmək" kimi tərcümə olunur.

3. Üçdən artıq sözdən ibarət frazeologizmlər: gözünün qabağına gəlmək, turn red in the face – qıpqırmızı qızarmaq, keep hands in pocket –avaraçılıqetmək, işsiz – gücsüz olmaq, pay for one's own hand – öz xeyrin güdmək, öz xeyrinə çalışmaq, live from hand to mouth – güclə dolanmaq, gələcəyə əmin olmamaq, take oneself in hand – özünü ələ almaq, carry (hold) one's head high – başını uca tutmaq, go out of one's head – başını itirmək, çaşıb qalmaq, take one's life in one's hand – risk etmək, həyatı ilə oynamaq, lead by the nose- kimisə özünə tabe etmək, a slip of the tongue – ağzından qaçırmaq, keep one's tongue between one's teeth – dilini saxlamaq, dilini qarnına qoymaq (2).

Ədəbiyyat

1. Əhmədova X. Rəhimov İ. Azərbaycanca-İngiliscə, İngiliscə-Azərbaycanca müxtəsər frazeoloji lüğət.

2. Musayev O. İngiliscə- Azərbaycanca lüğət. Bakı, Qismət, 2003, 1673 səh)

3. Кунин А.В. Курс фразелогии современного англтйского языка. М., Высш. шк., 1986, 336 с.

4. Виноградов В.В. Об основных типах фразеологических единиц в русском языке. М.: Наука, 1986.

Н.Салимова

Особенности фразеологических ассоциаций в английском языке

Резюме

В статье рассматриваются особенности английских фразеологизмов, их использование в разных стилях и происхождение английской фразеологической единицы. Фразеологические выражения за счет языка предназначены для тех, кто обладает древними и богатыми сокровищами людей. На протяжении веков люди выражали свои пожелания и пожелания фразами. Английские фразеологизмы анализируются на основе различных примеров, с помощью которых отличаются различные истоки фразеологических сочетаний.

N.Salimova

Features of Frazeological Associations in the English Language

Summary

The article deals with the peculiarities of English phraseologisms, their use in different styles and the origin of English phraseological units. Phraseological expressions at the expense of language are meant by those who have ancient and rich treasures of the people, for centuries people have expressed their wishes and wishes in phrases. English phraseologisms are analysed on the basis of various examples by means of which different origins of phraseological combinations are distinguished.

Rəyçi: f.f.d. D.Həşimova

Redaksiyaya daxil olub: 05.11.2019

A.İ.ŞÜKÜROVA
e-mail: aysel_edu@yahoo.com

Azərbaycan Dillər Universiteti
(Bakı şəh., R.Behbudov küç., 60)

"AZƏRBAYCAN" TOPONİM-KONSEPTİNİN İNVARİANT HİSSƏSİNİN ŞƏRHİ

Açar sözlər: *"Azərbaycan" konsepti, toponim, etimologiya, konseptin statik xüsusiyyəti*
Ключевые слова: *концепт "Азербайджан", топоним, этимология, статический аспект концепта*
Key words: *concept "Azerbaijan", toponym, etimology, static aspect of the concept*

Konseptin dinamik aspektdən öyrənilməsində onun ən dərin strukturunun ilkin layı olan daxili forma və ya invariant hissənin təqdim etdiyi tarixi məlumatlara istinad etmək vacibdir. Konseptlər müxtəlif tarixi dövrlərdə şüurdan şüura asılı olaraq dəyişir. Eyni zamanda, onlar mövcud olduqları dövrlərin izlərini özlərində saxlaya bilirlər və bununla da mahiyyətlərini tamamlayan inkişaf ideyasını statikada ifadə edirlər. İndiki zaman və gələcəklə bağlı olan dinamika, keçmişə istinad edən statika ilə qarşılıqlı əlaqədədir. Məsələn, V.V. Vinoqradova görə, "sözün sinxron eyniliyində onda olan əvvəlki dəyişikliklərin izi və sonrakı inkişafının əlamətləri özünü göstərir. Beləliklə, sinxron və diaxron eyni tarixi prosesin müxtəlif tərəfləridir. İndinin dinamikası gələcəyə həmlədir. Sözün müasir mənaları arasındakı münasibətlər, onların iyerarxiyası, frazeoloji kontekstləri və ekspressiv çalarları onun əvvəlki dövrdəki diaxron qalıqlarıdır" (6, s.17). Demək, konseptin zəngin etnogenezini təqdim edən invariantlıq anlayışı variativlik üçün təməl olduğu üçün alimlər onun dinamik təbiəti ilə yanaşı statik xüsusiyyətlərini tarixi fonda öyrənirlər. R.Ə. Mehdiyevə görə, "Tarix təkcə bizə qədər olub keçənlər deyil, həm də bizim özümüzün etdiyimiz, bizimlə əlaqədar və bizim sayəmizdə baş verən hadisələrdir. Biz tarixi indiki dövr və gələcəklə əlaqəli şəkildə, yəni öz fəaliyyətimizlə əlaqəli şəkildə nəzərdən keçirməsək, onu keçmişin ayrıca bir fraqmenti kimi öyrənə bilmərik" (4, s.247). Deməli, tarixi tədqiqatlar fonunda köhnə, qədim konseptlərin məna və məzmun cəhətdən necə zənginləşməsini və onların əsasında yeni konseptlərin hansı yolla yaranmasını müəyyən etmək olar.

"Azərbaycan" söz-konsepti mühüm linqvo-mədəni anlayış kimi dinamik məlumatın daşıyıcısı olmaqla bərabər, həm də informativ dayanıqlıq ilə seçilən invariantlığa və ya statikaya malikdir. Dünyanın dil mənzərəsində "Azərbaycan" konseptinin dəyişməyən strukturunu təhlil etmək üçün ilk növbədə onu yaradan sözün etimoloji məzmununu açmaq lazımdır. Bu məqamda isə izahlı lüğətlər, müxtəlif leksikoqrafik mənbələrə müraciət etmək olar. T.N. Xomutovaya görə, "Lüğət məqaləsi istifadəçi üçün geniş ümumi linqvistik və həm də ümummədəni məlumatın əldə olunmasında etibarlı üsuldur" (8, s.108). Etimologiya ümummilli biliyin ontogenezini təsvir edərək bu bilik əsasında yaranmış konseptlərin məzmununu açır və onların müxtəlif məna laylarını təqdim edir.

Bildiyimiz kimi, bir sıra alimlər (məsələn, M.V. Terskix, E.D. Malyonova, V.A. Maslova) lüğətlərdəki definisiyalarda söz-konsepti ilkin olaraq təsvir edərkən onu "nüvə" adlandırırlar. Məsələn, V.A. Maslova "Koqnitiv dilçilik" ("Когнитивная лингвистика") kitabında "nüvə" adlanan invariant hissə haqqında yazır: "Nüvə bu və ya digər leksemin lüğəvi mənasıdır" (7, s.45). Deməli, konseptin invariant hissəsini təsvir etmək üçün ilk növbədə onun adına, yəni "nüvəsinə" müraciət olunur. Biz "nüvəni" həmçinin "bazis" adlandıra bilərik. İlkin statik məlumatda "Azərbaycan" xüsusi addır, yəni onomastik konseptdir və xüsusi ad kimi o, individual əhəmiyyətli simvoldur.

Qeyd etmək lazımdır ki, xüsusi sözlərin mənaya malik olması dilçilikdə mübahisəli məqamlardandır. Əslində, heç də bütün xüsusi adların leksik mənası olmur; bəzi xüsusi adların çox, digərlərinin isə daha az mənanı ifadə etməsi onların hansı onomastik sinfə mənsubiyyəti ilə əlaqədardır. Xüsusi isim nitqdə yalnız bir şəxsə və ya denotanta məxsus olaraq yaranır və bununla da onun zaman, məkan və sosial sahələrdə lokallaşması baş verir. Dünyanın dil mənzərəsində mədəni konsept statusunu daha çox bütün dünyanın və ya hər hansı bir ölkənin tarixi, mədəniyyəti üçün əhəmiyyətli sayılan xüsusi adlar əldə edir. Xüsusi sözün konseptə çevrilməsi üçün o, diskursu yaradan etnomədəni məkanın həm qiymətləndirici və həm də semantik energetikasını qazanaraq simvolik mənalar yaratmalıdır. Buna görə də xüsusi adlar konseptlər kimi şərh olunanda onların mental formada mövcudluğuna, yəni xüsusi adın mental leksikonunu təşkil edən semantik sahəyə obyektiv reallığın şüurda əksi zamanı diqqət etmək lazımdır. Eyni zamanda, belə konseptlərin şərhi yaddaşdakı şifrələrdə saxlanılan məlumatın məzmununun müxtəlif mərhələlərdə dildə təqdim olunmasına xidmət edir. Hesab edirik ki, milli-mədəni, sosial komponent xüsusi sözlərdə ümumi sözlərə nisbətən daha çoxluq təşkil edir və ümumi isimlərdən fərqli olaraq "Azərbaycan" onomastik vahid kimi sırf leksik tərkibdən başqa ekstralinqvistik anlayışlar olan estetik, mənəvi, qiymətləndirici məzmunları özündə birləşdirərək konseptə çevrilir.

Qeyd etmək istərdik ki, konseptin nüvəsində təqdim olunan statik məlumatı lüğətlərdən başqa internet resursları, məlumat kitabçaları, ensiklopediyalar, coğrafiyaya aid mənbələrdən əldə etmək olar. Məsələn, Vətənimizin qədim ərazisinin geniş olması "Azərbaycan etnoqrafiyası" kitabında aşağıdakı kimi təsvir olunur: "Azərbaycanın tarixi ərazisinin şimal sərhədləri Baş Qafqaz dağ silsiləsinin cənub yamacları boyu, qərb sərhədləri Böyük Qafqaz sıra dağlarından başlayaraq Suram dağ silsiləsi, Kiçik Qafqaz dağlarının qərb yamacları və Qotur dağ silsiləsi boyu cənuba doğru uzanır. Onun cənub hüdudlarını Zaqros dağları təşkl edir. Azərbaycan şərqdə Xəzər dənizi ilə və İranın Qəzvin, Zəncan və Həmədan mahalları ilə hüdudlanır. Azərbaycanın tarixi torpaqlarının ümumi sahəsi 250 min kv.km-dən artıq olmuşdur" (1, s.13). Deməli, "Azərbaycan" konseptinin strukturu bazis, əlamət və predikatdan ibarətdir. Onu diskurs şərçivəsində bir məkan olaraq aşağıdakı cəhətlərə görə xarakterizə etmək olar: keyfiyyət, rezervuar, məkanda yerləşmə, hadisənin iştirakçısı, sərhəd. "Azərbaycan etnoqrafiyası" kitabındakı şərhdə konsept məkanda yerləşmə, sərhəd xüsusiyyətlərini təqdim edir.

Qeyd etmək istərdik ki, hər bir insanın təsəvvüründə müəyyən coğrafi ad məlum yer, zamanla bağlı olduğuna görə, "Azərbaycan" həm də məzmun cəhətdən Azərbaycan adlı coğrafi məkan adına işarə edir, yəni o, toponim-konseptdir. Beləliklə, konseptin invariant hissəsinin təhlilində vacib məqam onun coğrafi və ya toponimik mənşəyinin müəyyən olunmasıdır. Toponim-konseptlər məkanın insan tərəfindən tutulması, onun şüurda konseptuallaşması, etnosun kifayət qədər mühüm əlamətləri haqqında məlumat verirlər. Y. Cəfərova görə, "Toponimlər hər hansı coğrafi obyektin vətəndaşlıq pasportudur. Yeni doğulmuş körpənin milliyətini onun valideyinlərinin etnik mənşəyi müəyyənləşdirdiyi kimi, torpağın milliyətini də ilk dəfə ona ad qoyan xalq, etnos müəyyənləşdirir" (2, s.25). Coğrafi adların özünəməxsusluğunu şərtləndirən əsas cəhət cəmiyyətdəki sosial-tarixi faktorların inkişaf mərhələlərində yaranan sözün müəyyən obyektə işarə edib ona ad verməsidir. Belə ki, toponimin əsas mahiyyəti onun sosial-tarixi mahiyyətli ad və antropoloji meyilli olmasıdır. Coğrafi adla coğrafi obyekt arasında isə insan fenomeni durur. Deməli, istənilən elmi tədqiqatlarda əsas faktor insan olduğuna görə dillərin öyrənilməsindəki antroposentrik maraq da canlı dillərlə bağlıdır. Əslində, xüsusi adın sosial-tarixi mahiyyətli, antropoloji istiqamətli olması öz növbəsində həm eyni və həm də müxtəlif sistemli toponimiyanı öyrənmək imkanını verir. Toponimlər insan şüurunda coğrafi gerçəkliyin əks olunmasının ən erkən formalarıdır və onlar ilk növbədə ətraf aləmdə düzgün istiqamətin tapılması məqsədilə yaranmışdır. Coğrafi ad birbaşa coğrafi yerlə bağlı olmaya da bilər, çünki bu əlaqə çox mürəkkəbdir. Toponimin mənası hər bir sözün mənası kimi

işarə edilən obyektə olan münasibəti bildirmir, əksinə həmin obyektin bizim şüurumuzdakı obrazına münasibəti ifadə edir.

Qeyd etmək istərdik ki, toponimlərin təqdim etdiyi dünyanın dil mənzərəsindəki mədəni və dini komponentlərin tədqiqatı əhəmiyyətlidir, çünki mədəniyyət və xalqın dini onomastikaya təsir edən əsas faktorlardandır. Dil, din və mədəniyyət qarşılıqlı əlaqədə olduğu üçün hər hansı bir dilin onomastik qatını şərh etmək mədəniyyətin, dinin onomastik sahəsini öyrənmək deməkdir. Eyni zamanda, toponim dini və məkan məlumatını birləşdirmək qabilliyətinə malikdir. "Azərbaycan" toponim kimi həm də islama qədər olan dövrdə yarandığına görə "od" əlaməti ilə məkan daxilində sakral təfəkkür modelini yaradır. N.G. Məmmədov "Toponimika" kitabında yazır: "... Azərbaycan coğrafi adı Azər və baycan sözlərinin birləşməsindən ibarət olub "Odlar ölkəsi", "Odlar diyarı" mənasındadır" (5, s.312). Qeyd etmək istərdik ki, Azərbaycan xalqının qədim dini təfəkküründə od ibadət, sitayiş obyektidir. Belə mürəkkəb mifoloji baxışlar sistemində dini münasibətlərin obyektinə çevrilən "od" koqnitiv əlaməti həm də bu günə qədər "Azərbaycan" konseptinin ayrılmaz bir hissəsi sayılır və konseptin statikasında təqdim olunan bu əlamət həm də müasir dövrdə dinamikada təqdim olunur. Məsələn, Azərbaycanı tez-tez milli diskursda "Odlar yurdu" və həm də ingilis dilli diskurs nümunələrində "The land of fire" adlandırırlar. Müasir dövrdə konseptdəki müsbət "od" sakral əlamətini biz həmçinin 2012-ci ildə keçirilmiş Avroviziya Mahnı Müsabiqəsinin ingilis dilində səslənən "Light your fire!" yəni azərbaycan dilinə tərcümədə "Öz məşəlini alovlandır!" şüarında da görə bilərik. "Azərbaycan" toponim-konsepti sosial işarə kimi mövcud olduğu mühiti özündə təqdim edərkən həqiqətən də cəmiyyətdəki dəyişikliklərə həssasdır, lakin eyni zamanda o, dayanıqlıq xüsusiyyətinə malik olaraq yaşadığı dövrdən sonrakı mərhələlərə keçə bilib əbədi abidəyə çevrilir.

Xeyli sayda referentə aid olan antroponimlərdən fərqli olaraq onomastik sinifdə "Azərbaycan" unikal toponim kimi etnosun tarixi-mədəni məkandakı linqvomədəni əhəmiyyəti ilə bağlı təşəkkül tapır. Konsept və söz arasında olan tematik və derivativ əlaqəni görə bilmək üçün "Azərbaycan" konseptinin qədim mənşəyini sübut edən xeyli sayda mənbəyə müraciət etmək olar. Məsələn, N.G. Məmmədova görə, "Azərbaycan sözünün qədim az (as) tayfa adı ilə bağlayanlara da rast gəlirik. Azlar tayfasının qədimliyinə dair çoxlu tarixi qaynaqlar vardır. Belə ki, "qədim türk lüğətində" Orxon-Yenisey kitabələrində azlar etnosu xalq mənasında izah edilir: Az, azlar xalqdır" (5, s.309). Beləliklə, burada toponimin yaranmasında əsas motiv insan adıdır. Eyni zamanda, konsept etnotoponim kimi azərbaycan xalqının təşəkkül tarixini təqdim edərək konkret obyekti müəyyən edir.

Göründüyü kimi, "Azərbaycan" toponim konsepti dünyanın dil mənzərəsinin ayrılmaz fraqmenti olaraq dildə individual işarə ad kimi çıxış edir. Müasir toponimika koqnitiv dilçilik və linqvokulturologiya sahəsi ilə qarşılıqlı əlaqədə olaraq intensiv şəkildə inkişaf edir. Bu məqamda linqvomədəni məlumatın müəyyən şəkildə coğrafi adlarda "qablaşdırıldığının" şahidi oluruq. "Azərbaycan" leksemi isə mürəkkəb sabit leksik sistemdə özünün davamlılığı ilə seçilən, məlumatı qoruyub saxlamaq və ötürmək qabiliyyətinə malik olan coğrafi obyekt və ya toponim kimi tarixi-mədəni hadisələri əks etdir. Deməli, hər bir sözün yaranması tarixi prosesdə baş verir və demək olar ki bütün toponimlər tarixin güzgüsü kimi öz yarandıqları yer, zaman haqqında informasiyanın daşıyıcılarıdır.

H.Araslının "Kitabi-Dədə Qorqud" dastanı ilə bağlı araşdırmaları hər zaman aktual olmuş, hətta dastanın yasaq olduğu illərdə belə tədqiqatçı araşdırmalarını davam etdirmişdir. Alimin yaradıcılığının bu cəhətinə diqqət yetirən Q.Paşayev qeyd edir ki, "akademik Həmid Araslının ən böyük xidmətlərindən biri xalqımızın qürur mənbəyi, yazılı və şifahi ədəbiyyatımızın başlanğıcı, tükənməz enerji mənbəyi "Kitabi-Dədə Qorqud"la bağlıdır. Eposun yasaq edildiyi XX əsrin 40-cı illərində onun Azərbaycanda ilk tədqiqatçısı, əsərin Azərbaycan dilində yazıldığını, Azərbaycan xalqına mənsub olduğunu ilk dilə gətirən Həmid Araslı olmuşdur.

Həmid Araslı eposu yeni əlifbaya çevirmiş, tərtib etmiş, müqəddimə və şərhlərlə 1939-cu ildə çap etdirmişdir. Ön sözdə əsərin tədqiqi tarixindən söz açmış, "Dirsə xanın oğlu Buğacın boyu", "Salur Qazanın evinin yağma edilməsi", "Basatın Təpəgözü öldürməsi" "Bəkil oğlu İmranın boyu" və "Qazanın dustaq olduğu boy" hekayələrini - boylarını geniş tədqiqat süzgəcindən keçirmişdir" (10).

H.Araslı "XVII-XVIII əsr Azərbaycan ədəbiyyatı tarixi" adlı kitabının birinci fəslində əsasən "Koroğlu" dastanına yer ayırıb və onu ətraflı təqdim edib və elmi şəkildə geniş şərh verib. Tədqiqatçı burada "Koroğlu" dastanından danışarkən onun öryənilmə tarixinə də xüsusi

diqqət yetirir və göstərir ki, "İlk əvvəl aşıqların hafizəsində yaşayan bu dastanın ayrı-ayrı nəğmələri şeir, sənət maraqlılarının xüsusi kitab şəklində düzəltdikləri cünglərdə qeyd edildi. Biz XVII, XVIII və XIX əsrlərdə Azərbaycanda yazılmış bir sıra əlyazmalarında Koroğlunun ayrı-ayrı qoşmaları, xüsusən qəhrəmanlıq və məhəbbətə həsr edilmiş nəğmələrinə rast gəlirik" (1, s. 33). Bəlli həqiqətdir ki, xalq dastanlarını xalqın içərisindən çıxan el aşıq və şairləri düzüb qoşur və yaşadır. Məhz "Koroğlu" dastanı da formalaşdığı dövrün aşıqlarının repertuarında mövcud olmuş, ağızdan-ağıza, dildən-dilə ötürülməklə yanaşı, həm də yazıya köçürülərək dövrümüzə qədər gəlib çatmışdır.

Həmid Araslı burada "Koroğlu" dastanından bəhs edərkən onun öyrənilmə tarixi ilə yanaşı, dastanın qısa məzmununu şərh edərək Koroğlu surəti, Koroğlunun silah yoldaşları, Aşıq Cünun surəti, dastandakı qadın surətləri, düşmən surətləri, yardımçı qüvvələr haqqında ətraflı məlumat vermişdir. Həmçinin dastanın quruluşu haqqında fikirlərini təqdim edir və eposun quruluşu barədə bu gün də öz dəyərini saxlayan aşağıdakı mülahizələrini yazır: "Dastanda nəsr və nəzm hissələri bir-birilə üzvü surətdə birləşmişdir. Nəsr hissəsi sadə, xalq dilində olan təsvir və təhkiyədən, nəzm hissəsi isə qəhrəmanların dilindən verilmiş qoşmalardan ibarətdir. "Koroğlu" dastanı bu cəhətdən də yazılı ədəbiyyatdakı poemalardan fərqlənir. Poemaların qəzəl hissəsi qəhrəmanın daxili hiss və həyəcanlarını yaxşı ifadə edən bir vasitə olsa da, əsərin ümumi məzmunu ilə dastandakı qoşmalar qədər bağlı olmur. Poemalardan qəzəli çıxarsaq məzmuna, hadisənin ümumi inkişafına xələl gəlməz. Lakin "Koroğlu" dastanını qoşmasız təsəvvür etmək mümkün deyildir. Bu qoşmalar çox zaman iştirakçılan mükaliməsi şəklində işlənilir" (1, s. 43). Göründüyü kimi, alim dastanın quruluşundan danışarkən onu yazılı ədəbiyyatdakı dastanların quruluşu ilə müqayisəli şəkildə təqdim edir. Bu isə onun həm folklorşünaslıqla, həm də ədəbiyyat tarixi ilə ciddi məşğul olduğunu, həmçinin alimin tədqiqatlarının yazılı ədəbiyyatla şifahi ədəbiyyatın vəhdətində reallaşdığını bir daha görürük.

H.Araslının folklorşünaslıq fəaliyyətində diqqəti çəkən məqamlardan biri də onun şifahi xalq ədəbiyyatı ilə yazılı ədəbiyyatın qarşılıqlı şəkildə öyrənilməsinə diqqət yetirməsi olmuşdur. Tədqiqatçı haqlı olaraq şifahi xalq ədəbiyyatının yazılı ədəbiyyatdan əvvəl yarandığını qeyd etmiş və xalqın öz fikir, ideya və arzularını müxtəlif yollarla ifadə etməyə çalışdığını diqqətə çatdırmışdır. Müəllif ədəbiyyatın bu iki qolundan bəhs edərkən şihafi xalq ədəbiyyatının daha qədim olduğunu vurğulamışdır. "Hələ yazılı ədəbiyyatın olmadığı, ulu babalarımızın çox ibtidai bir həyat keçirdiyi zamanlar, onların əməklə əlaqədar olaraq yaranmış bir ədəbiyyatı var idi. Təbiət qüvvələrinin sirrini öyrənmək və ona təsir etmək üçün ibtidai cəmiyyətdə bir çox adət və ayinlər yaranmışdır. Yağış yağdırmaq, gün çıxarmaq, yaxşı bol məhsul götürmək üçün təbiətə təsir etmək istəyən insanlar, müəyyən ayinlər keçirir və bu ayinləri müxtəlif rəqs və nəğmələrlə icra edirdilər" (4, s. 9). Şifai xalq ədəbiyyatının (aşıq yaradıcılığından başqa) yaradıcıları bu gün elm aləminə məlum deyil. Ancaq atalar sözləri, bayatılar və s. kimi janrlar sözsüz ki, təsadüfən yaranmamış və belə gözəl hikmətli mənanı ifadə edən bədii ədəbiyyat nümunələrinin yaradıcısı olan insan olmamış deyildir. Təəssüf ki, həmin nümunələrin müəlliflərinin adları bu gün bizə məlum deyildir. Şifai xalq ədəbiyyatının bu cəhətinə xüsusi diqqət yetirən H.Araslı qeyd edir ki, "Bu bədii əsərlər yarandığı zaman heç bir yerdə qeyd olunmadığından söyləyənlər tərəfindən dəyişdirilir, getdikcə bir sıra şəkillərdə yaşayır və nəhayət, ellik yaradıcılıq məhsulu olaraq, ilk şəklinə bənzəməyən yeni əsərlərə çevrilir" (4, s. 9). Bu sitatdan da məlum olur ki, tədqiqatçı şifahi xalq ədəbiyyatı nümunələrinin yazıya alınmadığından, müxtəlif variantlara düşdüyündən, öz müəllifini itirərək xalqın məhsuluna çevrildiyinə və ilkin variatını qoruyub saxlaya bilmədiyinə diqqəti cəlb etmişdir ki, bu da müəllifin şifahi xalq ədəbiyyatı ilə bağlı araşdırmalarının nə qədər ardıcıl, dəqiq və sistemli olduğunu sübut etmiş olur.

Hər bir elmi fəaliyyətin əsasında aparılan tədqiqatların sistemləşdirilməsi və davamlı şəkildə tədqiqata cəlb edilməsidir. H.Araslı da şifahi xalq ədəbiyyatı ilə bağlı araşdırmalar apardığı zaman elmi fəaliyyətini sistemləşdirmiş, tədqiq etdiyi mövzuları ardıcıl tədqiqata

cəlb etmiş, xüsusilə də araşdırmalarında ən incə detalları diqqətdə saxlaya bilmişdir. Belə ki, qeyd etdiyimiz kimi onun "Kitabı-Dədə Qorqud" dastanı ilə bağlı araşdırmalarında ayrı-ayrı boyların təsviri verilməklə yanaşı, dastan müxtəlif illərdə həm latın, həm də kiril əlifbası ilə yazılaraq nəşr edilmişdir. Deməli, görkəmli ədəbiyyatşünas alim boyların ayrılıqda təsvirini verməklə kifayətlənməmiş eyni zamanda onun ardıcıl şəkildə nəşr olunmasına da böyük əmək sərf etmişdir. Azərbaycan sıfahi xalq ədəbiyyatı nümunələrini araşdıran alimin həm də insani keyfiyyətləri ortaya çıxmışdır. Belə ki, o, tədqiqat apardığı zaman özünü əsl vətənpərvər kimi göstərə bilmişdir. O, "Kitabi-Dədə-Qorqud" dastanını xalqımızın böyük xəzinəsi hesab etmiş və onu əsl ədəbi xəzinə kimi dəyərləndirmişdir.

H.Araslının foklorla bağlı tədqiqatları "Kitabi-Dədə Qorqud" dastanı ilə yekunlaşmır. O, ayrı-ayrı aşıqlarla bağlı da tədqiqatlar aparmış, onların Azərbacan aşıq sənətinə veridiyi töhfələrdən də bəhs etmişdir. H.Araslı aşıq sənətinin tarixinin hələ çox qədimlərə söykəndiyini qeyd etmiş və dastanlarımızın yaranmasında aşıq sənətinin xüsusi rolu olduğunu vurğulamışdır. "Çox qədim və zəngin olan aşıq yaradıcılığımızın dünyaca məşhur qiymətli abidələri vardır. "Dədə Qorqud", "Koroğlu" kimi qəhrəmanlıq, "Şah İsmayıl", "Aşıq Qərib" və "Əsli-Kərəm" kimi məhəbbət dastanları yaradan çox qədim bir aşıq sənəti irsimiz vardır" (3, s. 3). Göründüyü kimi, görkəmli alim təkcə aşıq sənətinin qədimliyini vurğulamaqla kifayətlənməmiş eyni zamanda da dastanlarımızı həm məhəbbət, həm də qəhramanlıq dastanlarına bölmüşdür.

Görkəmli alimin yaradıcılığında, xüsusilə şifahi xalq ədəbiyyatı ilə bağlı araşdırmalarında "Kitabi-Dədə Qorqud" dastanı ilə bağlı fikirləri hər zaman aktual olmuş və bu gün də aktuallığını qoruyub saxlamışdır. Müəllif dastanın yaranma tarixindən və onun aşıq yaradıcılığının ən qədim nümunəsi olduğundan bəhs edərkən yazır ki, "Azərbaycan aşıq poeziyasının yüksələn qədim və zəngin bir tarixi vardır. Azərbaycan ədəbiyyatının ən qədim abidəsi olan, yaradılış tarixi X-XI əsr təxmin edilən "Kitabi-Dədə Qorqud" dastanları belə aşıq yaradıcılığı məhsuludur. Biz bu dastanlarda müasir aşıq məhfumunu ifadə edən Ozan adı ilə məşhur xalq sənətkarlarına rast gəlirik" (5, s. 3).

H.Araslının foklorşünaslıq irsi təksə "Kitabi-Dədə Qorqud" dastanını araşdırmaqla bitməmiş, o həmçinin ayrı-ayrı aşıqların yaradıcılığından bəhs edən silsilə tədqiqatlar apararaq bu sahədə yeni bir elmi yol açmışdır. Onun "Aşıqlar" (6), "Sarı Aşıq haqqında" (7) və s. kimi əsərlərində aşıq yaradıcılığına xüsusi diqqət yetirmişdir. Həmin əsərlərində H.Araslı görkəmli Azərbaycan aşıqları haqqında ətraflı məlumat vermişdir. O, XVI əsrin görkəmli aşığı Qurbani, XVII əsrdə bayatıları ilə məşhur olan Sarı Aşıq, XVI əsrin sonu XVII əsrin əvvəllərində fəaliyyət ilə diqqət çəkən Aşıq Abbas Tufarqanlı, XVIII əsrdə yaşayıb-yaradan Xəstə Qasım, XIX-XX əsrlərdə fəaliyyət göstərmiş Aşıq Ələsgərin həyatı və yaradıcılığı haqqında qiymətli məlumatlar vermişdir. Bundan başqa o, XVII əsrdə yaranan "Əsli və Kərəm", "Aşıq Qərib", "Şah İsmayıl" kimi məhəbbət və "Koroğlu" kimi qəhrəmanlıq dastanları haqqında orijinal fikirlər söyləmişdir.

Həmid Araslının elmi fəaliyyətində diqqət çəkən məqamlardan biri də budur ki, o, hər zaman özündən əvvəlki və öz çağdaşı olan ciddi tədqiqatçıların mütərəqqi fikirlərindən bəhrələnmişdir. Yəni "H.Araslı özünün folklorşünaslıq fəaliyyətində bir tərəfdən Y.V.Çəmənzəminli, S.Mümtaz, H.Zeynallı və başqa bu kimi nəhəg alimlərimizin ənənələrini davam etdirmiş, o biri yandan da həmdövrləri olan M.H.Təhmasib, Ə.Axundov, H.Əlizadə, M.Seyidov və başqaları ilə yaxından əməkdaşlıq edərək, sözügedən sahənin zənginləşdirilərək inkişaf etdirilməsində müstəsna xidmət göstərmişdir" (8, s. 8).

Nəhayət, qeyd edək ki, tədqiqatçının folklorla bağlı araşdırmaları sonrakı nəsillər üçün mühüm əhəmiyyət kəsb etmişdir. Onun araşdırmalarında aşıq şeiri janrları, aşıq şeirinin görkəmli nümayəndələri, aşıq şeirinin mənşəyi, poetikası və s. xüsusiyyətləri haqqında fikirləri hər zaman aktuallığını qoruyub saxlamışdır. Bu baxımdan alimin elmi fəaliyyətini dəyərləndirərkən qəti bir şəkildə deyə bilərik ki, H.Araslının folklorşünaslıq fəaliyyəti heç də birtərəfli olmayıb. Demək olar ki, tədqiqatçı alim folklorun bütün sahələri ilə məşğul olub, yəni onun tədqiqatları və fəaliyyəti folkloru tam əhatə etmişdir. Belə ki, o həm folklorun yazı-

lı ədəbiyyatımızla olan əlaqə və münasibətlərinin araşdırılması və sistemə salınması istiqamətində, həm folklorun nəzəri məsələləri, tarixi inkişaf xüsusiyyətlərinin öyrənilməsində, həm ayrı-ayrı folklor nümunələrinin toplanması və nəşri işində, həm də folklorun tədrisinin təkmilləşdirilməsi işi istiqamətində proqramların, dərs vəsaiti və dərsliklərin hazırlanması sahəsində mühüm xidmətləri olmuşdur.

Ədəbiyyat

1. Araslı H. XVII-XVIII əsr Azərbaycan ədəbiyyatı tarixi. Bakı, 1956, 327 s.
2. Araslı H. Azərbaycan ədəbiyyatı: tarixi və problemləri. Bakı: Gənclik, 1998, 732 s.
3. Araslı. H. Aşıq yaradıcılığı, Bakı: Birləşmiş nəşriyyat, 1960, 135 s.
4. Araslı H., Rəfili M. Qədim ədəbiyyat – Orta məktəbin 8-ci sinifi üçün, Bakı: Azərnəşr, 1950, 272 s.
5. Araslı H. Aşıq poeziyası və klassiklər // Ədəbiyyat qəzeti, 1938, 17 mart.
6. Araslı H. Aşıqlar, Bakı: Azərbaycan SSR Mədəniyyət Nazirliyi, Respublika Xalq yaradıcılığı evi, 1957, 291 s.
7. Araslı H. Sarı Aşıq haqqında // Ədəbiyyat qəzeti, 1936, 15 may.
8. Səfiyeva V.A. Həmid Araslının folklorşünaslıq irsi. Fil.ü.fəl.dok... diss.. avtoref... Bakı, 2016, 25 s.
9. Səfiyeva V. Akademik Həmid Araslının folklorşünaslıq irsi. Bakı: Elm və təhsil, 2018, 156 s.
10. https://edebiyyatqazeti.az/news/diger/3270-klassik-ve-sifahi-xalq-edebiyyatimizin-misilsiz-tedqiqatcisi

Э.Багирзаде, Н.Саламова

Фольклорная деятельность академика Хамида Араслы

Резюме

Статья посвящена фольклорной деятельности академика Хамида Араслы, одного из серьезных исследователей азербайджанской литературы. Привлекают внимание важные научные исследования ученого в фольклористике. Ученый внес значительный вклад в становление и развитие этой науки в Азербайджане и сделал ряд ранних достижений в этой области. Он внес большой вклад в сбор, систематизацию, публикацию и пропаганду азербайджанского фольклора. Фольклорные исследования Х.Араслы охватывают ряд областей нашей народной литературы. Он сделал ряд первостепенных научных соображений вопросам, касающимся таких серьезных проблем, как ашугское творчество, творчество саги, взаимодействие фольклора с письменной литературой, а также особенности литературных типов и жанров в народной литературе.

E.Bagirzada, N.Salamova

Folklore activity of Academician Hamid Arasli

Summary

The article is devoted to folklore activity of academician Hamid Arasli, one of the serious researchers of Azerbaijan literary criticism. It is shown that H.Arasli draws attention to important scientific researches in the development of folklore. The scientist has made a significant contribution to the formation and development of this science in Azerbaijan, and has made a number of early achievements in this field. Not only did he study the fluorine, he also contributed greatly to the collection, systematization, publication and promotion of folklore.

H.Arasli's folklore studies cover a number of areas of our folk literature; He has made a number of first and foremost scientific considerations on these issues, dealing with such serious issues as ashug creativity, saga creativity, the interplay of folklore with written literature, and the peculiarities of literary types and genres in folk literature.

Rəyçi: filol.e.d., prof. T.Əbdülhəsənli

Redaksiyaya daxil olub: 08.11.2019

V.CAVADOVA

Lənkəran Dövlət Universiteti
(Lənkəran şəh., general Həzi Aslanov xiyabanı, 50)

AZƏRBAYCAN ƏDƏBİ-NƏZƏRİ FİKRİNİN ÇƏTİN SINAQ DÖVRÜ

Açar sözlər: *H.Mehdi. M.Arif, ədəbi tənqid, nəzəri fikir, ədəbi proses*
Ключевые слова: *Г.Мехди, М.Ариф, литературная критика, теория, литературный проссес*
Key words: *H.Mehdi. M.Arif, literary critic, theory, liteary process*

XX əsrin 40-50-ci illərində Azərbaycan tənqid və ədəbiyatşünaslığı özünün yeni mərhələsinə qədəm qoydu. Şübhəsiz ki, bu dövrün tənqid və ədəbiyyatşünaslığı 20-30-cu illərin estetik fikrinin davamı idi. Lakin əvvəlki ədəbi mərhələnin təkrarı deyildi, milli ədəbi fikrin yeni dövrü, müasir fazası kimi özünü göstərirdi. Müharibənin başlanması ilə əlaqədar olaraq bədii ədəbiyyatda vətənpərvərlik, qəhramanlıq, igidlik motivləri üzə çıxdığı kimi, tənqid və ədəbiyyatşünaslıqda da ədəbiyyatdakı məlum meyil və təmayüllər diqqət mərkəzinə gətirildi.

Sovet ideologiya maşınının təzyiqləri ədəbi tənqidə bədii yaradıcılıqdakı sənətkarlıq məsələlərini üzə çıxarmağa imkan verirdi. Nəticədə ədəbi-bədii əsərlərin təhlili bəzən səthi sosioloji təhlillərdən uzağa getmir, bədii əsərin mövzusu, məzmunu, qəhrəmanların davranışının, söylədiyi sözlərin əhəmiyyəti açıqlanır, yazıçıların əvvəlki əsərlərinin adları sadalanılırdı. Bədii yaradıcılıqdan bəhs edən elmi məqalələrdə müəyyən ictimai məsələdən bəhs edən bir tarix, fəlsəfə kitabının, kənd təsərrüfatı planlarının və ya bədii əsərlərin təhlil edildiyi yəqin olunmurdu. Belə əsərlərdə bədii əsərin xüsusiyyətləri, təbiəti, mahiyyəti göstərilmirdi. Bu cür təhlillər yazıçıya da, oxucuya da heç nə vermirdi. Nəticədə yaxşı əsərlərlə zəif əsərlər bir çox hallarda eyni mövqedən ya tərifləlnir, ya da tənqid olununrdu. Hətta onu deyərdik ki, əsərlərin, ədəbi-tarixi prosesin izahında birtərəfliliyə yol verilirdi.

Əslində bədii ədəbiyyat və bütün sənət əsərləri tarixə, həyata, ədəbi faktlara illütrasiya deyil, gözəlliklər dünyasıdır, həyatın, varlığın yazıçı tərəfindən dərk olunan obrazıdır. Ədəbiyyat yeni nəslin həm məfkurəvi, həm də bədii zövqünün formalaşdırılmasında mühüm amildir. 40-50-ci illər ədəbi-nəzəri fikri ədəbiyyatın, ədəbi-nəzəri fikrin missiyasının həyata keçirilməsi yollarında inadla ənənələrimizin yaranmasına nail olurdu.

40-50-ci illər ədəbi prossesində ədəbi tənqidçilərə münasibətdə ciddi ayrı-seçkiliyə yol verilirdi. Belə ki, şairlərin, yazıçıların əsərlərinin nəşrinə, təbliğinə hər il milyonlarla manat pul xərcləndiyi halda, eyni qayğı tənqidçilərə göstərilmirdi. Təxminən həmin dövrün iyirmi ilini nəzərdən keçirsək, cəmi 5-6 ədəbi tənqidi məqalələr toplusunun işıq üzü gördüyünün şahidi olarıq. Eyni zamanda tənqid ciddi təzyiqlərə məruz qalırdı: "Ədəbiyyat tariximiz ilə məşğul olan bəzi tənqidçi və elmi işçilərin son zamanlar ayrı-ayrı yazıçıların yaradıcılığına həddən artıq qiymət verilməsi, onların mürtəce və tarixən məhdud baxışlarını ört-basdır etmələri. bütün keçmiş yazıçılara ucdandutma "dahi sənətkar", "böyük humanist" və s. adlar verib, onların yaradıcılığını öyrənərkən konkret tarixi və ictimai şəraitdən üzaqlaşmaları həqiqətən dözülməz haldır" (3).

Təbii ki, ədəbi-tənqidi materialların vaxtlı-vaxtında çap edilməməsi ədəbi tənqidin normal inkişafına imkan vermirdi. Ancaq buna baxmayaraq tənqidçilərimiz dövrü mətbuatda vaxtaşırı yazılar dərc etdirir, ədəbi prossesin vacib tələblərinə cavab verməyə çalışırdılar.

40-50-ci illərdə ədəbi prosesdə belə bir fikir formalaşdırılmışdı ki, ədəbi tənqid ədəbi prosesin ümumi inkişafından geridə qalır, müasir mövzuda yazılan əsərlər vaxtında təhlil olunmur, əldə olunan nailiyyətlər ümumiləşdirilmir, çağdaş ədəbiyyatla bağlı ənəzəri baxımdan diqqətəlayiq elmi əsərlər az yazılır. Tənqiddə prinsipiallıq lazımi səviyyədə deyil, problematik məsələlərə diqqət yetirilmir. Ədəbi tənqidin geridə qalmasının səbəbləri, tənqidin

inkişafını ləngidən maneələr daim diqqət mərkəzinə gətirilirdi. Xüsusən Azərbaycan yazıçılarının III qrultayında bu məsələ geniş miqyasda gündəmə gəlmişdi. Belə fikir irəli sürülürdü ki, əvvəl daha fəal görünən M.Arif, M.C.Cəfərov, H.Orucəli kimi tənqidçilər son dövrlərdə ədəbi tənqiddə fəallığını azaldıb. M.Əlioğlu, Ə.Hüseynov, P.Xəlilov, B.Nəhiymi kimi gənc tənqidçilər isə daha çox resenziyaya meyl edirlər. Belə ki, ədəbi hadisələri ümumiləşdirib sənətkarlıq məsələlərini dərindən təhlil edən məqalələr az yazılır. Yazılan məqalələrin əksəriyyəti təsviri xarakter daşıyırdı. Məzmun təhlilinə daha çox meyl edilirdi.

Azərbaycan Yazıçılarının III qurultayı ərəfəsində, eləcə jə qurultayadakı çıxışlarda qeyd olunurdu ki, tənqidçilərin bəzilərinin yaxalarını kənara çəkmələri, ədəbi prosesə laqeyd münasibəti, ədəbiyyatımızın müvəffəqiyyətlərini və nöqsanlarını vaxtında elmi şəkildə konkret təhlil yolu ilə göstərməməsi ciddi narahatçılıq yaradır. Hətta mərkəzi mətbuat orqanlarında yazıçı təşkilatlarının və onların mətbuat orqanlarının çoxunda tənqidə diqqət yetirməməsi tənqid olunurdu.

40-50-ci illərdə çapdan çıxan ədəbi tənqid irsi sırasında H.Mehdinin "Ədəbi qeydlər" (1947), yenə "Ədəbi qeydlər" (1954), M.Arifin "Ədəbi tənqidi məqalələr (1958)" topluları haqqında ayrıca danışmağa ehtiyac var. Hüseyn Mehdi 30-cu illərdə olduğu kimi, 40-50-ci illərdə də ədəbi prosesslə fəal məşqul olur, müntəzəm olaraq dövrü mətbuata maraqlı məqalələr yazır, ədəbi prossesi istiqamətləndirmək işində xüsusi fəallıq nümayiş etdirirdi. Onun "Ədəbi qeydlər" (1947) əsəri bu fəallığın, ədəbiyyata, sənətə olan sevgisinin təzahürü kimi maraqlıdır. Kitabın böyük bir hissəsində Səməd Vurğun yaradıcılığın təhlili verilib. Tənqidçi şairin "Vaqif" "Fərhad və Şirin" əsərlərinin məzmunu, dramatik konflikti, obrazların xarakteri, səhnə taleyi, səhnə quruluşu, aktyor oyunu haqqında maraqlı elmi fikirlər səsləndirib. "Vaqif" dramını yüksək qiymətləndirən tənqidçi belə bir fikir irəli sürür ki, bu əsər nəinki şair və yazıçılarımız üçün ən yaxşı örnək olacaq, həm də tarixci alimlərimizə Azərbaycan tarixini yazmaqda stimul olacaq. Bir çox tənqidçilər kimi H.Mehdi də "Vaqif" dramını qəhrəmanlıq dastanı hesab edir. Əsərdə xalqın həyat və mübarizəsinin əks olunmasını müsbət dəyərləndirir və belə hesab edir ki, "Vaqif" əsərinin başlıca ideyası hələ tənqidimiz tərəfindən düzgün müəyyənləşdirilməyib. "Vaqif" bir qəhrəmanlıq draması kimi şəxsi səadətlə ümumi xalq səadətinin nə qədər ayrılmaz surətdə bağlı olduğunu göstərən bir əsərdir.

40-cı illərdə müharibənin yeniyetmə və gənclərin şüurunda, düşüncəsində hansı yeniliklər yaratması, ekstremal şəraitdə onların psixoloji-mənəvi ovqatında əmələ gələn dəyişilikklər həm bədii düşüncənin, həm də ədəbi-nəzəri fikrin əsas qayğılarından biri idi. Bu təkcə uşaq ədəbiyyatı və onun ədəbi tənqiddəki dərki ilə məhdudlaşmırdı. Hətta deyə bilərik ki, Azərbaycan ədəbi tənqidinin əsas mövzularından biri kimi meydana çıxmışdı. H.Mehdinin "Ədəbi qeydlər" (1947) kitabı "Ədəbiyyat və gənclik" məqaləsi ilə başlayırdı. Ədəbiyyat və gəlclik probleminin mahiyyətinə nüfuz edən tənqidçi klassi ədəbiyyatımızda bu məsələnin qoyuluşuna ümumi bir nəzər yetirir, xüsusən XIX əsrdə maarifçi-realist ədəbiyyatda gəncliyin böyük bir nəslinin obrazının yardılmasını diqqətə çatdırır, bu sahədə M.F.Axundzadənin daha çox fəallıq göstərdiyi qeyd edidi. Bununla kifayətlənməyən müəllif mövzunun nə qədər vacib, aktual olduğunu əsaslandırmaq üçün dünya ədəbiyyatına müraciət edir, Floberin, A.Turgenevin, L.Tolstoyun dahiyanə əsərlərində problemin qoyuluşunu və həlLini yüksək elmi səviyyədə təhlildən keçirirdi.

H.Mehdi XIX əsr sonu, XX əsrin əvvəllərindəki "fərhadları" "aydın və oqtayları" yeni dövrün, sovet epoxasının qəhrəmanları ilə müqayisə edir, müəyyən paralellər aparır və üstünlüyü ikincilərə verirdi: "Bu yeni qəhrəmanlara məğlubiyyət artıq yabancıdır. Bu gənclərin ixtilafı indi ədalətsiz ictimai quruluşla deyildir. Bu gənclər indi öz böyük məqsədləri uğrunda vuruşarkən, saysız çətinliklərə rast gəlsələr də, məğlub olmurlar. Həyatın keçməkeşlərinə məharətlə sinə gələn bu qəhrəmanlar, ağır mübarizənin və sonsuz çətinliklə əldə edilən qələbənin sevincini duymağa müvəffət olurlar. Çünki indi köhnə həyat və ədalətsiz ictimai quruluş məhv edilmişdir. Bu gənclər insan səadətini pozmaq istəyən mürtəce qüvvələrin son qalıq-

ları ilə vuruşurlar. Indi mübarizə nikbinliyi, mübarizə eşqi əsrimizin ümumi meylində özünə möhkəm bir istinad nöqtəsi tapmışdır" (1, 6).

Şübhəsiz ki, 40-cı illər ideoloji-siyasi mühitində H.Mehdi məqalədə problemin həllini köhnə dünya ilə yeni həyat üzərində mübarizə müstəvisində görüb. Ancaq onun gənclərin ictimai şüurunda ədəbiyyatın oynadığı mühüm rol haqqındakı orijinal fikirləri də az deyil. Gəncliyin vətənpərvə, mübariz ruhda böyüməsində tənqidçi S.Vurğunun "Komsomol poeması" əsərinin təsirini önə çəkir. Əsər bir də ona görə təqdir edilir ki, burada cəmiyyətin aktual problemləri ancaq ailə məişət səviyyəsinə enmir, daha çox ictimai xarakter daşiyir. Tənqidci qəhrəmanların əhval-ruhiyyəsinin tərənnümündə romantik səhnələrə üstünlük verir və belə qənaətə gəlir ki,"Komsomol poeması" əsərinin qəhrəmanları Bəxtiyar, Cəlal, Humay Qəzənfər və başqaları yeni həyatın gətirdiyi tələbləri yaxşı başa düşür, uzun və əzablı bir yol seçir, qələbənin əsasını mübarizədə, əzmkarlıqla görürlər.

H.Mehdi "Komsomol poeması"na ancaq siyasi-ideoloji aspektdən yanaşmayıb, əsərin sənətkarlıq cəhətlərinə də toxunub, bədii əsər üçün mühüm olan bədii-estetik sistemin poemada hansı səviyyədə özünə yer tapmasını konkret faktlar əsasında göstərib: "Komsomol poeması" öz mahiyyəti etibarilə dramatik əsərdir. Şair, kəskin ictimai ixtilafların geniş şairanə təsvirini çəkmişdir. Səməd Vurğunun şairanə təfəkküründə hakim olan bu genişlik, onun dərin psixoloji təhlillərinə qətiyyən mane olmur. O öz dastanının kəskin dramatizminə xələl gətirmədən, bəzən ən dərin həyəcanları, daxili monoloqları belə sənətkarlıqla ifadə etməyə müvəffəq olur (1, 6).

40-cı illərdə bəzi tənqidçilər S.Vurğunun müasir mövzulara toxunmaqda çətinlik çəkdiyini deyirdilər. Ancaq bu kitabda H.Mehdi şair haqqında deyilən fikirlərin reallığa əsaslanmadığını ortaya qoyub. "Ədəbi qeydlər"də S.Vurğunun "Vaqif" əsəri haqqında geniş bəhs olunur, əsərin ayrı-ayrı obrazlarının ən xırda hərəkətlərinə, mimikasına və başqa obrazlarla əlaqəsinə daha çox diqqət yetirən H.Mehdi Vaqifin Azərbaycan xaqlının, onun böyük şairlərinin ümumiləşmiş obrazı olduğu qənaətinə gəlib. Ümumiləşmiş bir obraz kimi Nəsimini, Füzulini xatırlatdığını söyləyib. Əsərdəki Vaqif obrazını tarixdəki M.P.Vaqiflə müqayisə edilib və belə fikir irəli sürülür ki, S.Vurğunun əsərində tarixi həqiqətlə bədii həqiqət bu cəhətdən vəhdətdədir.

Lakin tənqidçi əsərin nöqsanlı tərəflərini də göstərməyi lazım bilir və göstərir ki, şair bəzən mükalimənin ifadəli olmasına, əsas dramatik mübarizə xəttinin bizə qaranlıq olan nöqtələrinin işıqlandırılmasına az əhəmiyyət verir. Bu da nəticədə dramatik konfliktin zəifləməsinə gətirib çıxarır.

H.Mehdi "Vaqif" əsərində ancaq Vaqif obrazının mükəmməl işləndiyi fikri ilə kifayətlənmir, həm də göstərir ki, "əsərdəki başqa obrazlar da mükəmməl işlənib, başqa obrazlar da Vaqif obrazının tamlığını təmin etmək funksiyasını lazımınca yerinə yetirib. Ancaq tənqidçi Vaqifin obrazını mükəmməl işlədiyi qənaətində qüvvətli bir surətdir ki, özü bilavasitə hərəkətə başladığı zaman kənardan onun üzərinə işıq salınmasa da parlaq bir surətdə bizim qarşımızda bütün əzamətilə canlanır və bir müəllifin nöqsanlarını istər-istəməz bağışlayırıq (1, 38).

Bəzən tənqidçilər "Vaqif" dramında Vidadi obrazının ötəri işlənməsini, əsərin ideyası ilə az bağlı olmasını əsaslandırmağa çalışırlar. Bu nöqteyi-nəzərdən H.Mehdinin "Vaqif" əsərindəki Vidadi obrazına münasibəti orijinal təsir bağışlayır. Tənqidçi belə bir fikir irəli sürür ki, o, Vaqifdən daha sanballıdır, dərindir və fəlsəfi nöqteyi-nəzərdən daha bütövdür. Bu iki şəxsiyyətin dostluğu xalq şeirinin daxili bütövlüyünün real göstəricisidir. H.Mehdi "Vaqif" dramı haqqında belə fikirləşir: "Vaqif" dramı bizdə öz keçmişimizə, böyük ədəbiyyatımıza xalqımızın qəhrəmanlığına, onun azadlıq uğrunda apardığı mübarizəyə dərin bir məhəbbət oyadır, xarici işğalçılara qarşı amansız olmağa cağırır. Vətənimizi, xaqlımızı daha da dərindən sevdirir. Bu səbəblərə görə Vaqif tarixi mövzuya həsr edilmiş olsa da, son dərəcə aktual bir əsərdir (1, 37).

Konfliktsizlik nəzəriyyəsi Azərbaycan ədəbiyyatının normal inkişafına imkan vermirdi. Bunun mənfi nəticələri rus sovet ədəbiyyatı ilə yanaşı müttəfiq respublikalardakı ədəbi prose-

sə də mənfi təsirini göstəirdi. Konfliktsizlik nəzəriyyəsinin təsiri altında yazılan əsərlərdə həyat ancaq müsbət boyalarla təsvir olunur, əsərlərdə heç bir konflikt və yaxud nöqsan görünmürdü. Bir qayda olaraq süjet xətti bütünlükdə müsbət olan, lakin ayrı-ayrı mərhələlərdə birbirinin fikri ilə bir o qədər də razılaşmayan adamların arasındakı "ziddiyyət" üzərində qurulurdu. Təbii ki, yeniliklə köhnəlik arasındakı əsil mübarizədən, insanlardakı mənfi keyfiyyətlərlə yeni insani sifətlər arasındakı mübarizədən uzaq olan və çox zaman müəllifin özü tərəfindən quraşdırılan bu "ziddiyyətlər" heç bir zaman bədii əsər üçün, xüsusən dramatik əsərlər, povestlər, romanlar, poemalar və hekayələr üçün real və həyati konflikt ola bilməzdi.

Bu da qeyd edilməlidir ki, konfliktsizlik yalnız əsərlərin süjet xətti ilə məhdudlaşmırdı, eyni zamanda hadisələrin ümumi istiqaməti, mahiyyəti təhrif olunurdu. Obrazların xarakteri və fəaliyyəti solğun qələmə alınırdı. M.Əlizadənin "Qılınc dağında", "Su aydınlıqdır", Həmid Axundlunun "Ağır günün dostları" Yusif Şirvanın "Vətəndaş" əsərlərində konfliktsizlik nəzəriyyəsinin izləri görünür.

Şübhəsiz ki, ədəbi hadisələrə sinfi nöqteyi-nəzərədən yanaşma marksizm, leninizm klassiklərinin ictimai-siyasi görüşlərindən qaynaqlanırdı. Hələ 20-30-cu illərdə marksist tənqid və ədəbiyyatşünaslıq M.F.Axundzadəni "kapitalistləşməkdə olan varlı təbəqənin ideoloqu", S.Ə.Şirvaninini ruhani şairi, C.Məmmədquluzadəni "maarifçi xırda burjua şairi" hesab edir, N.Vəzirov və A.Səhhət isə böyük burjua təsiri altında qalan xırda burjua şairi kimi qələmə verirdi.

Bir qədər sonra, daha dəqiq desək, Sovet Yazıçılarının I qurultayı ərəfəsində ədəbi təfəkkürə bu cür ifrat yanaşma meyilləri "vulqar sosiologizm, nihilizm" hesab edilərək, kəskin tənqidə məruz qaldı, klassik və müasir ədəbi irsə sayğılı münasibət bəslənilməsinin gərəkli olduğu iddia edildi. Ancaq bu da vəziyyəti düzəltmirdi.

Vulqar sosiologizmin klassik və müasir ədəbiyyata münasibətdə ifrat tələblərinin pisləndiyini, hətta zərərli meyil və təmayül kimi kəskin etirazla qarşılandığını görən tənqidçi və ədəbiyyatşünaslar bir qədər ehtiyatlı münasibət bildirməyə, ədəbi irsi olduğu kimi, təftişsiz tədqiq və təbliğ etməyə başladılar. Bəllidir ki, bu cür əsərlərin bir qismi marksizm ideologiyasına uyğun gəlmirdi. Odur ki, sosialist realizm yaradıcılıq metodunun ideoloqları və nəzəriyyəçiləri bunu da məqbul hesab etmirdilər. Məsələ bunda idi ki, əgər vulqar sosioloqlar bütün yazıçıları bu və ya digər ictimai qruplar və siniflərə bağlayırdılarsa, növbəti mərhələdə - 30-cu illərin sonu 40-cı illərdə fəaliyyət göstərən tənqidçilər ədəbiyyatın inkişaf prosesini "vahid axın" kimi qələmə qələmə verərək, bütün yazıçıları "xalqın böyük yazıçısı", "xalq ruhunun ifadəedicisi", "xalq mənafeyinin müdafiəçisi" adlandırmağa başladı. Əslində burda qeyriadi heç nə yox idi. Çatışmayan o idi ki, marksist estetiklərin əsaslandığı klassik sənətkarlar yetişdirən ictimai mühit, sinfi mövqe siniflər mübarizəsi aradan qaldırılırdı. 1942-1943-cü illərdə çapdan çıxn "Müxtəsər Azərbaycan ədəbiyyatı tarixi" əsərinə qarşı olan hücumlardan biri məhz bununla bağlı idi. O dövr üçün mükəmməl görünən bu əsərin "vahid axın" nəzəriyyəsi ilə əlaqələndirilməsi, bu nöqteyi-nəzərdən redaktorların və müəlliflərin haqsız hücumlarda qarşılanması əslində ədalətsizlik idi.

Azərbaycan tənqid və ədəbiyyatşünaslıqının tarixi zəngin ənənələrə malikdir. Bu ənənələri müəyyənləşdirmək, sistemləşdirmək və elmi-nəzəri fikrin ayrı-ayrı nümayəndələrinin elmi irsini üzə çıxarmaq aktual bir məsələ kimi ortaya çıxır.

Ədəbiyyat

1. Mehdi H. Ədəbi qeydlər. Bakı, Uşaqgəncnəşr, 1947, s.6
2. Rəhimov S. Azərbaycan sovet ədəbiyyatının vəziyyəti haqqında. "Ədəbiyyat və incəsənət" qəzeti, 17 aprel, 1954
3. Azərbaycan yazıçılarının ümumi yığıncağı. "Ədəbiyyat və incəsənət" qəzeti, 5 may, 1951
4. İbrahimov M. Ədəbiyyatımızda ideya saflığı və yüksəlişi uğrunda. Ədəbiyyat qəzeti,1950, 17 avqust
5. Böyük yaradıcılıq vəzifələrimiz. Ədəbiyyat qəzeti,1948, 28 avqust.

В.Джавадова

Сложный период для литературно-теоретической мысли Азербайджана

Резюме

Период 40-50-х годов азербайджанской критики до сих пор мало изучен. В этой статье к исследованию привлекается критическое творчество того периода, литературно-критическая мысль эпохи, направления исследований действовавших в то время литературоведов. Говорится о литературно-критических статьях М.Арифа, Д.Джафарова, М.Гусейна и других. Выявляется отношение литературной критики к классической и современной литературе.

V.Javadova

A difficult test of our literary theoretical thinking

Summary

The period of 40-s-50-s years of the literary criticism of Azerbaijan has not been studied a lot. The critical activities of those years, literary-theoretical ideas of that period, the activities of literary critics of that period are studied in this article. The article deals with the literary critical essays of M.Arif, M.J.Jafarov, M.Huseyn. The attitude of literary criticism towards classic and modern literature is revealed here.

Rəyçi: filol.e.d. M.B.Mustafayev

Redaksiyaya daxil olub: 09.10.2019

S.ƏLİYEVA
e-mail: sevinc-aliyeva1989@mail.ru

AMEA-nın Folklor İnstitutu
(Bakı şəh., İçərişəhər, Kiçik qala, küç., 31)

AZƏRBAYCAN FOLKLORUNDA İNSAN QURBANVERMƏ MOTİVİ

Açar sözlər: *folklor, ritual, qurban, insan qurbanvermə, əjdaha*
Ключевые слова: *фольклор, ритуал, жертва, жертвоприношение человека, дракон*
Key words: *folklore, ritual, sacrifice, human sacrifice, dragon*

Problemin qoyuluşu: Folklor nümunələrində insan qurbanvermənin iki növünə rast gəlirik. Bunlardan birincisi real insan qurbanverməsidir. İkincisi isə bunun əksinə olaraq, real yox, məcazi qurbanvermə, yəni metaforik-simvolik qurbanvermə növüdür. Belə ki, deyim (nitq) folklorunda, eləcə də xalq şeirində "başına dönüm, qurban olum", "canım sənə qurban olsun" tipli poetik qəliblərdən geniş şəkildə istifadə olunur.

İşin məqsədi: Tədqiqatın aparılmasında əsas məqsəd Azərbaycan folklorunda insan qurbanvermə motivi ilə bağlı süjetləri araşdıraraq, onların əsas semantik xüsusiyyətlərini müəyyənləşdirməkdir.

Folklorda, xüsusilə epik folklorda insanın müxtəlif məqsədlər naminə qurban verilməsi motivinə geniş şəkildə rast gəlinir. Bu faktları ümumiləşdirdikdə onların məna baxımından müxtəlif qruplar təşkil etdiyini müşahidə edirik. Həmin qruplardan birini əjdahaya qurban vermə təşkil edir.

"Cincili bulaq" əfsanəsində deyilir ki, Sədərəyin yaxınlığındakı Əjdəkom dağının altında yerləşən Cincili bulaq yeddi ildən bir su verir. Əvvəllər bu bulaq sulu imiş. Sonra bir əjdaha gəlib suyun qabağını kəsir, su əvəzində gündə bir adam istəyir. Qurban vermirlər. O da su vermir. Əjdaha yeddi il bir tərəfi üstdə yatır, yeddi il də o biri tərəfi üstdə. Yeddi ildən bir tərpənəndə bir az su gəlir (3, s. 69).

Bu motivə nağıllarda daha çox rast gəlinir. Əjdahalar, əsasən, suyun qabağını kəsib, əvəzində yeməyə adam tələb edirlər. İnsanlar da məcbur olub, hər dəfə bir qızı qurban verirlər. Axırda qəhrəman gəlib əjdahanı öldürərək, insanları xilas edir. Lakin əjdahalar təkcə suyun qabağını yox, yolu da kəsib qurban tələb edirlər.

"Çalıb-çağıran ağac" nağılında padşahın kiçik oğlu Məlik Cümşüd səfərə çıxır. O, "gedər-gəlməz" yolla gedəndə bir qocaya rast gəlib, ona ehtiramla salam verir. O da Məlik Cümşüdə qarşısını kəsəcək iki əjdahadan qurtulmağın yolunu öyrədir. Qəhrəman yoluna davam edir və iki əjdaha ilə rastlaşır: biri yolun altında, biri də üstündə. Onlar Məlik Cümşüdü yemək istəyirlər, lakin qəhrəman özü ilə götürdüyü əti və suyu əjdahalara verərək, canını qurtarır (3, s. 150).

Bu nağıl "əjdahaya insan qurbanı" motivinin ritual-mifoloji köklərini araşdırmağa daha geniş imkan yaradır. Gördüyümüz kimi, əjdahalar təkcə suyun qarşısını deyil, həm də yolun qarşısını kəsirlər. Əjdahalar ölümü, xaosu simvollaşdırırlar. Onların suyun, yaxud yolun qabağını kəsməsi həyatı – kosmosu məhv etmələri mənasındadır. İnsanlar qurbanvermə yolu ilə həyatı müvəqqəti də olsa bərpa edirlər. Sonda qəhrəmanın əhdahanı öldürməsi xaosun aradan qaldırılmasını və kosmosun bərpa (bərqərar) olunmasını simvollaşdırır.

"Rüstəmzal" nağılında qəhrəman gəlib bir ölkəyə çıxır. Xəbər tutur ki, burada bir əjdaha suyun qabağını kəsib. Adamlar ona ayda bir qul və bir də aş verirlər. Əjdaha onları yediyi müddətdə şəhərə su baraxır. Qəhrəmanın şəhərə gəldiyi gün də padşahın qızının növbəsi imiş: o, qurban getməlidir. Rüstəmzal gedib əjdahanı tapır, onu öldürür, şahın qızının və şəhərin hayatını xilas edir (7, s. 184).

Burada diqqəti cəlb edən cəhət qurbanvermənin dövri xarakter daşımasıdır. Əjdahalara qurban müəyyən zaman ritmi daxilində verilir. Ritmiklik bu prosesin məhz qurbanvermə olduğunu göstərir. Qurbanvermə – mərasimdir, mərasimlərin də müəyyən hissəsi konkret zaman ritminə tabedir. Bu, əsasən, təbiət kultları ilə bağlı mərasimlərə aiddir. Məsələn, yağmur mərasimləri yayda, günəşi çağırma mərasimləri yazda icra olunur. Məişət mərasimləri isə bu ritmə tabe deyildir. İnsanın hər zaman problemi yarana bilər və o da öz problemini aradan qaldırmaq üçün qurban niyyət edib, onu istədiyi vaxt kəsə bilər.

V.V.İvanov mifik əjdaha obrazı barəsində göstərir ki, "o, müxtəlif heyvanların elementlərinin qovuşması görkəmində təqdim olunan qanadlı (uçan) ilan, mifoloji varlıqdır... Əjdaha ilan obrazının sonrakı inkişafı sayıla bilər; əjdaha ilə bağlı başlıca əlamət və mifoloji motivlər ilanı səciyyələndirən əlamət və motivlərlə, əsasən, üst-üstə düşür. Əjdaha da ilan kimi, adətən, məhsuldarlıq və sahibi (əyəsi – ***S.Əliyeva***) kimi çıxış etdiyi su ünsürü ilə bağlıdır " (11, s. 394).

Buradan aydın olur ki, əhdaha qanadlı, yəni uçan varlıqdır. Azərbaycan nağıllarında da əjdahalar uça bilirlər. O, miflərdə uçan ilan kimi təqdim olunur. Yəni eyni funksiyanı gah ilan, gah da əjdaha yerinə yetirir. Bu da onların eyni varlıq olduğunu göstərir. Əjdahalar dünya mifologiyasında məhsuldarlıq və su kultu ilə bağlıdır. Bunu da eynilə Azərbaycan nağıllarında müşahidə edirik. Əjdahalar, adətən suyun qabağını kəsirlər. Bu da onların suyun sahibi olduğunu göstərir. Onların, əsasən, qız qurbanı tələb etməsi məhsuldarlıq kultu ilə bağlıdır.

Mifologiyada əhdaha/ilanın su kultu ilə bağlılığı onun müqəddəs dəyərlər sisteminə daxil olduğunu göstərir. Ağayar Şükürova görə, ilan türklərin totemidir və kişi tanrı ilə bağlıdır (10, s. 119). Bəhlul Abdullayev (B.Abdulla) də göstərir ki, "bizdə bir tərəfdən "Hər evin öz ilanı var", "İlan olan evdən xeyir-bərəkət kəsilməz", "Yuxuda ilan görsən, arzuna çatarsan" və s. deyib, ilan pirlərinə, sehrli aləmin sirlərini onların adamlara öyrətmələrinə inanılmış, digər tərəfdən isə ağ olsun, istərsə də qara, təfavütü yoxdur, "İlan görənə lənət, görüb öldürməyənə lənət, öldürüb basdırmayana lənət" demiş, hətta onu 3, 7, 40 başlı bilib bulağın, çayın qarşısını kəsən, susuzluq, quraqlıq yaradan qüvvə saymışlar" (1, s. 126).

İlanla əjdahanın eyniləşdirilməsinə gəlincə, bu, özünü deyimlərdə də göstərir. Mətanət Abdullayeva (Yaqubqızı) bu deyimlərə diqqəti cəlb etmişdir: "Yuxuda ilan görmək ziyarətdir", "Yuxuda ilan görmək əjdahadır" (2, s. 15).

İlanın əjdahanı simvollaşdırması bu obrazların bir-birinin işarəsi olduğunu göstərir. Ona görə də, folklor mətnlərində su, əjdaha (ilan) və qız elementlərinə, adətən, birgə rast gəlmək olur. Bu elementlərin bir yerdə olduğu halda isə hökmən qurbanvermə aktı müşahidə olunur.

"İlan oğlan" adlı kiçik həcmli nağılda deyilir ki, bir övladı olmayan padşah yolda yeddi balası olan ilana rast gəlir. Arzu eder ki, "ey Xadavəndi-aləm, sənin böyüklüyünə min şükür, nə ola mana da ilannan, çayannan bir övlad verəsən". Vaxt keçir, padşahın arvadı ona bir ilan doğur. İlan böyüyür və gündə bir qız yeməklə dolanır. Axırda bir yetim qız onun tilsimini sındırır: ilan oğlana çevrilib, qızla evlənir (4, s. 52-53).

Burada ilanın əjdaha kimi gündə bir qız yeməsi onu əjdaha obrazı ilə eyniləşdirdiyi kimi, axırda oğlana çevrilərək, qızla evlənməsi də ilan/əjdahanın eyni zamanda məhsuldarlıq, bərəkət kultu ilə bağlılığını göstərir.

"Şirin bulaq" əfsanəsində deyilir ki, onun suyu bol imiş. Bir gün bulağın suyu kəsilir. Zaman xan hər kimi bulağın olduğu yerə göndərirsə, salamat qayıtmır. Əmrah adlı gənc xanın qızını istəyirmiş. O, Zaman xandan qızını ona verəcəyə barəsində əhd alıb yola düşür. Burada suyun qabağını kəsmiş əjdahanı öldürür. Lakin Zaman xan əhdinə vəfa etmir. Xanın qızı Güllü Əmraha qoşulub qaçır. Xan özü bir əjdahaya çevrilib, bulağın gözünü tutur ki, onlar suya möhtac olsunlar. Güllünün susuzluqdan öləcəyindən qorxan Əmrah xanın yanına gəlir. O da qızı gətirərsə, su verəcəyinə söz verir. Əmrah Güllünün yanına qayıdanda görür ki, qız ölüb, yanında da bir bulaq qaynayır. Bulağın adını Güllü bulaq qoyurlar (5, s. 133-134).

Əfsanədə qız, əslində, suya qurban gedir: onun ölümü qurbanverməni simvollaşdırır. Burada iki çevrilmə hadisəsi var: 1. Xanın əjdahaya çevrilməsi; 2. Qızın suya (bulağa) çevril-

məsi. Biz burada əjdahaya qız qurbanvermə motivi üçün xarakterik olan evlənmə hadisəsini rast gəlmirik. Bizə belə gəlir ki, bu, zahirən belədir, əslində, burada bir simvollaşma var və evlənmə aktı da də elə simvolik şəkildə ifadə olunmuşdur. Belə ki, Güllü öləndən sonra Əmrah heç yana getmir, elə ömrünü sevgilisinin çevrildiyi bulağın üstündə başa vurur. Yəni Əmrah da bu dünyadakı ömrünü sanki tamamlayaraq, o dünyadakı sevgilisinə qovuşur.

Folklor mətnlərində qızların hər hansı formada suda ölmələri də, bizcə, əjdahaya qurbanvermə motivi ilə bağlıdır. Məsələn, "Pərvanə gölü" əfsanəsində deyilir ki, gölün qırağında bir dəyirman var imiş. Burada bir ata-ana və Pərvanə adlı qızları yaşayırmış. Bu gün onlar oturarkən dəyirmanın bir tərəfi suya batmağa başlayır. Ər-arvad qaçırlar, lakin Pərvanə qaçmayıb sakitcə oturur. "Elə bil, özünün könlü var idi suya qərq olmağa". Ata-ana suya batmış qızlarından ötrü hər gün ağlayırlar. Aradan bir az keçmiş göldə bir yaşılbaş ördək peyda olur. O, daim üzüb göl kənarında ağlayan qocaların yanına gəlir. Dünya görmüş qocalar Pərvanənin atasına deyirlər ki, "qızın dünyaya bəxtinə su yazılıbmış. Öz bəxtini, xoşbəxtliyini suda tapmalıymış. O yaşılbaş sona sənin qızın Pərvanədir" (9, s. 22).

Göründüyü kimi, Pərvanə könüllü olaraq gölə qurban gedir. Mifologiyada su ünsürünün sahibi əjdahadır. Bu cəhətdən, Pərvanə əjdahaya qurban gedir. Onun yaşılbaş ördəyə çevrilməsi də qurbanvermə motivi ilə bağlıdır. Qurbanvermə ölüb-dirilməni simvollaşdırır. Qızın əjdahaya qurban getməsi ilə göldə yeni varlıq – yaşılbaş ördək yaranır.

"Gəlin gölü" rəvayətində deyilir ki, bir gəlin gecə suyu çox gur olan bulaqdan su götürəndə onun gözünü bağlamağı unudur. Səhərə qədər kənd bulağın suyuna qərq olur. İndi həmin gölə "Gəlin gölü" deyirlər. Deyilənə görə, o gəlinin gözəlliyi bu gölə keçibdi (8, s. 76).

Burada da eyni xətt müşahidə olunur: qız gölə qurban gedir. Bu süjet suyun/gölün sahibi olan əjdahaya qurbanvermə motivinə aiddir. Qurbanvermə həm də çevrilmə, yəni yeni yaradılışla müşayiət olunur. Qızın gözəlliyinin gölə keçməsi onun özünün gölə çevrilməsi deməkdir.

Folklorda su qurbanları təkcə qızlarla bağlı deyildir. Məsələn, "Əlican çayı" rəvayətində deyilir ki, bir ailənin Əli adında bir oğulları var imiş. Əli anası ilə çayın kənarında çırpı yığanda sel gəlir və onu aparır. Ana da özünü çaya ataraq ölür. O vaxtdan həmin çaya "Əlican" deyirlər (6, s. 181-182).

Burada iki qurban var: oğul və ana. Oğulu çay (su) özü aparır, ana isə könüllü qurban gedir. Bununla da yeni yaradılış baş verir: çay ananın adını alır. Bu, ananan özünü qurbanvermələ yeni adda çaya çevrilməsi deməkdir.

İşin elmi yenilik və nəticələri:

1. İnsan qurbanvermə motivinə daha çox nağıllarda rast gəlinir. Əjdahalar, əsasən, suyun qabağını kəsib, əvəzində yeməyə adam tələb edirlər. İnsanlar da məcbur olub, hər dəfə bir qızı qurban verirlər. Axırda qəhrəman gəlib əjdahanı öldürərək, insanları xilas edir. Lakin əjdahalar təkcə suyun qabağını yox, yolu da kəsib qurban tələb edirlər.

2. Əhdaha qanadlı, yəni uçan varlıqdır. Azərbaycan nağıllarında da əjdahalar uça bilirlər. O, miflərdə uçan ilan kimi təqdim olunur. Əjdahalar dünya mifologiyasında məhsuldarlıq və su kultu ilə bağlıdır. Bunu da eynilə Azərbaycan nağıllarında müşahidə edirik.

3. İlanın əjdahanı simvollaşdırması bu obrazların bir-birinin işarəsi olduğunu göstərir. Ona görə də, folklor mətnlərində su, əjdaha (ilan) və qız elementlərinə, adətən, birgə rast gəlmək olur. Bu elementlərin bir yerdə olduğu halda isə hökmən qurbanvermə aktı müşahidə olunur.

4. Folklor mətnlərində qızların hər hansı formada suda ölmələri də, bizcə, əjdahaya qurbanvermə motivi ilə bağlıdır.

5. Folklorda su qurbanları təkcə qızlarla bağlı deyildir, oğlanlar da qurban verilə bilir.

6. Folklorda antropoloji qurbanvermənin şəkillərindən biri kimu uşaq qurbanverməsinə də rast gəlirik. Uşaqlar dərman məqsədilə qurban verilir.

7. İnsan qurbanı qurbanvermənin arxik növlərindəndir. Həmin qurbanvermələr, əsasən, məhsudarlıq, ərgənlik kultları ilə bağlıdır. Bu qurbanvermələrin sonunda ya real, ya da simvo-

lik olaraq yeni həyata qovuşma (evlənmə, vüsal) baş verir. Bu da onu göstərir ki, insan qurbanverməsi ölüb-dirilmə yolu ilə yeni həyatın yaradılmasına xidmət etmişdir. Uşaq qurbanvermə motivi də ritual-mifoloji məna baxımından yeni həyatın (sağlam bədənin) əldə edilməsini ifadə edir.

İşin nəzəri və praktiki əhəmiyyəti: Məqalənin nəzəri əhəmiyyəti bu işdən qurbanvermə ilə bağlı digər tədqiqatlarda nəzəri ədəbiyyat kimi istifadə imkanları, praktiki əhəmiyyəti isə ali məktəblərdə folklorun tədrisi prosesində praktiki vəsait kimi istifadə imkanları ilə müəyyənləşir.

Ədəbiyyat

1. Abdullayev B. Haqqın səsi / B.Abdulla. – Bakı: Azərnəşr, 1989, –144 s.
2. Abdullayeva M.Y. Azərbaycan folklorunun regional xüsusiyyətləri (Şəki-Zaqatala folklor nümunələri əsasında) / (filologiya üzrə fəlsəfə doktoru dissertasiyasının avtoreferatı) / – Bakı, 2004. – 25 s.
3. Azərbaycan folkloru antologiyası. I kitab. Naxçıvan folkloru / Tərt. ed. T.Fərzəliyev, M.Qasımlı – Bakı: Sabah, – 1994. – 388 s.
4. Azərbaycan folkloru antologiyası. III kitab. Göyçə folkloru / Topl., tər. ed. və ön sözün müəllifi H.İsmayılov – Bakı: Səda, – 2000. – 767 s.
5. Azərbaycan folkloru antologiyası. IV kitab. Şəki folkloru, I cild / Tərt. ed. H.Əbdülhəlimov, R.Qafarlı, O.Əliyev, V.Aslan – Bakı: Səda, – 2000. – 497 s.
6. Azərbaycan folkloru antologiyası. XIII kitab. Şəki-Zaqatala folkloru / Tərt. ed. İ.Abbaslı, O.Əliyev, M.Abdullayeva – Bakı: Səda, – 2005 – 549 s.
7. Azərbaycan folkloru antologiyası. XVI kitab. Ağdaş folkloru / Topl. tərt. ed. İ.Rüstəmzadə – Bakı: Səda, – 2006. – 495 s.
8. Azərbaycan folkloru antologiyası. XXII kitab. Borçalı-Qarapapaq folkloru / Topl. tərtib edəni və ön sözün müəllifi V.Hacılar. Bakı: Nurlan, 2011, 444 s.
9. Borçalı folklor örnəkləri / Topl. V.Hacılar, E.Məmmədli, tərt. ed. E.Məmmədli. – Bakı: Elm və təhsil, – 2013. – 328 s.
10. Şükürov, A. Mifologiya. Qədim türk mifologiyası / A.Şükürov. – Bakı: Elm, – VI Kitab. – 1997. – 232 s.
11. Иванов, В.В. Очерк «Дракон» // Мифы народов мира. В 2-х томах. Том 1. – Москва: Советская энциклопедия, – 1980, – с. 394-395

С.Алиева

Мотив жертвоприношения человека в фольклоре

Резюме

Мотив жертвоприношения человека в фольклоре является архаическим. Они, в основном, связаны с культом производительности и обрядами инициаций. В результате этих жертвоприношений реальным или символическим путем осуществлялся переход в новую жизнь (женитьба). Это показатель того, что жертвоприношение человека послужило средством создания новой жизни путем смерти и воскрешения. Мотив жертвоприношения ребенка в ритуально-мифологическом контексте также выражает приобретение новой жизни (здорового тела). Жертвоприношение человека часто встречается в сказках. Драконы, закрывая поток воды, требовали взамен людей для поедания. Люди вынужденно, каждый раз приносили в жертву одну девушку. В конце приходил герой, убив дракона, спасал людей.

S.Aliyeva

The motives of human sacrifice in Azerbaijan folklore

Summary

In folklore texts, human sacrifice is an archaic type of sacrifice. Those sacrifices are mainly associated with the cult of productivity and the initiation ceremonies. At the end of these sacrifices occurs real or symbolic joining to new life (marriage). This also shows that human sacrifice served to

the creation of a new life through the resurrection. The motive of child sacrifice also means the acquisition of a new life (a healthy body) in the ritual-mythological sense. The motive of human sacrifice is often found in fairy tales. Dragons usually cut off the water and demand human food instead. People become force and every time they sacrifice a daughter. In the end usually the hero comes and kills the dragon and saves people.

Rəyçi: filol.e.d. R.Qafarlı

Redaksiyaya daxil olub: 05.11.2019

M.ƏMRAHOVA
filologiya üzrə fəlsəfə doktoru

Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC)
(Bakı şəh., İstiqlaliyyət küç., 6)

İSMAYIL ŞIXLI VƏ AZƏRBAYCAN ƏDƏBİ TƏNQİDİ

Açar sözlər: *Azərbaycan ədəbiyyatı, İsmayıl Şıxlı, ədəbi tənqid, ədəbi proses*
Ключевые слова: *Азербайджанская литература, Исмаил Шихлы, литературная критика, художественное творчество, литературный процесс*
Key words: *Azerbaijan literature, Ismayil Shikhli, the literary criticism*

Azərbaycan nəsrinin kökləri əvvəlki dövrlərə gedib çıxsa da, mübaliğəsiz deyə bilərik ki, ədəbiyyatın bu sahəsinin sürətli inkişafı XX əsrdə özünü göstərmişdir. XX yüzilliyə kimi nəsr yazmış çox az yazıçının adını çəkə bildiyimiz halda, bu mərhələdə yaşayıb-yaratmış xeyli sayda söz ustalarının – nasirlərin fəaliyyətindən bəhs açmaq mümkündür. Təbii ki, onların da əksəriyyətinin yaradıcılığı sovet dövrünə təsadüf edir. Bu yazıçılardan biri də tamamilə orijinal yaradıcılıq dəsti-xətti olan görkəmli yazıçımız İsmayıl Şıxlıdır.

Müəllifi olduğu çox sayda nəsr əsərləri ilə geniş oxucu kütləsinin ruhuna yol tapmış İ.Şıxlının ən məşhur əsəri, şübhəsiz ki, "Dəli Kür" romanıdır. Yazıçı Cahandar ağa kimi son dərəcə sanballı, ölməz bir obraz yaratmağa müvəffəq olmuş, Azərbaycan ədəbiyyatına "Dəli Kür" kimi başdan-ayağa milli ruhla aşılanmış dəyərli bir xəzinə bəxş etmişdir. Bütün daxili ziddiyyətlərinə baxmayaraq, əsərin baş qəhrəmanı Cahandar ağa hamını əfsunlaya bilmişdi. "Dəli Kür" romanı Azərbaycan ədəbiyyatının XX yüzillikdə yaranmış ən qiymətli nümunələrindən, bədii sözümüzü dünya miqyasında artıran əsərlərdən biri olmuşdur. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin "İsmayıl Şıxlının 100 illik yubileyinin qeyd edilməsi haqqında" 28 yanvar 2019-cu il tarixli Sərəncamında bu məqam xüsusilə vurğulanmışdır: "İsmayıl Şıxlı koloritli xarakterlər və yüksək mənəvi-əxlaqi keyfiyyətlərə malik surətlərlə zəngin yaradıcılığı ilə Azərbaycan xalqının bədii fikir salnaməsinə yeni parlaq səhifə yazmış söz ustalarındandır. Ədibin məşhur "Dəli Kür" romanı ictimai şüurda dönüşə və özünüdərkə yol açan mühüm ədəbi-mədəni hadisə kimi qiymətləndirilmişdir.Taleyüklü məsələlərə münasibətdə daim vətəndaş ziyalı mövqeyi nümayiş etdirmiş İsmayıl Şıxlının fəaliyyəti bütövlükdə azərbaycançılıq məfkurəsinə sədaqətin və ənənəvi dəyərlərə ehtiramın bariz nümunəsidir" (7, s. 4).

İsmayıl Şıxlının yaradıcılığında ədəbiyyatda müasirlik problemi, ədəbi tənqidimizin vəziyyəti, ədəbiyyat və bu günün tələbləri və s. məsələlər də mühüm yer tutmuşdur. İsmayıl Şıxlı ədəbiyyatda mövzu məsələsinə həssaslıqla yanaşmış, müasir mövzuda əsər yazmaqla tarixi mövzuda yazmaq arasında xeyli fərqlərin olduğunu qəti şəkildə Azərbaycan ədəbiyyatının materialları əsasında sübut etmişdir. Müəllifin bu istiqamətdəki qənaətləri belədir: "...Müasir məsələlərdən yazmaq tarixi mövzularda əsər yazmaqdan xeyli fərqlidir. Bu fərq birinci növbədə ondan ibarətdir ki, tarixi mövzulardan yazan yazıçı nisbətən tamamlanmış, artıq müəyyənləşmiş hadisələrdən bəhs edir, müasir mövzudan yazan yazıçı isə hələ davam etməkdə olan prosesləri qələmə alır. Bu prosesin düzgün bədii inikasını vermək yazıçıdan uzaqgörənlik və həssaslıq tələb edir. O, daha sonra davam edərək yazırdı: "Müasir mövzuda nəsr əsərləri yazmaq geoloji axtarışlara bənzəyir. Burada büdrəmələr də ola bilər, qazılan quyu neft verməyə də bilər. Buna görə axtarışı dayandırmaq olmaz. Çünki müasirlik həmişə yeni axtarışlarla vəhdətdə olmuşdur."

Yazıçı tənqidə professional səviyyədə yanaşmış, onun mövcud vəziyyətini spesifik şəkildə ustalıqla təhlil etmiş, daha çox mühüm cəhətləri üzərində dayanmışdır. O, ədəbi tənqidin mənzərəsini təhlil edərkən iki əsas cəhət haqqında: "Birincisi, tənqidin özündən gələn qüsurlar, ikincisi, bu qüsurların törəməsinə səbəb olan şərait" barədə konkret, dəqiq mühakimələr

yürüdürdü. İsmayıl Şıxlı, ilk növbədə, tənqidçinin qarşısına müəyyən tələblər qoyurdu: "Mənə elə gəlir ki, hər şeydən əvvəl, tənqidçinin özünün böyük amalı və estetik tələbləri olmalıdır" (4, s. 344). Tənqidçi şərh etdiyinin, təhlil etdiyinin, tənqid etdiyinin fövqündə dayanmalıdır. Əgər belə olmasa, tənqidçinin fikir və mülahizələri inandırıcı görünə bilməz. Tənqidçinin elmi-nəzəri və intellektual səviyyəsi, məqsədi və estetik imkanları o qədər yüksəkdə olmalıdır ki, onun bədii əsərlərə yanaşma tərzi, hadisələrin mahiyyətinə varmaq imkanları, sözün əsl mənasında, meyara çevrilə bilsin. Belə olduğu halda, tənqid öz missiyasını uğurla yerinə yetirir, ədəbi mühitin inkişafına xidmət göstərir, yaradıcılıq prosesini istiqamətləndirir. Bu münasibətlə görkəmli yazıçımız göstərir: "Tənqidçi özü həyatımızda və zəmanəmizdə baş verən sosioloji proseslərin fəlsəfi əsaslarını araşdırmağa çalışan və bu hadisələrin şərhi fövqündə dayanan bir qüvvə olmalıdır. Bədii əsərlər tənqidçinin əlində fikir söyləmək üçün bir vasitəyə çevrilməlidir. Belə olduqda tənqidçi bədii yaradıcılıq prosesinə yüksək tələblə yanaşacaq və onda obyektivlik əsas meyar kimi istiqamətləndirici rol oynayacaqdır" (4, s. 345).

İsmayıl Şıxlı tənqidçiləri müxtəlif şəkildə qruplaşdırır və bu qruplara aid etdiyi tənqidçiləri bir-birindən fərqləndirir. Müəllif üç qrup tənqidçilərdən söz açır. Təbii ki, o, tənqidçiləri üç qrupa ayıran zaman ədəbi mühitdəki, ədəbi prosesdəki vəziyyəti diqqətə alır, real və obyektiv münasibət bildirir. İsmayıl Şıxlıya görə birinci qrup "... tənqidçilərimizin bir qismi həyatda baş verən ictimai – siyasi prosesləri izləyir, yazıçı ilə bərabər yanır, ədəbi prosesə qaynayıb-qarışaraq, onun qüsurlarına qəzəblənir, müvəffəqiyyətlərinə sevinir, müsbət cəhətlərin inkişaf və istiqamətləndirilməsinə çalışır. Bu cür tənqid yüksək nəzəri səviyyədə olmaqla bərabər vətəndaşlıq ehtirası ilə daha da zənginləşir" (4, s. 345).

İsmayıl Şıxlının qənaətincə, "İkinci qrup tənqidçilər isə adi seyrçilərdirlər. Onları ədəbi prosesdəki problemlərdən daha çox meydana gələn əsərlərin miqdarı maraqlandırır. Bu cür tənqidçilər hesablayıcı maşın kimi hər şeyi qeyd edir, bütün yazıçılar, bütün əsərlər haqqında eyni soyuqqanlıqla, eyni qəliblərlə, standart və şablon ifadələrlə soyuq mühakimələr söyləyirlər. Bu cür tənqidin nə müəllifə, nə də ədəbi prosesə xeyri var".

İsmayıl Şıxlının müşahidələrinə görə, "...üçüncü qrup tənqidçilər də var ki, bunları ədəbi proses və bədii yaradıcılığın ümdə məsələləri yox, yazıçının avtoriteti maraqlandırır. Bu cür tənqidçilər yalnız ədəbi avtoritetlərə xidmət etməyə cəhd göstərir və bu ədəbi avtoritetlərin ən zəif əsərlərini belə şedevr kimi qiymətləndirirlər. Bunun da nəticəsində yalançı tərifllər və yaltaq tənqidlər yaranır. Beləliklə də saxta etalonlar, toxunulmaz "müqəddəslər" meydana çıxır". Üçüncü qrupdan olan tənqidçilər ədəbi prosesin bütün mərhələlərində mövcud olub, indi də mövcuddur. Doğrudan da, bu qrup tənqidçilər yazıçının avtoritetini əsas götürərək onun yazdığı əsəri tənqidin obyektinə çevirir. Bəzən belə məqamlarda tənqidçi avtoritetin əsərinin lap aşağı səviyyədə olmasından asılı olmayaraq hörmət, izzət sahibinə çevrilir, tənqidçi avtoritet müəlliflər hesabına nüfuz qazanır.

İsmayıl Şıxlı ədəbi prosesin mərhələlərinə uzaqgörənliklə yanaşmış, ədəbiyyatımızın inkişafına böyük töhfələr vermiş söz ustalarının yaradıcılığını düzgün və obyektiv qiymətləndirmiş, bununla yanaşı, bədii ədəbiyyatda və tənqiddəki irəliləyişləri də nəzərdən qaçırmamışdır. Özəlliklə, ədəbiyyatşünaslıq elmində, dərsliklərdə kök salmış ədiblərin davamçılarını qeyd etməklə ədəbi prosesin daim inkişafda olduğunu vurğulamışdır: "Tənqidin özünün səviyyəsi yüksək olmalıdır. Tənqidin özünün qayəsi, məqsədi, yüksək estetik tələbi olmalıdır. Tənqidin aparıcı, istiqamətverici, təşkiledici gücü, qüdrəti olmalıdır" (7, s. 15).

İsmayıl Şıxlının tənqidçi və yazıçı, ümumən ədəbi proses haqqında dedikləri öz dövrü üçün də aktual olmuş və bu gün də belədir. Həmişə əvvəlki nailiyyətlərinə arxalanmaq, layiq olub-olmamasına baxmayaraq daim öndə olmaq, saxtakarlığı, yaltaqlığı ədəbi tənqidin aparıcı meyarına çevirmək istəyində olanlar həmişə olub, təəssüf ki, indi də var. Məhz İsmayıl Şıxlı ədəbi-tənqidi fikirlərində bir çoxlarına qarşı olduqca qətiyyətli və cəsarətli mövqe nümayiş etdirmiş, ədəbiyyatda şəxsi mənfəət axtaranların haradan qaynaqlanmasının səbəblərini də müəyyən etməyə çalışmış, əməli və qələmi ilə onlara qarşı həmişə sipər olmuşdur.

İsmayıl Şıxlı tənqidi daha da inkişaf etdirmək, onun vəziyyətini yaxşılaşdırmaq və obyektiv, qərəzsiz fikrə meydan açmaq üçün qəzetlərin, jurnalların ədəbi prosesə ciddi şəkildə qarışmasını zəruri sayır, bu mövqeyini belə ifadə edirdi: "Son vaxtlar "Azərbaycan kommunisti" jurnalının ədəbi prosesə qarışmasını və yuxarı da dediyimiz "sükunəti" pozmaq cəhdini istisna etsək, qalan qəzetlərimiz susurlar. Bu isə xoşagəlməz hallarla nəticələnir. Nə üçün "Kommunist", "Bakiniski raboçi" qəzetləri ədəbiyyatımızı istiqamətləndirən kəskin məqalələrə öz səhifələrində yer verməsin?!" (4, s. 347).

İsmayıl Şıxlı dünya ədəbiyyatının bənzərsiz nümunələri haqqında da orijinal təndiqi fikirlər söyləmiş, bu sənət incilərini ədəbiyyatımızla müqayisə etmişdir. Məsələn, o, rus ədəbiyyatından Mixail Şoloxovun yaradıcılığına, onun əsərlərindəki obrazlara sənətkar məharəti ilə yanaşmışdır. Hələ gənclik illərindən Mixail Şoloxovun əsərlərini oxuduğundan onun yaratdığı obrazların səciyyəvi cəhətləri və hadisələrin baş verdiyi yerlər İsmayıl Şıxlıya çox tanış gəlirdi. Müəllif yazır: "Mən Don sahilində olmamışam. Stanitsalarda kazakların necə yaşadıqlarını da görməmişəm. Ancaq mənə elə gəlir ki, bütün uşaqlıq illərim məhz bu yerlərdə keçib" (5, s. 353-354). Yaxud: "... Şoloxovun təsvir etdiyi insanların səciyyəsindəki cəhətlər: inadkarlıq, mübarizlik, çılğınlıq, ehtiraslarındakı əzəmət, açıqqəlblilik, təmizlik, sədaqət bizim adamları xatırladırdı".

İsmayıl Şıxlı dünya ədəbiyyatının görkəmli siması Corc Bayronun yaradıcılığı ilə bağlı təhlillər aparmış və onu "Azadlığın üsyankar carçısı" adlandırmışdır. O, Bayron və Şellini eyni ədəbi məktəbin nümayəndəsi, hər ikisinin XIX əsr ingilis mütərəqqi romantizmi ilə bağlı sənətkar olduqlarını göstərmişdir. "Bayron və Şelli daha irəli gedərək, inqilabi romantizmin bayrağını göylərə qaldırmışlar", -deyə böyük yazımızış qeyd etmişdir.

İsmayıl Şıxlı Azərbaycan nəsrinin sovet dövründə tutduğu mövqeyə, oynadığı rola, toxunduğu problemlərə münasibət bildirir, ən səciyyəvi məqamları oxucuların və ədəbi ictimaiyyətin diqqətinə çatdırırdı. O, "nəsr və zaman" məsələsinə konkret dəlillər əsasında aydınlıq gətirir, maraqlı mühakimələr irəli sürür. Ən yaxşı ədəbi nümunələrimizi, sovet dövrü Azərbaycan ədəbiyyatının təşəkkülündə, inkişafında xidmətləri olan yazıçıların adlarını xüsusi olaraq qeyd edir, onların ədəbiyyatımızın İttifaq miqyasında tanınmasında mühüm işlər gördüklərindən ürəkdolusu danışırdı. Ədib tarixi roman janrına müraciətin bəzi məqamlarına aydınlıq gətirir, bu meylin səbəblərini açıqlayır. O, yazıçının tarixə müraciət etməsinin səbəblərini izah edərkən onun (yazıçının) öz dövrünün idealları mövqeyindən çıxış etməsini və bu zaman tarixin bir vasitə rolunu oynadığını qeyd edir. Məhz tarixdən yazmağın asan olmadığını, bunun üçün yazıçının zəhmətkeşliyinin və istedadının önəm daşıdığını nəzərə çatdırır.

İsmayıl Şıxlı tarixi mövzulara müraciət baxımından Fərman Kərimzadənin "Qarlı aşırım" romanını yüksək qiymətləndirirdi. Onun fikrincə, tənqidçilər belə bir romanı hələ də qiymətləndirə bilmir. Yazıçı bu romanı Fərman Kərimzadə yaradıcılığında xüsusi hadisə hesab edirdi. "Fərman Kərimzadənin qələmə aldığı mövzu sovet ədəbiyyatı üçün yeni deyildir; kollektivləşmə dövrünün kəndindən çox yazmışlar. Amma Fərman köhnə mövzuya təzə baxış guşəsindən, 60-70-ci illərin yazıçısı gözü ilə, bu illərin ədəbi-bədii tələbləri mövqeyindən yanaşmış, özünəməxsus orijinal yol seçmiş, təzə və təravətli obrazlar yarada bilmişdir. Onun hətta mənfi surətləri də mürəkkəb, hərtərəfli və ziddiyyətli insanlardır" (6, s. 318).

İsmayıl Şıxlı o tipli yazıçılardandır ki, o, ədəbi tənqid haqqında, təbii ki, tənqidçilər haqqında fikir yürüdür. Ədəbi mühitdəki boşluğu aradan qaldırmaq üçün tənqidçilərimizin yüksək səviyyəli məqalələr yazmağını, onların istedadlı yazıçıların yazdıqları əsərləri təbliğ etmələrini vacib sayır. Bunun üçün tənqidçinin özü də istedadlı olmalıdır. Bu mənada İsmayıl Şıxlı istedadlı yazıçı olmaqla yanaşı, ədəbi mühiti və onun bütün incəliklərini dərindən bilən tənqidçi idi.

Bütün ömrü boyu həqiqət, düzgünlük axtarışında olan, yaradıcılıq nümunələrində insanı uca tutaraq böyük xarakterlər yaradan, xeyrin qələbəsinə, haqq ədalətin qələbəsinə çalışan, xalqa arxalanan sənətkarı xalq da unutmur. İsmayıl Şıxlı həmişə xalqın yaddaşındadır, milli dəyərlərimizin qorunmasına çıraq tutan, qəlbə yaxın əsərləri var olduqca da yaddaşlarda yaşayacaq-

dır. Araşdırmamızı xalqımızın Ümummilli Lideri Heydər Əliyevin qiymətli fikirləri ilə yekunlaşdırırıq: "İsmayıl Şıxlı həm yazıçı, həm müəllim, həm alim, həm ictimai xadim, həm də insan vətəndaş kimi böyük hörmət qazanmış, xalqımızın tarixində dərin iz, zəngin irs qoymuşdur. Bunların hamısı şübhəsiz ki, xalqımızın bu günü və gələcəyi üçün əvəzsiz sərvətlərdir."

Ədəbiyyat

1. Elçin. Azərbaycan ədəbi tənqidinin və ədəbi prosesin problemləri. Bakı: Çinar-çap, 2003
2. Şıxlı İ. Seçilmiş əsərləri. I cild. Bakı: Şərq-Qərb, 2005
3. Şıxlı İ. Seçilmiş əsərləri. II cild. Bakı: Şərq-Qərb, 2005
4. Şıxlı İ. Ədəbi tənqidimizin vəziyyəti haqqında. Xatirəyə dönmüş illər. Xatirələr və məqalələr. Bakı: Yazıçı, 1980
5. Şıxlı İ. Dahiyanə sadəlik. Xatirəyə dönmüş illər. Xatirələr və məqalələr. Bakı: Yazıçı, 1980
6. Şıxlı İ. Nəsr və zaman. Daim axtarışda. Bakı: Yazıçı, 1988
7. İsmayıl Şıxlı-100 (bibioqrafik göstərici). Tərtib edən: Nazxanım Cəfərova. Sumqayıt, 2019

M.Амрахова

Исмаил Шихлы и азербайджанская литературная критика

Резюме

В статье рассказывается о литературно-критических взглядах известного азербайджанского писателя Исмаила Шихлы. В исследовании рассматриваются взгляды И.Шихлы на литературный процесс и критику, анализируются его взгляды не только как писателя-литератора, но и как критика. В исследовании отмечается, что в творчестве Исмаила Шихлы также занимают важную роль такие проблемы, как современность в литературе, состояние литературной критики, требования к литературе и т.д. Исмаил Шихлы очень скрупулезно относился к вопросу тематики в литературе и на основе материалов азербайджанской литературы доказал, что существует большая разница между написанием произведений на современную тематику и написанием их на основе исторических событий.

Исмаил Шихлы классифицировал этапы литературного процесса, правильно и объективно оценил творчество мастеров слова, которые внесли значительный вклад в развитие нашей литературы.

В статье также затрагивается литературная критика И.Шихлы о редких жемчужинах мировой литературы. Автор ссылается на соответствующую научную литературу по теме.

M.Amrahova

Ismayil Shikhli and Azerbaijan literary criticism

Summary

In the article it is said about the Azerbaijan literary criticism thoughts of Ismail Shikhli who was the prominent Azerbaijani writer. In the study the thoughts about the literary process and criticism of Ismayil Shikhli are investigated, the literary man's views are analyzed not only as a writer, but also as a critic. In the article it is noted that some problems such as the problem of modernity in literature, the state of our literary criticism, literature and today's demands, etc. have also taken the important place in Ismayil Shikhli's activity. Ismayil Shikhli sensitively approached the problem of the topic in literature and proved that there were some differences between writing a work on the modern topic and writing on the historical topic on the basis of materials of Azerbaijani literature. Ismayil Shikhli approached the stages of the literary process with the sagacity method and estimated correctly and objectively the word masters' activities that made the great contribution to the development of our literature.

In the article Ismayil Shikhli's literary-critical thoughts about the rare pearls of world literature are also mentioned. The relevant scientific literatures about the theme are based on.

Rəyçi: filol.e.n., dos. F.Kazımova

Redaksiyaya daxil olub: 12.11.2019

V.İ.İBRAHİMOVA

Gəncə Dövlət Universiteti
(Gəncə şəh., Şah İsmayıl Xətai pr., 187)

SİNKLER LYUİS VƏ AMERİKA ƏDƏBİYYATI

***Açar sözlər**: Sinkler Lyuis, ədəbiyyat, yazıçı, Amerika*
***Ключевые слова**: Синклер Люис, литература, писатель, Америке*
***Key words**: Sinclair Lewis, literature, writer, America*

1930-cu ildə ənənəyə uyğun olaraq İsveç akademiyasının qarşısında çıxış edən ilk Nobel mükafatına layiq görülmüş amerika yazıçısı Sinkler Lyuis illər boyu formalaşdığı, özü üçün çox vacib olan fikirləri diqqətə çatdırmışdı. O, öz çıxışına "Amerikalıların ədəbiyyat qorxusu" adı vermişdi.

Bu söz səmimiyyət və cəsarətinə görə nadir ədəbi sənəd idi. Nə natamam fikir, nə "iti bucaqlar"dan yan keçmək cəhdi, nə kinayəyə istehza və ya dözümlü zarafatı üstün tutmaq cəhti. Hər bir şey öz adı ilə deyilmişdir. Burada çoxdan bəri səngiməyən insan ağrısı hiss olunur. Amerika şəraitində özünü sənətə həsr etmiş insanı hansı aqibət gözləyəcəyini yaxşı bəlli olan bir adam kimi o bunu cəsarətlə bəyan edir.

"Səksən mərtəbəli binaların inşa olunduğu, millionlarla maşınların və milliardlarla buş taxıl istehsal edən ölkədə"-Amerikada, yazıçının heç bir əhəmiyyəti yoxdur. Düzdür, incəsənət və ədəbiyyat Akademiyası mövcuddur, lakin ora iki-üç nəfəri çıxmaq şərti ilə öz ölkələri haqqında saxta heyranlıq və süni xoşhallıqdan uzaq cəsarətli ədəbiyyatçılar qəbul edilmirlər: nə T.Drayzer, nə E.Heminqvey, nə dəYudjin O'Nil. Camaat yalnız oddan betər qorxduğu "həyatın namuslu, cəsarətli və şiddətli təsvirini" verməyənləri qəbul edir.

Hakim dairələrin zövqünə yaxşı bələd olan belə yazarlar əsil yaradıcılığı müxtəlif şablonlarla əvəz ediblər. Onların qələmindən eyni-tipli romanlarda oxucuları hamı amerikalıların-hündür, varlı, dürüst insan və əla golf oyunçu olduqları; bizim şəhər sakinlərinin yalnız bir-birinə xeyirxahlıq münasibəti bəsləməsi və amerikalı qızlarının dəlisov olmaqlarına baxmayaraq, onlardan ideal ana və həyat yoldaşı olur...." inandırmağa çalışır.

Oxucu isə həvəslə bu kimi məstedici nağıllara inanır, çünki o, özünə kənardan baxdıqda gündəlik həyatının yeknəsək, miskin və maraqsız olduğunun şahidi olacaq. O, bu gündəlik həyata alışmış və ona tənqidi baxımnan yanaşmaq qabiliyyətini itirmişdir. Sakitləşdirici illuziyalara qarşı qoyulan acı həqiqət kəsb edən əsl ədəbiyyatla rastlaşan oxucu şok vəziyyətə düşmüş olur. O, özünü aldadmaqlardan ayrılmaqla qorxuya düşür və öz vəzifəsindən yayınmayan yazıçı ona təhlükəli, mənəviyyatsız və həyasız şəxs kimi görünür. Stokholmda heç vaxt əvvələr belə çıxışlar olmamışdı.

Bir qayda olaraq, laureatlar göstərilən şərəfə görə təşəkkür edib, incəsənət görüşləri haqqında məlumat verib, keçmişin dahi sənətkarların xatırlayıb ədəbiyyatın hədsiz imkanlarında əmin olduqlarını bildirirdilər. Sonuncu ilə S.Lyuis də razı idi, lakin ədəbiyyatın gələcəkhər halda amerikanın –onun üçün bir başa ictimayyətin ona olan münasibətindən asılı idi. Və o, (S.Lyuis) həmişə gözüaçıqlığı ilə seçilən bir insan kimi, burda tez bir zamanda dəyişiklik olacağına həm inanır, həm də səbirsizliklə gözləyirdi.

Eyni zamanda o heçdə laqeyidliyə və tanınmamasına görə şikayət edə bilməzdi. Həmin o Stokholm çıxışında deyilir: "Taleh mənə mərhəmətin əsirgəməyib". Həqiqətəndə, S.Lyuisin sənətkarlıq tərcümeyi halı, əgər onun zahiri xəttini izləsək, hər halda qismən müvəfəqiyyətli olub.

Bununla belə, hər şey müvəfəqiyyətin və xoşbəxtliyin hansı meyarlara əsasən ölçülməsindən asılıdır. S.Lyuis heç vaxt bədbəxtliklə üzləşməmiş, təqibə və izlənməyə məruz qalma-

mışdır, lakin hər bir ciddi roman çıxanda nəcib əxlaq tərəfdarlarının narazılıqları müəllifi bütün min bir günahlarda ittihamları - mənəvi dəyərlərə təcavüzdən tutmuş vətənpərvərliksizliyə kimi günahlandırırdılar.

"Mən Amerikanı sevirəm, amma onu bəyənmirəm" (1; 5) deyə Nobel mükafatına layiq görülmüş ilk amerikalı yazıçı Lyuis Sinkler (1885-1951) "Əsas küçə" əsərində kiçik Qoter Preyr şəhərindəki monoton, ikiüzlü həyatı güclü tənqid atəşinə tutur. L. Sinkler yaradıcılıqla bağlı Parisə, Londona və Romaya gedir və sonralar elə bu əsərdə təsvir etdiyi məkan barədə yazır: "Bura Amerikadır-onun bir neçə min əhalisi olan bu kiçik şəhər Qoper Preyredir, Minnesoto torpaqlarında buğda, qarğıdalı, çovdar yetişən bərəkətli bir məkan". Fəqət onun "Əsas küçəsi hər yerdə gördüyüm küçələrin davamıdır" (1, 5) deyir müəllif.

Yazıçı təxəyyülünün qüdrəti və yüksək bədii-təsvir imkanları sayəsində Lyuis Sinklerin Qoter Preyer şəhərindəki əsas küçəsi timsalında bütün Amerikan cəmiyyətini konkretləşdirmiş və böyük ustalıqla insanların yaşayışını və mənəviyyatını realist boyalarla göstərə bilmişdir. Yaşadığı, doğulub boya-başa çatdığı məkanı öz əsərlərində obraz formasında və bədii təsvir predmeti olaraq seçmək ənənəsi Amerika ədəbiyyatında H.D.Tora, V. Folkneq, C. Steynbek və L. Sinkler kimi sənətkarların yaradıcılığı üçün səciyyəvidir.

Amerika həyatının kinayəli şəkildə təsviri və ölkəni bütövlükdə bürümüş olan varlanmaq ehtirasını, tamahkarlığı, ümumi satqınlığı, dar düşüncəsini və ikiüzlülüyünü tənqid etməsi onu milli və beynəlxalq miqyasda tanıtdı. 1926-cı ildə "Arrousmit" əsərinə görə Pulitser mükafatıyla təltif olunmuş, lakin o, bundan könüllü şəkildə imtina etmişdi. Haqqında ətraflı bəhs edilən bu əsər, tamah və rüşvətxorluq olan şəraitdə bir həkimin öz həkim etikasını, ləyaqətini saxlamaq cəhdlərinə həsr olunub.

Lakin 1935-ci ildə "Bizdə bu mümkün deyil" romanı ədəbi mühitdə olduğu kimi, ictimai həyatda da bir "partlayış" kimi meydana çıxan roman çox geniş oxucu auditoriyası qazanmaqla bərabər ilk faşizm əleyhinə Amerika ədəbiyyatında yazılmış əsərdir. Əsər 1926-cı ildə, gərgin və təbədülatlı, siyasi mübarizənin kəskinləşdiyi seçki qabağı dövrdə işıq üzü görmüş idi. T.Ruzvelt hökumətinin yeni siyasi kursu ilə razılaşmayan sağ faşist yönümlü qüvvələrin və təşkilatların fəallaşmasına səbəb olmuşdu. "Milləti xilas" etmək adı ilə siyasi arenaya senator Long və keşiş Koflinin çıxması Adolf Hitlerin şovinist nəzəriyyələrinin Amerika sayağı reallaşması təhlükəsi aydın oldu.

S. Lyuis öz əsərində qəribə də olsa, gülməli və eyni zamanda dəhşətli Bez Vindrip, Sarason, Pol Piter Preng və onların məsləkdaşlarının təsvirinə xüsusi diqqət yetirir. Amerika cəmiyyətinin mikrokosmosu kimi kiçik əyalət şəhərin timsalında Fort Byul adlı faşistlərin tərəfkeşləri olan siyasətçiləri ifşa edib onların əməllərini başa salmağa çalışırdı. "Unudulmuş insanlara" faşistlər tərəfindən məharətlə istifadə olunan "vətənpərvərlik" və hətda "inqilqbı" ifadələrin vasitəsi ilə mövcud zalım və qaniçən siyasi xəttin mürtəci mahiyyətini ittiham edirdi (3, s. 355-357).

1936-cı ildə irtica məğlub olduqda və T.Ruzveltin yenidən seçilməsi zamanı başqa faktorlarla yanaşı kəskin ifşa edici mahiyyət daşıyan Sinkler Lyuisin romanınında qeyd edirdilər (1, s. 358).

Məhşur amerika ədəbiyyat tənqidçisi V.L.Parrington 1927-ci ildə Sinkler Lyuisi hətta "keşiş dua edən zaman fikri nadicliklə məşğul olan Amerika ədəbiyyatının dəcə uşağı adlandırmışdır" (2, s. 432). "Sinclair Lewis is the bad boy of American letters whose thoughts are on bent-pins while the deacon is laboring prayer" (2, s. 360).

Ədəbi gəncliyin erkən nəsrində diqqəti cəlb edən əsas yenilikçi cəhət mövcud ədəbi qayda və qanunlara məşhur obraz və obrazlar sisteminə dekonstruktiv yanaşma idi. Dekonstruktivizm bu dövrdə müxtəlif üslub və axın nümayəndələrini yaxınlaşdıran, bir çox cəhətdən birləşdirən ən qüdrətli meyli idi. Faşizmi aydın və inandırıcı şəkildə əks etdirən ədib zamanın ideya istiqamətinə tamamilə uyğun olmaqla, böyük təsir gücünə malik idi. Roman-utopiya "Bizdə bu mümkün deyil" əsərində də antifaşist mövzu, ümidsiz gələcəyin təsviri əsas götürülür.

Əsrin intellektual ab-havası, Nitsşe ideyalarına Amerika cəmiyyətində artan maraq, imperializmin vüsət alması, İbsen və Zolya kimi yazıçıların yaradıcılıqları Liyisi maraqlandırmırdı. Lyuisin realizmini "fotoqrafik" dokumental adlandırırdılar. Çünki özüdə amerika əyalətinin sakini olaraq öz qəhrəmanları ilə eyniləşmiş, müəllif-qəhrəman arasında tələb olunan məsafəni saxlaya bilməsinə görə günahlandırılırdı.

Elmdə qazanılan yeni kəşflərin insanın xeyrindənsə, onların ziyanına yönəlməsi, elmin insan nəzarətindən çıxıb nəticədə məhvə aparması sivil dünyanı lərzəyə salan Xirosimadan təqribən altı il əvvəl "Qalileyin həyatı" adlə əsəri ilə əsrin ilk öncəgörmə hadisəsini təsvir etmişdir. İncəsənətdə bu problemə ən çox yaxınlaşan Bertold Brext olmuşdur.

Ədəbiyyat

1. Sinclair L. "Main Street" Barners and Noble, 2003
2. Parrington V.L. Main Currents in American Thought vol III. The beginnings of Critical Realism in America, 1860-1920/ University of Oklahoma Press, 1987
3. Синклер Льюис "Эроусмит". М.: Изд-во Правда, 1990
4. Гиленсон Б. Творчество сатирика. Синклер Люис "Ужас это невозможно", М., 1987

В.И.Ибрагимова

Синклер Люис и американская литература
Резюме

Писатель в Америке и его ответственность за будущее человечества, проблемы, с которыми сталкивается молодежь, а также проблемы войны и мира-темы, которые затрагиваются С.Льюис. Начало критического реализма в американской литературе, первый антифашистской роман в американской литературе являются предметом данной статье.

V.I.Ibrahimova

Sinclair Lewis and American literature
Summary

The writer in America and his responsibilities for the future of the mankind, the problems faced in life, peace and war are the themes touched upon by S.Lewis. The beginning of critical Realism in American Literature, S.Lewis' first anti-fascist's novel is the subject of this article

Rəyçilər: filol.f.d., dos. Y.A.Abdullayeva
GDU-nun Praktik Xarici dillər kafedrası
(23.09.2019-cu il tarixli iclasın qərarı (pr. №01))

Redaksiyaya daxil olub: 29.09.2019

A.Ə.MƏMMƏDLİ

Bakı Slavyan Universiteti
(Bakı şəh., S.Rüstəm küç., 25)

İNNOVATİV İNGİLİS ROMAN YAZARI DEVİD MİTÇEL ÜSLUBU

Açar sözlər: *Devid Mitçel, bədii ədəbiyyat, Ədəbi kabus, Buludlu atlas, Qrinin qara qu quşu*
Ключевые слова: *Дэвид Митчелл, литература, Литературный призрак, Облачный атлас, Лужок черного лебедя*
Key words: *David Mitchell, fiction, Ghostwritten, Cloud Atlas, Black Swan Green*

Devid Mitçel 12 yanvar 1969-cu ildə Sautport şəhərində anadan olmuş, Malverndə böyüyüb boya-başa çatmışdır. O, Malverndə Kent universitetində amerikan və ingilis ədəbiyyatından dərs demişdir. Tədris fəaliyyətindən sonra Siciliyada 1 il yaşayan yazar Xirosimaya (Yaponiya) gəlir və yapon tələbələrinə ingilis dilindən dərs deyir. 8 ildən sonra Mitçel milliyyətcə yapon olan yoldaşı Keyko və 2 övladı ilə İngiltərəyə qayıdır. David Mitçel "Ədəbi kabus", "Yuxu №9", "Buludlu atlas", "Qrinin qara qu quşu", "Yakob de Zutanın min payızı" və s. romanların banisidir.Nüfuzlu yazar Devid Mitçel "Oyan", "Batmış bağ" adlı librettolarını qələmə almaqla oxucuların qəlbinə yol tapa bilmişdir (2).

Devid Mitçelin 1999-cu ildə qələmə aldığı məşhur "Ədəbi kabus" əsəri Okinava, Monqoliya, Yaponiyadan tutmuş Nyu York şəhərinədək, geniş bir ərazidə yayılaraq Con Levellin Riz mükafatına layiq görülmüş və bununla yanaşı nüfuzlu yazarın adı Quardian İlk Kitab mükafatının siyahısına daxil edilib. Həmçinin Devid Mitçel 2003-cü ildə ən yaxşı cavan nasir adına layiq görülmüş, 2007-ci ildə isə Taym jurnalının apardığı tədqiqatlara əsasən dünyanın 100 ən nüfuzlu insan siyahısına adı daxil olunan roman, qisa hekayə, libretto yazarı kimi diqqəti cəlb etmişdir (1).

David Mitçelin oxucuların rəğbətini qazanan "Ədəbi kabus" əsəri Con Levellin Riz mükafatına layiq görülərək Quardian ilk kitab mükafatının son siyahısına daxil olub. Onun 2001-ci ildə qələmə aldığı 2-ci romanı olan "Yuxu №9" əsəri 2002-ci ildə bədii ədəbiyyat üzrə kitab mükafatına layiq görülüb. Əsərdəki hadisələr müasir Tokiyoda cərəyan edir və Eyji Miyakenin atasının axtarışı haqqında əsrarəngiz romandır. David Mitçelin "Buludlu atlas" əsəri 2004-cü ildə, "Qrinin qara qu quşu" əsəri isə 2006-cı ildə işıq üzü görüb. Nüfuzlu yazarın "Yakob de Zutanın min payızı" romanı 2011-ci ildə Birlik yazıçıları (Cənubi Asiya, ən yaxşı kitab) mükafatına layiq görülüb.

İngilis ədəbiyyatında öz tövhəsini vermiş Devid Mitçel hekayələr, romanlar ustadı olaraq öz oxucularını sözün əsl mənasında heyrətləndirməyi bacarmışdır. Onun yaradıcılığı XX əsrin II yarısına təsadüf edir. İncə qələmi ilə yazılmış əsərləri oxucularının ürəyinə yol tapa bilmişdir. O, əsərlərində dövrünün xüsusiyyətlərini, təsvir etdiyi personajlar vasitəsilə zamanının tələblərini, insanlarının düşüncə və qabiliyyətlərini, düşüncə tərzini böyük ustalıqla nəzərə çarpdırmağı bacarmışdır. Bu keyfiyyətlər Devid Mitçelin ustalığından, dərin biliyə malik olmasından, səriştə və bacarığından xəbər verir. Çünki əsl yazıçı odur ki, sətiraltı mənalarla bütün incəlikləri oxucunun gözü önünə sərsin, gözünün qabağında canlandıra bilsin. Əgər bu canlandırma, təsvir kütlə tərəfindən qəbullanıb, dərk edilirsə, demək ki, yazışı işinin öhdəsindən gələ bilmişdir və qarşısına qoyduğu məqsədə nail olmuşdur.

David Mitçel qısa hekayə yazarı kimi oxucuların qəlbinə yol tapa bilmişdir. David Mitçel "Etiraflar", "Xarakter inkişafı", "Yanvar adamı", "Nəhəng siçovul", "Sadəlövhlər burada", "Bağban" və s. maraqlı qısa hekayələrini qələmə alıb.

David Mitçel hekayələrinin sujet xətti olduqca maraqlıdır. David Mitçel hekayələrinə elə ustalıqla ad seçmişdir ki, bütün əsərin məzmunu və formasını özündə birləşdirmiş olur.

Nüfuzlu yazar David Mitçel o yazıçılardandır ki, hekayədəki problemi ortaya qoymağı və bu problemin həlli yollarını oxucuya ustalıqla aşılamağı bacarır. David Mitçelin öz hekayələrində yer verdiyi mövzular yaşadığımız dövrün reallıqlarını əhatə edir. Onun öz sehrli qələmi ilə yaratdığı hekayələr sanki dövrümüzün güzgüsüdür. Zamanımızda baş verən reallıqları açıqca aşkara çıxararaq göz önündə sərgiləyir. Elə bu səbəblərdən də onun yaratdıqları əsərlərin qiyməti yoxdur.

"Ədəbi kabus" David Mitçelin 1999-cu ildə qələmə aldığı, Con Levellin Riz mükafatına layiq görülən, geniş oxucu kütləsi qazanan ilk romanıdır. Əsərdəki hadisələr əsasən Şərqi Asiyada, həmçinin Rusiya, İngiltərə, Amerika və İrlandiyada baş verir. Romanın epizodik təsvirinə xüsusi yer verilir və hər bir fəsil müxtəlif hekayəni və mərkəzi xarakteri təsvir edir. Buna baxmayaraq, hər bir fəsil təsadüfi olaylarla əlaqələndirilib. "Ədəbi kabus" romanının əsas mövzusu Şərqi Asiya mədəniyyəti, mövhumat və real hadisələrin tərənnümüdür. Həmçinin romanda müxtəlif əsərlərdən istinadlar da var. Xüsusilə Yunq Çanqın "Vəhşi qu quşu", Paul Osterin "Təsadüfi musiqi", Ayzek Azimovdan olan istinadlar diqqəti cəlb edir (3).

Nyusvik jurnalına əsasən "Buludlu atlas" romanı Devid Mitçelin ən cəsarətli, vəhşi, gözəl səyahət əsəridir. Nyu York Obsövə jurnalına görə "Buludlu atlas" romanı nəhəng əyləncəli, hekayə yaradıcılığı ilə zəngin əsərdir. Enterteynment Vikli jurnalı isə hesab edir ki, "Buludlu atlas" romanında Mitçelin çılğın hadisələrlə zəngin və enerjili nəsri üçün olan istedadı əsəri vərəqləməyə gətirib çıxarır, oxunaqlı edir. Vaşinqton Tayms qəzetinə əsasən Mitçelin söz oyununda coşqun, Nabokov heyranlığı, onun nəhəng, ağlagəlməz əhvalatlarla zəngin fitnəkar tutaşması, qarmaqarışıqlıqları, hər şeydən öncə onun hekayə şərhi, bütün bu sadaladıqlarımız "Buludlu atlas" romanını həyəcanlandırıcı, əsrarəngiz şah əsərinə çevirir. Vilic voys jurnalına görə "Buludlu atlas" romanı başgicəlləndirici enerji ilə sanki işıq saçır, təsadüfi hadisələrlə zəngindir və sanki kimsə qulağa pıçıldayır ki, hekayəyə daha yaxın ol, qulaq as istənilən hekayəyə və sən eşidəcəksən ki, onun daxilində başqa bir hekayə mövcuddur, dünyanı görmək arzusunda olacaqsan. Taym aut Nyu York jurnalına əsasən isə "Buludlu atlas" romanı həyəcanlandırıcı, məlahətli, cazibədar, bitmiş, hekayə aktı haqqında bir hekayədir, əsərdəki hekayə şərhi bacarığı bizdə tarix, sivilizasiya, fərdiyyət hissi yaradır. Laybrəri jurnalı isə hesab edir ki, "Buludlu atlas" romanında Mitçel müxtəlif xarakter, obraz rolları ilə təmamilə reallaşmış dünyaları yaratmaq üçün istedad sahibidir. Diteyls jurnalına əsasən "Buludlu atlas" romanında Haruki Murakami kimi Mitçel maksimum mütaliə, oxu məmnunluğu üçün yumşaq məzmun ilə intellektual maraqları qarışdırır. Roki Mauntin Nyus qəzetinə görə "Buludlu atlas" romanında heyrətləndiricidir ki, Mitçel dil istedad sahibidir. Onun güc-qüvvə, enerji kəşfiyyat araşdırması və hərislik, tamahkarlıq əsas, mərkəz mövzu olaraq maraq doğurur. Ivninq Standard (London) jurnalı isə "Buludlu atlas" əsərini diqqətəlayiq, heyranedici kitab hesab edir və qeyd edir ki bu dil zənginliyi və musiqili vituozluğu tarixi pastiş, siyasi triller və elmi fantastikanı birləşdirir. Sandi Tayms qəzetinə sasəsən isə deyə bilərik ki, Mitçelin fərqli səsləri yaratdığı yol möcüzəyə yaxındır. Bukpeyc jurnalına əsasən isə "Buludlu atlas" romanı elə bir heyrətamiz cazibədir ki, fikirləşmək olar ki əsərdə bir neçə Devid Mitçel kimilər var və bu kitabın bir hissəsi onların hər birinə ayrıca yazılıb. Tayms (London) qəzetinə əsasən "Buludlu atlas" romanı əyləncə, düşüncə, qabaqcadan görmənin parlaq təntənəsi, elegiyası və kornukopiyasıdır. Mitçelin düşüncəsini aşkara çıxartsaq, xeyirli və uğurlu Pandora qutusunda olduğu kimi ixtiraçılıq və ideyaların bütün ekstaz simfoniyası sanki uçub gedəcək.

"Buludlu atlas" güzgülü labirint üslubunda yazılıb. Əsərdə hadisələr XIX əsrdə, günümüzdə və gələcəkdə baş verir. Hissələr müstəqil olsalar da bir-birləri ilə qarşılıqlı əlaqədədilər. 6 hissədən ibarət olub, oxucunu XIX əsr Sakit Okean adalarından başlayıb postapokaliptik gələcəyədək aparan "Buludlu atlas" romanı Britan yazıçısı David Mitçelin üçüncü kitabıdır və 2004-cü ildə qələmə alınmışdır. David Mitçel öz kitabı haqqında belə demişdir: Roman - demək olar ki, bütün əsas qəhrəmanlarının (birini çıxmaq şərtilə) insan təbiətinin həqiqi universallığının simvolu olan anadangəlmə xalla tanınan eyni ruhun müxtəlif dövrlərdə, müx-

təlif bədənlərdə reinkarnasiyasıdır. "Buludlu atlas" adının özü; bulud daim dəyişən atlasın təzahürlərinə aiddir, hansı ki, insan təbiətinin oxşarıdır, hansı ki, həmişə qalır və həmişə belə-siylə qalacaq. Ona görə kitabın mövzusu hərislikdir, hansıyla ki, insanlar ayrı insanlara, qruplar qruplara, xalqlar xalqlara, tayfalar tayfalara ov edirlər. Ona görə mən sadəcə bu mövzunu götürdüm və bir qədər başqa kontekstdə onu dəyişdirdim. Buludlu atlas bir-biri ilə bağlı altı hekayədən ibarətdir, XIX əsr Sakit okean adalarından başlayıb postapokaliptik gələcəkdə qurtarır. İlk beş hekayə əsas anda kəsilir. Altıncı hekayədən sonra, ilk beş hekayə, xronoloji ardıcıllıqla, yarımçıq qaldığı yerdən başlayaraq sona qədər davam edir. Sonda isə oxucu roman başlandığı yerə - XIX əsrdə Ada'm Yuinqlə Sakit okeanın cənubuna qayıdır. Devid Mitçel öz intervyusunda bildirib ki, romanın adını yapon bəstəkarı Tosi İtiyanaqinin (Yoko Ononun birinci əri) eyni adlı musiqi əsərindən götürüb: «Mən kompakt-diski, yalnız kompozisiyanın təəccüblü adına görə aldım». Mitçelin əvvəlki romanının adı "Yuxu № 9" həmçinin Yoko Ononun daha məşhur əri Con Lennonun əsərindən ilhamlanıb. Romanın stili, quruluşu İtalio Kalvinonun bir neçə natamam hekayələrdən ibarət olan "Bir qış gecəsi səyyah" romanından götürülmüşdür. Mitçelin icadı isə - romanın mərkəzinə elə bir "güzgü" əlavə etməkdir ki, hər bir tarix sonuna kimi başa çatdırılmış ola bilsin.

David Mitçelin 2006-cı ildə yazdığı "Qrinin qara qu quşu" romanı yarım-avtobioqrafik, bildinqsroman janrında qələmə alınmış bir əsərdir. Bu əsər baş qəhrəmanın xarakter dəyişikliyinin son dərəcə vacib olduğunu, gənclik dövründən yetkinlik yaşınadək psixoloji və mənəvi inkişafını əks etdirir. Oxucuların sevimli romanına çevrilən bu roman 13 fəsildən ibarət olaraq 13 yaşlı Vusterşir əsilli Ceyson Teylor adlı oğlanın həyatının 1982-ci ilin yanvarından 1983-cü ilin yanvar ayı ərzindəki bir ayını təsvir edir. David Milçelin kəkələmə qüsuru vardı və bu fiziki qüsur öz əksini "Qrinin qara qu quşu" romanında tapmışdır. Roman kəkələyən 13 yaşlı oğlanın dilindən nəql edilir (4).

Ədəbiyyat

1. Ghostwritten,Vintage International, Vintage Books, A division of Random House, Inc.New York 426 pages
2. https://en.wikipedia.org/wiki/David_Mitchell_(author).
3. https://en.wikipedia.org/wiki/Ghostwritten_(novel)
4. https://en.wikipedia.org/wiki/Black_Swan_Green

А.А.Мамедли

Стиль Девида Митчелла, новаторского английского романиста

Резюме

Статья посвящена жизни Дэвида Митчелла, его роли в английской литературе, его романах. Дэвид Митчелл - автор бестселлеров таких романов, как "Литературный призрак", "Облачный атлас", "Лужок черного лебедя", "Голодный дом", "Простые смертные".Дэвид Митчелл английский автор романов, два из которых вошли в шортлист Букеровской премии. Первый роман Митчелла "Литературный призрак" получила премию Джона Луэллина-Риса (за лучшую британскую книгу написанную автором моложе 35 лет). Две его следующие работы "Сон № 9" и "Облачный атлас" были включены в шортлист Букеровской премии. В 2003 году Митчелл вошёл в список лучших молодых британских писателей, по версии журнала "Granta". В 2007-м он был включён в список 100 самых влиятельных людей в мире по версии журнала "Тайм". Его следующий роман "Лужок черного лебедя" был опубликован в 2006 году и вошёл в лонглист Букеровской премии.

A.A.Mammadli

The style of David Mitchell, an innovative English novelist

Summary

The thesis deals with the early life of David Mitchell, his role in English literature, his fiction, his novels such as Cloud Atlas, Ghostwritten, Black Swan Green. “Number9dream” and “Cloud Atlas” were shortlisted for the Booker Prize. He was named one of the 100 most influential people in the world by Time magazine in 2007. In 2003 David Mitchell was selected as one of the Best Young British Novelists by Granta. Ghostwritten was awarded the Mail on Sunday/John Llewellyn Rhys Prize for the best book by a writer under thirty-five. David Mitchell one of the best English authors whose novels are noted for their lyrical prose style and complex structures. David Mitchell, as a short story writer, has managed to reach the hearts of readers. David Mitchell wrote interesting short stories such as "Acknowledgements," "Character Development," "January Man," "The Massive Rat," "Muggins Here," "The Gardener," and others. The plot summary of David Mitchell's stories is quite interesting. David Mitchell is so adept at making stories that he combines the content and form of the whole work. Author David Mitchell is one of those writers who is able to expose the problem to the story and skillfully address the reader. The topics that David Mitchell covers in his stories is about the realities of our times. The stories he created with his own magic pen are just a mirror of our time. It clearly reveals the realities of our century. For this reason, his works have a great value.

Rəyçi: f.e.d., prof. N.M.Sadıqova

Redaksiyaya daxil olub: 20.09.2019

S.PAŞAYEVA
e-mail: psahiba@mail.ru

AMEA-nın Folklor İnstitutu
(Bakı şəh., 8-ci Kiçik Qala döngəsi, 31)

"MANAS" DASTANINDA HƏRB MÖVZUSUNUN POETİK İFADƏSİ

Açar sözlər: *"Manas", qəhrəmanlıq dastanı, poetika, mübarizə və birlik ideyası*
Ключевые слова: *«Манас», героическая эпопея, поэтика, идея борьбы и единства*
Key words: *"Manas", the heroic epos, poetics, idea of the struggle and unity*

"Manas" dastanı Orta Asiyada geniş bölgələrə yayılmış qırğızların milii dastanıdır. Bu eposa həm bədii-estetik, həm də tarixi yöndən yanaşıldıqda türk epik və etnik təfəkküründün yeni-yeni səhifələri açılır. "Manas" qırğız xalqının poetik ifadə çələnginin ən gözəl nümunəsidir. Bu ədəbi nümunənin poetik ifadə tərzi öz melodik ahəngi ilə fərqlənir. "Manas"ın zaman-zaman ötürülməsində çox güman ki, onun boylarına biçilmiş bu musiqinin real köməyi olmuşdur. Nəhəng bir dastanı sinəsində gəzdirən manasçı ona yardımçı olan ritmlərdən az bəhrələnməmişdir." (1, s.23)

Dastanın poetikasından danışarkən ritm və intonasiyanın poetik funksiyasını nəzərdən qaçırmaq olmaz. Bütün türk qəhrəmanlıq dastanlarında oduğu kimi "Manas"da da şeir və nəsr parçaları bir-birini tamamlayır:

"Cakıb dedi: - Söylədiklərində haqlısan, oğlum. Oğul evləndirmək atanın borcudur. Necə qadın istəyirsən? Kimin qızını bəyənirsən? Könlündəkini söylə.

Manas:
Hər şeyi söz eləyən,
Hamıya göz eləyən,
Yan-yörəsi yığnaqlı
Bəyin qızı olmasın.
Tutduğunu gizlədən,
Özünü əzizlədən,
Pirin qızı olmasın...
Tanrısını tanıyan,
Xalqına hörmət qoyan,
Düşüncəli qız olsun,
Bəxtimə ulduz olsun.
Manas qəlbindəki sirri bu yolla Cakıba anlatdı." (2, s.140-149)

Dastandakı şeirlərin semantik yükü çox dərindir. Burada, bir tərəfdən, qədim türkün hərb tarixinə, qəhrəmanlıq tarixinə işarə edilibsə, digər tərəfdən də Manas və onun igidlərinin məğlubedilməzliyi obrazlı şəkildə canlandırılıb. Manas obrazı ilə bağlı digər şeir parçalarının semantikasına nəzər saldıqda bir sıra maraqlı məqamlara rast gəlinir. Belə məqamların bir qisminə mətn semantikası kontekstində aydınlıq gətirək:

Artıq söhbət nə lazım
İndisə qulaq asın
Sizə dastan söyləyim...
Ər Manasdan söyləyim. (3, s.38)

"Manas" dastanının poetik məzmunu mürəkkəb və çoxcəhətlidir. Şaman dualarının, şaman ayinlərinin poetikasına müraciət qırğız dastan ənənəsində rast gəlinən bəzi ənənəvi formulların formalaşmasına işıq sala bilər. Dastanda eyni zamanda şaman kamlamasının izləri

qalan alqış, qarğış, vəsiyyət, yuğlamalarda rast gəlinir. Yəqin ki, bu lirik növlər epik janrın formalaşmasına təsir göstərmişdir. Eposda şamanizm elementləri sehrli mərasimlərin süjetinə, ritminə özünəməxsus təsir göstərir. Məsələn, Manası dünyaya gətirən ana-bəybikə Çıyırdı olmazın əzablar çəkir. Qohum-əqrəba şamanı xilaskar sifətində yurtaya gətirirlər. Dastanda şamanın gəlişi belə təsvir edilir: "Gözlənən gün də yaxınlaşdı. Çıyırdının doğum anı gəldi. Xanımın sancısı başladı. Sancı başlayanda Cakıbın evinə baxşılar və qadın şamanlar toplaşdılar. Cakıb əfsun oxuyub ağbozdan qısraq, bayquş başlı qoyun, ay buynuzlu inək və dəvə qurban kəsdi. Aulda Çıyırdının bağırtısı yeddi gün səkkiz gecə kəsilmədi. "Şəfqətli quş, Umay Ana, quş ana, şəfqətini əsirgəmə, kömək et" - deyə qadın şamanlar, baxşılar sıçrayıb davul çalıb Umay Ananı yardıma çağırdılar. Atəş Anaya sığınıb ocaq qaladılar, südü yağa qarışdırdılar, ardıc ağacı yandırdılar." (2, s.21) Və yaxud döyüşqabağı əsgərlərin döyüş qabağı ayinləri belə edirlər: "Əsgərlər savaşa çıxacaqları günün gecəsində müqəddəs dağa çıxdılar. Atalarının daşa yazılan rəsmlərini, yazılarını ziyarət etdilər. Qulun qısrağı qurban kəsdilər. Qopuz çalıb, söz ustasının şirin sözlərini, ozanların söylədiyi rəvayətləri dinləyib qədir gecəsini qarşıladılar, nəşəylə dan atdırdılar". (2, s.217)

Türk dillərinin ilk yetkin örnəyi qam (şam)-ozan, yanşaq-aşıq məktəbinin yaratdığı söz sənətidir. "El-el, oymaq-oymaq gəzib dolanan bu söz ustaları sözlə insanın dünyasını ifadə etmiş, sözlə insanın ilk sehrini yaratmışdır. Hər sənətkar öz fantaziyasına, ilhamına, mühitə, şəraitə uyğun dəyişmə aparsa da, improvizasiyasının qaydaları nə qədər uzun olsa da, süjet, motiv, dil fiqurları, poetik formalar çox vaxt sözünü, demək, dastanların poetik strukturasını qoruyub saxlamışdır." (5, s.32). "Manas" dastanın altımışdan artıq variantı mövcuddur. Bu da ondan irəli gəlir ki, Azərbaycan aşıq ədəbiyyatında olduğu kimi qırğız xalq ədəbiyyatında da manasçıların yaşatdığı "usta-şəyird" ənənəsi mövcuddur. Bu isə milli dəyərlərin qorunub nəsildən-nəsilə ötürülməsinə kömək etmişdir. Qəhrəmanlıq dastanı bədii düşüncəyə əsaslandığından orada tarixi özəyi tapmaq çox çətin olur. "Manas"da Şər qüvvələrə qarşı Xeyirin əbədi mübarizəsi, daha dəqiq desək, Manas başda olmaqla qırğız xalqının Çin və kalmık işğalçılarına qarşı mübarizəsi öz əksini tapmışdır. Xalq poeziyası stilində yaradılan bu dastan qırğız xalqının qəhrəmanlıq dastanlarına xas olan alililiyi, sadəliyi və təbiiliyi ilə seçilir. Bir çox epizodlarda reallığın daha ətraflı verilməsinə kömək edən mifoliji ünsürlərə rast gəlinir. Dastanda böyük Buqu və Sarıbaqış qırğız tayfaları arasında baş verən qanlı döyüşlər haqqında çoxlu nəğmələr saxlanılmışdır. Bu nəğmələr müasir qırğız yazıçıları üçün xalqın tarixi təkamülünü və dünyagörüşünü öyrənmək üçün əvəzsiz mənbədir. Dastanın demək olar ki, bütün əsas epizodlarında patriarxal münasibətlər açıq əks olunmuşdur. Atası Manasa danışır ki, Esen xan qırğız xalqını dağıtmış, öz yurdundan pərən-pərən salmışdır. Onun atası isə öz qohumları ilə birlikdə Altaya sürülmüşdür. Ona görə də Manas həyatının mənasını qırğız xalqının keçmiş azadlığını özünə qaytarmaqda, xarici işğalçıların əllərindən almaqda görürdü ki, qəhrəmanın ideal keyfiyyətlərini məhz bunlar səciyyələndirir.

Qəhrəmanlıq eposu antik faciə kimi qarşısına insanın tərbiyə olunması məsələsini qoyur. Onun daxili aləminə təsir edərək zənginləşdirir. Lirik başlanğıc ümumilikdə, əsərin epik xarakterini pozmur. Hisslərin təsviri hadisələrin təsvirinə yalnız qismən kölgə salır. Burada obrazların xarakterləri onların zahiri və mənəvi keyfiyyətlərində öz əksini tapır. Məsələn, "Manas obrazını bütövləşdirən, onu tam təsəvvürə gətirən təkcə mənəvi atributlarla deyil, həmçinin zahiri elementlərlə də bağlıdır. Manasın geyimi, işlətdiyi silah növləri, mindiyi at bu obrazın tam rəsmini çəkir" (1, s.84). "Manas" eposunun obrazlarının yaradılmasında akınlar şifahi xalq ədəbiyyatının rəngarəng və zəngin ifadə vasitələrindən ustalıqla istifadə etmişlər. Xalq qəhrəmanlarını təsvir edərkən ozan-akınlar "alp" – böyük, cüssəli, qüvvətli epitetinə müraciət edirlər. Akın əsərdə baş verən hadisələrin təsvirinə keçməzdən əvvəl gələcək qəhrəmanların nəsil şəcərəsini dərindən təhlil edir. Məsələn, igid Almambetin tarixi haqqında məlumat dastanın ayrıca süjet xəttini təşkil edir. Məlum olur ki, Almambetin atası Sooronduk məşhur Çin sərkərdələrindən olmuşdur. Qırx igidlə ova çıxan Almambet təsadüfən Manasla rastlaşır.

Manas artıq çoxdan Almambet haqqında eşitmişdi. Buna görə də o, igid sərkərdəni hörmətlə qarşılayır və onun şərəfinə qonaqlıq verir. Manas və Almambet qardaşlaşırlar. "İki igid söyüd çubuğundan tutub dayanmışdılar. Cakıb polad bıçaqla çubuğu tən ortasından kəsdi: - Almambet ilə Manas, Tanrı hüzurunda həyatda və ölümdə bərabər olmaq üçün dost oldunuz. Bir anadan süd əmən əkiz qardaş oldunuz. Andı pozub bir-birinizə xain çıxsanız başınız bu çubuq kimi kəsilsin. Tanrının lənətinə gələsiniz, Umay ana bəlamzı versin!" (2, s.147)

Burada qəhrəmanlıq dastanlarının özünəməxsusluğu baş verən hadisələrin əhatəliliyində, xalq həyatından götürülən mühüm hadisələrin əksində, sakit nəqledici tonda, süjet xəttinin ləng inkişafında və s.-də tam şəkildə ifadə olunmuşdur. "Manas"da əsas hadisələr çoxlu saylı ikinci dərəcəli epizodların təsiri altında ləngisə də, onların hamısı bir-birilə üzvi surətdə əlaqəlidirlər. Eposun kompozisiyası əsərin qəhrəmanlıq xarakterinə uyğun olaraq qurulmuşdur.

Dastanda qırğızların dövlətçilik ənənələri təsvir olunur. Qırğızlarda dövlətçilik ənənələrindən danışarkən onların ilk sosial-siyasi sistemini mütləq nəzərdən keçirmək vacibdir. Əski türklərin toplum quruluşu, dövlət yönətimi, ordu sistemini, din və inanc formalarını, hüquq sistemini, yazı, dil və ədəbiyyatını, iqtisadiyyatını, sənətkarlığını, əski türklərdə qadının ictimai mövqeyini ayrı-ayrılıqda araşdırmaq əsasdır. Qeyd etmək lazımdır ki, Şərq köçəri həyat şəraitində, qonşu tayfalarla sonsuz toqquşmalarda, Böyük Köçün müxtəlif axınlarına düşən qırğızları öz mənəvi mədəniyyətlərini öz yaddaşlarında qoruyub saxlamağı bacardılar. Bu yaddaş onların tarixini "Manas" dastanının misralarında bizim günlərə qədər gətirib çıxardı. Dastanda Ər Manasın və onun igid silahdaşlarının hayqırtısını, mindikləri ayğır atların kişnərtisini eşidir, ildırım parçası kimi parıldayan qılıncların işıltısını görürük: "Bahadır Manas Toruçar atıyla döyüşə girib dağ kimi pəhləvanları qılıncından keçirdi, dalğa kimi gələn çinliləri tar-mar etdi. Hər yer toz-dumana bələndi, dağ dərəsində insan qanı çay kimi axdı. Xızınn dualadığı qəhrəman Manas özünü qoşuna vurdu. Çinlilərin qırx pəhləvanını ortaya alaraq yağış kimi yağan oxlara məhəl qoymadı." (2, s.101)

"Manas" dastanının hərbi xarakterli hadisələrin əsas süjet xəttini əks etdirən materialları qırğızlarda hərbi təşkilatlanmanın və texnikanın, silah və geyimlərin, döyüş üsullarının, döyüş zamanı təchizatın, hərbi əsrlərlə davranmanın, hərbi keyfiyyətlərin tərbiyə edilməsinin bir çox xüsusiyyətlərinin bərpasına imkan verir. Dastanda düşmənə qarşı birləşmək ideyası tədricən Vətəni tərənnüm ideyasına çevrilir. Manasın Kaşğar bölgəsindəki yürüşlərinin əsasında Bok-Murun hekayəsi durur. "Bu əfsanə qırğızlar arasında "Bok-Murun" adı ilə söylənir. Lakin əslində Manas dastanının bir parçasıdır. Bok-Murun Kaşgar xanı Kötögöy xanın vəziri və ya komandanı olaraq nəzəri cəlb edir. Əfsanədə bu nöqtə açıq şəkildə göstərilmir. Ancaq Manasın Narın çayını keçərək Kebeti dağında qonaq qalması, bu yerlərin tanınması baxımından bizə kələfin uclarını tapmaqda kömək edir." (4, s.518)

Manasın şimal yürüşləri Kös Kaman hekayəsinə köklənmişdir. "Radlov bu nağılı qırğızlar arasından ayrıca toplamışdı. Lakin Manasın həyatı ilə əlaqədar olduğunu gördükdə bunu da Manas dastanına əlavə etmişdir. Əslində əfsanə oyrat və kalmıklarla qırğızlar arasındakı qədim düşmənçiliyi göstərən bir hekayədir. Bu nağılda qırğızlar deyirlər ki, "kalmıkdan dost olmaz". Cənubi Altaydakı Gün xan adlı bir kalmık rəisi digər kalmıklardan bir uşaq qaçırtmış və uşaqları qaçırılan kalmıklar da Manasdan kömək istəmək üçün gəlmişdilər. Əfsanədən məlum olur ki, Manas və onun qövmü necə olursa-olsun kalmıklarla birləşmək və ya onlara yardım etmədən çəkinirdilər." (4, s.523)

Bütün qırğızları birləşdirən, qırğız xalqının birliyinin simvolu sayılan Manasın yeddi vəsiyyəti öz varislərinə yadigar qalmışdır:

1. Xalqın birliyi və yekdilliyi;
2. Millətlərarası razılıq, dostluq və əməkdaşlıq;
3. Milli namus və vətənpərvərlik;
4. Zəhmət və birlikdə firavanlığa doğru;
5. Təbiətlə həmahənglik;

6. Qırğız dövlətçiliyinin möhkəmləndirilməsi və müdafiəsi.

Beləliklə, dünya folklorunun "mədəni qatını" təşkil edən "Manas" dastanı türk xalqlarının bir qolu qırğız xalqının alp-ərənlik tarixinə işıq salır. Burada qəhrəmanlıq motivləri, yurddaşlıq və yenilməzlik duyğuları poetik dillə təsvir olunur. Eposda mövcud olan poetik ifadə üsulları onun qəhrəmanlıq motivinə və həcminin genişliyinə uyğun gəlir. Qəhrəmanlıq eposu olan "Manas" öz yüksək bədiiliyinə, yüksək əxlaqi keyfiyyətlərinə, poetik gücünə görə dünya ədəbi nümunələrinin sırasında layiqli yer tutur.

Ədəbiyyat

1. Cəmilov A.S. "Manas" eposu və türk dastançılıq ənənəsi: Dissertasiya işi. Bakı, 2004, 152 s.
2. Manas dastanı. Bakı: Nurlan, 2009, 290 s.
3. Min beş yüz ilin oğuz dastanı: Antologiya. I kitab. Bakı: Azərbaycan nəşriyyatı, 1999, 945 s.
4. Ögəl B. Türk mifologiyası. I cild. Bakı, «MBM», 2006, 626 s.
5. Vəliyev K. Dastan poetikası. Bakı: Yazıçı, 1984, 223 s.

С.Пашаева

Поэтика военной тематики в эпосе «Манас»

Резюме

В статье анализируется поэтика военной тематики в эпосе «Манас». В статье показана индивидуально-творческая особенность сказителя «Манаса» в использовании традиционно-поэтических приемов и изобразительно-выразительных средств. Героический эпос «Манас», благодаря своей высокой художественности, заслуженно занимает достойное место среди мировых шедевров. «Манас» представляет собой наиболее полное и широкое художественное отображение многовековой борьбы киргизского народа за свою независимость и свободу, справедливость и счастливую жизнь. Поэтический мир эпоса «Манас» исключительно богат и разнообразен. Народный эпос по сравнению с другими видами народной поэзии имеет свою особенную художественную систему.

S.Pashayeva

The poetic expression of the theme "war" in the epos "Manas"

Summary

In the article the poetic expression of the theme "war" in the "Manas" has been analyzed. The heroic epos "Manas" is one of the most valuable works of the world folklore with its high artistic value and poetic features. The roots of the epos "Manas" belong to the ancient times. The epos is a large artistic expression of the centuries-old struggle of the Kyrgyz people for their freedom and happy life. The poetic world of the epos "Manas" is rich and colorful. This folk epos has its own unique artistic system in comparison with the other folk poetry examples.

Rəyçi: filol.f.d., dos. A.Ramazanova

Redaksiyaya daxil olub: 07.10.2019

M.M.QULİYEVA

AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu
(Bakı şəh., H.Cavid pr., 31)

TƏNQİDİ-REALİST HEKAYƏDƏ CƏMİYYƏTİN VƏ FƏRDİN BAŞLICA PROBLEMLƏRİ

Açar sözlər: *tənqidi realizm, C.Məmmədquluzadə, Y.V.Çəmənzəminli, Ə.Haqverdiyev, hekayə, novella*
Ключевые слова: *критический реализм, Дж.Мамедгулузаде, Ю.В.Чеменземенли, А.Агвердиев, повесть, новелла*
Key words: *critical realism, J.Mammadguluzada, Y.V.Chamanzamanli, A.Hagverdiyev, story, novella*

Azərbaycan ədəbiyyatının həm zəngin, həm də mürəkkəb dövrlərindən biri olan XX əsrin əvvəlləri Azərbaycanda sənayenin inkişafı, sinfi ziddiyyətlərin kəskinləşməsi və milli azadlıq uğrunda mübarizələrin geniş vüsət alması ilə səciyyələnir. Bu mərhələ Azərbaycanın həm ictimai–siyasi, həm də ədəbi–mədəni həyatında çox mürəkkəbliyi ilə seçilir. Mədəniyyətin bütün sahələrində olduğu kimi ədəbiyyatda da bu dəyişikliklər özünü göstərmiş və müxtəlif janrlarında əsərlər yazılmışdır. Ədəbiyyatda nəsr, xüsusən də hekayə janrı aktivlik qazanır. Hekayə janrı bu dövrün, yəni XX əsr əvvəllərində Azərbaycan ədəbiyyatında aparıcı mövqeyi ilə seçilir. XX əsrin ilk onilliklərində ədəbiyyatın qaldırdığı mühüm problemlər: xalqın azadlıq mübarizəsi, fərdin özünü təsdiq uğrunda çabaları, qadın azadlığı problemi, sinfi münasibətlər və s. məsələlər nəsrdə, xüsusilə də hekayə janrında daha müfəssəl və konkret boyalarla əks olunmağa başladı.

XX əsrin əvvəllərində Azərbaycan nəsri obrazları, mövzu və süjet özəllikləri ilə həm Şərq ədəbiyyatının ənənələrini davam etdirir, həm də yeniləşən dünya ilə birgə yeni janrın təşəkkülü və formalaşması ilə diqqət çəkir. XX əsr Azərbaycan ədəbiyyatında C. Məmmədquluzadənin realist nəsr yaradıcılığı və ən əsası "Molla Nəsrəddin" jurnalının nəşri ədəbiyyatımıza yeni qəhrəmanlar və əksliklərin vəhdətindən doğan konfliktlər qazandırdı, ümumilikdə isə ədəbiyyatımızın inkişafına böyük təkan verdi. Azərbaycan hekayəçiliyinin özünü təsdiq mərhələsində realist hekayə aparıcı mövqeyi ilə seçilir. "1906-cı ildə nəşrə başlayan " Molla Nəsrəddin" jurnalı bədii nəsrin, xüsusilə satirik-yumoristik nəsrin inkişafında müstəsna rol oynadı. Realist parodiya, pamflet, novella nümunələri ilk dəfə bu jurnalın səhifələrində göründü. "Molla Nəsrəddin" jurnalı ilə formalaşan tənqidi realist yaradıcılıq metodu C. Məmmədquluzadə, Ə.Haqverdiyev və başqalarının nəsr əsərlərində daha bariz nəzərə çarpırdı" (1, s.6). Böyük tənqidi realistlər C. Məmmədquluzadə, Ə. Haqverdiyev, Y.V.Çəmənzəminlinin hekayələri realist hekayəçilik məktəbinin inkişafında əsas rol oynadı.

Azərbaycan ədəbiyyatı tarixində XX əsr tənqidi realizmi xüsusi mərhələ təşkil edir. Bu mənada Azərbaycanın ictimai-siyasi və mədəni həyatında önəmli rolu olan tənqidi realizm özünün spesifik xüsusiyyətləri ilə daha çox diqqəti çəkir. Həyat həqiqətlərini, tarixi gerçəkliyi və təbəqələşmiş cəmiyyəti özünün əsas predmeti seçən bu ədəbi cərəyan maksimum dərəcədə xalq həyatına yaxın idi. Tənqidi realizm xalq həyatındakı müxtəlifliyə fəal şəkildə müdaxilə etməklə xəlqilik, vətənpərvərlik, humanizm və millilik prinsiplərinə əsaslanırdı. Bunun da başlıca səbəbləri var. Tənqidi realizm başqa ədəbi məktəblərdən ona görə fərqlənirdi ki, bu ədəbi məktəb ideya, məzmun, forma və üslub, ədəbi qəhrəman, zaman-məkan və.s. baxımından xalq həyatına yaxın olan dəyərli, köklü axtarışları ilə seçilirdi. Bu mənada C.Məmmədquluzadə, Ə. Haqverdiyev, Y.V. Çəmənzəminli hekayələri, M.Ə.Sabir satiraları və kəsərli felyetonları ilə dövrə xas olan başlıca xüsusiyyətləri ustalıqla qələmə alırdılar. "Azərbaycan tənqidi realizmi təcriddə, təklikdə, realizmin ümumi inkişafından və ümumi qanunauyğunluqlarından

kənarda baş verən təsadüfi bir epizod kimi yox, dünya realizm prosesinin növbəti dalğası kimi tədqiq etməyin elmi prinsipi məhz bu obyektiv tarixi amillərə əsaslanır" (6, s.219).

Azərbaycan ədəbiyyatşünaslığının sovet dövrü tədqiqatlarının əksəriyyətində ədəbi nümunələr arasında paralellik aparılarkən əksərən rus ədəbiyyatı əsas götürülmüşdür. Hekayə sahəsində mövzu və obrazlar arasında aparılan identifikasiyalarda Qoqol yaradıcılığı üzərində daha çox dayanılmışdır. Ümumiyyətlə, tənqidi realizm XIX əsrin 20-ci illərindən başlayaraq Avropada Stendal, O.Balzak, P.Merime, Dikkens, Tekkerey yaradıcılığında, Rusiyada isə daha parlaq nümunələri A.Puşkin, Y.Lermontov, A.Çexov və N.Qoqolun əsərlərində təşəkkül tapmağa başlamışdır. Nəzərə almaq lazımdır ki, milli ədəbiyyatlarda bu proses kortəbii şəkildə deyil, məhəlli xüsusiyyətlərə dayanır, ictimai-siyasi inkişafla bağlı idi. "Tənqidi realizm epoxası üçün ədəbiyyatın, xüsusilə nəsr və dramaturgiyanın tamam tarixilik prinsipinə keçməsi səciyyəvi idi. Zaman və məkan konkretliyi, birmənalı milli zəmində durmaq realizmin ilkin əlamətlərindən biri idi. Ona görə də realizm epoxası hər xalqın ədəbiyyatında özünəxas tarixi və milli həqiqətləri əks etdirən bir hadisə kimi daxil olur, xalqların milli həyatının və tarixinin bədii mənzərəsi və salnaməsi kimi meydana çıxır" (3, s.48)

Tənqidi realizm müraciət etdiyi mövzu və obrazı bütün keyfiyyəti ilə, sosial-siyasi vəziyyəti, sovet ədəbiyyatşünaslığında tez-tez təkrarlanan "barışmaz zidiyyətləri" ilə milli və məhəlli xüsusiyyəti ilə bir bütün olaraq təsvir edirdi. Əsrin əvvəllərində Azərbaycan ədəbiyyatında xalqın içindən seçilən obrazlar başmaqçısı, ustası, mirzəsi, avam kəndlisi ilə ictimai-siyasi və sosial durumların tam bir proyeksiyası idi.

Y.V.Çəmənzəminli hələ yaradıcılığının ilk mərhələsində yazdığı hekayələri və dövrü mətbuatda çap etdirdiyi ədəbi-tənqidi məqalələri ilə realist Azərbaycan ədəbiyyatımızın zənginləşməsində, onun məzmun və mahiyyətcə demokratikləşməsində, bədii yaradıcılıqla xəlqiliyin bir prinsip kimi qorunub daha da möhkəmləndirilməsində, Azərbaycan ədəbi dilinin yad təsirlərindən təmizlənməsində mühüm işlər görmüşdür. İlk qələm təcrübələrini və siyasi karikaturalarını, məşhur "Molla Nəsrəddin" jurnalında çap etdirən ədib əsərinin ideya – mövzu istiqamətinə, ədəbi dil məsələsinə baxışına və bütövlükdə yazı manerasına görə bu jurnalın ənənələri ilə bağlı olmuş, Azərbaycan ədəbiyyatında yumoristik novellanın böyük ustası kimi tanınmışdır.

Y.V.Çəmənzəminli mollanəsrəddinçi qələm dostlarından fərqli olaraq daha çox satiraya yox, yumora, həlim gülüşə üstünlük verirdi. O, gəncliyindən xalq taleyi ilə bağlı problemlərə maraq göstərirdi. Odur ki, deyirdi: "Mənim həqiqi peşəm Azərbaycan həyatından kiçik yumoristik hekayələr yazmaq olacaq" (1, s.28) O, ilk əsərlərindən "Molla Nəsrəddin" ədəbi məktəbindən faydalanırdı, onun mövqeyini müdafiə edirdi. Bununla belə onun hekayələri ideya – sənətkarlıq xüsusiyyətləri ilə başqalarından seçilir. Belə ki, onun satira və yumorunda da incə bir lirizm duyulur. Bu satira yalnız xalqa qarşı çıxanlara yönələndə kəskin bir xarakter alır. Çox zaman isə yumorla qovuşur. Bu hekayələr öz ideya və mövzusu, süjeti, dil və üslubu, obrazlar aləmi ilə realist ədəbiyyatımızın orijinal örnəklərindən idi.

Hekayələrdə müasir həyata ciddi maraq göstərməsinin ilk səbəbini Yusif Vəzirin realizmində axtarmaq lazımdır. Çünki realizm "artıq tək-tək mütərəqqi sənətkarların şəxsi arzusu meyli kimi deyil, zamanın sifarişi, bədii yaradıcılığının müasir anlayışı, tələbi kimi ortaya çıxmışdı" (2, s.35). Yusif Vəzir hekayələrində realizm həyatiliyi, xəlqiliyi və sadəliyi ilə səciyyələndirilə bilər. Ədibi əksər hallarda tədqiqatçılar tənqidi-realist kimi təqdim etmişlər, ancaq Yusif Vəzir tənqidi realist olduğu kimi maarifçilik dünyagörüşündən də uzaq qalmamışdır. Ədibi yalnız ifşa, tənqid yox, məhz həmin ifşa, tənqid obyektlərinin islahı, inkişafı, dəyişilməsi, müasir həyatla ayaqlaşması – ayılması düşündürürdü. Bu cəhətlər XX əsrin başlanğıcının bütün yazıçıları üçün xarakterik keyfiyyət kimi diqqəti cəlb edir. O dövrün yazıçıları, intellektual mühitin təmsilçiləri xalqımızı dünyanın qabaqcıl xalqları sırasına çıxarmaq uğrunda mübarizə aparırdılar. Bu halda, gətirmək və eyni zamanda qorumaq istədikləri keyfiyyətləri tələqin edərkən maarifçilik taktikasından da istifadə edirdilər.

Yazıçının hekayələrində müraciət etdiyi mövzular XX əsr Azərbaycan ictimai-siyasi həyatından götürülmüşdü və bu mövzular öz növbəsində hekayələrin ideyasını təyin edirdi. Avamlığın və cəhalətin, ədalətsizliyin, qadın hüquqsuzluğunun, özbaşınalığın, geriliyin tənqidi onun hekayələrinin aparıcı mövzuları hesab olunur. Lakin Yusif Vəzirin hekayələrinin ən spesiik cəhətləri bundan ibarətdir ki, hər hansı bir hekayəni çox zaman bu mövzulardan yalnız birinə aid etmək mümkün olmur. Çox vaxt bir hekayədə həyatın bir neçə eybəcər tərəfi tənqid obyektinə çevrilir.

Yusif Vəzir Çəmənzəminlinin hekayələrində millilik probleminin araşdırılması göstərir ki, bu hekayələr Azərbaycan bədii nəsrinin tərkib hissəsidir, ədəbi – bədii, estetik keyfiyyətləri ilə onu zənginləşdirmişdir.

Tənqidi realist hekayənin görkəmli ustalarından biri olan Əbdürrəhim bəy Haqverdiyev Azərbaycan ədəbiyyatında mopasanvari hekayələri ilə tanınmışdır. O da XX əsrin bir çox sənətkarları kimi fərqli cərəyanların prinsiplərinə cavab verən əsərlər müəllifidir. Bu fərqlilik Haqverdiyevin hekayə yaradıcılığında da özünü göstərir; maarifçi və tənqidi realizmə aid nümunələr kimi səciyyələnə biləcək hekayələr müəllifidir. "Atalar və oğullar" maaarifçi realizmə aid yaradıcılıq hadisəsi kimi qiymətləndirildiyi halda, "Marallarım", onun davamı olan "Xortdanın cəhənnəm məktubları" seriyalarına daxil olan hekayələri, "Mozalanbəyin səyahətnaməsi", "Şeyx Şaban", "Bomba" və s. tənqidi realizmin bariz nümunələri hesab olunur.

Molla Nəsirəddin" jurnalında çap olunmaq üçün yazılan "Mozalanbəyin səyahətnaməsi" hekayəsində Qafqaza səyahətə çıxmaq məqsədilə Tiflisdən Gəncəyə gedən, bu şəhərdə 2-3 günlük vaxt keçirən Mozalanbəyin rastlaşdığı mənzərələr - insanlar arasında kütləvi hal alan cəhalət, hamamlardakı natəmizlik, gənclərin içki və qumara meyilliliyi, Dumanın fəaliyyətsizliyi və s. kimi mənfi hallar Qafqaz müsəlman şəhərlərinin o vaxtkı vəziyyəti haqda dolğun təsəvvür yaradır.

Pristavın tapşırığını yerinə yetirib, silah saxlayan adamları axtaran Kərbəlayı Zalın "Bomba" hekayəsində gülünc vəziyyətə düşməsi, Usta Feyzullanın ailəsinə gecəyarısı "qazaq, saldat, qaradovoy"un haqsız yerə yaşatdığı qorxu ilə həm müstəmləkəçi rejimin insanların üzərindəki təzyiqini, nəzarətini, həm də xalqdan çox öz şəxsi faydasını düşünən yerli məmurların Vətən, millət hisslərinin sıradan çıxmasını açıb göstərir.

"Şikayət", "Dəccəlabad", "Yaşılbaş sona", "Qiraət" , "Pir" hekayələrində nadan, acgöz hacılar, məşədilər, kərbalayılar, mollalar, tacirlər, müəllimlər, qabiliyyətlərini faydasız işlərə sərf edən müftəxor gənclər – bir sözlə, xalqın seçilmiş təmsilçiləri yarıtmaz fəaliyyətlərinə görə tənqid olunurlar. Onların bu qabiliyyətsizliyinin və şəxsi maraq düşgünlüyünün nəticəsidir ki, xarici qüvvələrin təzyiqi altında xalq üçün faydalı ola biləcək sözləri dilə gətirməyə, lazım olan dünyagörüşünü məktəblərdə inkişaf etdirməyə qorxurlar, dərsliklərdən vətən, millət sözünü çıxarmaq istəyirlər.

Ə.Haqverdiyev bir tənqidçi realist kimi dərin qatlara nüfuz edərək bütün eybəcərlikləri əlaqələndirib sərgiləyir; qaynağı doğru müəyyənləşdirir.

Azərbaycan ədəbiyyatında tənqidi realizmin tipik cizgiləri C. Məmmədquluzadənin yaradıcılığında daha geniş yer almışdır. Görkəmli yazıçı milli məfkurəyə, əqidəyə söykənən böyük bir ədəbi məktəb yaratdı. Heç şübhəsiz ki, bu məktəbin təsir dairəsi nəinki Azərbaycan ədəbiyyatının, həmçinin Şərqin bir çox ölkələrinin ədəbiyyatınada da bəlli bir iz buraxdı. Təsadüfi deyil ki, Cəlil Məmmədquluzadə bu istıqamətdə apardığı fəaliyyətinin bir istiqaməti olan "Molla Nəsrəddin" haqqında yazırdı: "Molla Nəsrəddin"də açıq ana dili ilə yazdığımız mətalibi onlar açıqca başa düşdülər; elə asan vəchlə başa düşdülər ki, dəxi bu dildən başqa qeyri bir dil axtarmağa hacət qalmadı... Əlbəttə, bu dil ki, biz onunla "Molla Nəsrəddin"i yazırdıq, o dili biz ümum türklər üçün ədəbi bir dil hesab etmək fıkrində deyildik və bu da bizə heç lazım deyil. Bizim məqsədimiz hal-hazırda öz fikrimizi asan bir dillə Azərbaycan türklərinə və bəlkə də sairə türklərə asan bir dillə yetirmək idi. Və zənn edirəm ki, yetirdik də... Çün, hərənin bir məqsədi və şüarı olan kimi bizim də şüarınız dil yaratmaq deyildi, ancaq

dərdi-dilimizi hal-hazırda camaat başa düşən dildə ona yetirmək idi" (7, s.37). Yusif Vəzir etnoqrafik hekayələri, Əbdürrəhim bəy Haqverdiyev hadisə- sərgüzəşt hekayələri ilə diqqət cəlb edirsə, Cəlil Məmmədquluzadə daha çox vəziyyətlərdə modelləşdirmə ustalığına görə yadda qalır və əsasən, kiçik hekayələrə üstünlük verirdi. Molla Nəsirəddin jurnalında hekayə janrına geniş yer verilirdi. Bu sahədə aparıcılıq Cəlil Məmmədquluzadə və Əbdürrəhim bəy Haqverdiyevə aid idi. " ... Müasir həyat və məişətdən bəhs edən kiçik hekayə, realist bir janr olaraq, mətbuatda çox nəşr olunur və oxucunun hörmətini qazanırdı" (9, s.75).

Azərbaycanda hekayə janrının təməllərinin möhkəmlənməsində, tənqidi realist hekayənin inkişafında müstəsna xidmətləri ilə seçilən Cəlil Məmmədquluzadə öz yaradıcılığı ilə ədəbiyyat ənənələrini sənətkarlıqla inkişaf etdirmiş və orijinal əsərləri ilə mədəniyyət tarixinin klassikləri arasında yer qazanmışdır. O, insanın sosial mühitlə əlaqələrini, cəmiyyətdəki yerini, maddi-mənəvi imkanlarını bir neçə günlük həyat tarixində əksini tapan xüsusi vəziyyətlərdə əks etdirir. İlk baxışda yaşanan hadisələr çox sadədir və ya sadəlik təsiri bağışlayır. Əslində isə təsvir olunan vəziyyət qəhrəmanın ədəbi xarakteristikasıdır. O, qısa bir zamanda nümayiş etdirdiyi davranış modelinə nəinki özünün, özü qəbildən olan təbəqənin təmsilçilərinin mahiyyətini, imkanlarını, arzu və istəklərini, daha geniş miqyasda xalqının vəziyyət və taleyini sığışdırır. Cəlil Məmmədquluzadə realizminin imkanları və hüdudlarının genişliyi onu bu sahədə tanınmış dünya yazıçıları ilə bir sıraya gətirir.

1903-cü ilin 12 noyabrında "məşhur "Poçt qutusu" hekayəsini bitirmiş" (4, s.37), onda nümayiş etdirdiyi sənətkarlıq istedadını bütün yaradıcılığı boyu davam və inkişaf etdirmişdir. O, hekayələrində modernizmə aid elementlərə yer versə də, yaradıcılığının başqa sahələrində olduğu kimi hekayəçiliyində də dominantlıq tənqidi realizmə aiddir. Modelləşdirilən vəziyyətin konkret zaman və məkana aidliyi, tarixiliyi, hadisələrin təqdimi ilə cəmiyyətin qüsurlarına işıq tutulması Cəlil Məmmədquluzadə hekayələrindən tənqidi realizmə aid yaradıcılıq hadisəsi kimi bəhs etməyə əsas verir.

Cəlil Məmmədquluzadə yaradıcılığının əsas qaynağın həyat, dövr, mühit, xalq və millətlə bağlı problemlər idi. Yaradıcılığının əsas qəhrəmanı Azərbaycan idi. Hekayələrində rastlaşdığımız ayrı-ayrı şəxslər sanki bir vücudun – Vətənin parçaları idi ki, Cəlil Məmmədquluzadə onların xəstəliyinin dərdini çəkirdi. "Ax unudulmuş Vətən, ax yazıq Vətən!

Tənqidi realistlərin toxunduğu hər hansı problem maarifçiliklə çox yaxındır. Bu isə təbiidir. Çünki hər ikisi eyni metodun prinsipləri əsasında formalaşan cərəyanlardır. İkinci yaxınlaşma səbəbi isə onunla bağlıdır ki, tənqidi realizm Azərbaycan ədəbiyyatında mükəmməl bir inkişaf yolu keçən maarifçi realizmin ənənələri üstündə formalaşmışdır. ""Molla Nəsrəddin" ədəbi məktəbinin yaranması ilk növbədə Azərbaycandakı Qərbyönlü maarifçilik hərəkatının məntiqi nəticəsi idi." (10)

Tənqidi realist hekayədə romantizmlə də ortaq görünə biləcək əlamətlər mövcuddur. Bu, özünü fərqli metodlarda yazan müəlliflərdə göstərməklə bərabər, eyni zamanda, Cəlil Məmmədquluzadənin də hekayələrində nümayiş etdirir. Romantizm üçün xarakterik olan kədər və pozulmuş harmoniyaya etiraz motivi tənqidi realizmdə də özünü göstərir. Lakin Cəlil Məmmədquluzadə yaradıcılığında üsyan və etiraz satirik xarakter daşıyır, buna görə də kədər alt qata keçir, üzdə olansa, gülüşdür.

Nəticə. Cəlil Məmmədquluzadə, eləcə də digər tənqidi realistlər hekayə sənətkarlığında milli folklor və klassik Şərq, divan ədəbiyyatı ənənələrindən gəlmə elementlərdən də ustalıqla yararlanmışlar. Ənənələrlə bağlı yaddaş qatı onların yaradıcılığında öz irsi funksiyasını lazımi səviyyədə icra edir.

Ədəbiyyat

1. Çəmənzəminli Y.V. Keçmiş səhifələr. Bakı işçisi kooperativ nəşriyyatı, 1926
2. Əlimirzəyev X. Problemlər və xarakterlər dramaturgiyası. Bakı: Yazıçı, 1979
3. Əliyev Rəhim Ədəbiyyat nəzəriyyəsi Bakı: Mütərcim, 2008, 360 s.

4. Həbibbəyli İ. XX əsrin əvvəlləri Azərbaycan yazıçıları. Bakı: Nurlan, 2004, 160 s.
5. Həbibbəyli İ. Kiçik hekayə janrı novella // "Ədəbi – tarixi yaddaş və müasirlik. Bakı: Nurlan, 2007, s. 502-508
6. Köçərli Firudin bəy. Seçilmiş əsərləri. Bakı: Azərbaycan SSR EA, 1963, 341 s.
7. Məmmədquluzadə C. Əsərləri, II c. Bakı: Öndər, 2004
8. Məmmədov Ə. Azərbaycan bədii nəsrinin janr-üslub təkamülü (XIX-XX əsrlər). Bakı: Elm, 2004, 264 s.
9. Məmmədov K. Əbdürrəhim bəy Haqverdiyev. Bakı: Gənclik, 1970, 198 s.
10. https://www.ens.az/.../isa-hebibbeyli-mollanesreddincilik-teli.

M.M.Гулиева

Основные проблемы общества и личности в критически-реалистической повести

Резюме

Выделяющиеся своими исключительными заслугами по укреплению основ жанра повествования, развитию критической реалистической повести в Азербайджане Дж. Мамедгулузаде, Ю.В. Чеменземенли, А. Агвердиев и другие своими творениями умело развили литературные традиции и своими оригинальными произведениями заняли свое место среди классиков истории и культуры.

Критический реализм - это не копирование реального мира, а его переоценка одним очевидным философским взглядом. Чем больше писатель глубоко усваивает и ценит реальный мир, тем больше он может преуспеть в своем творчестве. В этом смысле критический реализм требует у мастера широкого и совершенного философского взгляда.

Повести, созданные Дж. Мамедгулузаде, А. Агвердиевым, Ю.В. Чеменземенли и другими критическими реалистами, были художественными образцами, которые привели к национально-духовному возрождению в начале 20-го века и оказали значительное влияние на рост реалистической литературы и национальной прозы Азербайджана.

M.M.Guliyeva

The main problems of society and individual in critical realistic story

Summary

J.Mammadguluzada, Y.V.Chamanzamanli, A.Hagverdiyev and others who are distinguished for his exclusive services in strengthening the fundamentals of story genres in Azerbaijan and in the development of critical-realist stories had developed literature traditions skillfully with their activities and taken a place among the classics of cultural history with their original works.

Critical realism is not to copy the real world, but to revaluate it with an obvious philosophical view. How much more deeply a writer masters and appreciates the real world; he/she can achieve more success in his/her activity. Meanwhile, critical realism demands excellent and broad philosophical view from a master.

The stories developed by J.Mammadguluzada, A.Hagverdiyev, Y.V.Chamanzamanli and other critical realists were artistic examples which pave the way for the national-spiritual renaissance in the beginnings of XX century and they affected seriously the progress of Azerbaijani realist literature and our national prose.

Rəyçi: filol.e.d., prof. T.Məmməd

Redaksiyaya daxil olub: 28.09.2019

S.X.QURBANLI
e-mail: squrbanlis@mail.ru

Azərbaycan Dillər Universiteti
(Bakı şəh., R.Behbudov küç., 60)

NAVARR SKOTT MOMADEYİN "YAĞIŞ DAĞININ YOLU" VƏ NƏRİMAN HƏSƏNZADƏNİN "NABAT XALANIN ÇÖRƏYİ" ƏSƏRLƏRİNDƏ OXŞAR MOTİV VƏ SÜJETLƏR

***Açar sözlər**: milli mənşə, keçmişə qayıdış, mif və folklor, xatirələr*
***Ключевые слова:** самопознание, возвращение к прошлому, миф и фольклор, воспоминания*
***Key words:** national origin, returning to past, myth and folklore, memories*

Dünya ədəbiyyatının bir çox nümayəndələrinin həyat və yaradıcılığı ilə tanış olduqda bir-birindən tamamilə fərqli mühitlərdə və fərqli zaman kəsiklərində yaşayıb-yaratmış müəlliflərin həm şəxsi həyatı, həm də ədəbi fəaliyyəti arasında maraqlı oxşarlıqlar üzə çıxır. Buna səbəb isə ədəbiyyatın gəzərgiliyidir. Hələ XIX əsrin ikinci yarısında yaranmış müqayisəli-tarixi metodun prinsiplərini müəyyənləşdirmiş dahi alman mütəfəkkiri Teodor Benfey bu barədə demişdir: "Süjetdə və bədii motivdə gəzərilik, bir ədəbiyyatdan o birinə keçid daxili bədii özünə məxsusluqdur" (1, s.82). Həqiqətən də tədqiqata cəlb olunmuş müəlliflərin yaradıcılıqları bir xalqın ədəbiyyatından digər xalqın ədəbiyyatına ideya və süjetin, obraz və variantın keçməsinin bədii qanunauyğuluq olduğuna əyani sübutdur.

Çağdaş yerli Amerika ədəbiyyatında "Tay-meyə səyahət" ("*The Journey of Tai-me*", 1967), "Şəfəqdən yaranan ev" ("*House Made of Dawn*", 1968), "Yağış dağının yolu ("*The Way to Rainy Mountain*", 1969) və s. əsərləri ilə yeni cığır açmış görkəmli yazıçı N.S.Momadeyin və müasir Azərbaycan ədəbiyyatının "Pompeyin yürüşü" ("*Pompeii's march*", 1995), "Nabat xalanın çörəyi" ("*Aunt Nabat's bread*", 1986), "Atabəylər" ("*The Atabegs*", 1984) və başqa əsərləri ilə tanınan məşhur nümayəndəsi N.Həsənzadənin yaradıcılıqları bu qəbildən olan nümunələrdəndir. Onların yaradıcılığını araşdırarkən hər iki müəllifin ədəbi irsinin əsasında milli özünüdərk, öz doğma millətinin keçmişinə qayıdış, milli mədəniyyətinin təbliği, qədim əfsanə, rəvayət və miflərinə müraicət kimi xarakterik xüsusiyyətlər müşahidə olunur. Hər iki müəllif demək olar ki, əksər əsərlərində keçmişlə bağlı məqamlardan istifadə etmiş, öz yaradıcılıqlarında tarixi əsərlərə ayrıca yer vermişlər. Sözügedən müəlliflər öz doğma xalqlarının şifahi ədəbiyyatına xüsusi diqqət yetirmiş, onu müasir dünyanın problemləri baxımından yenidən nəzərdən keçirmişlər.

Bəşər sivilizasiyasının dünyanı ilkin dərkinin obrazlı, bədii ifadəsi sayılan mif, hər bir xalqın milli şüurunda, genetik kodunda özünün silinməz izlərini buraxmışdır. Bu səbəbdəndir ki, yaranışından uzun bir zaman məsafəsinin keçməsinə baxmayaraq, hər bir xalq üçün onun mifik təfəkkürü və mif yaddaşı həmişə aktuallığını qoruyub saxlayır. Mifə yenidən müraciət, mifin yenidən rekonstruksiya edilərək müasir dünyanın problemlərinə uyğun şəkildə dərk olunması həm müasir amerikan, həm də Azərbaycan ədəbiyyatında özünü büruzə verir. Bu mənada N.S.Momadeyin hindu xalqının, N.Həsənzadənin isə Azərbaycan xalqının qədim şifahi xalq yaradıcılığı nümunələrinə – miflərə, əfsanələrə, rəvayətlərə müraicəti təsadüfi deyildir. Hər iki müəllif öz xalqının adət-ənənəsi, qədim mədəniyyəti ilə bilavasitə yaşlı ailə üzvləri vasitəsilə tanış olurlar. N.S.Momadey doğma xalqı Kayovalılar haqqındakı bütün biliklərini nənəsi Ahodan öyrənmişdir. Nənəsi ona uşaqlıqdan Kayovalıların bir çox miflərini, rəvayət və əfsanələrini danışmışdı. N.Həsənzadə isə Azərbaycan şifahi xalq ədəbiyyatı nümunələrini anası Nabatdan dinləyərək öyrənmişdir. N.S.Momadeyin "Yağış dağının yolu" və N.Həsənzadənin "Nabat xalanın çörəyi" əsərləri bu baxımdan daha səciyyəvidir.

Hər iki əsər eyni şəkildə – müəllifin dilindən nəql olunur və onların ikisi də baş obrazların xatirələri üzərində qurulmuşdur. Hər iki əsərdə süjet-əhvalat prinsipi qorunmuşdur, yəni sözü gedən əsərlərdə hadisələrin axarında müəyyən bir süjet, hərəkət xətti vardır. Bu hadisələrdən əlavə müəyyən bir əhvalata aparıb çıxaran xatirələr mövcuddur. Əsərlərin gedişində paralel şəkildə yeri gəldikcə süjet xəttindən çıxıb, hər hansısa mifdən, rəvayətdən danışılır. Lakin hər iki müəllifin ustalığı da elə burasındadır ki, süjet-əhvalat paralelini uyum içərisində verməyə müvəffəq olmuşlar.

Araşdırmaya cəlb olunmuş əsərlərdəki rəvayətlərdə bir çox oxşar motiv və süjetlərə rast gəlinir. Hər iki əsərdə qardaşlıq mövzusu öz əksini tapmışdır. "Yağış dağının yolu"nda iki qardaşın hekayəti nəql olunur. Qış səbəbindən aclıq çəkən qardaşlardan biri səhər çadırın qabağında ət tapır və yeməyə başlayır. Lakin digər qardaş isə ona mane olmağa çalışır. Bu haradan gəldiyi bilinməyən ətdən fayda gəlməyəcəyini desə də, qardaşı onu eşitmir və əti yeyir. Elə həmin andaca qardaşı bədəninin dəyişildiyini və bir su heyvanına çevrildiyini görür. O, qardaşına haqlı olduğunu, onu dinləmədiyi üçün yanlış etdiyini etiraf etsə də, artıq gec olur. "Nabat xalanın çörəyi"ndə isə iki qardaşın aclıqdan xilas olmaq üçün çıxış yolunu oğurluq etməkdə görməsi hadisələrin gedişatını dəyişir. Qardaşlardan biri, digərini qonşudan əvvəl yumurta, toyuq sonra at oğurlamağa məcbur edir. Lakin yaxalanır və edam olunmağına qərar verilir. Edamdan öncə o, son istəyi olaraq qardaşının dilindən öpmək istədiyini deyir: "O dil mənim atam olub, nəsihət verib. Anam olub, yalvarıb. Qardaşım olub, danlayıb. Bacım olub, ağlayıb..." (2, s.32). Lakin ardıyca o özünün həmin dilin badına getdiyini və onun təhrikiylə oğurluq törətdiyini əlavə edərək qardaşının dilini dişləyib qoparır. Beləliklə, hər iki əsərdə qardaşlar aclıq çəkir, çıxış yolunu yanlış yollarda tapır, səhv addım atan qardaş isə öz cəzasını alır.

Həmçinin, bu əsərlərdə qadın problemi də diqqəti cəlb edir. N.S.Momadeyin əsərində gözləri kor olmuş kişi və onun qadını haqqında maraqlı mif yer alıb. Bir gecə kor kişinin çadırına bufalolar hücum edir. Kor olmasına baxmayaraq o, mahir atçı idi. Ona görə də arvadının köməyilə oxla düzgün nişan alaraq bufalonu vurur. Lakin qadın ərini aldadaraq, ona bufalonu vura bilmədiyini deyir. Özü isə bufalonu bişirərək oğlu ilə birlikdə yeyir. Sonra isə ərini ac qoyaraq evi tərk edir. Bir neçə gün sonra qonşu qəbilədən biri kor kişini tapır və öz qəbiləsinə aparır. Orada arvadının səsini tanıyan kişi onu ifşa edərək əsil həqiqəti açır və nankor qadın qəbilə tərəfindən cəzalandırılaraq oradan qovulur. N.Həsənzadənin əsərində isə qadına qara yaxılmağından söhbət açılır. Qonşu kəndə köçmüş təzə gəlin öz donunu yuyub qurumağa qoyur. Lakin həmin ərazidə otlayan bir inək qadının donunu yeyir. Xəbər gəlinin qaynatasına çatır. O gəlinini əxlaqsızlıqla günahlandırır və onu qəddarcasına öldürür. Lakin ertəsi gün həqiqət ortaya çıxır. Kənd əhlindən bir nəfər inəyinin köpüb öldüyünü və ağzından bez parçası çıxdığını deyir. Kişi necə yanlış iş gördüyünü anlasa da, onun peşmançılığı heç bir fayda vermir. Göründüyü kimi, hər iki əsərdə yanlış hərəkətinə görə cəzalandırılan qadın obrazına rast gəlirik. Lakin Momadeyin əsərində qadın həqiqətən cəzaya layiqdirsə, ikinci əsərdəki qadın tamamilə günahsızdır. Bu əsərlərdə üst-üstə düşən məqam isə iki fərqli cəmiyyətdə qadının müəyyən etik-əxlaqi dəyərlərin daşıyıcısı olmasına işarədən ibarətdir.

Peşəkar, öz ixtisasına yaxşı bələd olan insan obrazları da hər iki əsərdə yer almışdır. "Yağış dağının yolu" əsərində mahir bir ovçudan danışılır. Bir gecə ovçu yoldaşı ilə çöldə ox hazırlayarkən gizlində izləndiyini hiss edir. Heç nə olmamış kimi oxunu düzəltməyə davam edir. Təhlükənin sovuşmadığını hiss edən ovçu qaranlığa səslənir: "Orada, çöldə olduğunu bilirəm, çünki üzərimdəki gözlərini hiss edirəm. Əgər sən bir Kayovalısansa nə dediyimi anlayarsan və adını deyərsən." (3, s.54). Səs-səmir gəlməyincə adamın düşmən olduğunu dəqiqləşdirən ovçu qəfildən oxunu onu izləyənə tərəf çevirərək atır və adamı öldürür. Ovçu mahir atıcılıq qabiliyyəti və zəkası ilə ailəsini qurtarmağı bacarır. "Nabat xalanın çörəyi" əsərində isə bir dəlləyin peşəsinə sadiqliyindən danışılır. İllərdir kəndin bəyinin saçını və üzünü qırxan dəllək ilə bəyin qohumları arasında münaqişə baş verir və nəticədə dəlləyin ailə üzvündən biri

ölür. Ailəsi ondan tökdükləri qanın əvəzini alması üçün bəyi öldürməyini tələb edir. Dəllək isə belə bir addım atmağı özünə sığdırmır. Bəy isə tikan üstündə oturub, çünki dəlləyin növbəti gəlişində onu öldürəcəyindən narahatdır. Dəllək bəyin boynuna çatanda ülgücü onun boynuna yaxınlaşdırmaq istəyir, lakin o bunu öz peşəsinə xəyanət kimi qəbul etdiyi üçün bu addımdan əl çəkir. Lakin keçirdiyi narahatlıq və Şekspirsayağı "olum, yoxsa ölüm" dilemması qarşısında qalmağı nəticəsində ürəyi partlayıb ölür. Peşəsini həqiqətən sevən və sənətinə xilaf çıxmamaq naminə düşmənini öldürə bilməyən, işi ilə şəxsi həyatını qarışdırmayan peşəkar dəllək və düşməndən ailəsini qurtaran mahir ovçu obrazları hər iki əsərdə olduqca parlaq və inandırıcı alınmışdır.

Həm N.S.Momadeyin, həm də N.Həsənzadənin əsərində insan-heyvan münasibətlərinə xüsusi yer verilmişdir. Qədim dövrlərdən bəri insanlar və heyvanlar arasında daim bağlılıq və yaxşı qurulmuş münasibətlər olmuşdur. Sözü gedən əsərlərdə də insanlara yardım edən, onları düzgün yola çəkən heyvan obrazları ilə rastlaşırıq. Momadeyin əsərində bir kişi özünə yemək tədarükü görmək üçün meşədə ov edir. Bir it ona yaxınlaşıb düşmənlərin yaxınlaşdığını xəbər verir. Kişi isə özünü müdafiə edəcək heç nəyi olmadığını deyir. İt kişiyə ac balalarını doyurmağı müqabilində onu xilas edə biləcəyini söyləyir. Onlar razılaşırlar və it ara yollarla kişini xilas edir. N.Həsənzadənin əsərində isə bayquş və Süleyman peyğəmbərin macərasından söhbət açılır. Bir gün ov zamanı gözəl bir qadınla qarşılaşan Süleyman ona vurulur. Süleyman peyğəmbər qızın ardınca mağaraya daxil olanda yaşlı bir qarı ilə rastlaşır. Qarı ona qıza qovuşmağın müqabilində bütün quşların ətindən hasar çəkdirib sümüklərindən qala tikdirməyi buyurur. Peyğəmbər razı olur və bütün quşları bir yerə yığır. Yalnız bayquş gəlmir və üç sualına düzgün cavab verərsə gələcəyi şərtini qoyur. Peyğəmbər onun əxlaqi, hikmətli suallarının heç birinə cavab tapa bilmir və bayquş vasitəsilə qəflət yuxusundan oyanıb, yalnış yoldan dönür. Beləliklə, hər iki heyvan – it və bayquş insanların xilaskarı rolunda təsvir olunurlar.

Əlbəttə, məhəbbət mövzusu da bu əsərlərdən yan keçməmişdir. "Yağış dağının yolu"nda bir-birlərini sevən iki gəncin başına gələnlərdən danışılır. Başqa kişi ilə evli olan qadın yaraşılıqlı bir gənclə qoşulub qaçır. Lakin əri onları tapır və gənc oğlanı evdən çıxdığı zaman oxla vurub yaralayır. Ağır yaralı olan gənc bütün gücünü toplayıb onlara mane olmağa çalışır və çətinliklə də olsa bunu bacarır. O sevdiyi qadın ilə çox uzaq yerlərə köçərək vüsala çatır. "Nabat xalanın çörəyi"ndə is bir-birlərini sevən gənclərin nakam məhəbbətdən söhbət açılır. Qızı başqa bir bəy qaçırır. Xəbəri eşidən oğlan dərhal bəyin evini basır. Lakin bəy gənc oğlanı sevdiyinin gözləri önündə amansızcasına öldürür. Qadın illərlə gizlin şəkildə sevdiyinin məzarını ziyarət edir. Bir gün qadının əri düşmənlər tərəfindən öldürülür. Qadın ərinin qanından başına yaxaraq son dəfə sevgilisinin məzarına gəlir və onun məzarı üstündə özünə qəsd edir. Beləliklə sevən qəlblər o biri dünyada qovuşub, vüsala çatır. Hər iki əfsanədə qadının qaçırılması, eyni qadını sevən iki kişinin qarşılaşması, sevənlərin ayrı düşməsi, lakin nəticə etibarilə qovuşmaları təsvir olunmuşdur.

Dünyanın harasında yaşanmasından asılı olmayaraq göz yaşının rəngi eynidir. 23 yaşında ikən anasını itirən və bütün yaradıcılığı boyu bu nisgili qəlbində gəzdirərək əsərlərində əks etdirən Nəriman Həsənzadənin və ona öz milli kimliyinin dərk olunmasında böyük yardım edən nənəsinin xatirəsini həmişə əziz tutan, doğma xalqının keçmişinin unudulmaqda olduğunu ürək ağrısı ilə əsərlərinin sətirlərinə köçürən Navarr Skott Momadeyin keçirdikləri hisslər müəyyən mənada eynidir. Və bu eyniyyət onların yaradıclıqlarında bir çox oxşar cəhətlərin ortaya çıxmasına səbəb olmuşdur.

Ədəbiyyat

1. Hacıyev A. Ədəbiyyatşünaslığın əsasları. Bakı, ADPU, 2005.
2. Həsənzadə N. Nabat xalanın çörəyi. Bakı, Gənclik, 1986.
3. Momaday N.S. The Way to Rainy Mountain. University of New Mexico Press, 1976.

4. http://anl.az/el/emb/N.Hesenzade/books/books_hn/hn_se4c.pdf
5. http://anl.az/down/meqale/525/2011/may/cm18.htm

С.Х.Гурбанлы

Аналогичные мотивы и сюжеты
в произведениях Н.С. Момадея «Путь к горе дождей»
и Н.Гасанзаде «Хлеб тётушки Набат»
Резюме

Статья посвящена сопоставлению романов Н.С.Момадея «Путь к Горе Дождей» и «Хлеб тётушки Набат» Н.Гасанзаде. В этих произведениях есть такие схожие темы, как любовь, дружба, человечность, люди и животные, женская свобода, профессиональность. Авторы показывают образцы фольклора своего народа в этих произведениях. Оба произведения высоко отцениваются читательской аудиторией.

S.Kh.Gurbanli

The similar motifs and plots
in N.S.Momaday's "The Way to the Rainy Mountain"
and N.Hasanzadeh's "Aunt Nabat's Bread" works
Summary

The article deals with the comparison of N.S.Momaday's "The Way to the Rainy Mountain" and N.Hasanzadeh's "Aunt Nabat's bread" novels. There are some similar themes like love, friendship, humanity, human and animals, women's freedom, professionalism in these works. Authors try to collect folklore of their nationality. Both works are highly appreciated by readers' audience.

Rəyçi: filol.f.d. G.M.Hüseynli

Redaksiyaya daxil olub: 30.09.2019

S.RƏSULOVA
pedaqogika üzrə fəlsəfə doktoru

Azərbaycan Dövlət Pedaqoji Universiteti
(Bakı şəh., Ü.Hacıbəyov küç., 68)

MAARİFÇİ-REALİST UŞAQ POEZİYASINDA MAARİFƏ, MƏKTƏBƏ VƏ ELMƏ ÇAĞIRIŞ İDEYALARI

Açar sözlər: *Azərbaycan ədəbiyyatı, uşaq ədəbiyyatı, maarifçi-realizm, maarif, məktəb, elm*
Ключевые слова: *Азербайджанская литература, детская литература, просветительский реализм, образование, школа, наука*
Key words: *Azerbaijani literature, children's literature, enlightenment-realism, education, school, science*

Azərbaycan uşaq ədəbiyyatının təşəkkül dövrü, ilkin və nəhayət, yetkin inkişaf mərhələsi kimi xarakterizə olunan XIX əsrin II yarısı və XX əsrin əvvəlləri onun geniş mənada axtarışlar dövrüdür. Bu axtarışlar ədəbi forma, şəkil və janrlardan, dil-üslub xüsusiyyətlərindən tutmuş mövzu, ideya, obrazlar aləmi, sənətkarlıq məziyyətləri və s.-ə qədər rəngarəng məsələləri əhatə edir. Uşaq yazıçı və şairləri geniş mənada düşünməli olurlar: nədən, necə, hansı janr və bədii formada, hansı mövzuda yazmaq, hansı ideyaları təbliğ etmək, hansı obrazları sənətə gətirmək, kiçik oxucuların zövq və maraqlarını necə təmin etmək?

Əlbəttə, axtarışlar kifayət qədər səmərəli olur, qarşıya qoyulan məqsəd tədricən reallaşmağa başlayır. Poeziyada sənətkarlar "kiçiklər üçün" əsərlər yazarkən həm klassik poeziyanın, həm də folklorun ədəbi forma, janr və şəkillərinə müraciət edirlər. Hətta bəzən yeni ədəbi forma və janrlara da əl atırlar. Bunların içərisində aşağıdakı çeşidli ədəbi forma və janrlara rast gəlmək mümkündür: qəzəl, mürəbbe, müxəmməs, müsəddəs, müstəzad, dördlük (mürəbbedən fərqli), beşlik (müxəmməsdən fərqli), altılıq (müsəddəsdən fərqli), gəraylı, qoşma, nəğmə, mahnı, bayatı, məsnəvi və s. Bəzən bu janrlara daxil olmayan beşhecalı, altıhecalı, yeddihecalı rəngarəng qafiyə sisteminə malik lirik şeirlərdən, hətta çarpaz qafiyəli poetik nümunələrdən də istifadə olunur.

Mövzu və ideya axtarışlarına gəldikdə uşaq ədəbiyyatında yenə bir rəngarənglik və əlvanlıq müşahidə olunur. Daha doğrusu, böyüməkdə olan nəslin mütaliəsi üçün yaradılan söz sərvəti nümunələri bir sıra mövzu və ideya istiqamətlərini özündə ehtiva edir. Bunlardan aparıcı və daha qabarıq nəzərə çarpanları aşağıdakılardır: maarifə, məktəbə, elmə çağırış; vətənpərvərlik, humanizm, mənəvi-əxlaqi kamillik və saflıq; insani keyfiyyətlərin təbliği; əməyə, təbiətə məhəbbət; dini ideyaların təbliği; məişət və ictimai mühitin təsviri və təqdimi; milli birlik idealı; hürriyyət və müstəqillik arzuları və s.

Uşaq ədəbiyyatında aparıcı mövzulardan biri maarifə, məktəbə və elmə çağırış idi. Əlbəttə, bu səbəbsiz deyildi. Azərbaycan realizminin görkəmli tədqiqatçılarından Y.Qarayev həmin həqiqətin mahiyyətini açıb göstərərək belə bir doğru qənaətə gəlir: "Teatr və mətbuat səviyyəsində məktəb də maarifçiliyin əsas ideya-əməli iş silahına çevrilir və milli tədris hərəkatı milli ədəbi inkişafa güclü təsir göstərməyə başlayır. Beləliklə, Axundovun maarifçi bədii irsi və estetikası maarif və məktəb hərəkatına ilham verdiyi kimi, sonradan bu hərəkat da öz növbəsində maarifçi realizmin inkişafı üçün yeni təkan olur" (6, s.122).

Mütərəqqi fikirli Azərbaycan ziyalıları aydın dərk edirlər ki, böyüməkdə olan nəslin zamanın "təqazası"na, dövrün tələbinə uyğun tərbiyəsi ilk növbədə "maarif nuru"na bağlıdır. M.Hadinin "Dəbistan" jurnalında (1906, №8) işıq üzü görən "lövheyi-təsviri-məarif" şeiri haqqında danışdığımız dövrdə milli münəvvərlərimizin, qələm sahiblərinin maarifə, onun əhəmiyyətinə baxışını dolğun şəkildə ümumiləşdirir. Vətən övladına müraciətlə yazılmış poetik nümunədə maarifin əhəmiyyəti və dəyəri bu cür bədii təcəssümünü tapır:

Vətən övladı! Ha qeyrət qılın təhsili-ürfani,
Qalan mənaydır ancaq, bu nəqş, əlbət, olur fani.
Maariflə olur nail bəşər hər dürlü amalə.
Maariflə edər ehrazi-şövkət növi-insani.
Maarif bir həqiqətdir, silər mirati-idrakı,
Maarif bir ziyadır kim, qılar tənvir vicdani.
Maarif vaqif eylər şəxsi-əsrari-xəfayayə,
Maarif kəşf edər insanə mənizari-imkani.
Maarifsiz olardı sirri-xilqət cümlə əfsanə,
Maarif kəşf qıldı aləmə əsrari-pünhani.
Maarifsiz cahanda qabil olmaz bəxtiyar olmaq,
Maarif bir səadətdir edər məsud insani. (5, 10)

Şairə görə maarif bəşər övladını böyük amallara çatdıran nurlu yoldur. İnsanın idrak güzgüsünü cəhalətdən, kəsalətdən, rəzalətdən təmizləyib onu şövkətə və insanlığa qovuşdurar. Onun vicdanını saflaşdırıb nura boyayar, bəndəni dünyanın gizli sirlərindən xəbərdar edər, varlığın həqiqi mənzərəsini anladar, onu idraksızlıq və əqli cəhalət zülmətindən qurtarıb bəxtiyarlığa, səadətə çatdırar. İnsana ağıl, kamal, şərəf, ədəb və ürfan bəxş edər. Bəşərin, insanlığın dirçəliş və tərəqqisi, mədəni yüksəlişi, vəhşətdən qurtuluşu yalnız maarif və elmlə mümkündür. Maarifsiz bir qövm və ya insan qaranlıq səhrada azan çarəsiz yolçuya, yaxud kimsəsiz kora bənzəyər. Zülmün, ədalətsizliyin binası cəhalətlə bərbad olduğu kimi, maarifin gücü ilə abad olar.

Deyilən bu fikirlər, təbii ki, bütövlükdə maarifçiliyin əsas ideya-məfkurəvi kodeksinə daxil olan tezislərdən idi. Bizim uşaq ədəbiyyatımızda da bu tezislər ardıcıl şəkildə müdafiə edilirdi.

Əlbəttə, "maarif nurunu" qığılcımlandıran və şölələndirən ilk, həm də ən mötəbər ocaq məktəb idi. Elə buna görə də qələm sahibləri məktəbi maarif, təhsil və tərbiyə məkanı kimi ciddi surətdə tərifləyir və təbliğ edirdilər. Poeziyada mütərəqqi təmayüllü məktəb və dərs davamlı şəkildə mövzu obyektinə çevrilir, tərənnüm edilirdi. Bilavasitə məktəb mövzusunda yazılmış poetik nümunələrə tez-tez rast gəlmək mümkün idi. Uşaq ədəbiyyatımızın Birinci rus inqilabına qədərki inkişaf mərhələsində bu mövzuda qələmə alınmış şeirlərdən müəllifi göstərilməyən "Nəsihət" (2), H.Qaradağinin "Uşaqları məktəbə şövqləndirmək", "Uşaqlar" (2), M.T.Sidqinin "Məhəmmədəliyə nəsihət", "Məktəbdə", "Dərsə diqqət" (12, 21, 23, 24), Abbas ağa Nazirin "Məktəb", "Nəsihət" (1, 565-566), R.Əfəndizadənin "Məktəbə dəvət", "Nəsihət", "Məktəb nəğməsi" (4, 32, 34, 42), H.M.Möhsünzadə Nasehin "Tərifi-məktəb", "Təğribi-ətfali-məktəb", "Fəziləti-məktəb" (14, 7, 9, 16) və s. nümunələri göstərmək olar.

İstər burada adını çəkdiyimiz, istərsə də az sonra xatırladacağımız bu mövzudakı nəzm örnəklərinin bəzilərinin sərlövhəsi bilavasitə məktəblə bağlılığı bariz şəkildə təzahür etdirsə də, bəzi şeirlərin adı sadəcə olaraq "Nəsihət" kimi verilir. Maraqlıdır ki, bu nəsihətlərdə mənəvi-əxlaqi təlqinlər, didaktik öyüdlər yox, bilavasitə uşaqları məktəbə çağırış, dərsə maraq oyatmaq və yaxşı oxumaq barədə bədii təşviqat və müraciətlər yer alır. Bu, onunla bağlıdır ki, qələm sahibləri maarif, məktəb və dərsi düzgün, dürüst təlim və tərbiyənin, kamil və elmli şəxsiyyət, vətəndaş yetişdirməyin ilkin şərti sayırlar.

Məktəb mövzusunda yazılmış şeirlərin ahəng və intonasiyası daha çox ya şairin bilavasitə özünün, ya da valideynin (şair şeiri valideynin dilindən verir) övlada xitabı üzərində qurulur. Bəzən də şair bilavasitə öz övladına müraciət edib məktəb və elmin faydasını ona başa salır. Məsələn, S.Ə.Şirvani bu tipli xeyli lirik əsərini oğlu Mircəfərə xitabən yazmışdır. M.T.Sidqinin "Məhəmmədəliyə nəsihət" məsnəvisi Ə.Müznibin "Sibiriya məktubları" silsilə şeirləri də belə bir ahəng üzərində köklənmişdir. M.T.Sidqinin əsərlərini toplayıb nəşr etdirən İ.Həbibbəyli haqlı olaraq yazır: "Sənətkarın uşaqlar üçün yazdığı şeirlər, əsasən, tərbiyəvi məzmunda olan öyüdnamələrdən ibarətdir. Bu öyüdnamə və nəsihətlərdə S.Ə.Şirvaninin

maarifçi şeirlərinin poetik ənənələri davam etdirilmişdir. Seyid Əzimin öyüdnamələri oğlu Cəfərə, M.T.Sidqinin nəsihətləri isə oğlu Məhəmmədəliyə müraciətlə yazılmışdır. Lakin bu şeirlər bütövlükdə böyüməkdə olan yeni nəslə poetik xitab təsiri bağışlayır. M.T.Sidqinin "Oğlum Məhəmmədəliyə nəsihət" şeirindəki maarifçi-poetik düşüncələr geniş mənada gənc nəsillər üçün faydalı öyüdnamələrdən yoğrulmuşdur:

Nə qədər ki, var əlində fürsət,
Dərsinə eylə hər zaman diqqət.
Yetişibdir zəmani-elmi ədəb.
Mənzilin eylə guşeyi-məktəb.
…Dinü dünyanı elm edər abad,
Özünü eylə cahildən azad.
Ruzigarun keçirmə qəflətlə,
Elm təhsil elə diqqətlə" (12, 8-9).

A.N.Qayıbovun "Məktəb" rədifli şeiri mədhiyyə-qəsidədir. Lakin maraqlı burasıdır ki, müəllif mədhiyyə-qəsidənin əsrlərlə mövcud olan ənənəvi mövzu istiqamətini, yəni kimisə, hansı şəxsisə tərif etmək istiqamətini dəyişmiş, onu məktəbə yönəltmişdir. Başqa sözlə, müəyyən təmənna və ya məqsədlə insana, konkret şəxsə ünvanlanan mədhi məktəbin tərənnümü ilə əvəz etmişdir. Əslində bu, poeziyanın ənənəvi qanunlarını pozmaq, ona müsbət mənada bir yenilik gətirmək idi. Sənətkar ənənəvi janrın donmuş, sabitləşmiş qanunlarını sındırır, onu müasir ideya və mətləblərin bədii ifadə vasitələrinə çevirirdi:

Qayət həsəndir kirdari-məktəb,
İfrat gözəldir əfkari-məktəb.
Açmış sərasər. Pəh! Pəh! Nə göyçək,
Əzhari-ürfan gülzari məktəb.
…Saflıq mətai elmü ədəbdir,
Bax gör nə xoşdur bazari-məktəb.
Cəhlin əlindən qurtarmaq üçün,
Darülamandır, bil, dəri-məktəb. (1, 566)

Burada bir cəhətə də diqqət yetirmək lazım gəlir. Şeir qəsidə janrında əruz vəznində qələmə alınsa da, bilavasitə kiçik oxuculara ünvanlandığından sadə və anlaşıqlı olsun deyə müəllif ona heca vəzninin əlamətlərini də tətbiq etmişdir. Belə ki, bütün misralar 10 hecalı olub 5+5 bölgüsü ilə müşayiət olunur. Bu məziyyət 19 beytlik qəsidəyə bir ahəngdarlıq aşılayır.

XX əsrin əvəllərində uşaq mətbuatının səhifələrində də sırf məktəb mövzusuna həsr olunmuş poetik örnəklərə tez-tez rast gəlirik. A.Şaiqin "Layla" (3, 1906, №2), Yusif Əfəndizadənin "Ana nəsihəti" (3, 1906, №3), Məhəmməd Hadi Şirvaninin "Məktəb şərqisi" (3, 1906, №9), "Sevgili şagirdlərimizə ərmağan" (3, 1907,№4), M.Ə.Sabirin "Məktəb şərqisi" (3, 1906, №17), Əlisəttar İbrahimovun "Məktəbli" (7, 1911, №2), Cəmo bəy Aciz Şirvaninin "Uşaqlıq" (7, 1912, № 6), "Nəğmə" (7, 1915, №2), Əliabbas Müznibin "Nəsihət" (7, 1912, №22), müəllim Zeynalın "Məktəb yoldaşlarıma" (7, 1914, №15), Əlimşan Hüseynzadənin "Nəğmə" (7, 1916, №1), "Məktəbə dəvət" (7, 1916, №9), Əbdürrəhman Dainin "Uşaq və quş" (7, 1918,№3) və s. şeirləri bu qəbildəndir. M.Hadinin eyni mövzuda qələmə alınmış "Məktəb" mənzuməsi isə "Həyat" qəzetində (1906, 11 yanvar) işıq üzü görmüşdü.

A.Şaiqin adını çəkdiyimiz "Layla" və 1907-ci ildə qələmə alınmış, lakin çap olunmamış "Oyan, oğlum!" şeirlərinin hər ikisi ananın dili ilə deyilir. Birinci şeir beşlik formasında layla, ikinci isə nəğmə-oxşamadır. "Layla"da ana beşikdə uyuyan körpəsinə xitabən onu oxşayır, arzu edir ki, onun körpəsi tez böyüyüb məktəbə getsin, dərslərini yaxşı oxuyub elm və şöhrət sahibi olsun. "Oyan, oğlum!" mənzuməsi isə artıq ananın böyüyüb məktəbə gedən şagird övladına səmimi poetik xitabı və nəsihətidir. Nəsihətin əsas qayəsi isə məktəbə, dərsə, ədəbə çağırışdır.

Y.Əfəndizadənin "Ana nəsihəti" şeiri ananın dili ilə söylənən lirik və kövrək nəğmədir. Yeddi hecalı nəqarətli dördlüklər şəklində ritmik bir tona malik bu nəğmə həm forma, həm də ideya-məzmun baxımından mükəmməl və təsirlidir. Kiçik yaşlı uşaqlar üçün qələmə alınmış bu poetik nümunə səmimi və şirin dilə, zəngin qafiyə sisteminə malikdir. Verilən nəsihət quru və çılpaq deyil. Daha doğrusu, məzmun və qayə dolğun təbiət təsviri ilə gözəl şəkildə sintez edilmişdir ki, kiçik oxucunu özünə cəlb etsin:

Gülüstanın gülləri,
Süsən və sünbülləri,
Əsən sərin yelləri,
Seyri-gülüstan eylə,
Seyri-dəbistan eylə.
Dəbistandır gülüstan,
Lalə, nəsrin, gül, reyhan,
Sən bülbülsən, balacam!
Oxu, hər dəm ol nalan.
Seyri-gülüstan eylə,
Seyri-dəbistan eylə.
Hürriyyəti elmü nur,
Hər yerdə etmiş zühur,
Qəlblərə verir sürur,
Qafil olub yatma, dur.
Seyri-gülüstan eylə,
Seyri-dəbistan eylə. (3, 1906, №3)

M.Hadinin başqa əsərləri kimi yuxarıda adını çəkdiyimiz şeirlərinin dili də bir qədər ağırdır. Bununla belə sənətkarın ifadə etdiyi mətləb aktual və təsirlidir. O, məktəbi aləmin bəzəyi, baş verən hər cür tərəqqinin, yüksəliş sübhünün nəşət məkanı hesab edir. İzhar edir ki, hər cür insani gözəllik və inkişafın təməli məktəblə bağlıdır.

Aciz Şirvani çarpaz qafiyəli "Uşaqlıq" mənzuməsində məktəb illərinin şirin xatirələrini, müəllimin dərs dediyi, elm öyrəndiyi günləri canlı bir mənzərədə kiçik oxuculara təqdim edir və bu yolla onlarda təhsil ocağına həvəs yaratmaq istəyir. Şairin dörd bənddən ibarət "Nəğmə" şeiri isə kiçik yaşlı oxucular üçündür. Beş hecalı misralardan ibarət nümunədə oxucuların yaş xüsusiyyətləri, anlam tərzi, psixoloji duyum imkanları ustalıqla nəzərə alınmışdır:

Könlüm işığı,
Oxuyan adəm.
Eşqim, həvəsim,
Sənə mən şadəm.
Məktəbdir mənim
Ruhum, nəfəsim.
Hər kim oxumaz,
Ona mən yadəm. (7, 1915, №2)

M.Ə.Sabirin "Məktəbə tərğib" (10, 376), Ə.Nəzminin "Uşaqlar" (9, 197), Ə.Müznibin "Məktəb" (8, 7) və s. lirik örnəklərdə əsas məqsəd kiçik vətəndaşları məktəbə, dərsə, təhsilə şövqləndirmək, onlarda bu maarif ocağına həvəs və maraq yaratmaqdır. Məktəbi "darül-ürfan", "izzətfəzayi-insan" kimi təqdim edən Ə.Müznib bəşər övladının insanlıq və intibah yolunun bu müqəddəs məkandan başlandığını böyüməkdə olan nəslə belə bir poetik məzmunda başa salır:

Məktəb olmazsa, lal olur aləm,
Cümlə darül-məlal olur aləm.
Məktəb olmazsa, intibah olmaz,
Cəhli-qəflət sönüb təbah olmaz.

Məktəb olmazsa, paslanar hisslər,
Törəməz müqtədir mühəndislər. (8, 7)

Uşaq poeziyasında bir qayda olaraq məktəb və maarif mövzusu elmə çağırış, onun fəzilət, şərafət və dəyərini anlatmaq ideyaları ilə qovuşur. Daha doğrusu, məntiqi şəkildə məsələ belə qoyulur: Məktəb və maarif nə üçündür və onun əhəmiyyəti nədir? Sualın cavabını qələm sahibləri özləri verir, maraqlı bədii dəlil və detallarla, həyat həqiqətlərinin nişan verilməsi yolu ilə məktəb və maarifin nə olduğunu gənc nəslə başa salırlar. Bədii dillə izah edirlər ki, bu iki faktor nəticədə elmə gətirib çıxarır. Elm isə cəhalətdən qurtuluş, səadət və şərafətə nail olmaq, insanlığın ali mərtəbəsinə yüksəlmək deməkdir. Elmsiz nə fərdin, nə də bütövlükdə cəmiyyətin xoşbəxtliyi, hürriyət və istiqlalı mümkün deyil.

Uşaq ədəbiyyatında elmə çağırış ideyaları, onun fəlsəfəsini kiçik oxucuların anlaya biləcəyi bir şəkildə izah etmək cəhdi ardıcıl surətdə izlənilir. S.Ə.Şirvani oğlu Mir Cəfərə müraciətində elm öyrənməyi, elm sahibi olmağı ciddi şəkildə diqqət mərkəzində saxlayır. Oğlunun timsalında, ümumiyyətlə, böyüməkdə olan nəslə xitab edərək onları elm və bilik (“əhli-ürfan”) sahibi olmağa, alimlərə, elm adamlarına ehtiram göstərməyə, onların hörmətini saxlamağa çağırır. Elm öyrənməklə uca məqama yetişməyin mümkün olduğunu söyləyən sənətkar “avam həmişə zillətli yoldadır” (“Ən amü bəl əzəllü səbil”) hədisini xatırladır. İnsanları dininə görə deyil, elminə və elmsizliyinə, biliyinə və cəhalətinə görə fərqləndirməyi daha münasib sayır. Cəhaləti cəhənnəm, elmi isə cənnət adlandırır. Həzrəti-loğmanın ancaq elmi ilə şərəf tapıb ucaldığını dəlil gətirir:

Demə bu kəfər, ol müsəlmandır,
Hər kimin elmi var – o, insandır.
Elmsiz adəmi Xudayi-cəlil,
Dedi: − Ən amü bəl əzəllü səbil.
…Elmdən oldu həzrəti-loğman
Hikmət ilə səramədi-dövran.
Elm bir nur, cəhl zülmətdir,
Cəhl düzəxdir, elm cənnətdir. (13, 48)

H.Zərdabinin tərtib və nəşr etdirdiyi “Türk nəğmələri məcmuəsi”ndə (289) elmə çağırış motivli bir neçə nəzm nümunələri vardır. Onlardan bir neçəsinin müəllifi Nasehdir. Qalan şeirlərin müəllifi isə göstərilməyib. Müxtəlif janrlarda olan bu poetik örnəklər həm də müəyyən musiqi havasına malik mahnılardır və onları həmin havalarla mahnı kimi ifa etmək mümkündür. Bunlar uşaqlar üçün də faydalı oxu və ifa materialıdır. Şeirlərin bir neçəsinin mövzu və qayəsi elm və onun dəyərini bəyan etməklə bağlıdır. Həmin mahnılardan “Tərifi-elm”, “Nəsayeh” (bu adla iki şeir vardır), “Nəsihəti-nəfs”, “Nəsihət”, “Tərğib”, “Tərifi-elm və tərbiyə”, “Göz aç”, “Pənd”, “Gap” (14, 3, 8, 15, 17, 23, 29, 30) və s. göstərmək olar. Göründüyü kimi, şeirlərin bir neçəsi bilavasitə “Nəsihət” adı ilə təqdim edilir. Nəsihətin hədəfində dayanan isə elm, maarif və biliyin dəyərini kütləyə çatdırmaqdır. Ümumilikdə adını çəkdiyimiz lirik örnəklərin məzmun və leytmotivi bundan ibarətdir: elm hər bir bəşər övladı üçün vacib və gərəkli bir nemətdir; o, həm ayrı-ayrı şəxslərə, həm də bütövlükdə xalqa lazımdır; elm insanın şərəf və ləyaqətini ucaldır, milləti yüksəlişə, maddi və mənəvi firavanlığa, səadətə sövq edir; müsəlman qövmləri, o cümlədən bizim xalq son əsrlərdə elmdən məhrum qaldığına görə zəlalət, cəhalət və tənəzzülə düçar olmuşdur; bu qaranlıqdan qurtarmaqdan ötrü elm öyrənməli, bilik kəsb etməliyik; tərəqqi, bəxtiyarlıq və qurtuluş yolumuz ancaq elmə bağlıdır. Dediyimiz həqiqət “Gap” şeirində belə ifadə olunur:

Ey arif olan, söylə o nadana nəsihət,
Kim getsə dəm əldən, dəxi düşməz ələ fürsət.
Keçsə belə dəmlər, belə günlər, belə illər,
Dünya olacaq başımıza təng deyirlər.

Dünya qurulub çünki elmilə binası,
Rövnəq tapıb elm ilə hamı millət əsası,
Keçsə belə dəmlər, belə günlər, belə illər,
Dünya olacaq başımıza təng deyirlər…

Düşdü qabağa elm ilə hər firqeyi-naşı,
Kim saldı bizim başımıza bəs belə daşı… (14, 23)

Mahnı motivində olduğundan hər beytdən sonra nəqərat verilən şeirdə bizim "gözü bağlı", "ürəyi dağlı", "dili lal" qalmağımızın səbəbi məktəbi, elmi qeyb etməyimizdə tapılır.

M.Ə.Sabirin "Elmə tərğib" (10, 376), A.Səhhətin "Dəvət" (11, 34), M.Hadinin "Maarifə dair" (5, 42), M.T.Sidqinin "Oğlan", "Yüz il yatandan sonra" (12, 22, 25), Ə.Müznibin "Elm" (8, 8), Əli Ülvinin "Arş, irəli!" (7, 1912, №20) və s. şeirlərinin də əsas mövzu və mətləbi elmə çağırış ruhundadır.

M.Ə.Sabir "Elmə tərğib" nəzmində kiçik oxucuları başa salmaq istəyir ki, millətin və islamın nicatı, xalqın ittifaqı, ittihadı və müsavatı elmə bağlıdır. Millət yalnız elm sayəsində "bərqərar" ola bilər. Eyni ideyanı A.Səhhət də "Rəhbər" jurnalında (1906, № 2) dərc olunan "Dəvət" müsəddəsində bəyan edir. Hər dürlü afətlərə giriftar olmuş millətin xəstəliyinin müalicəsini elmdə tapır. İndiki əyyamda millətlərin mücadilə və ölüm-dirim mübarizəsində yarış məkanının elm meydanı olduğunu söyləyir. Ona görə də vətən övladlarını millətin və vətənin gələcəyi naminə oxumağa, elm öyrənməyə təhrik edir. Bildirir ki, əks təqdirdə biz bəşəriyyətin "təməəddün gülşənindən" kənarda qalıb zəlil və xar olarıq. A.Səhhətin şeiri məzmun və ahəng etibarı ilə elm barədə söylənmiş poetik himni xatırladır:

Arxadaşlar! Elm lazımdır ki, tapsın din həyat,
Elm ilən hasil olur izzət, tapar millət nicat.
Səy edin ta bizlərə əhsənlər etsin kainat,
Elmsiz ömr etmədən min dəfə ərcəhdir məmat.
Keçdi dövri-zuri-bazu, elmü fəzl əyyamıdır!
Arxadaşlar! Oxuyun, elm oxumaq həngamıdır! (11, 34)

Əli Ülvinin "Arş, irəli!" sərlövhəli şeiri də elm barədə kiçik həcmli mahnı-himni xatırladır. Müəllif öz oxucularına anlatmaq istəyir ki, hünər, ədəb və tərbiyə sahibi olmaq yüksəliş yolu tutmaq istəyiriksə, oxumalı, elm öyrənməli və bununla irəli getməliyik. Çünki bunu zaman, müasir həyat tələb edir.

Ədəbiyyat

1. Azərbaycan uşaq ədəbiyyatı müntəxəbatı (XIX-XX əsrlər) (tərtib edənlər: Məmmədov X., Həsənov A.). 3 cilddə, II cild. Bakı: Nasir, 2002
2. Çernyayevski A.O., Vəlibəyov S.A. Vətən dili. II hissə. Tiflis: "Kəşkül" mətbəəsi, 1888
3. "Dəbistan" jur. (1906-1908)
4. Əfəndizadə R. Seçilmiş əsərləri. Bakı: Gənclik, 1979, 134 s.; Bakı: Şərq-Qərb, 2006
5. Hadi M. Seçilmiş əsərləri. Bakı: Elm, 1978
6. Qarayev Y. Realizm: sənət və həqiqət. Bakı: Elm, 1980
7. "Məktəb" jur. (1911-1920)
8. Müznib Ə. Sibiriya məktubatı. Bakı: Orucov qardaşları mətbəəsi, 1913
9. Nəzmi Ə. Seçilmiş əsərləri. Bakı: Yazıçı, 1979
10. Sabir M.Ə. Hophopnamə. Bakı: Yazıçı, 1992
11. Səhhət A. Seçilmiş əsərləri. Bakı: "Lider" nəşriyyatı, 2005
12. Sidqi M.T. Əsərləri. Bakı: Çaşıoğlu, 2004
13. Şirvani S.Ə. Seçilmiş əsərləri (tərtib edəni: Məmmədov X.). Bakı: Maarif, 2002
14. Zərdabi H.M. Türk nəğmələrinin məcmuəsi. Badkubə, Qubernski pravl. mətb-si, 1901

С.Расулова

Идеи призыва к образованию, школе и науке в просветительской реалистической детской прозе

Резюме

Просветительско-реалистический этап детской литературы Азербайджана охватывает вторую половину XIX и начало XX века. Одним из основных направлений в детской поэзии была идея призыва образования, школы и науки. В этой статье мы попытались проанализировать эту проблему. В ходе исследования предметом стали как образцы лирической поэзии, так и эпические произведения, т.е. поэмы.

S.Rasulova

The ideas for invoking education, school and science in the enlightenment-realistic children's poetry

Summary

The enlightenment-realist stage of Azerbaijan's children's literature covers the second half of the 19th century and the beginning of the twentieth century. One of the main lines of ideas in childhood poetry was the idea of education, school, and science. We have tried to analyze this issue in the article. During the research, both lyric poetry samples and epic works, i.e poems, became subject matter.

Rəyçi: filol.e.d. Y.Babayev

Redaksiyaya daxil olub: 10.07.2019

A.B.SƏFƏRƏLİYEVA
e-mail: aynasefereliyeva@mail.ru

Bakı Dövlət Universiteti
(Bakı şəh., Z.Xəlil küç., 23)

MÜASİR AZƏRBAYCAN ŞEİRİNDƏ BÜTÖV AZƏRBAYCAN İDEYASI (1990-2005)

Açar sözlər: *Azərbaycan poeziyası, şeir, şair, müasirlik, Güney mövzusu, Araz*
Ключевые слова: *Азербайджанская поэзия, стихи, поэт, современность, Южная тематика, Араз*
Key words: *Azerbaijani poetry, poems, poet, modernity, Southern themes, Araz*

Müasirlik - bədii ədəbiyyatın, ədəbiyyatşünaslığın vacib kateqoriyalarından biridir. Sənətin zamanla münasibətlərini, konkret dövrlə əlaqələrini müasirlik keyfiyyətləri müəyyən edir. Bu mənada müasirlik anlayışı tarixi olduğu qədər, həmçinin estetik kateqoriyadır.

Hər bir milli ədəbiyyat ümumbəşəri dəyərləri də özündə ehtiva etməklə yanaşı, hər bir milli ədəbiyyatın xalqın tarixi keçmişi və müasir varlığı ilə bağlı üzərində düşündüyü öz məxsusi mənəvi problemləri də olur. Poeziya yalnız zamanın qarşısına çıxardığı mövzuları əks etdirmir, habelə tarixən həll olunmamış məsələlərə, müşküllərə də yenidən nəzər salır, ənənəvi motivləri müasirlik işığında təcəssüm etdirir.

Azərbaycan xalqı artıq iki əsrdən artıqdır ki, taleyində ayrılıq acısını yaşadır. Azərbaycanın ikiyə bölünməsi ədəbiyyatımızın əsas mövzularından biridir. Hər bir xalqın ədəbiyyatının təkamülü, ideya və məzmunca yeniləşməsi dövrün, mühitin inkişaf qanunauyğunluqları ilə həmahəng şəkildə davam edir. Ötən əsrin sonlarında Sovetlər Birliyinin süqutu və Azərbaycanın yenidən müstəqillik əldə etməsi ölkəmizin istər ictimai-siyasi, istərsə də ədəbi-mədəni həyatında bir sıra əsaslı dəyişikliklərin gerçəkləşməsi üçün zəmin hazırladı.

Ədəbiyyatın qısa bir zaman kəsiyində yaşadığı bu keyfiyyət dəyişiklikləri digər janrlarda olduğu kimi, poeziyada da aşkar şəkildə duyulmağa başladı. Azərbaycan ədəbiyyatında, xüsusən poeziyasında Cənub mövzusu, Təbriz, Araz obrazları ön plana çıxdı. Şimali Azərbaycanda müstəqilliyin əldə olunması, digər tərəfdən Qarabağ müharibəsi nəticəsində Vətən torpaqlarının bir hissəsinin itirilməsi bu mövzunu, Cənub mövzusunun yenidən aktuallaşmasını şərtləndirdi.

Azərbaycan ədəbiyyatında Güney mövzusunun poetik örnəklərin yaranmasının səbəbi tarixin özüdür. Belə ki, Azərbaycanın "Gülüstan" (1813) və "Türkmənçay" (1828) müqavilələri ilə Rusiya və İran arasında ikiyə parçalanması xalqın taleyində dərin izlər buraxmışdır. Millət zaman-zaman bu faciənin ağrılarını hiss etdiyindən ona qarşı öz etirazını bildirmişdir. Çağdaş poeziyada Güney Azərbaycan problemindən bəhs olunmadan müasirlik məsələsini bütün yönləri ilə aşkarlamaq mümkün deyildir.

O da təsadüfi deyildir ki, 1990-2005-ci illər poeziyasında da Güney Azər-baycan mövzusu "gündəmdən düşmür", güneyli və quzeyli şairlərin "sinxron" səsləşməsi davam edir. İkiyə parçalanmış vətənimizin Güneyində və Quzeyində yazıb-yaradan qələm sahiblərini düşündürür və narahat edir. Bəxtiyar Vahabzadə, Nəbi Xəzri, Balaş Azəroğlu, Məmməd Araz, Xəlil Rza Ulutürk, Fikrət Qoca, Nəriman Həsənzadə, Vaqif Bayatlı Önər, Həmid Nitqi, Qulamrza Səbri Təbrizi, Yəhya Şeyda, Savalan, Eldar Baxış, Əli Daşqın, Rüstəm Behrudi və başqa şairlərin yaradıcılığında Güney Azərbaycan problemi əsas mövzu obyektlərindən birinə çevrilir, güclü ictimai-siyasi məna və estetik vüsət qazanır.

XX əsr Azərbaycan poeziyasında ayrılıq taleyi olan şairlərimizdən biri də Balaş Azəroğludur. O, ömrü boyu "inqilab şairiyəm" əqidəsinə sadiq qaldı, Güney Azərbaycanın taleyi onun lirikasının əsas mövzusu və fəlsəfi ideyası oldu. Bu şairlər yalnız ictimai-siyasi lirikanın deyil, həm də fəlsəfi poeziyamızın parlaq örnəkləridir.

Balaş Azəroğlunun müstəqillik illərində bir-birinin ardınca qələmə aldığı "Mənim iki dünyam" kitabının müəllifinə", "Təbriz yuxuma gəlir", "Ana Zəhra üçün", "Həmid Nitqiyə" və digər şeirlərində yad güclərin, düşmənlərin əli ilə ikiyə bölünmüş Azərbaycan türklərinin arzu, nisgil, həyəcan və iztirabları bədii təcəssümünü tapmışdır. Bu şeirlər dərin sosial məzmunu, problem aktuallığı, ideya müasirliyi ilə seçilir.

Şairin "Mənim iki dünyam" kitabının müəllifinə" adlı şeirində vətən məhəbbəti başqa bir formada ifadə olunmuşdur.

Nə yaxşı ki,
Yuxularda Vətənə dönə bilirik...
Bir dün yuxular həqiqət olacaq,
Qürbət xatirələr aləmində qalacaq (1, 21).

Xalq şairi Bəxtiyar Vahabzadənin yaradıcılığında Güney Azərbaycan mövzusu aparıcı yerlərdən birini tutmaqdadır. Onun Cənub mövzulu şeirlərində ikiyə parçalanmış vətən motivi xüsusi bir vurğu ilə səslənir, reallıqda qovuşa bilməyən tərəfləri mənəvi doğmalıqla bütövləşdirir. "Azərbaycan" adlı şeirində, şairin qənaətincə, millət ikiyə bölünsə də, mənən, ruhən birliyini, bütöv-lüyünü qoruyub saxlaya bilmişdir.

Qardaşlıqdır şüarımız, biz həmişə əltutanıq,
Düşmən bizə əl uzatsa, düşmənliyi unudanıq.
Könlümüzdə bir vahiddir, güneyimiz, quzeyimiz,
Vətən - bizim namusumuz,
Biz Vətənik, Vətən də biz (2, 160).

B.Vahabzadə "Sahirə cavab", "Azəroğluna", "150 il", "Lal-kar" və digər şeirlərində də Azərbaycan xalqının Güney ağrıları dilə gətirilir, milli bütövlük idealının sabahına ümidlə baxır.

Güney Azərbaycan, ikiyə bölünmüş Azərbaycan mövzusunun əslən Güneyli şairlərin yaradıcılığında əsas yer tutması təbii haldır. Əslən Güneyli olan Əli Tudənin yaradıcılığının da başlıca mövzularından biridir. Şairin yaradıcılığının son dövrlərinə aid olan "Dördlüklər"də Azərbaycanın parçalanması, bu parçalanmanın millətimizin həyatındakı izləri, xalqın qarşılaşdığı ayrılıq, hicran dərdi, vüsal həsrəti orijinal şəkildə bədii ifadəsini tapmışdır.

Sənə şeir yazır hər təbi bulaq,
Hər şeir bir təzə bardır, Təbrizim!
"Təbriz şeirləri" içində ancaq
Mənim öz "Təbrizim" vardır, Təbrizim! (3, 295)

Əli Tudənin "Dördlüklər"inin diqqəti çəkən cəhətlərindən biri burada ikiyə parçalanmış Azərbaycanın mənəvi, ruh bütövlüyünü qoruyub saxlaması qənaətinin əksini tapmasıdır. Doğma yurddan uzaqlarda ağır, məşəqqətli həyat sürməsinə baxmayaraq, şair bir an da olsun ruhdan düşməmiş, ümidsizləşməmişdir. Vətəni bütöv şəkildə dərk edən müəllifin fikrincə, insan yurdsuz-yuvasız yaşaya və xoşbəxt ola bilməz.

Arada sərhəddə dönsə də nisgil,
Sənin görüşünə gələrəm, Vətən!
Qu tüküylə dolu yastığa deyil,
Daşına baş qoyub ölərəm, Vətən! (3, 295)

Əslən cənubdan olub, şimalda Güney həsrətini yaşadan şairlərdən biri də Hökumə Bülluridir. "Bu haman qılıncdır", "Təbriz", "Məni Astaraya apar", "Peyğəmbər və şair", "Neyləyim", "Dağılmış dünyamda dünyam var", "Yaralı çinar", "Vətən həsrəti", "Yalan dünya", "Səndən, məndən soruşmadan" və digər şeirləri onun taleyinin poetik işarələridir.

Kimlərin əliylə, hansı qılıncla,
Özüm istəmədən, özüm bilmədən,
İkiyə bölünüb parçalanmışam.
İndi illər keçir, o qara gündən,

İkiyə bölünüb yaşayıram mən...
Xalqdan soruşmadan, saya salmadan
Böldülər bir xalqı, eli, torpağı...
İkiyə böldülər yanan ocağı (4, 28).

Şairənin yaradıcılığında xüsusi yer tutan və Azərbaycan poeziyasında Güney həsrətinin poetik ifadəsinə həsr olunmuş ən dəyərli bədii örnəklərdən olan "Məni Astaraya apar" adlı şeirində xalqımızın başına gətirilən tarixi faciələrin orijinal təcəssümü ilə qarşılaşırıq. Xəlil Rzaya müraciətlə qələmə alınan bu şeirdə müəllif öz dərdini, ağrılarını şair həmkarı ilə bölüşərək yazır:

Məni bir quş edib, Arazdan keçir,
Vüsal şərbətini əlinlə içir,
Hicran ürəyimi ikiyə biçir,
Görüşlər nə vaxta qalar, ay Xəlil,
Məni Astaraya apar, ay Xəlil (4, 107)

Yaradıcılığı başdan-başa yurd yaddaşı ilə köklənmiş xalq şairi Məmməd Arazın poeziyası da Cənub mövzusundan ayrı təsəvvür olunmur. Onun həm sovet, həm də müstəqillik illəri şeirlərində ikiyə parçalanmış Azərbaycanın ayrılıq dərdi, hicran əzabları, bütövlük amalı yüksək poetik səviyyədə bədii təcəssümünü tapmışdır. Şairin Güney dərdini ifadə edən şeirlərində əsas etibarı ilə birliyə, bütövlüyə çağırış motivləri qabarıq şəkildə ifadə olunmuşdur:

Nə qədər yataqda Araz var hələ,
Arazdan içməmiş Təbriz var hələ,
Ya mənim dərdimlə yanar bu dağlar,
Ya da ki, üstümə aşar bu dağlar (5, 38).

O da qeyd olunmalıdır ki, Məmməd Arazın yalnız konkret halda Güney mövzusunda olan şeirlərində deyil, əksər şeirlərində Vətənin dərdi milli birlik, bütövlük ideyasından kənarda təsəvvür olunmur, Araz metaforası ayrılıqdan çevrilib birləşdirici körpü rolunu oynayır.

Şairin "Azadlığım" şeirində Azərbaycanın ikiyə parçalanmasının milli düşüncədə yaratdığı boşluğun, natamamlığın ağır, çəkilməz fəsadları poetik obyekt kimi seçilmişdir. Müəllifin qənaətincə, parçalanaraq kiçilmiş, gücü, ehtirası boğulmuş bir xalqın fərdləri də azad ola bilmir, mənəvi əsarətdən xilas olmaqda çətinlik çəkirlər.

Yalnız könül azadlığı!
Bu eşq ilə girdim cəngə,
Yalnız könül azadlığı-
  hətta dəmir bir qəfəsdə,
"Gülüstan"ı, ""Türkmənçay"ı
  qanla yazan bir məhbəsdə (5, 17).

Güney Azərbaycan problemi istiqlal mücahidi və şairi adını qazanmış Xəlil Rza Ulutürkün yaradıcılığının da aparıcı mövzulardan biridir. Şairin Güney Azərbaycan mövzusuna həsr olunmuş şeirləri ilə yanaşı, bir çox digər əsərlərində də problemin müəyyən aspektlərinib bədii ifadəsinə geniş rast gəlirik: "Xəlil Rza Ulutürk yaradıcılığında vətənçilik, türkçülük və xalqçılıq önəmli bədii xüsusiyyətdir. Vətənin bütövlüyü, onun taleyi X.R.Ulutürkün şəxsiyyət və yaradıcılığında ciddiyyəti ilə görünən problemlərdəndir. Güney Azərbaycan mövzusu Ulutürk yaradıcılığında aparıcı mövzulardan olmuşdur" (6, 419).

Son dərəcə təsirli bir dillə qələmə alınmış "Ağı" adlı şeirində Qarabağ döyüşlərində şəhid olmuş oğlu Təbrizin qəbri üstünə Təbriz şəhərindən, Şəhriyarın məzarından gətirilmiş bir ovuc torpağın səpilməsi mərasimini xəyalında canlandırır:

Məqbərənə gül düzərəm,
Gülüm, Təbrizim, Təbrizim.
Ocağımsan, yoxsa mənim
Külüm, Təbrizim, Təbrizim (7, 117).

Xəlil Rza Ulutürkün "Ağı" şeirinin diqqəti çəkən məqamlarından biri bu-rada ictimai düşüncənin qabarıq ifadə olunmasıdır. Şeir şairin şəxsi faciəsi fonunda qələmə alınsa da, burada əsas etibarı ilə ikiyə parçalanmış Azərbaycanın ayrılıq həsrəti ifadə olunmuşdur.

Əlimdə bir kisə torpaq,
O tay... Təbriz göndərib, bax.
Sən – tapınaq, o – tapınaq,
Cüt Təbrizi qovuşduraq (7, 151).

Fikrət Sadığın yaradıcılığında Azərbaycanın bütövlük həsrəti ideyası orijinal formada ifadə olunmuşdur. Şairin "Sağ əlin başımıza, Almaniya" şeirində müasir hadisələrin iziylə gedib, millidərdlərə çarə axtardığını görürük. Şairin dərin inamına görə, Almaniya birləşdiyi kimi, bir zaman gələcək, Azərbaycan da birləşəcək, xalqımız bütövlüyünə qovuşacaqdır.

Yad güclərin əlilə ikiyə parçalanmış Azərbaycan xalqının ağrı, əzab və iztirabları şair Nəriman Həsənzadənin yaradıcılığında da ciddi, sistemli bədii təcəssümünü tapmışdır.

Şübhəsiz ki, bəhs olunan dövrdə Azərbaycanın Güneyi ilə yaranan poetik örnəklər təhlil edilərkən adları çəkilən və digər sənətkarların əsərlərilə məhdudlaşmır. Güney mövzusu da müasir Azərbaycan poeziyasının ana xətlərindən biridir. 1990-2005-ci illərdə bu mövzunun poetik gündəmdə qalması onun aktuallığını şərtləndirmişdir. Çünki bu illərdə yazıb-yaradan elə bir qələm sahibinə təsadüf etmək mümkün deyildir. Bu dövrün poeziyasında Güney Azərbaycan mövzusunda yazılan şeirlərin əksəriyyəti orijinallığı, bənzərsizliyi ilə yanaşı, həmçinin dərin təsir və təlqin qüvvəsi ilə seçilməkdədir.

Ədəbiyyat

1. Azəroğlu B. "Mənim iki dünyam" kitabının müəllifinə // Ədəbiyyat qəzeti, 1998, 23 yanvar №3
2. Vahabzadə B. İstiqlal. Bakı: Gənclik, 1999, 496 s.
3. Tudə Ə. Mənim səsim. Bakı: Azərbaycan, 2002, 472 s.
4. Bülluri H. Nə qəribə dünya imiş. Bakı: Azərbaycan, 1997, 224 s.
5. Araz M. Qayalara yayılan səs. Bakı: Sabah, 1993
6. Əsgərli Ə. Milli ideal mücahidi. Bakı: Elm, 2005, 419 s.
7. Ulutürk X. R.Davam edir 37. Bakı: Gənclik, 1992, 528 s.
8. Ulutürk X. R. Türkün dastanı. Bakı: Gənclik, 2000, 800 s.

А.Б.Сафаралиева

Идея единого Азербайджана
в современной азербайджанской поэзии (1990-2005)

Резюме

В статье исследуются вопросы современной азербайджанской поэзии. Автор в основном останавливается на отражении идеи единого Азербайджана. Объектом исследования было выбрано поэтическое творчество таких азербайджанских поэтов, как Б.Вагабзаде, О.Биллури, М.Араз, А.Туде и др. В стихотворениях, посвященных идее единого Азербайджана, были отражены чаяния народа, его мысли об едином Азербайджане, об его будущем, любовь к Родине, переживания и др. Эта поэзия отличается новизной мыслей и идей.

A.B.Safaraliyeva

The idea of whole Azerbaijan in modern Azerbaijan poem

Summary

The separation of Azerbaijan influenced some poets works such as B.Vahabzadeh, H.Billuri, M.Araz, A.Tudeh and so on. The theme of the poems is chosen with their originality that clarified the suffering of separation, dreaming of reunion, the love of the motherland.

The poems dedicated to south Azerbaijan deeply impressed us their fresh ideas and modernity.

Rəyçi: filol.f.d., dos. A.Ramazanova
Redaksiyaya daxil olub: 07.10.2019

N.F.XANKİŞİYEV
filologiya üzrə fəlsəfə doktoru, dosent

Azərbaycan Dillər Universiteti
(Bakı şəh., R.Behbudov küç., 60)

İNGİLİSDİLLİ KANADA ƏDƏBİYYATINDA MİLLİ İDENTİKLİK PROBLEMİ (Con Hyu Maklennan yaradıcılığı)

Açar sözlər: *öyrətmək qıcığı, tənhalıq, humanist ənənələr, milli kimlik, milli ruhun oyanması*
Ключевые слова: *зуд учить, одиночество, гуманистические традиции, национальная идентичность, пробуждение национального духа*
Key words: *itch to teach, solitude, humanistic tradition, national identity, awakening of national spirit*

Hyu Maklennan oxucu kütləsi və akademik ədəbiyyatşünaslar tərəfindən yüksək qiymətləndirilən yazıçıdır. O, haqlı olaraq Kanada milli ədəbiyyatının banisi hesab olunur. O, ədəbi fəaliyyətə Oksford universitetinə daxil olmamışdan öncə başlamışdır. Oksford universitetində tələbə ikən yazdığı şeirləri, Prinstonsk universitetində isə yazdığı iki romanı naşirlər tərəfindən rədd edilmişdir. Bu uğursuzluqdan sonra Maklennan Kanada və kanadalılar ilə bağlı mövzulara müraciət etməli oldu. Maklennanın yazıçı kimi ilk uğuru onun "Yüksələn barometr" (Barometer Rising) əsərinin çap edilməsindən sonra başlandı.

Hyu Maklennan anadan müəllim doğulmuşdur. Bu fikir tənqidçilər tərəfindən irəli sürülmüşdür. Bu "öyrətmək qıcığı" (1) onun tələbələrini sevindirmək və əyləndirmək istəyini özündə ehtiva edir. Lakin, bunu XX əsrdə, xüsusilə Kanada ədəbiyyatında özünəməxsus yer tutan bir yazıçı haqqında söyləmək ən azından böyük haqsızlıq olardı. Əgər oxucu Maklennan yaradıcılığına ilk dəfə müraciət edirsə o, yəqin edə bilər ki, Maklennan müasir yazıçılardan fərqlənir. Maklennan başqalarına nisbətən gördüyü həqiqətə oxucunu inandırmaqda, bəşəriyyətin humanist ənənələrini qoruyub saxlamaqda, onlara kömək edə biləcək dəyərləri ifadə etməkdə daha maraqlıdır. Maklennan Kanada oxucularında məhz bu sahədə xüsusi qabiliyyətlərinin olmalarına çalışırdı.

Maklennanı müəllim kimi təqdim etməyimiz onun peşəsinə həddindən çox alüdə olması ilə bağlıdır və bu onu bezikdirmirdi. O, ömrünün çox hissəsini sinif otaqlarında keçirmişdi. Ömrünün kiçik bir dövrünü nəzərə almasaq, demək olar ki, bütün həyatını profesional yaradıcılığa və müəllimliyə həsr etmişdir. Onun müəllimliyi humanist aspektdə daha çox nəzərə çarpır. Yaradıcılığında isə o, qarşıya bəşəriyyət və onun sosial problemləri barəsində suallar qoyur. Məsələn, müasir insan inkişafda olan materialist cəmiyyətdəki vəhşiliyə qarşı necə mübarizə apara bilər? Ona bu mübarizədə kömək edə biləcək dəyərlər hansılardır? Bu müstəvidə onun əsərlərində dünya tarixinin alt-üst edilməsinə qarşı tutarlı fikirlər vardır. Lakin o, bu məsələlərə toxunacağı barədə oxucularına birbaşa olaraq müraciət etmir. O, oçerklərinin birində yazırdı: Əgər yazıçı publikaya nifrət edirsə, o bunu heç cür laqeydliklə edə bilməz və ya yazıçı həqiqəti oxucudan gizlədirsə o, oxucu kütləsini əlində saxlaya bilməz." (2, Tərcümə bizimdir – N.X.). O, çalışır ki, oxucuları da özü kimi vacib problemləri ciddi və aydın dərk etsinlər. Yazıçı oxucularını təsvir edərkən onları öz yaşıdlarından da cavan götürür. O, əmindir ki, bu gənclərin bir qismi öz ağlı və ruhları ilə əsl kanadalı olacaqlar. Yazıçı əsl kanadalıları təsvir etdiyi hekayələrində obrazlaşdırdığı gənc kanadalıları dar düşüncə səviyyələri ilə məhdudlaşmayan, bütün ölkə haqqında geniş məlumata malik, vətənpərvər, dünya arenasında cəsarətli addımlar ata bilən insanlar kimi təqdim edir. Başqa sözlə, Maklennan öz vəzifəsini ağıllı, gənc kanadalılardan ibarət oxucu kütləsini təsir altında saxlamaqla onların intellektual dünyagörüşünü genişləndirməkdə görür və bununla da kanadalı identikliyini özündə ehtiva

edə biləcək nəslin yetişməsində mühüm rol oynamış olur. Yazıçının əsərlərindəki müdrik nümunələr Homerin "Odisseya" əsərindən götürülmüşdür. Buradakı gənc "İki tənhalıq" (Two Solitudes)-daki (4) Pol Tallard, "Yüksələn Barometr" (Barometer Rising)-dəki (5) Nil Makrol, "Gecəni sona çatdıran saat" (The WatchThat Ends the Night)-dakı (7) Jerom Martel kimi geniş dünyanı kəşf etmək istəyir. Zamanın real hadisələri olan müharibə və inqilablar bu dünyanın sakinlərində hərtərəfli dünyagörüşü formalaşdırır. Ən vacibi odur ki, bu gənclər əsl kanadalının təsvirini yaratmaq üçün insanlar arasında xırda fikirlərin olduğunu dərk edir və axtarışa çıxır. Bununla yanaşı o, milli dəyərləri yüksəltmək istəyir. Mənəvi həqiqətlər onun tanıdığı cəmiyyəti ya qoruyub saxlayır, ya da saxlamır. İnsan yalnız çörək və texnika ilə yaşamır. Son nəticədə həmin gənc evə çətin əldə edilmiş və həyatı boyu ona lazım olacaq müdrikliklə qayıdır. Müasir Odisseyə məxsus humanist fikirlərin kanadalıların milli dünyagörüşünün formalaşmasında ciddi rol oynaması Maklennanın əsərlərinin sonluğunu təşkil edir. Çünki, Maklennanın həqiqi təhsil barəsindəki fikirləri bu qəbildəndir. Tənqidçilər həmişə onun əsərlərinin didaktik əhvali-ruhiyyəsinin həqiqi mühakiməyə malık olduğunu irəli sürürlər. Onun hekayələrinin mənəvi tərəfinin süni olmadığı hər zaman hiss olunur. Onun əsas qəhramanlarının dilindən söylənilənlər müəllifin dünyagörüşünün nəticəsi kimi qiymətləndirilməlidir. Ən heyranedici qəhramanlar "İki tənhalıq"dakı (Two Solitudes) kapitan Con Yardli kimi mənəvi müəllim olmaq bacarıqları ilə daha inandırıcı olurlar. Qeyd etmək lazımdır ki, Maklennanın bir yazıçı kimi öz tənqidçiləri ilə mütamadi əlaqəsi olmamışdır. Onun obrazlarından bəziləri məcburi və birölçülü görünür. Məsələn, "İki tənhalıq" (Two Solitudes)-dakı Tallard hərtərəfli insandan çox fransız-kanadalı senaristinə oxşayır. Eyni zamanda, Maklennanın müraciət etdiyi mövzular hərdən şişirdildiyinə görə tənqid olunur. Oxucu real həyatda olduğundan daha çox təsadüflərlə üzləşir. Onun əsərlərinin formasının da dəyişməz olduğu tez-tez tənqid olunur. Yazıçının XX əsrin ortalarında yazdığı əsərləri formaca XIX əsrdə onun vətənində yazılmış əsərləri xatırladırdı. Maklennan yaradıcılığına sentimentalizmin də böyük təsiri olmuşdur. Onun əsərlərində ideal gənc qadın və kişi qəhramanlar karton canilərə üstün gəlirlər. Ən pisi odur ki, yaramazlıq heç vaxt kifayət qədər təhlil olunmur. Bu tənqidlər kifayət qədər olsalar da, onları çox uzaqda tutmaq lazım deyil. Maklennanın yazıçı kimi qabiliyyəti çox yüksəkdir. O, hekayə janrında ixtisaslaşmışdır. Onun mövzuları aydın işlənmiş və oxucunun diqqət və marağını çəkmək üçün kifayət qədər tamamlanmışdır. Onu balaca kənd mağazasında gedən dünyəvi söhbətləri və ya iclas zalında məsul işçilərin yığcam danışıqlarını böyük ustalıqla təsvir edən ustad yazıçı kimi qiymətləndirmək olar. Onun əsərləri təbiətin və kənd həyatının təsvirləri ilə doludur. Bəzən tarlalardakı şırımları görmək üçün o bizi torpaqla bağlayır. Onun təsvirləri təbiətin sonsuzluğu hissini formalaşdırır, millətin sosial həqiqətlərini alqışlayır. "İki tənhalıq"(Two Solitudes)-dən gətirilən bu misalda o Kvebekdə Müqəddəs Laurens çayı boyunca uzanan dar cığırları təsvir edir (2, s.82). Burda Maklennan romanın əvvəlində oxucu üçün əhəmiyyət kəsb edən həm yerli, həm də yararlı vasitələrdən istifadə etmiş, xalqın etiqadları və tarixi barəsində maraqlı fikirlər irəli sürmüş və bunu qənaət və incəliklə etmişdir. Bu formada yazmaq hər bir yazıçıdan böyük məharət tələb edir. Bu Kanada yazıçıları üçün xarakterik bir xüsusiyyətdir. Amerika yazıçılarının fikirincə, onların oxucuları amerikalı obrazından və Nyu-York, Hollivud kimi populyar yerlərlə tanışlıqdan nəsə öyrənə bilər. Ancaq bu Kanadalı müəllifə aid deyil. "İki tənhalıq" (Two Solitudes)-da tanınmış yazıçı Pol Tallard öz çətinliyini ifadə edir və biz əmin ola bilərik ki, bu Maklennanın özüdür (2, s.83). Hyu Maklennanın Kanada ədəbi tarixində rolu çox böyükdür. Çünki o, Kanada nəsrinin əsasının qoyulmasında iştirak etmişdir. Bunun öhdəsindən cəsarətlə gəldiyindən Kanada şüur və düşüncəsinin bugünkü inkişafına kömək etmişdir. Qısası, o, dahi sosial realist və Kanada ədəbiyyatının qabaqcıl nümayəndələrindən biridir. Maklennanın sosial realizmi sevilən maraqlı hekayələr üçün arxa planda qalır. Mövzular kanadalıların sosial çətinliklərini özləri əks etdirir. "İki tənhalıq" (Two Solitudes)-da hər bir obraz əsərin əsas mövzusu olan iki qrup insan arasındakı faciəvi inamsızlığın ifadə olunmasında iştirak edir. Maklennan oxucunun problemini

hərtərəfli təhlili ilə tanış edir, yaxşı məlumatlanmış oxucu isə problemin həlli yollarının axtarışında şəxsən iştirak etməyə cəlb olunur. Maklennan obrazın realizmininin və simvolik səviyyədə ünsiyyət vasitələrinin seçilməsində böyük məharət göstərir. Əgər əsər uğurlu alınmırsa, o yuxarıda sadalanan tənqidləri qəbul etməyə hazır olur. O, hərtərəfli işlənmiş obrazlara yüksək didaktik məqsədə xidmət etdiyi üçün güzəştə getmişdir. Lakin, metodlar gözləninən nəticəni verərsə "İki tənhalıq" (Two Solitudes)-dəki Pol Tallard, "Yüksələn Barometr" (Barometer Rising)-dəki Nil Makrol, "Gecəni sona çatdıran saat" (The WatchThat Ends the Night) əsərlərində olduğu kimi bu mənada da hərtərəfli rezonansa səbəb olur**.** Məsələn, "Yüksələn Barometr" (Barometer Rising)-də 1917-ci ilin Halifaks partlayışı mərkəzdə durur və realist çalarlarla təsvir olunur. Lakin, müəllif bizim bu partlayışı rəmzi şəkildə görməyimiz niyyətindədir. Bu koloniya statusundan sonra ortaya çızmasını əks etdirən şüurda çevrilişin analoqudur. Polkovnik Veyn, kanadalı, lakin vətəni Böyük Britaniya ilə sıx bağlı olan bir insan partlayış zamanı ölür. Qədim şəhər də darmadağın edilir. Gənc insanlar, Nil Makrol və Polkovnik Veynin qızı Penelop xəsarət almır, kanadalı olmalarının əhəmiyyətini dərindən dərk edərək ətraflarındakı gənclərlə gələcəyə doğru irəliləyirlər. Maklennanın öz obrazlarını öz realizmi ilə məharətlə əlaqələndirməsi onun ortayaşlı oxucusunu özündən asılı olmayaraq heyran etmişdir. O, bunu yalnız bir müddət keçəri, sonra isə şüurlu surətdə dərk etmişdir. Maklennan hamını ideyalar aləmində maraqlandıran yazıçıdır. Ona görə də onun əsərlərini tam qiymətləndirmək üçün oxucu ona xüsusi təsir göstərən düşüncə tərzindən xəbərdar olmalıdır. Ona görə də biz onun qələmindən çıxan oçerklərin real məzmununa diqqət yetirməliyik. Onlar ideyalar aləmunə parlaq işıq saçırlar. Oçerklərin diqqətlə oxunması sübut edir ki, o, ən azı üç intellektual və mədəni ənənələrlə bağlıdır. Hər şeydən əvvəl Maklennan özünün mənəvi mirasını düzgün dərk etmişdir. Onun IV nəsil kanadalı olmasına baxmayaraq şotland əcdadlarının kalvinist nəzəriyyəsi düşüncələrində geniş nəzərə çarpır. Əksər hallarda o buna qarşı çıxır. O, görür ki, kalvinizm Allahın hakimiyyətini çox kobud təsvir edir. Bu Allah xeyrini bilənləri seçir, başqaları isə yaxşı anlamamaq səbəbi üzündən məhkum olmuşlar. Sözsüz onlar insani gözəlliyə və insan cisminə olan sevgilərini ifadə edirlər. Bu cür etiqadların nəticəsi olan puritan mənəviyyatı Maklennan üçün sərt repressiyadır. Puritan öz emosiyalarını büruzə verməkdən qorxur. O, cinsi ehtiyacdan asılı olub həyatını əbəs yerə ağır iş vasitəsilə Allaha yaxşılıq cəhdi ilə keçirir. Maklennanın puritanizmin əleyhinə çızmasını təxminən hər əsərində görmək olar. "Uçurum" (The Precipice) (6) əsərində kalvinizmin tənqidi hər şeyə malik olub lakin, kanadalı düşüncəsini alt-üst etmək üzərində qurulmuşdur. Bu kanadalılara hədsiz ehtiyatlı olmağa və həyatdan bərk yapışmaqdan çəkinmək hissini vermişdir. Bəzən o, puritanizmin günahsız qurbanlarını və onların rəhmə ehtiyacı olduqlarını təsvir edir. "İki tənhalıq" (Two Solitudes)-də Kaslin Tallard obrazı buna misal ola bilər. Onun təbii arzularının puritan qayda-qanunlarına görə cəmiyyətdə sıxışdırılmasına acıyırıq. Maklennanın Kaslinin faciəsinə acıması əsərin bütün süjet xətti boyunca sezilir. Kaslinə öz adi davranışlarından əl çəkib oxucunun layiqli addım kimi qəbul etdiyi, əslində qanunsuz olan hərəkətlərdən zövq almağa icazə verilir. Patrisiya Morlinin "Əxlaqsız Əxlaqçılar" (The İmmoral Moralists) əsərində qeyd etdiyi kimi Maklennan öz düşmənlərinə qarşı münasibətdə ardıcıllıqdan uzaqdır. Morlinin dediyi kimi o, dinin kanadalıları çox sərt ilhibə etdiyinə görə günahlandırır və buna görə puritanizmin üzərinə hücuma keçir. Bunu o özü qəbul etməsə də bu amil onun sənətkarlıq dünyagörüşünə təsirsiz ötüşməmişdir" (3, s.11). Savadlı oxucu Maklennanda ardıcıl idealizmin puritan dünyagörüşünün tərkib hissəsi və onun yaradıcılığı ilə sıx bağlı olduğunu dərhal duya bilər. Onun əsərlərində aşıladığı keyf insanların həyatda nifrət etdiyi hədəf deyil. Maklennanın inadkarlığı özünü keyfi əsas tutan hegonizmin bəşəriyyəti idarə edən vasitə olmadığı fikrində büruzə verir. 60-70-ci illərdə Kanadada cinsi maraqlara geniş azadlıq verilmişdir. Maklennanın puritanizmin müsbət tərəflərinə böyük maraq bəsləməsi nəzərə çarpır. Oçerklərində təsvir olunduğu kimi puritanizm barəsində qarışıq fikirləri Maklennanın atasına münasibətindən irəli gəlir. Bu illərdə o yazırdı ki, hələ də atasının onun 1929-cu ildə çoxdan arzula-

dığı Rhodes mükafatına layiq görülməsinə soyuq münasibət bəsləməsindən titrəyirdi. Sözsüz qoca, oğlundakı məğrurluğu coşduracaq razılığını ifadə etməyə könülsüz idi. Onun dediyi ancaq "Get qarı kürəklə!" idi. "İki tənhalıq" (Two Solitudes)-dakı patriarxal Athanase Tallard kimi obrazlar bu qarışıqlıqdan sağ çıxırlar. Tallard xalqının keçmişindən irrasionallığı seçib atmağa cəhd göstərən müasir rasionalist və onların qədim dəyərlərinə hörmət edən sentimental mühafizəkardır. Əgər bu, obrazı qətiyyətsiz və dəyişkən edirsə deməli, öz tamlığı ilə bəşəri həqiqətlərə qarşı həssas olan bir surət yaratmış olur. Şübhəsiz Tallardın təsviri bu cür bitkin və həqiqidir, çünki Maklennan dağılmış düşüncələrindən qazandığı təcrübəsinə əsaslanmışdır. Ona təsir edən ikinci fikir aləmi romantizmdir. Maklennan öz puritan irsindən idealizmi götürür və onu tamamilə romantikləşdirir. Onun puritan əxlaq sisteminin represiyalarına qarşı nifrətini romantik üsyan kimi qiymətləndirmək olar. Romantik düşüncə öz mahiyyətini təsəvvürdə tapır. Maklennanın əsərləri öz emosiyalarına sadiq qalıb müəllifin coşğunluğunu qəbul etməyən kişi və qadın qəhramanlarla doludur. "İki tənhalıq" (Two Solitudes)-da Hizer və Pol evlənmək üçün rəsmi sosial sanksiyanı gözləmədən aralarındakı cinsi yaxınlığın daha da dərinləşdirirlər. Zəmanəsinə görə bu əsər həqiqi üsyan idi. Maklennan romantizminin ən xarakterik cəhəti təbiətin tərənnümüdür. Romantik fikrin mərkəzində insan və təbiətin əlaqəsi vurğulanır və Maklennanın üslubunda bu birlik onun əsas qəhramanlarının şübhə doğurmayan hədəflərindən biridir. Şəhərin müasir mühiti onların düşüncə azadlıqlarını darmadağın etməklə qorxudur və onlar itirdiklərini geri qaytarmaq üçün tənha, sakit yerə çəkilmək məcburiyyətində qalırlar. Maklennanın yaradıcılığında bu sakit guşə çox vaxt bağ evi olur. Bu elə tez-tez baş verir ki, təbii gözəlliyin şəfaverici gücü romantik həsrətin simvolikasına çevrilir. "Gecəni sona çatdıran saat" (The WatchThat Ends the Night) əsərində Jerom və Kaserin belə yerdə təsəlli tapırlar. Əmin olmaq olar ki, bununla Maklennan Nors Hatli, Kvebek yaxınlığındakı bağ evinə istinad edir. Əgər təbiətlə canlı birlik romantik hədəfdirsə Maklennan kimi romantik yazıçı üçün təbiət həmişə narahatedici gücünü qoruyub saxlayır. İlk oçerklərindən birində qeyri-bədii əsəri olan "Kanadanın Yeddi Çayı" (Seven Rivers of Canada)-da (8) o, kanadalıların həmişə təbiətə qarşı müəyyən fikirdə olacağını açıqlayır. Əvvəldən onlar bilirdilər ki, ram edilməsi mümkün olmayan güclü təsirdən bəhs edirlər. Onun fikrincə ingilislər öz xeyrini güdən maraqları ilə Şimali Amerikada gəlir gətirməyəcək lazımsız bir şeyi buraxdılar. Onlar Kanada çölünü qalın və xoşagəlməz bilirdilər. Amerikalılar materialist və elmi nöqteyi-nəzərdən təbiəti rədd etməyi və insan mədəniyyətinə diqqət verməyi bacardılar. Ancaq ölkəni balaca qayıqda dolanan ilk kanadalılar təbiəti möhkəm, vəhşi və cırtdan insana bənzətdilər. Maklennana görə insana lazım olan dərsi vermək üçün bu həqiqət yetər. Kanada kimi geniş ölkədə yaşayan insan bu dərsi unutmamalıdır. O, bu romantik tendensiyanı həyata keçirməyə və təbiətlə mübarizədən layiqlə azadlığa çıxanları qəhramanlaşdırmağa çalışır. Maklennan təbiət qoynuna səyahətə çıxanları bu qəbildən olan qəhramanlara bənzədir (2, s.84). Bu romantik ruh Maklennanın əsərlərinin ən yaxşı sətirlərində özünü göstərir. Onun romantik qəhrəmanı cavan və ya qoca, kişi və ya qadın ola bilər, o, ilk səyahətçilərə nisbətən mühitlə az vəhşiliklə mübarizə aparar. "İki tənhalıq" (Two Solitudes)-dakı Con Yardlini misal göstərmək olar. Yardli fransız dilində danışan Kvebek kəndinə yaşamağa gedir. Onun bu gedişi bəşər cəmiyyətinin necə olması arzusundan irəli gəlir. Hekayənin sonunda materialist mədəniyyətlə mübarizə, keçmişə dönüş vasitəsi ilə mübarizə aparmaq kimi üzə çıxır. Yardli qoca yaşında qədim Yunan dilini öyrənməyi qarşısına məqsəd qoyur. Mübarizəyə çağırışın təbiətinə nəzərən o özünü bu iki nümunədə Con Bunyan kimi, axtarışın çətinliyinə nəzərən isə əsl romantik qəhrəman kimi özünü nümayiş etdirir. Maklennanın dini humanizmi onun idealizmi, puritanizmi və sadəliyinin üstünlüyündə romantik səciyyə daşıyır. "İki tənhalıq" (Two Solitudes) əsəri kanadalılar tərəfindən sabit bölgü simvolu kimi qəbul edildiyinə baxmayaraq Rilkedən gətirilən sitat əsərin epiqrafı olması etibarı ilə ayrıseçkiliyi yox etməyə çalışan sevgidən bəhs edir. "Sevgi budur: iki tənha bir-birini müdafiə edir, təsir edir və salamlaşır" (9). Maklennana məxsus cəhətlərdən biridə odur ki, o, kanadalılara ən yaxşı dərsini verərkən bəzən özünün bə-

yənmədiyi, səhv qəbul etdiyi qərarlar, müəllifə öz sözünü deməyə imkan verir. Lakin, təcrübəli müəllim kimi o, özü bilir ki, ya özünün, ya da başqasının sözlərilə problem həll etmək olmaz. Vacib məsələlərin həlli kütlə ilə təmasdan irəli gəlir. Kanada həqiqətlərinin təhlili irəli sürə bilər, imkanların görünüşü təklif oluna bilər, heç kəs bunu etdiyini inkar edə bilməz. Rocer Human son məqaləsində qöstərir ki, "onun bütün əsərləri tam bəşəri əhəmiyyətə və milli xarakterə köklənmişdir" (10). Ancaq sonda oxucu gizli yolla Maklennanın yaradıcılığı barəsində ən mühüm cəhətin axtarışına dəvət olunur.

Ədəbiyyat

1. George Woodcock, Hugh MacLennan- Toronto-CoppClark, 1969, p.3.
2. Hugh MacLennan, "The Future of the Novel as an art Form"-Toronto, Macmillan, 1960, p.156
3. Patricia Morley, The İmmoral Moralists- Toronto, 1972, p.11
4. Hugh MacLennan, Barometer Rising-Toronto, 1958.
5. Hugh MacLennan, Two Solitudes – Toronto, 1967.
6. Hugh MacLennan, The Precipice – Toronto, 1948.
7. Hugh MacLennan, The Watch That Ends the Night – New York, 1961
8. Hugh MacLennan, Seven Rivers of Canada. Toronto, 1961
9. Rainer Maria Rilke, Letters to a Young Poet, as quoted on the dedication page of Two Solitudes.
10. Roger Leslie Hyman, "Hugh MacLennan: His art, His Society and His Critics", Queen Quarterly XXXII, 4 (Winter 1975) 515ff

Н.Ф.Ханкишиев

Проблема национальной идентичности в англо-канадской литературе (Хью МакЛеннан)

Резюме

Эта статья посвящена литературному творчеству канадского новелиста Джон Хью МакЛеннана. Цель автора – объединить франкоязычных и англоязычных канадцев в борьбе за единый канадский национальный идентизм. Дан анализ романа «Два одиночества» и сделаны выводы о том, что он является личным достижением писателя в борьбе за определение и пропаганду национальной идентичности канадцев.

N.F.Khankishiyev

The Problem of National Identity in English-Canadian Literature (Hugh MacLennan)

Summary

This article is about Canadian novelist John Hugh MacLennan's literary activity as a teacher and writer. Here the talk is about his aim to join francophone and anglophone canadians in the struggle for Canadian national identity. Analysis of the novel "Two Solitudes" with the conclusion of that the novel is both a distinctive personal achievement and a wide ranging summation of the life of the time where canadians fought for their national identity free from English, French and American imperialism.

Rəyçilər: dos. A.İsmayılova
ADU-nun Xarici ölkələr ədəbiyyatı kafedrası
(04.10.2019-cu il tarixli iclasın qərarı (pr. №02))

Redaksiyaya daxil olub: 29.10.2019

E.A.YÜCETAŞ

Bakı Slavyan Universiteti
(Bakı şəh., S.Rüstəm küç., 25)

"KOROĞLU" DASTANINDA RİTUAL DAVRANIŞIN SEMİOTİKASI

Açar sözlər: *"Koroğlu", dastan, qəhrəman, personaj, ritual, davranış*
Ключевые слова: *Кероглу, эпос, герой, персонаж, ритуал, поведение*
Key words: *Keroglu, epic, hero, character, ritual, behavior*

"Koroğlu" mürəkkəb və mükəmməl semiotik sistemdir. Bu sistemin əsas kateqoriyalarından biri də qəhrəmanın və personajların davranışıdır.

S.Rzasoy hesab edir ki, eposun poetik strukturu ritual arxaik sxemlərdə əksini tapmışdır, xüsusən inisiosiya ritualı mühüm rol oynayır – Koroğlunun evlənmə aktı bütün dəlilərin təkrarlamalı olduqları ritualın standartıdır (Rzasoy, 160).

"Koroğlu mifdir, mifolojiləşdirilmiş obrazdır. Mif isə həmişə simvolikdir. Koroğlunun semantik gerçəkliyi ətrafında maraqlı informasiya məkanı yaratmışdır. Bir yandan fövqəlgücə malik olan mifik qəhrəmandır, digər tərəfdən zülmkarlara qarşı mübarizə aparan, yoxsulları qoruyan xalq qəhrəmanıdır (Cəfərova, 77).

Dastan qəhrəmanlarının davranışı türk mentallığının mənəvi dəyərlərinin epik ifadəsidir.

Azərbaycan eposşünaslığında Koroğlu obrazının mifoloji substratı ilə bağlı araşdırmalara yer verdiyindən mətnin semiotikası diqqətdən kənarda qalmışdır. Nəzərə alsaq ki, "dastan özündə üç fəlsəfi-estetik komponenti – mifologiyanı, sufiliyi, həyatiliyi (realizm) birləşdirir" (Cəfərov 287), onda epik qəhrəmanın davranışını üç fəlsəfi-estetik həmin komponentin mahiyyətini özündə ehtiva etdiyini görərik.

Sonrakı dövrlərdə eposun personaj-təhkiyə sisteminə dini-mistik meyillərin təsiri (xüsusən Cənubi Azərbaycanda) Koroğlu obrazının transformasiyasını da şərtləndirmişdir, eposa xalq sufizminin təsirini gücləndirmişdir. Koroğlu (Əli Kəmali arxivindəki variantlar və Tiflis variantında Koroğlu Cəlali Koroğlu adı ilə verilmişdir).

Koroğlu ilk növbədə mədəni qəhrəman atributlarının daşıyıcısıdır. "Mədəni qəhrəman arxaik strukturlu dastanlarda həm kultun təsisçisi, həm də ilkin icraçısı funksiyası yerinə yetirir... bir neçə ipostasda, o cümlədən, demiurq, ilkin əcdad, trikster ipostaslarda çıxış edə bilir. Mədəni qəhrəmanın gətirdikləri elə dəyərlərdir ki, etnos onsuz var ola bilməz" (Bəydili, 2003).

Koroğlunun davranışı üç sakral güc ilə şərtlənir: Çənlibel, misri qılınc və Qırat. "Bu adı Koroğluya atası Alı kişi verir. Qırat kimi, Misri qılınc kimi, Çənlibel kimi Koroğlu adında da nə isə mistik-ilahi, qoruyucu bir qüvvə vardır" (Abbaslı, 646).

"Müdrik qoca olaraq Alı kişinin məkan axtarışı, əslində "dünyanın mərkəzinin axtarışıdır. Alı kişinin də dağın zirvə yerində dəfn olunması semiotik planda müqəddəs şəxslərin, dədələrin, ataların dağ zirvələrindəki qəbirləri ilə eyni semantikaya malikdir" (10, 43). O, igidliyin struktur modelidir. Bütün dəlilər "Koroğlu" struktur modelindən keçib "Koroğlulaşmalıdır" (Rzasoy 2009, 76).

Çənlibeli sakral məkan kimi səciyyələndirən S.Rzasoy yazır: Çənlibel dəlilərin inisiasiya ritualında yerləşdiyi məkan və dövrdür. Cəmiyyətdən buraya gələn fərd öz əvvəlki statusundan çıxır və dəli statusu alır" (12, 315). Koroğlunun başına yığışan igidlərin inisiasiyadan keçməsi, Koroğlu dəlisi statusu qazanması Çənlibellə bağlıdır. Onlar mütləq sakral Mərkəzə - Çənlibelə gəlməlidirlər, "epikdəstə" yaratmalıdırlar. "Ritual əski innisiasiya mərasimi formasında saxlanması da, status dəyişikliyi də mətnin alt qatında qorunmuşdur. Belə ki, Çənlibelə / Çamlıbelə daxil olmaq üçün bəzi ritualların keçirildiyi Azərbaycan variantında Təhmasib nüsxəsində qulun sınanmasında, işarə şəklində olsa da, qalmışdır" (3, 57).

Qıratın xüsusiyyəti Koroğlunun davranışını müəyyənləşdirir. “Qıratın elə xüsusiyyətləri vardır ki, onu nəinki başqa atlardan, Düratdan da ayırır: əvvəla, Koroğlunun ürəyindən keçənləri bilir, ikincisi, dostu düşməndən seçir, üçüncüsü, Koroğlunu heç vaxt darda qoymur...” (6, 148).

Koroğlu Qıratın dəyərini Nigar xanıma belə anladır:

“...Nigar xanım soruşdu:

Bu qədər Qırat-Qırat ki deyirsən, axır o necə atdır ki, bizim ikimizi bu qoşunun içindən çıxarıb apara?

Aldı Koroğlu dedi:

Uca Dağ başında yel kimi əsir,
Dar günümdə mənə ürək Qıratım.
Bir aylıq mənzili bir gündə kəsər,
Köhlən bəzəmişəm, gərək Qıratım.
Qoç Koroğlu qonaq olsa yəhərə,
Yağı düşmənləri salar qəhərə.
Axurda arpasın qoymaz səhərə,
Dara düşsəm mənə kömək Qıratım.

Nigar dedi:

- İndi ki, bu qədər tərifləyirsən, gedək bir görək o necə atdı?

Koroğlu yüyənini ağacdan açıb, tərlan kimi Qıratm belinə sıçradı. Nigar elə bircə bunu gördü. Koroğlu cəld sağ əlini atıb, Nigan dik qaldırdı, atın tərkinə basdı. At iki dal ayaqları üstə qalxıb, bağm hasarına tərəf yönəldi.

Nigar dedi:

Bir dayan görək! Fikirləşək, məsləhətləşək. Koroğlu bayaq atı hasardan sıçradıb Çənlibelə tərəf üz qoydu”.

Hasan paşa da Qırat haqqında Koroğlunun dilindən eşitmək istəyir:

“... Hasan paşa dedi:

Sən deyirsən ki, Qıratı görmüsən. Bir az onun tərifindən de! Xasiyyətindən, nişanından oxu, görək necə atdır.

Koroğlu dedi:

Paşa sağ olsun, çərən dəymiş çox yaxşı atdı, bircə o cini olmaya. Ondan sazı basdı döşünə dedi:

Armudu dırnaqlı, hündür boyunlu,
Meydana girəndə yüz min oy unlu.
Dəyirman mədəli, ac qurd yeyimli,
Ortası qulana dolu gərəkdir.
Qaranlıq gecədə yolu çaşmayan.
Düşmən qabağında ər düşürməyən,
Üstündə əl-ayaq yığşırılmayan
Koroğlunun atı dəli gərəkdir.

Koroğlu qurtaracaq ki, Hasan paşa özünü atdı onun üstünə ki:

- Aşıq, tez ol, gir içəriyə, səni dünya malından qane eyləyəcəyəm. Qapım açdılar. Koroğlunu itələyib saldılar Qıratın yanına”.

Epik qəhrəmanın atının olması artıq onun yüksək sosial nüfuza və sakral statusa malik olmasının göstəricisidir. At “Koroğlu” igidliyinin, ərənliyinin ayrılmaz atributudur. Ona görə də Qırat və Koroğlu, Alapaça və Giziroğlu Mustafa bəy, dəlilər və atları həmişə vəhdətdə təqdim olunur. Ə.Tanrıverdi haqlı olaraq qeyd edir ki, “Koroğlu”da “sanki at da (Qırat) dəlilik (igidlik) statusuna malikdir: Koroğlunun atı dəli gərəkdi” (14, 62).

Qırat və Dürat dərya ayğırları olub, mifoloji-simvolik varlıqlardır, fövqəladə xüsusiyyətlərə malikdir. Koroğlu yalnız Qıratla birlikdə bütöv qəhrəmandır, kritik situasiyalardan həmişə

qalib çıxır. Keçəl Həmzə tərəfindən Qırat oğurlandıqda Koroğlu özünü "əlsiz-ayaqsız", yarımçıq igid kimi hiss edir. Ona görə də nəyin bahasına olursa-olsun, Qıratı qaytarmaq istəyir.

Bəzi tədqiqatçılar "Koroğlu"da (xüsusılə Anadolu və Azərbaycan variantlarında) aşıqlığın alplığı üstələməsini, bir tərəfdən mifoloji obrazın bədii-estetik dəyər qazanması və ümumiləşmiş bədii simvola dönməsi, başqa tərəfdən, xalq sufizminin dastanın iç strukturunda yaşama haqqı əldə etməsi (4, 63) kimi mənalandırmışlar.

Əslində Aşıq Cünun özü də Koroğlu aşıqlığının ipostaslarından biridir. K.Əliyev belə qənaətə gəlir ki, "Aşıq Cünün "Koroğlu" eposunun poetikasında son dərəcə zəruri funksiyaların daşıyıcısıdır. Eposda igidlərin-dəlilərin yanında bir dəli aşığın da olması Koroğlunun bitkin və mədəni cəmiyyət quruculuğu işinin təsdiqidir" (7, 130). K. Əliyevə görə, dəlilik Aşıq Cünuna Koroğluyla eyni səviyyədə status verir (7, 122).

Koroğlunun davranışını sərtləndirən aktlardan biri də aşıqlığı – saz çalmasıdır. "Koroğlu"da söz, səs və qılınc savaş meydanında birləşir. Koroğlu savaş meydanında yalnız fiziki gücünü deyil, həm də ilahi coşqun təbinin gücünü nümayiş etdirir. Qəhrəmanın savaş ruhu ilə söz ehtirası vəhdətdədir" (Cəfərov, 86). Əslində aşıqlıq Koroğlunun trikster olma imkanıdır. "Elə bu dəmdə Koroğlu özünü saldı meydana. Aslan paşa gördü ki, budu, bir aşıq çiynində saz girdi ortalığa. Dedi:

- Ayə, yanşaqsanmı?

Koroğlu dedi:

- Bəli, paşam, yanşağam.

Aslan paşa dedi:

- Ayə, heç Koroğlunun sözlərindən bilirsənmi?

Koroğlu dedi:

- Ay paşa, izn ver, sənə söz oxuyum, söz olsun, Koroğlu nə adamdı ki, onun sözü belə məclisdə oxuna" (Koroğlu, 84).

Koroğlunun fərqli situasiyalarda davranışı dəli nərəsi ilə bağlıdır. Koroğlu nərəsi onun savaş ritualının vacib komponentidir. "XVI əsrdən sonra özünü düşmən qoşununa vuran igidin nərə çəkməsi barədə müxtəlif mənbələrdə geniş bəhs olunur – Koroğlunun nərəsi isə daha dəhşətlidir, Allah vergisidir" (6, 167).

"Dəli Həsənlə Koroğlu dava eləyəsi oldular. Qılıncların çəkib bir-birinə hücum elədilər. Qılıncdan murad hasil olmadı, nizəyə əl atdılar. Nizədən də kar aşmadı. Axırda atdan düşüb güləşməyə başladılar. Dəli Həsən ilə Koroğlu çox güləşdilər, gah o buna güc gəldi, gah bu ona güc gəldi. Qoç Koroğlu axırda bir dəli nərə çəkib Dəli Həsəni götürüb yerə vurdu" (9, 38).

Koroğlu və onun dəlilərinin davranışını etik dəyər oppozisiyaları müəyyənləşdirir, mərdlik-namərdlik, doğru söz – yalan söz, kişi-qadın, xeyirxah-zalım, xeyir-şər, varlı-kasıb və s. Onları xalqa sevdirən də bu etik dəyərdir. N.Cəfərov haqlıdır:

"Koroğlunun mükəmməl bir obraz kimi işarələndiyi əsas semantika, yəqin ki, mərdlik, kişilikdir" (6, 142). Dastan mətninin statistik təhlili aparılsa, "mərdlik" konseptinin burada nə qədər fəal olduğunu aşağıdakı poetik örnəklərdən də aydın görə bilərik:

Qoç quzudan quzu törər qoç olar,
Qoç igiddən qoçaq olar, sultanım!
Mərd igidlər dava günü şad olar,
Müxənnətlər naçar olar, sultanım!
Canım qurban mərd igidin özünə,
Mərdi olsa, əlin vurmaz dizinə,
Fürsət düşsə, düşmanının gözünə,
Burma-burma bıçaq olar, sultanım!

və yaxud

Mərd dayanar, namərd qaçar.
Meydan gumbur-gumburlanı...
Dəlilərin meydan açan
Düşman günbur-gumburlanı

ya da

Bizim elin dəliləri
Girər meydana, mərd olu,
Ölüncə meydandan qaçmaz,
Girəndə meydan gərd olu.
Mərd igidlər bir-birinə daldadı,
Çuğullar ölməyib, sağu soldadı,
Mərd meydandan qaçmaz, qaçsa daldadı,
Qovğa günu haçaq olar, sultanım!

Misri qılınc bu mərdlik dünyasının əsas simvolik artefaktı idi. Ona görə də qocalmış Koroğlunun tüfənglə tanışlığı içində təşviş dolu sual doğurur.

Tüfəng çıxdı, mərdlik getdi, ay aman
Mənmi qocalmışam, ya zamanəmi?

Dədə Qorqud kimi Koroğlu da advermə funksiyasına malikdir. İnisiasiya ritual prosesinin başçısı olan Koroğlu advermə funksiyasını da yerinə yetirir.

Çənlibelə Keçəl Həmzə kimi gəlsə də, Koroğlu ona başqa ad (Kaloğlan) verir.

"Xanımlar, dəlilər nə buyurardılarsa, gedərdi. Getdiyi işi yaxşı da yarıdardı. Belə zirəkliyinə görə get-gedə dəlilərin, xammlam yanında Keçəl Həmzənin hörməti də artırdı. Koroğlu da Keçəl Həmzənin diribaşlığını görüb, onun adını dəyişdirib Kaloğlan qoydu" (10, 176).

Triksterlik Koroğlunun özünüifadə, təcəssüm şəkillərindən biridir. Triksterlik epik qəhrəmanın mahiyyətindədir, oyun, hiyləgərlik, kələkbazlıq, aldadıcı fəndlər müxtəlif situasiyalarda onun istifadə etdiyi vasitələrdir. "Koroğlunun çoxmənalılığını təmin edən mühüm cəhətlərdən birf'dir (8, 155). Koroğluya istinad edilən "igidlik ondur, doqquzu qaçmaqdır, biri heç gözə görünməmək" məsəli qəhrəmanm trikster mahiyyətindən gəlir (15, 162). Koroğlu "kələkbazlığı qəhrəmanlıqla üzvi şəkildə birləşdirməsinə görə digər dastanlarımızın baş qəhrəmanlarından əsaslı şəkildə fərqlənir" (8, 157).

"Koroğlu" dastanında trikster əlamətlərinin mövcudluğunu qeyd edərkən adətən ilk növbədə Keçəl Həmzənin adı keçən süjetlərə diqqət yetirilir. "Koroğlu ciddi qəhrəmandırsa, Həmzə də Tanrıya qarşı çıxan triksterdir. O, qələbəsini yalnız kələkbazlığı, bicliyi, hazırcavablığı ilə əldə edir. Dastanın ciddi qəhrəmanları, əksinə, fiziki güclərinə arxalanırlar. "Koroğlu" eposunda ən ciddi obrazlarda da triksterlik görünməkdədir. Bu isə dastanın sonrakı inkişafı ilə əlaqədardır" (5, 151).

Tədqiqatçıların qənaətinə görə bəzən inversiya nəticəsində Koroğlu ilə Keçəl Həmzənin əvəzlənməsi halları da olur. Koroğlu da, Keçəl (Həmzə) də arxitektonik strukturu baxımından bir obraza - vahid arxisistemə gedib çıxır" (13, 100). H.Quliyev də qeyd edir ki, trikster və mədəni qəhrəmanlıq obrazın dublikativ keyfiyyəti kimi də özünü göstərir. Mətnlərdə qəhrəmanla bərabər onun dublyoru, yəni əvəzedicisi paralel şəkildə iştirak edir. Bu yalançı qəhrəman əsl qəhrəmanın hərəkətlərini imitasiya edir" (11, 63). Keçəl Həmzə Koroğlunun atına sahib çıxır, müvəqqəti olaraq ona "qalib gəlir". Simvolik olaraq Koroğlunu əvəz edir. İnversiya müvəqqəti identifikasiya ilə əvəzlənir. Koroğlu da Keçəl Həmzənin oyun qaydalarını qəbul edir.

M.Kazımoğlunun fikrincə, Koroğlu obrazında da kələkbazlıq öz mayasını sosial arxasızlıqdan götürür və bu kələkbazlıq bahadırlıq tərkibində yeni-yeni mənalar qazanır. Sonradan

yüzlərlə, minlərlə silahdaş tapsa da, Koroğlu sosial arxasızlıqdan doğan ilkin mahiyyətini saxlayır" (8, 158).

"Koroğlu"nun davranışı fərqli variantlarında "qiyafət dəyişmə" aktı ilə bağlıdır. Qıyafət dəyişmə durumu mifoloji dönərgəlik funksiyası ilə bağlıdır, "bu durumda (qiyafət dəyişərkən) onlar özləri də dəyişirlər (hətta cinsiyyətləri də dəyişir) və adları da dəyişir" (17, 15).

Koroğlunun gündəlik ritual davranışında, savaş meydanında oyun başlanğıcı epik qəhrəmanın triksterlik mahiyyətindən xəbər verir. "Koroğlunun dəyirmançı, aşıq, ilxıçı, qoruqçu, çodar, tacir və başqa qiyafətlərə girməsi də bu görüşlər axarında (dönərgəlik olaraq) anlamı qazanır. Yəni bunların heç biri Koroğlu surətindən kənarda olmayıb, onun parçaları və ya manifestasiyalarıdır" (10, 103- 104).

"Koroğlu" dastanının süjetlərində keçid ritualının müəyyən arxetipik mərhələləri əksini tapmışdır. Azərbaycan tədqiqatçısı F.Bayat Koroğluluğu arxaik keçid ritualı ilə əlaqələndirir: "Koroğluluq adlı keçid ritualı baş qəhrəmanın yenilməz igid, könlünə ilham gəlmiş aşıq / baxşı kimi yeni status qazanmasıdır" (3, 57).

Tələbənin professional hazırlığından və xarici dil bilgisi səviyyəsindən, habelə müəllimin prosesdə və situasiyanın həlli nəticəsində nail olacağı məqsədindən asılı olaraq müxtəlif çətinlik dərəcəli keyslərdən istifadə etmək mümkündür. Məsələn, mövzu üzrə yekun dərsdə mürəkkəb olmayan situasiyanın təhlilinə dərsin müəyyən hissəsini həsr etmək olar. Mətn materialı, statistik hesablamalar, qrafik və cədvəllərlə ilkin analitik iş tələb edən nisbətən mürəkkəb situasiyanın həllinə bütöv dərsi həsr etmək mümkündür.

Tələbələrin mətn materialını, rəqmsal materialı öyrəndikləri zaman bütün mümkün tədris vasitələrindən - ənənəvi və interaktiv vasitələrdən istifadə olunur, habelə onlara interaktiv

baxış və eşitmə imkanları verilir. Tələbələr situsiyalarla işlədikdə informasiyanın vizual, eşitmə, emosional qavranılması imkanı yaradıldıqda, daha səmərəli nəticələr əldə edillər. Bu amil həm də tələbələrə konkret situasiyada işlətdikləri leksikanı danışığa tətbiq etməyə və yaddaşda möhkəmləndirməyə kömək edir.

Y.P.Surmin çoxsaylı təhlil növlərini iki kateqoriyaya bölür: səbəbin təhlili, yəni öyrənilən obyekt çərçivəsində səbəblərin üzə çıxarılması; sənədlərin təhlili, yəni sənədin özünün təhlil predmeti kimi çıxış etməsi. Keys metodunda təhlil ikinci növə aiddir. Bu zaman situasiyanın düşünülüb dərk olunması üçün çoxsaylı analitik metodların istifadə olunduğu analitik fəaliyyətin xüsusi məzmununun formalaşması müşahidə olunur. Keys metodu çərçivəsində əsas məzmun kateqoriyaları bunlardır: problemin təhlili (problemin ayırd edilməsi), sistemli təhlil (obyektin sistemli yanaşma çərçivəsində öyrənilməsi), prakseoloji təhlil (fəaliyyət proseslərinin onların səmərələşdirilməsi mövqeyindən öyrənilməsi), proqnostik təhlil (situasiyanın potensial inkişafına münasibətdə əvəvlcədən müəyyənləşdirmənin formalaşdırılması) (7, s. 53).

Şübhəsiz ki, Keys metodu tədqiqat texnologiyasının spesifik növü kimi nəzərdən keçirilir. A.N.Şukin Keys metodu daxilində əməliyyatı belə təsvir edir: "öyərncilərə qovluqda (keysdə) olan tədris materialları paylanır və materialla tanışlıq nəticəsində, bir qayda olaraq, ondakı birmənalı həlli olmayan problemlərin məzmununu dərk etmək təklif edilir və peşəkar bilik və bacarıqlar tətbiq edilmədən öz təklifini vermək tələb olunur (11).

Biznes sahəsində ingilis dilininin öyrənilməsi çərçivəsində Keys metodu biznes tematikası üçün oxunulan dialoq və ya mətn seçmələrindən ibarət ənənəvi materiallardan fərqli olaraq, tələbələrə təhlil və qərar qəbul etmək üçün aktual biznes proqramını təqdim edən autentik materialları özündə əks etdirir (11). Bu tədqiqat işi kontekstində ixtisas xarici dilə yiyələnmənin Keys metodunun məzmununun məxsusi şərhi verilir: bu metod çərçivəsində təhlil, axtarış və problemin qoyuluşunu tələb edən keyslə tanış edilir.

Təlimin bilik paradiqmindən keçid kontekstində Keys metodu istifadə edilməklə ingilis dilinin tədrisində formalaşan vərdişlər xüsusi əhəmiyyət kəsb edir. Məsələn, O.İ.Smolyaninova Keys metodu vasitəsilə inkişaf etdirilən aşağıdakı vərdişləri qeyd edir (6):

- analitik vərdişlər: əsas informasiyanı müəyyənləşdirmək, təhlil və təqdim etmək bacarığı;
- praktik vərdişlər: "iqtisadi nəzəriyyə, metod və prinsiplərdən praktikada istifadə etmək vərdişlərinin formalaşması";
- yaradıcı vərdişlər: alternativ qərarların işlənib hazırlanması üçün xüsusi əhəmiyyət kəsb edən vərdişlər;
- kommunikativ vərdişlər: "diskussiya aparmaq qabiliyyəti, ətrafdakıları inandırmaq qabiliyyəti, əyani və digər media vasitələrdən istifadə etmək, qruplarla əməkdaşlıq etmək, öz baxışlarını müdafiə etmək, rəqiblərini inandırmaq, qısa, lakin inandırıcı hesabat hazırlamaq;
- sosial vərdişlər: insanların davranışının dəyərləndirilməsi, diskussiyada dinləmək qabiliyyəti və ya əks fikri əsaslandırmaq, özünə nəzarət etmək və s.
- özünütəhlil: "diskussiyada narazılıq digərlərinin və özünün fikirlərini dərkinə və təhlilinə yardım edir. Yaranan əxlaqi və etik problemlər onların həlli üçün sosial vərdişlərin formalaşmasını tələb edir".

Ədəbiyyat

1. Краснощекова Г.А. Тенденции реформирования методики обучения иностранным языкам в неязыковом вузе // Известия ЮФУ. Технические науки, 2010, № 10 (111), с. 76-81.

2. Медведева Л.Г. Формирование иноязычного профессионально ориентированного тезауруса у студентов юридической специальности. Томск: Изд-во Том. ун-та, 2010, 130 с.

3. Миникова Л.Ю., Обдалова О.А. Компетентностный подход в реализации профессионально ориентированных проектов при обучении иностранному языку //Вестник Томского государственного университета. 2012. № 365, с. 143-148.

4. Долгоруков А. М. Case-study как способ понимания / А. М. Долгоруков // Практическое руководство для тьютера системы Открытого образования на основе дистанционных технологий. Центр интенсивных технологий образования. М.: Прогресс, 2000, с. 21-44.

5. Смолянинова О.Г. Дидактические возможности метода case-study в обучении студентов /[Электронный ресурс]. Режим доступа: http://iphras.ru/ uplfile/ ethics/RC/ed/ school2/materials/ apressyan6.html#8 (дата обращения 15.02.2017).

6. Сурмин Ю. П. Ситуационный анализ, или Анатомия Кейс-метода. Киев: Центр инноваций и развития, 2002, 286 с.

7. Аверьянова С.В. Роль «кейс стади» в профессиональной подготовке будущих экономистов-международников на занятиях по иностранному языку // Российский внешнеэкономический вестник. 2010. № 8 (август), с. 55-60.

8. Fischer J. and Casey E. LCaS - Language case studies Teacher training modules on the use of case studies in language teaching at secondary and university level. Kapferberg: Council of Europe Publishing, 2008, 70 p.

9. Азимов Э.Г., Щукин А.Н. Новый словарь методических терминов и понятий (теория и практика обучения языкам). М.: Издательство ИКАР, 2009, 448 с.

Г.Д.Алыева

Психологические основы формирования у студентов межкультурных способностей общения (на основе метода кейса)

Резюме

Данная статья посвящена актуальной проблеме использования кейс-метода в развитии профессиональной коммуникатвной компетенции студентов. В ней рассматривается роль кейс-метода в овладении студентами профессиональными коммуникативными компетенциями. В статье иностранный язык рассматривается как средство, способное формировать профессиональные качества, обеспечивающее адекватное взаимодействие с представителями другой культуры. В статье объясняется, что кейс-метод основан на анализе деловой ситуации, взятой из реальной практики делового общения. Данная ситуация не только отражает какую-либо практическую проблему, как правило, не имеющую однозначного решения, но и активизирует определенный комплекс профессиональных знаний и умений.

G.D.Aliyeva

The psychological bases of forming the intercultural communicative skills of students (basing on the case method)

Summary

The article deals with the psychological bases of forming the intercultural communicative skills of students through case method. The role of the case method in mastering the professional competence of students has been investigated in the article. A foreign language is meant to be the main means in order to provide the mutual relationship with the delegations of other nations. The case method is explained as the method which is based on the analyses of the situation having taken from the real practical communication in the article as well. This situation is meant to activate a practical problem with no clear solution but also some certain complex of some professional knowledge and skills.

Rəyçi: filol.f.d. R.F.Hüseynova

Redaksiyaya daxil olub: 30.09.2019

S.K.ALMURADOVA
pedaqogika üzrə fəlsəfə doktoru

Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyası
(Bakı şəh., Ş.Bədəlbəyli küç., 98)

UŞAQLARIN MUSİQİ İNKİŞAFININ YAŞA UYĞUN SƏVİYYƏLƏRİ

Açar sözlər: *yaş xüsusiyyətləri, musiqi inkişafı, təfəkkür, təxəyyül*
Ключевые слова: *возрастные особенности, музыкальное развитие, мышление, воображение*
Key words: *age features, music development, thinking, imagination*

Müəllimlərin uşaqların yaş xüsusiyyətlərinə dair biliklərə yiyələnməsi onlara imkan verir ki, körpələrdə baş verən psixi proseslərə və musiqi inkişafına nəzarət edə bilsinlər. "Yaş" və "yaş prosesinin inkişafı" anlayışları müxtəlif cür izah olunur.

Bəziləri yaşın inkişafına təbii bioloji proses kimi yanaşırlar. Digərləri "yaş" həddini inkar edirlər və hesab edirlər ki, istənilən yaş mərhələlərində istənilən bilik, bacarıqları uşaqlara öyrətmək olar. Yəni yaş imkanları tam inkar olunur.

Keçmiş Sovet psixoloqları məktəbəqədər uşaqların yaş mərhələlərini aşağıdakı kimi göstərirdilər:

1. Körpə yaşlı (1 yaş dövrü);
2. İlkin uşaqlıq (1-3 yaşa kimi);
3. Məktəbəqədər uşaqlıq (3-7 yaşa kimi).

Qeyd etmək lazımdır ki, bu yaş dövrlərini təqdim edən alimlərin bir qismi, eyni zamanda məşhur rus psixoloqu A.A.Lyublinskinin fikrincə, 10-12 günlük körpələr səslərə reaksiya verirlər. Belə ki, sakit vəzəyyətdə olan bir körpə fortepiano, yaxud hansısa musiqi alətində səs eşitdikdə yerlərində dönməyə, müxtəlif səslər çıxarmağa cəhd göstərirlər.

Rusiya məktəbəqədər tərbiyə müəssisələrində uşaqların musiqi tərbiyəsi ilə 2 ay dövründə məşğul olurlar. Aylar ötdükdə körpələr musiqisinin emosional məzmunu baxımından qavramağa başlayırlar. Belə ki şən musiqi dinləyəndə sevinirlər, qəmli musiqinin təsiri ilə qəmlənir, hətta ağlayırlar.

1-3 yaşlarında - ilk uşaqlıq dövründə uşaqlar təkcə böyüklərlə deyil, həm də öz yaşıdları ilə təmasda olurlar. Bu yaşda uşaqlar musiqi altında hərəkət etməyə maraq göstərir. Bunu musiqi tərbiyəsinin, fəaliyyətinin başlancığı hesab etmək olar. Bu dövrdə musiqiqavrama prosesində öz emosianal reaksiyalarını göstərirlər, yaxud sakitcə musiqi dinləyirlər.

Belə ki, uşaqlar yüksək və alçaq səsləri, bərkdən, yaxud astadan ifaları, müxtəlif uşaq musiqi alətlərinin tembrlərini bir-birindən fərqləndirirlər. Bu dövrdə hətta uşaqlar sadə melodiyaları eşidərək təkrar edə bilirlər.

Bu yaşda ilk şüurlu olaraq uşaqlar oxu intonasiyalarını da ifa edirlər. Bundan əlavə, uşaqlar dinlədikləri melodiyaları improvizə edərək də təkrarlaya bilirlər, musiqi altında əl çalır, addımlayır, fırlanırlar. Musiqi altında hərəkət edərkən uşaqlar öz əhval-ruhiyyələrini də göstərə bilirlər.

Digər yaş dövrü - məktəbə qədər dövr (3-7 yaş) adlanır. Bu yaş dövründə uşaqlar daha sərbəst olmaq, müxtəlif hərəkətlər etmək, müxtəlif musiqi fəaliyyətləri ilə məşğul olmaq istəyirlər. Uşaqlarda müəyyən musiqi fəaliyyəti növünə, hətta musiqi əsərlərinə maraq yaranır. Bu dövrdə müxətlif musiqi fəaliyyətləri musiqi qavranılması, mahnı oxuma, musiqi altında hərəkət püxtələşir. Yuxarı qruplarda isə musiqi alətlərində ifaçılıq və yaradıcılıq kimi keyfiyyətlər formalaşmağa başlayır. 3-7 yaş dövrünü 3 qrupa ayırmaq olar. Belə ki, rus alimlərinin tədqiqatlarında 3-4 yaş dövrü məktəbəqədər dövr kimi göstərilir.

Bu dövrdə uşaqlarda musiqi ilə məşğul olmağa maraq oyanır. Onlar mahnı oxumaq vərdişlərinə yiyələnir, hətta 4 yaşında kiçik mahnıları sərbəst olaraq oxuyurlar. Musiqi altında mürəkkəb hərəkətlər etmək uşaqlara imkan verir ki, onlar sərbəst hərəkətlər etsinlər və musiqili oyunlarda rəqslərdə fəal iştirakçı olsunlar. 4-5 yaşlarında uşaqlar artıq daha sərbəst hərəkətlər edir və hər şeylə maraqlanmağa çalışırlar. Bu dövrü suallar dövrü adlandırmaq olar. Belə ki, uşaqlar bu dövrdə böyüklərə tez-tez suallarla müraciət edirlər.

Uşaqlar başa düşür ki, "layla"lar astadan və sakit ifa olunur. Artıq onlar şən, qəmli musiqiləri fərqləndirə, bərkdən, astadan, tez-tez, aramla oxumağı bacarırlar, mahnını necə oxumaq və rəqsdə necə hərəkətə etmək tələblərinə riayət edirlər. Onların səs diapazonu I oktavanın re-si intervalında olur. İdman məşğələlərində əsas hərəkət növləri (yerimək, qaçmaq, tullanmaq) musiqili-ritmik oyunlarda, rəqslərdə tətbiq olunur. Bu dövrdə müxtəlif musiqi fəaliyyətlərinə uşaqlarda maraq oyanır.

5-6 yaşlarında uşaqların ümumi inkişafında yeni keyfiyyətli nəticələr yaranır. Onlar bu keyfiyyətlərli fərqləndirə və onlar arasında əlaqələr yarada bilirlər. Qavrama məqsədəuyğun xarakter alır: belə ki, maraqlar, bacarıqlar, musiqinin qiymətləndirilməsi kimi keyfiyyətlər özlərini daha aydın göstərir. Hətta uşaqlara 2 marş nümunəsini, yaxud 2 mahnını, 2 rəqsi göstərəndə onlar öz istədiklərinin adlarını çəkirlər. Hətta göstərilən musiqi nümunələrinin xarakteri haqqında da özlərinəməxsus təzdə fikirlər söyləyirlər.

Məlum olmuşdur ki, bu dövrdə uşaqlar xorla oxumaqdan çox rəqs etməyi daha çox xoşlayırlar. Lirik mahnılarının ifası zamanı uşaqlar deyirlər ki, "bunu sakit, zərif, gözəl oxumaq lazımdır".

Bu dövrdə uşaqların səs telləri möhkəmlənir, səs diapozonu I oktavanın re-si intervallarında, hətta II oktavanın do-re intervallarında daha yaxşı səslənir, hərəkətlərində cəldlik, fəzada fırlanma kimi keyfiyyətlər yaranır. Uşaqlar daha çox musiqinin səslənməsinə diqqət yetirirlər, öz hərəkətlərini musiqi ritminə uyğunlaşdırırlar. İnkişaf etmiş imkanlara uyğun olaraq uşaqlar bütün musiqi fəaliyyətlərini daha yaxşı mənimsəyirlər. Bu musiqi fəaliyyətlərinə mahnı oxumağı, musiqi dinləməyi, musiqiyə uyğun ritmik hərəkətlər etmək aid oluna bilər. Uşaqlar bu dövrdə musiqi alətlərində çalmaq bacarığına da malik olurlar.

Bunlarla bərabər uşaqlara musiqi savadına dair sadə məlumatlar da verilir. Bütün bu fəaliyyət növlərinin kompleks təsiri altında uşaqların hərtərəfli inkişafı üçün maksimum münbit şərait yaradılır ki, bu da onların musiqi inkişafına güclü təsir göstərir.

Qeyd etmək lazımdır ki, bir sıra Avropa və Asiya ölkələrdə məktəbə qəbul 5 yaşdan (hətta 4 yaşdan) başlayır.

Yuxarıda qeyd olunanlardan nəticə olaraq hər bir yaş dövrünün xüsusiyyətlərini belə göstərmək olar:

- musiqi inkişafının səviyyəsi uşağın ümumi inkişafından asılıdır. Bununla əlaqədar uşaqların musiqiyə olan estetik münasibətinin səviyyəsi ilə musiqi qabiliyyətləri səviyyəsi arasında əlaqələri aydınlaşdırmaq gərəkdir;
- uşaqların müxtəlif yaş dövrlərində musiqi inkişafının səviyyəsi onların fəal olaraq proqram məzmununa uyğun musiqi fəaliyyələrindən asılıdır.

Eyni yaş qrupunda olan uşaqların musiqi inkişafı səviyyəsi heç də bərabər olmur. Burada uşaqların fərdi xüsusiyyətlərini də nəzərə almaq lazımdır. Eyni zamanda uşaqların fərdi xüsusiyyətlərini də nəzərə alsaq, əsas problem bu xüsusiyyətlərin praktik həyatda tətbiq olunmasıdır ki, bu da onların mahnı oxuma, musiqi dinləmə, rəqs etmə, musiqili səhnəciklərdə iştirak etmə, musiqi alətlərində ifaçılıq proseslərində həyata keçirilə bilər. Yəni musiqi yaradıcılığı fəal musiqi fəaliyyəti prosesində məktəbəqədər yaşlı uşaqların musiqi-estetik inkişafı da baş verir. Uşaqlar nə qədər müxtəlif növlü praktik fəaliyyətlərində iştirak edirlərsə, onların musiqi-estetik inkişafı da bir o qədər yüksək səviyyədə olur. Yəni uşaqların musiqi-estetik inkişafının səviyyəsi onların praktik musiqi fəaliyyətləri ilə düz mütənasibdir.

Uşaqların arzu olunan musiqi-estetik inkişafının səviyyəsini göstərən nəticələri aşağıdakı cədvəllərdə belə vermək olar.

Qrupun adı	Musiqi fəaliyyətinin nəticələri
Orta qruplarda	- musiqiyə emosional münasibət göstərə bilmək, tanış olan musiqi nümunələrini tanımaq, bildiyi mahnının melodiyasını oxuya bilmək, musiqidəki təzadlığı göstərə bilmək, seksta intervalında oxuya bilmək; - müxtəlif dinamik nüansları (p, mp, *f*, m*f*) təyin edə bilmək; - sadə mahnıları müşayiətsiz və müşayiətlə oxuya blmək; - tanış olmayan musiqinin təranələri altında musiqinin əhval-ruhiyyəsini göstərməklə hərəkət edə bilmək, rəqsi hərəkətləri məmnuniyyətlə həyata keçirə bilmək, zərb alətlərində musiqinin ritmini düzgün təkrarlamaq
Yuxarı qruplarda	- musiqi əsərlərini emosional qavramaq, tanış olmayan musiqilərin xarakterini təyin etmək, melodiyanın girişindən onu tanımaq və onlar haqqında öz fikrini söyləyə bilmək; - tanış sadə mahnıları müşayiətsiz və müşayiətlə ifadəli oxuya bilmək, ifa olunmuş musiqi nümunələrinə öz münasibətini bildirmək; - dəqiq və ritmə uyğun hərəkət etmək, sərbəstlik göstərmək, musiqili obrazları və rəqsi hərəkətləri ifadəli göstərə bilmək;
Məktəbəhazırlıq qruplarında	- musiqiyə emosional münasibət göstərmək, sevdikləri musiqi əsərlərinin adlarını söyləmək, nə üçün o musiqiləri xoşladıqlarının səbəbini aydınlaşdırmaq, tanış olmayan musiqilərin xarakterini təyin etmək; iki-üç hissəli musiqi nümunələrini fərqləndirə bilmək, musiqinin girişini, sonunu, musiqi frazalarını təyin edə bilmək, musiqi ifadə vasitələrini ayıra bilmək, eşitdikləri musiqi əsərlərinin adlarını deyə bilmək, instrumental və vokal musiqiləri fərqləndirə bilmək; - sadə mahnıları ifadəli oxuya bilmək, melodiyanı müxtəlif tonallıqlarda oxumaq, melodiyanın yuxarı və aşağıya doğru hərəkətlərini göstərə bilmək; - naməlum və müxtəlif xarakterli musiqilərin ifası zamanı onların musiqili-oyun obrazlarını göstərə bilmək, melodiyanı improvizə etmək, mahnının məzmununu öz hərəkətlərilə göstərə bilmək; - müxtəlif uşaq musiqi alətlərində çala bilmək, ümumi tempi, ritmi, dinamikanı saxlaya bilmək.

Beləliklə, cədvəllərdə göstərilən tələbləri uşaq yerinə yetirə bilirsə, onu musiqi qabiliyyətli və musiqi-estetik baxımından inkişaf etmiş qəbul etmək olar.

Ədəbiyyat

1. İradə Adil qızı. Azərbaycan musiqi-zövq mənbəyidir. Bakı: Təfəkkür, 2005, 148 s.
2. Uşaq bağçalarında məktəbəhazırlıq qrupunda təlim və tərbiyə işləri proqramı. Bakı: Təhsil, 1986, 88 s.
3. Sadıqov T.B. Uşaqların məktəb təliminə hazırlanmaları prosesində didaktik oyunlardan istifadənin imkan və yolları. Namizədlik dissertasiyasının avtoreferatı. Bakı, 2006, 26 s.
4. Rəcəbov O.M., Miriyeva U.M. Musiqi və mənəvi tərbiyə. Bakı: Maarif, 1995, 162 s.
5. Uşaq bağçalarında musiqi tərbiyəsi. Bakı: Maarif, 1985, 228 s.
6. Sədraqızı Z. Uşaq bağçalarında musiqi məşğələlərinin müntəxəbatı. Bakı: Şirvannəşr, 2005, 370 s.
7. Rəcəbov O.M. Uşaqlar və mahnılar. Bakı: İşıq, 1985. səh. 123-124.
8. Ветлугина Н.А., Кенетан А.Б. Теория и методика музыкального воспитания в детском саду. М.: Просвещение, 1983, 256 с.

С.К.Алмурадова

Возрастные уровни музыкального развития детей

Резюме

Статья посвящена возрастным уровням музыкального развития дошкольных детей. В педагогической науке понятия "возраст" и "возрастная стадия развития" трактуется по разному. Некоторые методисты рассматривают возрастную стадию как естественный биологический процесс. Другие специалисты этой отросли отвергают понятие "возрасти" и считают, что на любом возрасте ребенка можно научить чему угодно.

Но сегодня известные ученные в области педагогики и психологии утверждают, что возраст - понятие не только физиологическое, но и социальное. Мнение о том, что между музыкальными способностями и возрастом нет прямой причиной связи, имеет две стороны: негативную и позитивную. В педагогической науке приняты следующие возрастные этапы дошкольного периода:

1) младенчество (первый год жизни);
2) раннее детство (от 1 года до 3 лет);
3) дошкольное детство (от 3 до 6 лет).

В каждом периоде имеются свои требования для музыкального развития детей дошкольных возрастов.

S.K.Almuradova

Age levels of musical development of children

Summary

The article is devoted to the age levels of musical development of preschool children. In pedagogical science, the concepts of "age" and "age stage of development" are interpreted differently. Some methodologists consider the age stage as a natural biological process. Other specialists in this industry reject the concept of “grow up” and believe that at any age a child can be taught anything.

But today, famous scientists in the field of pedagogy and psychology claim that age is a concept not only physiological, but also social. The opinion that there is no direct reason for communication between musical abilities and age has two sides: negative and positive. In pedagogical science, the following age stages of the preschool period have been adopted:

1) infancy (first year of life);
2) early childhood (from 1 year to 3 years);
3) preschool childhood (from 3 to 6 years).

Each period has its own requirements for the musical development of preschool children.

Rəyçi: ped.e.d., prof. O.M.Rəcəbov

Redaksiyaya daxil olub: 12.11.2019

S.L.AXUNDOVA
dosent
e-mail: seva_axundova@inbox.ru

Bakı Slavyan Universiteti
(Bakı şəh., S.Rüstəm küç., 25)

PEDAQOGİKANIN TƏDRİSİNİN OPTİMALLAŞDIRILMASININ PSİXO-PEDAQOJİ ƏSASLARI

Açar sözlər: *təlim məqsədləri, tədris, optimallaşdırma, pedaqogika, metod, elmilik prinsipi, sistematiklik və ardıcıllıq prinsipi, yaradıcı təfəkkür, dərs*

Ключевые слова: *цели обучения, преподавание, оптимизация, педагогика, метод, творческое мышление, урок, принцип научности, принцип систематичности и последовательности*

Key words: *learning, teaching, optimization, pedagogy, method, creative thinking, lesson, the principle of scientific, the principle of consistency and seguence*

XX əsrin 60-cı illərinin axırlarından və 70-ci illərin əvvəllərindən təlim prosesinin optimallaşdırılması problemi alim-pedaqoqları düşündürmüş, bu sahədə tədqiqatlara başlanılmışdır. Müəllimlər, ali məktəb işçiləri və ayrı-ayrı alimlər bu termini təkmilləşdirmə, aktivləşdirmə, intensivləşdirmə terminləri kimi işlətmişlər. Təlimdə təkcə proqramlaşdırmadan, yaxud alqoritmləşdirmədən, yaxud problem situasiya yaratmaqdan, ya da İKT-dən istifadə etməklə onu optimallaşdırmaq mümkün deyildir. Adları qeyd olunan fəaliyyətləritəklikdə deyil, fənləri tədrisdə birgə tətbiq etməklə məqsədə nail olunması mümkündür (4, s.4). Ali məktəbdə tədris edilən fənlərin, o cümlədən, pedaqogikanın tədrisinin optimallaşdırılması dövrümüzün aktual probelmlərindəndir. Bunlardan ən başlıcası təlimin keyfiyyətinin vaxta qənaət etməklə artırılmasıdır. Pedaqogika dərslərində müxtəlif vasitələrdən (əyanilik, öyrədici mühit, İKT və s.) istifadə etməklə az vaxtda daha çox bilik və bacarıqlar aşılamaq mümkündür.

Sübut olunmuşdur ki, təlim prosesi surətli qurulduqda tələbələr materialı düşünməyə, qavramağa imkan tapmır, tapşırıqları tam yerinə yetirməkdə çətinlik çəkirlər. Belə halda təlimin effektliliyi azalır, onun optimallaşmasına mənfi təsir göstərir. Vaxt qıtlığına, marağın azalmasına, fəallığın sönməsinə səbəb olur. Deməli, təlimin effektliyinin optimal təlim tempinə uyğunluğu nəzərə alınmalıdır. Bu isə təlimdə müvafiqlik prinsipinə tam uyğun gəlir (4, s.8).

Pedaqogikanın tədirsində optimallaşdırma probleminin həlli qavrama prosesinə tələbələrin duyğu orqanlarının (görmə, eşitmə, toxunma) birlikdə fəaliyyətə cəlb olunmasını tələb edir.

Təlimin optimallaşdırılmasına riyazi tərəqqi də kömək edir. Belə ki, optimal variantı bir meyara görə yox, iki və ya daha çox meyara görə tapmağa imkan verir. Fəaliyyətdə başlıca həlqəni araşdırmaq, müəyyən etmək kimi metodoloji müddəanın da optimallaşdırma üçün əhəmiyyəti böyükdür (4, s.5).

Tədris materialının qavranılmasında insanın görmə, eşitmə, toxunma və s. orqanları iştirak etdiyi zaman, tədris materialı daha asan mənimsənilir. Bu isə əyanilik prinsipinin həyata keçirilməsi ilə başa gəlir. Elmilik prinsipi mühüm təlim prinsiplərindən biri hesab edilir.

Təlimdə bu prinsipin gözlənilməsi optimallaşmada əsas şərtlərdəndir. Prinsipin təlimdə nəzərə alınması elmi faktlarla, anlayışlarla, qanun və nəzəriyyələrlə materialın tələbələrə çatdırılmasıdır. Prinsipə əməl olunmasında hadisə və obyektləri həddən artıq sadələşdirmə zərərli hesab edilir. Bu prinsipin tələbləri əsasında təlimin təşkili faydalı olub, tələbələrdə elmi dünyagörüşün formalaşdırılmasına xüsusi kömək edir. Buradan təlimin həyatla əlaqəsi prinsipi ilə qarşılıqlı əlaqə yaradılır.

Pedaqogika elmi təlimin metodları, vasitələri və effektivliyi arasında qanunauyğun əlaqəni müəyyən etmişdir. Deməli, təlimin effektivliyi qanunauyğun olaraq təlim prosesində tət-

biq edilən metodların, stimullaşdırmanın və nəzarətin optimal seçimindən çox asılıdır. Əgər metodlar və vasitələrin seçilməsi qarşıda qoyulan vəzifələrə uyğun gəlirsə, materialın xüsusiyyətləri və şagirdlərin imkanları nəzərə alınırsa, təlimin effektliyi yüksəlir, optimallığı artır. Təlimin metod və vasitələri onun məqsəd və vəzifələrinin spesifikasına uyğun seçilmədikdə effektlilik optimal səviyyədən aşağı olur. Bu qanunauyğunluq təlimdə metod və vasitələrin optimal seçilməsi prinsipinə əməl olunmasını tələb edir (1, s.107).

Pedaqogikanın tədrisinin optimallaşdırılması öyrədilən materialın, dərsliklərin məzmunundan, tərtibatından çox asılıdır. Belə ki, məzmun elmi, maraqlı, qısa və başa düşülən olmalıdır. O, eyni zamanda həm stabil, həm də mobil olmalıdır. Təlim materialı kağızsız tədris vasitələri, İKT, xüsusilə slaydlar, təqdimatlar, elektron dərsliklər və s. ilə daha da zənginləşdirilməlidir.

Deməli, təlimin prinsiplərinə və onun qaydalarına əməl olunması tədris prosesinin optimallaşdırılmasını təmin edir. Bununla yanaşı, müvafiqlik prinsipindən irəli gələn məlumdan məchula, asandan çətinə, sadədən mürəkkəbə, ümumidən xüsusiyə qaydalarının gözlənilməsi də optimallaşmanı reallaşdırır (5, s.276).

Materialın hazırlanmasında da onun mənimsənilmə səviyyəsi elə götürülməlidir ki, optimallaşmaya uyğun olsun. Materialın optimal çətinlik səviyyəsi onun sürətinə, səmərəli olmasına, biliklərin keyfiyyətinə müsbət təsir göstərir.

Böyük pedaqoq Y.A.Komenski təlimdə optimallığın təşkilinə dair bir sıra məsləhətlər vermişdir. Onların hər biri müəllim üçün əsas qaydalar kimi nəzərə alınmalıdır. O, nəyi xüsusi qeyd etmişdir:

- Tədrisdə təhsilalanların hazırlıq, yaş və inkişaf xüsusiyyətlərinin öyrənilməsi, onların həyat təcrübəsinə, maraqlarına istinad edilməsi;
- Tədrisin optimal surətlə qurulması, güclüləri ləngitmək, orta və zəif mənimsəyənlərin fəaliyyətinin, təfəkküründün inkişaf etdirilməsi;
- Konkret şəraitdə optimal surətin müəyyən edilməsi, lazım gəldikdə onun dəyişdirilməsi;.
- Təhsilalanların öyrənmə tərzlərinin müəyyən edilməsi və tədris prosesində onun nəzərə alınması;
- Pedaqogika və psixologiyanın nailiyyətlərinə uyğun olaraq konkret bilik və bacarıqların addım-addım, ümumiləşməni isə iri addımlarla aparılması kimi fəaliyyətlər təlimin optimallaşmasında əsas şərtlərdəndir.

Təlim prosesinin həyatla, nəzəriyyənin praktika ilə əlaqələndirilməsi də effektliyi artırır. Ona görə fənlər, o cümlədən pedaqogika fənni elə tədris edilməlidir ki, tələbə öyrəndiyi pedaqoji biliklərin onun üçün həyati zərurət olduğunu anlasın və hiss etsin. Tədrisdə materialı izah edərkən həyatdan biliklərə, biliklərdən həyata əlaqəsi daim nəzarətdə olmalıdır. Belə olduqda biliklərin təhsilalanlar tərəfindən mənimsənilməsi 80-85 faizə çatır. Bunun üçün ən effektiv metodların seçilməsi lazım gəlir. Bu metodlar xarakterinə görə pedaqoji elmlərin metodlarına yaxın olmalıdır.

Tədris prosesində təlimin elmilik prinsipi daim diqqət mərkəzində olmalıdır. Elmilik prinsipini həyata keçirdikdə pedaqogika və psixologiyanın yeni nailiyyətlərinə əsaslanmaq lazımdır. Fənnin məntiqi əsasının geniş izah edilməsi müsbət nəticə verir. Bu zaman elmi-idrak metodlarına istinad edərək təhsilalanları axtarışa, yaradıcılığa yönəldərək onların təfəkküründü inkişaf etdirir.

Tədrisdə ən yeni terminologiyalardan geniş istifadə edilir. Tədris prosesində təhsilalanların diqqətinin pedaqoji elmlərin əsas problemlərinə yönəldilməsi, elmi nailiyyətlərin, elmi informasiyaların izlənməsinə alışdırılmasına, elmi-texniki və sosial problemlərin kollektiv müzakirəsinə şərait yaradılması vacib məsələlərdəndir.

Tələbələrin tədqiqatçılıq fəaliyyətlərinə cəlb olunması onların dərsdə fəallığını artırır, materialın mənimsənilməsini yaxşılaşdırır, optimallığa xidmət edir. Bu eyni zamanda tələbə-

lərdən fəallıq göstərməyi, diqqətlə dinləməyi tələb edir. Şüurluluq və fəallıq prinsipinin həyata keçirilməsi təmin olunur. Biliklərin şüurlu mənimsənilməsi təhsilalanın idrak fəallığından çox asılıdır. Şüurlu təlimin zəruri şərti mövzunun məqsəd və vəzifələrinin aydın dərk edilməsinə əsaslanır. Ona görə hər bir mövzunun məqsəd və vəzifələrini aydınlaşdırmaq, onun əhəmiyyətinin, vacibliyinin, perspektivinin faktlarla izah edilməsi optimallaşdırmada əsas məsələlərdəndir (2, s.165).

Dərslərdə təhsilalanların qarşılıqlı təlim qüvvələrindən istifadə edilməsi də mənimsəməni yaxşılaşdırır. Belə ki, təhsilalanlar arasında bilikləri bir-birinə ötürməsi şəraiti yaradılmalıdır. Ona görə də dərslərdə tələbə təqdimatlarına geniş yer verilməsi çox əhəmiyyətlidir.

Tədrisdə optimallığı həyata keçirmək üçün keçmiş biliklərlə yeni biliklər arasında məntiqi əlaqələrin yaradılması da vacib şərtlərdən hesab olunur.Tədrisdə tələbələrin müxtəlif problem situasiyalara salınması, öyrənilən materialda daha vacib olanların seçilməsinə istiqamətləndirilməsi, onlara öyrənməyin öyrədilməsi də optimallığa kömək edir (6, s.448).

Pedaqogikanın tədrisində müəllim tələbələri düşünməyə vadar edən suallardan, səbəb-nəticə əlaqələrinin aydınlaşdırılmasına xidmət edən tapşırıqlardan istifadə etməlidir. Buna tam əmin olmaq lazımdır ki, biliyi danışandan daha çox praktikada tətbiq edənin yaddaşında daha dərindən həkk olunur. Ona görə də tədrisdə praktik situasiyalardan geniş istifadə edilməsinə diqqət artırılır. Tələbələrin ətrafdakı obyekt və hadisələri müşahidə etdiyi faktlarla onların elmi izahı arasında əlaqə yaratmaq, fərqləri müstəqil olaraq ayırmaq kimi fəaliyyətlərə cəlb edilməsi məsləhətdir. Onlara nəzəri və praktik məsələlər elə öyrədilməlidir ki, biliklər əqidəyə çevrilsin, fəaliyyətlərində əsas rol oynasın (5, s.448).

Tələbələrə pedaqoji prosesləri müstəqil düşünərək, fəaliyyət göstərərək öyrədilməsi, onların yaradıcı təfəkküründün inkişaf etdirilməsi təlimin optimallaşdırılmasına zəmin yaradır. Bunu nəzərə alan müəllimlər dərslərində yaradıcı tapşırıqların həllinə daha çox yer verirlər.

Təhsilalanlara duyğu orqanları ilə qavranılması mümkün olan hər şeyi: görünəni görmə, səsi eşitmə, iyi iybilmə, dadı dad, toxunula biləni lamisə duyğusuna təqdim edilməsi təlimin keyfiyyətinə müsbət təsir göstərir. Onlara müşahidə etdikləri obyekt və proseslərin başlıca cəhətlərini tapmağı, onlar arasındakı əlaqə və asılılığı fərqləndirməyi, müqayisə və təhlillər əsasında ümumiləşdirmə aparmaq, nəticə çıxarmaq fəaliyyətlərinin tapşırılması əsas amillərdəndir.

Mövzuya dair əyaniliyin, xüsusilə slaydların, təqdimatların hazırlanmasının tələbələrə tapşırılması və onların fikirlərinin dinlənilməsi təlimin optimallaşdırılmasına əsaslı kömək edir, təkrarlara yol verilməsinin qarşısını alır (6, s.450).

Tədris materialının mənimsənilməsində əsas rol oynayan şərtlərdən biri onun sistemli, ardıcıl dinlənilməsi və qavranılmasıdır. Bu şərt didaktikanın sistematiklik və ardıcıllıq prinsipinə əsaslanır (6, s.145).

Praktik fəaliyyətdə sistematiklik və ardıcıllıq prinsipi bir sıra qaydaları, tövsiyələri nəzərə almağı tələb edir. Bunlardan biri materialın izahında sxem, cədvəl, qrafik, şəkillərdən istifadə edilməsidir. İkinci bir şərt isə mövzunun digər fənlərin materialları ilə inteqrasiyasıdır. Dərslərdə pedaqoji proseslərin digər fənlərdən keçilənlərlə əlaqələndirilməsi bir çox məsələlərə aydınlıq gətirilməsinə şərait yaradır, lazımsız təkrarların aradan qaldırılmasını təmin edir. Bu haqda dahi pedaqoq Y.A.Komenski demişdir ki, hər şey qırılmaz ardıcıllıqla elə aparılmalıdır ki, bu gün öyrənilən biliklər dünənkiləri möhkəmləndirsin və sabah öyrənəcəklərinə yol açsın.

Optimallaşdırmada əsas şərt kimi nəzəri biliklərin aşağıdakı sxemindən istifadə edilməsi götürülür:

a. Nəzəriyyənin əsasının şərh edilməsi;
b. Nəzəriyyənin alətlərinin açıb göstərilməsi;
c. Nəzəriyyənin nəticələrinin aydınlaşdırılması;
d. Onun tətbiqi yollarının göstərilməsi və s. (7, s. 29)

Sonrakı bir şərt fənnin məzmununda və tətbiq edilən metodlarda varisliyin təmin edilməsidir. Şərtlərdən biri keçilmişlərin yeri gəldikcə təkrarlanmasıdır. Bu proses dərsin əvvə-

lində, sonunda deyil, dərsin ayrı-ayrı mərhələlərində lazım gəldikcə həyata keçirilir.

Tələbələrin səbrlə müstəqil işlərin yerinə yetirilməsinə alışdırılması, onların fəaliyyətinin tədricən mürəkkəbləşdirilməsi müsbət nəticə verir. Təhsilalanlara materialın həvəslə, ruh yüksəkliyi ilə, emosiyalı tərzdə çatdırılması, həyatdan, müxtəlif əsərlərdən götürülmüş cəlbedici faktlarla zənginləşdirilərək çatdırılması mənimsəməni asanlaşdırır. Bölmələr üzrə ümumiləşdirmə və sistemləşdirmə aparılması, tələbələrin cavablarında, müstəqil işlərində buraxılan səhvlərin müntəzəm xeyirxahlıqla düzəldilməsi onların dərslərdə məsuliyyətini artırır.

Tədrisin optimallaşdırılmasında əsas məsələlərdən biri yeni öyrənilən, mənimsənilən materialın yaddaşda möhkəmləndirilməsidir. Biliklərin dərindən mənimsənilməsi, onun yaddaşda möhkəmləndirilməsi, materialın məzmunu, strukturu, təlimin təşkili, onun növləri, metodları, ona ayrılmış vaxtdan və müəllimin subyektiv münasibətindən çox asılıdır.

Tədris prosesində, xüsusilə dərslərdə maraqlı anların yaradılması, öyüd-nəsihət əvəzinə maraqlı faktların, folklor nümunələrinin söylənilməsi, ibrətamiz hekayə tələbələrin ruh yüksəkliyini artırır, gərgin vəziyyətlərin aradan qaldırılmasını təmin edir.

Təlim məqsədlərinə çatmaq üçün pedaqoq bütün metodlardan istifadə etməlidir. Lakin bildiyimiz metodları sadəcə ucdantutma və məntiqi əlaqəsiz tətbiq etmək lazımi nəticə verməz. Hər bir situasiya üçün optimal metod seçmək müvəffəqiyyətin özülüdür. Metodların optimal seçimini təmin edən şərtlərə əsasən aşağıdakılar daxildir:

- Metodların təlim prinsiplərinə, təlimin məqsəd və vəzifələrinə, materialını məzmununa, təhsilalanların təlim imkanlarına (fiziki, psixi), hazırlıq səviyyəsinə (elmi biliyinə, inkişafına), kollektivin əsas xüsusiyyətlərinə, metodlar haqqında məlumatlılığa, müəllimin imkanlarına, xarici şəraitə, texniki təchizata və s. uyğunluğuna optimallaşdırmada ciddi yanaşılmalıdır.

Ədəbiyyat

1. İsmixanov M.A. Pedaqogikanın əsasları. Bakı, 2002.
2. Paşayev Ə.X., Rüstəmov F.A. Pedaqogika. Yeni kurs, Bakı, Elm və təhsil, 2010.
3. Rüstəmov F., Dadaşova T. Ali məktəb pedaqogikası. Bakı, 2007.
4. Бабанский Ю.К. Оптимизация учебно-воспитательного процесса. Москва, 1982.
5. Подласый И.П. Педагогика М., Высшее образование, 2007, 540 с.
6. Подласый И.П. Педагогика. Новый курс. Москва, 2007.
7. Ağayev Ə.Ə. və b. Pedaqogika. Bakı, 2006.
8. Ə.Paşayev, F.Rüstəmov. Pedaqogika. Bakı, 2010

С.Л.Ахундова

Психопедагогические основы оптимизации преподавания педагогики

Резюме

Предметом исследования данной статьи являются вопросы исследования психо-педагогических основ оптимизации преподавания педагогики в высших учебных заведениях. В работе рассматриваются объективные и субъективные условия оптимизации курса педагогики. Раскрываются положительные аспекты влияния оптимизации курса на познавательную активность обучающихся. Обосновываются педагогические основы процесса оптимизации. В статье также имеются методические рекомендации по решению проблемы оптимизации курса педагогики в высших учебных заведениях.

S.L.Akhundova

Psychopedagogical bases of optimization of teaching pedagogy

Summary

The subject of the atricle is the research questions of psicho-pedagogical bases of optimization of teaching pedagogy in the higher schools. The article discusses subjective and objective conditions

of optimization of the course of pedagogy. It reveals pozitive aspects of the influence of optimization of the course on the cognitive activity of students, furthemore it discusses the pedagogical basis of the optimization process. The article also provides methodological recommendotians for solving optimization problems of pedagogical cource in higher schools.

Rəyçi: BSU-nun Pedaqogika və psixologiya kafedrası
(04.10.2019-cu il tarixli iclasın qərarı (pr. №02))

Redaksiyaya daxil olub: 11.10.2019

A.M.ƏHMƏDOVA
e-mail: azada.ahmadova123@gmail.com

Azərbaycan Respublikasının Təhsil İnstitutu
(Bakı şəh., Z.Əliyeva küç., 40)

MƏKTƏBƏQƏDƏR TƏHSİLDƏ PEDAQOJİ PROSESİN DİAQNOSTİK İDARƏ OLUNMASI MƏSƏLƏLƏRİ

Açar sözlər: *pedaqoji proses, diaqnostika, keyfiyyət, optimallaşdırma, əks əlaqə, planlaşdırma, təşkilatçılıq, nəzarət, tənzimləmə*

Ключевые слова*: педагогический процесс, диагностика, качество, оптимизация, обратная связь, планирование, организация, контроль, регулирование*

Key words: *pedagogical process, diagnostics, quality, optimization, feedback, planning, organization, control, regulation*

Hazırda elmi araşdırmalarda diaqnostik fəaliyyətin təşkilinə və inkişafına diqqət gücləndirilmişdir. Bu onunla əsaslandırılır ki, istənilən idarəolunan prosesin (o cümlədən, pedaqoji prosesin) daxili strukturu və onun parametrləri arasındakı qarşılıqlı təsirlər nəzərə alınmadan, onun effektivliyinə dair birmənalı fikir söyləmək mümkün deyildir. Pedaqoji ədəbiyyatın təhlili əsasında pedaqoji diaqnostika təlim prosesinin optimallaşdırılması məsələlərinin həllinə, təhsilalanların differensiallaşdırılmasına, eyni zamanda təhsil proqramlarının və qarşılıqlı pedaqoji təsir metodlarının müəyyən edilməsinə istiqamətlənmiş nəzarət və qiymətləndirmə üsullarının toplusu kimi müəyyən edilmişdir. Pedaqogikada diaqnostika problemi nisbətən yenidir. Diaqnostikanın əsasları və praktik məsələləri elmi cəhətdən keçən əsrin 20-30-cu illərindən işlənilməyə başlanılmışdır. Pedaqogika elminə diaqnostika nəzəriyyəsi 1968-ci ildən K. İnqenkamp tərəfindən rəsmi olaraq daxil edilmişdir (12).

Pedaqoji diaqnostikanın məzmununu və istifadə yollarının müasir təyinatını aşağıdakı elmi mənbələrdə toplanılmış biliklər əsasında müəyyənləşdirmək olar:

- tədris-təlimdə diaqnostikanı dərk etmənin spesifik forması və diaqnostikanın ümumi metodologiyası kimi müəyyən edilməsi;
- diaqnostika fenomeninin mənasını açan psixoloji nəzəriyyələrin müəyyən edilməsi və qruplaşdırılması;
- təlim prosesində pedaqoji diaqnostikanın təşkilinin əsaslandırılmasına dair yeni yanaşmaların strukturlaşdırılması.

Müasir pedaqogikada pedaqoji diaqnostikaya müxtəlif aspektlərdən baxılır:

1. Nəzəri problem kimi;
2. Tədris-təlim sistemində ziddiyyətlərin və inkişaf tendensiyasının üzə çıxarılmasında, təlim situasiyalarının dərindən öyrənilməsində pedaqoji layihələndirmə elementi kimi;
3. Təlimdə müvəffəqiyyətsizliyin səbəblərinin xəbərdaretmə şərti kimi;
4. Təhsil sisteminin və təhsil müəssisəsinin rəhbərinin idarəetmə fəaliyyətlərinin istiqamətləndiricisi kimi;
5. Tərbiyəçi-müəllimin peşəkar fəaliyyətinin təkmilləşdirilməsi şərti kimi.

Beləliklə, pedaqoji diaqnostikanın nəticələri istənilən prosesin durumu və ya gedişilə bağlı diaqnozun qoyulmasıyla başa çatır. Diaqnostikanın obyektivliyini müəyyən edən əsas xüsusiyyətləri aşağıdakı kimi qruplaşdırmaq olar:

- mütənasiblik (adekvatlıq): diaqnostika vasitəsilə pedaqoji prosesin dəyişməsinə səbəb olan amillərin düzgün müəyyənləşdirilməsi;
- diaqnostikanın vaxtında aparılması: pedaqoji prosesin korreksiyası məqsədilə operativ diaqnostikanın aparılması və diaqnozun qoyulması;

- diaqnozun kommunikativ dəyərləri: pedaqoji fəaliyyətin diaqnostikasını aparan mütəxəssisə, müvafiq tədbirlərin görülməsi məqsədilə diaqnostikanın nəticələrinin aydın və sadə şəkildə çatdırılması (10)

Deməli, pedaqoji diaqnostika, insanların obyektiv reallıqlarla bağlı biliklərinin zənginləşməsinə, elmin gələcək inkişafına xidmət edir. Pedaqoji diaqnostika vasitəsilə alınmış müsbət nəticələr yalnız tətqiq edilən hadisəyə, pedaqoji prosesə və ya idarəolunan prosesə aid olduğundan çox böyük tətbiqi xarakter daşıyır. Ona görə də pedaqoji diaqnostikanın nəticələrinə dərhal reaksiya vermək lazım gəlir, əks halda o nəticələr tezliklə köhnəlir və öz mənasını itirir (13).

Pedaqoji diaqnostika, pedaqoji prosesi idarəetmək və əməkdaşlıq etmək məqsədilə obyektin və subyektin öyrənilməsinə yönələn pedaqoji fəaliyyətdir. Qeyd etmək lazımdır ki, pedaqoji diaqnostika prosesə, yalnız onun öyrənilməsi məqsədilə deyil, onun dəyişdirilməsi, yeniləşdirilməsi məqsədilə yanaşır. Beləliklə, mütəxəssis prosesin öyrənilməsində həm diaqnostikanı aparan, həm də aşkara çıxarılan nöqsanların düzəldilməsini həyata keçirən şəxs kimi iştirak edir. Pedaqoji və psixoloji diaqnostika nəzəriyyəsinə dair elmi mənbələrin təhlili məktəbəqədər təhsil müəssisələrində pedaqoji prosesin səmərəli idarə olunmasına elmi yanaşmanın prinsiplərinin tətbiqinə imkan vermişdir (2, 4, 9, 12).

Pedaqoji diaqnostika yoxlama, öyrənmə, nəzarət və s. metodlardan daha dərin və geniş məna daşıyır. Bunlar yalnız nəticəni öyrəndikləri halda diaqnostika səbəbini araşdırır. Pedaqoji diaqnostika özündə nəzarət, yoxlama, qiymətləndirmə, statistik məlumatlar və onların analizini əks etdirir. Diaqnostika nəticəyə, məqsədə çatmaq üçün bir vasitə kimi baxılır və didaktik prosesin meyil və dinamikasını müəyyən edir. Ən əsası diaqnostika pedaqoji sistemdə əks əlaqəni təmin etdiyinə görə daha vacib sayılır. Pedaqoji diaqnostikanın metodları elmə çoxdan məlum olan metodlardır: müşahidə, müsahibə, pedaqoji eksperiment, test, anket sorğusu, pedaqoji sənədlərin öyrənilməsi.

Məktəbəqədər təhsil müəssisələrində pedaqoji prosesin ilkin diaqnostik məlumatlar nəzərə alınaraq idarə olunması aşağıdakı nəticələrə gəlməyə imkan vermişdir:

- pedaqoji diaqnostika pedaqoji prosesin obyektlərinin və onların idarə edilməsinin dərk olunmasında xüsusi yanaşmaların rolunu əks etdirir;

- pedaqoji diaqnostika zamana görə inkişaf edərək, özündə həm cari, həm də uzunmüddətli tədqiqatları əlaqələndirir.

Pedaqoji diaqnostikanın təhsil sistemində tətbiqi:

1. Pedaqoji prosesdə şəxsiyyətin öyrənilməsini;
2. Pedaqoji prosesin təsiri nəticəsində şəxsiyyətin inkişafında baş verən dəyişikliklərin nəzərə alınmasını;
3. Pedaqoji prosesin araşdırılmasına tətbiq olunan yanaşmanın təkcə onun öyrənilməsinə deyil, həm də onun dəyişməsi, yeniləşməsi üçün həyata keçirilməsi tələb olunan fəaliyyətlərin yerinə yetirilməsini təmin edir.

Tədqiqat əsasında o da müəyyən edilmişdir ki, pedaqoji prosesin səmərəli idarə olunmasında pedaqoji diaqnostikanın imkanlarından istifadə, yəni tədqiq olunan proses zamanı ilkin diaqnostik məlumatların nəzərə alınması idarə etmənin keyfiyyətini artırır. Pedaqoji prosesin idarə olunmasında rəhbərin tərbiyəçi-müəllimlərlə apardığı iş zamanı pedaqoji diaqnostikanın ilkin məlumatlarından istifadə səmərəli idarəetmənin mərhələlərindən biri hesab edilir. İlkin diaqnostik məlumatlar nəzərə alınaraq pedaqoji prosesin idarə olunmasının əsası korreksiya, məsləhət, adaptasiya və tərbiyəçi-müəlliməyə kömək üçün yerinə yetirilən kompleks işlərdən asılıdır. Bu proses əks əlaqənin həyata keçirilməsini də tələb edir və pedaqoji prosesin planlaşdırılmış, real nəticələrə uyğun ölçüdə təşkilinə imkan verir. Bu halda pedaqoji diaqnostikanı, psixoloji diaqnostikadan fərqləndirmək lazımdır (5, 8, 9, 10, 12).

Pedaqoji diaqnostikanın psixoloji diaqnostikadan fərqini müəyyənləşdirən 3 əsas məqam önə çəkilmişdir:

1. Psixoloji diaqnostikadan fərqli olaraq, pedaqoji diaqnostika təhsil sisteminin daxili xidmət funksiyasını yerinə yetirir və pedaqoji diaqnostikada şəxsiyyət pedaqoji prosesdə öyrənilir.

2. Psixoloji diaqnostika əsasən şəxsiyyətin qazandığı nailiyyətləri öyrənməklə məşğul olur. Pedaqoji diaqnostika isə məqsədyönlü pedaqoji prosesin təsiri altında kollektiv üzvlərində baş verən şəxsi keyfiyyətlərin dəyişilməsini öyrənir.

3. Pedaqoji diaqnostika tədqiqatda təkcə prosesin iştirakçılarının öyrənilməsi üçün deyil, həm də onların təkmilləşdirilməsini ön plana çəkir. Ona görə də, pedaqoq təkcə diaqnostika işlərinin yerinə yetirilməsində iştirakçı kimi deyil, həm də müvafiq tövsiyələri yerinə yetirən icraçı kimi çıxış edir.

Pedaqoji diaqnostika onunla qarşılıqlı əlaqəli olan və pedaqoji prosesə xidmət edən idarəetmə funksiyasına daxildir. Pedaqoji diaqnostikanın idarəetmə strukturunun tərkib hissələrinə daxil olan elementləri ilə qarşılıqlı əlaqə və qarşılıqlı təsirlərin xarakteri cədvəldə göstərilmişdir. Beləliklə, məktəbəqədər təhsil müəssisələrində pedaqoji prosesin səmərəli idarə olunma probleminin həlli zamanı diaqnostik məlumatlardan istifadə böyük təcrübi əhəmiyyət kəsb edir və onun elmi cəhətdən işlənilməsi problemini aktuallaşdırır.

Cədvəl



Müasir yanaşmaların nəzəri təhlili məktəbəqədər təhsil müəssisələrində pedaqoji prosesin səmərəli idarə edilməsinin əsası kimi pedaqoji diaqnostikanın strukturunu müəyyənləşdirməyə imkan vermişdir. Pedaqoji diaqnostikanın ümumi strukturuna: məqsəd, diaqnostik fəaliyyətin planlaşdırılması, diaqnostik informasiyanın toplanması, təhlili, yenidən işlənməsi, əldə olunmuş informasiyanın təfsiri, nəticə, pedaqoji prosesin inkişafı ilə bağlı proqnoz və korreksiya işləri daxil edilir. Pedaqoji diaqnostlik fəaliyyətin ümumi strukturu alqoritmlər formasında da təqdim edilə bilər. Alqoritmlər ardıcıl mərhələ sistemlərindən ibarət olub, prosesin pedaqoji diaqnostikasının məntiqi əsaslandırılmasını təmin edir:

1. Pedaqoji diaqnostikaya cəlb olunan obyektin (prosesin), onun məqsədinin və həll olunacaq məsələlərin müəyyən edilməsi.

2. Hipotezin irəli sürülməsi, onun sonradan yoxlanılması və aparılacaq diaqnostikanın planlaşdırılması.

3. Diaqnostik vasitələrin (meyarlar, standartlar, metodikalar) seçilməsi.

4. Diaqnostlaşdırılan obyekt (proses) haqqında məlumatların toplanması.

5. Əldə olunmuş informasiyanın kəmiyyət və keyfiyyət cəhətdən işlənilməsi, onun təhlili, sistemləşdirilməsi və təsnifatı.

6. Dəqiq informasiyanın təhlili əsasında diaqnostikaya cəlb olunan obyektin (prosesin) komponentlərinin müəyyən edilməsi.

7. Pedaqoji diaqnozun əsaslandırılması və qiymətləndirilməsi.

8. Pedaqoji diaqnostikanın praktiki tətbiqi. Alınmış nəticələr əsasında düzəlişlərin həyata keçirilməsi və nəticədə diaqnostikaya cəlb olunan obyektin və ya hadisənin müvafiq qaydada dəyişdirilməsi (1, 4, 5, 13).

Araşdırmalar nəticəsində məktəbəqədər təhsil müəssisələrində səmərəli idarəetməyə müxtəlif qarşılıqlı təsirdə olan fəaliyyətlərin cəmindən ibarət olan proses kimi baxılmış, rəhbərin fəaliyyət növləri isə idarəedici funksiyaya daxil edilmişdir. Məktəbəqədər təhsil müəssisəsində, pedaqoji prosesin səmərəli idarə olunmasında rəhbərin idarəedici funksiyasına fundamental yanaşmaların öyrənilməsi və müəssisələrdə idarəetmə fəaliyyətlərinin spesifik xüsusiyyətlərinin təhlili, prosesin idarə edilməsində iki qrup fəaliyyəti bir-birindən ayırmağa imkan vermişdir:

- məktəbəqədər təhsil müəssisələrində pedaqoji prosesin və təşkilatı-metodik işlərin idarəedilmısində məqsəd funksiyasının seçilməsi;

- planlaşdırma, təşkilatçılıq, nəzarət və tənzimləmə işləri ilə bağlı prosessual funksiyaların seçilməsi.

Təhsil müəssisəsi rəhbərinin idarəetmə ilə bağlı fəaliyyətində müasir tədqiqatçılar diaqnostik funksiyanı daha yüksək qiymətləndirirlər. Bu funksiyanın digər idarəedici funksiyalarla qarşılıqlı əlaqədə və qarşılıqlı təsirlərdə olan münasibətləri cədvəldə göstərilmişdir. Cədvəldən görünür ki, pedaqoji diaqnostik funksiya, digər fəaliyyətlərlə bağlı funksiyaların zənginləşdirilməsinə istiqamətləndirilmişdir. Bu funksiyanın ən güclü əlaqəsi nəzarət funksiyası ilə bağlıdır. Məhz nəzarət əks əlaqənin yaranmasına xidmət edir. Pedaqoji diaqnostika nəzarət funksiyası kimi ilkin, cari, yekun və ehtiyac olduqda operativ formada keçirilə bilər.

Diaqnostik funksiya, eyni zamanda analiz və qiymətləndirmə funksiyası ilə sıx əlaqəlidir. Diaqnostika tədqiq olunan prosesin daxili quruluşunu və onun tərkib hissələri arasındakı münasibətlərin müəyyən edilməsini əsas məqsəd kimi qarşıya qoyur. Təhlildən fərqli olaraq diaqnostika, həm də fəaliyyətin qiymətləndirilməsinə dair təkliflər irəli sürür. Bu isə o deməkdir ki, diaqnostika vasitəsilə idarəedilən obyektin faktiki durumu və onun arzu olunan səviyyəyə gətirilməsinə dair müvafiq işlərin görülməsi üçün təkliflər hazırlanır. Beləliklə, diaqnostik funksiya idarəetmənin analitik qiymətləndirmə funksiyalarını da özündə birləşdirir (1, 3, 5, 10).

Diaqnostika fəaliyyət sahəsi kimi, bir tərəfdən məktəbəqədər təhsil müəssisəsində, pedaqoji proses zamanı keyfiyyətin idarə olunmasında, rəhbərin qəbul etdiyi qərarların düzgünlüyünü, digər tərəfdən şəxsiyyətyönümlü yanaşmadan istifadə edərək keyfiyyətin idarə edilməsinin effektivliyinin yüksəldilməsi istiqamətində əvəzolunmaz olduğunu müəyyənləşdirməyə imkan verir. Ona görə də, məktəbəqədər təhsil müəssisələrində pedaqoji prosesin səmərəli idarə olunmasında diaqnostik idarəetmə, fəaliyyətin əsas tərkib hissəsi kimi qəbul edilməlidir. Deməli, məktəbəqədər təhsil müəssisələrində pedaqoji prosesin səmərəli idarə olunması təhsil müəssisəsi rəhbərinin və bütövlükdə kollektivin fəaliyyəti ilə bağlıdır. Diaqnostik idarəetmə, tələbatları, imkanları, fərdi xüsusiyyətləri, qazanılmış bilik və bacarıqları, fərqli cəhətləri nəzərə almağa imkan verir. Prosesin gələcək inkişafında effektivliyin təmin olunması üçün tərbiyəçi-müəllimlərin fəaliyyətinin səmərəliliyinin artırılması məqsədilə yeni metodların, üsulların tətbiqini və yeniləşdirilməsini təmin edir. Təhsil müəssisələrində pedaqoji prosesin keyfiyyətinin effektiv idarə olunmasında pedaqoji diaqnostikanın müxtəlif yanaşmalarından istifadə olunmasına üstünlük verilmişdir Məktəbəqədər təhsil müəssisələrində tədqiq edilən problemlə bağlı pedaqoji diaqnostikanın aşağıdakı imkanlarını xüsusi qeyd etmək lazımdır:

- əks əlaqənin təmin edilməsi. Məktəbəqədər təhsil müəssisəsində pedaqoji prosesin effektivliyinin təmin edilməsində diaqnostika aparıcı bir yanaşma kimi çıxış edərək, idarəetmə funksiyası ilə əks əlaqə funksiyası arasındakı münasibətləri təmin edir;

- tərbiyəçi-müəllimin, ümumilikdə kollektivin idarəetmə ilə bağlı pedaqoji fəaliyyətlərini qiymətləndirməyə obyektiv şərait yaradır;

- pedaqoji prosesin, ümumiyyətlə, təhsil müəssisəsinin idarə olunmasının effektivliyini təmin edir;

- diaqnostika və özünüdiaqnostika yolu ilə pedaqoji prosesin iştirakçılarının savadlanma səviyyəsi yüksələrək inkişaf edir;

- pedaqoji prosesin idarə olunmasının pefleksiyası kollektiv tərəfindən diaqnostik nəticələrin yekunlaşdırılmasına imkan verir (6, 7, 13, 14).

Diaqnostikasız pedaqoji prosesin didaktik idarə olunması mümkün deyil. Pedaqoji diaqnostika eyni zamanda müəllimin, uşağın hərtərəfli inkişafına xidmət edən təlim fəaliyyətinin alətidir. Pedaqoji diaqnostika təlim prosesində əlamətləri öyrənib həm də tətbiq edən, prosesin inkişaf perespektivlərini müəyyən edən və nəticələrini xarakterizə edən, bunların əsasında catışmazlıqları xəbərdar edən, korrektə edən təhsil prosesinin keyfiyyətinə istiqamətlənmişdir. Təlim-tərbiyə prosesində pedaqoji diaqnostika məlumatların alınması, uşaqların inkişaf prosesinin dəyişdirilməsi üçün proqnozlaşdırılması imkanına malikdir. Beləliklə təlim-tərbiyə prosesində diaqnostika öyrədici, inkişafetdirici və tərbiyəedici funksiyaları özündə birləşdirir. Tərbiyəçi-müəllim tərəfindən həyata keçirilən diaqnostika, kollektiv üzvlərinin təlim prosesinə cəlbini, təlimin ümumi məqsəd və vəzifələrini, eyni zamanda uşaqların inkişafını təmin edir. Diaqnostika vasitəsilə uşaqlar haqqında demoqrafik məlumat toplana bilər, belə ki, onların ailələri, sağlamlığı, fiziki inkişafı, qavrama səviyyəsi, diqqət, yaddaş davamlığı, düşünmək bacarığı, şəxsiyyətlərarası münasibətləri, həmrəylikləri, ictimai fikirləri, dəyərləri və s. Pedaqoji diaqnostika həmçinin kollektiv üzvləri arasındakı əlaqələrin səmərəliliyini artırır, təhsil müəssisəsini əhatə edən sosial mühitlə onun əlaqələrini intensivləşdirir (2, 10, 11).

Tədqiqat nəticəsində müəyyən edilmişdir ki, məktəbəqədər təhsil müəssisələrində pedaqoji prosesin keyfiyyətinin idarə edilməsi ilə bağlı pedaqoji ədəbiyyatda bütövlüyü və səmərəliliyi ilə seçilən, tam formalaşmış bir nöqteyi-nəzər yoxdur. Pedaqoji prosesdə keyfiyyətin idarə edilməsi ilə bağlı aşağıdakı proseslərə dair diaqnostik məlumatların nəzərə alınması məqsədəmüvafiq hesab edilmişdir:

1. Tərbiyəçi-müəllimlərin pedaqoji - psixoloji səriştəliliyi;
2. Tərbiyəçi-müəllimlərin peşəkarlıq səviyyəsi;
3. Humanistləşmə, demokratikləşmə prinsipləri əsasında kollektivlə uşaqlar arasındakı qarşılıqlı əlaqə metodları;
4. Tərbiyəçi-müəllim pedaqoji yaradıcılığının səviyyəsinin yüksəldilməsinə yönəldilmiş pedaqoji ehtiyacları və onun korreksiyası;
5. Məktəbəqədər təhsil müəssisələrində qabaqcıl pedaqoji təcrübənin, innovativ proseslərin ekspertizası əsasında pedaqoji təcrübənin nəticələri;
6. Tərbiyəçi-müəllimlərin ixtisasının artırılmasının optimal forma və məzmunu;
7. Pedaqoji prosesdə keyfiyyətin təmin olunması və onun səmərəli idarə olunması üçün toplanmış statistik məlumatlar.

Problemin elmi yeniliyi: Beləliklə, məktəbəqədər təhsil müəssisələrində pedaqoji prosesdə keyfiyyətin təmin edilməsi və səmərəli idarə olunmasında pedaqoji diaqnostikanın imkanlarından, ümumiyyətlə, ilkin diaqnostik məlumatlardan istifadənin əhatə dairəsi genişləndirilməli, təhsilin bu səviyyəsində pedaqoji prosesin optimallaşdırılması təmin edilməlidir. Pedaqoji prosesin optimallaşdırılması, mümkün olan variantlardan ən yaxşısının seçilib götürülməsi deməkdir. Optimallaşdırma pedaqoji sistemin qarşıya qoyduğu məqsədə uyğun olmalıdır, çünki həmin sistem o məqsədə nail olmaq üçün yaradılıb. Buna görədə optimallaşma anlayışı konkretdir və bir sistem üçün yararlı olan optimal variant digər sistemə yararsız ola bilər.

Problemin tətbiqi əhəmiyyəti. Məqalədə qeyd olunan məsələlər məktəbəqədər təhsilin inkişafında mühüm əhəmiyyət daşıyır. Məktəbəqədər təhsil müəssisələrində pedaqoji prosesin idarəedilməsində istifadə olunması nəzərdə tutulmuşdur.

Ədəbiyyat

1. Mehrabov A.O. Müasir təhsilin metodoloji problemləri. Bakı: Mütərcim, 2012, 252 s.
2. Mehrabov A.O. Təhsil sistemində konseptual modellər və pedaqoji konstuktivizim // Azərbaycan məktəbi, Bakı: 2006, № 6, s.13-20.
3. Mehrabov A.O. Təhsildə konseptual kompentensiyaların formalaşdırılmasının mahiyyəti və məzmunu // ARTPİ- nin Elmi Əsərləri, Bakı: 2007, №1, s. 3-24.
4. Mehrabov A.O. Təhsildə keyfiyyət, ona nəzarət və idarə olunmasının təşkili xüsusiyyətləri // ARTPİ- nin Elmi Əsərləri, 2005, №1, s. 31-37.
5. Mehrabov A.O. Azərbaycan təhsilinin müasir problemləri. Bakı: Mütərcim, 2007, 447 s.
6. Hüseynzadə R.L. Tərbiyə işi və onun metodikası. Dərs vəsaiti. Bakı: ADPU, 2013, 314 s.
7. Xəlilov V.C. Seçilmiş əsərləri, III cild, Bakı: Nərgiz, 2011, 231s.
8. İsmixanov M.A. Pedaqogikanın əsasları. Bakı: ADPU, 2012, 245 s.
9. Воробьев Е.И. Диагностика как вид познавательной деятельности. Дисс....канд. филос. наук, Воронеж, 1975, 160 s.
10. Давыдова Л.Н. Формирование у будущих учителей умений педагогического диагностирования: Дис. ... канд. пед. наук, Волгоград, 1995, 155 с.
11. Диагностика как фактор развития образовательных систем. СПБ, 1995, 80 с.
12. Ингенкамп К. Педагогическая диагностика. М:. Педагогика, 1991, 240 с.
13. Загвязинский В.П, Закирова А.Ф. Идея, замысел, гипотеза педагогического исследования. // Педагогика, 1997, №2, с.9-14.
14. Зверева В.И. Диагностика педагогический деятельности учителя. М.: Новая школа, 1992, 148 с.

А.М.Ахмедова

Вопросы диагностического управления педагогическим процессом в дошкольном образовании

Резюме

Вовлечение учителей-воспитателей, детей, родителей в управление педагогическим процессом в дошкольных образовательных учреждениях повышает эффективность управления, усиливает его демократизацию, выдвигает на передний план его общественно-государственный характер. В данном случае управленческая деятельность руководителя и преподавательского состава направлена на достижение целей и оценивания результатов педагогического процесса на основе достоверной и своевременной информации. Для объективной реализации этого процесса руководителями требует установления обратной связи.

Внедрение диагностики в педагогическом процессе способствует повышению качества результатов и, самое главное, служит установлению обратной связи. Педагогическое диагностическое управление позволяет определить соответствие прогнозируемых результатов реальным результатам, выявить степень различия результатов друг от друга, и в то же время предотвратить случаи возможных противоречий. В связи с этим в современных теориях и практике подчеркивается важность диагностического управления педагогическим процессом и высоко оценивается их эффективное внедрение.

A.M.Ahmadova

Questions of diagnostic management of pedagogical process in preschool education

Summary

The involvement of teachers, children, and parents in the management of the pedagogical process in preschool educational institutions increases the effectiveness of management, strengthens its democratization, and highlights its socio-state character. In this case, the managerial activity of the head and the teaching staff is aimed at achieving the goals and evaluating the results of the pedagogical process based on reliable and timely information. For the objective implementation of this process, managers require the establishment of feedback.

The introduction of diagnostics in the pedagogical process helps to improve the quality of the results and, most importantly, serves to establish feedback. Pedagogical diagnostic management allows determining whether the predicted results correspond to real results, to identify the degree of difference of results from each other, and at the same time prevent cases of possible contradictions. In this regard, the importance of diagnostic management of the pedagogical process is emphasized in modern theories and practice and their effective implementation is highly appreciated.

Rəyçilər: prof. Y.Ş.Kərimov,
prof. A.N.Abbasov

Redaksiyaya daxil olub: 14.10.2019

N.Ə.ƏLİYEV
pedaqogika üzrə fəlsəfə doktoru, dosent

Bakı Slavyan Universiteti
(Bakı şəh., S.Rüstəm küç., 25)

RİYAZİYYAT TƏDRİSİ METODİKASININ PREDMETİ

Açar sözlər: *məzmun, didaktika, metodika, predmet, evristika*
Ключевые слова: *содержание, дидактика, методология, предмет, эвристика*
Key words: *content, didactics, methodology, subject, heuristics*

Riyaziyyatın tədrisi metodikası tədris fənni kimi riyaziyyat haqqında və müxtəlif yaş qruplarından olan şagirdlərə riyaziyyatın təlimi prosesinin qanunauyğunluqlarından bəhs edən elmdir.

Riyaziyyatın tədrisi metodikasının qarşısında aşağıdakı vəzifələr durur:

- riyaziyyatın öyrənilməsinin konkret məqsədlərini və orta məktəbdə tədris fənninin məzmununu müəyyən etmək;
- qarşıya qoyulan məqsədlərin əldə edilməsinə istiqamətlənən və rasional təlim üsulları və təşkilat formaları işləyib hazırlamaq;
- təlimin zəruri vasitələrini nəzərdən keçirmək və tədris praktikasında onların tətbiq edilməsinə aid tövsiyələr işləyib hazırlamaq.

Ənənəvi olaraq hesab edilir ki, riyaziyyat təlimi metodikası: kimi öyrədirik? Nə üçün öyrədirik? Nəyi öyrədirik? Necə öyrədirik? – suallarına cavab verməlidir. Kimi öyrədirik? - sualına cavabda uşaqlara riyaziyyatın elementlərinin, riyaziyyatın sistematik kursunun təliminə, riyaziyyat təhsilinin ixtisaslaşmasının həyata keçirilməsinə və s. başlanılacaq yaşın bilinməsi nəzərdə tutulur (məktəb, obyekt). Nəyi öyrədirik? sualı riyaziyyat təliminin məzmununu (bilik, bacarıq, fəaliyyət üsulları) müəyyən etməyi tələb edir. Necə öyrətmək? sualının cavabı riyaziyyat təliminin metodları, vasitələri, formalarının aşkar edilməsini nəzərdə tutur. Nəhayət, nə üçün öyrədirik? sualı tədqiqatçıları riyaziyyat təliminin məqsədlərini aydınlaşdırmağa istiqamətləndirir.

Söylənilənlər artıq təsdiq etməyə imkan verir ki, riyaziyyat təlimi metodikasının predmeti analoji vəsaitlərdə verilən şərhindən genişdir.

Belə ki, A.A.Stolyarın «Pedaqogika matematiki» tədris vəsaitində qeyd edilir ki, riyaziyyat pedaqogikasının predmeti riyaziyyatın təlimidir. Təlim dedikdə, müəllif bir sıra köməkçi vasitələrdən (dərslik, əyani vəsait, təlimin texniki vasitələri) istifadə etməklə müəllim tərəfindən həyata keçirilən idarə olunan proses kimi başa düşülür. Riyaziyyat təliminin əsasları empirik materialın riyazi təşkilindən, riyazi materialın məntiqi təşkilindən və riyazi nəzəriyyənin tətbiqindən ibarət olan riyazi fəaliyyət təlimi kimi şərh edilir (1, s.255).

V.V.Repyev hesab edir ki, riyaziyyatın tədrisi metodikasının predmeti riyaziyyat təhsili, riyaziyyat elminin əsaslarının təlimi və onunla qırılmaz əlaqədə orta ümumtəhsil məktəbləri şəraitində böyüyən nəslin tərbiyəsindən ibarətdir. Riyaziyyatın təlimini o, maddi aləmin fəza formaları və miqdar nisbətlərinin, riyaziyyat elminin əsaslarının böyüyən nəsil tərəfindən məktəb şəraitində mütəşəkkil dərk edilməsi kimi şərh etmişdir.

R.S.Çerkasov və A.A.Stolyarın «Riyaziyyatın tədrisi metodikası» (ümumi metodika) kitabında göstərilir ki, riyaziyyatın tədrisi metodikası tədris fənni kimi riyaziyyat haqqında və müxtəlif yaş qruplarından olan şagirdlərə riyaziyyat təlimi prosesinin qanunauyğunluqları haqqında elmdir.

«Riyaziyyatın didaktikası» kitabının müəllifi N.V.Metelski qeyd edir ki, riyaziyyat didaktikasının predmeti müasir ümumtəhsil məktəblərində təlim və onunla əlaqədar tərbiyənin, həmçinin onun problemləri və inkişaf perspektivləri daxil olan riyaziyyat təhsilidir. Daha son-

ra burada göstərilir ki, riyaziyyat didaktikasının məqsədi fənn proqramları üzrə bilik, bacarıq və vərdişlərin mənimsənilməsi prosesi və nəticəsidir. Nəhayət, «Orta məktəbdə riyaziyyatın tədrisi metodikası» kitabında Y.M.Kolyagin və başqaları metodikanı birbaşa pedaqogikanın bölməsi adlandırırlar.

Riyaziyyatın tədrisi metodikasına dair vəsaitlərin geniş təhlili üzərində dayanmayaraq qeyd edək ki, müəlliflər riyaziyyat təlimi metodikasının predmetinə təlim, təhsil və tərbiyəni daxil edərkən bəzən riyazi təhsilin məzmununun mənimsənilməsi vasitələr və metodlar toplusu ilə məhdudlaşdırmışlar. Müəlliflər təlimi, ya müəllim və şagirdlərin birgə fəaliyyəti hesab edərək onu müxtəlif mənalarda şərh etmişlər.

Riyaziyyat təlimi metodikasının vəzifələri ancaq riyaziyyatın «verdiyi» mövzuların tədrisi metodları və priyomlarının axtarılması ilə məhdud edilərsə, əlbəttə, onun elm adlandırılması yanlış olardı. Ona görə riyaziyyat təlimi metodikası riyaziyyat təhsili, təlimi və tərbiyə problemlərinin tədqiq edilməsi ilə məşğul olmalıdır. Bu anlayışların məzmunu və qarşılıqlı əlaqələri haqqında müxtəlif fikirlər mövcuddur (2, s.408).

Riyaziyyat təlimi metodikasının predmeti kifayət qədər mürəkkəbliyi ilə seçilir. Mürəkkəb hadisənin öyrənilməsi üçün onu komponentlərinə ayırır və onlar arasındakı əlaqələri sistemli analizin köməkliyi ilə müəyyən edirlər. Bu əlaqələr isə öyrənilən hadisənin nəzəriyyəsini əmələ gətirir. Riyaziyyat təlimi metodikasının predmetinin sistemli analiz əsasında şərh edilməsi A.M.Pışkaloya məxsusdur. O, riyaziyyat təliminin məqsədi, məzmunu, metodları, formaları və vasitələri çoxluğundan ibarət sistem təklif etmiş və onu riyaziyyat təliminin metodik sistemi adlandırmışdır. Lakin müasir şəraitdə A.M.Pışkalonun işləyib hazırladığı metodik sistem də təhsil, təlim və tərbiyə məsələlərinə adekvat deyildir.

Qeyd edək ki, ənənəvi model «Dövlət-ictimaiyyət-məktəb-şagird» sisteminin fəaliyyətdə olduğu şəraitdə yaradılmışdır. Hazırda isə bu modeldə ardıcıllıq dəyişmiş, şagird, onun inkişafı ön plana gətirilmişdir. Yeni pedaqoji paradiqmada başlıcası şəxsi oriyentasiya olunan yalnız təlim deyil, həm də bütün təhsildir. Ona görə riyaziyyat təlimi metodik sisteminin səciyyəsini müəyyən edən əsas müddəaya şəxsiyyətin strukturu, onun inkişaf qanunauyğunluğu aid edilməlidir.

Riyaziyyat təlimi metodikasına aid tədris vəsaitlərində tədqiqatın obyekti və predmetini çox vaxt ayırmamışlar. Elmin obyekti dedikdə, öyrənilmə və ya tədqiqat üçün ayrılan varlığın bir hissəsi başa düşülür. Elmin predmeti obyektin ideallaşdırılması, tədqiqatçının şüurunda onun fikrən inikası kimi özünü göstərir.

Riyaziyyatın təlimi metodikasının predmeti riyaziyyat təhsilinin məqsədləri və məzmunundan, təlimin metodları, vasitələri, formalarından, şagirdin fərdiliyindən və təlimin nəticələrindən ibarət olan xüsusi metodik sistem (bu ənənəvi olaraq «riyaziyyat təlimi» adlanır) təşkil edir. Riyaziyyat təlimi metodik sisteminin fəaliyyətinə təhsilin məqsədləri, riyaziyyatın elmdə, həyatda, istehsalatda, təhsildə yeni ideyalar kimi bir sıra faktorlar təsir göstərir. Bu təsirlərin hamısı xarici mühit adlanır. Metodik sistemin komponentlərinin qanunauyğun əlaqələri və onun xarici mühiti, onların konstruksiya üsulları, tədqiqat metodları riyaziyyat təlimi metodikasının metodologiyasını əmələ gətirir. Riyaziyyat təlimi metodik sistemin xarici mühitinə şəxsiyyətin inkişaf qanunları, təhsilin ümumi məqsədləri, cəmiyyətin həyat fəaliyyətində onun rolu, təhsilin humanistləşməsi və humanitarlaşması, riyaziyyatın predmeti, onun elmdə, həyatda, istehsalatda yeri, psixologiyada, didaktikada, məntiqdə və həyatda tədqiqatların nəticələri daxildir. Riyaziyyat təlimi məqsədlərinin müəyyən edilməsinə xarici mühitin təsiri daha əhəmiyyətlidir. Ona görə metodik sistemin aparıcı komponentini riyaziyyat təliminin məqsədləri təşkil edir.

Riyaziyyat təlimində məsələdən istifadə edilməsi probleminin obyekti məsələnin həlli prosesi olacaqdır. Göstərilən obyektə uyğun məsələdən istifadə edilməsinin məqsədi, riyazi təhsilin məzmunu (anlayışlar, teoremlər, fəaliyyət üsulları, evristika) məsələ həllinin ardıcıllığı, şagirdlərin fəaliyyəti, məsələ həllinin formaları daxildir.

Əgər konkret metodik tədqiqatın obyekti təlim metodikasının hər hansı baxışlarını və ya xassələrini ayırırsa, onda bu uyğun olacaq və ya əsas metodik sistemin alt çoxluğunu, ya da

ayrı-ayrı xassələrini əhatə edəcəkdir. Tədqiq olunan obyektə adekvat olan metodik sistemə onun fəaliyyət göstərən məqsədləri, məzmunu, vasitələri, metodları və formaları daxildir.

Söylənilənləri nəzərə alaraq qeyd etmək olar ki, riyaziyyat təlimi metodikasının predmeti metodik sistemlərdir.

Göründüyü kimi, ayrı-ayrı tədris vəsaitlərinin müəllifləri riyaziyyat təlimi metodikasının obyekti olaraq riyaziyyat təlimi prosesini göstərmişlər. Təhsil, tərbiyə və inkişafın əsasən təlim prosesində reallaşdığını nəzərə alaraq riyaziyyat metodikasının obyektinə aid təlim funksiyalarının nomenkulaturasını genişləndirmək şərti ilə bu təkliflə razılaşmaq olar. Təlimin ənənəvi qəbul edilən təhsil, tərbiyə və inkişaf funksiyalarını evristik, proqnostik, estetik, praktik, nəzarət-qiymətləndirmə, informasiya, korrektəedici və inteqrallayıcı funksiyalarla tamamlamaq zəruridir.

Ədəbiyyat

1. Столяр А.А. Логические проблемы преподавания математики. Учебное пособие для педагогических вузов. Минск, Высшая школа, 1965. 255 с.

2. Перова М.Н. Методика преподавания математики в специальной (коррекционной) школе VIII вида: Учебное пособие, для студ. дефект, фак. педвузов. – 4-е изд., перераб. М.: Гуманит. изд. центр ВЛАДОС, 2001. 408 с.

3. Ляпин С.Е. Методика преподавания математики в 8-летней школе. М., Просвещение, 1965. 745 с.

Н.А.Алиев

Предмет методики преподавания математики

Резюме

В статье рассматриваются проблемы, стоящие перед методикой преподавания математики в средней школе. Было бы неправильно называть это наукой, если бы задачи метода обучения математике были ограничены только поиском методов и приоритетов обучения математике. Поэтому методология математического образования должна касаться математического образования и исследования проблем в воспитании детей.

Следует отметить, что традиционная модель была создана при функционировании системы «Государство-общественность-школа-ученики», и теперь последовательность изменилась в этой модели. Развитие учеников вышло на первый план. Поэтому основные критерии, определяющие сущность методики преподавания математики, это те критерии, которые развивают математические знания учеников.

N.A.Aliyev

The subject of mathematics teaching methodology

Summary

The article discusses the problems facing the methodology of teaching mathematics in high school. It would be wrong to call it science if the tasks of the method of teaching mathematics were limited only to the search for methods and priorities for teaching mathematics. Therefore, the methodology of mathematical education should relate to mathematical education and the study of problems in raising children.

It should be noted that the traditional model was created during the functioning of the system "States-public-school-students", and now the sequence has changed in this model. The development of students has come to the fore. Therefore, the main criteria that determine the essence of the methodology of teaching mathematics are those criteria that develop the mathematical knowledge of students.

Rəyçi: ped.e.d., prof. Ə.Pələngov

Redaksiyaya daxil olub: 15.10.2019

T.V.ƏLİZADƏ
e-mail: turkan.alizade.92@mail.ru

Azərbaycan Respublikasının Təhsil İnstitutu
(Bakı şəh., Z.Əliyeva küç., 40)

İNTERNET TEXNOLOGİYALAR ŞAGİRDLƏRİN İDRAK FƏALİYYƏTİNİN YÜKSƏLDİLMƏSİ VASİTƏSİ KİMİ

Açar sözlər: *təhsil, informasiya, idrak, internet*
Ключевые слова: *образование, информация, познание, интернет*
Key words: *education, information, cognition, internet*

Təhsil tarixində şagirdlərin idrak fəallığının yüksəldilməsi daim diqqət mərkəzində olmuş, praktik müəllimlər və pedaqoq alimlər tərəfindən təhsilin keyfiyyətinin yüksəldilməsinin mühüm amili kimi qiymətləndirilmişdir. Ənənəvi olaraq bu məsələdə təhsilin xüsusi hazırlanmış, idraki əhəmiyyət kəsb edən tədris materiallarından və dərsin təşkilinin xüsusi hazırlanmış formalarından geniş istifadə edilirdi. Bu gün məlum olduğu kimi təhsilin məzmun baxımından daha çox materialları İnternet şəbəkəsində yerləşir. Şəbəkədə səpələnmiş bu materiallar müəllimə əlavə tədris materialları seçməkdə, uşaqlarda təlimə maraq yaratmaqda, şagirdlərin sərbəst işlərinin təşkilində yardımçı ola bilər. Digər tərəfdən İnternetin servis imkanları tədrisin interaktivliyini artırmağa, bu yolla dərsi daha da maraqlı etməyə, idraki marağı yüksəltməklə onların əqli fəaliyyətini intensivləşdirməyə imkan yaradır.

Təlim prosesinin ümumi istiqamətini təyin edən bu əlamətlərin heç biri ayrılıqda mənimsəmənin səmərəliyini təmin edə bilməz. Yalnız onların qarşılıqlı vəhdəti və asılılığı təlim fəaliyyətinin tamlığını təmin etməklə şagirdin mənimsəmə fəaliyyətinin səmərəli istiqamətə yönəlməsi üçün geniş imkanlar açır. Təlimin psixoloji quruluşunun və məntiqi sisteminin yuxarıda qeyd edilən istiqamətdə başa düşülməsi məktəbdə həyata keçirilən mənimsəmə prosesinin özünəməxsusluğunun mənalandırılması üçün əlverişli zəmin yaradır. Çünki müxtəlif şəraitdə və bəzən məktəb xaricində həyata keçirilən hər cür mənimsəməni təlim fəaliyyəti kimi xarakterizə etmək məqsədəmüvafiq sayıla bilməz. Əks təqdirdə təlim fəaliyyətinin məzmununun hədsiz dərəcədə geniş başa düşülməsi meyli yarana bilər.

Əlavə edək ki, pedaqoji psixologiyada və pedaqogikada təlim fəaliyyətinin ətraflı planda səciyyələndirmək meyli çox geniş yayılmışdır. Müəlliflərin bir qismi ümumiyyətlə bilik, bacarıq və vərdişlərin mənimsənilməsi şəraitini və imkanını təlim fəaliyyəti çərçivəsində həyata keçirilən bir proses kimi qiymətləndirməyə çalışırlar. Əlbəttə, təlim fəaliyyətinə belə yanaşma real səmərə verə bilməz. Təlim fəaliyyətini nəzərə çarpan özünəməxsus əlaməti ondan ibarətdir ki, təlim prosesində şagird onun üçün yeni olan idrak mühitinə girərək yeni fəaliyyətin ayrı-ayrı mərhələlərini mənimsəyir, necə deyərlər həmin mərhələlərə "daxil" olur. Yeni fəaliyyət prosesinin yüksək fəallıq şəraitində və sistem halında həyata keçirilməsi şagird şəxsiyyətinin bütün tərəflərinin, onun əxlaqi davranışlarının və meyllərinin inkişafı üçün son dərəcədə əlverişli şərait yaradır.

Görkəmli psixoloq L.S. Vıqotski hər yaş dövrü üçün səciyyəvi olan aparıcı fəaliyyətin real təsiri altında şagird şəxsiyyətində özünü büruzə verən yeni əlamətlərin psixoloji mahiyyətinin təhlilinə böyük əhəmiyyət verirdi. O, belə hesab edirdi ki, şəxsiyyətin ümumi quruluşunda müvafiq yaş dövrünə uyğun olaraq təzahür edən özünəməxsus xüsusiyyətləri yaş dövrünün yeni psixoloji törəmələri kimi xarakterizə etmək olar. L.S.Vıqotski belə hesab edirdi ki, yeni psixoloji törəmələr şagirdin inkişafının əsas cəhətini əks etdirməklə, onun yaşayış və münasibət tərzini, müvafiq yaş dövründə inkişafının əsas mahiyyətini və məntiqini təyin edir.

L.S.Vıqotskinin bu baxışı şagird psixologiyasında dərin iz buraxmış və yaş psixologiyası sahəsində aparılan bir sıra tədqiqatların səmərəli xarakter daşıması üçün əlverişli elmi-

psixoloji zəmin yaratmışdır. Məhz buna görə də aparılan tədqiqatlarda təlim prosesinin uşaq şəxsiyyətinin müxtəlif tərəflərinin, əlamət və xüsusiyyətlərinin təşəkkül və inkişafına təsirinin çoxcəhətli psixoloji qanunauyğunluqlarının araşdırılmasına ciddi əhəmiyyət verilir.

Məktəb islahatı proqramında qeyd edildiyi kimi, müasir dövrdə formalaşmaqda olan gənc nəslin təlim və tərbiyəsi yeni əsaslar üzərində qurulmalıdır. Hər şeydən əvvəl təhsil prosesində elmi-texniki inqilabın ən yeni nailiyyətlərindən orta təhsilin bütün mərhələlərində geniş istifadə edilməli və bu əsasda məktəbin həyatla əlaqəsi real zəmin əsasında möhkəmləndirilməlidir. Təlim və tərbiyənin vəhdəti təmin edilməli və bu işin səmərəliliyini şərtləndirən pedaqoji-psixoloji üsul və vasitələrin işlənilib hazırlanması müasir məktəbdə həyata keçirilməsi vacib olan ən mühüm vəzifələrdən başlıcası kimi qiymətləndirilməlidir.

Şagirdlərin təlim fəaliyyətinin psixoloji quruluşunda yuxarıda səciyyələndirilən təlim işləri içərisində nəzarət və qiymətləndirmə ilə əlaqədar olaraq həyata keçirilən təlim işləri mühüm yer tutur. Nəzarət və qiymətləndirmə ilə bağlı işlər özünəməxsus məzmuna malik olmaqla başqa tipli təlim işlərindən fərqlənirlər. Lakin şagirdin təlim fəaliyyətinin ümumi gedişində və biliklərin mənimsənilməsi prosesini məqsədəyönlüyündə istər nəzarət, istərsə də qiymətləndirmə funksiyasının müstəsna əhəmiyyəti vardır. Məsələn, nəzarətin olması sayəsində təlim işlərinin həll olunması, nəzərdə tutulan təlim işlərinin (məsələlərinin) şərtlərinə nə dərəcədə uyğun gəlməsi vəziyyəti müəyyənləşdirilir. Mənimsəmə prosesində nəzarət işlərindən istifadə edən şagird müəyyən təlim işlərinin tərkibini dəyişmək yolu ilə onların hansının təlim məsələlərinin həlli şərtlərinə və alınan nəticələrin xüsusiyyətlərinə uyğun gəlib gəlmədiyinin müəyyənləşdirmək imkanına malik olur.

Şagird təfəkküründün inkişafı və əqli fəaliyyətin formalaşması. Şəxsiyyətin idrak fəaliyyətində təfəkkür xüsusi mövqe tutur. İdrak fəaliyyətinin ən yüksək forması olmaq etibarilə təfəkkür insan şüurunun quruluşunda müstəsna əhəmiyyət kəsb edir. Hissi idrakdan fərqli olaraq təfəkkür sayəsində insan obyektiv gerçəkliyi daha düzgün və ətraflı surətdə dərk etmək imkanına malik olur. Hissi idrak prosesində insan cisim və hadisələrin xarici əlamətlərini dərk etməyə nail olursa, təfəkkürün iştirakı sayəsində şeylər və hadisələr dünyasının daxili əlamətləri, daha doğrusu onların mahiyyəti dərindən və əsaslı surətdə dərk olunur.

Təfəkkürün bir fəaliyyət prosesi kimi təşəkkülü sistematik olaraq cisim və hadisələrin, o cümlədən ictimai hadisələrin qanunauyğunluqlarının dərk olunması və aşkara çıxarılması üçün əsaslı real elmi zəmin yaradır. Təfəkkürün təşəkkülü uşağın əqli fəaliyyətinin inkişafına həlledici təsir göstərməklə idrak proseslərinin bütöv bir sistem halında formalaşması üçün geniş imkanlar açır. Təfəkkürün inkişafı çox mürəkkəb bir prosesdir. Onun inkişafı uşaqla dünya arasında yaranan ağlabatan münasibətin fonunda reallaşır. İnkişaf prosesində təfəkkürün məzmunu dəyişir və onun formalarının əhatə dairəsi genişlənir.

Təfəkkürün formalarının təşəkkülü və inkişafı sosial-psixoloji faktorların fəal təsiri şəraitində reallaşır, uşaq böyüklərin rəhbərliyi altında ətraf dünya haqqında mövcud olan bilikləri ardıcıl olaraq mənimsəyir və özü ilə ətraf gerçəklik arasında ağlabatan münasibətlərin yaranmasına fəal surətdə meyl edir.

Ümumiyyətlə, yaradıcılıq prosesi maraq, müəyyən emosiya yaradır. Bu vəziyyət hadisələrə qarşı öyrənənlərdə suallar formalaşdırır, uşağı bu suallara cavab ətrafında düşünməyə sövq edir. Buna psixologiya və didaktikada "problem situasiyasının yaranması" deyirlər. Problem situasiya daxili mahiyyətinə görə konkret tapşırıqlardan fərqlənir. Adətən tapşırıq şifahi, bəzən də yazılı formada şagirdlərə təqdim edilir. Problemli situasiya (problemli şərait) idraki fəaliyyətin konkret məqsəd və nəticəyə yönəlik vasitələrində olan ziddiyyətlərlə, əksliklərlə ifadə olunur. Belə əksliyin və təzadların yaranması şagirdin təlim fəaliyyətində yeni bilik-bacarıqlara yiyələnmək və bunları "sərgiləmək" tələbatı yaradır. Konkret olaraq hər hansı problemi həll etmək, ziddiyyətləri görmək və həll yollarını tapmaq, problemli vəziyyətdən çıxma prosesi ümumilikdə 5 əsas mərhələli bir faktdır: 1) Problemli şəraitin, situasiyanın yaranması, problemin konkret olaraq qoyuluşu; 2) Əvvəlki təcrübə əsasında , məlum üsullardan

istifadə edərək problemin həllinə cəhd (mövcud problemin "qapalı" formada həlli mərhələsi); 3) Mövcud problemin yeni üsullarla həllinə yeni, fərqli münasibətin yaranması (qoyulmuş problemin "açıq" həlli mərhələsi); 4) Yeni üsul və prinsiplərin reallaşması, həyata keçirilməsi mərhələsi; 5) Məsələnin, problemin həllinin düzgün olub olmamasının yoxlanılması.

Dərsin gedişatı zamanı problem situasiyanın həll yollarının axtarılıb tapılması uşaqlarda, tədqiqat və araşdırma qabiliyyətini inkişaf etdirir, problemdən doğan suallar öyrənənləri düşündürür, onların təfəkkürünü fəallaşdırır. Bu mənada problemli situasiya təfəkkürün hərəkətverici qüvvəsi, onun mənbəyidir. Dərsin tədqiqat mərhələsində yeni məlumat daşıyan paylama xarakterli didaktik materiallar və işçi vərəqlərdəki tapşırıqların şagirdlər tərəfindən icra edilməsi bilik və bacarıqların praktik formada öyrədilməsinə, materialın fəal və şüurlu mənimsənilməsinə, müqayisə, təhliletmə, qruplaşdırma, ümumiləşdirmə kimi idraki bacarıq və qabiliyyətlərin formalaşmasına, beləliklə də tədris materialının uzun müddətə hifz olunmasına, yadda qalmasına səbəb olur.

Ümumən tətbiq edilən təlim metodları şagirdlərin təlimə marağını artırmalı, onlarda proqramdakı digər mövzulara daxili həvəs, maraq oyatmalıdır. Məlumdur ki, metod müəyyən qabiliyyətlərin oyanması və aktivləşməsi üçün müəllim tərəfindən tətbiq edilən üsul və vasitələr külliyyatı, məcmusudur. Yaxşı olardı ki, təlim prosesində aparılan fikir mübadiləsi, alınan nəticələr davamlı olsun, bir fikirdən digərləri doğsun, uşaqların elmə meyl və marağı artsın. Şagirdlər təlim prosesində onların gələcək həyatı üçün faydalı olan yeni biliklər öyrəndiyini hiss etməlidirlər, əks halda uşaqda təlimə maraq tədricən azalır. Buradan nəticəyə gəlirik ki, şagird biliyi ona öyrətdiyimizə görə yox, bu biliyin perspektiv əhəmiyyətini, real həyatdakı rolunu fərd olaraq dərk etdiyinə görə fəal şəkildə öyrənməyə can atmalıdır. Yəni, təlimdə mühüm olan, elmi xarakter daşıyan materialları şagirdlərə onların gələcək həyatlarında ehtiyaclarını ödəyəcək zəruri vasitə kimi sevdirmək lazımdır.

Uşaqların əqli fəallığının yüksəldilməsi, bu prosesin mahiyyətinin açıqlanması məsələsi qeyd etdiyimiz kimi, elmi tədqiqatların obyekti olmuş, daim diqqətdə olmuşdur. İdrak fəallığının mahiyyətini alimlər belə müəyyən etmişlər: «Şagirdlərin idrak fəallığı onların təlimə fəal münasibətinin təzahürüdür. Bu prosesdə uşaq qüvvəsini, qabiliyyətlərini səfərbər edir, ciddi məsuliyyətlə, intensiv olaraq işləməklə konkret tapşırıqları ayrılmış vaxt kəsiyində yerinə yetirir» (1, s.152).

Uşaqların idrak fəallığı özbaşına, kortəbii surətdə formalaşmır. Uşaqların idrak fəallığı öyrənmə prosesində uşağın potensial imkanlarının, maraq və tələbatının, onun meylinin düzgün istifadə edilməsi nəticəsində formalaşır. Bu zaman təlimin rəngarəng ,müxtəlif metodları, onun təşkilat formaları, mövcud təlim prinsipləri effektli şəkildə tətbiq edilməli və bunun hesabına idrak prosesi aktivləşməlidir. Uşaqların əqli fəallığının artırılması üçün ümumtəhsil məktəblərində davamlı olaraq daha sadə üsuldan-uşaqlara yalnız onların qəbul edə biləcəyi bilikləri vermək (təlimdə müvafiqlik prinsipinə uyğun olaraq) ideyasından istifadə olunmuşdur. Müəyyən dövrdə öyrənmə fəaliyyətinin əsası olan bu metodik ideya pedaqogika elmində ciddi mövqe qazana bilmişdi. Yuxarıda qeyd etdiyimiz kimi, bu ideya didaktikanın müvafiqlik prinsipinə əsaslanır.

Müasir pedaqogikada yaddaşa əsaslanan təlim tədricən öz aktuallığını itirir. İndi əsasən şagirdyönlü təhsil sistemi geniş yayılır. Yeni milli kurikulumlarda bu istiqamət prioritetdir. İnformatika üzrə olan fənn kurikulumu da bu əsasda yaradılmışdır. İnformatika kursunda olan İnternet məzmun xəttinin tədrisində, eləcə də digər mövzuların tədrisində şagirdlərin idraki fəaliyyətini yüksəltmək üçün İnternet resurslarını xüsusi olaraq təhlil etmək, dərsin mövzusuna və məqsədlərinə uyğun olaraq intent seçmək olar. Daha sonra bu kontent vasitəsi ilə İnternetdən dərs prosesində istifadə edərək, şagirdlərin idrakı marağını və idrak fəaliyyətini aktivləşdirmək yaxşı olar.

Ənənəvi öyrətmə prosesində müəllim məlumat verir, uşaqlar bunu qəbul edir, yaddaşına hifz

Bir çox alimlər (D. Davudov və s.) XX əsrdə apardıqları eksperimental tədqiqatların köməyi ilə inkişafın iki səviyyəsini müəyyən etmişdirlər: aktual inkişaf zonası və yaxın inkişaf zonası. L.S.Viqotskiyə görə, təlim prosesi aktual inkişaf zonasına (səviyyəsinə) əsaslanırsa, o məlumatverici funksiya daşıyır. Əgər təlim yaxın inkişaf zonasına (səviyyəsinə) əsaslanırsa, o inkişafetdirici xarakter daşıyır. Bu səbəbdən tədris materialının uyğunluq səviyyəsi yaxın inkişaf zonasının (səviyyəsinin) xüsusiyyətləri ilə müəyyənləşdirilməlidir . Yəni tədris materialının çətinliyi yaxın inkişaf zonasının xüsusiyyətlərinə müvafiq olaraq müəyyənləşdirilməlidir. Tədris materialının çətinlik səviyyəsi öyrənənin gücünə (aktual inkişaf zonasına) müvafiq olduqda, onun mənimsənilməsi asan olur. Nəticə etibarı ilə şagirdin idraki fəallığı zəifləyir. Ənənəvi təlimin ciddi nöqsanı da elə bundan ibarətdir. Əslində təlim şagirdyönlü olub, məlumatverici xarakter yox, inkişafetdirici xarakter daşımalıdır. Öyrənənə sadə məlumat təqdim edildikdə də müəyyən inkişaf olur. Lakin bu inkişaf daha zəif olur. Uşaqlar ilk növbədə müəyyən çətinliyə salınmalı, daha sonra bu çətinlikdən çıxmağın yolu ona göstərilməlidir. Ənənəvi təlim prosesində bu imkanlardan az istifadə edilir.

Bu ideyalar öz sonrakı inkişafını L.V. Zankovun tədqiqatlarında tapdı. Təlimin psixi inkişafda həlledici rolunu qəbul edən L.V.Zankov qeyd edir ki, «bilik inkişafın şərtidir, lakin onu hələ öz-özlüyündə təmin etmir. Şagirdi məqsədyönlü, kompleks didaktik sistem əsasında inkişaf etdirmək zəruridir» (2, s.96).

Müəllim müvafiq suallar vasitəsilə uşaqların təlim materialını mənimsəmə səviyyəsini yoxlayır, onların biliklərini daha da dərinləşdirir. Suala cavab axtararkən hər bir şagirdin əqli fəallığı, onun müstəqilliyi təzahür edir. Suallar vasitəsi ilə öyrənənin oxuduğu materialı şüurlu şəkildə mənimsətmək, mətndə olan fikirləri və onlar arasındakı olan əlaqələri başa salmaq, uşağı yeni əqli nəticələrə gətirmək mümkündür.

Təcrübəli fənn müəllimləri öyrətmə prosesində əsasən aşağıdakı tip suallardan istifadə edirlər:

* hadisənin səbəbini aydınlaşdırmağı tələb edən suallar;
* öyrənilən tədris materialında başlıca məsələni ayırmağa yardım edən suallar;
* cisim və hadisələri müqayisə etməyə yardım edən edən suallar;
* müşahidə edilmiş faktları ümumiləşdirməyə yardım edən suallar;
* irəli sürülmüş mülahizəni əsaslandırmağa, sübut etməyə yardım edən suallar və s. Deməli, təlim prosesində, müəyyən sorğularla müxtəlif düşündürücü suallar verərək şagirdlərin təfəkkürünü fəaliyyətə gətirmək, inkişaf etdirmək mümkündür.

Öyrənmənin hərəkətverici qüvvəsini öyrənmənin əqli fəallığı təşkil edir. Uşaqlarda təlimə tələbatın formalaşdırılması öyrədənin pedaqoji ustalığından, öyrədənin öyrənənlərə tələbkarlığından, öyrətmənin metod və üsullarının düzgün seçilməsindən, uşaqlarda öz qüvvələrinə inamın formalaşmasından və s. asılıdır.

Öyrətmə metodu aşağıdakı kimi spesifik xüsusiyyətlərə malikdir: * Təlimin subyekt xarakterli olması; * Uşaqların fəal öyrənməyə meylliyi, təfəkkürün müstəqilliyi; * Şagird və müəllim dərs zamanı fəallığı; * Dərsin başlanğıcında problemli situasiyanın yaradılması, dərs prosesinin problem situasiyanın həllinə yönəldilməsi; * İstiqamətləndirici və düşündürücü suallarla uşaqların yeni bilikləri müstəqil şəkildə aşkarlanmasına yönəldilməsi; * Öyrənmənin tədqiqat üsulu ilə reallaşması; * Dərsin dialoq formasında aparılması, əks əlaqə yaradılması; * Qrupda qarşılıqlı fəaliyyət; * Vacib həyati məqsədlərə nail olmaq, bu məqsədlə biliklərin yaradıcı tətbiqi.

Təlimin mühüm üstünlüyü - biliklərə sahiblənmək həvəsinin yaranmasıdır. Bu əqli fəaliyyətin gedişi prosesində uşaqların təfəkküründə ziddiyyətlərin həllindən ibarətdir. Real ziddiyyətlərdən doğan emosiyalar əqli resursların səfərbərliyini təmin edir, əqli fəaliyyətini fəallaşdırır, diqqəti bu prosesdə uzun müddət cəmləməyə imkan verir. Məlumatlar, biliklər hazır formada yox, bu biliklərin müstəqil olaraq kəşfi prosesində mənimsənilir. Mənimsəmə prosesi passiv yox, fəal xarakter daşıyır. Əgər şagird öz istək, maraq və fəaliyyətinə əsasən yeni biliklər kəşf edirsə, bu halda o, dərsə yaradıcı yanaşır. Şagird bu halda əldə etdiyi

bilikləri xeyli müddət ərzində və möhkəm mənimsəyir. Bu amillər şagirdlərin passivliyini aradan qaldırılmağa, zəruri təfəkkür xüsusiyyətləri və yaradıcılığın formalaşdırılmasına, təlim keyfiyyətinin yüksəldilməsinə imkan yaradır.

Tədqiqatın aktuallığı. Öyrəncidə təlimə ehtiyacın formalaşdırılması öyrədənin pedaqoji ustalığından, müəllimlə şagirdin müəllimlə hörmət və tələbkarlıq əsasında münasibətindən, öyrətmənin metod və üsullarının düzgün tətbiqindən, öyrənicilərə öz qüvvələrinə inamın aşılanmasından və s. asılıdır. Belə idrakı marağın yaranmasında və idarə olunmasında, idrak fəallığının yüksəldilməsində İKT vasitələrinin, xüsusi ilə İnternet texnologiyaların rolu böyükdür. Digər tərəfdən informatika fənni üzrə müasir kurikulum və digər tədris metodik materiallarda öyrətmə prosesi əsasən şagirdyönlü təhsilə təhsilə köklənmişdir. Artıq fənyönlü informatika kursu öz dövrünü başa vurmuşdur. Şagirdyönlü informatika kurikulumu isə uşaqların kreativliyinin inkişafını tələb edir. Bu məqsədlə dərsdə uşaqların idrak fəallığının yüksəldilməsinə, fəal və interaktiv tədrisin aparılmasına ehtiyac var. Bu işləri İKT vasitəsi ilə reallaşdırmaq, maraqlı innovasiyon ideyalar yaratmaqda müəllimlərə yeni imkanlar açır. Bu səbəblərdən tədqiqatımızı bu məsələlərə həsr etmişik.

Tədqiqatın elmi yeniliyi. İnternet resursların tətbiqi ilə informatika dərslərində şagirdlərin idrak fəaliyyətinin yüksəldilməsi məsələləri ilk dəfə araşdırılmışdır.

Tədqiqatın praktiki əhəmiyyəti. İnternet resursların tətbiqi ilə informatika dərslərində şagirdlərin idrak fəaliyyətinin yüksəldilməsi üçün praktik tövsiyələr verilmişdir.

Ədəbiyyat

1. Əhmədov İ.B., Ələsgərova K. Təhsilin informasiyası şəraitində müasir təlim texnologiyaları və nəzarət // Təhsildə İKT, 2014, № 3
2. Hümbətəliyev R., Səfərəliyeva. Kompüter şəbəkə teologiyalarının orta məktəb informatika kursunda tədrisi // Təhsildə İKT, 2017, № 1
3. Həsənova N.F. Azərbaycan təhsil sisteminin informatlaşmasında elektron resursların rolu // Təhsildə İKT, 2016, № 4.
4. Həsrət A. Təhsildə İKT və informasiya mədəniyyəti // Təhsildə İKT 2015, № 4.
5. Məmmədov Ə.M. Təlimin keyfiyyətinin yüksəldilməsində İKT-dən istifadə problemləri // Təhsildə İKT, 2012, № 3.
6. Orucova E.M. Şagirdlərdə informatik biliklər sisteminin formalaşdırılmasının psixoloji aspektləri // Təhsildə İKT, 2014, № 1.

T.B.Ализаде

Интернет технологии как метод улучшения познавательной деятельности студентов

Резюме

Интернет, основная технология информационного общества, глубоко проник в жизнь современного человека. Все виды информации легко доступны в Интернете, независимо от времени и места их создания. В результате Интернет стал мировым хранилищем информации. Интернет-технологии заложили основы для перехода человечества от стадии индустриального общества к информационному обществу.

T.V.Alizade

Internet technologies what is the method of improvement of cognition activities of students

Summary

The Internet, the main technology of the Information Society, has penetrated deeply into the life of modern man. All kinds of information are easily accessed on the Internet, regardless of the time and place they were created. As a result, the Internet has become a global repository of information.

Internet technologies have laid the foundations for the transition of humanity from the stage of industrial society to the information society.

Rəyçilər: ped.f.d., dos. İ.B.Əhmədov,
ped.f.d., dos. S.Q.Həsənli

Redaksiyaya daxil olub: 14.09.2019

Z.R.İSMAYILOVA
biologiya üzrə fəlsəfə doktoru

Ş.M.SEYİDOVA
e-mail: elchinseyidov@gmail.com

Azərbaycan Dövlət Pedaqoji Universiteti
(Bakı şəh., Ü.Hacıbəyov küç., 68)

ŞAGİRDLƏRDƏ TƏDQİQATÇILIQ BACARIQLARININ FORMALAŞDIRILMASI İSTİQAMƏTLƏRİ

Açar sözlər: *tədqiqat, bacarıq, təcrübə, bioloji proses, eksperiment, hüceyrə, layihə*
Ключевые слова: *исследование, навыки, опыт, биологический процесс, эксперимент, клетка, проект*
Key words: *research, skills, experience, biological process, experiment, cell, project*

Ümumtəhsil məktəblərində biologiya fənninin tədrisində şagirdlərə tədqiqatçılıq bacarıqlarının aşılanması imkanları genişdir. Bu imkanlar canlıların quruluşunu öyrənərkən onların müşahidə, müqayisə, oxşar və fərqli əlamətlərin müəyyən edilməsidir. Eyni zamanda canlı orqanizmlərdə baş verən həyat proseslərinin (tənəffüs, qidalanma, maddələr mübadiləsi, fotosintez, tozlanma, mayalanma, çoxalma, inkişaf, hərəkət və s.) müşahidə, eksperiment, təcrübələrin aparılması üsulları ilə öyrədilməsi imkanlarıdır. Canlılarla ətraf mühitin qarşılıqlı əlaqələrinin müşahidə, müqayisə, ümumiləşdirmə, təqdimat, sistemləşdirmə, nəticə çıxarma kimi fəaliyyətlərlə öyrədilməsi də tədqiqatçılıq bacarıqlarının aşılanmasına böyük kömək göstərir.

Göründüyü kimi, biologiyanın tədrisində şagirdlərin tədqiqatçılıq bacarıqlarının inkişafına kömək edən materiallar çoxdur. Onların ümumiləşdirilməsi, sistemə salınması mühüm əhəmiyyət kəsb edir.

Azərbaycan Respublikasının Təhsil Qanununun 9-cu maddəsində qeyd edilir: «Təhsil sisteminin başlıca vəzifəsi dərin və hərtərəfli biliyə, bacarığa, yüksək mədəniyyətə, məsuliyyət hissinə və demokratik dünyagörüşünə, soy-kökünə və Azərbaycan xalqının milli, əxlaqi, humanist, mənəvi və mədəni dəyərlərinə dərindən yiyələnən, onu qoruyan və daim inkişaf etdirən, Türk dünyasının və islam əxlaqının yaratdığı dəyərlərə yiyələnən, biliyinə, yüksək mənəvi keyfiyyətinə, demokratikliyinə görə dünyanın qabaqcıl vətəndaşlarının səviyyəsində dura bilən sağlam yurddaşlar yetişdirmək və bununla yüksək sivilizasiyalı cəmiyyət qurmağa, Azərbaycanı dünyanın ən inkişaf etmiş demokratik dövlətlərindən birinə çevirməyə qadir olan İNSAN tərbiyə etməkdir» (1, s.2).

Problemin aktuallığı. Belə bir insanın yetişdirilməsində ümumtəhsil məktəb fənlərinin, o cümlədən, biologiyanın üzərinə bir çox vəzifələr düşür. Bunlardan ən əsası şagirdlərin bilikləri tədqiqat aparmaqla müstəqil əldə etməsidir.

Şagirdlərin müşahidə etdikləri təcrübələrin, həll etdikləri məsələlərin, apardıqları tədqiqatın nəticələrinə dair referatlar, layihələr, təqdimatlar, cədvəllər, diaqramlar hazırlaması onlarda tədqiqatçılıq bacarıqlarının formalaşmasına müsbət təsir göstərir.

Məktəb biologiyasının tədrisində şagirdlərə tədqiqatçılıq bacarıqlarının aşılanması aşağıdakı təlim nəticələrini reallaşdırır: Şagird:

- Mikroskopdan, komputer, ağıllı lövhə, internet vasitələrindən tədris üçün istifadə edir;
- Bitki və heyvan məhsullarının tərkibini müəyyən edir;
- Canlılarda gedən bioloji prosesləri (qidalanma, tənəffüs, maddələr mübadiləsi və s.) praktik olaraq müşahidə edir;
- Qızdırıcı cihazlardan: qaz və spirt lampaları, sınaq şüşələri, ştativ, tikel maşası, tutucular və s. düzgün istifadə edir;

- Təcrübələr üçün maddələri hazırlayır: bərk və maye maddələrin xırdalanması, onların həll edilməsi, çökdürülməsi, mayelərin distilləsi, buxarlanması, duzların təmizlənməsi, süzmə, çöküntünün yuyulması, qurudulması və s. həyata keçirir;

- Ölçü cihazlarından (menzurkalar, termometr, müxtəlif tərəzilər və s.) istifadə edir;

- Laborotoriya avadanlıqları: şüşə bankalar, çaşkalar, kolbalar, sınaq şüşələri, stəkanlar, farfor və şüşə qabları və s. ilə müxtəlif əməliyyatları nümayiş etdirir;

- Tədqiqatlar zamanı təhlükəsizlik qaydalarına əməl edir, təhlükəni aradan qaldırır, maddələri xarakter xassələrinə və xarici əlamətlərinə, aqreqat halına, rənginə, iyinə görə təyin edir və s. (5, s.68)

Elmi yeniliyi. Tədqiqatda şagirdlərə aşılanacaq tədqiqatçılıq bacarıqlarının əsas istiqamətləri müəyyən edildi. Onlar:

1. Bioloji anlayışların, proseslərin, hadisələrin mənimsənilməsi.
2. Biologiya eksperimentlərinin təşkili və keçirilməsi.
3. Bioloji məzmunlu inteqrativ məsələlərin həll edilməsi.
4. Cədvəl, diaqram və modellərin hazırlanması.
5. Fəal dərsin tədqiqatın aparılması və yaradıcı tətbiqetmə mərhələlərində referat, təqdimat, layihələrin işlənilməsi və s.

Şagirdlərin tədqiqatçılıq bacarığının inkişaf etdirilməsində bir sıra bioloji anlayışlar laboratoriya işi və təcrübələrin aparılması ilə öyrədilir. Məsələn, hüceyrə və hüceyrə nəzəriyyəsi, onun orqanoidləri, bakteriyalar (aerob və anaerob), qıcqırma, hüceyrələrin atom və molekul tərkibi, zülalların kimyəvi tərkibi, kütləsi, quruluşu, amin turşuları, karbohidratlar, lipidlər, yağlar, nuklein turşuları (DNT və RNT) və s. tərkibi, xassələri laboratoriya işi ilə müəyyənləşdirilir, müqayisə edilir.

Hüceyrədə enerji mübadiləsi və onun mərhələləri, bitki hüceyrəsində plastik və energetik mübadilə, fotosintez, Mendelin birinci, ikinci, üçüncü qanunları və onların sitoloji əsasları, mutasiya və modifikasiya dəyişkənlikləri, bitki, heyvan və mikroorqanizmlərin seleksiyası müqayisə aparılmaqla izah edilir.

Hüceyrənin bölünməsinin müxtəlif tipləri müqayisə edilir, bitki və heyvanlar üzərində dəyişkənlik, uyğunlaşma əlamətləri tədqiqatların aparılması ilə aydınlaşdırılır, müqayisələr aparılır, növlərin yaşayış şəraitinə uyğunlaşma əlamətləri təyin edilir, bitki sortu və heyvan cinsləri arasındakı fərqlər araşdırılır

Şagirdlərin biologiya eksperimentinə cəlb olunması ilə tədqiqatçılıq bacarığının əldə etməsi daha faydalıdır. Bu prosesdə şagirdlər avadanlıqlarla işləyir, canlı və cansızların kimyəvi tərkibini tədqiq edir, üzvi, qeyri-üzvi maddələrlə işləyir, zəhərlənmə və yanğın təhlükəsini aradan qaldırmaq üçün, hava sorucusundan istifadə edir, canlı orqanizmlərdə baş verən bioloji prosesləri, hadisələri, onların fiziki və kimyəvi xassələrini, quruluşunu təcrübələr aparmaqla, eksperimentlər qoymaqla öyrənirlər.

Biologiyanın tədrisində şagirdlər inteqrativ məzmunlu bioloji hesablama məsələləri həll etməklə də tədqiqatçılıq bacarıqlarına yiyələnirlər. Belə ki, onlar canlılarda gedən kimyəvi maddələrə, fiziki hərəkət formaları və düsturlara, istehsalat və fermer təsərrüfat xarakterli bioloji proseslərə dair məsələləri həll edirlər. Belə hesablamalara monohibrid, dihibrid, nataman dominantlıq, analizedici çarpazlaşma, ilişikli irsən keçmə, populyasiya, modifikasiya və qan qruplarına aid məsələlərin həll edilməsi aiddir.

Biologiyanın tədrisində tədqiqatçılıq bacarığının inkişaf etdirilməsinə təsir edən amillərdən biri də şagirdlərin cədvəl, model, diaqramlar işləməsinə cəlb edilməsidir. Belə əməliyyatlar əsasən materialların ümumiləşdirilməsi, sistemləşdirilməsi, həyata tətbiq edilməsi, layihələrin hazırlanması ilə əlaqədar aparılır.

Biologiyanın tədrisində tədqiqatçılıq bacarığının inkişaf etdirilməsinə təsir edən amillərdən biri şagirdlərin regionun təbii sərvətləri, istehsalat müəssisələrinin fəaliyyəti ilə tanış edil-

məsidir. Təlim prosesində şagirdlər tədqiqatçılıq və praktik vərdişlər qazanmaqla tədris materiallarını dərindən və şüurlu olaraq mənimsəyir, tədqiqat aparmağın sirlərinə yiyələnirlər.

Yuxarıdakı faktlarla aşkar edildi ki, biologiyanın tədrisi ilə bağlı tədqiqatçılıq istiqamətinin mahiyyəti əsasən şagirdlərin bioloji proseslər və maddələr üzərində geniş müşahidə aparmaq, birləşmələrin quruluş modelini tərtib etmək, maddələrin, proseslərin daxili ziddiyyətləri əsasında meydana çıxan qanunauyğunluqları əks etdirən cədvəl, model, sxem hazırlamaq, maddələrin alınması, tərkiblərinin təyin edilməsinə aid təcrübələr aparmaq, təcrübələrin gedişi əsasında bioloji məzmunlu inteqrativ məsələlərin həlli və s. kimi müstəqil fəaliyyətlərlə bağlıdır. Bu baxımdan biologiyanın tədrisində şagirdlərin tədqiqatçılıq bacarığının inkişaf etdirilməsi imkanları daha geniş və çoxtərəfliliyi ilə seçilir.

Fənn kurikulumu təlim-tərbiyə ilə bağlı bütün proseslərə, fənnin məzmununa, təlim strategiyalarına yeni yanaşmağı tələb edir. Yeni yanaşma isə şagirdlərə fənnin məzmununun praktik istiqamətlərini, tədqiqatçılıq bacarığının inkişaf etdirilməsini, təlim nailiyyətlərinin düzgün qiymətləndirilməsini, həyatda, istehsalatda və əməkdə tətbiqi imkanlarını, qazanılmış bilik, bacarıq və vərdişlərin müasir cəmiyyətin tələbinə uyğunlaşması imkanını genişləndirir (2, s.23).

Biologiyanın tədrisində şagirdlərin tədqiqatçılıq fəaliyyətinin təhlilindən məlum oldu ki, biologiya dərslərində şagirdlərin tədqiqatçılıq bacarığının interaktiv təlimin tətbiqi ilə inkişaf etdirilməsi daha faydalıdır. Belə bir yanaşma dərsin effektliyini xeyli artırır, şagirdlərin tədqiqatçılıq bacarığının inkişafına zəmin yaradır.

Biologiyanın tədrisində inteqrativ məzmunlu hesablama və eksperimental məsələlərin, testlərin həlli yollarına geniş yer verilməsi, şagirdlərin tədqiqatçılıq bacarığının inkişafına güclü təsir göstərir. Eksperimental və hesablama məsələlərinə bitkilərin hüceyrəvi quruluşu, dayaq-hərəkət sistemi, tənəffüs sistemi, hüceyrədə maddələr və enerji mübadiləsi kimi problemlərin dəqiqləşməsinə, tamlaşmasına, konkretləşməsinə və ümumiləşməsinə, xüsusilə şagirdlərin tədqiqatçılıq bacarığının inkişafına şərait yaradır. Biologiyanın tədrisində çətin mənimsənilən materialların (hüceyrədə plastik və enerji mübadiləsi, zülallar, fotosintez və s.) seçilməsində, onların izahında nəticəyönümlülük prinsipindən istifadə etdikdə, mövzu asan və şüurlu mənimsənilir. Beləliklə, şagirdlərin tədqiqatçılıq bacarıqları inkişaf edir və formalaşır (5, s.103).

Şagirdlərin tədqiqatçılıq bacarıqlarının inkişafına fəal təlim metodları, o cümlədən BİBÖ, beyin həmləsi, klaster, layihələr, tədqiqat və s. təşkil formalarından qruplarla, cütlərlə, fərdi iş formaları müsbət təsir göstərir. Onların tətbiqi şagirdlərin nəzəri biliklərini daha da dərinləşdirir, tədqiqatçılıq fəaliyyətlərini yaxşılaşdırır (3, s.62). Məsələn, VI sinifdə: "Heyvanlarda böyümə və inkişaf" mövzusunun tədrisində VENN dioqramı üzrə müxtəlif heyvanların böyümə və inkişafının müqayisə edilməsi, tam və natamam inkişaf üzərində tədqiqatın aparılması, nəticələrin sxem, qrafik, cədvəllərlə ümumiləşdirilməsi kimi əməliyyatların qrup şəklində yerinə yetirilməsi şagirdlərdə tədqiqatçılıq bacarıqlarının, hətta aşağı siniflərdən inkişafına kömək edir. Mövzu aşağıdakı kimi ümumiləşdirilir:

Cinsi yolla çoxalan heyvanlarda fərdi inkişaf mayalanma ilə başlayır. Fərdi inkişafı şərti olaraq dövrlərə bölürlər: I. İlkin inkişaf dövrü; II. Orqanizmin formalaşması və böyüməsi dövrü; III. Yetkinlik və qocalıq dövrü.

II dövrdə heyvanların inkişafı iki yolla - düzünə və ya dolayı yolla gedir. Əgər nəsil öz valideyninə oxşayırsa, lakin ondan kiçikölçülü olması ilə fərqlənirsə, bu, düzünə inkişaf adlanır. İnkişafında sürfə mərhələsi olan heyvanların sürfəsi yetkin fərdə oxşamır. Belə inkişaf dolayı inkişaf adlanır (5, s.53).

Dərsin yaradıcı tətbiqetmə mərhələsində şagirdlər tədqiq etdikləri problemə dair təqdimat hazırlayır və sinif qarşısında təqdim edirlər. Biologiya dərslərinin belə təşkili şagirdlərin tədqiqatçılıq bacarıqlarını inkişaf etdirir, onların hərtərəfli inkişaf etmiş şəxsiyyət kimi formalaşmasına zəmin yaradır.

Praktik əhəmiyyəti. Biologiya dərslərində şagirdlərə tədqiqatçılıq bacarıqlarının inkişaf etdirilməsi istiqamətləri tətbiq edildikdə müvəffəqiyyət və keyfiyyət yüksəlir.

Ədəbiyyat

1. "Təhsil haqqında" Azərbaycan Respublikasının qanunu. Bakı, Qanun, 2009, 35 s.
2. Azərbaycan Respublikasının ümumtəhsil məktəbləri üçün biologiya fənni üzrə təhsil proqramı (kurikulumu)", Bakı-2013, 74 s.
3. Hacıyeva H.M., Abdullayeva T.Q., Hacıbəyova E.Ə. Ümumtəhsil məktəblərində biologiyanın fəal təlim metodları ilə tədrisi metodikası. Bakı, Çaşıoğlu, 2014, 212 s.
4. Orucov F.M. Biologiya dərslərində şagirdlərdə tədqiqatçılıq bacarığının inkişaf etdirilməsi yolları (dərs vəsaiti), Bakı, 2011, 181 s.
5. Seyidli Y., Əhmədbəyli X., Əliyeva N. Biologiya-6. Ümumtəhsil məktəblərinin 6-cı sinfi üçün dərslik. Bakı, 2013, 159 s.
6. Бессуднова Н.В. Развитие критического мышления на уроках биологии. //Биология в школе. 2008, № 3, с.24-28.

З.Р.Исмаилова, Ш.М.Сейидова

Направления формирования исследовательских умений у студентов

Резюме

В статье исследуются основные направления развития исследовательских навыков учащихся в преподавании биологии в общеобразовательных школах. Объясняются пути, методы и формы решения проблем. Проблема анализируется в учебной программе по биологии. Научно-педагогическая значимость формирования исследовательских умений у студентов обоснована. Показано, что студентам следует отдавать предпочтение наблюдению, экспериментам, экспериментам и лабораторным занятиям при развитии исследовательских навыков. Вот методические рекомендации по эффективному решению проблемы.

Z.R.Ismailova, Sh.M.Seidova

Directions for the formation of research skills in students

Summary

The article explores the key areas for developing students' research skills in teaching biology in secondary schools. It explains the ways, methods and forms of problem solving. The problem is analyzed in the biology curriculum. The scientific and pedagogical significance of the formation of research skills in students is justified. It is shown that students should be given preference for observation, experimentation, experimentation and laboratory training in the development of research skills. Here are methodological recommendations on how to effectively solve the problem.

Rəyçilər: dos. H.M.Hacıyeva,
ped.f.d., dos. Ə.M.Məhərrəmov

Redaksiyaya daxil olub: 11.10.2019

İ.M.MAZANOV,
S.P.MÜRSƏLOVA,
Q.B.HÜSEYNOV

Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası
(Bakı şəh., F.Xoyski pr, 98)

HƏRƏKƏT AKTİVLİYİNİN TƏLƏBƏLƏRİN ORQANİZMİNƏ TƏSİRİNİN GİGİYENİK ƏSASLARI

Açar sözlər: *hərəkət aktivliyi, hipokineziya, fiziki hazırlıq, fiziki yüklər, dözümlülük*
Ключевые слова: *двигательная активность, гипокинезия, физическая подготовка, физическая нагрузка, гипертония, выносливость*
Key words: *motor activity, hypertension, physical training, physical load, endurance*

Giriş. Fiziki aktivlik orqanizmin ətraf mühütün qeyri-əlverişli şəraitinə dözümlüyünü müəyyən etməklə yanaşı onun harmonik inkişafına kömək edir. Məlum olduğu kimi, hipokineziya (hipodinamika) orqanizmin bütün orqan və sistemlərində struktur-funksional dəyişikliklər yaradır. Bu, ilk növbədə, mərkəzi sinir sisteminin işinə, onun əsas tənzimləyici sistemlərinin formalaşmasına və qurulmasına öz mənfi təsirini göstərir. Hərəkət aktivliyinin yeniyetmə və gənclərin orqanizminə göstərdiyi təsir bir o qədər geniş öyrənilməmiş və müasir dövrün ən aktual və həllini gözləyən məsələlərdəndir. İnformasiya-kommunikasiya texnologiyaların təkmiləşməsi insanın hərəkət fəaliyyətinin məhdudlaşmasına, dayaq-hərəkət aparatında deformasiyaların yaranmasına güclü təsir edir. Bütün bunlar mövzunun aktuallığını bir qədər də artırmaqla, əhalinin sağlamlığının formalaşması, qorunması və möhkəmlənməsinə, hərəkət aktivliyinin artırılmasına yönəldilmiş tədbirlərin qarşısında duran əsas vəzifələrindəndir. Bu zaman əsas fikir uşaq və yeniyetmələrin, həmçinin də, tələbə gənclərin sağlamlığının qorunmasına yönəldilir. Çünki əhalinin bu təbəqəsi yaxın gələcəkdə cəmiyyətin rifah halının və sosial-iqtisadi inkişafının səviyyəsini müəyyən etməkdə aparıcı rola malik olacağı şübhəsizdir.

Tələbə əməyi – intelektual fəaliyyətin spesifik forması olub, üzərinə fasiləsiz olaraq informasiya yükü və təlim düşür. Bu da həmişə orqanizmin fizioloji imkanları ilə adekvat olunur və sonda xəstəliklərin inkişafına rəvac verir. Buna gətirib çıxaran səbəblərdən biri də məktəblərin yuxarı sinif şagirdlərində sağlamlığın, psixoemosional gərginliyin yüksək olmasıdır. Nəticədə əmək və istirahət arasında rejim pozulur, ali məktəblərin birinci kurslarında hələ də davam etmiş olur (1, 2). Tələbələrin sağlamlığının pozulmasına müəyyən dərəcədə hərəkət aktivliyinin məhdudlaşdırılması da öz təsirini göstərir (3, 4). Hipokineziya (hərəkətin məhdudlaşdırılması), bir tərəfdən, multipatogen faktor olub müxtəlif xroniki qeyri-spesifik xəstəliklərin yaranmasına rəvac verir, digər tərəfdən isə, əsas xroniki xəstəliklərin ilkin profilaktikası və korreksiyasında, xüsusilə də ürək-damar sistemi xəstəliklərində multisanogen amil-fiziki aktivlikdir (3, 5). Problemin xüsusi aktuallığı ondan ibarətdir ki, ürək-damar sistemi xəstəliklərinin profilaktikasında yaranan çətinlik səbəbindən bu xəstələrin 60%-nin ölümünə səbəb olur (6, 7). Qeyd olunduğu kimi, dünyanın əksər ölkələrində ürək-damar sistemi xəstəlikləri son dövrdə epidemiya halını almış və insan ölümündə aparıcı amil rolunu oynayır (3, 6).

Yüksək qoruyucu effektə və profilaktik qiymətinə baxmayaraq, mülayim əzələ fəaliyyətinin və müxtəlif hərəki rejimlərin tam sağlam insanların və gənclərin səhhətlərinə göstərdiyi təsir məsələləri hələ də tam öyrənilməmişdir. Tələbələrin sağlamlığının səviyyəsini inteqral qiymətləndirən elmi işlər çox azdır. Aşkarlanmış risk amillərini nəzərə alan sağlamlaşdırıcı tövsiyələr və korreksiyaedici proqramlar yoxdur. Bu zaman o da qeyd edilir ki, hərəki aktivliyin səviyyəsi, qidalanmanın xarakteri, əmək və bərpa rejimi, spirtli içkilərin qəbulu, siqaret çəkmək və s. amillər sağlamlığa təsir edən modifikasiyaedici faktorlar olub korreksiyaya ehtiyacı vardır.

Yuxarıda sadalananlar tədqiqatın aktuallığını əks etdirir, sağlamlığın formalaşması, qorunması və möhkəmlənməsi üçün strategiyanın işlənməsini tələb edir.

Tədqiqat işinin əsas məqsədi - tələbələrin sağlamlığının vəziyyətinin inteqral qiymətləndirilməsini müxtəlif hərəki aktivlik rejimlərində aparılması və xəstəliklərin inkişafının risk faktorlarına təsir göstərən korreksiyaedici proqramlarının işlənməsi və əsaslandırılmasının təmin edilməsi olmuşdur.

Tədqiqatın obyekti və metodları. Tədqiqat işində qarşıya qoyulan vəzifələri həll etmək məqsədi ilə aşağıdakı tədqiqat metodlarından istifadə olunmuşdur: ədəbiyyat qaynaqlarının təhlili; antropometrik metodlar; fiziki hazırlığı qiymətləndirmək üçün müxtəlif testlər; fiziki iş qabiliyyətini və OMS-ni qiymətləndirmək üçün testlər, ürək-damar və tənəffüs sistemlərinin funksional vəziyyətinin tədqiqi metodları; spirometriya, pulsotaxometriya, sfiqmomanometriya, anket sorğusu, riyazi statistika metodları və s.

Tədqiqat işinin əsas vəzifələrinə: tələbələrin həyat tərzinin xüsusiyyətlərinin öyrənilməsi və xəstəliklərin inkişafina rəvac verən risk amilinin olduğunu aşkarlamaq; fiziki inkişafın morfofunksional göstəricilərinin dinamikasının öyrənilməsi**,** tələbələrin təhsil aldıqları dövrdə fiziki hazırlığının, iş qabiliyətinin öyrənilməsi; müxtəlif hərəki aktivliyə malik dövrlərdə tələbələrdə kardorespirator sistemin və onların tənzimlənməsinin mexanizminin tədqiqi; tələbələrin morfofunksional göstəricilərinin dinamikasinin korreksiyaedici tədbirlərin aparılması dövründə öyrənilməsi təşkil etmişdir.

Alınan nəticələrin müzakirəsi. İlk dəfə olaraq tam sağlam tələbələrdə fiziki inkişafın, fiziki hazırlığın və fiziki iş qabiliyyıtinin kompleks qiymətləndirilməsi dinamikası öyrənilmişdir. Fiziki inkişafın göstəricilərindən monitorinqlərin aparılması üçün istifadə oluna bilər. Həm də hərəki aktivliyin müxtəlif rejimlərində fiziki inkişafin, fiziki hazırlığın və fiziki iş qabiliyyətinin, tələbələrin kardiorespirator sistemlərinin funksional vəziyyətinin sağlam və sağlamlığında risk amili olan tələbələrdə kompleks şəkildə öyrənilmişdir. Tələbələrdə hemodinamikanın göstəricilərində fiziki yük nümunələrinə və fəzada bədənin vəziyyətinin dəyişilməsi zamanı adaptasiyanın və dezadaptasiyanın meyyarları aşkarlanmışdır. Müəyyən olunmuşdur ki, tələbələrdə hipertenyiya halı bir sıra kompleks faktorlarla bağlıdır: mütəmadi fiziki tərbiyə məşğələlərinin olmaması, bədən kütləsinin çoxluğu, siqaret çəkmək, spirtli içki qəbulu, normada yatmamaq (6 saatdan az), gündəlik rejimə əməl etməmək, dərs tapşırıqlarının yerinə yetirilməsinə 5 saatdan çox vaxt ayırmaq və s. Tələbələrin sağlamlığının yüksəldilməsi hərəki aktivliyin artmasına əsaslanmalı və fiziki yüklərin icrasına meyilli olmalıdırlar. Tələbələrin sağlamlığının inteqral qiymətləndirilməsi kompleks şəkildə aparılmış və alınmış nəticələr vaxtında və differensial olaraq donozoloji xəttatın korreksiyasını aparmağa kömək etmiş olur. Tələbələrin sağlamlığının həmişə dispanser müşahidələri əsasında aparılması, funksional sınaqların aparılması, dezadaptasiya hallarında tədqiqatların spektrinin genişləndirilməsi və yoxlamalara qanın biokimyəvi analizinin aparılması daxil edilməsi və s. tələbələrdə qan dövranının göstəricilərinin spektral xarakteristikasının, mərkəzi və periferik hemodinamikanın adaptiv və dezadaptiv reaksiyalarının göstəricilərindən idman təbabətində həkimlər tərəfindən dinamik tədqiqatların (monitorinqlərin) aparılması zamanı istifadə oluna bilər. Tədqiqatın nəticələrini əks etdirən tövsiyyələri tələbələrdə sağlamlığın formalaşmasına, sağlam həyat tərzinin keçirilməsinə və sosial aktivliyin yüksəlməsinə kömək etmiş olar. Sağlamlığın qorunmasına yönəlmiş bu fikirlər tələbələr arasında maariflənmənin yüksəlməsinə, sağlamlığın möhkəmlənməsinə infeksion və qeyri-infeksion xəstəliklərin yayılmasının profilaktikasının aparılmasına bədən tərbiyəsi metodları və vasitələri kömək etmiş olar (9, 10).

İnsanın gündəlik həyat tərzində onun sağlamlığına təsir edə bilən amillərin arasında ön sıralarda icra olunan hərəkət aktivliyinin dərəcəsi durur. Hərəkət və ya fiziki aktivlik orqanizmdə gedən ayrı-ayrı proseslərə güclü təsir edir. Fiziki aktivliyin insanların həyatından "sıxışdırılması" bir sıra patoloji proseslərin inkişafına münbit şərait yaradır. Beynəlxalq Səhiyyə Təşkilatının məlumatlarına əsasən 70%-dən çox insanın hərəkət aktivliyi adi normalar sə-

viyyəsindən aşağıdır. Insanın həyat tərzinə möhkəm daxil olmuş hipokineziya problemini artıq aktual və kompleks kimi qəbul etmək vacibdir, bu problemin bərpaedici və profilaktik tibb üçün əhəmiyyəti böyükdür.

Eksperimental tədqiqatların nəticələrinə əsasən hərəkət aktivliyinin yüksəlməsi ilə ürək-damar sistemi xəstəliklərin tezliyi arasında birbaşa əlaqə vardır. Aparılmış elmi araşdırmalardan məlum olmuşdur ki, ürək-damar və digər qeyri-infeksion xəstəliklərin inkişaf riski ehtimalını uzunmüddətli hərəkət aktivliyinin kifayətedici səviyyədə olmaması, uşaqlıq və yeniyetməlik dövründə orqanizmin funksional imkanlarının aşağı səviyyədə olması ilə əlaqələndirirlər. Əhalinin 30%-dən çox aşağı fiziki aktivliyə malikdirlər. Ona görə də, asudə vaxtlarının yüksək hərəkət aktivliyi şəraitində keçirilməsi profilaktik tədbirlərin məcburi tərkib hissəsi olmaqla, sağlamlığın qorunmasına cavabdeh qurumlar tərəfindən həyata keçirilməlidir. Bir çox tədqiqat işlərində alimlər hərəkət aktivliyinin səviyyəsi ilə ürəyin işemik xəstəliyi, insult, insulindən asılı xəstəliklərin yayılması arasında əlaqənin olduğunu xüsusi qeyd edirlər. Müəyyən olunmuşdur ki, infakt xəstələrinin arasında əksəriyyətini (72-74%) gərgin zehni əməklə məşğul olan oturaq həyat tərzi keçirən insanlar, yalnız 12-16% fiziki əməklə məşğul olanlar təşkil etmişlər. Fiziki hərəkətlər, artıq yaxşı məlum olan müdafiə effektinə malik olurlar. Onlar ürəyin işemik xəstəliyi riskini və kişilərdə insult riskini müəyyən həddə qədər endirə bilmək qabiliyyətinə malikdirlər. Fiziki hərəkətlərin sistematik icrası arterial təzyiqi endirməklə yanaşı, lipidlərin qandakı profilini yaxşılaşdırır, yuxarı sıxlıqlı lipidlərin xolesterinin səviyyəsini artırır aşağı sıxlıqlı lipoproteyidlərin xolesterini azaldır qanda qlükozanın qatılığının azalmasına, qlükomeyilliliyin yüksəldilməsinə və beləliklə də xəstəliyin inkişaf riskinin azalmasına səbəb olurlar. Fiziki aktivlik endotelin funksiyasına və homeostaz sisteminə normallaşdırıcı təsir göstərir. Aparılmış çoxsaylı kliniki və eksperimental müşahidələrlə sübut olunmuşdur ki, sistematik icra olunan fiziki yüklər ürək və qan dövranının işinə müsbət təsir göstərir və beləliklə də "koronar imkanları" yüksəldir. Fiziki yüklərin icrası artıq baş vermiş anastomozların inkişafına kömək edir, piylənməni və hiperqlikemiyanın baş verməsini xəbərdar edir. Fiziki aktivlik ürək-damar sistemi xəstəliklərinin profilaktikasında rolunu araşdıran bir qrup tədqiqatçılar belə bir qənaətə gəlmişlər ki, ürəyin işemik xəstəliyi passiv həyat tərzi keçirən insanlar arasında xeyli üstünlük təşkil edir. Onu da qeyd etmək lazımdır ki, fiziki aktivlik insanların psixoloji durumuna müsbət təsir göstərir, qan zərdabında lipidlərin miqdarını azaltmaqla piylənmə ilə mübarizədə güclü bir vasitə rolunu oynayır. Sistematik icra olunan fiziki hərəkətlər yağların depolardan səfərbər olunmasına və toxumalarda onların oksidləşməsinə müsbət təsir göstərməklə, toxumalarda lipoliz prosesinin aktivliyini yüksəldir, onların normadan artıq toplanmasına imkan vermir (8, 9, 10).

Beləliklə, fiziki aktivlik insanların sağlam həyat tərzinin qorunmasında əsas faktor olub, fiziki inkişafın, orqanizmin funksional vəziyyətinin normal səviyyədə qorunub saxlanılmasında, ürək-damar və tənəffüs sistemi xəstəliklərinin profilaktikasında mühüm rol oynayır. Fiziki hərəkətlər sağlamlığın zamini olub, xəstəliklərin reabilitasiyasında, fiziki hazırlığın yaxşılaşdırılmasında önəmli bir vasitədir.

Nəticə. Ali məktəbdə oxuyan aşağı kurs tələbələrinin fiziki inkişafının dinamik tədqiqi zamanı məlum olmuşdur ki, yüksək hərəki aktivliyə malik olanlarda bədənin uzunluğu, bədənin kütləsi, döş qəfəsinin en dairəsi, əlin gücü, dözümlülük indeksinin göstəriciləri, onların passiv həyat keçirən həmyaşıdlarının göstəricilərini etibarlı dərəcədə üstəliyir ($p<0,05$). Yüksək hərəki aktivliyə malik olan tələbələrin ürək-damar sisteminin xarakterik funksional xüsusiyyəti iki illik təhsil müdətində aşağı aktivliyə malik olanlarla müqayisədə arterial qan təzyiqinin və qanın sistolik həcminin stabil səviyyədə (sistolik, diastolik, nəbz və orta təzyiq) qorunub saxlandığı məlum olur. Aktiv həyat tərzi keçirən tələbələrdə ürək vurğularının sayı, dözümlülük əmsalı, qan dövranının qənaətlilik əmsalı, ikiqat istehsal və qan damarlarının ümumi periferik müqaviməti aşağı səviyyədə qorunub saxlanılır. Yüksək aktivliyə malik olan tələbələrin ürək-damar sisteminin funksional vəziyyəti dərs prosesinə davamlı adaptasiyanın

formalaşmasına şərait yaratmışdır. Müəyyən olunmuşdur ki, yüksək hərəki aktivliyə malik olan tələbələrdə vegetativ sinir sisteminin parasimpatik tonusu davamlı olaraq üstünlük təşkil etdiyi halda, aşağı hərəki aktivliyə malik olanlarla müqayisədə ürək-damar sisteminin vegetativ göstəriciləri dəyişkən olur. Tənəffüs sisteminin funksional vəziyyətinin dinamikası icra olunan hərəki aktivliyin ölçüsündən asılı olaraq, xarici tənəffüsün funksiyalarına aktiv təsir göstərir, hipoksiyaya qarşı dayanıqlılığı yüksəlir. Hipoksiyaya qarşı dayanıqlığın Ştanqe və Qençe sınaqlarına, ağciyərin həyat tutumuna, həyat indeksinə görə davamlılığı hərəki aktiv tələbələrdə etibarlı olur ($p<0,05$). Fiziki iş qabiliyyətinin obyektiv qiymətləndirilməsi metodunu seçən zaman daha məlumatı olan PWC_{170} üsuluna üstünlük verilir. Sistematik icra edilən fiziki yüklərin təsiri altında hipokinetik (31 %) və eukinetik (61 %) tipli qan dövranları üstünlük təşkil etdiyi məlum olmuşdur. Qeyri-fəal həyat tərzi keçirən tələbələrdə (29 %) hiporkinetik tipli qan dövranının üstünlük təşkil etdiyi məlum olmuşdur (bu tipli qan dövranında fiziki yük nümunələrinə qarşı dezadptasiya prosesinin getdiyi məlum olmuşdur, 40 %-ə yaxın). Ürək-damar sisteminin funksional gərginliyin dərəcəsi hipokineziyalı tələbələrdə daha yüksək olur. Funksional sınaqların nəticələrinə görə ürək-damar sisteminin funksional imkanlarının azalması hipokineziya zamanı müşahidə olunmuşdur.

Ədəbiyyat

1. Babayev M.Ə., Əliyev A.A., Quliyev V.H. İdman təbabəti və gigiyena. Bakı, 2012. 324 səh.
2. Babayev M.Ə., Əliyev S.A., Kərimov R.M. Uşaqların və yeniyetmələrin sağlamlığının funksional və gigiyenik xüsusiyyətləri. Metodiki vəsait. Bakı, 2014, 84 səh.
3. Əliyev S.A. İdmançıların fiziki iş qabiliyyətinin bərpasının müasir vasitələri.
4. Məmmədova Ş.A., Əliyev S.A., Əlibəyova S.S., Xaniyev Y.Ə. Fiziki inkişafın qiymətləndirilməsi və məktəblilərin sağlamlığının vəziyyəti. // Beynəl. elmi kon.mat. (16-19.10.2014), Bakı, 2014, 270-278 səh.
5. Musayeva N.Ə., Əliyev S.A. Qan-damar sisteminin fiziologiyası, Bakı, 2001, 120 səh.
6. Абзалов Р.А., Павлова О.И. Показатели ударного объема крови спортсменов разного возраста и спортивнй квалификации // Теория и практика физической культуры. 1997, № 4 с.8-10
7. Ахматова Н.А. Сомато-функциональная изменчивость организма студентов в условиях применения дифференцированных физкультурных технологий: Автораф. дис.. кан. мед. наук. Тюмень, 2005. 24 с.
8. Верушкин Н.Г. Методы и средства управления физической подготовки студентов технических вузов: Автораф. дис.. кан. пед. наук. М., 1996. 24 с.
9. Быков Е.В. Влияние уровня двигательной активности на функциональное состояние здоровых учащихся 12-17 лет и физиологическое обоснование оздоровительных программ: Автораф. дис.. док. мед. наук. Курган, 2002. 36 с.
10. Баевский Р.М. Прогнозирование состояний на грани нормы и патологии. М.: Медицина, 1979, 298 с.

И.М.Мазанов, С.П.Мурсалова, Г.Б.Гусейнов

Гигиенические основы влияния двигательной активности студентов на их организм

Резюме

Формирование, укрепление и защита здоровья населения - одна из первостепенных задач общества. При этом основное внимание уделяется подрастающему поколению, его образованию, формированию личностных качеств. Большую часть населения составляют студенты. Чтобы направить усилия в верном направлении, необходимо первостепенно укрепить их здоровье.

Студенческий труд является одним из видов интеллектуальной деятельности, который ежедневно попадает в поле деятельности обновленной информации. Все это не всегда соответствует их физиологическим возможностям. В результате прогрессируют некоторые болезни,

усиливается психо-эмоциональное напряжение, а нарушение труда и отдыха отражается на интеллектуальной деятельности студентов.

I.M.Mazanov, S.P.Mursalova, G.B.Huseynov

Hygiene fundamentals of the effect of student motor activity on their body

Summary

Formation, strengthening and protection of the health of population is one of the primary functions of the society. In so doing the main attention is given to younger generation, their education, formation of personal features. A great deal of population are students. To direct the efforts on the righr direction it is primarily necessary to strengthen their health.

Students' labour is one of the types of intellectual activity that daily gets into the action field of updated information. But it is not always in keeping with physiological capabilities. Consequently, progresses some of deseases, reinforces psychoemotional tension, but work and rest disturbance are reflected in intellectual activity of the students.

Rəyçi: dos. S.A.Əliyev

Redaksiyaya daxil olub: 10.10.2019

T.E.MƏCİDZADƏ

Azərbaycan Dillər Universiteti
(Bakı şəh., R.Behbudov küç., 60)

İNGİLİS DİLİNDƏ KOMMUNİKATİV SƏRİŞTƏNİN FORMALAŞDIRILMASINDA QRAMMATİKANIN ROLU

***Açar sözlər**: kommunikativ sərişta, qrammatik bacarıqlar, reseptiv bacarıqlar, produktiv bacarıqlar, avtomatlaşmış fəaliyyət*

***Ключевые слова**: коммуникативная компетентность, грамматические умения, рецептивные умения, продуктивные умения, автоматизированная деятельность*

***Key words**: communicative competence, grammatical skill, receptive skills, productive skills, automatized activity*

XXI yüzillikdə bazar iqtisadiyyatının sürətlə dəyişən qaydaları, qloballaşmanın həyatımıza nüfuz etməsi insan kapitalının inkişafı perspektivlərini ön plana çəkməklə hər cür rəqabətə cavab verəcək mənəvi-intellektual dəyərlərə, yaradıcı təfəkkürə sahib olan, müxtəlif mədəniyyətlərin təmsilçiləri ilə ünsiyyətə girmək baracığına malik gənclərin yetişdirilməsi məqsədilə xarici dillərin kommunikasiya əsasında tədrisi prioritet məsələ kimi əhəmiyyət kəsb edir. Elmi-texniki tərəqqinin geniş vüsət alması, ölkəmizin dünyaya inteqrasiya etməsi və iqtisadi, mədəni, siyasi cəhətdən ölkələrarası əlaqələrin yaradılması xarici dillərin tədrisində kommunikativ yanaşmanın istifadəsini həyati zərurətə çevirir. Xarici dillərin kommunikativ məqsədlə tədrisi və bu məqsəddən irəli gələn vəzifələrin həyata keçirilməsi təhsilalanlara öyrəndikləri xarici dildə ünsiyyət yaratmaq bacarığı və vərdişinin aşılanması ilə səciyyələnir. Xarici dillərin tədrisi prosesində əldə edilmiş təcrübə göstərir ki, öyrənilən dil ünsiyyət vasitəsi olmalı və ondan kommunikativ məqsəd üçün istifadə olunmalıdır.

İnsanlar arasında birgə fəaliyyət tələbatından doğan kommunikasiya qarşılıqlı fəaliyyət prosesinin iştirakçıları arasında ünsiyyət mübadiləsinin həyata keçirilməsini təmin etməklə yanaşı, özünəməxsus psixiloji cəhətləri, informasiyanın ünsiyyət iştirakçıları üçün anlaşılan olmasının vacibliyi ilə fərqlənir. Bu zaman dilöyrənənin yalnız dil biliklərinə malik olması deyil, həm də dilin fonetik, leksik və qrammatik qanunauyğunluqlarına əməl etməklə ünsiyyət prosesində, danışıq anında öz fikir və hisslərini ifadə edərək canlı ünsiyyətə girmək bacarığı nəzərdə tutulur. Xarici dillərin tədrisinin hazırkı mərhələsində kommunikativ sərişənin formalaşdırılmasında dilin aspektlərindən biri olan qrammatikanın rolu və əhəmiyyəti təkzibedilməzdir. Xarici dilin qrammatikasını öyrətmək həmin dildə qrammatik bacarıqların mexanizmini forsmalaşdırmağı nəzərdə tutur ki, bu da dilöyrənənlərdə qrammatik biliklər sistemi yaranması ilə müşaiyət olunur, həmin sistemin həmişə işlək vəziyyətdə olmasını təmin edir.

Dilin qrammatik qaydalar əsasında deyil, daha çox onun təbii olaraq mənimsənilməsini nəzərdə tuturaq qrammatikanın tədrisinə qarşı çıxan S.Kraşen və T.Tereldən fərqli olaraq, R.Mitçel qrammatikaya müraciət etmədən dilin kommunikativ tədrisinin qeyri-adekvat olduğunu qeyd edir (3).

Dilə yiyələnmədə qrammatikanın vacibliyini önə çəkən N.Xomski dilə yiyələnmənin ayrı-ayrı dil elementlərinin köməyi ilə deyil, qaydalar sisteminə yiyələnmə, söyləmlərin anlaşılması vasitəsilə həyata keçirildiyini vurgulayaraq kommunikasiyanın uğurla həyata keçirilməsi üçün aşağıdakıların vacib olduğunu göstərir:

- fikrin qrammatik qaydalar vasitəsi ilə düzgün ifadə edilməsinin mümkünlüyü;
- qrammatik cəhətdən düzgün qurulmuş cümlənin fikrin başa düşülməsinə imkan yaratması, ünsiyyət prosesində dil materiallarından səmərəli istifadə edilməsinə müxtəlif amillərin təsiri;
- dilöyrənənlərin öz dil bilgilərini müxtəlif situasiyalarda düzgün tətbiq etməsi (1).

Kommunikasiya prosesində istifadə olunan qrammatik vahidlər müəyyən mənanın ifadə olunmasına təsir etməklə yanaşı yeni anlam ifadə edir, onu dəqiqləşdirir, nümunələr gətirməyə və nəticə çıxarmağa yardım edir. Bu da, öz növbəsində qrammatik bacarıqların formalaşmasını tələb edir. Xarici dildə qrammatik bacarıqların formalaşdırılmasının əhəmiyyətindən danışarkən elmi ədəbiyyatda qrammatik bacarıq anlayışının mahiyyəti ilə bağlı müxtəlif fikir və yanaşmalara rast gəlmək mümkündür.

S.F.Şatilov qeyd edir ki, qrammatik bacarıqlar sayəsində qrammatik materiallar produktiv və reseptiv nitq fəaliyyəti növləri üzrə fəaliyyətin yerinə yetirilməsi işinə xidmət edir və avtomatlaşdırılmış fəaliyyətidir (10).

E.İ.Passov qrammatik bacarıqları danışanın nitq fəaliyyətinə uyğun model seçmək və onu müvafiq olaraq verilən dil normalarına uyğun tərtib etmək bacarığı kimi qəbul edir. Müəllif, həmçinin qrammatik bacarıqların funksional və formal tərəflərini də ayırd edir. Qrammatik bacarıqların funksional tərəfi müəyyən dil situasiyası üçün daha uyğun qrammatik strukturu seçərkən ekstralinqvistik amıllərin (həmsöhbətin yaşı, ünsiyyətin iştirakşılarına olan münasibəti və s.) nəzərə alınmasını nəzərdə tutur (8).

Qrammatik bacarıqların formal tərəfi kommunikativ aktın həyat keçirilməsində dilöyrənənin linqvistik amilləri (zaman formalarından, ismin cəm halından düzgün istifadə) nəzərə almaq bacarığını nəzərdə tutur.

Qrammatik nitq bacarıqlarının yaradılması üçün qrammatika üzrə minimum linqvistik biliklərə yiyələnməyi məsləhət görən C.Harmer göstərir ki, hər hansı xarici dildə ünsiyyət qurmaq üçün həmin dilin struktur sistemindən xəbərdar olmaq lazımdır. Müəyyən filoloji biliklərə yiyələnmədən nə sadə cümlələr qurmaq olar, nə də həmin cümlə vasitəsi ilə fikir irəli sürmək olar. Xarici dil üzrə bacarıqlar formalaşdırılarkən, əvvəlcə ümumi dil bacarıqları və sonra dilin aspektləri üzrə bacarıqlara yiyələnmək lazımdır (2).

Penni Ur isə, qrammatik bacarıqların formalaşdırılması üçün zəruri mərhələlərin keçilməsini tövsiyə edirək passiv (reseptiv) nitq bacarıqlarına yalnız reseptiv qrammatik bacarıqlar sayəsində yiyələnməyin mükün olduğunu hesab edir. Onun təklif etdiyi tədris modeli şüurlu mənimsəmə modelinə uyğun gəlir. Müəllif inandırmağa çalışır ki, yalnız şüurlu surətdə mənimsənilmiş bacarıq avtomatlaşdırıla bilər və vərdiş halına keçə bilər (4).

Y.M.Kolker təsdiq edir ki, qrammatik bacarıqlar həm nitq, həm də dil səviyyəsində mövcuddur və ingilis dilini öyrənərkən dilöyrənən tərəfindən nəzərə alınmalı olan bir çox xüsusiyyətlərə malikdir (7).

Qrammatik nitq bacarığı qrammatik qanunauyğunluqlara əsaslanaraq qrammatik hadisələrin avtomatlaşdırılmış istifadəsidir. Bu səviyyənin qrammatik bacarığı dil səviyyəsinin bacarıqlarından daha əvvəl inkişaf etməyə başlayır. Qrammatik nitq bacarığına yiyələnmək dilöyrənənin nitqinin təkmilləşdirilməsinə zəmanət vermir.

Qrammatik bacarıq və vərdişlər reseptiv və produktiv xarakterli olmaqla iki yerə bölünür.

Mətnin yaranmasında istifadə olunan qrammatik qaydalar, forma və konstruksiyalar, danışıq məqamında onların düzgün seçimi, adekvat anlaşılması, ana dilinə tərcüməsi, şifahi və yazılı mətnlərin tərtibi, şıfahi və yazılı mətnlərin qrammatik xüsusiyyətlərini müəyyən etmək bacarığı produktiv vərdişlərə aid edilir (5). Bir qayda olaraq, produktiv qrammatik bacarıq və vərdişlər dildaşıyıcılarının istifadə etdikləri ana dili və yazılı və şıfahi dialoji nitq əsasında formalaşır. Bu halda dilöyrənən ünsiyyət iştirakçılarını nəyəsə inandırmaq, onlarda müəyyən bir cavab reaksiyası oyatmaqla ünsiyyətin fəal iştirakçısına çevrilir (6). Yazılı və şıfahi mətndə hər hansı qrammatik formanın, tərkibin tanınması, seçilməsi, fərqləndirilməsi reseptiv bacarıqlara aiddir.

E.İ.Passova görə, fəaliyyət növündən asılı olaraq, dilöyrənən audio materiallarla işləyirsə və ya təlim prosesi yazılı mətnə əsaslanaraq həyata keçirilirsə reseptiv qrammatik bacarıqlar reseptiv-aktiv bacarıqlar hesab olunur. Birinci halda, qrammatik nitq vərdişləri təkmilləşdirilmiş eşidib-anlama nümunələri və onların mənaları əsasında formalaşır. Ikinci halda isə, vizual-qrafik nümunələr və onların kəsb etdiyi mənalar arasında əlaqə nəzərdə tutulur. Eyni

zamanda, reseptiv-passiv qrammatik bacarıqlar də ayırd edilir ki, bu bacarıqlara dilöyrənənin yazılı mətndə əvvəllər öyrəndiyi qrammatik quruluşu tanımaq və mənasını anlamaq bacarığı aid edilir (9; 44).

Y.M.Kolker qrammatik dil vərdişlərini də müəyyənləşdirərək onları nitq kommunikasiyasının şərtlərindən kənar və qaydalar əsnasında ayrı-ayrı qrammatik forma və strukturun formalaşması, əməliyyat vərdişləri adlandırır (7).

Qrammatik dil vərdişləri diskursivlik, qeyri-situativlik və kommunikativlik xüsusiyyətlərinə malikdir. Diskursivlik dedikdə, dilöyrənənin nitqində qrammatik konstruksiyaların sərbəst və yaradıcı istifadəsi, bunun üçün hec bir məhdudiyyətin qoyulmaması nəzərdə tutulur. Qeyri-situativlik eyni bir qrammatik konstruksiyanın müəyyən dil situasiyaları ilə əlaqəsi olmadan bir neçə konteksdə istifadəsidir. Nəhayət, kommunikativlik dedikdə, kommunikativ nitq aktını yaratmaq, dəstəkləmək və inkişaf etdirmək ehtiyacını şərtəndirən dilöyrənənin nitq fəallığının təmin edildiyi situasiya başa düşülür (9)

Bir sıra müəlliflər (E.İ.Passov, S.V.Merzlyakov, E.A.Ryazanov) qrammatik bacarığın əsas tərkib hissələrinin aşağıdakılardan ibarət olduğunu qeyd edirlər:

- situasiyadan asılı olaraq danışanın niyyətinə uyğun adekvat qrammatik strukturun seçilməsi;
- müəyyənləşdirilmiş zaman parametrləri və danışılan dilin normalarına uyğun olaraq cümlə strukturunu doldura bilən nitq vahidlərinin seçilməsi;
- bu hərəkətlərin adekvat və düzgün olmasının müəyyənləşdirilməsi.

Qeyd etmək lazımdır ki, qrammatik bacarıq və vərdişlər sayəsində əldə edilmiş bilikləri xatırlamaq, hafizədə möhkəmləndirmək və məqsədyönlü istifadəsini təmin etmək məqsədilə bu biliklərin əldə edilməsinə xidmət edən qrammatik materialın sistemləşdirilməsi vacib hesab edilir. Bu məqsədlə xarici dildə qrammatik bacarıqların tətbiq edilə biləcəyi fəaliyyət növlərinin sistemləşdirilməsi üçün qrammatik və leksik-qrammatik variantlar ayırd edilir. Qrammatik sistemləşdirmə qrammatik bilikləri ümumiləşdirməyə, qrammatik paradiqmləri dərindən təhlil etməyə, yadda saxlamağa, düzgün seçim etməyə imkan yaradır. Leksik-qrammatik sistemləşdirmə isə, öz növbəsində, qrammatik bacarığın möhkəmləndirilməsinə və inkişaf etdirilməsinə xidmət edir.

Nəzərdən keçirdiyimiz metodik ədəbiyyat onu deməyə əsas verir ki, son dövrlər qrammatik bacarıqların formalaşdırılması üçün iki qrup metoddan istifadəyə üstünlük verilir.

Birinci qrupa daxil olan struktur metodlar şifahi, fəal, struktur-funksional xüsusiyyətə malik olub, struktur modellərin mənimsənilməsini nəzərdə tutur ki, burada aşağıdakı ardıcıllığa üstünlük verilir:

1) qrammatik hadisə, struktur, forma daxil olan modellərin eşidib-anlanılması;
2) qrammatik materialın daxil olduğu strukturun diktordan və ya müəllimdən sonra xorla və ya fərdi surətdə səsləndirilməsi;
3) müəllimlə sual-cavab tapşırığının yerinə yetirilməsi;
4) müxtəlif strukturlu qrammatik modellərin dialoqlar vasitəsilə möhkəmləndirilməsi.

Şüurluluq prinsipinin və kommunikativ yanaşmanın nəzərə alınmaması qrammatik bacarıqların yaradılması üçün tətbiq edilən bu metodun çatışmayan cəhəti kimi qəbul olunur. Qrammatik formanın tanınması və fərqləndirilməsi diqqət mərkəzində olduğu halda, qrammatik materialın məzmun xətti və şifahi nitqdə işlənmə məqamları nəzərə alınmır.

İkinci metodun, yəni kommunikativ metodun tətbiqi göstərilən çatışmazlıqların aradan qaldırılmasına yönəlib:

1) öyrəniləcək yeni qrammatik materialın konkret situasiya tərkibində təqdimatı;
2) mexaniki təkrarlamanın qarşısını almaq məqsədi ilə tələbələrə sərbəst iş növləri təklif olunur;
3) nitq situasiyalarına daxil edilmiş qrammatik formaların işlənməsinə dair tədqiqat aparılır;

4) qrammatik bacarıqların avtomatlaşdırılması istiqamətində produktiv çalışmalara üstünlük verilir;

5) tələbələrin motivasiyaedici fəaliyyətə təhrik olunmaları diqqət mərkəzində saxlanılır.

Beləliklə, dilin aspektlərinə və nitq vərdişlərinə yiyələnmədən həmin dildən kommunikativ məqsədlərlə adekvat şəkildə istifadə etmək qabiliyyətinə yiyələnmək qeyri-mümkündür. Bu baxımdan, dilöyrənənlərin kommunikativ səriştələrinin formalaşmasında, onlarda fərqli situasiyalara uyğun ünsiyyət yaratmaq qabiliyyətinin inkişaf etdirilməsində qrammatik bacarıq və vərdişlərin rolu və əhəmiyyəti danılmazdır. Bu prosesdə qrammatik bacarıqların xüsusiyyətləri əsas yer tutur.

Ədəbiyyat

1. Chomsky N. Aspects of the Theory of Syntax. Cambridge: M.İ.T. Press, 1965.
2. Harmer J. The Practice of English Language Teaching. 4th ed., Pearson Education Limited, 2007, 448 p.
3. Mitchell, R. Applied linguistics and evidence-based classroom practice: The case of foreign language grammar pedagogy. Applied Linguistics, 21, 2000. p. 281–303.
4. Penny Ur. Grammar Practice Activities. A practical quide for teachers. Cambridge University Press, 1999, 148 p.
5. Берман И. М. Методика обучения английскому языку. М.: Высшая школа, 1970. 271 с.
6. Гак В. Г. Теоретическая грамматика французского языка / В. Г. Гак. М.: Добросвет, 2000. 832 с
7. Колкер Я. М., Устинова Е. С. Практическая методика обучения иностранному языку: Учеб. Пособие. М.: Академия, 2001. 264 с.
8. Пассов Е. И. Коммуникативный метод обучения иноязычному говорению. М.: Просвещение, 1991. 223 с.
9. Пассов Е. И., Кузовлев В. П. Учитель иностранного языка. Мастерство и личность. М.: Просвещение, 2003. 215 с
10. Шатилов С.Ф. Методика обучения немецкому языку в средней школе. Учебное пособие для студентов педагогических институтов. 2-е изд., М.: Просвещение, 1986. 223 с.

Т.Э.Маджидзаде

Ролы грамматики в формирование коммуникативной компетенции в английском языке

Резюме

В статье рассматриваются роль и значение грамматики как одного из аспектов языка в развитии коммуникативной компетенции на современном этапе изучения иностранных языков. Подчеркивается важность развития грамматических умений для правильного выражения идей посредством использования грамматических правил, которые способствуют успешной реализации коммуникации, также рассматриваются различные идеи и подходы в научной литературе, касающиеся сущности понятия грамматики.

Различая продуктивные и ресептивные грамматические умения, грамматические речевые и языковые навыков, автор статьи подчеркивает важность родного языка, письменного и устного общения в формировании этих умений.

T.E.Madjidzadeh

The role of the grammar in the formation of communicative competence in English

Summary

The article studies the role and importance of grammar as one of the aspects of language in the development of communicative competence at the present stage of teaching foreign languages. The

importance of grammatical skills and habits, aimed at the correct expression and thorough delivery of ideas and thoughts through the use of grammatical rules is highlighted, which contribute to the successful implementation of communication as well as various ideas and approaches in the scientific literature concerning the essence of the concept of grammar are also considered.

Distinguishing between productive and receptive grammar skills, grammatical speech and language skills, the light is shed on the importance of the mother tongue, written and oral communication in the formation of these skills.

Rəyçi: filol.f.d. Y.A.Nuriyev

Redaksiyaya daxil olub: 28.10.2019

N.Ş.MƏMMƏDOVA

Azərbaycan Dillər Universiteti
(Bakı şəh., R.Behbudov küç., 60)

XARİCİ DİLİN ÖYRƏNİLMƏSİNDƏ SOSİOMƏDƏNİ SƏRİŞTƏNİN ROLU

***Açar sözlər**: sərişdə, sərişdəlilik, mədəniyyətlərarası ünsiyyət, sosiolinqvistika, inteqrasiya*
***Ключевые слова**: компетенция, компетентность, межкультурная коммуникация, социолингвистика, интеграция*
***Key words**: competence, competency, intercultural communication, sociolinguistics, integration*

Azərbaycan təhsil sisteminin yenidən qurulması, modernləşdirilməsi, dünya təhsilinə inteqrasiyası zəminində istər ölkədaxili, istərsə də xarici ölkələrin təhsil sahəsindəki müasir innovativ təlim metodlarının sistemli və ardıcıl şəkildə öyrənilməsinə ehtiyac duyulur. Burada başlıca məqsəd yetişməkdə olan gənc nəsli müasir tələblərə və şəraitə uyğunlaşdırmaq, rəqabət qabiliyyətli, informasiya cəmiyyətində yaşayıb fəaliyyət göstərən, ünsiyyət yaratmaq bacarığına malik, həyatın bütün tələblərinə cavab verən şəxsiyyət formalaşdırmaqdır. Qloballaşan dünyamızda belə şəxsiyyətlərin, mütəxəssislərin formalaşdırılması üçün xarici dillərin öyrənilməsi başlıca tələblərdən biridir.

Müasir dövrdə xarici dilin tədrisinin əhəmiyyəti dil bacarıqlarına yiyələnmək, kommunikativ vərdişləri inkişaf etdirmək, şəxsi və intellektual inkişafa nail olmaq, mədəniyyətlərarası dialoqa və qloballaşma prosesinə qoşulmaqdan ibarətdir.

Respublikamızda fəaliyyət göstərən ali təhsil müəssisələrində xarici dillərin kommunikativ məqsədlə tədrisi və bu məqsəddən irəli gələn vəzifələrin həyata keçirilməsi tələbələrdə xarici dildə ünsiyyət yaratmaq vərdişi və bacarığının formalaşdırılıb inkişaf etdirilməsi ilə səciyyələnir. Qoyulan məqsədə nail olmaq üçün tədris edilən xarici dildə kommunikativ sərişdə və onun tərkib hissəsi olan sosiomədəni sərişdəyə yiyələnməyin vacibliyi önə çəkilir. Genişlənməkdə olan qlobalizasiya prosesində mədəniyyətlərin bir-biri ilə olan əlaqələrinin get-gedə genişlənməsi, ölkələr və xalqlar arasında mədəni sərhədlərin aradan qaldırılması, onlar arasında qarşılıqlı əlaqə və təsir müasir dövrümüzün qaçılmaz amilinə çevrilməkdədir. Bu da öz növbəsində, xarici dillərin tədrisində tələbələrdə ünsiyyət bacarıq və vərdişlərinin aşılanmasında və inkişaf etdirilməsində xüsusi əhəmiyyət kəsb edən cəhət kimi nəzərə alınmalıdır.

Dil mədəniyyətin bir hissəsi, mədəniyyət isə dilin bir hissəsidir; bu iki anlayış bir-biri ilə elə sıx bağlıdır ki, dilin və ya mədəniyyətin əhəmiyyətini azaltmadan onları bir-birindən ayırmaq mümkün deyil. Odur ki, mədəniyyət dilöyrənənlərin hədəf dilin mənimsənməsinə müvəffəq olmasında mühüm rol oynayır, çünki dilin mədəniyyətini bilmədən həmin dilin tədrisi qeyri-mümkündür; mədəniyyət dilin istifadəsi üçün vacib meyardır.

Hər hansı bir dilin özünün mədəni köklərindən təcrid edilmiş halda öyrənilməsi kontekst çərçivəsində istifadəsi zamanı həmin dilin içtimailəşməsinə mane olur. Mədəni meyarlar səmərəli ünsiyyətə yardım etmək üçün dilin özünəməxsus və implisit məziyyətləri hesab edilir. Dillər və mədəniyyətlər arasında uğurlu ünsiyyətə nail olmaq üçün mədəniyyətlərarası qarşılıqlı normalar və insanların dəyər və düşüncələrini başa düşmək lazımdır. Bəzən linqvistik baxımdan düzgün qurulmuş cümlələr fərqli mədəniyyət mühitində işlədilərkən anlaşılmazlıq və yanlışlığa səbəb olur.

Şübhəsiz ki, dil və mədəniyyətin bir-biri ilə qırılmaz bağlılığı xarici dilin tədrisində dilini tədqiq etdiyimiz xalqın mədəni aspektləri ilə tanış olmağın, həmin mədəniyyətin xalqın ictimai-mədəni dəyərlərini dərk etməyin vacibliyini önə çəkir. Odur ki, kommunikativ sərişdənin formalaşdırılmasında dillərin morfoloji və sintaktik quruluşundakı fərqlər, interferensiya

və digər problemlər sırasında tədqiq etdiyimiz dilin sosiomədəni statusunu kifayət qədər nəzərə almamağımız, mədəniyyətlərarası keçiddə üzləşdiyimiz çətinliklər sosiomədəni səriştənin əhəmiyyətini vurğulayır. Sosiomədəni səriştə dili öyrənilən ölkə, dil daşıyıcılarının milli-mədəni xüsusiyyətləri haqqında bilgilər toplusu və adət-ənənələrə, davranış qaydalarına, etiket normalarına, dildaşıyıcılarının ictimai davranış stereotiplərinə uyğun olaraq ünsiyyət prosesində bu biliklərdən istifadə etmək bacarığıdır.

Sosiomədəni səriştə anlayışından bəhs etməmişdən öncə, ilk dəfə amerikan dilçi alimi N.Xomski tərəfindən irəli sürülmüş "səriştə" anlayışına aydınlıq gətirməyimiz məqsədəuyğun olardı. Müəllif "səriştəni" real ünsiyyət situasiyalarında dilə yiyələnmək anlayışından fərqli olaraq dil bilgisi kimi müəyyən etmişdir. N.Xomskinin dil nəzəriyyəsində səriştə dil bilgisi və bu bilginin konkret tətbiqi kimi performansa (dildə istifadəyə) qarşı qoyulur. Kompetensiya dinamik konsepsiya kimi qəbul edərək, dilin tətbiqini (performansı) "parole" ilə eyniləşdirməyin mümkünlüyünü qəbul edir.

Səriştə özünün peşəkar fəaliyyətində şəxsin bilik, bacarıq və vərdişlərini, fəaliyyətini həyata keçirmək üçün səxsi keyfiyyətlərini tətbiq etmək, öz fəaliyyətinin nəticələrini qiymətləndirmək bacarığı və hazırlığıdır. Səriştə insanın malik olması vacib olan və praktik iş təcrübəsində yiyələndiyi müəyyən bilik, bacarıq və vərdişlərin məcmusudur. Səriştə fərdin öz fəaliyyəti zamanı tətbiq etməyə hazır olduğu və qabil olduğu bilik, bacarıq və vərdişlər toplusudur. Bu anlayış bilik, bacarıq və vərdişin birliyini özündə əks etdirir. Odur ki, "to compete" felindən əmələ gələn "competence" sözü "yarışmaq bacarığı" mənasında da qəbul edilə bilər. Səriştə həm də bilik və bacarıqları praktik fəaliyyətdə səmərəli şəkildə tətbiq etmək qabiliyyətini özündə ehtiva edir.

Sosiomədəni səriştə müəyyən bir cəmiyyətə xas olan və onu səciyyələndirən dəyərlər, inanclar, davranış nümunələri, adət-ənənələr, dil, mədəni nailiyyətlər haqqında bilgilər toplusudur.

İ.L.Bim sosiomədəni səriştə anlayışına dilin öyrənilən ölkənin mədəni təcrübəsinin ötürülməsi vasitəsi və tarixi dəyişikliklərin inikası olması bilgisini, həmçinin kommunikativ situasiyadan asılı olaraq nitq davranışı normaları haqqında bilgini də daxil edir (4, s.160).

V.V.Safonova görə, sosiomədəni səriştəyə dili öyrənilən ölkələrin milli-mədəni xüsusiyyətləri haqqında dilöyrənənlərin bilgisi, bu bilgiyə uyğun olaraq nitq davranışını həyata keçirmək bacarığı, eləcə də müasir çoxmədəniyyətli dünyada yaşamaq və qarşılıqlı fəaliyyət göstərmək bacarığı aiddir (8, s.13).

Sosiomədəni səriştə dili öyrənilən ölkənin tarixi və müasirliyi haqqında bilikləri təqdim edir, dilöyrənənlərin nitq davranışının milli-mədəni xüsusiyyətləri ilə tanışlığını və nitqin yaranması və qavranılması üçün münasib olan sosiomədəni kontekstin həmin elementlərdən istifadə etmək bacarığını nəzərdə tutur. Sosiomədəni səriştəni cəmiyyət üzvlərinin kommunikativ davranışında aşkar edilən, cəmiyyət və onun mədəniyyətinin spesifik əlamətlərini özündə daşıyan kommunikativ bacarığın aspekti kimi də nəzərdən keçirmək mümkündür.

Sosiomədəni səriştəni başqa dildə danışan cəmiyyətin müəyyən ictimai-mədəni konteksti üçün səciyyəvi olan norma və qaydalara uyğun olaraq xarici dildə adekvat ünsiyyət aparmaq bacarığı kimi də qəbul edilir. Sosiomədəni səriştə dedikdə, bir-biri ilə qarşılıqlı əlaqədə olan mədəni elementlər kompleksini nəzərdə tutulur ki, buraya adət və ənənəni, dəyərləri, inancları, mədəni nailiyyətləri və qaydalar, cəmiyyət üzvllərinin nitq və qeyri-nitq davranış normaları kimi sosial elementləri aid edilir.

Yuxarıda qeyd etdiyimiz fikirləri ümumiləşdirərək deyə bilərik ki, "sosiomədəni səriştə" anlayışına olduqca fərqli yanaşılmışdır. Belə ki, sosio-mədəni səriştə adekvat ünsiyyət aparmaq bacarığı, biliklər kompleksi və bilik, bacarıq və vərdişlərin məcmusu kimi qəbul edilir. Elmi ədəbiyyatda "sosiomədəni səriştə" anlayışı ilə bağlı öz əksini tapmış alimlərin fikir və yanaşmalarını nəzərdən keçirərkən belə bir qənaətə gəlmək olar ki, sosiomədəni səriştəni xarici dildə ünsiyyət prosesində sosiomədəni bilik, bacarıq, qabiliyyət və şəxsi keyfiyyətləri

tətbiq etmək bacarığı kimi qəbul etmək lazımdır. Sosiomədəni səriştəyə dili öyrənilən ölkələrin sosiomədəni xüsusiyyətləri haqqında, eləcə də müəyyən cəmiyyət və mədəniyyət üçün səciyyəvi olan adət və ənənələr, norma və qaydalar haqqında biliklər daxildir. Bu bilik və bacarıq sayəsində dilöyrənənin şəxsiyyətinin hərtərəfli inkişafı, milli mənsubiyyət hisslərinin möhkəmlənməsi, kommunikativ təcrübənin zənginləşməsi, digər mədəniyyətlərə tolerant münasibətin formalaşması və öyrənilən dil vasitəsilə səmərəli ünsiyyətin qurulması müvəffəqiyyətlə həyata keçirilir.

N.M. Belyakova sosiomədəni səriştəni dörd səviyyədə nəzərdən keçirməyi təklif edir:

1. linqvistik səviyyə (linqvistik, linqvo-ölkəşünaslıq və sosiolinqvistik səriştə)
2. sosio-mədəni səviyyə (ümummədəni və mədəniyyətşünaslıq səviyyəsi)
3. psixoloji səviyyə (psixoloji səriştə)
4. kommunikativ-texnoloji səviyyə (texnoloji səriştə) (3, s.11-12).

Q.A.Vorobyov sosio-mədəni səriştəni kompleks hadisə hesab edir və onun tərkibində aşağıdakı bir-biri ilə əlaqəli komponentləri fərqləndirir:

1. linqvistik və ölkəşünaslıq komponenti (milli-mədəni semantikaya malik leksik vahidlər və mədəniyyətlərarası ünsiyyət situasiyalarında onları tətbiqetmə bacarığı)
2. sosiolinqvistik komponent (sosial təbəqələrin dil xüsusiyyətləri, müxtəlif yaş qruplarının, cins, ictimai qruplar, dialekt nümayəndələri)
3. sosial-psixoloji komponent (milli-səciyyəvi davranış modelləri, ictimai və mədəni baxımdan şərtləndirilmiş senariyalara malik olmaq, həmin mədəniyyətdə qəbul edilmiş kommunikativ vasitələrdən istifadə etmək)
4. kulturoloji komponent (sosiomədəni, tarixi-mədəni, etno-mədəni fon) (5, s.32).

L.A.Lukyanova sosiomədəni səriştə çərçivəsində formalaşan aşağıdakı bilik, bacarıq, vərdiş və qabiliyyətləri müəyyənləşdirir:

- yerli və xarici mədəni dəyərlər sistemi haqqında bilgilər, milli simvolizm haqqında məlumat;
- öyrənilən dilin və ana dilinin vahidləri arasında ekvivalentlik və qeyri-ekvivalentlik münasibətləri haqqında bilgilər;
- mədəniyyətyönümlü leksika haqqında bilgilər; frazeologiya;
- ana dili və xarici dilin mədəniyyətini təmsil edən nümayəndələrin nitq davranışının sosio-mədəni xüsusiyyətləri, onların uyğunluq və uyğunsuzluq dərəcələri haqqında bilgiləri;
- tətqiq olunan cəmiyyətdə müxtəlif ictimai qrupların nümayəndələrinin qarşılıqlı əlaqəyə malik mədəni və tarixi dəyərləri, ənənələri və normaları barədə bilgilər;
- xarici dilə məxsus mədəniyyətin standartlarına uyğun olaraq autentik baxımdan hadisə və əlaqələrin adekvat şərh edilməsi və münasibət göstərilməsi bacarığı;
- mədəniyyətlərarası ünsiyyət saxlamaq bacarıqları;
- digər mədəniyyətlərdəki qeyri-adi, yad təzahürlərə qarşı dözümlülük, tolerantlıq;
- ünsiyyətə hazırlıq: fərqli bir sosiomədəni cəmiyyətin nümayəndəsi ilə fəal ünsiyyət qurmaq arzusu və imkanı;
- sosio-mədəni hadisələrin müşahidə edilməsi;
- sosio-mədəni tolerantlıq (7, s. 40-41).

L.A.Lukyanovun təqdim etdiyi sosiomədəni səriştənin tərkibinin təhlili sosio-mədəni səriştəni aşağıdakı komponentlərə ayırmağa imkan verir: sosiomədəni bilik, sosio-mədəni bacarıq və nəhayət, sosio-mədəni cəmiyyətin nümayəndələrinin şəxsi qabiliyyət və keyfiyyətləri.

N.D.Qalskova, Z.N.Nikitenko sosio-mədəni səriştənin aşağıdakı komponentlərini müəyyən edir:

- motivasiyaedici (dilöyrənənin mədəniyyətlərarası qarşılıqlı əlaqə və onun subyektlərinə emosional-qiymətləndirici münasibət aiddir. Bu keyfiyyətin yaranması dilöyrənəndə dilini öyrəndiyi ölkənin mədəniyyətinə maraq və hörmət hisslərini tərbiyə edir.)

▪ koqnitiv **(**doğma mədəniyyət və dilini öyrəndiyi ölkənin mədəniyyəti haqqında bilgilərin sintezi, eləcə də mədəniyyət və ünsiyyət haqqında ümumi bilgilər aiddir)

▪ davranış (dilöyrənənin verbal, təhsil və araşdırma/tədqiqat strategiyası aiddir. Bu keyfiyyət sayəsində dilöyrənənin öz mədəniyyətini necə dərk etməsini və yad mədəniyyəti necə qəbul etməsini aşkarlayır) (6, s.7-8).

K.Knap sosiomədəni səriştənin daha mükəmməl hesab etdiyi modelini təqdim edir və bununla da, müəllif onu bilavasitə "digər mədəniyyət və ünsiyyətə malik cəmiyyətin təmsilçiləri, eləcə də öz mədəniyyətinin nümayəndələrinin eyni səviyyədə uğurlu şəkildə qarşılıqlı anlaşmasına nail olmaq bacarığı" kimi müəyyən edir (1).

K.Knap bu bacarığın aşağıdakı komponentlərini ayırd edir:

▪ həm ana dili, həm də öyrənilən dilin məxsus olduğu mədəniyyətdə, eləcə də dilin özündə modellər və kommunikativ fəaliyyətlər və onların təfsiri/izahı;

▪ düşüncə tərzinin və davranışın bu mədəniyyət üçün səciyyəvi olan təfəkkür xüsusiyyətlərindən asılılığı, həmçinin bu xüsusiyyətləri müəyyən edən mədəniyyətlər arasında olan fərqlər də daxil olmaqla, mədəniyyət ilə ünsiyyət arasında mövcud əlaqə haqqında ümumi bilgilər;

▪ qarşılıqlı təsiri sabitləşdirmək məqsədilə, yəni kommunikasiya prosesində yaranan problemlərin həlli üçün bir sıra strategiyalar (1).

A.Tomas və E. Kinastın fikrincə, sosiomədəni səriştə aşağıdakı aspektləri əhatə edir:

▪ xarici mədəniyyətdə sosiomədəni səriştənin yaranmasına və formalaşmasına nail olmaq;

▪ yerli mədəniyyətin əks edilməsi və xarici dildə bu barədə danışmaq bacarığının mənimsənməsi;

▪ digər xalqların mədəniyyətinə hörmətlə yanaşmağa və tolerant davranmağa səbəb olan mədəniyyətlərarası anlaşmaya nail olmaq (2, s.75).

Təəssüflə demək lazımdır ki, sosiomədəni səriştənin olmaması və ya kifayət qədər formalaşmaması aşağıda göstərilən sosiomədəni xarakterli yanlışlıqlara və anlaşılmazlıqlara səbəb olur ki, bu da, labüd olaraq, xarici dildə ünsiyyətin pozulması ilə nəticələnir:

▪ ölkəşünaslıq xarakterli yanlışlıq – dili öyrənilən ölkə haqqında kifayət qədər məlumatlı olmamaq və həmin ölkənin mədəniyyəti və onun təmsilçiləri haqqında təhrif edilmiş təsəvvür yaradan mənbələrə istinad edilməsi nəticəsində yaranır.

▪ linqvistik xarakterli yanlışlıq – xarici dil mühitində qəbul edilmiş norma və ünsiyyət qaydalarının olmaması, kommunikativ tapşırıqların həllində ekvivalent olmayan leksikadan istifadə etməmək nəticəsində yaranır.

▪ psixoloji xarakterli yanlışlıq – xarici mədəniyyətə məxsus fakt və hadisələrin adekvat qiymətləndirmə bacarığının olmaması zamanı yaranan eqosentrizm: fikrin müstəqilliyi və çevikliyinin olmaması nəticəsində yaranır (9, s.159).

Beləliklə, sosio-mədəni səriştə ilə bağlı elmi ədəbiyyatda əksini tapmış istər Rusiya, istərsə də qərb alimlərinin fikirləri və mülahizələri ilə tanış olaraq belə bir nəticəyə gəlirik ki, sosiomədəni səriştə dili öyrənilən ölkə, dil daşıyıcılarının sosial və nitq davranışının milli-mədəni xüsusiyyətləri haqqında bilgilər toplusu və dildaşıyıcılarına məxsus adət-ənənələrə, davranış qaydalarına, etiket normalarına riayət edərək ünsiyyət prosesində bu bilgilərdən istifadə etmək bacarığıdır. Bu bacarığa, həmçinin nitq ünsiyyətinin məqsədinə nail olmaq və müxtəlif mədəni ənənələrə malik xalqların nümayəndələri ilə qarşılıqlı əlaqə qurmaq bacarığı da daxildir.

Ədəbiyyat

1. Knapp Karlfried. Intercultural Communication in EESE// http://www.cs.uu.nl/docs/vakken/bci/programma/intercult.html Retrieved January 3, 2003.

2. Thomas A., Kinast E. Handbook of İnternational Communication and Cooperation. Part 1 and part 2. Vandenhoeck and Reprecht, 2003.

3. Белякова, Н. М. Формирование социокультурной компетенции у студентов начальных курсов языковых вузов при самостоятельной работе в сети Интернет. Автореф. дис… канд. пед. наук: 13.00.02. СПб, 2008.

4. Бим И.Л. Компетентностный подход к образованию и обучению иностранным языкам // Компетенции в образовании: опыт проектирования: сб. научных трудов. М.: ИНЭК, 2007.

5. Воробьев, Г. А. Развитие социокультурной компетенции будущих учителей иностранного языка // Иностранные языки в школе. № 2, 2003.

6. Гальскова Н. Д., Никитенко З. Н. Межкультурное обучение: проблема целей и содержания обучения иностранным языкам // Иностранные языки в школе. №1, 2004.

7. Лукьянова, Л. А. Формирование функционально-содержательной основы социокультурной компетенции учащихся 10–11 классов общеобразовательной школы (на материале английского языка). Дис. канд. пед. наук: 13.00.02. Санкт-Петербург, 2014.

8. Сафонова В.В. Изучение языков международного общения в контексте диалога культур и цивилизаций. Воронеж: Истоки, 1996.

9. Шукин А.Н., Фролова Г.М.. Методика преподавания иностранных языков. М: Издательский центр «Академия», 2015.

Н.Ш.Мамедова

Роль социокультурной компетенции в изучении иностранного языка

Резюме

В статье рассматривается сущность понятия социокультурной компетенции как способности использовать эти знания в процессе общения, следуя обычаям, поведенческим правилам, особенностям этикета языковых носителей и собирая национальную и культурную информацию о социальном и речевом поведении языковых носителей, различия между компетенцией и компетентностью на основе взглядов и мнений ученых, отраженных в научной литературе по социокультурной компетенции, а так же компонентами, включенными в социокультурную компетенцию. Также подчеркивается, что социокультурная компетентность также может рассматриваться как аспект коммуникативных способностей, который обнаруживается в коммуникативном поведении членов общества и имеет специфические особенности общества и его культуры. Наряду с этим, освещается важность приобретения коммуникативной компетенции на иностранном языке и социокультурной компетенции как ее составная часть, а также подчеркивается важность социокультурного статуса языка в формировании коммуникативной компетенции.

N.Sh.Mammadova

The role of sociocultural competence in learning foreign languages

Summary

The article considers the essence of the concept of socio-cultural competence as the ability to use it in the process of communication, following the customs, traditions, behavior, language speakers and collecting national and cultural information about the social and speech behavior of target language speakers, differences between competence and competency based on views and opinions, reflected in the scientific literature, as well as the components included in socio-cultural competence.

It is also emphasized that socio-cultural competence can also be considered as an aspect of communicative abilities, which is found in the communicative behavior of members of society and has specific features of society and its culture. Along with this, the importance of acquiring communicative competence in a foreign language and socio-cultural competence as its component is highlighted, taking into account urgency of the socio-cultural status of the language in the formation of communicative competence.

Rəyçi: filol.f.d. Y.A.Nuriyev

Redaksiyaya daxil olub: 19.10.2019

P.M.MƏMMƏDOVA
e-mail: parimammadova30@gmail.com

Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyası
(Bakı şəh., Ş.Bədəlbəyli küç., 98)

MÜASİR TƏHSİL PROSESİNDƏ MUSİQİ FƏNNİNİN ƏHƏMİYYƏTİ

Açar sözlər: *musiqi dərsi, inovativ yanaşma, ümümtəhsil məktəbi, metodik tövsiyələr*
Ключевые слова: *урок музыки, инновационный подход, обшеобразовательная школа, методические рекомендации*
Key words: *music lesson, innovative approach, comprehensive school, methodological guidelines*

"Müasir təhsil prosesində musiqi fənninin əhəmiyyəti" musiqi dərsi üzrə metodik təminatın müasir vəziyyətinin analizi, dərsin təşkilinə müasir yanaşmanın tədbiqini, əsas istiqamətlərini göstərməyə və kiçikyaşlı məktəblilərin musiqi təhsilində bir sıra metodiki tövsiyələrin tədbiq olunmasına imkan yaradır.

Müasir metodiki tövsiyələrin əsasını bunlar təşkil edir: müəllim və şagirdlərin birgə qarşılıqlı yaradıcılığı, dərs atmosferinə oyunun daxil olunması və bu fikrin, formanın həyata keçməsi üçün yeni, müasir qaydalara cavab verən avadanlıq.

Musiqi dərsi zamanı təhsil prosesinin təşkilinə kompleks innovativ yanaşmanın həyata keçirilməsində kiçikyaşlı məktəblilərin fizioloji xüsusiyyətlərinin nəzərə alınması, musiqi əsərinin dinlənilməsi və ifasının müxtəlif plastik hərəkətlərlə birləşdirilməsinin musiqi dərsində musiqi fəaliyyətinin həyata keçməsi prosesində bərabər hüquqa malik olmasının təsdiqi, kiçikyaşlı məktəblinin yaşadığı və inkişaf etdiyi sosial-mədəni şəraiti nəzərə alaraq repertuarın seçilməsi əsasında təyin olunmuş prinsiplər daxildir.

Müasir musiqi dərsi ümümi təhsil sisteminin bir hissəsi olub, təsdiq olunmuş proqram əsasında uşaqlarda ilkin musiqi anlayışları aşılamaq, musiqinin nə olduğunu onlara anlatmaq vəzifəsini daşıyır, yeni gənc nəslin düzgün tərbiyə almasında, onların formalaşmasında, daxili aləmlərinin zənginləşməsində böyük rol oynayır.

Ümumtəhsil məktəblərində musiqi dərsinin təşkilində yeni yanaşma bəzi problemlərin olduğunu göstərir. Bu istiqamətdə yazılan bəzi metodiki tövsiyələr və ədəbiyyatların analizi göstərir ki, musiqi dərsi yeni forma və metodlarla yanaşı həm də müəllim və şagirdlərin birgə anlaşıqlı fəaliyyəti əsasında təşkil olunmalıdır. Məhz bunun əsasında müasir dövrlə daha tez ayaqlaşan hərtərəfli inkişaf edən gənc nəsil formalaşa bilər. Bu dəyişikliklər tədris sisteminin bütün sahələrini, o cümlədən də, musiqi tədrisini əhatə edir.

Hər şeydən əvvəl musiqi dərsi elə dərs olmalıdır ki, uşaqlar bu dərsə çox həvəslə gəlsinlər. "Müəllim - yoldaş, müəllim - tərəfdaş" formulu yaradıcı intizamın yaranmasına daha yaxşı təsir edir (1, s.333). Müəllim elə materiallardan istifadə etməlidir ki, bu materiallar həm səviyyəli, həm də uşaqlar üçün maraqlı və anlaşıqlı olsun. (2, s.336). Nəzərə almaq lazımdır ki, müasir gənc nəsil yeni texnologiyalar əsrinin uşaqlarıdır. Ona görə repertuar seçimi də önəmlidir. Musiqi dərslərində informasiya texnologiyalarından da istifadə etmək və bu vasitələrin köməyi ilə uşaqları musiqinin bir çox janrları ilə tanış etmək daha yaxşı nəticə verir. Dərsdə uşaqlar musiqini həm xorla, həm də solo, hər hansı bir canlı musiqi alətinin köməyi ilə ifa edərlərsə, bu, uşaqlarda musiqinin daha gözəl mənimsənilməsinə imkan verir. Dərslər müsabiqə, oyun şəklində aparılması şagirdlərdə daha çox maraq yaradır.

Müəyyən bir musiqi əsərini dinlədikdə bu musiqi uşağın beyninə güclü təsir edir, əsərdəki obrazları analiz edir, bu da uşağın musiqi əsərini yaradıcı dərk etməsinə, fantaziyasının güclənməsinə təsir edir. Musiqi əsərləri uşaqlarda ümümilikdə ətraf mühitə yaradıcı yanaşmanı formalaşdırır. Bu da onların gələcəkdə müəyyən bir məsələnin həllinə yaradıcı yanaşmasına, özünün fərdi həll yollarını axtarıb tapmasına çox böyük kömək edir.

Musiqi dərsləri hələ orta məktəbdən artıq şəxsiyyətin düzgün formalaşmasına yardım edir. Ona görə də orta məktəblərdə musiqi dərslərinin yüksək səviyyədə keçirilməsi üçün lazımi şərait yaradılmalıdır. Çox təqdirə layiq haldır ki, orta məktəblərimizdə istər Azərbaycan, istərsə də rus bölmələri üçün kifayət qədər mükəmməl dərsliklərimiz vardır. Lakin bununla yanaşı musiqi dərslərimiz uşaqlar üçün nə qədər maraqlı keçsə, nəticə bir o qədər ürəkaçan olacaq.

Bəs musiqi dərsləri nə üçün lazımdır?. Müasir zamanda uşaqlar klassik musiqiyə və ya görkəmli bəstəkarların müsiqilərindən ibarət konsertlərə gedirmi? Əlbətdə yox. Musiqi müəlliminin məqsədi bu uşaqları opera müğənnisi, dahi ifaçı və ya drijor etmək deyil. Bəlkədə müasir məktəblilərin çoxu tanınmış, görkəmli azərbaycan və klassik bəstəkarları və onların əsərlərini tanımır və ya onlardan soruşsaq ki, opera nədir və baletlə fərgi nədədir, kantata, myzikl, operetta nədir, əlbətdə cavab verə bilməzlər. Amma bizim gənc nəslimiz dahi Üzeyir Hacıbəyovu, Qara Qarayevi, Fikrət Əmirovu, Tofiq Quliyevi, Niyazini, müasir gözəl bəstəkarlarımızı tanımalıdırlar. Bütün bunlar bizim mədəniyyətimiz, mədəni sərvətimizdirlər. Məhz mədəniyyət insanı zənginləşdirir, onu mükəmməlləşdirir. Əgər mədəniyyət yoxdursa, təhsil də, inkişaf da yoxdur.

Musiqi sahəsində dərsliklər və materiallar əlbəttə ki, müəllimin işində böyük köməkdir.

Azərbaycanda uşaq musiqilərinə müraciət edən bəstəkarlar sırasına Soltan Hacıbəyov, Hökümə Nəcəfova, Oktay Zülfüqarov, Ağabacı Rzayeva, Oktay Rəcəbov, Səadət Fərzəliyeva, Qəmbər Hüseynli kimi bəstəkarları şamil etmək olar. Bu bəstəkarların uşaq musiqisinin yaranmasında əvəzsiz töhfələri olmuşdur. Məhz bu bəstəkarların yüksək əməyinin nəticəsi olaraq, bizim uşaqlara öyrədə biləcəyimiz, onlara musiqini sevdirə biləcəyimiz gözəl musiqi nümunələri vardır. Bu mahnılar uzun illər uşaqların sevimli mahnıları olmaqla yanaşı, onlarda mərdlik, vətənpərvərlik, xeyirxahlıq, təbiəti, ətraf aləmi qorumaq və s. kimi gözəl xüsusiyyətlərin formalaşmasına çox güclü təsir göstərir. Nəğmələrin sözlərinin sadəliyi musiqinin gözəlliyi uşaqların bu nəğmələri daha yaxşı yadda saxlamalarına və sevə-sevə oxumalarına həvəs yaradır.

Müasir nəslin formalaşmasında, yeni nəslin musiqi zövgünün yaranmasında, məktəbdəki musiqi dərslərinin nə qədər önəmli bir amil olduğundan danışarkən, bu yolda müəllimlərə əvəzsiz yardımcı olan, onların amallarına çatması üçün getdikləri bu çətin və olduqca maraqlı prosesdə müəllimə yol göstərə bilən dərslik və metodiki vasitələrin də, çox mühüm rolu vardır (2, s.210). Dərsliklərin ərsəyə gəlməsində, yaranmasında əvəzsiz rolu, dəyərli məqalələri olan bəstəkar, əməkdar incəsənət xadimi, Əməkdar müəllim, pedaqoji elmlər doktoru, professor Oktay Rəcəbovun adını çəkməmək olmaz. Məhz bu dərsliklər və elmi məqalələr sayəsində məktəblərdə musiqi dərslərinin tədrisi olduqca asanlaşmış və daha da maraqlı hal almışdır. Orada verilən tövsiyələr səyəsində müəllim özünün biliklərini təkmiləşdirərək, dərsin yönümünü düzgün tərəfə istiqamətləndirə bilir. Dərsin ümümi quruluşunu planlaya, uşaqlarla daha rahat və asan ünsiyyətə girə bilir. Məhz dərsliklərin və iş dəftərlərinin köməyi ilə uşaqlar musiqi ilə daha dərindən və daha yaxından tanış ola bilir. Əyləncəli musiqilər və tapşırıqların köməyi ilə isə, biliklərini möhkəmləndirə və daha da inkişaf etdirə bilirlər. Uşaqların yaş səviyyəsini, qavrama qabiliyyətini nəzərə alaraq yazılan bu dərsliklərin, uşaqların musiqi dərsinə sevə-sevə gəlmələrində, onlar üçün nəzərdə tutulmuş nəğmələrin gözəl qəbul olunmasında və mənimsənilməsində çox mühüm rol vardır.

Musiqi dərsi elə bir fəndir ki, gənc nəslə çox şeyləri, ümumilikdə düzgün yaşamağı öyrədir. Musiqi fənni gələcəyimiz olan uşaqlarımızın inkişafında, formalaşmasında böyük rol oynadığı üçün bu fənnin məktəblərdə keçirilməsi vacibdir və mütləqdir.

Məktəblilərin musiqi mədəniyyəti aktiv musiqi fəaliyyəti zamanı formalaşır. Bura nəğmələrin ifası, musiqi alətlərində ifa və s aitdir (3, s.127).

Bəs musiqinin tədrisinin məqsədi və vəzifələri nədir?

• şagirdi təhsilli, mədəni insan kimi formalaşdırmaq, ona musiqi aləmindən müvafiq bilik verərək layiqli insan kimi yetişdirməkdir;

• xalq və klassik musiqi nümunələri ilə tanışlıq əsasında şagirdin bədii-musiqi tərbiyəsidir;

• onu yaradıcılıq işinə cəlb etməkdən və bunun üçün zəruri olan qabiliyyət-vərdişləri inkişaf etdirməkdir.

Ümumi orta təhsilin ibtidai pilləsində musiqi fənninin əhəmiyyəti xüsusilə böyükdür, belə ki, uşağın anadangəlmə təbii bacarıqları, meyilləri tamamilə özünü büruzə verməmişdir və onları üzə çıxarmaq, idarə etmək lazımdır. Uşaq üçün yaxın olan müxtəlif həvəsləndirici fəallıqların vasitəsi ilə onu musiqi ilə maraqlandırmaq mümkün olur. Bu pillədə musiqi fənni şagirdlərin yaradıcılıq qabiliyyətlərinin hərəkətə gətirilməsini, onların birgə yaradıcılıq proseslərinə cəlb olunmalarını və verilmiş pillədə biliyin ötürülməsini nəzərdə tutur.

Baza pilləsində musiqi dərslərində əldə edilmiş bilik və praktiki qabiliyyət-vərdişlər yeniyetmədə özünü dərketmə və özünü təsdiqetmə prosesini asanlaşdırır. O, yeniyetmənin inkişafında və maraqlarının düzgün idarə olunmasında ən yaxşı vasitədir və ətraf mühitlə münasibətdə bu yaş dövrü üçün xarakterik olan tənqidi yanaşmanı əhəmiyyətli dərəcədə yumşaldır. Onu da nəzərə almaq lazımdır ki, incəsənət əsərlərini dərk etmək qabiliyyəti fərqli düşüncə və dünyagörüşə qarşı tolerantlığı nəzərdə tutur.

Orta pillədə şagirdə öz maraqlarına uyğun olaraq təklif olunan kurslardan birini seçmək imkanı verilir.

Şagirdlərin musiqi ilə ilk tanışlığı özlüyündə bir hadisədir. Belə ki, bu zaman müəllimdən çox şey asılıdır. Müəllim musiqini uşaqlara sevdirməyi bacarmalıdır. Bunun üçün müəllim çox gözəl bir musiqi mühiti yaratmalıdır. Musiqi fənninin məktəbin digər fənləri arasında lazımi yer tutması məhz müəllimdən asılıdır. Müsiqi müəllimi müəyyən musiqi sahəsi üzrə mütəxəssis olmaqla yanaşı, həm də gözəl musiqi nəzəriyyəçisi, musiqi tənqidçisi, bəstəkar, musiqi etnoqrafı, dirijor, xor rəhbəri, musiqi alətlərində ifa edən ifaçı, vokalçı və nəhayət gözəl pedaqoq və uşaq psixoloqu olmalıdır ki, uşaqları maraqlandıran bütün sahələri əhatə edə bilsin.

Dərs - müəllimin ümumi və pedaqoji mədəniyyətinin, intellektual və erudik səviyyəsinin güzgüsüdür. Müasir musiqi dərsi müəllimin və uşaqların birgə yaradıcı fəaliyyətləridir.

Musiqi dərsini təşkil etmək pedaqoqdan bacarıq və səriştə tələb edir. Musiqi dərsi uşaqlar üçün ilk növbədə cansıxıcı olmamalı, maraqlı olmalıdır. Müəllim dərs dediyi hər bir sinifə fərdi yanaşmalıdır. Çünki, hər bir sinifin musiqiyə öz yanaşması ola bilər.

Dərslər həm qrup şəklində, yəni sinifin bütün şagirdlərinin iştirakı ilə həm də, tək - tək şagirdlərin fərdi iştirakı ilə təşkil olunmalıdır. Yəni keçilən hər yeni nəğmə həm xor ilə oxunur, həm də şagirdlər bu nəğməni solo ifa edirlər.

Musiqi dərslərində uşaqlarda musiqi duyumunun formalaşması müxtəlif üsulla aparılır. Məsələn, xor və solo ifa, improvizasiya, musiqi alətlərində ifa, musiqili oyunlar, kompyuter texnologiyasının tətbiqi və bədii vasitələr və interaktiv lövhələrdən istifadə.

Musiqili oyun formaları uşaqlarda yeni materialların mənimsənilməsində və müxtəlif musiqi hərəkətlərinin yerinə yetirilməsində, uşaqların daxili tələbatını ödəyən ən güclü təsir vasitəsidir (5, s.36). Dərsin oyun formasında aparılması uşaqların dərsdə fəalyyətinin aktivləşdirilməsi üçün çox gözəl və əlverişli şərait yaradır. Oyunlar uşaqlarda yeni qabiliyyətlərin yaranmasına kömək etməklə yanaşı həm də onlarda utancağlığın aradan götürülməsinə və öz gücünə inam, güvən yaradır. Oyunlar zamanı müxtəlif fəaliyyət formalarını birləşdirmək olar. Bu da uşaqların fərdi qabiliyyətindən asılı olmayaraq, onların bütün bacarıq və qabiliyyətlərini açmağa imkan verir. Oyunlar zamanı uşaqlar bir-biriləri ilə, eləcə də müəllimlər ilə sərbəst münasibət qururlar. Bu da uşaqlarda həm kollektiv xüsusiyyətləri formalaşdırır, həm də sinifdə nizam-intizamın mohkəmlənməsinə kömək edir.

Əlbəttə **kompyuter informasiyası texnologiyaları** bütün fənlərin tədrisində geniş imkanlar açır. Texnologiyalar vasitəsi ilə çox mühüm pedaqoji məsələləri həll etmək olar. Kompyuter texnologiyalarından istifadə musiqi dərsinin daha baxımlı, daha maraqlı aparılması ilə yanaşı, həm də müəllimin və şagirdlərin vaxtının səmərəli istifadəsinə, bununla yanaşı daha çox məlumat toplanmasına geniş imkan verir. Musiqinin dinlənilməsi bu zaman hər bir müəllimin özünün fərdi yanaşması da ola bilər. Məsələn, opera və baletlərdən, myuzikillər və mu-

siqili filmlərdən, klassik musiqi və populyar musiqi konsertlərindən fraqmentlər göstərilə bilər. Eləcə də müxtəlif bəstəkarların, müxtəlif ifaçıların və musiqi kollektivlərinin, dünya musiqi klassiklərinin portretlərini, təsviri sənət əsərlərini, yağlı boya, təsviri dekorativ sənəti, heykəltaraşlıq, skulptura, arxitektura, qrafika və s. nümunələri nümayiş oluna bilər va yaxud keçdiyimiz nəğməni bir neçə ifaçının ifasında dinləmək, sonra isə onların ifasını uşaqlarla birlikdə müqayisə və müzakirə etmək olar.

Bədii vasitələrdən də istifadə etmək olar. Məsələn, müxtəlif əsərlərdən hissələri dinləmək, bədii obrazların təhlili, musiqi əsərlərinin mövzusu haqqında müzakirələr etmək olar.

Uşaqların keçilən mövzuları necə mənimsəmələrini müəyyən etmək üçün və onlarda musiqi duyumunun necə formalaşmasını təyin etmək üçün mütəmadi olaraq test şəkilli yoxlama sualları tətbiq etmək olar.

Musiqi dərsi zamanı **interaktiv lövhədən** də istifadə etmək olar. Audio və video materiallardan, müxtəlif internet mənbələrindən istifadə etməklə müxtəlif testlər vasitəsilə dərsi daha rəngarəng və maraqlı etmək olar. Bu, uşaqlarda sərbəst işləmək, informasiya toplamaq qabiliyyətini formalaşdırmağa kömək edir. Bunlardan başqa musiqi dərslərində uşaqların musiqi yaddaşını möhkəmlətmək üçün müxtəlif musiqi əsərləri haqqında, müxtəlif musiqi obrazları haqqında, müxtəlif musiqi əsərləri haqqında kiçik həcmli inşa yazıları yazdırmaq, müxtəlif musiqi əsərlərinə, bəstəkar və müğənnilərə həsr olunmuş krasvordlar həll etdirmək olar. Müəyyən bir musiqi əsərini dinlədikdən sonra uşaqların bu əsəri necə qavradıqlarını öyrənmək üçün onlara kiçik inşa yazdırmaq olar. Dərsdə musiqili viktorinalar, musabiqələr keçirmək, müəyyən bir mahnını uşaqlarla səhnələşdirmək, uşaqlardan ibarət kiçik musiqi alətləri ansamblı təşkil etmək, müəyyən personajlara və ya alətlərə aid tapmacaların söylənilməsi və onların uşaqlar tərəfindən tapılması və s. dərslərin daha maraqlı keçməsinə şərait yaradır.

Beləliklə, musiqi şagirdin bədii estetik tərbiyəsinin ən yaxşı vasitəsidir (3, s.207). Musiqi onun mənəvi aləmini zənginləşdirir, yaxşılığa, gözəlliyə qarşı onun münasibətini formalaşdırır. Musiqi şagirdin təhsil qabiliyyətini aşkara çıxarır və eyni zamanda milli şüurun formalaşmasına kömək göstərir.

Musiqinin emosional xüsusiyyəti ilə yanaşı, təfəkkür funksiyası da vardır və onun tədrisi analitik təfəkkürün inkişafına da kömək göstərir.

Müasir cəmiyyətdə insanın peşəsindən, ixtisasından asılı olmayaraq, onun intelektual səviyyəsi, daxili zənginliyi, bu insanın ədəbiyyata, incəsənətə, xüsusi ilə milli və klassik musiqiyə olan münasibəti ilə müəyyənləşdirilir. Ona görə də mükəmməl, kamil, hərtərəfli inkişaf etmiş insan yetişdirməkdə musiqi müəllimlərinin və orta məktəblərdə nəğmə dərsini tədris edən nəğmə müəllimlərinin danılmaz rolu vardır (4, s.9).

Ədəbiyyat

1. Abdulin E.B. Musiqi təhsilinin metodikası (Mətn): ali pedaqoji təhsil müəssisələrinin tələbələri üçün dərslik. E.B.Abdulin, Y.V.Nikolayeva. M., Musiqi, 2006.

2. Əliyev Y.B. Musiqi müəlliminin stolüstü kitabı (Mətn). Y.B.Əliyev. M., Qumant. Mərkəzi Vlados, 2002.

3. Apraksina O.A. Musiqi tərbiyəsinin tarixindən (Mətn). O.A.Apraksina. M., Prosveşeniye, 1990.

4. Romax O.V. Şəxsiyyətin yaradıcı xüsusiyyətləri. Əsaslı tədqiqat 2013, № 11 1946-1950.

5. Anikeyeva N.P. Oyunlarla tərbiyə. Müəllimlər üçün kitab. M., Prosveşeniye, 1987.

П.М.Мамедова

Значение музыки в современном образовательном процессе

Резюме

Анализ методического обеспечения по предмету «Значение музыки в современном образовательном процессе» даёт возможность сформулировать основные направления применения

инновационного подхода к его организации и дать ряд методических рекомендаций по его внедрению в музыкальное образование детей младшего школьного возраста. В основе современных методических рекомендаций лежит: взаимодействие учителя и учеников на уровне сотворчества; игровое вхождение в атмосферу урока и оборудование для воплощения данной формы надлежащего пространства; учёт физиологических особенностей младшего школьного возраста для осуществления комплексного инновационного подхода к организации учебного процесса на уроке музыки; приобщение всего класса к музыкальной деятельности с учётом индивидуальных особенностей каждого учащегося; соединение пластического движения, слушания и исполнения музыки и признания их равноправными в процессе осуществления музыкальной деятельности на уроке музыки; подбор по определённым принципам репертуара; учёт социокультурных условий, в которых живут и развиваются младшие школьники.

P.M.Mammadova

The importance of music in the modern educational process

Summary

The analysis of modern methodological materials for the subject "The importance of music in the modern educational process" makes it possible to formulate the basic directions of application of the innovative approach to the organization of lessons and to provide a number of guidelines for its implementation in the musical education of primary school children. The modern guidelines are based on the cooperative interaction of teachers and students; providing the lesson in the form of a game and using a special equipment for its realization; considering physiological characteristics of primary school children to implement the integrated innovative approach in the organization of the educational process of the lessons of music; involving all the pupils in the musical activity considering the individual characteristics of each student; combination of the plastic movement, listening and playing music, and recognition of pupils' equal rights in the process of musical activities in the classroom; the selection of the repertoire according to certain principles; considering social and cultural environment of primary school children.

Rəyçilər: ped.e.d., prof. O.Rəcəbov,
prof. A.Əsədullayev

Redaksiyaya daxil olub: 17.10.2019

V.B.NƏSİBOV
filologiya üzrə elmlər doktoru, dosent

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin
Hərbi Akademiyası
(Bakı şəh., Parlament pr., 3)

SİLAHLI QÜVVƏLƏRİN XÜSUSİ TƏYİNATLI TƏHSİL MÜƏSSİSƏLƏRİNDƏ RUS DİLİNİN TƏDRİSİ VƏZİYYƏTİ: PROBLEMLƏR VƏ ONLARIN HƏLLİ YOLLARI

Açar sözlər: *SQ-in Xüsusi təyinatlı təhsil müəssisələri, rus dili xarici dil kimi, fənn proqramları, dərslik və dərs vəsaitləri, minimum qrammatika, mətn üzərində iş*

Ключевые слова: *учебные заведения специального назначения Вооруженных Сил АР, русский язык как иностранный, предметные программы, учебники и учебные пособия, минимум грамматика, работа над текстом*

Key words: *Special Military Schools of Armed Forces, Russian as s second foreign language, syllabuses, textbooks, basic grammar, task on the text*

Hər bir xalqın öz vətənində dinc yaşaması, yaratması və uğurlu inkişafı üçün onun bu vətəni yadelli düşmənlərdən qoruya biləcək güclü, qüdrətli ordusu olmalıdır. Dədə Qorqudumuz demiş: "Bir vətəni əgər qoruya bilmirsənsə, onu əkib becərməyə dəyməz, əkib becərmirsənsə qorumağa".

Ölkəmiz müstəqillik qazandığı bir gündən bu yolda az müddətdə çox böyük işlər görülmüş və görülməkdədir. Bu gün Azərbaycanın hər hansı düşmənə layiqli cavab verəcək nizami Milli Ordusu və çox müdrik Ali baş komandanı, prezidenti vardır. Silahlı Qüvvələrimizin (SQ) daha da güclənməsi, şöhrətlənməsi ali savadlı, yüksək ixtisaslı hərbi qulluqçulardan, o cümlədən peşəkar komanda-qərargah zabitlərindən birbaşa asılıdır. Onlar öz şərəfli peşələrinə mükəmməl yiyələnməli, daim öz üzərilərində çalışmalı, mövcud təcrübələrdən bəhrələnməlidirlər. Bunları bacarmaq üçün isə hərbçilərin bir neçə xarici dili, o cümlədən düşmən dilini də bilmələri olduqca vacibdir. Bu gün ingilis dilini, rus dilini bilmədən, kompüterlə işləmək bacarığı olmadan heç bir kəs, o cümlədən hərbi qulluqçu öz peşəsində yüksək nəticə əldə edə, qarşısına qoyduğu məqsədə nail ola bilməz. Bu zamanın tələbidir və bunun üçün elmi və bədii kitablar oxumaq, öz ixtisasını daim təkmilləşdirmək, digər xalqlarla ünsiyyətə girmək lazımdır.

Azərbaycan xalqı üçün həmişə olduğu kimi indi də rus dilini yaxşı bilmək ən vacib vəzifələrdən biri olmalıdır, çünki Rusiya bizim əsas əzəli və əbədi qonşularımızdan biridir, bu dövlətlə bizim hər bir sahədə tarixi bağlılığımız olub. Azərbaycanın bir çox ədəbiyyat, incəsənət, mədəniyyət və maarif nümayəndələri vaxtilə Rusiyanın müxtəlif ali məktəblərində təhsil almış və öz sahələrində yüksək zirvələr fəth etmişlər.

Azərbaycanı, Azərbaycan dilini canından çox sevən ümummilli liderimiz, dünya şöhrətli siyasi xadim Heydər Əliyev rus dilində ruslardan da yaxşı danışırdı. Bunu rusların özləri də etiraf edirdi.

Çox təəssüflər olsun ki, Sovetlər İttifaqının dağılması ilə əlaqədar obyektiv və subyektiv səbəblərdən keçmiş ittifaqın bütün ölkələrində olduğu kimi Azərbaycanda da rus dilinə qarşı yaranan mənfi münasibət, rus məktəblərinin, sektorlarının bağlanması, rus dilinin tədrisinə ayrılan saatların kəskin şəkildə azaldılması və yaxud yox olması, çoxlu sayda rusdilli Azərbaycan vətəndaşlarının köçüb getməsi nəticəsində rus dilində danışıq mühitinin azalması və s. bu gün özünü hər bir sahədə, o cümlədən hərb sahəsində də açıq-aşkar sürətdə büruzə verir. Gənc zabitlərimizin əksəriyyəti,demək olar ki, rus dilini bilmir və bu da onların peşəkarlıqlarını artırmalarına, öz sənətinin sirlərinə dərindən yiyələnmələrinə tam imkan vermir.

Hərbi Akademiyada təhsil alan SQ-in digər Xüsusi təyinatlı təhsil müəssisələrində tədris sisteminin bir tərkib hissəsi və onun davamı olduğuna görə rəhbərliyin göstərişi ilə həmin təhsil ocaqlarında da rus dilinin necə və nə dərəcədə öyrənildiyi araşdırılmışdı. Onların tədris proqramları, sillabusları, dərslik və dərs vəsaitləri, dərs prosesləri ilə tanışlıq göstərdi ki, bu məktəblər, onların plan və proqramları arasında əlaqə, uzlaşma, sadədən mürəkkəbə doğru prinsipləri pozulmuşdu, dərslərdə əsasən rus dilinin qrammatikasına, onun qayda-qanunlarının izahına vaxt ayrılır, interaktiv metodlardan istifadə edilərək kursantların rus dilində danışmaq bacarığına yiyələnmələrinə az səy göstərilir, dilin öyrənilməsinə kompleks yanaşma prinsipi ilə tərtib olunmuş dərslik və dərs vəsaitlərdən səmərəli istifadə olunmur. Nəticədə, görülən işlər effektli olmur, proqramda qarşıya qoyulan vəzifələr düzgün yerinə yetirilmir, hərbi qulluqçularımız rus dilini elementar səviyyədə mənimsəyə bilmirlər və bu da onların gələcəkdə professional inkişafında böyük çətinliklər yaradır.

Yuxarıda qeyd olunanları nəzərə alaraq, qərara alınmışdır ki, qısa müddət ərzində SQ-in hərbi liseylərindən başlayaraq Hərbi Akademiyaya qədər bütün məktəblərdə rus dilinin xarici dil kimi tədrisi məqsədilə son dövrün elmi-metodik tələblərinə cavab verən vahid bir proqram tərtib olunsun və növbəti tədris ilindən rus dili dərsləri bu proqrama uyğun olaraq aparılsın. Bu məqsədlə respublikanın orta və ali təhsil məktəblərinin rus dili üzrə tədris proqramları, dərslikləri və dərs vəsaitləri ilə, bu dilin xarici dil kimi Rusiyada, Türkiyədə və digər xarici ölkələrdə tədrisi üçün tərtib olunmuş proqramlarla, dərs vəsaitləri ilə tanışlıq bizi belə qərara gətirdi ki, hələlik üzərində ixtisasa uyğun müəyyən dəyişikliklər edilməklə Rusiya Federasiyası Təhsil Nazirliyi tərəfindən buraxılmış təhsil proqramlarından istifadə olunsun, çünki bu proqram üzrə rus dili xarici dil kimi bir neçə səviyyədə (elementar, təməl, birinci, ikinci, üçüncü sertifikasiya) tədris olunur və öyrənilir (5).

Bu proqramların tələblərinə uyğun olaraq Rusiyalı mütəxəssislər tərəfindən bir neçə dərslik və dərs vəsaiti hazırlanmışdır və onlardan artıq uzun müddətdir ki, həm Rusiyada, həm də digər xarici ölkələrdə istifadə olunur. Bunlara misal olaraq Tomsk Politexnik Universitetinin "Rus dili xarici dil kimi: elementar səviyyə" dərs vəsaitini, (4) M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin "Rusiyaya yol: təməl səviyyəsi" dərsliyini (1), Tambov Dövlət Texniki universitetinin "Rus dili" dərs vəsaitini (6) və s.göstərmək olar. Bu dərsliklər bu gün rus dilinin xarici dil kimi öyrənilməsində ən çox müraciət olunan tədris vasitələridir. Tomsk Universitetinin "Русский язык как иностранный" kitabı 10 dərsdən ibarətdir, lakin hər bir dərs rus dilinin xarici vətəndaşlar tərəfindən mənimsənilməsi üçün qrammatik materialın sadədən mürəkkəbə doğru hər bir sahəsindən (fonetika, orfoepiya, orfoqrafiya, morfologiya, sintaksis, leksika) ən vacib məsələlərini daxil edir və bu məsələlər audio-vizual tapşırıqlar, testlər, dialoqlar və şəkillər vasitəsi ilə qavranılır. Bu üsulla dərslik əsasən rus dilində şifahi və yazılı nitqin yaranmasına və inkişafına xidmət etmiş olur. Moskva Dövlət Universitetinin mütəxəssislərinin tərtib etdiyi "Rusiyaya yol" kitabında isə hər bir dərs qrammatik mövzuya uyğun maraqlı bir mətnlə başlayır və bütün tədris-metodiki işlər mətnin üzərində aparılır. Beləliklə, dilöyrətmə qrammatikadan mətn istiqamətində deyil, mətndən qrammatikaya istiqamətində qurulur və yaxud onlar əlaqəli şəkildə aparılır. Bu dərsliyin müsbət cəhətlərindən biri də odur ki, burada xarici vətəndaşlar üçün öyrənilməsi ən çətin hesab edilən söz vurğuları yerinə qoyulmuşdur. Bildiyimiz kimi Azərbaycan dilindən fərqli olaraq, rus dilində vurğu müxtəlif yerli və dəyişkən yerlidir.

Məsələn: **рука′, ру′чка, руково′дство; рука′- ру′ки - руки′**. Göründüyü kimi, rus dilində müxtəlif mənalı sözlərdə və yaxud bir sözün müxtəlif formalarında vurğu yerini dəyişir və sözlər müxtəlif mənalarda işlənir. Rus dilində bu vəziyyət heç bir linqvistik qanun-qaydaya tabe olmur, bir qayda olaraq izah olunmur. Bunun nəticəsidir ki, azərbaycanlılar uzun müddət rus dilində sözləri vurğulamaqda çətinlik çəkir, səhvlər edirlər. Ona görə də gələcəkdə hazırlanacaq rus dili dərsliklərində sözlər üzərində vurğunun olması olduqca vacibdir.

Yuxarıda deyilənləri nəzərə alaraq, Hərbi Akademiyanın Xarici dil və tərəfdaşlıq mərkəzinin rəhbərliyi ilə Cəmşid Naxçıvanski adına Hərbi liseyin, Heydər Əliyev adına Ali hərbi məktəbin rus dili müəllimlərinin iştirakı ilə bu ilin aprel ayında keçirilmiş toplantıda bir daha qərara alındı ki, SQ-in Xüsusi təyinatlı təhsil müəssisələrində rus dili fənninin ona ayrılmış saatlar çərçivəsində ardıcıl, əlaqəli və səmərəli şəkildə keçirilməsi məqsədi ilə əsas ədəbiyyat kimi Cəmşid Naxçıvanski adına hərbi liseydə və Heydər Əliyev adına hərbi liseydə "Русский язык как иностранный: элементарный уровень" / учебное пособие. Михалева Е.В, Майер А.К… Heydər Əliyev adına Ali hərbi məktəbdə Антонова В.С., Нахабина М.М., Толстых А.А. "Дорога в Россию: учебник русского языка" (базовый уровень), intensiv təməl kurslarında isə adları çəkilən hər iki kitabdan və Попова Т.В., Архипова Л.В., Баркова Т.Т… Русский язык. / "Тамбовский государственный технический университет" 2009 dərsliklərindən istifadə olunsun. Silahlı Qüvvələrin magistratura şöbəsində rus dilindən fakültativ məşğələlər üçün ayrılmış saatlarda da 2 hissədən ibarət sonuncu adı çəkilən kitabdan istifadə etmək məqsədəuyğun sayılmışdı. Əlavə tədris vəsaitləri kimi, Русский язык для всех:/ учебник под ред. В.Г Костомарова 14-е изд.- М: Русский язык 1990 (7), Хавронина С.Д. Русский язык в упражнениях / С.Д. Хавронина, А.И. Широченская – 8-е изд. Стереотипное, М; Русский язык 1998 (8); Глазунова О.И. Давайте говоритъ по-русски: Учебник по русскому языку. 6-е изд, стереотипное М. Рус. яз, 2004 (2); М.М. Джафаров, Ф.Ю. Гусейнова Русский язык: Учебник для студентов-бакалавров естественных факультетов (новое, исправленное и дополненное издание). Баку-2017 (3) dərsliklərindən istifadə oluna bilər. Yeri gəlmişkən, sonuncu adı çəkilən kitab fikrimizcə respublikanın rus dili mütəxəssisləri tərəfindən buraxılmış dərslik və dərs vəsaitləri arasında ən dəyərlisi və layiqlisidir. Bakı Dövlət Universitetinin rus dili kafedrasının müdiri, filologiya elmləri doktoru professor M.M. Cəfərov və filologiya elmləri namizədi dosent F.Y. Hüseynova tərəfindən tərtib olunmuş bu kitab dərslik xətrinə yazılmış bir ilin, beş ilin məhsulu deyil, o keçən əsrin 90-cı illərindən Azərbaycanın çox böyük filoloq alimi rus dilçisi Firudin Hüseyn oğlu Hüseynov tərəfindən rus dilinin xarici dil kimi öyrənilməsi üçün irəli sürülmüş proqram – layihənin əsasında hazırlanmış və dəfələrlə təkmilləşmiş, yenilənmiş, zənginləşmiş bir dərs vəsaitidir. Həmin proqram da bu gün Rusiyalı mütəxəssislərin rus dilinin xarici dil kimi öyrənilməsi üçün əsasən nitqdən dilə, yəni mətndən qrammatikaya prinsipi ilə təqdim etdiyi proqrama uyğun idi. Təəssüflər olsun ki, həmin proqramın tələblərinə respublikamızda mütəxəssislər tərəfindən riayət olunmadı, indiyə kimi də həm orta, həm də ali məktəblərdə rus dili dərslərində onun qrammatikası, ismi, feli öyrədilir. M.M.Cəfərovun və F.Y. Hüseynovanın tərtib etdikləri Rus dili dərsliyində diqqət daha çox öyrənənlərin rus dilində şifahi və yazılı nitqə yiyələnmələrinə yönəlir, qrammatikanın danışıq və yazı üçün ən əsas məqamları qısa və kompleks şəkildə kiçik tapşırıqlar və mətnləri müşayiət edir, hər bir dərs lüğətlə bitir. Belə bir dərsliyə ixtisas, dərəcə və milli xüsusiyyətləri nəzərə almaqla SQ-in Xüsusi təyinatlı təhsil müəssisələrində də böyük ehtiyac var və bu istiqamətdə artıq işə başlanmışdır. Sonda apardığımız yoxlamalar və müşahidələr nəticəsində gəldiyimiz qənaətə görə Silahlı Qüvvələrin tədris ocaqlarında rus dilinin çox vacib bir xarici dil kimi səmərəli öyrənilməsi məqsədi ilə bir neçə təklif və məsləhətlərimizi də vermək istərdik:

1. SQ-in bəzi Xüsusi təyinatlı təhsil müəssisələrində rus dili dərsləri 25-30 nəfərlik bütöv qruplarda keçirilir, bu tərkibdə keçirilən dərslərin heç bir effekti ola bilməz, çünki təhsil qanunlarına görə xarici dil dərslərində tələbələrin (kursantların, dinləyicilərin) sayı 12-15 nəfərdən artıq olmamalıdır. Buna görə də yaxşı olardı ki, hər bir qrup heç olmasa 2 yarımqrupa bölünərdi.

2. Həm hərbi liseylərdə, həm ali hərbi məktəblərdə rus dili kimi mürəkkəb və çətin bir dilin tədrisinə plan üzrə ayrılan saatlar yenə də azlıq təşkil edir. Rus dili mühiti olmayan yerdə həftədə 1-2 saat rus dili keçməklə bu dili lazımi səviyyədə öyrətmək və öyrənmək qeyri-müm-

kündür. Ona görə də hərbi məktəblərdə rus dilinin xarici dil kimi tədrisinə ayrılan saatları artırmaq məqsədəuyğun olardı;

3. Yaxşı olardı ki, rus dili dərsləri audio-vizual texniki vasitələrlə təchiz olunmuş xüsusi auditoriyalarda keçirilsin;

4. Yaxşı olar ki, Silahlı Qüvvələrin Xüsusi təyinatlı təhsil müəssisələrində fəaliyyət göstərən rus dili müəllimləri ancaq işlədikləri yerdə deyil, həm də vaxtaşırı olaraq adı çəkilən digər orta və ali məktəblərdə öz həmkarlarının dərslərində iştirak etsinlər və təcrübə mübadiləsi aparsınlar, eyni zamanda müəllimləri təkmilləşdirmə kurslarında öz ixtisas biliklərini artırsınlar;

5. Silahlı Qüvvələrinin bütün Xüsusi təyinatlı təhsil müəssisələrində rus dilinin xarici dil kimi tədrisi üçün müasir tələblərə cavab verən fənn proqramları hazırlansın və bu proqramlar üzrə münasib dərslik və dərs vəsaitləri tərtib olunsun;

6. Tanış olduğumuz hərbi məktəblərdə yüksək ixtisaslı, peşəkar rus dili müəllimlərinə çox böyük ehtiyac var və bu ehtiyacı ödəmək üçün müəllimlik peşəsini sevən və Silahlı Qüvvələrdə həqiqi hərbi xidmət etməyə həvəsi və istəyi olan gənclərin ehtiyat zabit kursunda təhsil aldıqdan sonra onlara hərbi rütbə verməklə müəllim vəzifəsinə təyin etmək məqsədəuyğun olardı.

Ədəbiyyat

1. Антонова В.Е., Нахабина М.М., Толстых А.А. Дорога в Россию. Учебник русского языка (базовый уровень), 4-е издание, Санкт-Петербург, Златоуст, 2009.

2. Глазунова О.И. Давайте говорить по- русский. / Учебник по -русскому языку. 6-е изд. стереотипное. М.: Русский язык, 2004.

3. Джафаров М.М., Гусейнова Ф.Ю. Русский язык. Учебник для студентов–бакалавров естественных факультетов (новое, исправленное и дополненное издание) Баку, 2013.

4. Михалева Е.В., Майер А.К… Русский язык как иностранный: элементарный уровень. / Рекомендовано в качестве учебного пособия редакционно-издательским советом Томского политехнического университета. Издательство Томского политехнического университета 2011.

5. Образовательная программа по русскому языку как иностранному. Элементарный уровень. Базовый уровень. Первый сертификационный уровень. / Министерство образования Российской Федерации. Москва, 2001.

6. Попова Т.В., Архипова Л.В., Баркова Т.Т... Русский язык. /Изд-во Тамбовского государственого технического университета, 2009.

7. Русский язык для всех: учебник под ред. В.Г. Костомарова 14-е издание М.: Русский язык 1990.

8. Хавронина С.Д. Русский язык в упражнениях / С.Д. Хавронина, А.И. Широченская – 8-е изд., стереотипное, -М: Русский язык, 1998.

В.Б.Насибов

Состояние преподавания русского языка в учебных заведениях специального назначения Вооружённых Сил Азербайджанской Республики: проблемы и пути их решения

Резюме

В статье речь идёт об изучении русского языка как иностранного, о сегодняшнем состоянии используемых программ, учебников и учебных пособий по русскому языку в учебных заведениях специального назначения Вооруженных Сил Азербайджанской республики, говорится о начатой и проводимой в этом направлении работе Центра Иностранных языков и Партнерства при Военной Академии. Представляются ко вниманию читателей актуальность и практическая значимость темы.

V.B.Nasibov

The current situation of Russian in Speacial Military Schools of Armed Forces: problems and their solutions

Summary

The article deals with the current situation relating to the programmes, text boks and teaching means of Russian taught in special military schools as a second foreign language. The activities launched and conducted in this area by the Foreign language and Partnership Center of the War Collage are talked in the article. The actuality and practical importance of the problem has also been enlightened

Rəyçi: ped.f.d., dos. Y.K.Alxasov

Redaksiyaya daxil olub: 30.10.2019

M.NƏZƏROV
pedaqogika üzrə fəlsəfə doktoru, dosent

Azərbaycan Dövlət Pedaqoji Universiteti
(Bakı şəh., Ü.Hacıbəyov küç., 68)

MODUL TƏHSİLİN KEYFİYYƏTİNƏ PEDAQOJİ NƏZARƏTİN TƏŞKİLİ XÜSUSİYYƏTLƏRİ

Açar sözlər: *modul təhsil, texnologiyalar, keyfiyyət, nəzarət, monitorinq, qiymətləndirmə*
Ключевые слова: *модульное образование, технология, качество, контроль, мониторинг, оценка*
Key words: *module education, technology, quality, control, monitoring, evaluation*

Müasir cəmiyyətin davamlı inkişafı təhsilin keyfiyyətinin təlim və təhsilin əldə edilmiş səviyyəsinin hədəf və gözlənilən nəticələrə çatması, dövlətin və cəmiyyətin müəyyən edilmiş standartları, təhsil və sosial ehtiyacları ilə uyğunluğuna əsaslanır. Təhsilin keyfiyyəti yalnız təlim nəticələrindən deyil, həm də təhsil sisteminin, modelinin, universitet tələbələrinin bu sahədəki tələblərinə cavab verən ümumi inkişafa nail olmasını təmin edən prosedurlarla qiymətləndirilməlidir. Bu baxımdan, təhsilin keyfiyyətinin yaxşılaşdırılmasında və həyata keçirilməsində pedaqoji nəzarət vacib şərt kimi mühüm rol oynayır. Bu da tələbələrin bilik və qabiliyyətlərinin müəyyən təhsil məqsədləri ilə uyğunluğunun və ümumilikdə tələbələrin bilik fəaliyyətinin idarə edilməsinin dərəcəsini qiymətləndirməkdən ibarətdir.

Bundan başqa, dövlət təhsilin keyfiyyətinin qiymətləndirilməsi sistemini müəyyənləşdirməklə yanaşı, onun inkişaf dinamikasını da diqqətdə saxlayır.

Təhsil standartlarının tələblərinə uyğun olaraq, öyrənmə nəticələrinin qiymətləndirilməsi, təhsilin keyfiyyətinin monitorinqi və qiymətləndirilməsi kimi yanaşmalara dair çoxlu sayda mülahizələrdən aydın olur ki, modul təhsil davamlı bir proses olaraq cəmiyyətin hərəkətverici qüvvələrini nəzərə alaraq sistemli monitorinq və hərtərəfli qiymətləndirməni təşkil edir və həyata keçirir.

Pedaqoji prosesinin idarə edilməsi, hər şeydən əvvəl, onun fəaliyyəti və nəticələrinə nəzarətdir. Pedaqoji nəzarətin əsas vəzifəsi öyrənmə prosesinin və onun komponentlərinin optimallığının yoxlanılması, inkişaf etdirilməsi, təzahür etdirilməsi və tədrisin təşkili, onların əlaqəli olması, iştirakçıların fəaliyyətinin nəticələrinə və keyfiyyətinə uyğunlaşdırılmasına vaxtında yardım göstərilməsini təmin etməkdir.

Bu baxımdan keyfiyyətə nəzarət və qiymətləndirmə tədris müəssisəsinin bütün aspektlərini və səviyyələrini əhatə edən kompleks-modul yanaşma əsasında aşağıdakı kimi təşkil edilməlidir:

Modul təhsil texnologiyalarının əsası kimi test metoduna pedaqoji nəzarət. Modul təhsildə idarəetmənin əsas metodu kimi testin seçilməsi pedaqoji nəzarətdə tətbiq olunan tələblərə uyğun yazılışıdır.

Nəzarət prosesi bir sıra müəyyən: elmi xarakter, etibarlılıq, səmərəlilik, obyektivlik, sistematiklik, ədalətlilik və s. didaktik prinsiplər ilə tənzimlənir. Müasir ali təhsil müəssisələrində göstərilən bu prinsiplərin bir çoxuna ənənəvi təhsildə uyğunluğu mübahisəli ola bilər (7).

Modul təhsilin pedaqoji çərçivəsi. Təhsil sistemi hazırda diqqətini tələbə maraqlarına çevirir. Professional şəxsiyyətyönümlü, təhsil prosesinin passiv mənimsənilməsindən bacarıqların formalaşdırılması prosesinə qədər həyat fəaliyyətində tətbiq etmək üçün yenidən qurulması deməkdir. Bu tapşırığın həlli üçün məlumatların əldə edilməsinin optimallaşdırılması, sistemləşdirilməsi və genişləndirilməsinə yönəlmiş intensiv tədris texnologiyaları mühüm rol oynayır.

Modul təhsili müasir təlim texnologiyalarını əhatə edir. Bu texnologiyanı tədris prosesinə tətbiq edərkən müəllim, bir qayda olaraq, modul təhsilin mahiyyətini bütövlük və müstəqillik kimi saxlayır.

Təhsil texnologiyaları yalnız müəyyən bilikləri deyil, həm də əldə etmək bacarığı olan tədris prosesinin xüsusi metodik iş yükünü nəzərdə tutan təhsil strategiyalarına uyğun olan, ənənəvi təhsil prosesindən fərqli, təhsildə innovativ metodoloji təhsil təcrübələrinə əsalanır. Təhsil texnologiyasının mahiyyəti təhsilin təbiəti və metodunun dəyişdiyini ifadə edir. Müasir təhsil sisteminin modernləşdirilməsi kontekstində təhsil prosesi yalnız müəllim və tələbə mövqeyindən başqa, yeni mütəxəssislərin keyfiyyətcə fərqli mövqeyə daxil edilməsini də tələb edir (4, s.94).

Texnologiyaya bir növ fəaliyyət növündən (nəzəri biliklər əldə etməkdən) digərinə (peşə bacarıqları və qabiliyyətləri əldə etmək) tədricən və mənalı bir keçid daxildir. Belə bir keçidin həyata keçirilməsi vasitəsi fəal təlim metodlarıdır (problemli mühazirələr, rollu oyunları və s.). Modul təhsil nəzəriyyəsi ümumi didaktik təlimlə yaxından əlaqəli olub və modul təhsilin ümumi istiqamətini, məqsədlərini, məzmununu və təşkilati metodikasını müəyyənləşdirən konkret prinsiplərə əsaslanır. Bu modul prinsipləri, təhsilin məzmununun ayrı-ayrı elementlərə çevrilməsi, dinamizm, çeviklik, perspektiv məlumatlandırılma, metodik məsləhətləşmənin müxtəlifliyinə və bərabər paylara yönələn prinsipləridir.

Modullar əsasında təhsilə təsir göstərən müsbət istiqamətləri aşağıdakı kimi göstərə bilərik: *Birincisi,* didaktik material və təlimatlarla təchiz olunmuş tələbə, məktəb fənninin mənimsənilməsində böyük müstəqillik qazanır. *İkincisi,* müəllimin funksiyasına əsaslanan tələbə materialın passiv qavrayış hissəsini azaldır və ona müəllimlə aktual müzakirə etmək imkanı yaradır. *Üçüncüsü,* hər bir modulun sonuna uyğun olan materialın əldə edilməsi üçün ara nəzarət nöqtələri var. Bu nəzarət həm tələbə, həm də müəllim üçün vacibdir. *Dördüncüsü,* tam məzmunlu modulların addım-addım öyrənilməsi vasitəsilə bütün mövzunu asanlıqla əldə etmək mümkündür. *Beşincisi,* təhsilin modul texnologiyası, gənc mütəxəssisin müəyyən bir fəaliyyət növünə adaptasiya edilməsini təmin etməyə və tələbələrin ixtisasına uyğun olaraq təhsil prosesinin idarə edilməsinə imkan yaradır.

Modul təliminə keçiddə müəllimin hərəkətləri sistemi. Birincisi, bu məqsədə nail olmaq üçün hərtərəfli didaktik məqsəd və bir sıra modullardan ibarət olan modul proqram hazırlamaq lazımdır. Belə bir proqram tərtib etmək üçün müəllimin üzərinə düşür:

- kursun əsas elmi fikirlərini müəyyənləşdirmək;
- bu fikirlər daxilində təhsil məzmununu müəyyən bloklara çevirmək;
- sonra geniş bir didaktik məqsəd hazırlamaq.

Bu məqsəd iki səviyyəyə çatır: ilk təhsilin məzmununun əldə edilməsi və öyrənilmənin başlanğıc mərhələsində praktiki istifadəsi və ikinci isə təhsilin məzmununa perspektiv yanaşma.

Modul proqramların qurulmasının əsas prinsipləri. Modul proqramları hazırlayan müəllimin işi aşağıdakı əsas prinsiplərə əsaslanmalıdır:

1. Məqsəd prinsipi. Burada modullar 3 növə bölünə bilər:

- elmlərin təməllərinin öyrənilməsində istifadə olunan məlumatlar;
- əməliyyat (fəaliyyət metodlarının formalaşdırılması və inkişafı üçün);
- qarışıq, ən çox ali məktəbdə istifadə olunur.

2. Kompleks, inteqrasiya və xüsusi didaktik məqsədləri birləşdirən prinsip.

Geniş dialektik məqsəd dərsi hər bir modulun inteqrativ didaktik hədəflərə nail olmasını təmin edir.

3. Əlaqə siyasəti. Nəzarət, analiz və düzəliş olmadan mümkün deyil. Bundan əlavə, modul təhsildə müəllim tərəfindən həyata keçirilən idarəetmə tələbələrin özü tərəfindən tədrisin özünü idarə etməsi ilə birləşdirilir.

Modul təlim texnologiyasından aşağıdakı nəzarət üsullarından istifadə etmək məqsədəuyğun olardı:

Özünü nəzarət tələbə tərəfindən həyata keçirilir. O, əldə edilən nəticələri standartla müqayisə edir və onun fəaliyyətinin səviyyəsini özündə qiymətləndirir.

Qarşılıqlı nəzarət, şagird artıq tapşırığı yoxlayıb səhvləri düzəldəndə sonra mümkündür. Bundan sonra o, tərəfdaşın tapşırığını yoxlaya bilər.

İkinci dərəcəli modulda giriş və yekun nəzarət vacibdir. Bundan əlavə, davam edən monitorinqlər aparılır, cari nəzarət həyata keçirilir. Nəzarət formaları fərqli ola bilər: test, fərdi müsahibə, nəzarət və ya yaradıcı iş və s.

Modul proqramların uğurlu tətbiqi üçün bəzi qaydalara riayət etmək lazımdır. Yeni modul ilə işə başlamağın və hazırlıq səviyyələri haqqında məlumat əldə etmək üçün öyrənənlərin bilik və bacarığına giriş nəzarəti aparmaq lazımdır. Hər bir təhsil elementi öyrənildikdən sonra cari və aralıq nəzarətin aparılması da vacibdir (bu, qarşılıqlı sınaq, nümunə, müqayisə və s. ola bilər). Nəzarət müddəti modul ilə iş başa çatdıqdan sonra həyata keçirilir. Cari və aralıq nəzarət onların dərhal düzəldilməsi məqsədi ilə məlumatların əldə olunmasında boşluqları aşkar edir və yekun nəzarət bütün modulun səviyyəsini göstərməlidir və ya müvafiq təkmilləşdirmələr nəzərdə tutulmalıdır.

Modul təlim texnologiyasında hər bir element qiymətləndirilir. Qiymətlər modul üzərində işə görə yekun qiymət verildiyi əsasında hesabatda toplanır. Burada qiymətləndirmənin dəqiqliyi və obyektivliyi böyük rol oynayır. Yüksək nəticə modul texnologiya üçün əsas motivasiyadır. Tələbə hər bir mərhələdə işinin qiymətləndirildiyini və obyektiv olaraq onun səylərini və qabiliyyətlərini əks etdirdiyini bilir.

Tələbələrin modul təhsil ilə uğurlu işləməsi üçün təhsilin məzmunu tələbələrin öyrənməli olduğu şəkildə təqdim edilməlidir. Müəllim tələbə ilə söhbət etdiyi modul vasitəsilə hər kəsi düşünməyə, axtarış etməyə, təxmin etməyə, təşviq etməyə, müvəffəqiyyətə yönəlməsinə səbəb olur.

Modul təlim texnologiyasının məzmununun formalaşdırılması üçün ümumi meyarlar. Müəllimin modul təlim texnologiyasının məzmununun formalaşdırılması üçün aşağıdakı ümumi meyarları bilməsi vacibdir:

1. Modulardan istifadə edərək, məzmunda uğurla inteqrasiya olunmuş və interaktiv əlaqələri uğurla yerinə yetirmək, təhsilin məzmununu inteqrasiya etmək, əsas məqamın məntiqində formalaşdırmaq mümkündür

2. Sonrakı meyar modul təhsil məzmununun fərqləndirilməsinin zəruriliyi ilə bağlıdır. Alt səviyyə, məzmunun məcburi minimuma bərabərdir, ən yüksək səviyyəyə isə əlavə məlumatlar daxildir.

3. Modulun yaradılması üçün mühüm meyarlar şagirdin öyrənmə mərhələlərinin məntiqində strukturlaşdırılmasıdır: qavrayış → dərk → anlama → yadda saxlama → tətbiq → ümumiləşdirmə → sistemləşdirmə.

Müşahidələr və işlərin nəticələri göstərdi ki, öyrənənlər üçün ən vacib şey hər kəs öz üzərində müstəqil olaraq işləyir. Bundan əlavə, müəllimlərin məsləhətlərini almaq, özlərinə hər zaman nəzarət etmək imkanı var. Bu zaman tələbələr təhsilin məzmununu daha dərindən dərk edirlər.

Modul təhsil pedaqoji bir texnikadir ki, bu da tələbələrin modullardan ibarət bir tədris proqramı ilə işləməsidir. Modul təhsili müasir təhsil texnologiyaları öyrənmə prosesinin tələbələrin fərdi xüsusiyyətlərinə uyğunlaşdırılmasına imkan verir.

Təlim məzmununun mürəkkəbliyi, məktəbin xüsusiyyətləri və s. şəxsiyyətin inkişafına yönəldilən texnologiyalar kimi müəyyən edilə bilər. Modul təhsili öyrənmə prosesinin ümumi fəaliyyətin aktivləşdirilməsini, yaradıcı inkişaf şərtlərini və fərdin özünü ifadə etməsini təmin edir, onların fikirlərinə və proqramlaşdırılmış tədrisin təşkilati formalarına çox yaxın olur (4, s.96).

Modul təhsildə tələbə aktiv və effektiv idrak fəaliyyətində iştirak edir, məzmunda və köməklikdə fərqli proqram ilə işləyir. İdarəetmə, düzəliş, məsləhətləşmə, müstəqillik dərəcəsi

fərdiləşdirilir. Tələbənin öyrənmək üçün motivasiyaya səbəb olan şəxsi potensialını daha yaxşı həyata keçirmək imkanına malik olması vacibdir.

Bu təhsil sistemi hər bir tələbənin təhsil standartının əldə edilməsinə və yüksək səviyyəyə çatdırılmasına zəmanət verir. Sistem müstəqillik və komanda ruhu kimi şəxsi keyfiyyətləri inkişaf etdirmək üçün böyük imkanlara malikdir.

Tədris prosesində iştirak edən bütün iştirakçılara əməliyyat və hədəflənmiş təsir obyektiv təhsil məlumatlarından istifadəyə ehtiyac duyur. Nəzarət fəaliyyəti bu gün təhsilin keyfiyyəti idarəetmə sisteminin ən mühüm komponentlərindən biridir ki, bu da təhsil standartlarını və tədris prosesini, alətləri və texnologiyalarını, eləcə də təhsil ölçmələrinin nəticələrini əhatə edir.

Ədəbiyyat

1. Azərbaycan Respublikasının Təhsil haqqında qanunu, Bakı, "Bakı Çap Evi" 2012. 64 s.

2. Məmmədzadə R. Təhsildə keyfiyyət aparıcı istiqamətlərdən biri kimi. Bakı: "Müəllim", 2010. 170 s.

3. Nəzərov M.H. Müasir dövrdə təhsilin sosiomədəni problemləri. Monoqrafiya. Bakı: 2018, 298 s.

4. Nəzərov M.H, Quliyev N.Z. "Pedaqoji texnologiya" və "Modul təhsil texnologiyası"nın nəzəri əsasları //Naxçıvan, NDU-nun Elmi əsərləri, ictimai elmlər seriyası, 2019 №2 (99) s.94-98

5. Лихачев Б.Т. Педагогика: курс лекций. М.: Гуманитар, изд. центр ВЛАДОС, 2010. 647 с.

6. Монахов В.М. Дидактическая аксиоматика когнитивноий теории педагогических технологиий//Современные информационные технологии и ИТ-образование. -2016.Т. 12. № 3-1. С. 32-39.

7. Choshanov M.A. Flexible technology problem-modular training. Tool, Moscow: Nar. obrazovanie, 1996, 157 c

M.Назаров

Педагогический контроль качества модульного образования

Резюме

В статье рассматриваются сущность модуля как средства повышения качества образования, а также комплексно-модульный подход, охватывающий вопросы педагогического контроля в модульном образовании, проблемы с мониторингом и оценкой качества образования, основные методы и формы модульного контроля в образовании, а также пошаговый и многоуровневый анализ всех аспектов образовательного учреждения.

В нем также анализируются общие критерии, ключевые принципы и атрибуты для формирования содержания модульного образования, а также позитивные тенденции, влияющие на образовательное обучение на основе современных технологий обучения.

M.Nazarov

Pedagogical control of quality of module education

Summary

The article focuses on the essence of the module as a means of improving the quality of education as well as a complex-module approach covering pedagogical control issues in modular education, problems with monitoring and evaluation of education quality, basic methods and forms of module control in education, and step-by-step and multi-level analysis of all aspects of the educational institution.

It also analyzes general criteria, key principles and attributes for forming the content of module education, and positive trends affecting education-based learning based on modern learning technologies.

Rəyçi: fəl.e.d. Z.B.Ağayeva

Redaksiyaya daxil olub: 09.09.2019

G.M.NƏZƏROVA

Bakı Slavyan Universiteti
(Bakı şəh., S.Rüstəm küç., 25)

MÜASİR DÖVRDƏ TƏHSİLƏ SİNERGETİK YANAŞMANIN ƏHƏMİYYƏTİ

Açar sözlər: *təhsil, sinergetika, pedaqoji sinergetika, sinergetik yanaşma, metodologiya, özünütəşkil*
Ключевые слова: *образование, синергетика, педагогическая синергетика, синергетический подход, методология, самоорганизация*
Key words: *education, synergetics, pedagogical synergetics, synergetic approach, methodology, self-organizationeducation*

XXI əsr sivilizasiyanın simasını radikal şəkildə dəyişdi. İctimai həyatın mürəkkəbləşməsi nəticəsində insanların informasiyaya olan tələbatı artmış, informasiya resurslarına malik olma cəmiyyətdə struktur dəyişikliklərinə səbəb olmuşdur.

Elm və təhsilin inkişafı iqtisadi sistemin rəqabət qabiliyyətinin artırılması, regional və dünya səviyyəsində layiqli yer tutma, dövlətçiliyin gücləndirilməsi, milli maraqların inkişafının qlobal təhsil sisteminə inteqrasiya formasının genişləndirilməsi üçün zəruri şərtdir. Ölkənin və cəmiyyətin inkişafı üçün təhsili strateji resurs kimi nəzərdən keçirmək ali təhsilin maddi və prosessual aspektlərinin təşkilinə məntiqi yanaşmanın əsaslı yeni bir metodundan istifadə etməyi nəzərdə tutur.

Yüksək keyfiyyətli ali təhsil Azərbaycan Respublikasının təhsil sisteminin inkişafının strateji sənədlərində prioritet məqsəd kimi müəyyən edilir.

Bu vəzifələrin səmərəli həlli ölkənin ali təhsil sistemində pedaqoji prosesin təşkilinə yeni yanaşmaya əsaslanır.

Təhsilin təşkili kontekstində aşağıdakı ən çox tətbiq olunan metodoloji yanaşmaları fərqləndirmək olar:

- sistemli: bütövlüyü, quruluşu, əlaqəsi, elementi, alt sistemi ilə ən yaxın əlaqənin nəzərə alınması;
- şəxsiyyətyönümlü: hər bir insanın özünün inkişaf prosesində fərdi xüsusiyyətlərinin nəzərə alınması;
- şəxsi-fəaliyyət: tələbədə özünə hakim olan biliklərə münasibətdə xüsusi mövqenin yaranması üçün şəraitin yaradılması;
- refleksli: təcrübə məzmununun subyekt tərəfindən yenidən tərtib edilməsi və yenidən qurulması, bütövlükdə "mən" kimi effektiv münasibət yaradılması;
- dialoq: yaradıcı potensialın açıqlanmasını stimullaşdırmaq və şəxsi məsuliyyətin formalaşmasını təmin etmək;
- yaradıcılıq: şəxsin qoyduğu məqsədə müvəffəqiyyətlə çatması üçün lazım olan bacarıqların inkişafı;
- bacarıq: həyatın əsas sahələrində müəllimin özünü və cəmiyyətin, dövlətin mənafeyi uğrunda uğurlu fəaliyyətini təmin edən praktiki fəaliyyətin bilik və metodlarının inteqrasiyasını inkişaf etdirmək;
- akseoloji: şəxsi münasibətlər mədəniyyətin inkişaf mövzusu kimi qəbul olunur: mənavermə, qiymətləndirmə, normativ tənzimləmə, nəzarət. Şəxsin "akseoloji" - ("akse" (yuxarı) hərəkət istiqaməti, peşəkar yetkinlik, başlanğıc fenomen) vahid inkişafı, yəni: peşəkarlıq yetkinliyi, pedaqoji bacarıqlar və fərdlərin humanist yönümünə əsaslanan, özünü inkişaf etdirmək üçün davamlı motivasiya edən;

- fasiləsiz: böyüklər üçün öyrənməyə imkan yaradan xüsusi bir şəratin yaradılmasını nəzərdə tutur; təlimin istiqamətləndirilməsinin müəyyən edilməsi; təhsilin fəaliyyət planlarını (layihələrini) hazırlamaq; təlim fəaliyyətinin həyata keçirilməsi; qiymətləndirmə.

Lakin qeyd etmək lazımdır ki, təhsil prosesində birinci növbədə imkanlar resurslar əsasında inkişaf etdirən, özünüidarə və özünüinkişaf etdirən tələbələr üçün öz şəraitini təmin edən özünü açıq təşkil edən sistem kimi təmsil etməlidir.

Əvvəlcə elmdə özünü təşkil edən fenomen kibernetik yanaşma çərçivəsində nəzərə alınırdı. Lakin özünütəşkil zamanı baş verən xüsusi mexanizmlərə diqqət yetirilmirdi. Burada yalnız sabit əlaqələr əhəmiyyətlidir. Ancaq bütün bunlar davamlılığın xüsusiyyətini təhlil etmirdi. Bu, kibernetik yanaşma ilə, xarici nəzarət və informasiya mübadiləsi proseslərinə xüsusi diqqət yetirməklə izah olunur.

Bu baxımdan, müasir təhsilin əsas məqsədlərindən biri intellektual, informativ tədqiqat ilə paralel olaraq özünütəşkil mədəniyyətinin formalaşmasıdır. Özünütəşkil ideyası ümumiyyətlə, elmi metodologiyanın, xüsusən də təhsil metodikasına sinergetik yanaşmanın əsasını təşkil edir.

Ənənəvi yanaşma - sabitliyə, qaydaya, homogenliyə xüsusi diqqət yetirərək, qapalı sistemlərə diqqət ayırmaqla dünyanın öyrənilməsini nəzərdə tutur. Bütün bu münasibətlər ənənəvi elmi proseslərin öyrənilməsinə paradiqmal yanaşmanı əsas metod kimi xarakterizə edir. Sinergetik yanaşma tədqiqatçıları sistemlərin açıq, qeyri-sabit, qeyri-xətti olmasına yönəldir.

Tədqiqatçılar sinergetik yanaşmanı dünyagörüşünə çevirməyə, konsepsiyaları və mövqeləri birbaşa pedaqoji fəaliyyətə köçürməyə çalışırlar. Sinergetikanın potensialı ən yaxşı pedaqoji mərhələlərdən xüsusi bir tədris metodologiyasına qədər davam edir. Pedaqoji sistemin hər bir struktur elementi (tələbə, müəllim, tələbə qrupu və s.) açıq informasiya sistemidir. Buna görə müasir pedaqogika kompleks bir obyektin idrak və idarəetmənin elmi metodlarına əsaslanır. Sinergetik yanaşma pedaqogikada istifadə olunan sistemli funksional metodların inkişafıdır. Pedaqoji sinergetikanın əsas məsələlərinə aşağıdakılar daxildir: təhsilin məqsəd və strukturları; təhsilin məzmununu seçmək üçün yeni bir paradiqma; informasiya mübadiləsinin intensivləşdirilməsi kimi yeni öyrənmə texnologiyaları; tələbələrin, pedaqoji rəhbərliyin müstəqil fəaliyyətinə sinergetik yanaşmanın mahiyyəti.

E.N.Knyazeva və S.P.Kurdyumovun qeyd etdikləri kimi, "sistemin açıqlığı onda mənbə və axarların, ətraf mühitlə maddələr və enerji mübadiləsinin olması deməkdir. Amma söhbət mənbədən getdikdə adətən hansısa bir lokallaşmış mənbə obrazı yaranır. Məsələn, mənbə əvvəlcə bulağa, ardınca isə bəlkə də bol sulu çaya başlanğıc verə bilir. Özünütəşkil sistemlərində vəziyyət başqa cürdür. Mənbələr belə bir sistemlərin hər birində ola bilər. Necə deyərlər, bu həcmi mənbə və axarlar təşkil edir. Mübadilə prosesləri isə özünütəşkil edən bu sistemlərin hər bir nöqtəsindən keçir" (6, s. 12).

Buradan aydın olur ki, mürəkkəb sistemlərə, o cümlədən təhsil sisteminə onların inkişaf yollarını zorla qəbul etdirmək olmaz. Onların bir neçə alternativ inkişaf yolları olur. Əgər təhsil sistemi sosial sistem kimi nəzərdən keçirsək, onda açıq sistemi ona xarici təsirlər nəticəsində öz daxili strukturunu keyfiyyətcə dəyişdirə bilən sosial birlik kimi göstərə bilərik.

Azərbaycanın təhsil sisteminin acıqlığı bu gün dünyanın, ilk növbədə Avropanın təhsil məkanına inteqrasiyanı nəzərdə tutur. Azərbaycanın inteqrasiya proseslərində iştirakını qloballaşma prizmasından nəzərdən keçirsək, onda görə bilərik ki, bu gün mübadilə informasiya əsrinin ən mühüm elementinə çevirilmişdir (3, s.11).

Pedaqogika sahəsində sinergetik üsullar pedaqoji praktikada özünütəşkil prosesinə, xaos və nizamın dəyişməsinə əsaslanan sinergetik ideologiyanı istifadə etmək üçün vaxt lazım olan, ən ümumi formal sistemlərin xarakteristikası olan universal prinsipdir.

Pedaqogikada sinergetik metodlardan istifadə etməklə təhsil sahəsində sinergetik yanaşmanın məqsədi pedaqoji irsi yaradıcı sinergetik proses kimi dərindən anlamaq və mexaniki təfsirinə istinad etməkdən ibarətdir.

Pedaqoji sinergetika dedikdə məzmunu pedaqoji sistemlərin özünütəşkili nəzəriyyəsində, prinsiplərində və qanunauyğunluqlarında əks olunmuş pedaqoji bilik sahəsi nəzərdə tutulur.

E.N.Knyazeva və S.P.Kurdyumov yaradıcı düşüncə sahəsində özünü təşkil etməyi nəzərə alaraq, sinergetik ideyaların tətbiqinə böyük əhəmiyyət verirlər.Təhsilə sinergetik yanaşma-əlaqələrin qurulması, özünü tərtib etmə kimi əksik əlaqələrin tamamlanmasıdır (6).

Sinergetika insanı sistemin inteqrasiya olunmuş vahid bir vəziyyətdə olan kompleks özünü təşkil edən bir orqanizm hesab edir ki, bu sistem təhsil metodologiyasının aşağıdakı prinsiplərini şərh etməyə və tətbiq etməyə imkan verir:

- qeyri-xətti düşüncə tərzi: nəzəri konstruksiyaların qeyri-müəyyənliyi, konseptual-metodik plüralizm, intuitiv, rasional və səmərəli düşünmə tərzlərinin birləşməsi;

- xaosu özünütəşkil edən reallığın (bir-birindən ayrılmaz görünən) zəruri yaradıcı hissəsi kimi qəbul etməli.

Sinergetik metodologiya tədris prosesinin təfsirini əsaslı şəkildə dəyişdirməyə kömək edəcək: təlim prosesi, tələbə və müəllimin qarşılıqlı əlaqəsi- məlumatı birindən digərinə ötürmür, yayımlamır, yalnız həqiqətləri təqdim edir. Bu açıq dialoqun qeyri-xətti vəziyyətə birbaşa keçməsidir.

Sinergetik yanaşma müşahidə obyektində yeni strukturların və ya yeni funksiyaların yaranması ilə müşayiət olunan keyfiyyətcə makroskopik dəyişikliklərə yönəlib, belə keçiddə sistemin bütünlüklə xarakterizə etdiyi və fərdi elementlərlə müşahidə edilməyən davranış, təsir aşkar edilir. Bu təsir kooperativ fəaliyyətin nəticəsində fərdi hissələrdən daha yaxşı, keyfiyyətcə fərqli sinergetik təsir adını alır.

Əsas problem - təhsil sistemini yalnız insanın özünüinkişaf yollarından birinə necə yönəlməsi, özünüidarə davamlı inkişafı təmin etmək, problem, xaosun aradan qaldırılması deyil, həmçinin, yenilik, yaradıcılıq istiqamətlərinin yaranmasına səbəb olan bir sahəyə çevirməkdir.

Sinergetikada təhsil həmçinin əməkdaşlıq kimi başa düşülür. Sinergetik yanaşma metodologiyası nizamlı dialoq kontekstində təbiət, insan və cəmiyyətin vahid bir formasını təmin edən əsas təhsilə qayıtmağa kömək edəcəkdir. Bu ideyanın həyata keçirilməsinin effektiv mexanizmlərindən biri respublikanın ali məktəblərində təhsilin kredit texnologiyasının mahiyyəti tələbənin müstəqil fəaliyyətinin məqsədi və rolunda əhəmiyyətli bir dəyişiklikdən ibarətdir.

Bizim təcrübədə, təlim fəaliyyətinin sinergetik yanaşmasında tədqiqat subyektləri tələbələrin hazırladıqları təqdimatlar, qrup işləri, layihələr, müzakirələr, rollu oyunlar, pedaqoji vəziyyətlərin analizi, biblioqrafiyanın tərtib edilməsi, lüğət, şərhlər, təhlil, elmi işlərin nəzərdən keçirilməsi, imtahan, müxtəlif müqayisəli cədvəllər və başqa iş planları tələbənin psixoterapevtik bacarıqlarının inkişafı üçün ənənəvi hala çevrilir. Biliyin qiymətləndirilməsi üçün yazılı hesabat, yazılı imtahanlar, açıq testlər, anketlər, özünüqiymətləndirmə, esse və s. istifadə olunur. Bu baxımdan, sinergetik yanaşmaya əsasən tələbəyönümlü təhsil paradiqmalarının həyata keçirilməsi mühüm məsələlərdən biridir.

Bu təlim texnologiyası sinergetikanı təbiət elmləri sahəsində kompleks, universal, metodoloji, özünütəşkil, açıq, qeyri-xətti **s**trukturlu prinsiplərə əsaslanan mürəkkəb sistemləri təkamül fenomeni kimi öyrənir. Sinergetika, universal inkişaf qanunlarını araşdırdığından yalnız təbiət elmləri sahəsində deyil, eyni zamanda paradiqmanın inkişafı üçün ən aktual problem olan humanitar biliklərə də tətbiq edilə bilər.

Fəlsəfədə deyildiyi kimi, bilik artıq hər şeyi unutduğunuz zaman yadda qalandır. Təhsildə sinergetika və təhsilə sinergetik yanaşma təhsil üçün çox vacibdir. Bilik şəxsin strukturunda birbaşa görünmür. Sinergetika təhsilə dolayı yolla təsir edir. Bu, özünü bəzən açıq-aşkar, bəzən isə gizli inkişaf xətlərini stimullaşdıran bir təhsildir və bu həqiqətin açılmasının, gələcək yolları axtarmağın bir yoludur.

Təhsil sistemində çoxvariantlılıq təhsil mühitində seçim şəraitinin yaradılmasını nəzərdə tutur. Hər bir subyektə irəliyə doğru fərdi hərəkət şansı təklif olunmalıdır. Daha konkret

şəkildə belə seçim təhsilin fərdi trayektoriyasını və təlimin formasını, ali məktəbin tipini, tədris fənlərini və müəllimləri seçmək imkanında öz ifadəsini tapır (3, s.11).

Yekun olaraq qeyd etmək istərdik ki, pedaqogikada sinergetik ideyalar təbiət elmləri ilə cəmiyyət elmləri arasındakı sərhədlərin aradan qaldırılmasını və dünyanın universal mənzərəsinin qurulmasını təmin edən çox güclü amilə çevrilməkdədir. Bundan başqa, pedaoji sinergetika həmçinin təhsilin humanitarlaşdırılmasında və təhsilin inkişaf perspektivlərinin proqnozlaşdırılmasında da çox faydalı və təsirli vasitə ola bilər.

Ədəbiyyat

1. Abbasov Ə.F. İdarəetmənin sinergetik əsasları. Bakı, 2006, 212 s.
2. Allahyarova T.B. Sinergetika - I. Təbiətin vəhdətdə özünütəşkili. Sinergetik ontologiya. "Vəhdət fəlsəfəsi" seriyasından II kitab. Bakı, Elm, 2004, 372 s.
3. Nəzərov M., Quliyev N. Pedaqoji fəaliyyətin təşkili prosesində sistemli-sinergetik yanaşmanın əsas cəhətləri // Sivilizasiya jurnalı. BAU. Bakı, 2015, № 5. s.11-16
4. Nəzərova G.M. Pedaqoji sinergetikanın nəzəri əsasları. Monoqrafiya. Bakı, Mütərcim, 2017, 102 s.
5. Nazarov M.H. Postindustrial development perspectives of Education and the new challenges//Milton Studies Journal.Volume 62, 2018, Issue 4, pp 32-38
6. Князева Е.Н., Курдюмов С.П. Синергетика как новое мировоззрение: диалог с Пригожиным // Вопр. филос. 1992. №12. с. 12.

Г.М.Назарова

Важность синергетического подхода к образованию в современную эпоху

Резюме

В статье рассматривается актуальность синергетических подходов к образовательному процессу в современную эпоху и затрагиваются многие проблемы нашего образования, в том числе реализация таких синергетических подходов в педагогической деятельности, как открытость саморазвитие, креативность и нелинейность, креативность и саморегуляция.

Кроме того, синергетические идеи в педагогике направлены на устранение границ между естественными и общественными науками и создание универсальной картины мира

G.M.Nazarova

The importance of a synergistic approach to education in modern times

Summary

The article demonstrates the relevance of synergistic approaches to the educational process in modern times, addressing many problems in our education, including the implementation of synergistic approaches in teacher activity, self-organization, self-awareness, creativity and non-linearity, control and self-control and update the content of the methods.

Also, synergistic ideas in pedagogy are about removing the boundaries between the natural sciences and the social sciences, and creating a universal view of the world.

Rəyçi: p.e.d., prof. E.M.Quliyeva

Redaksiyaya daxil olub: 02.09.2019

G.F.NOVRUZOVA
dosent

Azərbaycan Dövlət Pedaqoji Universiteti
(Bakı şəh., Ü.Hacıbəyov küç., 68)

ALİ MƏKTƏBLƏRDƏ TƏHSİLİN KEYFİYYƏTİNİN TƏMİN EDİLMƏSİNDƏ TYUTOR XİDMƏTİNİN ROLU

Açar sözlər: *yeni sistem, tyutorluq, bacarıqlar, təhsil, keyfiyyət*
Ключевые слова: *новая система, тюторство, навыки, образование, качество*
Key words: *new system, tutoring, skills, education, quality*

Ölkəmizin təhsilində islahatların həyata keçirilməsi davam etdirilir. Təhsil ocaqlarında təhsilin keyfiyyətinin yüksəldilməsi ilə bağlı verilən qərarlar şəxsiyyətyönümlü təhsili inkişaf etdirmək məqsədini daşıyır. 2005-ci ildə Boloniyaya qoşulan Azərbaycan bunun gərəyi olaraq müvafiq öhdəliklər götürmüşdür. 19 iyun 1999-cu ildə 29 Avropa dövləti tərəfindən keçirilən təhsil nazirlərinin görüşündə qəbul olunmuş Bolonya Deklarasiyanın əsas məqsədi Avropa universitetlərinin bir-biri ilə inteqrasiyası, vahid kredit sisteminin yaradılması, tələbələrin mobilliyinin təmin olunması və ali təhsil sənədlərinin və ixtisaslarının Avropa məkanında qarşılıqlı tanınması olmuşdur. Azərbaycan ali təhsil sistemi Bolonya prosesinə qoşulduqdan sonra ali təhsil sahəsində yeni vəzifələr meydana çıxmış, universitetlərin rəhbərlikləri yeni sistemə uyğun yeni kadrların hazırlanmasına qərar vermişdir. Hazırda yeni vəzifə olaraq tyutorlardan söhbət gedəcəkdir.

Ölkə prezidentinin imzaladığı 348 nömrəli qərarla tələbələrin akademik maraqlarını qorumaq, onlara fərdi yardım etmək üçün məhz yeni vəzifə olan tyutorluğun təhsilə nüfuz etməsi oldu və tyutorların ali təhsil sistemində çalışması həyata keçirildi.

"Tyutor" (ing. tutor) tarixən qəbul edilmiş pedaqoji vəzifə olub, şagird və tələbə üçün fərdi təhsil proqramının təşkilinə və aparılmasına rəhbərlik edir. Məktəb, ali məktəb, əlavə təhsil və davamlı təhsildə təhsil alanı müşayiət edir. İnternat təhsilinin Britaniya modelidir.

"Tyutor" – fransız dilində özəl, şəxsi müəllim deməkdir, ancaq bizdə bu söz vəzifə kimi, tədris məsləhətçisi, akademik məsləhətçi kimi xarakterizə olunur.

Ölkəmizdə təhsil prosesində tyutorların yeri və rolu hansı səviyyədədir? Azərbaycan universitetlərində tyutorların vəzifəsi nədir?

Onların əsas vəzifəsi kredit sistemi ilə təhsil alan tələbələrə köməklik göstərməkdir. Belə ki, tyutor tələbələrin akademik maraqlarını qoruyur, müdafiə edir, eyni zamanda, tədris prosesinin təşkili ilə bağlı zəruri məlumat və sənədləri tələbələrə təqdim edir. Onların fərdi tədris planlarının hazırlanmasında qrupa və ayrı-ayrı tələbələrə fərdi məsləhətlər verir. Hazırda bəzi universitetlərdə tyutor, həmçinin, elektron universitetin fəaliyyətini təşkil edir və ona nəzarət edir.

ADPU-da təhsilin keyfiyyətinin yüksəldilməsinə, şəffaflığın təmin olunmasına böyük önəm verilir ki, bu işlərə də artıq bir neçə vaxtdır start verilmiş, işlərin daha mükəmməl formada təşkili və yerinə yetirilməsi həyata keçirilmiş və keçirilməkdədir.

Universitetlərdə fakültələr üzrə təyin olunan tyutorların sayı əsasən təhsil alan tələbələrin sayı ilə müəyyənləşdirilir. Bu zaman dövlət ali təhsil müəssisələrində hər bir tyutora 100-dən az olmamaq şərti ilə tələbə müəyyənləşdirlir. Özəl ali təhsil müəssisələri isə bu normativi özləri müəyyənləşdirirlər. Tyutorlar ən azı magistr dərəcəsi və bu sahədə müəyyən təcrübəsi və səriştəsi olan şəxslərdən seçilir. Tyutor bu vəzifəyə rektorun əmri ilə təyin olunur.

Nazirlər Kabinetinin təsdiqlədiyi 348 nömrəli qərara əsasən tyutorlar:

- tələbələrin hüquqlarını və akademik maraqlarını qoruyur;
- tədris prosesinin təşkili ilə bağlı bütün zəruri məlumatları və sənədləri tələbələrə təqdim edirlər;

- tələbələrin fərdi tədris planlarının tərtibi üçün onlara məsləhətlər verirlər;
- müəyyən olunmuş müddətdə tələbələrin fərdi tədris planlarının qəbulunu təşkil edirlər və ixtisaslar (ixtisaslaşmalar) üzrə illik işçi tədris planlarının tərtibində iştirak edirlər;
- tələbələrə fərdi tədris planlarında dəyişikliklər aparmasına yardım göstərirlər;
- yay semestrinin təşkilində iştirak edirlər.
- Bəs tyutorlar üçün ali təhsilin inkişafında nələr təklif olunur?

Təhsilin keyfiyyətinin yüksəldilməsi üçün yaxşı kadrlar lazımdır. Bu kadrların hərtərəfli bacarıqları və kifayət qədər maddi-texniki baza baxımdan təminatı yüksək olarsa, keyfiyyət əldə etmək olar. Təhsil sistemində işləyən müəllim insan yetişdirir, onu ən azı dövlətə, millətə gərəkli bir vətəndaş kimi formalaşdırır. Təhsil sistemində işləmək çətin olduğu kimi ,həm də məsuliyyətli və şərəfli işdir.Təhsildə inkişaf yeniliklər tətbiq olunduqda baş verir.Bu isə öz növbəsində cəmiyyətdə də irəliləyişin olmasına gətirir.Bunun üçün daima tyutorların da təhsildə baş verən yeniliklərlə tanışlığı həyata keçirilməli və bu baxımdan təkmilləşdirici kursların təşkilinin davamlı olaraq baş verməsi məqsədə uyğun olar.

Azərbaycan Dövlət Pedaqoji Universitetinin rəhbərliyi tərəfindən "Davamlı təhsil və təlim" şöbəsinə "Tyutorların hazırlanması və bacarıqlarının artırılması" üzrə təlimlərin verilməsi həvalə edilmiş, tyutorların fəaliyyətlərinin tələbələrin maraq və ehtiyacları üzərində qurulacağını nəzərə alaraq uyğun sorğular həyata keçirilmişdir. Təlim qrupu üzvlərinin dəstəyi ilə müxtəlif fakültələrdə I-II-III-IV kursların dekan, dekan müavinləri, tyutorlar və tələbələri arasında hər biri üçün xüsusi hazırlanmış sorğu keçirilmişdir.Tələbələr arasında keçirilən sorğuda I kurslardan 58 nəfər, II kurslardan 41 nəfər, III kurslardan 53 nəfər, IV kurslardan 60 nəfər, magistrantlardan 10 nəfər, 37 dekan və dekan müavinləri, 32 nəfər tyutor iştirak etmişlər.

I kurs	58	20%
II kurs	41	14%
III kurs	53	18%
IV kurs	60	21%
Magistr	10	3%
Dekan	37	13%
Tyutor	32	11%
Cəmi	291	



I kurslarla keçirilən sorğuda tələbələr:

- Rəhbərlik daha çox motivasiyaedici təlim və tədbirlər keçirsə, bizim üçün adaptasiya olmaq daha asan olar;
- Daha yaxşı təhsil almalarına maneə yaradan səbəb kimi bəzi müəllimlərin onları həvəsləndirmədiyini;
- Elektron kitabların və ya kitabxananın zəngin olmasının təhsili daha asan edəcəyini bildirmişlər.

II kurslarla keçirilən sorğuda tələbələr;

- Əksəriyyət tyutorundan razıdır;
- Mütəmadi görüşlərin keçirilməməsindən narazıdırlar;
- Tyutorların fəaliyyətilə bağlı tələbələrə məlumat verilməsini istəyirlər.

III kurs tələbələrilə keçirilən sorğuda "hər zaman" cavabı çoxluq təşkil etsə də, "çox vaxt" və digər variantlara cavab verən tələbələr də az deyil. Məsələn, tyutorun tələbələrlə görüşlər keçirməsi ilə bağlı suala verilən cavablar aşağıdakı kimidir:



Bu sorğunun müxtəlif fakültələrdə keçirildiyini nəzərə alsaq, statistikaya görə bəzi fakültələrdə mütəmadi görüşlər keçirilsə də, bəzilərində bu görüşlərin təşkil olunmadığı aydın olmuşdur.

IV kurslarla keçirilən sorğudan məlum olur ki, tyutorundan tam razı olmayan tələbələr az deyil.



IV kurs tələbələrilə keçirilən sorğuda:

- tyutorların məlumatları qrup nümayəndəsi vasitəsilə deyil, qrupla görüşlər təşkil edərək çatdırmasını;
- tələbələrlə tərbiyəedici, məlumatlandırıcı söhbətlər, müzakirələr aparmasını təklif edirlər.

Tələbələr arasında sorğudan alınan nəticə ondan ibarətdir ki, tyutorunu sevən, razı olan tələbələrlə yanaşı, tyutorunu tanımayan, tyutorlar ilə mütəmadi görüşlərin keçirilməməsindən şikayətlənən tələbələr olmuş, universitetdə ixtisaslarına uyğun müəyyən tədbirlərin keçirilməsini arzu etmişlər. Magistrlar isə öz tyutorlarından razıdır.

Sorğuda iştirak edən 37 dekan və dekan müavinləri:

- tyutorların ixtisaslar üzrə bölünməsini;
- əsasnamədə göstərildiyi kimi, 1 tyutora 100 tələbə düşməsini;
- onlara tapşırılan əlavə işlərin minimuma endirilməsini;
- tyutorların texniki işçi kimi deyil, daha çox tədris-metodiki işlərlə yüklənməsini məqsədəuyğun hesab etmişlər.

32 tyutor arasında keçirilən sorğudan məlum olur ki,

- tyutorlar universitetdə baş verən dəyişikliklər, tədbirlərlə bağlı məlumatlandırılmaq istəyirlər;
- tələbələrlə dərslərdən əlavə onları pis vərdişlərdən uzaqlaşdıracaq seminarların keçirilməsini;
- IV kurs tələbələrinin sərbəst davamiyyətinə şərait yaradılmasını;

- elektron universitetin yaradılmasını;
- tələbələrin işsizlik probleminin aradan qaldırılması üçün əmək yarmarkalarının təşkil olunmasını;
- tyutor olmaq istəyən şəxsin bir müddət təcrübə sınağından keçməsini;
- vəzifələrindən əlavə işlərlə yüklənmələrinin qarşısının alınmasını, otaqların yeni avadanlıqlarla, kompüterlərlə təmin olunmasını arzu etmişlər.

Bütün fakultələrdə keçirilmış sorğuların nəticələri müəyyənləşdirilmiş və tyutorların işinin təkmilləşdirilməsi, bacarıqların mükəmmələşdirilməsinə dair təlimlərin keçirilməsi məqsədəmüvafiq hesab edilmişdir. Hazırlanmış proqram və məzmun əsasında 2 aylıq təlimlər həyata keçirilmişdir. Əldə olunan nailiyyətlərdən çıxış edərək gələcəkdə daha mükəmməl təkliflər hazırlana bilər.

Ədəbiyyat

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 24 dekabr tarixli 348 nömrəli qərarı
2. Əhmədov A. Kurikulum islahatı: tədqiqatlar, nəticələr. Ümumi təhsil sistemində kurikulum islahatı: real nəticələrə doğru. Bakı, 2011.
3. Bayramov Ə., Əlizadə Ə. Psixologiya. Bakı, 2002.

Г.Ф.Новрузова

Роль службы тюторов в обеспечении качества образования в высших учебных заведениях

Резюме

После присоединения Азербайджана к Болонскому процессу в системе высшего образования появились новые задачи и руководство университетов, решили обучать персонал в соответствии с новой системой. Тюторство включено в систему высшего образования как новый институт. В связи с этим в статье рассматривается развитие тюторства – затронута проблема, отвечающая современным требованиям увеличения знаний и навыков тюторов. На всех факультетах АГПУ с учётом результатов проведенных опросов на основе разработанного программного обеспечения и контента были проведены 2-х месячные курсы.

G.F.Novruzova

The Role of Tutorship Services on supporting the quality of education in higher schools

Summary

After the joining of Azerbaijan Higher Education System to Bologna process, new tasks arose, University Administrators decided to train cadres flexible in to new system. As a new duty tutoring is included to Higher Education System . In this regard, this article touched upon the actual problem of improvement of tutoring – thus make tutors become competence and skill based cadres meets modern requirements. Reqarding the results of survey in all faculties in Azerbaijan State Pedagogical University, 2 month trainings have been implemented based on ready made proqramme and content.

Rəyçi: dos. Y.T.Rzayeva

Redaksiyaya daxil olub: 22.10.2019

X.Ə.RƏFİYEVA
e-mail: xrefiyeva@gmail.com

Azərbaycan Dövlət Pedaqoji Universiteti (Şəki filialı)
(Şəki şəh., M.Rəsulzadə küç., 305)

XARİCİ DİLLƏRİN TƏDRİSİNDƏ DİL VƏRDİŞLƏRİNİN ÖYRƏNİLMƏSİ MƏRHƏLƏLƏRİ

Açar sözlər: *dil vərdişləri, şifahi nitqinin inkişafı, oxu vərdişlərinə yiyələnmənin mərhələləri*
Ключевые слова: *языковые привычки, развитие устной речи, этапы обучения привычкам*
Key words: *language habits, speech development, habits learning stages*

Xarici dillərin tədrisi Vətənimiz üçün strateji əhəmiyyət kəsb edən dövlət məsələsidir. Gənclərimiz nə qədər çox dil bilsələr, bir o qədər zəngin dünyagörüşə malik olarlar. Dil vasitəsilə xalqın gələcəyə inamı artır. Bəzən elə olur ki, müəllim yuxarı sinifdə təlim-tərbiyə işini yaxşı qurduğu halda tədrisin ilkin mərhələsində buna nail ola bilmir. Bunun səbəbi odur ki, müəllim heç də həmişə uşaqların inkişaf səviyyəsini nəzərə ala bilmir. Xarici dildə elə sözlər olur ki, onların tələffüzü ana dilimizlə müqayisədə lazımınca səslənmir. Şagirdlərin bəzisi belə diləyatmaz sözlərin tələffüzü zamanı çətinlik çəkirlər. Hətta "pis səslənir" deyib sözləri tələffüz etməyənləri də olur. Belə şagirdlər dil öyrənməyə hazır olmadıqlarından maraqları sönür, nəticədə tapşırılan işin öhdəsindən gələ bilmir və passivləşirlər. Müəllim hər yaşda uşağın həm bilik səviyyəsini, həm də psixi inkişaf xüsusiyyətini nəzərə almalıdır. İlkin mərhələdə eşitmə-tələffüz bazası formalaşır. Sonrakı mərhələlərdə buna aid olan çalışmalarda birləşir. Əgər ilkin mərhələdə bu yaxşı mənimsənilməsə, sonrakı mərhələlərdə tələffüzü düzəltmək çox çətin olur (1, s.67).

Uşağı öyrənmə üsullarından biri müsahibədir. Bu üsulla şagirdlərə verilən suallara alınan cavablardan onları öyrənir və onlara təsir edirik. Uşağın müsbət hərəkətlərini və vərdişlərini müntəzəm olaraq möhkəmlətmək və mənfi təsir göstərən qıcıqların isə qarşısını almaq lazımdır. Şagird materialı böyük, çətin hesab etdikdə, onda yadda saxlama inamı itir. Buna görə də çalışmalıyıq ki, şagird çətinlikdən qorxmasın. Şagird diqqətini cəmləyib dərsə yönəldə bilsə, onun şifahi nitqi inkişaf edər. Uşaqların nitqinin hər bir cəhəti (söz ehtiyatı, fonetika, qrammatika) nitqin yeni inkişaf mərhələsinə keçməyə imkan verir. Şagirdlər şifahi və yazılı nitqə elmi cəhətdən yiyələnir, qrammatik qaydalarla tanış olur, dilin spesifik xüsusiyyətlərini öyrənirlər.

Xarici dilin tədrisi zamanı şagirdlərdə dilin komponentlərinin (tələffüz, lüğət və qrammatika) və dil bacarıqlarının (oxu, yazı, dinləmə və danışıq) inkişaf etdirilməsi diqqət mərkəzində durur və qiymətləndirmə də müvafiq olaraq bu meyarlarla həyata keçirilir. Dil ünsiyyət vasitəsi olduğundan onu öyrənməkdə başlıca məqsəd bu dildə ünsiyyət qurmaq bacarığına yiyələnməkdir ki, bunun da səmərəli yolu bütün şagirdlərin dərs zamanı xarici dildə mümkün qədər çox danışmasına şərait yaratmaqdır. Ən önəmlisi isə şagirdlərə öyrənilən xarici dildə şifahi nitq vərdişlərinin aşılanması və beləliklə orta məktəbin yuxarı siniflərində ingilis dilini öyrənən şagirdlərə tədris edilən dildən istifadə edərkən əminlik hissini aşılamaqdır.

Psixoloji tədqiqatlar şagirdlərin oxu vərdişlərinə yiyələnmələrinin üç mərhələsini göstərmişdir:

1. Analitik mərhələ.
2. Sintaktik mərhələ.
3. Şifahi nitq.

Analitik mərhələ - şagirdlər bu mərhələdə hərflərin adlarını, hecaları, hərf birləşmələrini öyrənirlər.

Sintaktik mərhələ - Bu mərhələdə şagirdlər sözləri oxuyub tərcümə edə bilirlər. Lakin bəzi söz birləşmələrinin, ifadələrin tərcüməsində çətinlik çəkirlər.

Müasir fransız dilində analitik yolla düzələn sözlər qrupu kifayət qədər məhsuldar sayıla bilər. İki sözün arasında sözönünün işlədilməsi ilə yaranan bu tipli mürəkkəb sözlər analitik dil olan fransız dilinin söz yaradıcılığı sistemində öz məhsuldarlığı ilə fərqlənir (3, s.130).

Şagirdlərin nitqinin inkişafında müşahidə əsasında plan üzrə nağıletmə (şəkillər üzrə: tək əşyanın təsviri, seriya xarakterli və süjetli) və inşa yazmanın böyük rolu vardır. Dil öyrənən şagirdlər üçün tədrisin ilkin mərhələsində şivə və ləhcə xüsusiyyətləri çətinlik törədir (Bu xüsusiyyət bizim şagirdlər üçün daha çox səciyyəvi xarakter daşıyır). Buna görə də müəllim şagirdləri nitq çalışmaları üzərində daha çox işlətməlidir. Tapşırıq adı altında yalnız nitq möhkəmləndirmə və s. tapşırıqlar nəzərdə tutulmur. Tapşırıq dedikdə, imla, inşa, yoxlama yazı işi də nəzərə alınır. Pedaqoji proses dəqiq icra edilməlidir. Müəllim dəqiqlik nümunəsi göstərməli, məktəblilər isə verilən tələbləri vaxtında və yüksək keyfiyyətlə icra etməyə alışdırılmalıdırlar. Pedaqoji prosesdə dəqiqlik bircə dəfə pozulsa (məsələn, müəllim dərsə vaxtında gəlməsə və ya verdiyi tapşırığı yoxlamasa), sonra məktəbliləri intizama dəvət etmək çox çətin olur (5, s.263).

Şifahi nitq çalışmalarına müsahibə, nəqletmə, mahnı, oxu da aid edilə bilər. Müəllim tədris materialını mənimsədərkən asandan çətinə, sadədən mürəkkəbə doğru üsulu ilə başa salmalıdır. Əgər müəllim həssas, qayğıkeşdirsə, onda o, təlim prosesində qarşıya çıxan bütün çətinlikləri və maneələri asanlıqla dəf edə biləcək. Bunun nəticəsində də şagirdlərdə dilə və müəllimə, fənnə maraq, rəğbət oyanır. Şagirdlərə imkan daxilində sərbəstlik verilməli, onların müstəqil fəaliyyətinə nail olunmalıdır. Lakin bu xeyirxah münasibətlər müəyyən çərçivədə olmalıdır, əks təqdirdə "müəllim-şagird" münasibətindəki sistem pozular. Şagirdlər yalnız fəal və müstəqil düşündükləri zaman bilikləri şüurlu və möhkəm mənimsəyə bilirlər. Şagirdlərin öz üzərində işləmələri müəllimin rəhbərliyi altında olmalıdır. Bəzən şagird ikinci dəfə sual verəndə müəllim narazı halda "Mən bunu bir neçə dəfə izah etdim" deyərək, təəccübünü bildirir. Bu da şagirdin dərsdən, dildən soyumasına gətirib çıxarır. Şagirdlər bilməlidirlər ki, onlar nə edəcək və hansı nəticəyə gələcəklər (1, s.223).

VII-IX siniflər şagirdlərin sərbəstliyə can atdıqları bir dövrdür. Bu dövrdə yeniyetmələr formalizmə, şablon münasibətə qarşı həssas olurlar. Buna görə də müəllim həmin dövrdə daha çox qayğıkeş olmalı, işə səylə yanaşmalıdır. Şagirdləri fəallaşdırmaq üçün nitq yaradıcılığına aid verilmiş tapşırıqlar əsasında oxuya maraq yaratmaq, onlara dilin çətinliklərinə üstün gələrək oxunu öyrətmək lazımdır. Şagird öz oxuduğundan razı qalırsa, bu oxu prosesini sürətləndirməyə kömək edəcəkdir. Şagirdin sürətli və rəvan oxuması üçün maraqlı və sadə, başadüşülən dil materialları lazımdır. Bu halda şagird oxuduğundan lazımı məlumatı götürə bilər. Lakin təəssüf ki, çox vaxt şagirdlər oxu üçün nağıllar, bədii kitablar tapmırlar. Hətta orta məktəb dərsliklərindəki bəzi oxu mətnləri bir-birini təkrarlayır. Belə olan halda müəllim də çətinlik çəkir, şagirdin sualı qarşısında cavabsız qalır. Öyrənməyi öyrətmək müəllimlər tərəfindən aydın surətdə öyrədilməlidir (1, s.228).

Nitq mədəniyyəti hər şeydən əvvəl, onun düzgün, dəqiq, gözəl (təsirli) olması ilə müəyyən edilir. Dil normalarının didaktik tələblərinə cavab verən əsl nitq müəllimin rəhbərliyi və köməkliyi ilə sinifdə - dərsdə yaranır. Lakin şagirdlərin heç də hamısı fikirlərini izah etmək üçün dil materiallarından sərbəst istifadə edə bilmir. Çünki çox vaxt fikirlərini ifadə etmək üçün nədən və necə başlayacaqları barədə düşünsələr də, hansı söz və ifadələrdən istifadə edəcəklərini müəyyənləşdirməkdə çətinlik çəkirlər. Müəllim elə ilk mərhələdə şagirdlərə oxunmuş mətnin məzmununu yığcam, müfəssəl nağıl etdirməli, şəkil üzrə şifahi hekayələr qurdurmalıdır. Leksik çalışmalara xüsusi yer verilməlidir. Çünki onlar nitq inkişafına birbaşa təsir edən vasitələrdəndir. Bu zaman şagirdlərin leksika, morfologiya və qrammatikadan aldıqları biliklər əlaqələndirilməlidir.

Xarici dilin tədrisində qrammatika və kommunikativ vərdişlərin aşılanması arasında tarazlıq yaradılmalıdır. Yuxarı siniflərdə keçirilən hər bir dərsdə mənimsənilməli olan qrammatik vahidlər kommunikativ cəhətdən əhəmiyyət kəsb etməlidir. Bəzi müəllimlər düzgün olaraq çalışmalar həlli zamanı şagirdlərə sinonimlər, antonimlər tapdırır, yeni söz və ifadələrə aid krossvordlar həll etdirirlər. Çalışmaların xarakterindən asılı olaraq öyrənilən söz və ifadələr, terminlər təkrarlanır, şagirdlər öyrəndikləri söz və ifadələri yada salır, yeni sözləri lüğət tərkibinə daxil edirlər. Dərsdə şagirdləri "Kim düz oxudu?" "Diqqətli oxucu", "Tərcüməçi" kimi yarışlara cəlb etmək onları daha da fəallaşdırır, onlar dərsin qalibi olmağı qarşılarına məqsəd qoyur və ona çatmağa çalışırlar.

Uşağı bacarığına, yaxud da əqli qabiliyyətinə görə tərifləyəndə ("Nə ağıllı qızdı bu!", "Sən çox bacarıqlısan" və s.) o daha çətin məsələ ilə qarşılaşanda bunu daha az çalışması, səy göstərməsi ilə deyil, zəka gücünün azlığı və bacarığının olmaması ilə əlaqələndirir və nəticədə həvəsdən düşərək dərsə bütün marağını itirir və çalışmır. Todd Viteker tərifin effektiv olması üçün onun 5 şərtini göstərir; tərif obyektiv (tərifləyərkən biz səmimi olmalı, həqiqi nailiyyətə görə tərifləməliyik), konkret (tərif zamanı biz ümumi ifadələrdən qaçsaq, göstərilən səyi vurğulasaq, sinifdəki bütün uşaqlara tərif düşər və uşaq hansı hərəkətin bəyənilən olduğunu öyrəndiyindən onu etməkdə davam edər), dərhal (tərif vaxtında və yerində deyilməlidir), "təmiz" ("amma"sız, uşağı tərifləyib amma sözündən sonra tənqidi fikir söylənilərsə, yadda qalan şey tənqid olur) və gizli (sinif yoldaşları arasında inciklik salmamaq üçün) olmalıdır. Dil ünsiyyət vasitəsi olduğundan onu öyrənməkdə başlıca məqsəd bu dildə ünsiyyət qurmaq bacarığına yiyələnməkdir. Bunun da səmərəli yolu bütün şagirdlərin dərs zamanı xarici dildə mümkün qədər çox danışmasına şərait yaratmaqdır.

Xarici dilin öyrənilməsində şagirdlərin şifahi nitqinin inkişaf etdirilməsi üzərindəki iş müəllimlərin qarşısında duran ən zəruri məsələdir. Bu, çətin və mürəkkəb olsa da, şagirdlərin tam savadlı olması üçün ona ciddi yanaşmaq lazımdır.

Ədəbiyyat

1. Рогова Г.В., Рабинович Ф.М., Сахарова Т.Е. Методика обучения иностранным языкам. М.: Просвещение, 1991, 287 с.

2. Kharizoménova S.A. Le français parlé. Moscou, 1976.

3. Musayev Ə.M. Müasir fransız dilinin leksikasının inkişafı. Bakı, 1987, 175 c.

4. Rəfiyeva X.Ə. Xarici dillərin inkişafı yolları // Bakı Slavyan Universiteti. Humanitar elmlərin öyrənilməsinin aktual problemləri, 2015, № 2, s. 78-80.

5. Məmmədzadə R. Müəllimin peşə etikası. Bakı, 1992.

X.A.Рафиева

Этапы изучения языковых навыков при обучении иностранным языкам

Резюме

В данной статье поднимаются вопросы изучения иностранных языков в азербайджанской школе. Приводятся методы и механизмы привития речевых навыков учащимся средних классов. Автором предлагаются конкретные рекомендации по усвоению лексики и грамматики французского языка как иностранного.

Kh.A.Rafiyeva

The stages of learning language skills in teaching foreign languages

Summary

The stages of studying language skills in Foreign Language Teaching, are related to the stages of studying language skills in foreign language teaching, grammar and communication skills in

teaching foreign languages, and the forms of work on the development of oral speech in learning foreign languages.

Rəyçilər: filol.f.d., dos. U.B.Mürşüdova,
ADPU-nun Şəki filialının Dillər kafedrası
(28.06.2019-cu il tarixli iclasın qərarı (pr. №11))

Redaksiyaya daxil olub: 02.10.2019

N.B.SALMANOVA
professor

S.Q.QARAYEVA
dosent

Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası
(Bakı şəh., Fətəli xan Xoyski pr., 98)

POLİATLONDA KOMANDA LİDERİNİN XÜSUSİYYƏTLƏRİ

Açar sözlər: *poliatlon, komanda, liderlik, iradi-mənəvi keyfiyyətlər, ədalətli rəqabət*
Ключевые слова: *полиатлон, команда, лидерство, морально-волевые качества, справедливое соперничество*
Key words: *polyathlon, team, leadership, volitional-moral qualities, fair rivalry*

Liderlər müxtəlif sahələrdə özünü göstərir. Belə liderlik haqqında daha çox danışılmış və yazılmışdır. Elmi tədqiqat işlərində inandırıcı nəzəri müddəalarla liderliyin xüsusiyyətləri, qruplar arasındakı müvəffəqiyyəti, bunların qarşılıqlı əlaqəsi, liderlərin müxtəlif keyfiyyətləri tam da olmasa şərh olunmuşdur (1, s.30).

Əsl liderin sahib ola biləcəyi keyfiyyətlərə: özünüdəyərlərini tanımaq, gələcəyə inamla baxmaq, risk etməyə hazır olmaq, şəxsiyyətlərarası ünsiyyət bacarığı; əməksevərlik, inkişafın təhlili, nəticələrin qiymətləndirilməsi, dözümlü olmaq, qarşısına məqsəd qoya bilmək bacarığı; peşəkar biliklər, özünəinam, uğura nail olmaq istəyi, lazımi insanlarla ünsiyyət qurmaq bacarığı; insana zövq verəcək işlərlə məşğul olmaq, müsbət münasibət, xeyirxahlıq, intuisiyalara güvənmə bacarığı; inam, cəsarət, verdiyi sözləri tutmaq bacarığı; dürüstlük, konsentrasiya, təşəbbüskarlıq və məsuliyyət, qayğıkeşlik və mərhəmətlik, digər insanların nailiyyətlərinə hörmət etmək bacarığı; səbr və dəyanət, detallara qarşı diqqətli yanaşmaq bacarığı; təzyiq altında işləmək bacarığı aiddir (3, s.39)

Liderlər həqiqətən də müəyyən fiziki keyfiyyətlərə malikdilər, halbuki, bu fiziki keyfiyyətlər idarə edilənlərdə olmaya da bilər. Məsələn, liderlər idmançılara nisbətən az güclü, təvəzökar olurlar. Müəyyən edilmişdir ki, liderlik daha çox təsadüfdən aslıdır, nəinki müəyyən edilmiş psixiloji və sosial kəmiyyətdən. Əgər şəxs özünü nədəsə lider kimi göstərir, onda ona bir lider kimi başqa vəziyyətlərdə də baxırlar. Bəzi göstərilən prinsiplər idmançılara da bilavasitə münasibəti göstərir.

İdman sahəsində liderlik mürəkkəb və çoxşahəlidir. Lider idman fəaliyyətində əsasən aşağıdakı vəzifələri yerinə yetirir:



1. Təşkilati (məqsədin qoyuluşu, qərarların qəbul olunmasının təşkili, komandanın məqsədinə nail olunmaq üçün metod və vasitələrin seçilməsi, komanda üzvləri arasında rol və vəzifələrin bölüşdürülməsi).

2. Məlumatlandırıcı (idman sahəsində baş verən yeniliklər, rəqiblər haqqında məlumatların toplanması və komanda üzvlərinə çatdırılması).

3. İctimai (komandada əlverişli psixoloji şəraitin yaradılması, komanda üzvlərində şəxsiyyətə mənsub müsbət mənəvi keyfiyyətlərin formalaşdırılması (2, s.10).

İdmanda liderliyin təhlili o cəhətdən mürəkkəbləşir ki, komandada liderlik üçün ən müxtəlif olan təməl və real imkanlar mövcüddur. Məsələn, komandada nisbətən nüfuzlu adam peyda olanda, əgər lider məşqçi kimi zəifdirsə, bu halda qrup narahatçılıq hiss etməyəcək, çünki, adətən komanda üzvləri çətin vəziyyətdə güclü liderə ehtiyac duyur. Başqa tərəfdən biz hamımız dəfələrlə belə vəziyyətin şahidi oluruq. Bu iki məşqçinin komanda ilə işlədiyi vaxt ortaya çıxır. Onlardan biri məsələyə çox yönəldilən və ictimai cəhətdən az hissiyyatlıdır, o bri isə qrupa daha çox yönəldilib və komanda üzvü ilə şəxsi problemlər haqqında söhbət aparmağa vaxt tapandır. Məsələyə yönəldilən məşqçini, komandadakı narazılıq və ya idmançılar arasında həddindən artıq rəqabət maraqlandıra bilməz və o, idmançıların fəaliyyətinə sağlam əlamət kimi baxacaq. Lakin o, komandanın uğurlu və ya uğursuz çıxışlarını, məşqçi tərəfindən rəhbərlik xüsusiyyətinin sonrakı təhlilini, idman fəaliyyəti xüsusiyyətlərini qeyd etməlidir.

Qrup və şəxsiyyətlərarası münasibətlər liderliyin formal və qeyri-formal suallarının meydana çıxmasına təkan verir. Komandada liderlik komandanın fəaliyyəti ilə çox əlaqəli bir prosesdir. Idmançıların tələblərini eyni vaxtda nizamlayan, onları müvəffəqiyyətə istiqamətləndirən lider komandada həmişə hörmət qazanır.

Məlumdur ki, hər bir komandada liderə tələbat var. Lakin bu tələbatlar müxtəlif cür ola bilər. Lider özündən nəsə verib və nəyisə qazanmalıdır. Lider komandada cavabdehliyi öz üzərinə götürməlidir. Komandada liderin olması komandanın daha çox yaşaması deməkdir. Nə qədər ki, liderin komandada böyük nüfuzu var, onun liderliyinin ömrü də uzun olur. Liderin fəaliyyəti ilə komanda üzvlərinin fəaliyyəti bir tamlıq təşkil etməlidir. Komanda elə bil ki, onun gücünü borc alıb, öz növbəsində lideri daha da güclü etməlidir.

Komanda tərəfindən lider seçildikdə onun idman müvəffəqiyyətləri və fziki keyfiyyətləri əsas götürülür. Lakin bunlar bəs etmir. Eyni zamanda onun iradi- mənəvi keyfiyyətləri də nəzərə alınmalıdır. Lider özünə tənqidi yanaşmalı, özünənəzarət etməli, inamlı olmalıdır. İdmançılara açıq təsir göstərməyi bacarmalıdır. O, öz keyfiyyətlərinə əsaslanaraq liderliyini daim subut etməlidir.

Komandanın lideri doğruçu, təşəbbüskar, intizamlı, işgüzar, qəti, cürətli, xeyirxah, qarşılıqlı yardım göstərməyi bacaran, özünətənqidi yanaşan, mətanətli və mərd, inamlı, iradəli olmalıdır.

Doğruçuluq komanda liderinin ən gözəl sifətlərdən biridir. Doğruçuluq dedikdə həqiqəti təhrif etməmək, yalana və ikiüzlülüyə yol verməmək, şəxsi xeyir üçün başqasını aldatmamaq, doğru və düzgün danışmaq nəzərdə tutulur. Doğruçuluq lideri yaxşı və ya pis nə iş görmüşsə bunu etiraf etməyə, düz danışmağa, başqasının müvəffəqiyyət və nöqsanlarını, müsbət və mənfi cəhətlərini deyərkən saxtakarlıq etməməyə, ikiüzlü olmamağa, heç vaxt dövləti, xalqı, rəhbərliyi, həmkarlarını, idmançıların valideynlərini yalançı vədlərlə, saxta müvəffəqiyyətlərlə aldatmamağa, həqiqət uğrunda fəal mübarizə aparmağa təhrik edir.

Təşəbbüskarlıq komanda liderinin şəxsən fəaliyyətə başlamaq və görülən işi məsuliyyətlə həyata keçirmək bacarığıdır. Təşəbbüskarlıq yaxşı inkişaf etmiş fəallıqdır. Təşəbbüskarlıq liderdə daima yenilik hissi tərbiyə edir.

Özünütənqid cəmiyyətin inkişafı üçün hərəkətverici qüvvədir. Özünütənqid təfəkkürün elə bir formasıdır ki, o obyektiv aləmdə baş verən dəyişiklikləri nəzərə alır və bizim təfəkkürümüzü bu dəyişikliklərə uyğunlaşdırır.

Leder özünənəzarət etməyi, öz hərəkətlərinə və davranışlarına kənardan baxa bilməyi, öz nöqsanlarını görməyi, öz əməllərində yaxşını pisdən, xeyiri şərdən, fəziləti qəbahətdən düzgün ayırd etməyi bacarmalıdır. Bunun əsasında lede öz xarakterindəki qüsurları islah edir, özünü tərbiyə edə bilir.

İntizamlılıq lider üçün əxlaqi tələbləri və birgəyaşayış qaydalarını yerinə yetirmək bacarığıdır. Lider öz hərəkətlərində ictimai zərurəti nə qədər yaxşı başa düşərsə, ictimai borclarını ödəməkdə bir o qədər inamla və fəallıqla hərəkət edər.

İşgüzarlıq liderin işlərin icrasında, baş verən çətinlikləri aradan qaldırmaqda, işi müvəffəqiyətlə sona çatdırmaq bacarığında özünü göstərir. İşgüzarlıq hər şeydən əvvəl, icranın düzgünlüyündə, təşkilində, sürətində özünü büruzə verir. Başlanan işi başa çatdırmaq üçün bu çətinlikləri aradan qaldırmaq lazımdır. İcranın düzgünlüyü iş vaxtı səhv buraxmağa imkan vermir, işi tez və vaxtında sona yetirməyə şərait yaradır. İcranın düzgünlüyü işgüzarlıq əlamətidir.

Qətilik liderdə məqsədi hərtərəfli, düşünülmüş, ardıcıl həyata keçirmək bacarığıdır. Qətiliyin köməyi ilə lider bütün qüvvəsini ümumxalq işi uğrunda sərf edir, lazım olduğu vaxt təmkinlə, tələsmədən, lakin doğru, qəti qərar qəbul edir. Qətiyyətli lider görəcəyi işin şəraitini, imkanlarını, hətta nəticələrini belə, qabaqcadan öyrənir, hər şeyi ölçüb biçir, sonra müəyyən qərara gəlir.

Cürətlik Vətəni coşqun məhəbbətlə sevmək, onun şərəfini, azadlığını və istiqlaliyyətini qorumağa daim hazır olmaq, ictimai vəzifəni fədakarlıqla yerinə yetirmək, böyük məqsədə doğru gedən yolda bütün çətinlikləri aradan qaldırmağı bacarmaq kimi nəcib sifətlərin inkişaf etdirilməsinə və həyata keçirilməsinə kömək edir.

Mətanət liderin özünü ələ almaq bacarığını artırması deməkdir. Mətanət göstərmək liderə qarşıya çıxan çətinlikləri aradan qaldırmağa, məqsədə nail olmağa, işdə müvəffəqiyyət qazanmağa imkan verir.

Mərdlik ən gözəl əxlaqi sifətlərdən biridir. Mərd lider heç vaxt öz hisslərinin əsiri olmur. O, istək və arzularını obyektiv gerçəkliyə tabe edir, öz şəxsi mənafeyini ictimai mənafeyə tabe etdirməyi bacarır. Mərd lider öz hərəkətlərində intizamlılıq, vətənpərvərlik kimi mühüm cəhətləri heç vaxt unutmur.

İnam liderə məqsədə çatmasına kömək edir, bu yolda bütün çətinliklərə obyektiv qiymət verməyi və həmin çətinliklərin aradan qaldırılmasına imkan yaradır. İnam hissi liderdə qabaqcadan öz işinin müvəffəqiyyətlə sona yetəcəyinə olan inamından yaranır. İnam hissi liderə öz qüvvəsinə, bacarığına, qarşıya qoyduğu məqsədə çatacağına imkan yaradır.

İradə inam hissi ilə əlaqədardır. Əgər liderdə iradə zəifdirsə, onda inam hissi də zəif olur. Əksinə, lider qüvvətli iradəyə malikdirsə, onda inam hissi də möhkəm olur. Belə liderlər təsir altına düşmür, ən çətin anlarda belə özünü itirmir, müvəffəqiyyət qazanacağına inanır. Lider işi müvəffəqiyyətlə başa çatdırırsa, o daha inamla işləyir.

Sadalanan bu keyfiyyətlər komandanın liderində olduqda, komandada sağlam münasibətlər, ədalətli rəqabət uzunmüddətli olur. Bu isə idman nailiyyətlərinin qazanılması üçün ən vacib amillərdən biridir.

Ədəbiyyat

1. Кричевский Р.Л., Рыжак М.М. Лидерство как структурный феномен. М., Изд-во Моск. ун-та. 1985, с.30-37.

2. https://studfiles.net/preview/5249171/page:10/

3. http://motivasiya.com/bacariqlarimiz/esl-lider-nece-olmalidir-639/

4. Кочисов В.К., Гогицаева О.У. Теории личности в современной психологии. // В мире научных открытий. 2015. № 11-1. С.594-603.

Н.Б.Салманова, С.Г.Гараева

Особенности командного лидера в полиатлоне

Резюме

Лидеры показывают себя в разных областях. Лидерство в области спорта многогранное качество. Лидер в спортивной деятельности выполняет, в основном, нижеуказанные задачи: ор-

ганизационные, информационные, общественные. В статье указывается на то, что лидерство в команде является процессом, связанным с деятельностью команды, при выборе командой лидера за основу берут, в основном его спортивные достижения, личностные качества, в то же время учитываются его моральные качества.

N.B.Salmanova, S.G.Garayeva

The characteristics of the team leader in polyathlon

Summary

The leaders show themselves in the different areas. The leadership is complicated and multifaceted in the area of sport. The leader is basically perform the below duties: organizational, informational, public. The article points out that the leadership in the team is a process that is very related to the team's activities, and when team is choosing a leader, they taken as a basis his athletic achievements to physical qualities, at the same time they taking into account his moral qualities.

Rəyçilər: ped.f.d., dos. R.Ş.Əbdürəhmanov,
Azərb.DBTİA-nın Kütləvi-sağlamlıq idman növləri kafedrası
(08.04.2019-cu il tarixli iclasın qərarı (pr. №07))

Redaksiyaya daxil olub: 30.09.2019

Y.B.SƏMƏDOV
pedaqogika üzrə fəlsəfə doktoru, dosent

V.M.VƏLİYEV,
Y.B.MƏMMƏDOV

Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası
(Bakı şəh., F.Xoyski pr., 98)

SÜRƏT DÖZÜMLÜYÜNÜN İNKİŞAF ETDİRİLMƏSİ METODİKASINA DAİR

Açar sözlər: *hərəkətlər, idman, dözümlük, sürət dözümlüyün inkişaf etdirilməsi*
Ключевые слова: *упражнения, sport, выносливость, развития скоростной выносливост*
Key words: *exercises, activities, endurance, methodology of development of endurance*

İdman fəaliyyətində mühüm rolu olan fiziki keyfiyyətlərdən (qabiliyyətlərdən) biri də sürət dözümlüyüdür. Sürət dözümlüyünün inkişaf etdirilməsi imkanlarının araşdırılması və bu istiqamətdə xüsusi tədqiqatların aparılması müəllim-məşqçi fəaliyyətinin təkmiləşdirmək imkanlarını artırır. Məhz bu baxımdan sürət dözumlüyünün inkişaf etdirilməsi metodikası mühüm əhəmiyyət kəsb edir. Bu istiqamətdə indiyə kimi aparılan araşdırmalar da çox maraqlıdır.

"Fiziki keyfiyyət kimi sürət dözümlüyü – insanın, həddə yaxın və ya son hədd intensivliyi ilə mümkün qədər davamlı olaraq əzələ işini yerinə yetirmək qabiliyyətidir" (1, s.312).

Sprinter xassəli dövrü idman növlərində yarış fəaliyyətinin effektivliyini təmin etmək üçün və ya istehsalat və məişətdə bunlara bənzər hərəki fəaliyyətdə sürət dözümlüyü mühüm rol oynayır. Eləcə də idman oyunlarında və onlara bənzər hərəki fəaliyyətlərdə də mühüm rola malikdir. Yalnız sürət dözümlüyünü yüksək səviyyədə inkişaf etdirmiş idmançılar oyun zamanı çoxsaylı sprinter təcilləndirilmələrini edə bilərlər.

Boks idman növündə sürət dözümlüyünün inkişaf etdirilməsi analitik metodunun əsasında, sürətin müxtəlif formalarının seçmə və məqsədəuyğun təkmilləşdirilməsi durur: tək zərbənin sürəti, yerdəyişmənin sürəti, müdafiə reaksiyanın vaxtı və s. (2, s.96).

"Sürət dözümlüyü ümumi dözümlükdən mühüm dərəcədə asan seçirilir. O, əsasən sinir - əzələ aparatının iş strukturuna uyğun olan hərəkətlərdə özünü biruzə verir" (1, s.313).

"Fiziki hərəkətlərin əksər növündə bədənin demək olar bütün əzələləri iştirak edir (qaçış, üzgüçülük, avar çəkmək və i.a.).İşin intensivliyindən asılı olaraq yorğunluğun başlanma vaxtı dəyişir. İntensivlik nə qədər çox olsa iş bir o qədər az vaxtda başa çatar və əksinə, müxtəlif məsafələrdə qaçışda sürətin müqayisəsindən görünür ki, daha uzun məsafəyə qaçış zamanı sürət aşağı düşür" (3, s.111-112).

Deyilənlərə rəğmən sürət dözümlüyünün inkişaf etdirilməsində hər bir fərdin (idmançının) fəaliyyət imkanlarına fizioloji yönümdən çox dəqiqliklə yanaşmaq lazımdır.

Sürət dözümlüyünü məhdudlaşdıran əsas faktorlara aiddir: orqanizmin bufer sistemlərinin və anaerob enerji mənbələrinin funksional imkanları; texniki hazırlığın səviyyəsi (az enerji sərfiyyatı ilə hüduda yaxın və hüdüd intensivliyini qorumaq bacarıqları); var gücünü toplamaqla orqanizmin daxili mühitində baş verən mənfi dəyişikliklərə (laktatın toplanması və s.) qarşıdurma imkanları.

Sürət dözümlüyünü inkişaf etdirmək üçün əsasən kombinəedilmiş hərəkətlərdən və yarış hərəkətləri metodundan istifadə edirlər. Kreatinfosfat mexanizminin funksional imkanlarını mükəmməl şəkildə inkişaf etdirmək və hərəkətlərin qənaətliliyini yaxşılaşdırmaq məqsədi ilə aşağıda göstərilən yükləmə və istirahət rejimlərindən istifadə edirlər.

1. Hərəkətin müddəti – 10-12 san-dən 25-30 saniyəyədək. Yeni başlayanlar üçün hərəkətin icra edilməsinin optimal müddəti 10-17 san hüdudlarında, ixtisaslı idmançılar üçün isə - 25-30 saniyəyədək ola bilər.

2. Hərəkətin intensivliyi – fərdi maksimal sürətə nisbətən 70-100%. Fərdi maksimal sürətə nisbətən 70-90% olan intensiv hərəkətlərin koordinasiyasına diqqət yetirmək lazım gəlir. Ayrı-ayrı hərəkətləri həm standart sürətlə və həm də onun variativ dəyişikliklərilə və ya da təcillə icra etmək olar. Bu həm hərəkətlər silsiləsinə və həm də bütövlüklə məşq tapşırıqlarının hamısına aiddir. Məsələn, hərəkətlərin birinci hissəsi (4 x 60 m qaçış) fərdi maksimumun 80% təşkil edən standart intensivliklə icra edilir. Tələb – hərəkətlərin texnikasının mükəmməlləşdirilməsi. Hərəkətlərin ikinci hissəsi (4 x 60 m) artan intensivliklə icra edilir: 1-ci məsafədə – sürət 85%, 2-ci məsafədə – 90%, 3-cü məsafədə fərdi maksimumun bu hissəsi üçün 95% və 4-cü məsafədə – maksimal gərginliklə. Tələb – enerji təminatının kreatinfosfat mexanizminin funksional imkanlarını mükəmməlləşdirmək, ümumi yorğunluq fonunda səylərini cəmləşdirmək bacarığını formalaşdırmaq.

3. Hərəkətlərarası dincəlmə intervalı – nisbətən tam olmalı. Yaxşı məşq etmiş idmançılarda onun müddəti 60-120 san az məşqli insanlarda isə 90-180 san təşkil edir. ÜVS 110-120 vur/dəq^{-1} -dək azaldıqda operativ iş qabiliyyəti nisbətən tam bərpa olunur. Silsilə hərəkətlər arasında tam istirahəti təmin etmək lazımdır. Onun optimal müddəti bir sıra faktorlardan asılıdır (insanın məşqetmə səviyyəsi, iş fazalarının müddəti, onların intensivliyi, seriyadakı təkrarların sayı və s.) və geniş hüdudlarda: 6-8 dəq-dən 15-20 dəq-dək dəyişir. Növbəti silsilə hərəkətlərə hazır olduğu barədə etibarlı məlumatı ÜVS-nın bərpa olunmasının yoxlanılması daha dəqiq şəkildə məlumat verir. ÜVS sayının 100-80 vur/dəq^{-1}-dək azalması operativ iş qabiliyyətinin demək olar ki, tam bərpa olunmasından xəbər verir.

Seriyalararası tənəffüsün çox böyük olması yükləməyə məruz qalan əsas əzələlərdə enerji məhsullarının ehtiyyatlarının bərpa olunmasının vacib olması ilə səciyyələnir.

4. Hərəkətlərarası tənəffüsün xarakteri – aktiv (boşalma hərəkətləri, tənəffüs hərəkətləri, asta yeriş və s.), silsilələrarası hərəkətlərin komplektləşdirilməsi.

5. Bir silsilədəki təkrarların sayı 3-6 arası olur. Bir silsilə ərzində 5-6 təkrardan çox olduqda əsas yükləri daşıyan əzələlərdə enerji ehtiyyatlarının tükənməsi nəticəsində intensivlik əhəmiyyətli dərəcədə azalır. Bu zaman hərəkətlərarası tənəffüsün uzadılması da müsbət effekt vermir, çünki bunun nəticəsində MSS qıcıqlanması zəifləyir. Bu da növbəti hərəkəti lazımi intensivlikdə icra etməyə imkan vermir. Bir məşq zamanı seriyaların sayı 2-3-dən 4-5-ə qədərdir. Seriyada hərəkətlərin təkrar olunmasının optimal sayı və məşq zamanı keçirilən silsilə məşğələlərin sayı insanın məşq etməsindən, iş fazalarının müddətindən və intensivliyindən, bərpaolunma proseslərin keyfiyyətindən və s. amillərlə şərtləndirilirlər.

Laktat enerji təminatının funksional imkanlarını təkmilləşdirdikdə yuxarıda sadalanan tövsiyələrə əsaslanırlar. Ayrı götürülmüş hərəkətin optimal müddəti 20-30 san-dən 120 san-dək olmalı. Təbii ki, kifayət qədər məşq etməmiş insanlarda onun müddəti 20-3 san-dən 50-60 san-dək, yaxşı məşq etmiş idmançılarda isə tam diapazonu təşkil etməlidir.

Yaxşı məşq etmiş dərəcəli idmançılarda silsilə hərəkətlərin hüduda yaxın və ya da maksimal intensivliklə və azalan tənəffüs intervalları ilə keçirilməsi daha yüksək effekt verir. (Н.Волков и др., 1998). Məsələn, 4 x 300 m qaçış zamanı tənəffüs intervalları 6, 4 və 2 dəq. olmaqla. Tənəffüsün xarakteri – aktiv.

Sürət dözümlülüyün inkişaf etdirilməsi üçün, bir qayda olaraq, əsasən xüsusi məşğələlərdən istifadə edirlər. Kompleks məşğələlərdə növbəti uzlaşmalar mümkündür:

1. Fiziki hərəkətlərin texnikasının öyrədilməsi və sürət dözümlüyünün inkişaf etdirilməsi;
2. Sürət – güc keyfiyyətlərinin və sürət dözümlüyünün inkişaf etdirilməsi;
3. Koordinasiya keyfiyyətlərinin və ya çevikliyin, sürət dözümlüyünün inkişaf etdirilməsi;

4. Güc və sürət dözümlülüyünün inkişaf etdirilməsi.

Qeyd etmək lazımdır ki, eyni məşğələdə həm ümumi və həm də sürət dözümlüyünü inkişaf etdirmək məqsədəuyğun deyil, çünki onların ikisi də fərqli enerji təminatı mexanizmləri ilə şərtləndirilirlər.

Həftəlik məşq siklində sürət dözümlüyünün inkişaf etdirilməsinə ikidən dördədək məşğələ həsr edirlər. Onların sayı insanın məşq etməsi və sürət dözümlüyünün inkişaf etdirilməsinin məqsədləri ilə şərtləndirilir.

Orqanizmin adaptasiya imkanlarının genişləndirilməsi üçün hərəkətlərin müddətini, onların icrasının intensivliyini və xarici təsirləri, yükləmələrin xarakterini (standartlaşdırılmış variativ, irəliləyən, geriləyən) və s. sistematik olaraq dəyişmək məqsədəuyğundur.

Ədəbiyyat

1. Səmədov Y.B., Vəliyev V.M. Dözümlüyün inkişaf etdirilməsi metodikasına dair. Humanitar elmlərin öyrənilməsinin aktual problemləri. Ali məktəblərarası elmi məqalələr məcmuəsi. №2/2019. Bakı: Mütərcim, 2019, 404 s.

2. Abiyev A.Q., Babanlı T.X., Hüseynov E.A. Boks (dərslik). Bakı, 2006, 296 s.

3. Rızayeva Z.H., Cəfərov Q.M. Bədən tərbiyəsi nəzəriyyəsi və metodikası (dərslik). Bakı, 2004, 182 s.

4. Зациорский В.М. Физические качества спортсмена. (Основа теории и методики воспитания). Физкультура и спорт, М., 1970, 200 с.

Я.Б.Самедов, В.М.Велиев, Я.Б.Мамедов

О методике развития скоростной выносливости

Резюме

Статья посвящается методике развития скоростной выносливости. Было проанализировано развитие методики выносливости в данной области. Детально описаны специальные упражнения, направленные на развитие скоростной выносливости, а также продемонстрирована разница между интенсивными и легкими тренировками. Изучены некоторые научные работы, направленные на развитие скоростной выносливости.

Y.B.Samadov, V.M.Valiyev, Y.B.Mammadov

Methodology of improvement of endurance

Summary

This article is about methodology of development of endurance. Special exercises aimed at development of endurance are described in details and the difference between hard trainings and light trainings are shown. Some scientific research work aimed at development of endurance is studied

Rəyçi: prof. Q.M.Cəfərov

Redaksiyaya daxil olub: 02.11.2019

F.O.SƏMƏDZADƏ
e-mail: feridesemedzade@box.az

Azərbaycan Respublikasının Təhsil İnstitutu
(Bakı şəh., Z.Əliyeva küç., 40)

AİLƏDƏ UŞAQ TƏRBİYƏSİ İLƏ BAĞLI YARANAN PROBLEMLƏRİN BAŞLICA SƏBƏBLƏRİ

Açar sözlər: *uşaq, məktəbəqədər yaş, ailə, ailə tərbiyəsi*
Ключевые слова: *ребёнок, дошкольный возраст, семья, семейное воспитание*
Key words: *child, preschool age, family, family education*

Ailədə uşaq şəxsiyyətinin təməlləri qoyulur və onun bir şəxsi kimi formalaşmasında təməl rolunu oynayır. Ailə mühitində uşaq ilk həyati təcrübələrini alır, ilk müşahidələrini edir və kollektiv içində necə davranmaq, ünsiyyət qurmaq lazım olduğunu öyrənir.

Valideynlərin məhz məktəbəqədər yaşda uşaqlarını tanıması, onların yaş dövrlərinə uyğun fərdi və cinsi xüsusiyyətlərini bilməsi və onlarla birlikdə daha çox vaxt keçirməkdən savayı keyfiyyətli vaxt keçirə bilməsi olduqca vacibdir.

Ailə özlüyündə uşaq həyatında bir neçə vəzifəni icra edir:

- Uşağın inkişafı və formalaşması üçün lazımı şəraitin yaradılması;
- Uşağın mənəvi, sosial-iqtisadi və psixoloji müdafiəsinin təşkil edilməsi;
- Ailədə yaradılan və qorunub saxlanılan adət və ənənələrin uşaqlara ötürülməsi;
- Uşaqlara bacarıq və vərdişlərin formalaşdırılmasında, özünəxidmətə alışdırma bacarığı, tətbiqi vərdişlərə və yaxınlara köməyə istiqamətlənmiş bacarıqlara yiyələndirmək;
- Uşaqlarda "mən" dəyəri, ləyaqət hissi tərbiyə etmək; və s.

Uşaqları düzgün yetişdirmək üçün ailənin, xüsusən valideynlərin qarşısında duran ən mühüm problemlərdən biri ailə daxilində valideynlərin mövqeyni düzgün müəyyənləşdirmək və bu mövqeyin daima qorumasıdır. Yəni uşağın gözündə valideynlərin heç biri digərindən güclü və ya zəif mövqedə olmamalıdırlar. Ailədə qəbul edilmiş bir qərara uşaqdan öncə valideynlər buna hörmətlə yanaşmalı və uşağın gözündə daha yaxşı ola bilmək üçün verilmiş qərarı çeynəməməlidirlər.

Hər bir uşaq istəksiz və şüursuz olaraq valideynlərini təkrarlayır, ataları və anaları, nənə və babaları və digərlərini təqlid edir. Buna görə valideynlər gündəlik münasibətlərinə, mədəniyyətinə diqqət yetirməlidirlər, təqlid üçün nümunə olmalıdırlar. Məktəbəqədər yaşda olan bir uşaq üçün valideyn, başlanğıcdan etibarən olduğu kimi mövcuddur və uşaq üçün olmaq istədikləri şəxslərdir. Ata və anaları uşaqların gözündə, ən gözəl, ağıllı, cəsur, mərd, güclü, qorxmaz və s. kimi müsbət keyfiyyətlərə malik, onlara nümunə olan şəxslərdir. Məktəbəqədər yaşlı uşaqların mübahisələrində ən ağır dəlillər "Mənim babam belə söylədi", "Anam bunu edir" kimi ifadələrdir. Valideynlərin hərəkətləri və hökmləri tənqidə məruz qalmır. Ancaq uşaqlar onların sərgilədikləri davranışları müşahidə, təhlil, müqayisə və s. edərək özlərində xarakter olaraq formalaşdırırlar.

Cəmiyyət inkişaf etdikcə ailə də inkişaf edir və möhkəmlənir. Ona görə də yazırlar ki, "Ailə cəmiyyətin xırdaca bir parçasıdır. Əgər ailə üzvləri bir-birinə hörmət qoyarsa, onda ailə xoşbəxt bəxtiyar dolana bilər. Ailədə bu hal, bir qayda olaraq, çətin deyil, çünki ailə üzvləri adətən məhəbbət telləri ilə bir-birilərinə bağlı olurlar".

Məktəbəqədər yaşda olan uşaqla ünsiyyət qurmaq isə son dərəcə vacibdir. Ailə ilə birlikdə bir yerə gedərkən uşağın fikirlərini almaq, evdə ediləcək bir dəyişiklikdə uşağın istəklərini də göz önünə almaq uşaqla qurulacaq sağlam ünsiyyət üçün vacibdir. Ailə fərdlərinin ha-

mısının "Bu mənim ailəmdir!" deyə bilməsi üçün hər kəsin sərbəstliklə fikirlərini söyləməsi və önəmsəndiyini hiss etməsi lazımdır.

Uşağın ailə içində gördüyü və eşitdiyi hər şey, uşağın şüur altına bir model olaraq yer almağa başlayır. Uşaq, hər gördüyünə diqqətlə baxır, sonra da bu gördüklərini təqlid etməyə, təkrar etməyə başlayır. Hər eşitdiyini də söyləməyə səy göstərir. Buna görə də valideynlər xüsusən yanlarında uşaq olan zaman söylədikləri sözlərə və etdikləri hərəkətlərə diqqət etməlidirlər və onlara örnək olmalıdırlar.

Valideynlərin şəxsi nümunəsi xüsusən bu yaş döründə onların tərbiyəsinə təsir göstərən ən vacib vasitədir. Valideynlərin fərdi nümunəsinin tərbiyə dəyəri, təqlid etmək üçün məktəbəqədər yaş meyillərinə bağlıdır. Kifayət qədər bilik və həyat təcrübəsi olmadıqca, uşaq yetkinləri özünə yaxınlaşdırır, hərəkətlərini təqlid edir.

Beləliklə, uşaq ailənin içində öz yerini tapır, ondan nə gözlənildiyini və gözlənilmədiyini bilir və bu səbəbdən o özünü rahat hiss edir. Uşağın ailə daxilində sərhədlərini bilməsi və ailəsinə güvənməsi onu zərərli amillərdən qoruyan bir qoruyucu faktordur. Ailə mühitində yaranmış sağlam psixoloji mühit onun üzvləri arasında səmimi, həssas, qayğıkeş münasibət onları işgüzar mehriban bir ittifaqda birləşdirirsə, bu mühitin uşaqlara yaxşı təsir göstərəcəyi heç kimə sirr deyildir.

Hər bir ailədə çətinliklər olduğu kimi hər zaman problemlər də yaşana bilir. Vacib olan şərt bu problemləri həll etmək üçün göstərilən səylər və problemə düzgün yanaşma şəklidir. Ailəni ailə edən şeylərin başında uşaq gəlir. Uşaq ailəsində gördükləri ilə formalaşır, böyüyür. Məhz buna görə də ana və atalar bir-biriləri ilə yaxşı yola getməyi bacarmalı və evdə rahat bir ab-hava yaratmalı, uşaqların xoşbəxt böyümələrinə lazım olan şəraiti qurmağı bacarmalıdır. Bir növ ekosistem, xoşbəxt bir səadət zənciri kimi. Əks halda bu ailələrdə formalaşan uşaqlarda, ilk növbədə, özünə inam hissi aşağı olacaqdır. Özünə inamı aşağı olan uşaqlar özlərini bədbəxt hiss edirlər. Uşaq valideynlərin tələblərinə cavab vermədiyini hiss edir.

Bu gün ölkəmizdə azərbaycanlı ailəsində böyüməkdə olan uşaqların şəxsiyyət kimi yetişdirilməsində və formlaşdırılmasında ailə ənənələrinin böyük rolu vardır. Uşaqların ailə ənənəsinin mahiyyətini anlaması və onlara hörmətli münasibətin aşılanması ailə, eyni zamanda, məktəbəqədər müəssisələrdə çalışan tərbiyəçilərin üzərinə düşən ən mühüm vəzifələrdən biridir. Uşaqların ailə ənənələrinə olan baxışı və bəslədikləri münasibət onların hətta gələcəkdə quracaqları ailənin təməlini qurur. Ailədə cərəyan edən sağlam ailədaxili münasibətlər uşağın ailəyə olan bağlılığını artırır.

Xüsusən gənc ailələrdə ailə ənənələrinə qarşı olan bir növ soyuq və laqeyd münasibəti əslində hər dövrdə mövzunu tədqiq edən pedaqoqda böyük narahatlıqlar yaratmışdır. Dünən görülənləri bu gün ərköyünlük və şıltaqlıq xatirinə dağıtmaq istəyənlərin müqavimətini sındırmaq üçün əldə edilmişləri qoruyub saxlamaqda mühafizəkarlıq meyli lazım gəlir. Görkəmli pedaqoq A.S.Makarenkonun bu mövzuya olan münasibəti isə belədir: "Etiraf etmək lazımdır ki, ənənələr yaratmaqda bir balaca instiktiv mühafizəkarlıqdan, lakin yaxşı mühafizəkarlıqdan, yəni dünənki günə qiymətli bir şey yaratmış və bu qiymətli şeyi bugünki şıltaqlıqla dağıtmaq istəyən yoldaşlarımıza bəslənən etimaddan istifadə etmək lazımdır".

Ailə ənənələrinin yaradılması zamanı ailə üzvlərinin müstəqilliyi də gözlənilməlidir. Ailə ənənələrini yaradan kollektiv sabit qalmır. Zamanla kimlərsə bu ailə kollektivinin içinə daxil olur və ya ayrılır. Yeni gələnlər isə ailədə mövcud olan ənənələrə müəyyən zaman içində alışmalı olurlar. Belə bir şəraitdə uşaqlara müəyyən qədər sərbəstlik vermək, onların ənənələrə uyğunlaşmasına, mənimsəməsinə və zamanla hörmətli münasibət bəsləməsinə şərait yaratmaq lazımdır. Hər bir ailə ənənəsinin az və ya çox tarixi vardır. Əgər yeni gələn nəsil mövcud olan bu ailə ənənələrinə riayət etməsələr, onlar unudulub gedər. Ailə ənənəsinin mühafizə olunub saxlanılması üçün ilk olaraq ailənin möhkəm özəyi olmalıdır, bu özək yeni gələnləri əvvəlkilərin yaratdığı ənənəvi davranışa riayət etmələrinə sövq etməlidir. Ailənin bu özəyi isə yeni daxil olanların hesabına ilbəil möhkəmlənməli və artmalıdır. A.S.Makarenko qeyd edirdi: "Əvvələn,

kollektivin canlı özəyini qoruyub saxlayın, fikir verin ki, nəsillər dəyişərkən kollektivdə həmişə qabaqcadan hazırlanmış nəsil qalsın, yəni kollektivin getdikcə inkişaf edən üzvlərində həm ailələrdən, həm də uşaqlardan ailənin qaydalarını - ənənələrini qoruyub saxlasın".

Tədqiqatlar zamanı görürük ki, bu gün ailələrdə tərbiyənin ötürülməsi zamanı ən böyük problemlərin başında ailədaxili ünsiyyətin düzgün qurulmaması məsələsi gəlir. Ailə fərdləri arasında ünsiyyət sadəcə evdə problem olduqda qurulmasına ehtiyac olunan bir şey deyildir. Ailə üzvləri hər gününü birlikdə keçirdikləri insanı yaxşı tanımaq, ehtiyaclarını başa düşmək, onları bir ev əşyası kimi eyni evin içində olmağın xaricində, orada yaranan problemləri birgə həll etməli və aradan qaldırmağı bacarmalıdırlar.

Məqalənin aktuallığı. Uşaq şəxsiyyətinin formalaşmasına təsir göstərən əsas amillərdən biri də ailədir. Gənc ailələr uşaq tərbiyəsi ilə bağlı bir sıra problemlərlə üzləşə bilir. Bu problemlərin yaranma səbəbi və onların aradan qaldırılması ilə bağlı bir sıra məsələlərə aydınlıq gətirilmişdir. Bu baxımdan məqalənin mövzusu aktuallığı ilə diqqət çəkir.

Məqalənin elmi yeniliyi. Məqalənin elmi yeniliyi ondan ibarətdir ki, mövzu ilə bağlı həm xarici, həm də yerli pedaqoqların tədqiqat nəticələrinə istinad edilmişdir.

Məqalənin praktik əhəmiyyəti və tətbiqi. Məqalədən məktəbəqədər müəssisələrində çalışan tərbiyəçilər, tələbələr eləcə də valideynlər istifadə edə bilər.

Ədəbiyyat

1. Ализаде А.А., Аббасов А.Н. Семья: Учебник для 9 класса. Баку: Маариф, 1991.
2. Əlizadə Ə.Ə., Abbasov A.N. Ailə həyatının etika və psixologiyası: Müəllim üçün vəsait. Bakı: Maarif, 1989.
3. Abbasov A.N. Milli əxlaq və ailə etikası: Universtitetlər və kolleclər üçün dərslik. Bakı: Mütərcim, 2015.

Ф.О.Самадзаде

Основные причины проблем воспитания детей в семье

Резюме

Семейное воспитание является основой дошкольного образования. Все, что ребенок видит и слышит в семье, начинает казаться образцом в его сознании. Ребенок внимательно смотрит на все то, что видит, а затем подражает и повторяет все это. Поэтому родители должны быть осторожны с тем, что они говорят и делают, особенно когда у них есть дети, и должны подавать им пример.

F.O.Samedzade

The main causes of problems about upbringing of children in a family

Summary

Family education is the basis of preschool education. Everything that child sees and hears in the family begins to seem like a model in the mind of the child. The child carefully looks at everything that he sees, and then imitates and repeats what he saw. Therefore, people should be careful about what they say and do, especially, when they have children, and should set an example for them.

Rəyçilər: ped.e.d., prof. A.N.Abbasov,
ped.f.d. L.A.Məmmədli

Redaksiyaya daxil olub: 01.10.2019

А.АМИРОВА
доктор философии по педагогике
e-mail: aygun-amirova@mail.ru

З.ГУСЕЙНОВА

Азербайджанский государственный экономический университет (UNEC)
(г. Баку, ул. Истиглалият, 6)

ИНТЕГРАЦИЯ В ОБУЧЕНИИ РУССКОМУ ЯЗЫКУ В ЭКОНОМИЧЕСКОМ ВУЗЕ

Ключевые слова: *интеграция, русский язык, умение, навыки, упражнение*
Açar sözlər: *inteqrasiya, rus dili, bacarıq, vərdiş, tapşırıq*
Key words: *integration, Russian language, skill, habit, exercise*

В современном обществе в Азербайджане происходят большие изменения, затрагивающие многочисленные сферы жизнедеятельности людей. Это относится также и к области среднего и высшего образования. Как удаётся выяснить по материалам разных научных исследований, наиболее радикальным изменениям подверглась система образования в республиканских вузах. В программных документах нашей республики придаётся большое значение совершенствованию процесса обучения. Причём, наряду с государственным – русскому языку как иностранному также уделяется определённое внимание. В выступлениях Президента Азербайджана Ильхама Алиева и первого вице-президента Азербайджана Мехрибан Алиевой на различных форумах, конференциях и совещаниях неоднократно звучит речь в защиту русского языка.

В самом деле, в наши дни трудно представить себе жителя Европы любого возраста, который, помимо родного, не владел бы английским, так как последний является языком международного общения. Но если вспомнить тот неоспоримый факт, что на протяжении более семидесяти лет Азербайджан с его толерантным мышлением жил, образно выражаясь, под «крышей» единого дома, и подавляющее большинство населения свободно говорило на двух языках, то тяга к знанию русского языка вполне очевидна.

Реформирование в первую очередь коснулось болонской системы, так как она коренным образом видоизменила процесс преподавания многих предметов, а в неязыковых вузах русского языка, в частности. Мы не случайно избрали предметом исследования изучение русского языка в целом в неязыковом вузе (в нашем случае – для студентов-экономистов). Многолетняя педагогическая практика показывает, что в языковой вуз по конкурсу чаще всего проходят абитуриенты с определёнными базовыми познаниями неродного языка (ведь это их свободный выбор). Конечно же, сложнее обстоит дело со студентами-азербайджанцами неязыковых вузов, для которых проблема овладения русским языком становится более трудоёмкой**.**

Подбор высококвалифицированных кадров в зарубежных компаниях на территории Азербайджана, в особенности после обретения статуса независимости и демократизации, настоятельно требует больших и основательных знаний иностранных языков. Причём, для людей любых возрастов, но с негласным преимущественным правом для молодёжи. В связи с указанным считаем возможным констатировать: в нашей республике в настоящие дни назрела острая необходимость разрабатывать новые программы по русскому языку. Важность и актуальность настоящей статьи заключается прежде всего в необходимости выдвижения на передний план качества знаний, умений и навы-

ков по русскому языку. Причём, в неязыковом (экономическом) вузе они, по нашему убеждению, должны быть основаны на взаимосвязанном изучении разных дисциплин. Последние подразумевают именно применение интегрирования на занятиях по русскому языку. Что же такое интеграция в общих чертах? Считаем необходимым в самом начале нашей статьи подчеркнуть: оно родилось, как показывают некоторые труды И.П. Яковлева, П.М. Эрдниева, Н.Ф. Талызиной и других (полный список научных работ будет приведён в конце настоящей работы ещё в начале 1980-х годов). Во всяком случае, более 35 лет тому назад об этом впервые заговорили. И всё же строго и объективно говор – это детище XXI века, одно из приоритетных направлений в современной педагогике, методике преподавания русского языка как иностранного и психологии в том числе.

Укажем на то, что в современной теории методики преподавания русского языка среди студентов-экономистов достаточно остро ставился следующий вопрос: какими путями и средствами непосредственно в процессе работы наладить тесную взаимосвязь знаний в различных областях наук. Она в своём концентрированном, «сгущённом», то есть интегрированном виде будет способствовать лучшему и скорейшему овладению студентами-экономистами основ современного русского языка, именно таких его разделов, как фонетика, грамматика, орфография, орфоэпия, лексикология, функциональная стилистика, синтаксис.

О том, что преподавание русского языка должно быть взаимосвязанным, в соответствующей критике говорилось давно; это традиционная тема научного и прикладного методического исследования. Хочется отметить: когда в 1960-х и 1970-х годах ещё не было самого термина «интегрирование» и вообще не проводилось в вузах подобной работы, взаимосвязь нескольких составляющих разных учебных дисциплин отмечалась в трудах многих авторитетных учёных: Л.В.Щербы, К.Д.Ушинского, Н.М.Шанского и других педагогов-методистов и лингвистов. интегрированный урок в вузах в современном толковании есть совокупность нескольких форм, способов и методов преподавания конкретного предмета. Сошлёмся на мнения педагогов-методистов. Характерно, что каждый из авторов, взявших на себя смелость определить в едином сложном синтаксическом целом данный термин, ищет свой индивидуальный угол зрения. Коллектив отечественных учёных (А. Байрамова, Х.А. Гасанова, Н.А. Гарагёзова, Г.Б. Гасанов) пишут: «Интеграция – это система органически связанных между собой учебных дисциплин, построенная в первую очередь по аналогии с окружающим миром. В основу интеграции, - продолжают они, - положена аксиома, в соответствии с которой в нашем мире всё взаимосвязано и не существует в чистом виде». (5, 39).

В таком случае педагогам-методистам следует опираться на объективные теоретические оценки тех интегративных принципов или приёмов, которые наиболее актуальны и могут быть с успехом задействованы непосредственно в педагогической практике. Именно такая практика способна учитывать все вышеперечисленные признаки интегрирования в широком смысле этого слова. То есть, придерживаясь такого рода интегрированных работ, обучающий способен в максимальной степени учитывать одновременно собственно языковую, дидактическую, методическую и психологическую стороны педагогического процесса. К наиболее удобной для преподавателей и популяризованной интегрированной форме относятся упражнения, изложения, работы по картине и диктанты. Предлагаемые далее методические разработки непосредственно предназначены для азербайджаноязычных студентов-экономистов.

Методические указания к уроку 1.

Тема занятия: Начальные сведения о фонетике русского языка: звуки речи, буквы, алфавит, графика, ударение.

Информация. Основные законы фонетики русского языка и отличия от фонетического состава звуков и букв в азербайджанском языке. Специфические буквы в азербайджанском языке.

Текст. Фонетику обычно определяют как науку о звуках речи. Такое понимание предмета фонетики подсказывается, пожалуй, только этимологией слова (от греч. phone – звук). Действительно, учение о всей звуковой системе языка занимает центральное место, но с классификацией звуков, их сочетательных возможностей и фонетических чередований связаны и некоторые другие (сопутствующие) явления в фонетике, такие как ударение, интонация, слог и ряд других вопросов.

Студенту разъясняется, что звучащую речь на письме передают буквы. Буквы – это графические знаки письма, служащие для обозначения звуков речи. За настоящим разъяснением следует несколько упражнений, типа:

- Укажите, в каком слове букв больше, чем звуков (звуков больше, чем букв). Инвариант: Количество букв и звуков совпадает:

Например: A) Академия, аллея; B) Лелеял, корыстный; C) Обольюсь, юркий; D) Тянуть, время; E) Жужжание, агрессия. Правильный ответ – E.

Методические указания к уроку № 2.

1. В каких словах ударение падает на третий слог?

A) Кабинет; Б) аналог; C) паралич; D) каталог; E) лексикон; F) фарватер.

Ответ: A, C, Д. F.

2. Выписать изначально те пары слов, которые имеют смыслоразличительную функцию; затем – форморазличительную функцию:

Полки – полки; дела – дела; ноги – ноги; купите – купите; уже – уже; узнаю – узнаю; мука – мука; рассыпать – рассыпать; кружки – кружки; стены – стены; замок – замок; гвоздики – гвоздики; избы – избы; дорога – дорога; окна – окна и т.д.

3. Расставьте правильно ударение в следующих словах, взятых из «Экономического справочника»: адаптация; агропромышленный; торги; издержки предельные; инфляция; производственные возможности; налоговая декларация и т.д.

Методические указания к уроку № 3.

Тема занятия: Ввод и закрепление русских лексико-грамматических конструкций: кто/что. (Это кто? Это что?). Первоначальные сведения: Вопросы к одушевлённым и неодушевлённым предметам. И далее задаются аналогичные вопросы по всем косвенным падежам. (По необходимости педагог может дать перевод отдельных лексем на азербайджанский язык).

Задание № 1: Запишите с переводом на азербайджанский язык следующие экономические термины. (Значение трудных и незнакомых слов проверьте по словарю). Если аудитория соответствующим образом технически оборудована, то преподаватель-методист может список диктуемых слов выписывать не только на доске, но и проецировать на видеоэкран, а также выстраивать в форме таблицы: агент, адаптация, классификация, расчёт, сальдо, торговля, акцепт, вексель, валютный курс, монополия, простой, коммерция, соглашение, тариф, марка, дамно, девальвация, инфляция, дедукция, декларация, депозит, денежное покрытие.

Литература

1. Адабаев Х.М. Художественный текст как средство обучения русскому языку в национальной (узбекской) школе. М., 1998.

2. Азимова А., Алиев Дж. и другие. Русский язык. Учебное пособие для технических вузов. Баку: Маариф, 1984, 304 с. (Предназначено Министерством образования Азербайджанской Республики для студентов-азербайджанцев).

3. Анализ художественного текста: Сборник статей / гл. ред. Н.М. Шанский. М.: Педагогика. Вып. 1. 1975.

4. Ахманова О.С. Словарь лингвистических терминов. М.: Советская энциклопедия, 1966, 606 с.

5. Байрамова А.А. Интеграция как важное условие обучения практическому русскому языку в вузе. Методические рекомендации. Баку: БГУ, 2012, 64 с.

6. Безрукова В.С. В поисках перспективы // Педагогика, 1996, № 9, с. 68-72.

7. Барышникова Е.Н. Особенности использования художественного текста в преподавании русского языка иностранным студентам-психологам // Теория и практика преподавания РКИ: достижения, проблемы и перспективы развития: материалы международной научно-методической конференции. 12-13 мая 2006 г., Минск, изд. Центр БГУ, 2006.

8. Блаус М. Эконмическая мысль в ретроспективе. М.: Наука 1994.

9. Борисов Е.Ф. Эконмическая теория. М.: Знание, 1996.

10. Брагина Н., Доброхотова Т. Функциональные ассиметрии человека. М.: Наука, 1988, 116 с.

11. Василевский А.И. Экономика. Школьный справочник. Ярославль: Академия развития, 1997, 255 с.

12. Верещагин Е.М., Костомаров В.Г. Язык и культура. М.: Русский язык, 1983, 269 с.

A.Əmirova, Z.Hüseynova

İqtisadyönümlü ali təhsil müəssələrində rus dilinin tədrisində inteqrasiya

Xülasə

Təqdim olunan məqalə çox maraqlı və aktual bir problemə həsr olunmuşdur. Fəndaxili inteqrasiya eyni fənn daxilində yeni mövzunun əvvəl keçilmiş mövzularla əlaqələndirilməsidir. Bu inteqrasiya həm hal-hazırda keçilən, həm də əvvəlki illərdə öyrənilmiş mövzular üzrə ola bilər. Mövzulararası inteqrasiya tələbələrə fənnə dair əvvəlki biliklərini təkrarlamaq və yeni öyrənilən biliklə əlaqələndirmək, eyni zamanda, gələcəkdə öyrəniləcək mövzularla əlaqədar yaradıcı təfəkkürü inkişaf etdirmək imkanı verir. Bu baxımdan ali məktəblərdə rus dili fənninin tədrisində də inteqrativlik dərsin əsas komponentlərindən biri kimi daim diqqət mərkəzində durur. Rus dili dərslərini fəndaxili inteqrasiyasız təsəvvür etmək mümkün deyil.

A.Amirova, Z.Huseynova

Integration during the Russian language teaching process at Economic `University

Summary

The presented article is devoted to a very interesting and urgent problem. Intra-disciplinary integration is the link between the new topic and the previous topics in the same subject. This integration can be on topics that are currently being studied or studied in previous years. Interdisciplinary integration allows students to repeat their previous knowledge of the subject and to link them with new knowledge, and also to develop creative thinking about future topics. From this point of view, integration in the teaching of the Russian language in higher schools is always a focus of attention as one of the main components of the lesson. It is impossible to imagine Russian lessons without intensive integration.

Rəyçi: dos. G.Rzayeva

Redaksiyaya daxil olub: 08.11.2019

И.Э.ГАСАНОВА
доцент

Бакинский славянский университет
(г. Баку, ул. С.Рустама, 25)

РОЛЬ ИНТЕРАКТИВНОГО ОБУЧЕНИЯ В АЗЕРБАЙДЖАНСКОЙ АУДИТОРИИ

Ключевые слова: *интерактивное обучение, методические инновации, продуктивная работа, ролевые игры*
Açar sözlər: *interaktiv təlim, metodoloji yeniliklər, məhsuldar iş, rollu oyunlar*
Key words: *interactive education, methodological innovations, productive work role-playing games*

Многие основные методические инновации связаны сегодня с применением интерактивных методов обучения. Слово «интерактив» пришло к нам из английского от слова «interact». «Inter» – это «взаимный», «act» – действовать. Интерактивный – означает способность взаимодействовать или находится в режиме беседы, диалога с чем-либо (компьютером) или кем-либо (человеком). Следовательно, интерактивное обучение – это, прежде всего, диалоговое обучение, в ходе которого осуществляется взаимодействие преподавателя с обучающимся.

Суть интерактивного обучения состоит в том, что учебный процесс организован таким образом, что практически все обучающиеся оказываются вовлеченными в процесс познания, они имеют возможность понимать и рефлектировать по поводу того, что они знают и думают. Совместная деятельность в процессе познания, освоения учебного материала означает, что каждый вносит свой особый индивидуальный вклад, идет обмен знаниями, идеями, способами деятельности. Причем, происходит это в атмосфере доброжелательности и взаимной поддержки, что позволяет не только получать новое знание, но и развивает саму познавательную деятельность, переводит ее на более высокие формы кооперации и сотрудничества.

Каковы основные характеристики «интерактива»? Следует признать, что интерактивное обучение – это специальная форма организации познавательной деятельности. Она имеет в виду вполне конкретные и прогнозируемые цели. Одна из таких целей состоит в создании комфортных условий обучения, таких, при которых обучающийся чувствует свою успешность, свою интеллектуальную состоятельность, что делает продуктивным сам процесс обучения.

Что представляют собой формы интерактивного обучения? В настоящее время методистами и преподавателями-практиками разработано немало форм групповой работы для обучения иноязыку. Наиболее известные из них – «большой круг», «вертушка», «аквариум», «мозговой штурм», «дебаты». Эти формы эффективны в том случае, если на занятии обсуждается какая-либо проблема в целом, о которой у обучающихся имеются первоначальные представления, полученные ранее на занятиях или в житейском опыте. В частности, это касается уровня речевой подготовки обучающихся. Если речь идет о преподавании иноязыка (русского) в азербайджанской аудитории, то следует, давая задания, снабдить участников интерактивной игры опорными словами. Их можно высветить на интерактивной доске или раздать «рабочим группам» на листочках. Кроме того, обсуждаемые темы не должны быть закрытыми или очень узкими. Важно, чтобы уровень обсуждаемой проблемы позволял перейти от узких вопросов к широкой постановке проблемы.

Активные методы предполагают стимулирование познавательной деятельности и самостоятельности обучающих. Эта модель видит общение в системе «студент-преподаватель», наличие творческих заданий как обязательное. Интерактивная модель своей целью ставит организацию комфортных условий обучения, при которых все студенты активно взаимодействуют между собой.

Технологии, которые позволяют осваивать учебный материал (порой очень скучный), и включать в учебный процесс мотивационную сферу обучающихся, проще говоря, студентам на занятиях становится просто интересно. Интерактивную работу можно применять и на уроках усвоения материала (после изложения нового материала), и на уроках по применению знаний, на специальных уроках, а также делать её вместо опроса или обобщения.

Интерактивная деятельность на уроках предполагает организацию и развитие диалогового общения, которое ведет к взаимопониманию, взаимодействию, к совместному решению общих, но значимых для каждого участника задач. Интерактив исключает доминирование как одного выступающего, так и одного мнения над другим. В ходе диалогового обучения обучающиеся учатся критически мыслить, решать сложные проблемы на основе анализа обстоятельств и соответствующей информации, взвешивать альтернативные мнения, принимать продуманные решения, участвовать в дискуссиях, общаться с другими людьми. Для этого организуются индивидуальная, парная и групповая работа, применяются исследовательские проекты, ролевые игры, идет работа с текстами и различными источниками информации, используются творческие работы.

Наиболее простая форма группового взаимодействия – «большой круг». Работа проходит в три этапа.

Первый этап. Группа рассаживается на стульях в большом кругу. Преподаватель формулирует проблему.

Второй этап. В течение определенного времени (примерно 10 минут) каждый студент индивидуально, на своем листе записывает предлагаемые меры для решения проблемы.

Третий этап. По кругу каждый студент зачитывает свои предложения, группа молча выслушивает (не критикует) и проводит голосование по каждому пункту – не включать ли его в общее решение, которое по мере разговора фиксируется на доске.

Прием «большого круга» оптимально применять в тех случаях, когда возможно быстро определить пути решения вопроса или составляющие этого решения. Например, игру «большой круг» можно использовать при решении тех или иных лексико-грамматических задач (на этапе закрепления пройденного) или при выборе и обосновании выбора ответов на предлагаемые тесты. С помощью данной формы можно, например, разрабатывать законопроекты или инструкции, локальные нормативно-правовые акты.

«Аквариум» – форма диалога, когда предлагаются обсудить проблему «перед лицом общественности». Малая группа выбирает того, кому она может доверить вести тот или иной диалог по проблеме. Иногда это могут быть несколько желающих. Все остальные студенты выступают в роли зрителей. Отсюда и название – аквариум. «Аквариум» удобен при решении методических задач, например, при выборе метода подачи нового материала или составления «вводного слова» к беседе об авторе читаемого текста.

Что дает этот прием? Возможность увидеть своих сверстников со стороны, то есть увидеть: как они общаются; как реагируют на чужую мысль; как улаживают назревающий конфликт; как аргументируют свою мысль и так далее.

Как же на практике осуществлять интерактивное общение? Заметим, что важнейшее условие для этого — личный опыт участия в тренинговых занятиях по интерак-

тиву. Другими словами, освоение преподавателем активных методов и приемов обучения просто невозможно без непосредственного включения в те или иные формы. Можно прочитать горы литературы об активных методах обучения, но научиться им можно только путем личного участия в игре, мозговом штурме или дискуссии. Тем педагогам, кто решился работать в интерактивной технологии, следует помнить о некоторых правилах организации интерактивного обучения.

Правило первое. В работу должны быть вовлечены в той или иной мере все участники. С этой целью полезно использовать технологии, позволяющие включить всех участников семинара в процесс обсуждения.

Правило второе. Надо позаботиться о психологической подготовке участников. Речь идет о том, что не все, пришедшие на урок, психологически готовы к непосредственному включению в те или иные формы работы. Сказывается известная закрепощенность, скованность, традиционность поведения. В этой связи полезны разминки, постоянное поощрение студентов за активное участие в работе, предоставление возможности для самореализации.

Правило третье. Обучающихся в технологии интерактива не должно быть много. Количество участников и качество обучения могут оказаться в прямой зависимости. Только при этом условии возможна продуктивная работа в малых группах. Ведь важно, чтобы каждый был услышан, каждой группе предоставлена возможность выступить по проблеме.

Правило четвертое. Отнестись со вниманием к подготовке помещения для работы. Аудитория должна быть подготовлена с таким расчетом, чтобы участникам было легко пересаживаться для работы в больших и малых группах. Другими словами для студентов должен быть создан комфорт. Столы лучше поставить «елочкой», чтобы каждый сидел вполоборота к ведущему занятие и имел возможность общаться в малой группе. Хорошо, если заранее будут подготовлены материалы, необходимые для творческой работы.

Правило пятое. Следует, со вниманием отнеситесь к вопросам процедуры и регламента. Об этом надо договориться в самом начале и постараться не нарушать его. Например, полезно договориться о том, что все участники будут проявлять терпимость к любой точке зрения, уважать право каждого на свободу слова.

Правило шестое. Отнеситесь со вниманием к делению группы участников игры, лучше построить на основе добровольности. Затем уместно воспользоваться принципом случайного выбора.

Ещё одним вариантом обучения, который используется для развития умения общаться в группе, умения убеждать и вести дискуссию, является метод «два – четыре – все вместе». Он заключается в том, что обучающимся даётся гипотетическая ситуация и 1-2 минуты для обдумывания индивидуального ответа или решения. Затем участники объединяются в пары и проводят обсуждение своих идей друг с другом. Далее происходит высказывание каждого в паре и общее обсуждение. Обязательным является то, что пары должны прийти к консенсусу в отношении ответа. Затем преподаватель объединяет пары в четвёрки по своему усмотрению и происходит дальнейший поиск ответа, только теперь к общему решению должна прийти вся четвёрка. Таким образом, можно плавно перейти к коллективному обсуждению вопроса. В этой работе все работают, обсуждая и заодно активно усваивая материал.

Каждая группа должна получить одно конкретное задание и чёткие инструкции по его выполнению. Так, можно задать какую-нибудь ситуацию, в которой требуется найти оптимальное решение или дать характеристику действующему персонажу из прочитанного текста. Если какая-та из групп справилась с заданием раньше остальных, то нужно занять эту группу ещё чем-то. Обязательным является награда за групповое

усилие, чтобы закрепить этот метод работы. Преподаватель должен быть готов к шуму, который возникает при такой работе. При этом он должен помогать в организации работы групп, не привлекая на себя особого внимания.

При подведении итогов работы обучающимся предлагают результаты работы. Работа групп комментируется с точки зрения учебных задач. Задаётся вопрос, была ли полезна для обучающихся эта работа, и чему они научились.

В заключение отметим, что интерактивное обучение позволяет решать одновременно несколько задач. Главное – оно развивает коммуникативные умения и навыки, помогает установлению эмоциональных контактов между обучающимися, обеспечивает воспитательные и образовательные по россиеведению задачи, поскольку приучает работать в команде, прислушиваться к мнению своих товарищей, снимает нервную нагрузку, дает возможность менять формы учебной деятельности.

Литература

1. Инновационные процессы в школе: организация и управление. Владимир, 1995. 69 с.
2. Коростылева Л. А., Советова О. С. Психологические барьеры и готовность к нововведениям. СПб., 1996. 66 с.
3. Русский язык как иностранный. Методика обучения русскому языку. Под ред. Редакцией И.П.Лысаковой. М., Владос. 2004.
4. А.Н.Щукин. Методика преподавания русского языка как иностранного. М., Высшая школа. 2003.

İ.Ə.Həsənova

Azərbaycan auditoriyasında interaktiv təlimin rolu

Xülasə

Məqalədə rus dilinin xarici dil kimi tədrisi zamanı interaktiv təlimin əsas prinsiplərinin ümumi xarakteristikası təqdim edilmişdir, müasir təhsil sistemində onların rolu göstərilmişdir.

İnteraktiv təhsil eyni zamanda bir neçə məsələnin həllinə imkan verir. Başlıcası, o kommunikativ vərdiş və bacarıqları inkşaf etdirir, təhsil alanlar arasında emosional kontaktların müəyyən edilməsinə kömək edir, tərbiyəvi vəzifəni təmin edir, komandada işləməyə, yoldaşların fikirlərinə qulaq asmağa alışdırır, əsəb gərginliyini aradan qaldırır, dərs fəaliyyətinin formasını dəyişməyə imkan verir.

I.A.Hasanova

Role of interactive education in Azerbaijani audience

Summary

The article presents a general description of the basic principles of interactive education, their role in modern education is indicated.

Interactive education simultaneously creates an opportunity for the solution of some issues. Basically - it develops the communicative habits and abilities, helps in defining of emotional contacts among the people studying, provides the educative duty, besides**,** inure them to the team work, to the following the opinions of his fellows**,** eliminate the nervous tension, creates an opportunity to change the form of class activity.

Рецензент: доц. С.Б.Багирова

Redaksiyaya daxil olub: 04.11.2019

K.M.AĞAYEV
e-mail: aghayevkamran97@gmail.com

Azərbaycan Dillər Universiteti
(Bakı şəh., R.Behbudov küç., 60)

NORVEÇDƏ FYORDLAR VƏ QIŞ İDMAN NÖVLƏRİNİN TURİZMİN İNKİŞAFINDA ROLU

Açar sözlər: *fyordlar ölkəsi, turizm rayonu, dağ-xizək kurortu, turizm marşrutu, dağ-xizək idmanı*
Ключевые слова: *страна фьордов, туристский район, горно-лыжный курорт, туристский маршрут, горно-лыжный спорт*
Key words: *country of fjords, tourism region, ski resort, tourism route, mountain skiing*

Norveç dövlət quruluşuna görə konstitusiyalı monarxiya olmaqla, inzibati ərazi bölgüsünə görə 19 əyaləti özündə birləşdirir. Norveçin paytaxtı olan Oslo şəhəri ölkənin cənubunda yerləşir. Norveç qədim Vikinqlər ölkəsidir, lakin 14-cü əsrdən etibarən Danimarka və İsveçdən asılı bir dövlət idi və 1905-ci ildən isə müstəqil bir ölkədir. Ölkənin böyük bir hissəsini Skandinaviya dağları tutur. Norveçin mülayim okean iqlimi, şimal mövqeyinə baxmayaraq, ölkənin sahillərindən axan isti Qolfstrim cərəyanı ilə əlaqədardır. Norveç sahillərində Şimal dənizinin şelfində tapılan neft və qaz onsuz da çiçəklənən bir ölkənin milli sərvətini artırır. Norveç balıq və dəniz məhsulları ixrac edən əsas dövlətlərdən biridir.

Norveç, sahilləri çox girintili-çıxıntılı olan ölkələrdən biridir. Bir çox bölgələrdə əzəmətli sıldırım qayalar sahil boyu şaquli divarlar kimi uzanır və ya dərin oyuqlar yaradaraq, sanki dəniz üzərində asılı vəziyyətdə qalırlar. Bu oyuqlar sahil dağlarının qayalara çırpılması nəticəsində yaranır. Bu cür qayalıq sahillərin önündən yalnız kiçik gəmilər və qayıqlar keçə bilir (1, s.177).

Norveçin əsas turizm yerlərinə Vigellan heykəltəraşlıq parkı, Holmenkoln tramplini, Vikinq gəmiləri muzeyi, Kontika muzeyi və s. aiddir. Oslo ilə yanaşı, Norveçin iki əsas turizm rayonu fərqlənir: ölkənin cənub və mərkəzi hissələrini tutan "Fyordlar ölkəsi" və Şimali Norveç.

"Fyordlar ölkəsinə" bir neçə bölgə daxildir: Rogoland, Hordoland, Sognefyord, More og Romsdal. Rogoland "Fyordlar ölkəsinin" ən cənub bölgəsidir. Burada Stavanger və Haugesund şəhərləri yerləşir. Stavanger, bu bölgədəki ən böyük şəhər olmaqla, eyni zamanda bütün Norveçdə dördüncü böyük şəhərdir. Burada antik dövrün bənzərsiz izləri qorunur. Şəhərin dar küçələrində bir çox kafe, restoran, mağaza və muzey yerləşir. Əvvəlcə Stavanger, Norveçin bir çox şəhəri kimi, balıq ticarəti hesabına inkişaf etdi. Şimal dənizinin şelfində neft yataqları aşkar edildikdən sonra isə burada neft şirkətlərinin qərargahları yarandı. Haugesund festivallar, açıq havada tarix muzeyi ilə məşhur olmaqla, şəhərin yaxınlığında şəlalə yerləşir.

Hordoland bölgəsinin mərkəzi Bergen şəhəridir. Sognefyord bölgəsi, Norveçin ən uzun fyorduna sahibdir, buna Sognefyord deyilir. Bu, dünyanın ən dərin fyordudur, dərinliyi 1300 m olmaqla, ətrafındakı dağların hündürlüyündən bir neçə metr azdır. More og Romsdal bölgəsi "Fyordlar ölkəsinin" ən şimal bölgəsidir. Bu ərazinin mərkəzi Alesund şəhəridir. Çoxlu sayda orta əsr türbələri, romantik fasadlar və binaların hörükləri Alesundun spesifik xüsusiyyətlərinə çevrildi. Bu, Norveçin balıqçılıq sənayesinin ən vacib mərkəzlərindən biridir. Şimali

Norveçin mərkəzi şəhəri Bode şəhəridir. Bu bölgənin içərisində "Lofoten Divarı" adlandırılan Lofoten adaları yerləşir. Bu adalar yüksək dağları, gözəl körfəzləri və yabanı sahil mənzərələri ilə məşhurdur.

Norveç fyordlarında istirahət və gəzintilər son zamanlar turistlər arasında ən məşhur və dəbli istirahət növlərindən biri olmuşdur. Norveç fyordları Atlantik okeanının dərin su körfəzləri olmaqla, zirvələri buzlaqlar və sürətli şəlalələrlə örtülmüş dik qayalarla yüksək dağlar arasında quru ilə çarpışır. Fyordlar buzlaqların sayəsində əmələ gəlmiş və bir çox buzlaşma dövründə möhkəm qayaların daxilinə nüfuz etmişdir.

Bu yaxınlarda turizm sahəsində aparıcı mütəxəssislər dünyanın ən məşhur yerini müəyyənləşdirmək üçün müsabiqə təşkil etdilər. Bu yarışmanı ən böyük beynəlxalq turizm jurnalı "National Geographic Traveler" keçirdi. Norveç fyordlarının rəqibləri arasında bütün dünyada misilsiz gözəlliyi ilə tanınan 115 başqa yer də var idi. Buna baxmayaraq, Norveç fyordları yarışın qalibi oldu.

Norveçin əsas cazibəsini - fyordları araşdırmaq üçün turistlər Bergen şəhərinə gedirlər. Bergen miniatürdə Norveç olmaqla, bütünlükdə ölkənin tarixi və mənzərəli fyordlar krallığının paytaxtıdır. Bergendə turistlər YUNESKO-nun Dünya İrsi Siyahısında daxil edilən Hanza sahillərini, Norveç Krallığının ilk paytaxtı olan Bergenhusun gözəl qədim qalasını, məşhur Norveç bəstəkarı Edvard Qriqin iqamətgahı – Holm Trollu görə bilərlər. 1909-cu ildə Oslo və Bergeni birləşdirən Bergen dəmiryolu xətti istifadəyə verildi. Sognefyorda nəqliyyat yolunu təmin etmək üçün 1923-cü ildə Floma paralel bir marşrutun inşaasına başlanıldı və 1944-cü ildə istifadəyə verildi. Dəmiryolu xətti təxminən 1 saat ərzində Flom və Mürdal arasındakı ümumi uzunluğu 6 km olan 20 tunel də daxil olmaqla, 20 kilometrlik bir hissədən keçir. Turistlər heyrətamiz təbiətə heyran qalırlar: çayın ətrafı, dərin dərələr, şəlalələr, dik dağ yamaclarının qarla örtülü zirvələri, dağ fermaları və s.

Turistlər arasında digər məşhur bir tur Şimali Norveç və Murmansk bölgəsinədir: Murmansk - Tromse - Bode - Lofoten adaları - Tromse - Nordkap - Kirkines - Murmansk. Bu tur Şimali Norveç sahillərindən, Bodedən Kirkinesə qədər bir dəniz marşrutunu əhatə edir (2, s.59).

Norveç, vətəndaşlarının xüsusilə qış idman növlərinə həvəsləri ilə tanınan bir ölkədir. Həqiqətən, Norveç xalqı hobbi kimi bir və ya iki qış idmanı olmadan yaşaya bilməz. Beləliklə, qış idman növlərini həyata keçirmək məqsədi ilə qışda Norveçə səyahət etmək turistlər üçün həmişə cazibədar bir seçimdir.

Norveç xalqı idmanı sevən bir xalqdır. Təbii ki, qış idman növləri üstünlük təşkil edir və bir sıra fərqli idman növləri üzrə çoxlu sayda məşhur Norveç idmançısı vardır. Norveçli futbolçular da dünya futboluna əhəmiyyətli dərəcədə təsir göstərmişlər. İdmanla maraqlanan hər kəs, izləyən və ya iştirak edən birisi üçün Norveçə səfər edərkən bəzi böyük idman yerlərini görmək və bir sıra qış idman növlərində iştirak etmək üçün sonsuz imkanlar vardır.

Norveç xizək idman növünün vətənidir. Buradakı qış kurortları demək olar ki, Avropanın əsas xizək mərkəzləri ilə eyni zamanda inkişaf etməyə başladı. Bir çox cəhətdən bu inkişaf Norveçdə qış mövsümünün bütün qitədə ən uzun olması ilə asanlaşdırıldı. Yaylo ən məşhur Norveç dağ-xizək kurortudur. Burada beynəlxalq slalom və kros-xizək yarışları keçirilir. Kurort qış idman növləri üçün bir əsrdən çox ənənəyə malik yaxşı inkişaf etmiş bir bazaya malikdir. Norveçdə ilk xizək yarışları 1935-ci ildə keçirildiyi üçün Yaylo tez-tez "Alpinizm qəsəbəsi" adlandırılır. Buradakı qar örtüyü demək olar ki, bütün ilboyu qalır.

Norveçdə dağ-xizək infrastrukturunun müasir vəziyyəti aşağıdakı kimidir: trassın uzunluğu 77 km, qaldırıcıların sayı 57 vahid, qaldırıcıların buraxma qabiliyyəti 59,5 min nəfər/saat, hər 1000 km^2-ə daşən qaldırıcıların sayı 0,2, hər 10 min nəfərə düşən qaldırıcıların sayı 0,1 təşkil edir (3, səh. 546).

Kros xizək yarışları. Kros xizək sürmə ölkədəki ən məşhur əyləncələrdən biri olmaqla, Norveç Avropa turistlərinin bu idman növü ilə məşğul olması və həzz alması üçün ən yaxşı yerlərdən biridir. Kros xizək yeri ölkənin bütün ərazisini əhatə edir və dünyanın heç bir yerin-

də Norveçdəki Gudbrandsdalen vadisində olduğu kimi möhtəşəm və ekstremal yerlər mövcud deyildir. Landşaft geniş olmaqla daim dəyişir, zərif temp isə turistlərə möhtəşəm mənzərələrdən ləzzət almağa imkan verir.

Miyesa gölünün sahilində yerləşən kiçik Lillehamer şəhəri də məşhurdur. 1994-cü ildə Qış Olimpiya oyunları burada keçirildi. Bura qış idman növlərinin hamısını yaşamaq üçün gözəl bir yerdir. Yaxınlıqda Nordseter və Sjusjøen ərazilərində uzunluğu 350 km olan və Avropadakı ən yaxşı kros-xizək yolları, eləcə də məşhur bir xizək mərkəzi olan Hafyel şəhəri yerləşir. Hafyel 1994-cü ildə Olimpiya slalom yarışlarının keçirildiyi məkan olmaqla, Lillehamerdən 15 km məsafədə yerləşir. Kvitfyel dağ-xizək kurortunun adının mənası "Ağ dağ" deməkdir. Norveç elitasının sevimli istirahət yeri olan Kvitfyeldə hər il Dünya Kubokunun slalom və biatlon yarışlarının mərhələləri keçirilir. Hausdal, Hala, Hemsedal kurortları da ölkədə məşhurdur. Lillehamerdə, həmçinin şəhərin 19-cu əsrdə hazırlanmış taxta evlərini, diqqətlə qorunub saxlanılan mükəmməl Norveç Olimpiya Muzeyini də ziyarət etməyə dəyər.

Dağ xizəkçiliyi. Kros xizək sürmə Norveçdə ən məşhur idman növü olmağa çalışsa da, ümumiyyətlə bir çox ölkələrdə ondan daha məşhur olan dağ xizəkçiliyi bir az geridə qalır. Qeyd edək ki, Norveç həqiqətən dağ-xizək idmanı üçün ən yaxşı obyektlərə və kurortlara sahibdir. Avropada dağ xizəkçiliyinə hara getmək barədə turistlər arasında ən yaxşı seçimlərdən biri Norveç hesab olunur.

Xizəklə tullanma. Xizəklə tullanma bu siyahıdakı xizəklə bağlı olan digər idman növüdür. Məşhur Holmenkollbakken, yəni Oslonun daxilindəki bir kurort olan Holmenkollendə xizək sürmə Norveçdə bu idman növünün parlaq bir simvoludur. Məşhur Holmenkollen xizəklə tullanma ərazisi 19 dəfə yenidən qurulmuş və onun arenası 70 minə qədər tamaşaçı qəbul edə bilir. Bundan başqa, Holmenkollen xizəklə tullanma ərazisi, dünyada ilk və ən qədim xizəklə tullanma yeri olmaqla, 1892-ci ildə qurulmuşdur. Turistlər Oslonun möhtəşəm mənzərələrinin olduğu qüllənin zirvəsinə qalxmaq və ya 4000 illik xizək sürmə tarixini işıqlandıran muzeyi ziyarət edə bilərlər. Norveçdəki digər məşhur yüksək xizəklə tullanma məkanlarına Vikersund (ən yüksək), Lillehammer, Notodden, Rena və Trondheimi misal göstərmək olar.

Biatlon. Kros xizək idmanının bir uzantısı da Biatlondur (bəzən xizək atma adı ilə tanınır). Bura xizək sürmə kursunu izləyən və dörd dəst atış üçün uzanan və dayanan rəqiblər daxildir. Bu, Norveçdə son dərəcə yaxından izlənilən, bir sıra yüksək səviyyəli tədbirlər və çempionatlar olan bir idman növüdür.

Son illərdə daha çox idmançı və adi norveçli arasında Norveç televiziyasında məşhurlaşan biatlon üçün məşq etmək tendensiyası yaranmışdır. Bunun bir neçə səbəbi vardır. İlk öncə, Norveç idmançıları xizək sürməyi yaxşı bacarırlar. İkincisi, əslində iki idman növünü – dağ-xizək idmanı və atıcılığı birləşdirən bir idman növüdür. Norveçlilərin isə dağ xizəkçiliyində uduzması ehtimalı azdır. Bir çox Norveç ailəsi biatlonu televiziyada izləməyi sevsə də, turistlər arasında bu idman növünə maraq artmışdır.

Snoubord. Gənc norveçlilərin diqqətini özündə cəmləşdirən və məşhurluq baxımından xizək sürməklə də yarışa biləcək idman növüdür. Yenə də gələcək illərdə bu idman növünün daha da məşhurlaşacağı gözlənilir. Bundan əlavə, snoubordçular üçün çoxlu sayda şərait vardır.

Buz xokkeyi. Buz xokkeyinin də ölkədə böyük izləri vardır. Norveç milli komandası 2012-ci ildə dünyada buz xokkeyində 8-ci yerə çıxdış. Norveç Buz Hokkey Liqasında dörd bölmə olmaqla, əksər böyük şəhərlərdə bir komanda vardır. Komandaların əksəriyyəti Osloda yerləşsə də, ölkənin ən böyük stadionu Hamardadır.

İt xizəkləri. İt xizəkləri Norveçdə ən məşhur qış fəaliyyət növlərindən biridir. Turistlər həqiqətən də itlərin daşıdığı xizəklərdə əylənməyi çox sevirlər. Norveçdə it xizəkləri üçün ən məşhur yerlərə Trondheim, Lofoten, Alta və Tromsø daxildir.

Qar motosikləri. Qışda turistlərin daha bir əyləncəsi isə qar motosikləri sürməkdir. İlk qar avtomobillərinin XX əsrin əvvəllərində ortaya çıxmasına baxmayaraq, bu fəaliyyət yalnız XX əsrin 80-ci illərindən bəri məşhurluq qazandı.

Şimal maralı xizəkləri. Sami xalqının original "nəqliyyat vasitəsi" olan şimal maralları ilə səyahət etmək turistlər üçün daim maraqla qarşılanmışdır. Bundan əlavə, Sami xalqına xas olan adətləri öyrənmək, eyni zamanda onlarla nahar etmək turistlər üçün əvəzolunmazdır.

Ədəbiyyat

1. Məmmədov C.A., Soltanova H.B., Rəhimov S.H. Beynəlxalq turizmin coğrafiyası. Bakı, 2002
2. Воскресенский В.Ю. Международный туризм. Москва, 2005
3. География туризма. Под редакцией А.Ю.Александровой. Москва, 2013
4. Организация туризма. Под редакцией А.П.Дуровича. Минск, 2006
5. https://www.nordivatours.com
6. http://www.gonorway.no

K.M.Агаев

Роль фьордов и зимних видов спорта в развитии туризма в Норвегии

Резюме

Статья посвящена роли фьордов и зимних видов спорта в развитии туризма в Норвегии. В статье, из 2 основных туристских районов Норвегии, показано преимущество одного из них – «страна фьордов», и дана оценка туристической возможности каждой территории в отдельности внутри района. Учитывая интересы граждан страны к зимним видам спорта, изучено значение основных зимних видов спорта с точки зрения туристического развития.

K.M.Agayev

Role of fjords and winter sports in the development of tourism in Norway

Summary

The article is devoted to the role of fjords and winter sports in the development of tourism in Norway. The article outlines the tourism advantages of one of two major tourism districts of Norway, "Country of fjords" and evaluated the tourism potential of each of the districts within the country. The importance of major winter sports in terms of tourism development has been explored, given the interest of the citizens of country to winter sports.

Rəyçi: c.f.d., dos. G.R.Ağakişiyeva

Redaksiyaya daxil olub: 16.10.2019

M.Ə.ƏSGƏROVA
e-mail: matanat@mail.ru

A.Ə.KƏRİMOVA

Azərbaycan Dillər Universiteti
(Bakı şəh., R.Behbudov küç., 60)

GENETİK MODİFİKASİYA EDİLMİŞ ORQANİZMLƏR VƏ ƏRZAQ TƏHLÜKƏSİZLİYİ

***Açar sözlər**: gen mühəndisliyi, biotexnologiya, modifikasiya*
***Ключевые слова**: генная инженерия, биотехнология, модификация*
***Key words**: genetic engineering, biotechnology, modification*

Ərzaq təhlükəsizliyi insanın yaşamaq hüququnun zəruri təminatlarından biri və böyük dəyərə malik siyasi amildir. Hər bir insanın sağlamlıq üçün təhlükəsiz və tamdəyərli qida məhsulları əldə etməyinin bütün dövlətlər tərəfindən təmin olunması vəzifəsi "Ümumdünya ərzaq təhlükəsizliyi üzrə Roma Bəyannaməsi"ndə göstərilir. Ərzaq təhlükəsizliyi dövlətin aqrar və iqtisadi siyasətinin əsas məqsədlərindən biridir. Ərzaq təhlükəsizliyinin strateji tərkib hissələrindən biri olan qidanın təhlükəsizliyi və keyfiyyəti ölkə əhalisinin yaşayışı, firavanlığı və yaşam keyfiyyətinin ayrılmaz hissəsidir. Texnoloji şəraitin daim dəyişməsi və inkişaf etməsi ilə əlaqədar yeni qida məhsullarının, dietik tərkiblərin və yeyinti əlavələrinin meydana gəlməsi, pestisidlər və baytarlıq preparatlarının qalıqlarının yığılmasının şahidi oluruq. Son zamanlar qida məhsullarının müxtəlif təhlükəsizlik problemlərinin saysız artımı - ərzaqlara allergiya və onlara qarşı həssaslıq, yeyinti mənşəli xəstəliklər, intoksikasiyalar qeyd olunur. İstehlakçılar dövlətdən onu gözləyirlər ki, satışda olan ərzaq məhsulları bütün təhlükəsizlik şərtlərinə cavab versin;ən azından, istehlakçıların bütün ərzaq məhsullarının təhlükəsiz olmasına ümid etmək hüquqları var. Hökumətlər isə öz növbəsində, ən təhlükəsiz ərzaq məhsullarının tədarükünü təmin etməyi qarşılarına məqsəd qoymuş və bu məqsədə nail olmaq üçün sistemlər işləyib hazırlayırlar (4).

Dünya əhalisinin və şəhərləşmənin sürətli şəkildə artması genetik modifikasiya olunmuş orqanizmlərin gündəlik həyatımıza inteqrasiyasını asanlaşdırıb. Günümüzdə kənd təsərrüfatı sahəsində məhsuldarlığın artırılması, istehsal xərclərinin pestisid istifadəsinin azaldılması, qida təkibinin zənginləşdirilməsi və keyfiyyətinin artırılması, xəstəliklərə və ətraf mühitin təsirlərinə qarşı müqavimətin qazanılması məqsədilə yeni genetik tərkibli bitkilər yaradılıb. Ətraf mühitin çirklənməsi, ətraf mühit amillərinin kəskin dəyişməsi, suvarma və meliorasiya işlərinin düzgün aparılmaması və qrunt sularının səviyyəsinin yüksəlməsi nəticəsində əkinə yararlı sahələrin duzlaşması, su çatışmazlığı, quraqlıq, müxtəlif xəstəliklər (virus, bakteriya, fitoplazma, göbələk), ultrabənövşəyi şüalanma və s. təsirlər nəticəsində bitkilərin məhsuldarlığı və keyfiyyəti kəskin aşağı düşür. Yüksək məhsuldarlıqlı bitki sortlarının yaradılması gen mühəndisliyi texnologiyası vasitəsilə mümkündür. Genetik materialı qeyri-təbii yolla dəyişdirilmiş orqanizm Genetik Modifikasiya Olunmuş (GMO) və ya transgen orqanizmlər adlanır. Gen mühəndisliyi texnologiyası fərdi genləri seçib bir orqanizmdən digərinə, hətta qohum olmayan növlər arasında, yəni virus, bakteriya, bitki və heyvan genlərinin bir-birinə köçürülməsinə imkan verir. Beləliklə, gen mühəndisliyi metodları ilə modifikasiya edilmiş bitki, heyvan və mikroorqanizmlər genetik dəyişdirilmiş orqanizmlər adlanır. Qida tələbatını ödəmək üçün onların emal məhsulları transgen qida məhsulları, yaxud genetik dəyişdirilmiş qida mənbələri adlanır. İlk genetik dəyişdirilmiş qida mənbəyi saxlanmağa davamlı olan Flavr Savr pomidor sortudur. Belə GMO orqanizmlər yüksək məhsuldarlığa malikdirlər və məhsulun qiyməti

ucuz olur. Dünya əhalisinin sayının artması və onların qida məhsullarına olan tələbatlarını ödəmək üçün GMO qida məhsullarının istehsalı ön plana keçir. Eyni zamanda bu gün kənd təsərrüfatında quşların və digər heyvanların müxtəlif bitki yemlərinə olan tələbatlarının da ödənilməsi çox vacibdir və bu tələbat bu gün ancaq yüksək məhsuldar GMO bitki məhsulları hesabına ödənilir. Ona görə də dünyada transgen bitkilərin yetişdirilmə sahələri ildən-ilə artır. Qeyd etmək lazımdır ki, bizim respublikamıza qonşu olan İran İslam Respublikasında transgen düyü becərilir və bu dövlətdən ölkəmizə çoxlu sayda kənd təsərrüfatı məhsulları ixrac olunur. Bitkiçiliklə yanaşı, heyvandarlıq sahəsində də bu metodların tətbiqi artmaqdadır. Böyümə prosesi sürətləndirilmiş və ölçüləri böyüdülmüş somon balıqları, dəli dana xəstəliyinə qarşı immuniteti artırılmış mal-qara, omeqa-3 yağ turşusu ilə zənginləşdirilmiş, xolestrol miqdarı dəyişdirilmiş mal-qara və donuz genetik modifikasiya nümunələri olaraq göstərilə bilər (1, s.119). Dərman sənayesi və tibb sahəsində GMO-lar əvəzedilməz rol oynayır. İstər vaksinlərin və farmaseptik proteinlərin istehsalında, istərsə də, xəstəliklərin müalәcəsi üçün aparılan elmi-tədqiqat işlərində gen mühəndisliyi metodlarından geniş istifadə edilir.

Gen mühəndisliyi metodlarının tətbiqinin həm qida, həm də qeyri-ərzaq sektorunda geniş yayılması və gələcəkdə törədə biləcəyi fəsadlar dünya ictimaiyyətində ciddi narahatçılıqlara səbəb olur. Bu genetik dəyişikliklər həm GMO-nun özünə, həm də yaşadığı təbii mühitə, eyni zamanda ondan birbaşa və ya dolayı yolla istifadə edən insanlara öz təsirini göstərə bilər. İnsan saglamlığına mənfi təsir göstərə biləcək ən önəmli risk mənbəyi insanların təbiətdə mövcud olmayan yeni allergenlərə məruz qalması və bağırsaq florasında antibiotiklərə müqavimətli olan yeni bakteriyaların ortya çıxmasıdır. GMO-larda olan pestisid, herbisid və ya antibiotik müqavimət genlərinin təbii orqanizmlərə keçmə ehtimalı nəinki insanlar üçün, eyni zamanda, bütün ekosistem üçün təhlükə yarada bilər. Bu sahədə mövcud olan potensial risk faktorları bir çox ölkələri genetik modifikasiya olunmuş məhsulların istehsalına və idxalına qismən və ya tam məhdudiyyətlərin gətirməsinə vadar edir. Ona görə də Azərbaycana idxal olunan bütün qida məhsullarının tərkibinin yoxlanılması ərzaq təhlükəsizliyi nöqteyi-nəzərindən çox vacibdir. Eyni zamanda, marketlərdə satılan qida məhsullarının qablaşdırılması zamanı məhsulun mənşəyi etiketdə öz əksini tapmalıdır. Artıq xarici ölkələrdə belə etiketləmə qəbul olunmuşdur. Bu, bioetik baxımdan, insanların hüquqlarının qorunması baxımından çox vacibdir. Azərbaycanda bu sahədə əsas sənəd 18 noyabr 1999-cu ildə qəbul edilmiş və 23 noyabr 2001-ci ildə, 3 dekabr 2002-ci ildə, 5 dekabr 2003-cü ildə, 17 aprel 2007-ci ildə, 2008-ci ilin 16 və 30 dekabr tarixlərində dəyişikliklər edilmiş "Yeyinti məhsulları haqqında" Azərbaycan Respublikası Qanunudur. Bu qanuna görə gida məhsullarının təhlükəsizliyinə və qida dəyərliliyinə bir sıra gigiyenik tələblər qoyulur. Qida məhsullarının müxtəlif növləri (uşaq, pəhriz və xüsusi təyinatlı qida məhsulları), bioloji aktiv əlavələr, genetik modifikasiya edilmiş orqanizmlərdən hazırlanmış qida məhsulları və s. üçün aşağıdakılar göstərilməlidir: tətbiq sahəsi (uşaq, pəhriz və xüsusi təyinatlı qida məhsulları, qida əlavələri, bioloji aktiv əlavələr üçün; qida məhsullarının tərkibinə daxil olan inqrediyentlərin, qida əlavələrinin, mikrob kulturaların, maya və qida məhsullarının zənginləşdirilməsi üçün istifadə olunan maddələrin adı genetik modifikasiya edilmiş orqanizmlərdən hazırlanmış qida məhsulları üçün "genetik modifikasiya edilmiş orqanizm" və ya qidanın tərkibində "genetik modifikasiya edilmiş orqanizmdən komponentlər var" məlumatları mütləq göstərilir (2).

Dünyada inkişaf etmiş, inkişafda etməkdə olan və kasıb ölkələrdə belə GMO bitki, heyvan və bakteriya mənşəli məhsulların insan və heyvan orqanizmlərinə (toksiki, allergik, genin köçürülməsi) və biomüxtəlifliyə göstərdiyi mənfi təsirlər üzrə qızğın mübahisələr gedir. Sözsüz, belə bitki məhsulları marketlərə çıxarılmadan öncə hərtərəfli və uzunmüddətli sınaqdan keçirilməli, insan və heyvan orqanizmlərinə göstərdiyi mümkün əlavə təsirlər öyrənilməlidir. Eyni zamanda, bu gün yüksək məhsuldar, ətraf mühitin biotik və abiotik təsirlərinə davamli bitki sortlarının alınması üçün gen mühəndisliyinə alternativ olan başqa metod yoxdur və

klassik genetikanın metodları ilə yüksək məhsuldar sortların yaradılması üzrə olan bütün imkanlar tükənmişdir, əkinçilik üçün yararlı torpaqlar praktik olaraq mənimsənilmişdir (3, s.49).

2017-ci ildə yaradılmış Azərbaycan Qida Təhlükəsizliyi Dövlət Agentliyi məhsulun daşıdığı risk səviyyəsinə uyğun olaraq qida məhsulları istehsalının bütün mərhələlərində dövlət nəzarətinin həyata keçirilməsini təmin edir. Belə ki, agentliyin fəaliyyətinə qida məhsullarının təhlükəsizliyinə dair normativ tənzimləmə - sanitariya norma və qaydaları, habelə gigiyena normativləri hazırlamaq və təsdiqini həyata keçirmək daxil edilib. O cümlədən, qurum ölkədə istehsal edilən, idxal olunan qida məhsullarını, habelə onları qablaşdırma materiallarını qida təhlükəsizliyi baxımından dövlət qeydiyyatına alaraq reyestrini aparır. Qida məhsulları istehlakçılarının hüquqlarının müdafiəsi haqqında qanunvericiliyə riayət edilməsinə dövlət nəzarətini həyata keçirir. Bu arada, agentliyin vəzifələrinə təhlükəli və kütləvi zəhərlənməyə (xəstəliklərə) səbəb olan, ölkədə istehsal edilən və ya ölkəyə idxal edilmiş qida məhsullarını dövriyyədən çıxarmaq, qida təhlükəsizliyi baxımından yaranmış fövqəladə vəziyyətin aradan qaldırılması ilə bağlı aidiyyəti dövlət orqanları ilə birlikdə təxirəsalınmaz tədbirlər görmək daxildir. Agentlik genetik modifikasiya olan qida məhsullarına nəzarət sisteminin təkmilləşdirilməsi ilə bağlı təkliflər hazirlayır.

Ədəbiyyat

1. «Современная биотехнология производства продуктов питания, здоровье и развитие человека: исследование на основе фактов» ВОЗ.

2. Кузнецов В.В., Куликов А.М. Генетически модифицированные организмы и полученные из них продукты: реальные и потенциальные риски. // Российский химический журнал, М., 2009, № 4.

3. Александр Ранчин: «В работах о вреде ГМО» обнаружены множественные ошибки. Институт проблем передачи информации имени А.А Харкевича РАН 20 января 2016.

4. Гузырь В.В., Горюнова Н.Н. Генетическая модификация организмов и продовольственная безопасность в современном мире. // Международный журнал прикладных и фундаментальных исследований, 2015, №6.

М.А.Аскерова, А.А.Керимова

Генетическая модификация организмов и продовольственная безопасность

Резюме

«Продовольственная безопасность существует тогда, когда все люди в любое время имеют физический и экономический доступ к достаточному количеству безопасной и питательной пищи, позволяющей удовлетворять их пищевые потребности и предпочтения для ведения активного и здорового образа жизни». Данное определение было принято участниками Всемирного Продовольственного Саммита в 1996 году и именно оно наиболее верно отражает многократность и актуальность понятия «продовольственная безопасность». В современной экономике можно увидеть попытки решения продовольственной проблемы за счет внедрения современных технологий земледелия, основанных на использовании генетически модифицированных растений. На сегодняшний день видится важным тщательное всестороннее изучение необходимости внедрения ГМО в сферу производства продовольствия, беспристрастная оценка связанных с этим процессом рисков, проведение долгосрочных опытов по употреблению в пищу ГМ продуктов и оценка последствий для здоровья человека.

M.A.Asgarova, A.A.Karimova

Genetic modification of organisms and food security

Summary

“Food security exists when all people at any time have physical and economic access to an adequate amount of safe and nutritious food that can satisfy their nutritional needs and preferences for

an active and healthy life style." This defenition was adopted by the participants of the World Food Summit in 1996 and it is it that most correctly reflects the versatility and relevance of the concept of "food security". In the modern economy one can see attepts to solve the food problem through the introduction of modern farming technologies based on the use of genetically modified plants.Today it seems necessary to conduct a thorough comprehensive study of the need to introduce GMO s in food production, an impartial assessment of the risks associated with this process, long – term experiments on the use of GM foods and an assessment of the consequences for human health.

Rəyçi: dos. S.Zamanova

Redaksiyaya daxil olub: 17.09.2019

A.Ə.MEHDİYEVA
tarix üzrə fəlsəfə doktoru, dosent
e-mail: ayten-69@mail.ru

Azərbaycan Dövlət Pedaqoji Universiteti
(Bakı şəh., Ü.Hacıbəyov küç., 68)

IV-VIII XAÇ YÜRÜŞLƏRİNİN ARAŞDIRILMASI ÜÇÜN MƏNBƏLƏR

Açar sözlər: *Xaç yürüşləri, Avropa cəngavərləri, mənbələr, tarixi hadisələr, kilsə, nəticə*
Ключевые слова: *Крестовые походы, европейские рыцари, источники, исторические события, церковь, итог*
Key words: *Crusades, european knights, sources, historical events, church, results*

Xaç yürüşləri Orta əsrlər tarixində mühüm əhəmiyyətə malik olan hadisələrdəndir. Bu yürüşlər feodalizm cəmiyyətinin doğurduğu bir sıra problemlərin həllinə yönəlmiş və dini şüarlar altında aparılmışdır. Xudavəndənin qəbrinin xilas edilməsi, din qardaşlarının azad olunması və Müqəddəs torpaqların geri qaytarılması şüarı altında aparılan hərbi əməliyyatların real məqsədinin qarət, torpaqların işğalı və problemlərin Şərq ölkələrinin hesabına həll edilməsi planları məhz bu yürüşlər zamanı üzə çıxmışdır. Bu baxımdan IV-VIII Xaç yürüşləri tarixinin mənbələr əsasında öyrənilməsi maraq doğurur.

IV Xaç yürüşünün araşdırılması bəzi tarixi mənbələrə diqqəti cəlb etmişdir. Mühüm mənbələrdən biri Bizans müəllifi Nikita Xoniatın "Historia" adlı əsəri hesab olunur (7, s.34). 1204-cü ildə Konstantinopolun xaçlılar tərəfindən tutulması, bizanslı müdafiəçilərin şəhəri xilas etmək cəhdləri və s. hadisələr əsərin "Aleksey Duka Mursuflun hakimiyyəti" adlı başlıq altında verilmişdir. Kitabın sonuncu 2 fəsli Bizans imperiyasının paytaxtında törədilən vəhşiliklərin təsvirinə həsr edilmişdir. Müəllif barbarların əməllərinin gələcək nəsillərə ötürülməsini öz vətənpərvərlik hislərinin təhqir olunması kimi dəyərləndirmişdir (3).

XIII əsr müəlliflərinin əsərlərində hadisələrin real təsvirinə üstünlük vermişdir. IV Xaç yürüşünün tarixçiləri Joffrua Villarduen və Rober de Kların memuarlarında dünyəvi dəyərlər ön plana çəkilmişdir. Oxşar mövqeyə 1202-1204-cü illərdə baş verən hadisələri açıqlayan monax Günterin "Konstantinopol tarixi" və s. kilsə xronikalarında rast gəlmək mümkündür. J.Villarduenin əsərində hadisələr dinamik baxımdan cəlbedici olsa da, burada providensialist leksikona dair lakonik düşüncələrə (hadisələr Tanrının iradəsinə uyğun baş verəcək və s.) yer ayrılmışdır. 1202-ci ildə Zadarın tutulması zamanı fransız və venetsiyalı xaçlılar arasında qənimətin bölüşdürülməsinin didişmələr və hərbi qüvvələrin parçalanmasına səbəb olmaması faktını Venetsiya doju Enriko Dandola "Tanrının iradəsi ilə" (par la Dieu grace et par la vostre) bağlamışdır (1, s.150). 1203-cü il iyulun 17-də Konstantinopol yaxınlığında xaçlılar Bizans imperatoru III Alekseyin silahlı qüvvələri ilə mübarizədən sonra qələbə əldə etmiş, iyulun 18-də Bizans taxtında qanuni hökmdar III İsaak bərpa olunmuşdur. O, şahzadə Alekseylə xaçlılar arasında əldə olunmuş razılığa əsasən xristian qardaşlarını mükafatlandırmışdır. Villarduen bununla əlaqədar zəvvarların düşərgəsində "Tanrının verdiyi qələbə şərəfi"nə bayram (de la victoire que Dieus lor ot donnee) keçirildiyini qeyd etmişdir. Marşal Şampanlı kimi təcrübəli sərkərdə və tanınmış dövlət xadimi Orta əsr feodalı və katolik kimi bildirirdi ki, "Tanrının kömək etmək istəyinə heç kim mane ola bilməz" (1, s.151). Oxşar mövqeyə cəngavər Rober de Kların məlumatında rast gəlmək mümkündür.

IV Xaç yürüşünün təşkilində mühüm rolu oynayan papa III İnnokentinin hakimiyyəti dövründə Papa dövləti böyük nüfuza sahib olmuşdur. Bu zaman kilsə işlərinin dəqiq müəyyən edilmiş çərçivəyə malik olmaması papanın Avropa dövlətlərinin fəaliyyətinə müdaxilə etməsinə şərait yaratmışdır. Papa kuriyasında maraqlarını müdafiə etmək məqsədilə Avropa döv-

lətləri öz prokuratorlarını göndərirdi. Onların hökumətləri və rəsmi orqanlarla apardığı yazışmalar dövrün qiymətli mənbələrinə çevrilmişdir (6, s.141).

Bizans imperatorluğu Avropadan hərbi kömək istədiyi halda ölkə müxtəlif orduların hücumlarına məruz qalmışdır. İlk əlverişli şəraitdə xaçlılar venetsiyalılarla birləşmiş və Konstantinopolu tutaraq Latın imperiyasını yaratmışlar. Levant ticarətindən uzaqlaşdırılan Avropa ölkələri bu ticarətdə özlərinə yer tutmaq və bazarlarda hakim mövqe qazanmaq uğrunda çalışırdı. Bu zaman xammal və s. ilə yanaşı, xaçlılar Şərqin nadir əlyazmalarının Avropaya daşınmasına nail olmuşlar (14, s.178).

IV Xaç yürüşünün öyrənilməsində eyni zamanda "kiçik" mənbələrin rolunu qeyd etmək lazımdır. Bu mənbələr Qərb ölkələrində 1204-cü ildən sonra qələmə alınmışdır. XIII əsr maniskulları arasında öz həcmi və hadisələrin şərhinə görə 2 manuskriptin adını qeyd etmək doğru olardı. Bunlar Koqtsxollu Ralf və Trua - Fontenli Alberikin əsərləridir. Əsərlərin məzmunca oxşar olmasına baxmayaraq, onların yazıya alınması arasında bir neçə onillik keçmişdir. Koqtsxollu Ralfın "Chronicon Anglicanum" adlı əsəri 1066-1224-cü il, Trua - Fontendən olan Alberikin "Chronica" adlı əsəri 1227-1251-ci il hadisələrini əhatə etmişdir. Verilən məlumatlar IV Xaç yürüşünün Joffrua Villarduen, Rober de Klarinin xronikaları və "Devastatio Constantinopolitiana" kimi əsərlərdə göstərilən məlumatlarla təsdiqlənmişdir. Ralfın xronikasında sistersian ordeni üzvlərinin xaç yürüşlərinə cəlb olunması və Nevilli Fulkun moizələrinin tarixi qiyməti verilmişdir. Alberik 1195-ci ildə Aleksey Angel tərəfindən Bizans imperatoru taxtının tutulması, Venetsiya donanmasının Zadardan Konstantinopola keçməsi hadisələri və s. izah etmişdir. Hər 2 əsərdə hadisələrə verilən qiymət sonrakı dövrlərdə stereotip baxışların formalaşmasında mühüm rol oynamışdır. Abbat Ralfın keşiş Fulkun missiyası və onun Flaylı Yevstasi ilə fəaliyyətinə münasibəti papa İnnokentinin dünyagörüşü ilə uyğun olub onun Reg.1:398 saylı bullasının reallığını təsdiq etmişdir. Hər iki müəllif sistersian ordeni üzvlərinin bu yürüşdə iştirakını Ordenin tarixində mühüm hadisə kimi qiymətləndirmişdir. Sistersianların mövqeyini Payrisli Günter və Xalbertştadtlı anonim təsdiq etmişlər. "Historia Constantinopolitana" və "Gesta episcoporum Halberstadensium" kimi mənbələrdə Xaç yürüşünün qəhrəmanları - Xalberştat yepiskopu Krossiqli Konrad və Payris sistersian abbatı Martinin məlumatları yüksək qiymətləndirilmişdir.

IV Xaç yürüşünün öyrənilməsi ilə bağlı Flandriyalı Balduin və Sen-Pollu Huqonun məktubları və Sistersian ordeninin üzvü Boks - de Kernaydan olan Pyotrun Zadar hadisələrinə həsr olunmuş "Historia Albigensis" manuskripti kimi mənbələrin rolu böyükdür. Manuskript Simon de Monfora yaxın olan ruhani tərəfindən qələmə alınmışdır. Müəllif Zadar hadisəsində xaçlıların "ölüm və rüsvayçılıqdan başqa" heç bir şey əldə etmədiklərini, venetsiyalıları isə bu hadisənin təhrikçisi kimi qiymətləndirmişdir. "Historia Albigensis" manuskriptinin təsiri altında olan Trua - Fontenualı müəllif xaçlıların zəvvarlara müqəddəs Nikolay adasında köməklik göstərilmədiyini qeyd etmiş, venetsiyalıların "məkrli"yini (Venetiani callide cogitantes) əsas gətirərək venetsiyalı Pyotrun "məkrli" (hominess callidi et perversi) sözünü onlara şamil etmişdir (13).

V Xaç yürüşü zamanı (1217-1221) xaçlıların Misirin açarı hesab olunan Damyetta qalasını zəbt etməsi, təhlükəsiz Misiri tərk etmək məqsədilə Damyettanı Əyyubilərə geri qaytarmağa məcbur olması və s. hadisələr baş vermişdir. Müqəddəs torpaqda Yerusəlim kralı İohann Breinn ekspedisiyanın başçısı elan edilmiş və ona işğal olunacaq torpaqlar vəd olunmuşdur. Misir Rum sultanı Key-Kavusun hücumuna məruz qalmış və Şimali Suriyada yerləşən əl-Əşrəfin ordusu səfərbərliyə alınmışdır. Xaçlılara köməyin yetişməsi, qışın gəlişi ilə orduda xəstəliklərin yayılması, əl-Kamilin düşərgəsində üsyanın başlaması və s. şərtlər Damyetta şəhərinin franklar tərəfindən mühasirəyə alınmasını şərtləndirmişdir. Əl-Kamilin ciddi güzəştlərə getməsi, onun əmri ilə Fələstində Toron, Bannas, Bovuar, Safet və Favor qalaları, Davud qülləsi istisna olmaqla Yerusəlim divarlarının dağıdılması heç bir nəticə verməmişdir. Bu məlumatı verən Oliver Sxolastik yazırdı ki, kral, fransızlar, qraf Lester və tevton hərbçiləri

bu təkliflərin qəbul edilməsində israrlı olmuşlar. 1219-cu ildə Assizli Fransisk xristianlığı qəbul etdirmək məqsədilə sultanın düşərgəsinə getmişdir. Məşhur tarixçi Jak de Vitri yazırdı ki, xristianlar Damyettaya çatdıqda Fransisk öz inamı ilə silahlanaraq sultanın yanına getmişdir. Sultan onun moizələrinə qulaq asaraq bu çıxışların törədəcəyi fəsadları anlamış, dindarın geri göndərilməsi və "Mənim üçün dua et, qoy Tanrı doğru olanı versin" sözlərinin ona çatdırılmasını əmr etmişdir (4, s.226).

Damyettanın tutulmasından sonra xaçlılar arasında fikir ayrılığı yaranmışdır. Yerusəlim kralı İohann və papa leqatı Pelaqiy şəhərin alınması uğrunda mübarizə aparmışlar. 1220-ci ildə kral İohann Brienn Damyettanı tərk etdiyi zaman prelatlar yoxsulları günahlandıraraq bu səbəbdən kralın Akraya qayıtmağa məcbur olduğunu bildirmişlər. Məbədçilər ordeni ilə əlaqədə olan papa III Qonorinin 1220-ci ildə monax Eymara göstərişinə əsasən 6 min gümüş markanın dəniz yolu ilə xaçlılara çatdırılmasının zəruriliyini bildirmişdir. Yürüş iştirakçısı Paderbornlu Olivye "Tanrının iradəsi ilə ərzaq və atların gəlməsi" və 6 göndərişin olmasını bildirmişdir (12).

1220-ci ilin sentyabrında əl - Barallus yaxınlığında baş vermiş məğlubiyyətdən sonra kral İohannın ardınca Məbədçilər ordeninin Böyük magistrı Pere de Monteqaudo Damyettanı tərk edərək Akrada krala qoşulmuşdur. 1220-ci il sentyabrında onun Eln yepiskopuna yazdığı məktub dövrün xarakterizə edilməsi baxımından maraqlı mənbə hesab oluna bilər. Bu sənəddə yazılırdı ki, Damyettanın alınmasından sonra zəvvarlar ilə ordunun qalıqları şəhərin müdafiəsini təmin verə bilərdilər. Cənab leqat (dominus quidem legatus) ruhanilərlə məsləhətləşərək kafirlərə qarşı hücuma keçməyi məsləhət bilmişdir. Lakin sultan Damyettanın yaxınlığında çayın hər iki sahilində çoxsaylı kafir toplamışdır. Biz isə şəhər, qəsr və sahilyanı ərazidə möhkəmlənmişik. Dəməşq sultanı Koradin (əl-Muəzzamə) ordu toplayaraq Akra və Tir arası ərazidə görünmüşdür. Bu məlumatı verən müəllif müsəlmanlar arasında narazılığın baş verməsini müsbət hal kimi dəyərləndirmişdir. Paris Matve "Chronica majora" əsərində göstərirdi ki, imperator və b. senyorların vaxtında köməyə gəlməmələri Suriya və Misirin itirilməsi ilə nəticələnəcəkdir. Xaçlıların fəaliyyətsizliyi onlar arasında ruh düşgünlüyünü gücləndirmiş, çox sayda xaçlı sarasinlərin tərəfinə keçmişdir. Bu faktları təsdiq edən Paris Matve göstərirdi ki, Bavariya hersoqu gəldikdən sonra çağırılan şurada hersoqla yanaşı magistrlar, baronlar və b. iştirak etmişlər (9, s.182). Sultanın kanalları açması nəticəsində xaçlılar "balıq kimi tora düşmüşlər". 1221-ci ilin avqustunda 8 il müddətinə sülh bağlanmışdır. Xaçlıları buradan çıxarılması Avropada ciddi narazılıq doğurmuşdur. Papa 1221-ci il 19 noyabr tarixli məktubunda alman kralını kilsədən ayıracağı ilə hədələmişdir (12).

V Xaç yürüşünün uğursuzluqla nəticələnməsi Avropada papanın nüfuzuna növbəti ciddi zərbə olmuşdur. Bu yürüşdən dərhal sonra Qərb ölkələrində trubadur Giyom Figeyranın papaya nifrət dolu satirik mahnısı geniş yayılmışdır. Bu sirventlərdə "Kələkbaz Roma şərin kökü və zirvəsidir", "Sənin tamahkarlığın və acgözlüyün bizi səhvə gətirdi" və s. kimi ittihamlar irəli sürülmüşdür (10). V Xaç yürüşünün uğursuzluqla nəticələnməsi oksitan şair Giyom Fiqeyranın antipapa pamfletinin yaranmasına səbəb olmuşdur. Kuriya bu hücumlardan təşvişə düşmüşdür. Ona görə Figeyranın antipapa xarakteri daşıyan poeziyası rəsmən qadağan olunmuşdur. Bu hücumlara cavab olaraq Qormonda de Monpesyen "Greu m`es a durar" poemasını yazmışdır. Yürüşün uğursuzluğunun əsas səbəbi kimi günahkarların "axmaqlığı" göstərilmişdir.

Hadisələrin əsas qəhrəmanı II Fridrix Hohenştaufen İohann de Briennin qızı İzabella ilə evlənərək papaya yeni xaç yürüşünə başlayacağına söz vermişdir. Bu barədə məlumat verən "Kiprlilərin əməlləri" əsərində göstərilirdi ki, Yerusəlim kraliçasının gətirilməsi məqsədilə 20 qaleranın Suriyaya göndərilməsinə xüsusi hazırlıq tədbirlərinin görülməsi barədə göstəriş verilmişdir (4, s.233). 1224-cü ildə Tevton ordeninin Böyük magistrı German fon Zals alman imperatorunu Suriyada mövcud vəziyyətlə tanış etmişdir. Bunun əsasında imperator Siciliya və İtaliya limanlarında əlli yuisyenin (böyük ticarət gəmiləri) hazırlanması və Almaniyada yeni xaç yürüşünə hazırlığın fon Zelsə həvalə olunmasını əmr etmişdir. Bu zaman VI Xaç yürü-

şünün tarixinin öyrənilməsi üçün mühüm mənbələrdən biri olan Sen - Cermano sazişi imzalanmışdır. Bu sazişə əsasən imperator II Fridrix 1227-ci ilin avqustunda xaç yürüşünə başlamaq, 2 il müddətində 1060 nəfərlik ordu saxlamaq, çatışmayan hər döyüşçüyə görə 50 marka ödəmək, 150 gəmi hazırlamaq və Yerusəlim kralı, patriarxı və Alman ordeninin magistrına 100 min qızıl unsiya ödəməyə söz vermişdir (11). İmperatriça İzabellanın ölümü hadisələrin ləngiməsinə səbəb olmuşdur.

Almaniya imperatoru II Fridrix 1228-ci ilin iyununda VI Xaç yürüşünə başlamışdır. Kiprdə öz hakimiyyətini möhkəmləndirdikdən sonra onun orduları knyaz IV Boemundun rəhbərliyi ilə Antioxiya və Tripolidən gələn dəstələrlə birləşmişdir. Ordu qitəyə çıxdıqdan sonra ingilis və Kipr xaçlıları, alman marşalı Rikkardo Filanjiyerinin ordusu müxtəlif orden qardaşları, Suriya frankları və b. ilə birlikdə 1500 atlı və 1000 nəfər piyadadan ibarət olmuşdur. Onların güc nümayişi qarşı tərəfə güclü təsir göstərmişdir. Bu səbəbdən 1229-cu ilin fevralında Yaffa müqaviləsi imzalanmışdır (10).

İmperator 1229-cu ilin martında Yerusəlimə daxil olmuşdur. O papa tərəfndən kilsədən uzaqlaşdırıldığı üçün Müqəddəs Tanrının qəbri kilsəsində öz tacqoyma mərasimini keçirmişdir. Lakin Yerusəlim patriarxı Gerold de Lozannanın nümayəndəsi Sezariyalı Pyotr müsəlmanlarla müqavilə bağlanması və özbaşına tacqoymaya görə Yerusəlim şəhərinə interdikt qoymuşdur. Papanın bu hərəkətindən hiddətlənən II Fridrix onu İtaliyada məğlub etmiş və 1230-cu ildə papanı imperatorun üzərindən qoyulan bütün qadağaları götürməyə vadar etmişdir. Növbəti il II Fridrixin müsəlmanlarla bağladığı müqavilələr papa tərəfindən təsdiq edilmişdir.

Bu zaman İtaliyada qvelflərin üsyanı və papanın təhriki ilə İohann de Briennin Siciliya krallığına hücumu II Fridrixin Müqəddəs torpağı tərk etməsini sürətləndirmişdir. Almanlar limanları tərk etməyə hazırlaşdıqları zaman patriarx və tampliyerlər fransız kralının vəsaiti hesabına alman cəngavərlərini muzdla tutmağa çalışmışlar. Bu hərəkətə qəti qadağa qoyulduqda patriarx imperator və tərəfdarlarını kilsədən uzaqlaşdırmışdır. Patriarx Geroldun məlumatına əsasən, imperator Akranın müdafiəsi üçün katapulta və s. aparmış, bəzi silahları "yaxın dost"u Misir sultanına göndərmişdir (8). O, 1229-cu ilin mayında Akradan çıxarkən bəzi şəhərlərdə hərbi qarnizon qoymuş və krallığın idarəsini Sidonlu Balyana tapşırmışdır. "Kiprlilərin əməlləri" adlı mənbədə göstərilirdi ki, II Fridrix rüsvaycasına şəhəri tərk etmişdir. İmperator limana gedərkən Beyrutun senyoru Jan d`İbelen və messir Ed de Monbelyar ətraf küçələrdən imperatoru təhqir edərək ona heyvani mənşəli tullantılar atan qəssabları qovmuşlar (4, s.245).

Avropalı feodalların uğursuzluqları nəticəsində yaranmış əlverişli vəziyyətdən istifadə edən Misir sultanı 1244-cü ilin sentyabrında hücum edərək Yerusəlimi tutmuşdur. Bu münasibətlə papa IV İnnokentinin tələbi ilə 1245-ci ildə çağırılan Lion kilsə məclisinin qərarlarının öyrənilməsi mühüm əhəmiyyət kəsb edir. Papa IV İnnokenti alman imperatoru II Fridrixə anafema elan etmişdir. Papa tərəfdarları məclisdə imperatoru təhqir edərək "Siciliya sultanı" adlandırmışlar. Xaç yürüşünə çıxmaq üçün and içən hər bir xristian "kafir" günahkar imperatora qarşı yürüşə getməli idi (2, s.256).

Papa IV İnnokenti Lion kilsə məclisində 4 illik sülh elan etdikdən sonra, 1245-ci ildə yeni xaç yürüşünə hazırlıq işlərinə başlamışdır. Yeni yürüş Yerusəlimin kafirlərdən azad edilməsi məqsədini güdmüşdür. Lakin Almaniya və İtaliyada papa ilə imperator arasında müharibə geniş vüsət almışdır. Bu baxımdan VII və VIII Xaç yürüşlərinin təşkili Fransa kralı Müqəddəs Lüdoviq və fransızların adı ilə bağlı olmuşdur. VII Xaç yürüşü V Xaç yürüşünü təkrarlamışdır. Bu yürüşün əsas məqsədi Misirin tutulması hesab edilmişdir. 1219-1221-ci il hadisələri və Pelageyanın Misirdə xaçlılara hücumundan IX Lüdoviq nəticə çıxarmamışdır. Kiprdə "müqəddəs kral" Ön Asiyada hərbi əməliyyatlarla məşğul olan tatarlarla diplomatik yazışmalar aparmağa başlamışdır. Papa 1246-cı ildə fransiskan monaxı İohann de Plano Karpini xüsusi missiya ilə Qızıl Orda xanının yanına göndərilmişdir (2, s.259). Dominikan ordeninin üzvü Asselin eyni missiya ilə yola düşmüşdür. 1248-ci ilin dekabrında IX Lüdoviq Eldegey xanın qasidlərini qəbul etmiş, 1249-cu ilin yanvarında dominikan monaxı Andre Lonjyumonu Monqolustana gön-

dərmişdir. Bu diplomatik sənədlərin öyrənilməsilə dövrün mənəvi dəyərləri, regionda nüfuz dairəsinin dəyişilməsi və s. barədə məlumat əldə etmək mümkündür.

VII Xaç yürüşü barədə maraqlı məlumat fransız kralını müşayət edən Juanvilin adı ilə bağlıdır. Müxtəlif tarixi hadisələri geniş təsvir edən Juanvil eyni zamanda kralın Sen - Denis abbatlığında oriflammanı qəbul etməsi (zəvvar geyimində səfərə çıxması), Eqmort limanından yola düşməsi, Lionda qalan cəngavərlərin öz xahişi ilə papanı verdikləri vəddən azad etməsi, əsas ordunun Kipr adasında cəmlənməsi, Lüdoviqin burada iki il ərzində müharibəyə hazırlıq işləri ilə məşğul olması və s. barədə məlumat vermişdir (15, s.401). Juanvil siyasi və hərbi hadisələrin ətraflı təsvirini verməklə yanaşı, orduda hökm sürən əhval-ruhiyyəni düzgün göstərməyə müvəffəq olmuşdur. 1250 - ci ilin fevralında Artualı qraf Robert və tampliyerlərin buraxdıqları səhv nəticəsində üç yüzdən artıq fransız cəngavəri, 80 tampliyer və bütün ingilislər qılıncdan keçirilmişdir. Müəllif bu hadisənin iqlim, ərzaq və s.-dən əziyyət çəkən xristianlar arasında ruh düşgünlüyünə səbəb olduğunu vurğulamışdır (15, s.403).

1270-ci ildə az sayda fransız baron və cəngavərinin iştirak etdiyi VIII Xaç yürüşü sona yetmişdir. Bu dəfə də yürüşün təşkilatçısı Fransa kralı IX Lüdoviq olmuşdur. Özünü dominikan ordeninin üzvləri ilə əhatələyən kral 1267-ci ilin martında Sen-Şapel məbədində xaç yürüşü təşkil etmək haqqında planını elan etmişdir. IX Lüdoviqin bioqrafı və onunla VII Xaç yürüşünün çətinliklərini keçmiş Jan de Juanvil bu məlumata heyrətlənmişdir. Kralın yaxın ətrafı bu əməliyyatı mənasız anaxranizm hesab etmişdir. XIII əsrin ortalarından papalığın tənqidinin geniş vüsət alması ilahiyyat alimlərinin səfərbər olaraq bu tənqidlərin yanlış olduğunu sübut etməyə cəhd göstərmələrinə səbəb olmuşdur. Onlardan biri kardinal Umberto de Romano kilsənin tələbi ilə 3 hissədən ibarət böyük həcmli əsərində papalığa qarşı yönələn bütün arqumentləri rədd etmişdir. Umberto de Romano, dövrünün sağlam düşüncəli ilahiyyatçıları Tripollu Giyom və b. hesab edirdilər ki, xaç yürüşləri öz əhəmiyyətini itirmişdir. Bu səbəbdən xaç yürüşlərinin yenidən təşkil olunmasının vacibliyi və "tarixəqədərki" şüarların dəyişdirilməsi vacib sayılmışdır (5, s.280).

Sonuncu xaç yürüşlərinin "qəhrəman"ı Fransa kralı IX Lüdoviq yürüşlərin başa çatmasından təxminən 50 il sonra müqəddəs elan edilmişdir. IX Lüdoviq tərəfindən "Xaç yürüşlərini ilkin formada qoruyub saxladığına görə" kralın kultu yaradılmışdır. 1970-ci ildə Paris və Roma şəhərlərində xaçlı kralın faciəvi şəkildə həlak olmasının 700 illiyi münasibətilə müxtəlif tədbir və xatirə konsertləri keçirilmiş, tarixi dəyərə malik müqəddəs əşyaların kolleksiyası nümayiş etdirilmişdir (5, s.281).

Beləliklə, IV-VIII Xaç yürüşlərinin araşdırılması müasir dövrdə baş verən tarixi hadisələrin mahiyyətini anlamağa və bir sıra nəticələri çıxarmağa imkan vermişdir. Bu baxımdan Bizans mənbələrinin tarixi xarakter daşıması, tarixi həqiqətlərin dəyişdirilməsi və ya saxtalaşdırılmasının adi hadisəyə çevrilməsi, avropalıların Şərq sivilizasiyalarının daha yüksək mədəniyyətin daşıyıcıları olmasını etiraf etmələri, yürüşlər zamanı müxtəlif mənbələr və müqəddəs əşyaların Avropaya daşınması, Avropanın siyasi elitasının da xaç yürüşlərindən bezməsi, dini ordenlərin maraqlarına xüsusi fikrin verilməsi, kral və feodalların öz daxili problemlərinə diqqət yetirməyə başlamaları və s.-ni göstərmək mümkündür.

Ədəbiyyat

1. Введение в историографию крестовых походов (латинская хронография XI-XIII веков) // М.А.Заборов. М.: Наука, 1966. 384 с.

2. Крестовые походы // М.А.Заборов. М.: Изд-во АН СССР, 1956. 278 с.

3. Крестовые походы в еврейских и византийских источниках // http://www.istoria.ru/referat/6915/1.php

4. Крестоносцы // Р. Перну. СПб.: Евразия, 2001. 340 с.

5. Крестоносцы на Востоке // М.А. Заборов. М.: Наука, 1980. 320 с.

6. История дипломатии. Т.1. М.: ОГИЗ, 1941. 566 с.

7. История крестовых походов в документах и материалах // М.А. Заборов. М.: Высшая школа, 1977. 272 с.

8. История крестовых походов – ИПИОХ: Шестой крестовый поход (1228-1229): Крестовый поход Фридриха II Гогенштауфена //http:temrliers.info/cross_and_demilune/index.php?id=crusades&crusades=crusades_06_01

9. История ордена тамплиеров // М.Мельвиль. СПб.: Евразия, 2007. 367 с.

10. Папство и крестовые походы // М.А.Заборов // https://e-libra.ru/read/381030-papstvo-i-krestovye-pohody. html

11. Подготовка Фридриха II Гогенштауфена к походу (1225-1228)//http://templiers.info/cross_and_demilune/index.php?id=crusade&crusades=crusades_06_000

12. Пятый крестовый поход // http: templies.info/cross_and_demilune/index.php?id=crusades&crusades=crusades_05_001

13. Средневековые исторические источники Востока и Запада: Оценки четвертого Крестового похода из монастырских келий //http:www.voslit.info/Texts/rus15/ Ralph_ Coggechall/framepred.htm

14. Tarihi Degişen Savaşlar//Ali Çimen, Göknur Gögebakan. İstanbul 2013. 429 s.

15. Эпоха крестовых походов. М. – СПб.: Полигон, 2007. 1086 с.

А.А.Мехтиева

Источники для изучения IV-VIII крестовых походов

Резюме

Изучение истории крестовых походов стало причиной выявления различных исторических вопросов, связанных с данной проблемой. Информация, не получившая официальное подтверждение в истории IV и последующих походов, раскрывающих подлинную суть этих походов, но переданная участниками и свидетелями этих событий, создала благоприятные условия для переоценки этих явлений. В ходе Крестовых походов наряду с природными богатствами – сырьем также было увезено в Европу огромное количество письменных источников. Изучение исторических трудов, папских распоряжений, указаний и булл, текстов соглашений, подписанных в ходе Крестовых походов, отчетов, отправленных в Европу, и других источников дало основание для иного подхода к историческим личностям и событиям.

A.A.Mehdiyeva

The sources for investigation of IV-VIIIth crusades

Summary

The investigation of history of the crusades caused the appearing of different historical questions connected with this problem. The information, which has not received the official confirmation in the history of IV and other the crusades opening the real essence of these crusades, but given by the participants and witnesses of these events, created the convenient conditions for reevaluation of these things. During the crusades at the same time with the natural resources - raw materials has also been carried for Europe the huge amount of the written sources. The investigation of historical works, pope decrees, orders and bulls, texts of agreements signed during the crusades, reports sent for Europe and other sources gave the reason for different point of view to the historical persons and events.

Rəyçilər: prof. V.H.Əliyev,
ADPU-nun Tarix və Coğrafiya fakültəsinin
Ümumi tarix və tarixin tədrisi texnologiyası kafedrası
(16.10.2019-cu il tarixli iclasın qərarı (pr. №02))

Redaksiyaya daxil olub: 01.11.2019

A.Ə.RƏCƏBOVA
siyasi elmlər üzrə fəlsəfə doktoru, dosent

Azərbaycan Dillər Universiteti
(Bakı şəh., R.Behbudov küç., 60)

AZƏRBAYCAN MÜASİR BEYNƏLXALQ MÜNASİBƏTLƏR SİSTEMİNDƏ

Açar sözlər: *siyasət, beynəlxalq, müqavilə, əməkdaşlıq, diplomatiya, müstəqillik*
Ключевые слова: *политика, международный, договор, сотрудничество, дипломатия, независимость*
Key words: *politics, international, treaty, cooperation, diplomacy, independence*

Azərbaycan Respublikası öz müstəqilliyini qazandığı dövrdən bu günədək yürütdüyü daxili və xarici siyasəti ilə yüksək səviyyəli əməkdaşlığa və təhlükəsizliyə töhfə verən əhəmiyyətli beynəlxalq tərəfdaş kimi özünü təqdim etməyə müvəffəq olmuşdur. Müstəqil Azərbaycanda etnik azlıqların hüquqlarının qorunması ölkənin siyasi sabitliyinin təminatı və xarici siyasətinin düzgün qurulmasının bariz nümunəsidir.

XX yüzilin sonunda dünyada baş verən qlobal proseslər, xüsusən də Varşava Müqaviləsi Təşkilatının ləğv edilməsi, "soyuq müharibə" nin başa çatması, SSRİ-nin dağılması beynəlxalq aləmdə siyasi mühitin ciddi şəkildə dəyişməsinə və yeni geosiyasi vəziyyətin yaranmasına səbəb oldu. Postsovet məkanında meydana çıxan müstəqil dövlətlərin bilavasitə beynəlxalq münasibətlər sisteminə qatılması və öz maraqlarını ifadə edən xarici siyasət kursunu həyata keçirməyə başlaması dünyada dövlətlərarası münasibətlərin yeni düzümünün formalaşmasına gətirib çıxardı. Bu, bir tərəfdən, beynəlxalq aləmdə siyasi gərginliyin azalması, qlobal qarşıdurmanın aradan qalxması ilə səciyyələnirdisə, digər tərəfdən, siyasi, iqtisadi və hərbi baxımdan strateji əhəmiyyət kəsb edən və mənafelərin kəsişdiyi məntəqələrə çevrilən bir sıra məhəlli mərkəzlərin meydana çıxması ilə müşayiət olunurdu.

Mühüm geosiyasi məkanda yerləşən Azərbaycan Respublikasının 1991-ci il noyabrın 18-də öz dövlət müstəqilliyini bəyan etməsi və 80-ci illərin sonu – 90-cı illərin əvvəllərində beynəlxalq aləmdə baş verən dəyişikliklər milli dövlətçilik prinsiplərinə uyğun yeni xarici siyasət kursunun formalaşdırılması və həyata keçirilməsini ən vacib məsələ kimi ön plana çəkdi. Qısa müddət ərzində dünyanın bir sıra dövlətləri tərəfindən rəsmi surətdə tanınmış Azərbaycan Respublikası 1992-ci il martın 2-də BMT-nin üzvlüyünə qəbul edildi. Bu təşkilatla ölkəmizin əməkdaşlığı multikulturalizm, dini və mədəni müxtəliflik sahəsində bir sıra mühüm beynəlxalq sənədləri ratifikasiya etmiş və öz daxili qanunvericiliyində bu normaları əks etdirmişdir.

Azərbaycan dövlətinin xarici siyasət fəaliyyətinin Dağlıq Qarabağda erməni separatizmi və Ermənistanın hərbi təcavüzü ilə dərinləşən ciddi siyasi və iqtisadi problemlərlə müşayiət olunması onun diplomatiyası qarşısında çox mühüm vəzifələr qoyurdu. Təcavüzün və millətçi separatizmin qarşısını almaq, onların ağır nəticələrini aradan qaldırmaq, dövlətin ərazi bütövlüyünü və təhlükəsizliyini təmin etmək, dünya birliyi ilə siyasi və iqtisadi inteqrasiyaya girmək zərurəti məqsədyönlü, ardıcıl və fəal xarici siyasətin həyata keçirilməsini tələb edirdi. Beynəlxalq birliyi Azərbaycan ilə qarşılıqlı faydalı əməkdaşlıq əlaqələrinin qurulması zəruriliyinə inandırmaq, milli maraqları dünya dövlətlərinin kəsişən və toqquşan mənafeləri ilə uzlaşdırmaq, Azərbaycanın müstəqilliyinə və təhlükəsizliyinə beynəlxalq təminat almaq üçün çox ciddi səylər edilməli və gərgin göstərməli idi.

Azərbaycanın müstəqilliyinin möhkəmləndirilməsi və dövlətçilik mənafelərinin qorunmasında ölkənin zəngin iqtisadi potensialı və əlverişli geosiyasi mövqeyi mühüm əhəmiyyət kəsb edir. 2014-cü il sentyabrın 26-da BMT Baş Məclisinin 69-cu sessiyasında Sivilizasiyalar Alyansının VII Qlobal Forumunun 2016-cı ildə Bakıda keçirilməsi haqqında qərarına əsasən,

2016-cı il aprelin 25-27-də Bakıda BMT Sivilizasiyalar Alyansının VII qlobal forumu keçirilmişdir. Forumda 140 ölkənin nümayəndələri iştirak ediblər və bir daha əmin olublar ki, Azərbaycan bütün beynəlxalq təşkilatlarla sıx əməkdaşlıq etməyə həmişə hazırdır. Bu amillər Azərbaycanın milli dövlətçilik maraqlarına cavab verən səmərəli və məqsədyönlü xarici siyasət kursunun həyata keçirilməsi üçün ilkin əlverişli zəmin yaradır. Lakin mövcud ilkin potensialı və əlverişli zəmini reallaşdırmaq, onlardan maksimum bəhrələnmək beynəlxalq aləmdə cərəyan edən proseslərin ciddi araşdırılmasını, Azərbaycanın maraqlarına uyğun düşünülmüş, hərtərəfli əsaslandırılmış və bütün incəlikləri nəzərə alan addımların atılmasını tələb edirdi. Müasir dövrdə strateji inkişaf xətti kimi demokratik cəmiyyət quruculuğu və bazar iqtisadiyyatı yolunu seçən Azərbaycan Respublikası dünya təcrübəsində uğurla sınaqdan keçmiş ümumbəşəri dəyərlərdən faydalanmağa çalışır, özünün geniş iqtisadi potensialını hərəkətə gətirmək məqsədilə inkişaf etmiş ölkələrin qabaqcıl texnologiyasını və maliyyə imkanlarını cəlb edir, onlarla qarşılıqlı faydalı əməkdaşlıq əlaqələrini inkişaf etdirir.

1991-ci ilin sonu – 1992-ci ildə Azərbaycanın dünya dövlətləri tərəfindən ardıcıl şəkildə tanınması və diplomatik münasibətlərin yaradılması onun dünya birliyinə sistemli surətdə inteqrasiyasına geniş yol açdı. İkitərəfli siyasi münasibətlərin qurulması iqtisadi və mədəni əlaqələrin inkişafına əlverişli zəmin yaradırdı. Qarşılıqlı faydalı iqtisadi əməkdaşlıq isə öz növbəsində siyasi münasibətlərin dərinləşməsi, qarşılıqlı etimadın güclənməsi yolunda mühüm əhəmiyyət kəsb edir.

Xəzər dənizinin Azərbaycan sektorundakı neft yataqlarının istismarına dair 1994-cü il sentyabrın 20-də imzalanmış "Əsrin müqaviləsi" Azərbaycanın dünya ölkələri ilə qarşılıqlı əlaqələrinin genişlənməsinə və beynəlxalq mövqelərinin möhkəmlənməsinə güclü təkan verdi. "Əsrin müqaviləsi" və sonrakı dövrdə imzalanmış çoxsaylı neft kontraktları Azərbaycanın dünya birliyinə inteqrasiyasını gücləndirir, qarşılıqlı faydalı əməkdaşlığın inkişafı üçün ortaq təmas nöqtələrinin geniş şəbəkəyə malik olduğunu nümayiş etdirir.

1998-ci il sentyabrın 7-8-də 32 dövlətin və 13 beynəlxalq təşkilatın nümayəndələrinin iştirakı ilə tarixi "Böyük İpək yolu"nun bərpası üzrə keçirilmiş Bakı beynəlxalq konfransı və onun nəticələri Azərbaycanın xarici siyasətinin müstəqillik illərində qazandığı ən mühüm nailiyyətlərindən biridir.

Avropa Birliyinin TASİS-TRASEKA proqramı çərçivəsində "Böyük İpək yolu"nun bərpası üzrə həyata keçirilən tədbirlər Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizində yerləşən bütün ölkələrin inkişafı, onların iqtisadi potensialından daha səmərəli istifadə edilməsi, çoxtərəfli iqtisadi əməkdaşlığın genişlənməsi üçün əlverişli şərait yaradır. Şərqlə Qərb arasında mühüm körpü rolunu oynayan Azərbaycanın Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizinin inkişaf etdirilməsində aparıcı yer tutması respublikanın dünya ölkələri ilə inteqrasiyasının daha da dərinləşməsinə xidmət edir. Bu isə nəinki iqtisadi, həm də siyasi sabitlik və təhlükəsizlik baxımından böyük əhəmiyyətə malikdir.

Azərbaycan Respublikasının xarici siyasətində dünya dövlətləri ilə ikitərəfli münasibətlərin inkişaf etdirilməsi ilə yanaşı, beynəlxalq və regional təşkilatlar çərçivəsində çoxtərəfli əməkdaşlığın genişləndirilməsi də mühüm yer tutur.

1992-ci ildən BMT, ATƏT və İKT-nin üzvü olan Azərbaycan Respublikası həyata keçirdiyi ardıcıl siyasət nəticəsində 2001-ci ildə Avropa Şurasına qəbul edilmiş, Avropa Birliyi, NATO və başqa təşkilatlarla sıx əlaqələr yaratmış, bu qurumlar çərçivəsində qarşılıqlı faydalı münasibətlərin inkişaf etdirilməsi üçün fəal xarici siyasət yeridir. Çox mühüm coğrafi-strateji məkanda yerləşən Azərbaycan malik olduğu mövqedən həm özünün, həm də tərəfdaşlarının maksimum bəhrələnməsi üçün hərtərəfli şərait yaradır, milli mənafelərinin və təhlükəsizliyinin təmin olunması istiqamətində zəruri tədbirlər həyata keçirir.

Azərbaycan Respublikasının 1994-cü ildən başlayaraq NATO-nun "Sülh naminə tərəfdaşlıq" proqramı çərçivəsində fəaliyyəti dünyanın qabaqcıl ölkələri ilə onun əlaqələrinin inkişafına mühüm zəmin yaratmışdır. 1998-ci il sentyabrın sonunda NATO-nun baş katibi H.So-

lananın Azərbaycana səfəri ərəfəsində verdiyi müsahibədə "Qafqaz regionunu NATO-nun birbaşa maraqları olan regionlar" sırasında qeyd etməsi qarşılıqlı faydalı əməkdaşlığın inkişaf etdirilməsi və regional təhlükəsizliyin qorunması sahəsində Şimali Atlantika təşkilatı ilə Azərbaycanın maraqlarının üst-üstə düşdüyünü bir daha təsdiq etdi.

Göründüyü kimi, Azərbaycan Respublikasının müstəqil dövlət kimi beynəlxalq münasibətlər sisteminə qoşulması ilə ölkənin sosial-iqtisadi, siyasi və təhlükəsizlik məsələlərinin tənzimlənməsində xarici siyasət sahəsində fəaliyyətin rolu kəskin şəkildə yüksələrək həlledici əhəmiyyət kəsb etmişdir.

Qeyd etmək lazımdır ki, müstəqillik əldə etdikdən sonra Azərbaycan da daxil olmaqla postsovet məkanında yerləşən bütün dövlətlər özlərinin gələcək inkişaf strategiyasını müəyyənləşdirərkən ciddi seçim qarşısında qaldılar: onlar ya əvvəlki kimi sosialist ideologiyası və ictimai mülkiyyətə əsaslanan planlı iqtisadiyyat yolu ilə fəaliyyətini davam etdirərək beynəlxalq aləmdə ideoloji, hərbi-siyasi qarşıdurmaya yenidən şərait yaratmalı, ya da iqtisadi-siyasi və sosial sahədə yüksək tərəqqiyə nail olmuş ölkələrin təcrübəsini əsas götürərək, bu təcrübəni yerli şəraitə uyğunlaşdırmaqla xüsusi mülkiyyətə əsaslanan azad bazar iqtisadiyyatı yolunu seçməli idilər. "Soyuq müharibə"də sosializm cəbhəsi üzərində parlaq qələbə çalan kapitalizm dünyasının hərtərəfli üstünlükləri yeni yaranmış dövlətləri məhz ikinci yolu seçməyə bir növ sövq etdi.

İkinci yolu seçməklə həmin dövlətlər yeni bir seçim problemi ilə üzləşdilər. Onlar bu dəfə kapitalizm dünyası daxilindəki mövcud inkişaf modelləri üzrə, daha doğrusu, tədqiqatçıların qeyd etdiyi kimi, hazırda dünya siyasətinin müəyyənləşməsində əsas rol oynayan iqtisadi-siyasi güc mərkəzlərinin inkişafı ilə bağlı Amerika, Avropa və Asiya modelləri üzrə seçim zərurəti qarşısında qaldılar. Buna görə də, müstəqillik əldə edən dövlətlər özlərinin gələcək inkişaf yolunu müəyyənləşdirmək üçün dünyada mövcud olan mürəkkəb beynəlxalq və regional şəraiti düzgün qiymətləndirməli, dünya siyasətinin güc mərkəzləri olan ABŞ, Rusiya, Avropa Birliyi, Cənub-Şərqi Asiya ölkələri arasındakı mənafe və maraq çəkişmələrində özünün suverenliyini qoruyub saxlamaq məqsədilə düşünülmüş xarici siyasət yeritməli idilər. Bu dövlətlər qarşısında müasir dövrdə beynəlxalq aləmdə qəbul edilmiş və həyata keçirilən inkişaf modellərinin, ilk növbədə Amerika, Avropa və Asiya modellərinin zəif və üstün cəhətlərini diqqətlə araşdırmaq və bu zəmində ya onlardan birinə üstünlük vermək, ya da ayrı-ayrı modellərin müəyyən cəhətlərini sintez edərək ölkənin spesifik şəraitinədaha uyğun olan inkişaf yolunu seçmək vəzifəsi dururdu.

Avropa ilə Asiyanın qovşağında strateji baxımdan əlverişli, mühüm geostrateji mövqeyə malik olan Azərbaycan ictimai-siyasi və mədəni-mənəvi həyatın bütün sahələrində özünəməxsus xüsusiyyətləri yaşatmaqla yanaşı, Şərq və Qərb dəyərlərinin sintezindən yaranmış cəhətləri də əxz edərək, dünya birliyinə inteqrasiya olunmaq xəttini seçmişdir. İslam dünyasının da ayrılmaz hissəsi olan Azərbaycanın sıx əməkdaşlıq etdiyi və üzvi olduğu beynəlxalq təşkilat İslam Əməkdaşlıq Təşkilatıdır. Bu əməkdaşlıq çərçivəsində Azərbaycan dövləti həm də islam dünyasının bir üzvinə çevrilmişdir. Azərbaycan müsəlman və xristian dövlətləri arasında körpü rolunu oynamaqla bir daha tolerant bir dövlət olduğunu sübut edir. Multikultural dəyərlərin beynəlxalq siyasətində əsasını təşkil etməsini təbliğ edir və bu dəyərlərin beynəlxalq aləmdə yaymaq məqsədilə nüfuzlu beynəlxalq və regional təşkilatlarla əməkdaşlıq edir.

Azərbaycanın xarici siyasətinin əsasında istər Şərq, istər Qərb cəmiyyətləri arasında əməkdaşlığın, sülhün, dialoqun və tolerantlığın inkişafı əsas yer tutur. Qərbi Avropa ölkələrilə müqayisədə Azərbaycanın demokratik inkişaf sahəsində real təcrübəsi azdır, lakin mənəvi təcrübəsi böyükdür. Çünki Azərbaycan etnik-mədəni müxtəlifliyin tənzimlənməsi sahəsində uğurlu siyasət həyata keçirir. Ümummilli lider Heydər Əliyevin qeyd etdiyi kimi:

“Azərbaycan əhalisinin çox milli tərkibi bizim sərvətimizdir, üstünlüyümüzdür. Biz bunu qiymətləndiririk və qoruyub saxlayacağıq.” Bu seçimi reallaşdırmaq istiqamətində Azərbaycan dövləti, bir tərəfdən, dünya təcrübəsini öyrənərək, özünün iqtisadi və siyasi inkişaf

modelini müəyyənləşdirir, digər tərəfdən, beynəlxalq aləmdə qəbul edilmiş ölçülərə uyğun olaraq öz milli maraqlarını qorumaq üçün dövlətlərarası əlaqələrə girir. Bu da tamamilə təbiidir, çünki hər bir ölkənin daxili iqtisadi, siyasi və mənəvi tələbatının ödənilməsi onun dünya ölkələri ilə qarşılıqlı faydalı əməkdaşlıq əlaqələrinin qurulmasını və inkişafını, milli maraqlarına cavab verən xarici siyasət yürüdülməsini tələb edir. Azərbaycanın bugünkü beynəlxalq vəziyyəti xarici siyasət sahəsində hər hansı bir qütbə və yaxud istiqamətə açıq nümayiş etdirilən üstünlük verilməsini mümkünsüzləşdirir, balanslaşdırıcı və tarazlaşdırıcı siyasi kurs seçilməsini şərtləndirir.

Çünki XX əsrin sonunda beynəlxalq aləmdə yaranmış geostrateji maraqların kəskin rəqabəti, iqtisadi və hərbi-siyasi durum yenicə suverenlik əldə etmiş, hələ nisbətən zəif olan ölkələrin müstəqil xarici siyasət yeritməsi sahəsində çoxsaylı problemlər ortaya çıxarır. Dünyada öz ənənəvi təsir dairələri olan fövqəldövlətlər və dövlətlər birliyi yeni müstəqillik əldə etmiş ölkələrin inkişaf modeli seçməsi, beynəlxalq aləmdə siyasi oriyentasiyasını müəyyənləşdirməsi məsələsində yüksək həssaslıq nümayiş etdirirlər. Bu, bir tərəfdən, gənc dövlətlərin xarici siyasət strategiyasının formalaşması qarşısında xeyli çətinlik yaratsa da, digər tərəfdən onların müstəqil xarici siyasət yeritməsi üçün əlverişli manevr imkanları açır. Hazırda dövlətlərarası münasibətləri tənzimləyən əsas vasitə iqtisadi, hərbi-siyasi və ya ideoloji güc, qüvvə olsa da, dünyada kütləvi qırğın silahlarına, o cümlədən atom bombasına malik olan ölkələrin sayının artması təhlükəsi iri fövqəldövlətləri və dövlətlər birliyini bir növ siyasi müvazinəti saxlamağa və qorumağa məcbur edir. Əsası hələ son orta əsrlərdə qoyulmuş "siyasi müvazinət nəzəriyyəsinə" görə, müxtəlif maraqların qarşılıqlı bağlılığı heç bir dövlətə başqaları üzərində mütləq şəkildə hegemonluq etməyə və onlar üçün davranış qaydaları müəyyənləşdirməyə imkan vermir. Hərbi-siyasi və iqtisadi sahədə baş verən keyfiyyət dəyişiklikləri region dövlətləri arasında milli maraqlarla yanaşı daha ümumi əhəmiyyət kəsb edən region maraqlarını, qlobal şəkildə isə bütün dünyada qayda-qanunun və əmin-amanlığın qorunub saxlanması marağını formalaşdırır.

Müstəqil Azərbaycan diplomatiyası bəhs olunan sivil məcraya və normal inkişaf istiqamətinə düşmək üçün 1991-ci ilin sonundan günümüzə qədər mürəkkəb və ziddiyyətli bir yol keçmişdir. Müasir dövrdə Qərb ölkələrində etnik-mədəni müxtəliflik və onun tənzimlənməsi sahəsində Azərbaycan geniş miqyaslı təbliğat aparır. Məsələn, Qərb ölkələrində İslamofobiyanın geniş vüsət alması və buna qarşı yüksək ideologiya aparmaq.

Ümumiyyətlə, müstəqil Azərbaycan dövlətinin xarici siyasət tarixinə qısa nəzər salsaq, görərik ki, 1991-ci ildə və 1992-ci ilin birinci yarısında Azərbaycan dövlətinin xarici siyasətinin əsasını Rusiya-Azərbaycan əlaqələri və bütövlükdə Rusiyaya meyllilik strategiyası təşkil edirdi. Azərbyacan hökuməti SSRİ-nin dağılması ərəfəsində dünyada və SSRİ-də gedən ictimai-siyasi proseslərə, beynəlxalq və regional hadisələrin inkişaf meyllərinə zidd siyasət yeridərək, bütün mümkün vasitələrlə Sovet hökumətini qoruyub saxlamağa çalışanlarla bir sırada dayanır və respublikanın bu qurum tərkibindən ayrılmasına yol verməməyə səy göstərirdi. Bu məqsədlə hətta SSRİ-nin dağılmasına cəmi bir neçə ay qalmış Sovet İttifaqının saxlanılması haqqında Moskvanın təşkil etdiyi referendumu (mart 1991-ci il) Azərbaycanda da keçirərək, səsvermədə iştirak edənlərin guya 93,3%-nin SSRİ-nin saxlanılmasına tərəfdar olması haqqında mərkəzə saxta məlumat da vermişdi. Mərkəzi hakimiyyətin əksinə olaraq, Naxçıvan Muxtar Respublikasının Ali Məclisi o zaman SSRİ-nin saxlanılması haqqında referendumun Naxçıvan ərazisində keçirilməsindən imtina edərək, əhalinin müstəqillik əzmini və arzularını nümayiş etdirmişdir.

Müstəqil Azərbaycan dövlətinin xarici siyasət fəaliyyətinin formalaşması həm də Azərbaycanda müstəqil dövlət quruculuğu prosesi ilə müşayiət olunduğundan dövlətin rastlaşdığı bütün problemlər onun xarici siyasətinə də öz təsirini göstərmişdir. SSRİ-nin və keçmiş sosialist birgəyaşayış tərzinin təsirindən qurtarmaq, müstəqil xarici siyasət kursu formalaşdırmaq, onun əsas prioritetlərini, məqsəd və vəzifələrini, istiqamətlərini müəyyən etmək, dünya si-

yasəti müstəvisinə çıxmaq və beynəlxalq münasibətlər sisteminə qatılmaq gənc və təcrübəsiz dövlət üçün o qədər də asan bir iş deyildi. Odur ki, müstəqilliyin ilk illərində ölkənin xarici siyasət kursunda və hökumətin bu yönlü fəaliyyətində ciddi nöqsanlar, ziddiyyətli, qeyri-müəyyən və qeyri-ardıcıl qərarlar da olmuşdur ki, bütün bunlar Azərbaycanın həm daxili həyatına, müstəqil dövlət quruculuğu prosesinə, həm də onun dünya siyasəti və beynəlxalq münasibətlər sisteminə qatılması işinə öz mənfi təsirini göstərmişdir.

Hər bir dövlət öz xarici siyasəti qarşısındakı vəzifələri həyata keçirmək üçün uzunmüddətli strateji və operativ cari fəaliyyət proqramı hazırlayır. Uzunmüddətli strateji fəaliyyət proqramı dövlətin gücü, qüdrəti, resursları, dünya siyasətindəki rolu və yerindən asılı olaraq müxtəlif məqsəd və vəzifələr üzərində qurulur. Bunların ən vacibləri və həyati əhəmiyyət kəsb edənləri sırasına ölkənin müstəqilliyinin qorunmasını, dünyaya müvəffəqiyyətli inteqrasiya və beynəlxalq münasibətlər sistemində özünə layiq yer tutmasını, ərazi bütövlüyü və suveren hüquqlarının təmin edilməsini, vətəndaşlarının firavan həyatını təmin etmək məqsədilə xarici aləmin imkanlarından istifadə edilməsini və s. aid edirlər.

Uzunmüddətli xarici siyasət strategiyası konkret zaman, məkan və şəraitə uyğun olaraq dövlətlərin cari xarici siyasət proqramının hazırlanmasını və yürüdüləcək siyasətin, görüləcək işlərin prioritetlərinin (mövcud zaman, məkan və şəraitdə reallaşdıracağı birinci dərəcəli vəzifələr) müəyyən edilməsini tələb edir. Əslində xarici siyasət sahəsindəki prioritetlər dövlətin uzunmüddətli xarici fəaliyyətinin tərkib hissəsi, qarşısında duran vəzifələrin daha dəqiqləşdirilmiş, qruplaşdırılmış, təsnifatlaşdırılmış və mövcud zaman, məkan çərçivəsində önə çıxarılmış hissəsidir.

Ölkənin xarici siyasət prioritetləri tədqiqatçıların fikrinə görə, dövlətin rəsmi və qeyri-rəsmi institutlarının, vətəndaş cəmiyyətinin və ictimaiyyətin tələb və istəklərinin sintezi nəticəsində formalaşmış ümumi rəy əsasında müəyyən olunur. Ümumi rəyin fəaliyyət proqramına çevrilməsi və milli səviyyədə həyata keçirilməsinin koordinasiyasını dövlət öz institutları, hüquqi və fiziki şəxsləri vasitəsilə reallaşdırır. Xarici siyasət prioritetlərinin koordinasiyasını həyata keçirən əsas institut Xarici İşlər Nazirliyi hesab olunur. Bu nazirlik mövcud zaman, məkan və şərait çərçivəsində dövlətin ictimai tələblərini öyrənir, ümumiləşdirir, xarici aləmlə təmasda onun reallaşması proqramını hazırlayır, dövlətin ali rəhbərliyinə təqdim edir və həyata keçirilməsi işini təmin edir. Prioritetlərin reallaşması işində Xarici İşlər Nazirliyi həm dövlətin bütün mövcud resurslarını və gücünü, həm də ölkə vətəndaşlarının, dövlətə loyal münasibəti ilə seçilən siyasi partiya, ictimai təşkilatların, ayrı-ayrı hüquqi və fiziki şəxslərin imkanlarını səfərbər edir. Bu mənada xarici siyasət və onun prioritet vəzifələrinin həlli tələbləri milli birliyin yaranmasında stimul kimi çıxış edir. Xüsusən böhran və müharibə vəziyyətlərində, ölkənin milli təhlükəsizliyi, ərazi bütövlüyü və xalqın həyatı üçün təhlükə yarandığı məqamlarda insanlarda vətənpərvərlik hisslərinin güclənməsi, maraqların və baxışların yaxınlaşması baş verir. Bu hisslərdən düzgün istifadə olunan, millətinin istək və arzuları mövcud şəraitə və zamana görə doğru istiqamətləndirilən, real iqtisadi, siyasi, hərbi, demoqrafik və s. imkanları nəzərə alınan ölkələrdə prioritetləri reallaşdırmaq mümkün olur.

Azərbaycan Respublikasının sıx əməkdaşlıq etdiyi beynəlxalq təşkilat Avropa Şurasıdır. Ölkəmiz bu quruma 2001-ci il yanvar ayının 17-də tam hüquqlu üzv kimi qəbul edilmişdir. Azərbaycan bu əməkdaşlıq çərçivəsində mühüm sənədlərə qoşularaq həmçinin çox mühüm tədbirlərə ev sahibliyi etmişdir. Məsələn 1995-ci ilin 1 fevral tarixində Avropa Şurasının qəbul etdiyi "Milli azlıqların müdafiəsi haqqında Çərçivə konvensiyasıdır. Azərbaycan bu sənədi 2000-ci ilin 13 iyun ayında ratifikasiya etdi. 2010-cu ildə aprel ayında 32 ölkədən 200 nümayəndənin iştirakı ilə "Qloballaşma, din, ənənəvi dəyərlər" mövzusuna həsr olunmuş sammit Bakıda keçirilmişdir.

Yuxarıda qeyd olunanlardan göründüyü kimi, Azərbaycan Respublikası bütün beynəlxalq təşkilatlarla sıx əlaqə saxlayaraq beynəlxalq humanitar və mədəni əməkdaşlığı inkişaf etdirir və bu əlaqələri genişləndirir.

Ədəbiyyat

1. Azərbaycan Respublikasının Konstitusiyası 1995, http://www.e-qanun.az/framework/897
2. Azərbaycan _İslam Əməkdaşlıq Təşkilatı əlaqələri, http:/islamworld.preslib.az/page/csei416Aa/
3. Azərbaycan tarixi, I cild (ən qədim zamanlardan XX əsrədək), Bakı, Azərnəşr, 1994
4. Multikulturalizmə giriş: Ali məktəblər üçün dərslik- Bakı: Şərq Qərb, 2019
5. https://interaztv.com/politics/13272
6. http://files.preslib.az/projects/azerbaijan/gl9.pdf
7. http://elibrary.bsu.az/books_aysel/N_236.pdf

А.А.Раджабова

Азербайджан в современной системе международных отношений

Резюме

В статье говорится, что Азербайджанская Республика вступила в демократическое общество после провозглашения независимости. Он приобрел богатый экономический потенциал после укрепления своей независимости. Эти факторы были также результатом эффективной и целенаправленной внешней политики, отвечающей интересам национальной государственности. Азербайджан был последовательно признан государствами мира и установил дипломатические отношения. Азербайджан - это страна с наиболее выгодным геополитическим положением для проведения международных конференций и мероприятий. Азербайджанская Республика выбрала линию интеграции в мировое сообщество, синтезируя восточные и западные ценности. Азербайджанская Республика развивает и расширяет международное гуманитарное и культурное сотрудничество.

A.A.Rajabova

Azerbaijan in the system of modern international relations

Summary

The article states that the Republic of Azerbaijan entered the democratic society after declaring its independence. It gained rich economic potential after consolidating its independence. These factors were also the result of effective and purposeful foreign policy that meets the interests of national statehood. Azerbaijan has been consistently recognized by the world states and established diplomatic relations. Azerbaijan is a country with the most favorable geopolitical position for international conferences and events. The Republic of Azerbaijan has chosen the line of integration into the world community by synthesizing the eastern and western values. The Republic of Azerbaijan develops and broadens international humanitarian and cultural cooperation.

Rəyçilər: dos. Ə.M.Abdiyeva,
ADU-nun Fəlsəfə və ictimai elmlər kafedrası
(13.09.2019-cu il tarixli iclasın qərarı (pr. №01))

Redaksiyaya daxil olub: 28.10.2019

A.S.ZEYNALOVA
e-mail: ayten@mail.ru

V.B.YUSİFOVA

Azərbaycan Dillər Universiteti
(Bakı şəh., R.Behbudov küç., 60)

NADİR TAPILAN XƏSTƏLİKLƏR, ONLARIN PROFİLAKTİKASI, SOSİAL-İCTİMAİ MAHİYYƏTİ BARƏDƏ

Açar sözlər: *nadir xəstəlik, sindrom, müalicə, təzyiq, altsheymer*
Ключевые слова: *редкие заболевания, синдром, лечение, давление, альцгеймер*
Key words: *rare diseases, syndrome, treatment, pressure, Alzheimer's*

Tibb nə qədər inkişaf etsə də, hətta indinin özündə belə elə xəstəliklər var ki, müasir tibb də onun qarşısında çarəsiz qalır. Uzun illərdir ki, simptomları tibbə bəlli olsa da, müalicəsində, qarşısının alınmasında tibbin aciz qaldığı bir çox xəstəliklər var.

Qaçış sindromu: Bu xəstəliyə tutulan xəstələrin yüzdə 25-30-u ölüm riski yaşayır. Qaçış sindiromu dünyada yalnız 60 nəfərdə rast gəlinib. Ayaqlarda şişmə və halsızlıq ilə başlayan xəstəlik nəfəs darlığı, təngnəfəslik, böyrəklərin fəaliyyətinin dayanması, təzyiqin enməsi və orqan çatışmazlığına səbəb ola bilir (1).

Erkən yaşlanma (Progeriya): Bu xəstəlik daşıyıcılarında zəka və beyin inkişafı normal olsa da, orqanlar və dəri sürətli şəkildə qocalır. Xəstələrin çoxu ən azı 15 yaşına qədər yaşaya bilir. Modern tibbdə müalicəsi olmayan Progeriyaya bu günə qədər 30 nəfərdə rast gəlinib (3).

Dəli dana: Milyonda bir nəfərin tutulduğu bu xəstəlik dəli dana adı ilə tanınsa da, heyvanlarda daha çox rast gəlinir. İlk dəfə 1986-cı ildə İngiltərədə ortaya çıxdığı deyilsə də, əslində bu xəstəliyə daha əvvəllər də yoluxanların məlum olduğu aşkarlanıb. 1986-cı ildə müasir tibb tərəfindən dəli dana xəstəliyinə tutulma məlum olandan sonra 177 min 500 baş iribuynuzlu heyvan tələf olub. Bu günə qədər isə 500 nəfər xəstələnmiş heyvanının ətindən yeyərək "dəli dana"-ya yoluxublar. Bu xəstəlik bir il içində insanı o dünyaya aparır. Virusun yoluxucu olduğu da deyilir.

Primer pulmoner yüksək təzyiqi (Ağ ciyərin yüksək təzyiqi): Milyonda bir görülən xəstəlik, ağciyərlərin, ürəyin nasoslayıb göndərdiyi qanı qəbul etməməsi ilə nəticələnir. Bu xəstəliyin səbəbi müasir tibbə hələ də məlum deyil. Xəstəliyə yoluxanlar nəfəs darlığı, yorğunluq, öskürək, sinə ağrılarından şikayət edirlər. Xəstəliyin ən sürətlənən həddində isə ani həyatını itirmə ilə nəticələnir. Türkiyədə təxminən 70 min adam bu xəstəliyinin daşıyıcısıdır.

Gilles De tourette sindiromu: Tourette sindiromu nevroloji-psixiatrik xəstəlikdir. Ana simptomu davamlı olaraq dəyişən və yoğunlaşan mimik və səs hərəkətləridir. Xəstəliyin başlanğıcı uşaqlıq və gənclik dövrünə təsadüf edir. Daha sonra isə xroniki hal alır. Mimik hərəkətlər bütün bədən boyunca, əsasən də üz və baş nahiyyələrində iradədən kənar yaranır (məsələn, tez-tez göz qırpması, baş silkələmə). Hətta xəstəliyin əlamətlərinə görə, xəstə iradəsindən asılı olmayan səslər də çıxardır. Məsələn, yüngülcə öskürmə, və ya "hmm" kimi ifadələr işlədir (3).

Yatan gözəl sindorumu: İngiltərədə yalnız 100 adamda görülən Yatan Gözəl Sindromunun tibb dilindəki adı Klein Levin Sindromu adlanır. Nadir görülən bu nevroloji pozuqluğa sahib bir xəstə günlərlə və hətta həftələrlə yata bilir. Bu narahatlığa sahib bilinən adam isə 22 yaşındakı Beth Goodierdir. 17 yaşındaykən bir gün yuxusu gələn Beth, hər insan kimi yatağına girib yatıb, ancaq, tam 6 ay sonra oyanıb. Yalnız yeməyini yemək, su içmək və tualetə getmək kimi təməl ehtiyacları üçün yataqdan qalxa bilən Beth, gündə 22 saat yatır. Trans ha-

lında yaşadığı üçün zehin pozuqluqları da yaşıyır və çox zaman "Mən haradayam" deyə oyanır. Uzun davamlı yuxularından sonra eynilə bir körpə kimi davranan Beth, bir çox xatirəsini xatırlamır və xüsusi dərmanlardan istifadə edir. Həkimlərə görə 13 il içərisində yaxşılaşacaq olan Beth ömrünün 20 ilini yuxuda keçirmək məcburiyyətindədir.

Fil xəstəliyi: Bədənin hər hansı bir hissəsinin həddsiz böyüməsi. Fil xəstəliyini filarioidea ailəsinə daxil olan qurdlar tərəfindən törədilir parazitar xəstəlikdir. Bu xəstəlik parazitar xəstəliklərə aid olub, həmin qurdlar maralların orgaznimində yaşayıb, ağcaqanadlar tərəfindən yayılır. Əgər alimlər maralların organizmində bu qurdun inkişafının qarşısını ala bilsə, insanlar arasında bu xəstəliyin qarşısını da almış olacaqlar. Tropik zonalarda rast gəlinən fil xəstəliyi (limfatik filariya) moskitlər tərəfindən törədilir. Bu xəstəlikdən dünyada 120 milyon adam əziyyət çəkir və bunlardan 40 milyonu ağır vəziyyətdədir. Yoluxmuş dişi moskit insan qanını sorarkən sürfələr qana keçir və bunula da bütün bədənə yayılır. Sürfələr əsasən limfatik toxumaları zədəliyir, hansı ki, onların normadan artıq böyüməsinə gətirib çıxarır. Nəticədə bu xəstəlik zamanı qızdırma və güclü ağrılar baş verir. Hipertrofiyaya uğramış ayaqlar, əllər, sinə və cinsiyyət organları, bu xəstəliyin ümumi simptomlarından sayılır (2).

Hipertrixoz və yaxud qulyabani: həddən artıq tüklənmə. Bu xəstəlik üzdə uzun və qara tüklərin çıxması ilə müşahidə olunur. Xəstəlik insanı canavara bənzətdiyi üçün, bu xəstəliyə canavar sindromu da deyirlər. Xəstəlik insanın müxtəlif sahələrinin həddən artıq tüklənməsi ilə büruzə olunur.

Göy dəri sindromu və yaxud akantokeratodermiya: "göy'" insanlar. 1960-cı illərdə əksər göy insanların ailələri Kentuki ştatında yaşayıblar. Onlar göy Fyugeytlər kimi tanınıblar. Onlardan çoxları hər hansı bir ciddi xəstəlik ilə xəstələnməyib. Dərilərinin rənginin göy olmasına baxmayaraq, onların bəziləri 80 yaşına kimi yaşayıblar. İrsi xəsətlik sayılır. Bu diagnozlu insanlar göy və yaxud indigo, bənövşəyi rəngli dəri ilə başqalarından fərqlənirlər.

Allotrifaqiya: yemək üçün yararsız olan maddələrin qəbulu kimi xarakterizə olunur. Bu xəstəliklərdən əziyyət çəkən insanlarda qidalanmaya yararsız cisimləri, maddələri qəbul etməyə davamlı istək yaranır. Kağız, palçıq, yapşıqan, gil və s. Ekspertlər bu xəstəliyin səbəbini və müalicə üsulunu hələ də dəqiq tapa bilməyiblər. Amma bir şey məlumdur ki, bu mineralların defisiti ilə əlaqədar olaraq yaranan xəstəlikdir (3).

Blasko xətləri: bədənin hər yerində qəribə zolaqların olması ilə müşahidə olunur. Blashko xətləri, 1901-ci ildə alman dermatologu Alfred Blaşko tərəfindən tapılan nadir xəstəliklərdən olub, anatomiya bu fenomeni hələ də heç cür izah edə bilmir. DNT-də genetik dəyişiklik nəticəsində yaranan bu xəstəlik, insanın müxtəlif sahələrində görünən xətlərin olması ilə özünü göstərir.

Jumping Frenchman pozğunluğu: Gərginləşmə refleksi. Xəstəliyin əsas əlaməti - gözlənilməddən səs eşitdikdə və yaxud nəyisə gördükdə pasientin güclü qorxmasıdır. Bu xəstələr adi insanlardan fərqli olaraq daha çox həyacanlanır. Xəstənin arxasında dayandıqda qışqırmağa, əl-qol atmağa və eyni sözləri təkrar etməyə başlayır. Sakitləşmək üçün çox vaxt tələb olunur. Xəstəlik ilk dəfə Men ştatında yaşayan bir fransızda rast gəlinib. Sonradan dünyanın başqa yerlərində də rast gəlinib.

Porfiriya: Vampir xəstəliyi. Günəşə qarşı ağrının yaranması. Elə adamlar var ki, onlar günəş şüalarından gizlənməyə məcburdurlar. Onlar günəş şüaları altında olarkən, tez bir zamanda dərinin müxtəlif nahiyələrində suluqların əmələ gəlməsi ilə müşahidə olunur. Dəri "yanmağa" başlayır, ağrı hiss olunur.

Canlı meyit sindromu: özlərinin öldüyünə inanan insanlara xarakter xəstəlikdir. Bu sindrom insanın özünü öldürməyə cəhd göstərməsi və arası kəsilməyən depressiya ilə müşahidə olunur. Onlar hər şeyini, hətta bədəninin bir hissəsini itirməsi barəsində təəssüflənir. Bu xəstələrə elə gəlir ki, onlar ölüb və onlardan qalan ancaq meyitləridir. Bu çaşqınlıq o səviyyəyə kimi progressivləşir ki, xəstə özünün çürümüş bədəninin qoxusunu hiss etdiyini, içəridən qurdların onu yeməsini də bildirir.

Altsheymer xəstəliyi – demensiyanın geniş yayılmış müalicəsi mümkün olmayan neyrodegenerativ xəstəlik. Xəstəlik ilk dəfə 1905-ci ildə alman psixiatoru Alois Altsheymer tərəfindən qeydə alındığı üçün onun adı ilə adlandırılmışdır. Xəstəlik adətən 65 yaşdan (l) yuxarı şəxslərdə müşahidə olunsa da, ona erkən yaşlarda da rast gəlmək mümkündür. Dünyada bu xəstəlikdən əziyyət çəkənlərin sayı 2006-cı il statistikasına görə 26,6 milyon, 2050-ci ildə isə bu rəqəmin dörd dəfə artacağı gözlənilir. Altsheymer xəstəliyi bəzi beyin hüceyrələrinin məhv olması ilə nəticələnən, dəqiq səbəbləri bilinməyən nevroloji bir xəstəlikdir.

Xəstəlik klinik olaraq incələnən zaman yaddaş və digər intelektual qabiliyyətlərin nəzərə çarpacaq dərəcədə pozulması ilə qarşımıza çıxır. Xəstəlik ilk dəfə 1907-ci ildə Alois Altsheymer tərəfindən xəstə Auguste D. adlı bir qadında müəyyən edilmişdir. Onu da qeyd edə bilərik ki, xəstəlik kişilərlə müqayisədə qadınlarda daha çox rast gəlinir. Xəstəliyə tutulanların sayı günü-gündən belə demək mümkündürsə, logorifmik olaraq artmaqdadır. Aparılan tədqiqatlar nəticəsində müəyyən edilmişdir ki, 85 yaşdan yuxarı insanların təxminən 50%-i bu xəstəlikdən əziyyət çəkir.

Milyonda bir tapılan xəstəliklərdən biri də "trixotilomamiya"dır. İngiltərə vətəndaşı Robina Hankings bu xəstəlikdən əziyyət çəkir. Xəstəlik zamanı zərərçəkmiş özündən asılı olmayaraq saçlarını yolur. 21 yaşlı Michaelle Datlonda 2005-ci ildə oğlunu dünyaya gətirəndən sonra suya qarşı allergiya yaranıb. O, adi çay, su, kofe kimi içkilərdən məhrumdur. Hətta onun oğlu ilə təmasına sərhəd qoyulub. Ən adi göz yaşı, tər, ağız suyu onun vəziyyətini ağırlaşdıra bilər. Bu hal 230 milyon nəfərdən birində rast gəlinir.

Daha bir xəstəlik bədəndə kristalların əmələ gəlməsidir. Yuli Satkliff 5 yaşından bu xəstəlikdən əziyyət çəkir. Onun bədənində kristallaşma prosesi gedir. Balaca qız hər gün dərmanlardan ibarət kokteyl qəbul etməsə bədəni daşlaşa bilər. Bu xəstəlik dünyada 2000 nəfərdə aşkar edilib.

Nadir xəstəliklərin öyrənilməsi üzrə Avropa təşkilatının (EURORDIS) təşəbbüsü ilin ən nadir günü - fevralın 29-u Beynəlxalq Nadir Xəstəliklərin Günü statusu alıb. Qısa illərdə həmin gün fevralın 28-də qeyd edilir. Onun hədəfi – ictimaiyyətin diqqətini həmin problemə cəlb etmək, nadir xəstəliklərlə və onların təsiri haqqında məlumat çatdırmaqdan ibarətdir. Nadir xəstəliklərin müxtəlif simptomlarına və nəticələrinə baxmayaraq, xəstələrin əksəriyyətində oxşar problemlər müşahidə olunur. Bu, düzgün diaqnostikanın olmaması və diaqnoz qoyulmasında gecikmə, keyfiyyətli informasiyanın yoxluğu, xəstəlik haqqında elmi biliklərin, ağır ictimai şərait, müalicə və keyfiyyətli tibbi yardım göstərilməməsi, müalicənin yoxluğu ilə əlaqədardır. Nadir xəstəliklərlə tibbin hər sahəsində üzləşmək mümkündür. Onların təxminən 80 faizə qədəri genetik təbiətə malikdirlər. Mütəxəssislərin qiymətləndirməsinə görə, dünyada həyat üçün təhlükəli təxminən 5-7 min nadir xəstəlik var. Onların arasında olduqca ekzotik xəstəliklərə rast gəlinir: Kabuki sindromu, Pallistera-Killiana sindromu, inkişaf edən sümük geteroplaziyası, Qoşe xəstəliyi. Daha tez-tez rast gəlinən xəstəliklərə isə mukovissidoz, hemofiliya, xərçəngin müxtəlif formaları, mieloma, Alsheymer, Qentingtona xəstəliyi və başqaları daxildir.

Ədəbiyyat

1. Amuclinik.com Leykozlar.ppt
2. ru.m.wikipedia. org/wiki/netp_i
3. www.amuclinic.com Azerbaycan Tibb... - Tadris Terapevtik Klinika ...

А.С.Зейналова, В.Б.Юсифова

О редких болезнях, об их профилактике и социально-общественной сущности

Резюме

В статье говорится о редких болезнях, встречаемых в человеческой природе. Несмотря на современное развитие медицины, все еще встречаются болезни, перед которыми медицина

слаба. Их лечение практически невозможно, только могут поддерживаться всяческими путями. Все эти болезни практически носят генетический характер. По подсчетам медиков, существует 5-7 тысяч такого рода заболеваний.

A.S.Zeynalova, V.B.Yusifova

On rare diseases, on their prevention, on social and social nature

Summary

The article talks about the rare diseases found in human nature. Despite the modern development of medicine, there are still diseases for which medicine is weak. Their treatment is almost impossible, they can only be supported in every possible way. All these diseases are almost genetic in nature. According to doctors, there are 5-7 thousand of these diseases.

Rəyçi: p.f.d. İ.Qədirova

Redaksiyaya daxil olub: 18.09.2019

С.Л.КЛИМОВ
e-mail: seriydoc19@gmail.com

Азербайджанский университет языков
(г. Баку, ул. Р.Бейбутова 134)

СОВРЕМЕННАЯ РАССТАНОВКА ИНТЕГРАЦИОННЫХ СИЛ И СМЕНА ПРИОРИТЕТОВ НА АМЕРИКАНСКОМ КОНТИНЕНТЕ

Ключевые слова: *интеграция, смена приоритетов, организации, Американский континент*
Açar sözlər: *inteqrasiya, prioritetlərin dəyişdirilməsi, təşkilat, Amerika qitəsi*
Key words: *integration, change of priorities, organization, American continent*

История развития Западного полушария во многом предопределена его историческим прошлым, с присущими только ему специфическими чертами и особенностями, что предопределило его настоящее и будущее развитие. Роль ярко выраженного лидера континента, несомненно, принадлежит Соединенным Штатам Америки. США обладают огромным потенциалом и, являясь сверхдержавой, имеют огромное влияние не только в данном регионе, но и во всем мире, что отражается на многих процессах, происходящих на Американском континенте.

США длительное время рассматривали все государства Западного полушария сферой своих собственных интересов. Провозгласив “доктрину Монро”, они заявили о своем праве на главенствующее положение в Центральной и Южной Америке. Позже, для отстаивания своих национальных интересов в регионе, США создали “межамериканскую систему”, основным звеном которой стала образованная в 1948 году Организация Американских Государств.

До 60-х XX века по инициативе США в Западном полушарии предпринимались попытки военно-политической консолидации, которые не увенчались успехом. Напротив, латиноамериканские государства приступили к взаимному сближению без прямого участия США. США же, наблюдая за происходившими процессами в южноамериканском регионе, стремились не упустить роль лидера в сложившейся обстановке, что в свою очередь, стало одним из катализатором создания НАФТА.

Для Западного полушария было характерно распространение внутрирегиональных контактов, что было связано с определенными причинами. Особенно отчетливо это проявлялось во взаимоотношениях США со своими южными соседями, несмотря на наличие некой напряженности и неравномерностью развития. Географическая близость США и Латинской Америки традиционно определяла высокий интерес Вашингтона к этому региону, который считался «двором» сверхдержавы. Хотя Вашингтон уже давно отказался от доктрины Монро, идея лидерства США прочно укоренилась в американском восприятии, что, по их мнению, давало им исключительное право на господство в Западном полушарии. Усиливавшееся же сближение стран латиноамериканского региона вызывало у них большую обеспокоенность, так как их всемогущее влияние в Западном полушарии могло подвергнуться пересмотру.

Таким образом, одним из центральных элементов, входящих в сферу интересов США, является осуществление стратегии мировой гегемонии, что возможно лишь благодаря контролю над ключевыми регионами мира, один из которых, несомненно, представляет Латинская Америка. США, пытаясь укрепить свои позиции в регионе, смещают акценты в этом направлении, тем самым втягивая Латинскую Америку в орбиту своих национальных интересов.

В современном мире Латинская Америка занимает всё более значимое место. Регион, ранее традиционно относившийся к периферийным, играет сегодня возрастаю-

щую роль в международных делах. На глобальном уровне Латинская Америка всё чаще заявляет о себе как о реальной силе для переустройства мира на принципах его многополярности.

Регион в целом мог бы взять на себя роль глобального центра при условии достижения такого уровня латиноамериканского единства, который позволит ему выступать с консолидированными и едиными позициями во всех вопросах международной жизни и межгосударственных отношений.

В современных условиях глобализирующегося мира под влиянием таких факторов, как геоэкономика и геокультура, в латиноамериканских государствах произошла трансформация классических геополитических раскладов. В начале XXI на смену прежним традиционным идеологиям, таким, как, марксизм, либерализм, кейнсианство, а также неолиберальной экономической модели пришли культурно-цивилизационные политические и социально-экономические проекты.

В это время в большинстве стран латиноамериканского региона наблюдался так называемым «левый поворот», когда к власти приходили левоцентристские силы. Они в своих предвыборных кампаниях основной упор делали на социальные реформы, что и обеспечило им поддержку со стороны большинства избирателей.

За период с 1998 по 2013 год во многих государствах Латинской Америки победу на выборах одержали представители “левых” сил. Это был беспрецедентный случай в истории континента, когда одновременно в таком количестве стран наблюдалась картина прихода к власти “левых” президентов, Уго Чавеса в Венесуэле, Лулы да Силвы в Бразилии, Нестора Киршнера в Аргентине, Табаре Васкеса в Уругвае, Эво Моралеса в Боливии, Рафаэля Корреа в Эквадоре.

Победа Партии трудящихся в Бразилии создавала огромные перспективы для всего латиноамериканского континента. И это было связано с тем, что именно Бразилия с ее мощной экономикой, могла стать центром консолидации латиноамериканских государств и в последствии инициатором изменения всей мозаичной латиноамериканской региональной интеграции. Противоположная же картина наблюдалась в Мексике, где несмотря на силу “левых”, у власти прочно находились “правые” силы. Взяв курс на сближение с США, она общими усилиями со своими североамериканскими соседями начала строить интеграционный проект НАФТА.

Однако, в последнее время Мексика все больше и больше возвращается на орбиту латиноамериканской интеграции и действий в интересах общих интересов стран региона на международной арене. Теоретически Мексика, как развивающееся государство с огромным потенциалом развития, находится в стратегически важном геополитическом пространстве. Латинская Америка может при определенных условиях стремиться к статусу глобального центра, особенно если обратить внимание на быстро прогрессирующую «латиноамериканизацию» (3, с.27).

После прихода к власти “левых” сил произошла трансформация отношений между латиноамериканскими государствами как на двусторонней, так и на многосторонней основе. В результате этого “левый” переворот привел к возникновению в регионе двух полюсов: “левого” и “правого”, у которых сформировались разные взгляды на видение роли Латинской Америки на международной сцене.

Внутри старых интеграционных проектов, таких как, например, Андское Сообщество Наций, стали отчетливо проявляться внутренние противоречия, связанные с разногласиями между государствами-членами противоположных лагерей. Эти разногласия инициировали создание новых организаций, таких как АЛБА, УНАСУР, СЕЛАК, где основными участниками являлись государства левоцентристского толка. Серьезной трансформации подверглись отношения с Соединенными Штатами Америки, в которых представители радикальных “левых” стали видеть прямую угрозу своему дальнейшему раз-

витию, а умеренные же “левые” искали пути региональной интеграции без опеки США, хотя рассматривали их как партнера, но будучи при этом очень осмотрительными (7).

Новые ассоциации, образованные без участия США потенциально способны заменить инструмент взаимоотношений США с государствами Латинской Америки, они представляют существенную проблему для влияния США. Их возникновение демонстрирует желание государств региона пойти по пути внутри латиноамериканской интеграции в качестве противовеса панамериканской. Эта тенденция началась с отказа латиноамериканских государств в середине первого десятилетия XXI века от проекта образования ЗСТ в Северной и Южной Америке (ЗСТА), который Штаты безрезультатно продвигали с середины 1990-х годов (2).

Вашингтон оказался в непонятной для себя ситуации, а латиноамериканские правые, выполнявшие указания Белого дома, тоже не смогли ничего предложить по претворению в жизнь проекта ЗСТА. И так стала возникать политическая ось, одновременно бросившая вызов гегемонии США и латиноамериканским правым. Ничего подобного не наблюдалось вот уже двести лет, со времён войн за независимость.

Без сомнения, интеграционная «реакция» «левого поворота», понизив темп продолжается и по сей день. «Поворот налево» стал фактором широких социально-экономических преобразований в регионе, включая изменения в его интеграционной архитектуре. То, чего США не смогли достичь в рамках создания Зоны свободной торговли в Северной и Южной Америке (ФТАА), нашло отражение в независимой интеграции стран Латинской Америки (4, с.7).

Спустя полтора десятка лет, наблюдая за политической картиной Латинской Америки, можно заметить абсолютно противоположную ситуацию. Политический маятник сместился в сторону “правых”. У власти в Чили оказался “правый” президент, в Гондурасе сместили “левого” лидера, в Перу “левые “потерпели сокрушительное поражение. В Аргентине к власти пришли консерваторы. На последних выборах в Бразилии победу также одержал крайне “правый” кандидат. Венесуэла по сегодняшний день охвачена серьезным политическим кризисом. И лишь Уругвай и Эквадор показывают стабильность левоцентристских направлений.

Очевидно, это уже не «правый крен», а действительный разворот вправо. Отрицать это не имеет смысла, так как большинство стран региона находится в руках представителей правого толка, и именно они будут решать дальнейшую судьбу латиноамериканского континента. На этом фоне интересна позиция Мексики, которая демонстрирует постепенный поворот влево.

В условиях укрепления позиций “правых” сил влиятельнейшим центром в регионе становится Тихоокеанский Альянс. Наиболее радикальные ученые называют Альянс американским «троянским конем» в Латинской Америке и описывают ТА как «ФТАА в миниатюре», как «новый неолиберальный клуб», а некоторые даже называют его «проектом ФТАА-2» (5).

Важной стратегической целью альянса является повышение роли латиноамериканских государств в Азиатско-Тихоокеанском регионе. Укрепляя свои позиции на рынках АТР в целом, и в Китае, в частности, этот блок стремится отобрать у стран АЛБА инициативу по экономическому сотрудничеству с Китаем. Конкуренция между этими двумя интеграционными моделями наблюдается также в политической и экономической областях.

В связи с изменившейся конъюнктурой в регионе, а также на фоне Венесуэльского кризиса, существование УНАСУР в его прежнем виде стало объективно затруднительным. Президенты семи южноамериканских государств выступили с инициативой создания нового блока ПРОСУР, основной целью которого является развитие региональной интеграции. Можно с уверенностью заявить, что ПРОСУР сформировался в

противовес Союзу южноамериканских наций (УНАСУР). Это новый инструмент, созданный по инициативе США и призванный трансформировать баланс сил в Латинской Америке. Являясь носителем ярко выраженной ультраправой идеологии, он призван заменить собой Союз южноамериканских наций. Стоит также отметить тот факт, что ПРОСУР может стать более гибким и удобным механизмом для США, чем ОАГ.

Таким образом, в последнее время Американский континент представляет собой довольно сложную, неоднозначную и пеструю структуру, где наблюдается очевидная тенденция к переосмыслению концептуальных взглядов и установок, целей и методик, которые касаются дальнейшего процесса региональной интеграции. Вполне возможно, что для окончательного "финала" этих глубочайших модификаций еще понадобится длительное время, но вместе с тем, данный "финал" не всегда будет являться итогом линейных процессов. Определенно есть допустимость возникновения новых очагов напряжения.

Литература

1. Лавровская Т.В. Североамериканская интеграция. Экономические и политические аспекты. М., 1987, 79 с.

2. Яковлев П.П. Геополитические сдвиги в Латинской Америке // Перспективы. Электронный журнал, № 3, 2013. // http://www.perspektivy.info/rus/desk/

3. Relations between the European Union and Latin America: Bioregionalism in a Changing Global System. Ed.: Grabendorff, R. Siedelmann. Baden-Baden, 2005, 443 p.

4. Leksyutina Y. Ocaso de la dominacion de los EE. UU. EN America Latina? San Petersburgo. 2015 // http://iberoamericajournal.ru/sites/default/files/2015/1/leksyutina.pdf

5. López Blanch Hedelberto. Alianza Pacífico: caballo de Troya de Washington. 2014 // http://www.rebelion.org/noticia.php?id=181395

6. Pagina-Web official de CELAC // http://celacinternational.org/

7. Pyatakov A. "Maraton" integracionista Latinoamericano a comienzos del siglo XXI. 2015 // http://www.iberoamericajournal.ru/sites/default/files/2015/1/pyatakov.pdf

S.L.Klimov

İnteqrasiya olunmuş qüvvələrin hazırki vəziyyəti və Amerika qitəsindəki prioritetlərin dəyişdirilməsi

Xülasə

Son zamanlarda bütün qitələrdə sürətlə inkişaf edən inteqrasiya prosesləri müasir beynəlxalq münasibətlərin spesifik bir hadisəsi olmaqla keyfiyyətcə yeni dövlətlərarası qarşılıqlı fəaliyyət növüdür. Amerika qitəsində baş verən inteqrasiya proseslərinin xüsusiyyətlərinin təhlili xüsusi maraq doğurur. Bu məqalədə ABŞ-ın Latın Amerika ölkələri ilə son zamanlarda getdikcə daha çox yer tutan münasibətləri və dünyanın əksər bölgələrində güclü dövlətlərin statusuna çatmaq istəyi müzakirə olunur.

S.L.Klimov

Modern alignment of integration forces and change of priorities on the American continent

Summary

The integration processes that have been booming recently in all continents are a qualitatively new type of interstate interaction, being a specific phenomenon of modern international relations. Of particular interest is the analysis of features integration processes taking place on the American continent. This article discusses the peculiarity of US relations with Latin American countries that recently occupy an increasingly significant place and wish to achieve the status of states with the opinion of which would be considered in most countries of the world's regions.

Рецензент: д.филос.н., проф. М.А.Алиев
Redaksiyaya daxil olub: 05.11.2019

MÜNDƏRİCAT – СОДЕРЖАНИЕ

DİLÇİLİK – ЛИНГВИСТИКА

Ə.Ə.ABDULLAYEV
KONSEPTUAL İNTEQRASİYA VƏ ANLANMA 3

K.Q.ALLAHYAROVA
EKSTRALİNQVİSTİK AMİLLƏR VƏ FONOSTİLİSTİKA 9

A.B.AMANƏLİYEVA
DİLÇİLİKDƏ KƏMİYYƏT KATEQORİYASI ANLAYIŞININ MAHİYYƏTİ
(Azərbaycan və ingilis dillərinin materialları əsasında) 13

G.V.ASLANOVA
PREPOZİTİV MÖVQEDƏ SAMİT BİRLƏŞMƏLİ FUZİAL ELEMENTLƏRİN
FLEKSİYASI VƏ DERİVASİYASI 22

F.Q.AYDƏMİROVA
AZƏRBAYCAN DİLİNDƏ DÜZƏLTMƏ QURULUŞLU TERMİNLƏR....26

C.M.BABAYEV
ÇOXMƏNALI SÖYLƏMLƏRİN KOMMUNİKATİV-PRAQMATİK XÜSUSİYYƏTLƏRİ....29

F.M.ƏMİROVA
AZƏRBAYCAN VƏ ALMAN DİLLƏRİNDƏ İSİMLƏRİN CƏM ŞƏKLİNİN
DÜZƏLDİLMƏSİ 34

E.İ.FƏRƏCOVA
TƏRKİBİNDƏ RƏNG ADLARI OLAN İNGİLİS İDİOMLARININ
MİLLİ-MƏDƏNİ SPESİFİKASI....41

F.İ.FƏRZƏLİYEVA
İNGİLİS DİLİNDƏ CÜMLƏNİN SİNTAQMATİK VƏ AKTUAL ÜZVLƏNMƏSİNİN
FƏRQLİ CƏHƏTLƏRİNƏ DAİR....45

G.İ.MEHDİYEVA
HƏRBİ ALINMALARIN ÇOXMƏNALILIĞI 49

A.F.QASIMOVA
FRANSIZ DİLİNDƏ SİFƏT VƏ ONUN DƏRƏCƏLƏRİ MÖVZUSUNDA İNNOVASİYALAR .54

N.SƏLİMOVA
İNGİLİS DİLİNDƏ FRAZEOLOJİ BİRLƏŞMƏLƏRİN XÜSUSİYYƏTLƏRİ....58

A.İ.ŞÜKÜROVA
“AZƏRBAYCAN” TOPONİM-KONSEPTİNİN İNVARİANT HİSSƏSİNİN ŞƏRHİ....62

B.B.АГАБАЛАЕВА
СОПОСТАВИТЕЛЬНОЕ ИЗУЧЕНИЕ ГЛАСНЫХ
И СОГЛАСНЫХ ЗВУКОВ РУССКОГО И АНГЛИЙСКОГО ЯЗЫКОВ....66

М.З.БАЙРАМОВА
ОСОБЕННОСТИ УПОТРЕБЛЕНИЯ ПРЕЦЕДЕНТНЫХ ИМЕН
ИЗ СФЕРЫ «КЛАССИЧЕСКАЯ ЛИТЕРАТУРА»
В СОВРЕМЕННОМ ХУДОЖЕСТВЕННОМ ТЕКСТЕ....70

А.Х.ИСАЕВА
СРАВНИТЕЛЬНЫЙ АНАЛИЗ АНГЛИЙСКОГО И РУССКОГО ЯЗЫКОВ
В КОНТЕКСТЕ ТЕОРИИ КОММУНИКАТИВНОЙ КОМПЕТЕНЦИИ....75

А.Х.МАМЕДОВА
НАЦИОНАЛИЗАЦИЯ В ПРОТИВОВЕС ГЛОБАЛИЗАЦИИ:
МЕТАФОРЫ ГЛОБАЛИЗАЦИИ В ОБРАЗОВАТЕЛЬНОМ ДИСКУРСЕ 79

Н.А.МАМЕДОВА
ЗАВИСИМОСТЬ УПОТРЕБЛЕНИЯ ДИМИНУТИВОВ
ОТ ЛИНГВОКУЛЬТУР И НАЦИОНАЛЬНЫХ ТРАДИЦИЙ ОБЩЕСТВА 87

Х.Э.МУСАЕВА
ФРАЗЕОЛОГИЯ КАК ИСТОЧНИК ИЗУЧЕНИЯ РУССКОГО ЯЗЫКА
В АЗЕРБАЙДЖАНСКОЙ АУДИТОРИИ 91

ƏDƏBİYYAT – ЛИТЕРАТУРА

E.BAĞIRZADƏ, N.SALAMOVA
AKADEMİK HƏMİD ARASLININ FOLKLORŞÜNASLIQ FƏALİYYƏTİ 95

V.CAVADOVA
AZƏRBAYCAN ƏDƏBİ-NƏZƏRİ FİKRİNİN ÇƏTİN SINAQ DÖVRÜ 100

S.ƏLİYEVA
AZƏRBAYCAN FOLKLORUNDA İNSAN QURBANVERMƏ MOTİVİ 105

M.ƏMRAHOVA
İSMAYIL ŞIXLI VƏ AZƏRBAYCAN ƏDƏBİ TƏNQİDİ 110

V.İ.İBRAHİMOVA
SİNKLER LYUİS VƏ AMERİKA ƏDƏBİYYATI 114

A.Ə.MƏMMƏDLİ
İNNOVATİV İNGİLİS ROMAN YAZARI DEVİD MİTÇEL ÜSLUBU 117

S.PAŞAYEVA
“MANAS” DASTANINDA HƏRB MÖVZUSUNUN POETİK İFADƏSİ 121

M.M.QULİYEVA
TƏNQİDİ-REALİST HEKAYƏDƏ CƏMİYYƏTİN
VƏ FƏRDİN BAŞLICA PROBLEMLƏRİ 125

S.X.QURBANLI
NAVARR SKOTT MOMADEYİN “YAĞIŞ DAĞININ YOLU”
VƏ NƏRİMAN HƏSƏNZADƏNİN “NABAT XALANIN ÇÖRƏYİ”
ƏSƏRLƏRİNDƏ OXŞAR MOTİV VƏ SÜJETLƏR 130

S.RƏSULOVA
MAARİFÇİ-REALİST UŞAQ POEZİYASINDA MAARİFƏ, MƏKTƏBƏ
VƏ ELMƏ ÇAĞIRIŞ İDEYALARI 134

A.B.SƏFƏRƏLİYEVA
MÜASİR AZƏRBAYCAN ŞEİRİNDƏ BÜTÖV AZƏRBAYCAN İDEYASI (1990-2005) 141

N.F.XANKİŞİYEV
İNGİLİSDİLLİ KANADA ƏDƏBİYYATINDA MİLLİ İDENTİKLİK PROBLEMİ
(Con Hyu Maklennan yaradıcılığı) 145

E.A.YÜCETAŞ
“KOROĞLU” DASTANINDA RİTUAL DAVRANIŞIN SEMİOTİKASI 150

К.Т.АБДУРАХМАНОВА
ОСНОВНЫЕ ЖАНРОВО-КОМПОЗИЦИОННЫЕ ПРИЗНАКИ
И ХУДОЖЕСТВЕННЫЕ ОСОБЕННОСТИ ЭПИЧЕСКОГО ЦИКЛА
В ЕВРОПЕЙСКОЙ ЛИТЕРАТУРЕ XX СТОЛЕТИЯ
(на примере цикла «Музыка времени» Энтони Поуэлла) 156

Х.И.АЛИЕВА
ПРОБЛЕМА «ЧЕЛОВЕКА И ОБЩЕСТВА» В ТВОРЧЕСТВЕ АЙРИС МЕРДОК.....161

Л.Х.ГАСИЛОВА
СБОРНИКИ АРАБСКИХ ПОСЛОВИЦ, НАПИСАННЫЕ
В ПЕРИОД РАННЕГО ИСЛАМА 164

С.И.ИСЛАМОВА
ЖАНР МЕМУАРА В ТВОРЧЕСТВЕ АНАРА И ЭЛЬЧИНА 168

А.З.САБИТОВА
ПУТЬ АМЕРИКАНСКОЙ ПОЭЗИИ К НАЦИОНАЛЬНОЙ ИДЕНТИЧНОСТИ.....172

Х.Р.ЮСИФОВА
ПРИМЕТЫ «СИТУАТИВНОГО ЭКЗИСТЕНЦИАЛИЗМА»
В ТВОРЧЕСТВЕ С.ДОВЛАТОВА 179

PEDAQOGİKA. METODİKA. PSİXOLOGİYA – ПЕДАГОГИКА. МЕТОДИКА. ПСИХОЛОГИЯ

G.D.ALIYEVA
TƏLƏBƏLƏRİN MƏDƏNİYYƏTLƏRARASI ÜNSİYYƏT BACARIQLARINI
FORMALAŞDIRMAĞIN PSİXOLOJİ ƏSASLARI
(Keys metoduna əsaslanaraq).....184

S.K.ALMURADOVA
UŞAQLARIN MUSİQİ İNKİŞAFININ YAŞA UYĞUN SƏVİYYƏLƏRİ.....189

S.L.AXUNDOVA
PEDAQOGİKANIN TƏDRİSİNİN OPTİMALLAŞDIRILMASININ
PSİXO-PEDAQOJİ ƏSASLARI 193

A.M.ƏHMƏDOVA
MƏKTƏBƏQƏDƏR TƏHSİLDƏ PEDAQOJİ PROSESİN
DİAQNOSTİK İDARƏ OLUNMASI MƏSƏLƏLƏRİ.....198

N.Ə.ƏLİYEV
RİYAZİYYAT TƏDRİSİ METODİKASININ PREDMETİ 205

T.V.ƏLİZADƏ
İNTERNET TEXNOLOGİYALAR ŞAGİRDLƏRİN İDRAK FƏALİYYƏTİNİN
YÜKSƏLDİLMƏSİ VASİTƏSİ KİMİ.....208

Z.R.İSMAYILOVA, Ş.M.SEYİDOVA
ŞAGİRDLƏRDƏ TƏDQİQATÇILIQ BACARIQLARININ
FORMALAŞDIRILMASI İSTİQAMƏTLƏRİ.....214

İ.M.MAZANOV, S.P.MÜRSƏLOVA, Q.B.HÜSEYNOV
HƏRƏKƏT AKTİVLİYİNİN TƏLƏBƏLƏRİN ORQANİZMİNƏ TƏSİRİNİN
GİGİYENİK ƏSASLARI 218

T.E.MƏCİDZADƏ
İNGİLİS DİLİNDƏ KOMMUNİKATİV SƏRİŞTƏNİN FORMALAŞDIRILMASINDA
QRAMMATİKANIN ROLU.....223

N.Ş.MƏMMƏDOVA
XARİCİ DİLİN ÖYRƏNİLMƏSİNDƏ SOSİOMƏDƏNİ SƏRİŞTƏNİN ROLU 228

P.M.MƏMMƏDOVA
MÜASİR TƏHSİL PROSESİNDƏ MUSİQİ FƏNNİNİN ƏHƏMİYYƏTİ 233

V.B.NƏSİBOV
SİLAHLI QÜVVƏLƏRİN XÜSUSİ TƏYİNATLI TƏHSİL MÜƏSSİSƏLƏRİNDƏ RUS DİLİNİN TƏDRİSİ VƏZİYYƏTİ: PROBLEMLƏR VƏ ONLARIN HƏLLİ YOLLARI....238

M.NƏZƏROV
MODUL TƏHSİLİN KEYFİYYƏTİNƏ PEDAQOJİ NƏZARƏTİN TƏŞKİLİ XÜSUSİYYƏTLƏRİ.....243

G.M.NƏZƏROVA
MÜASİR DÖVRDƏ TƏHSİLƏ SİNERGETİK YANAŞMANIN ƏHƏMİYYƏTİ..... 247

G.F.NOVRUZOVA
ALİ MƏKTƏBLƏRDƏ TƏHSİLİN KEYFİYYƏTİNİN TƏMİN EDİLMƏSİNDƏ TYUTOR XİDMƏTİNİN ROLU 251

X.Ə.RƏFİYEVA
XARİCİ DİLLƏRİN TƏDRİSİNDƏ DİL VƏRDİŞLƏRİNİN ÖYRƏNİLMƏSİ MƏRHƏLƏLƏRİ.....255

N.B.SALMANOVA, S.Q.QARAYEVA
POLİATLONDA KOMANDA LİDERİNİN XÜSUSİYYƏTLƏRİ.....259

Y.B.SƏMƏDOV, V.M.VƏLİYEV, Y.B.MƏMMƏDOV
SÜRƏT DÖZÜMLÜYÜNÜN İNKİŞAF ETDİRİLMƏSİ METODİKASINA DAİR 263

F.O.SƏMƏDZADƏ
AİLƏDƏ UŞAQ TƏRBİYƏSİ İLƏ BAĞLI YARANAN PROBLEMLƏRİN BAŞLICA SƏBƏBLƏRİ.....266

А.АМИРОВА, З.ГУСЕЙНОВА
ИНТЕГРАЦИЯ В ОБУЧЕНИИ РУССКОМУ ЯЗЫКУ В ЭКОНОМИЧЕСКОМ ВУЗЕ..... 269

И.Э.ГАСАНОВА
РОЛЬ ИНТЕРАКТИВНОГО ОБУЧЕНИЯ В АЗЕРБАЙДЖАНСКОЙ АУДИТОРИИ 273

İCTİMAİ ELMLƏR – ОБЩЕСТВЕННЫЕ НАУКИ

K.M.AĞAYEV
NORVEÇDƏ FYORDLAR VƏ QIŞ İDMAN NÖVLƏRİNİN TURİZMİN İNKİŞAFINDA ROLU.....277

M.Ə.ƏSGƏROVA, A.Ə.KƏRİMOVA
GENETİK MODİFİKASİYA EDİLMİŞ ORQANİZMLƏR VƏ ƏRZAQ TƏHLÜKƏSİZLİYİ 281

A.Ə.MEHDİYEVA
IV-VIII XAÇ YÜRÜŞLƏRİNİN ARAŞDIRILMASI ÜÇÜN MƏNBƏLƏR.....285

A.Ə.RƏCƏBOVA
AZƏRBAYCAN MÜASİR BEYNƏLXALQ MÜNASİBƏTLƏR SİSTEMİNDƏ.....291

A.S.ZEYNALOVA, V.B.YUSİFOVA
NADİR TAPILAN XƏSTƏLİKLƏR, ONLARIN PROFİLAKTİKASI, SOSİAL-İCTİMAİ MAHİYYƏTİ BARƏDƏ 297

С.Л.КЛИМОВ
СОВРЕМЕННАЯ РАССТАНОВКА ИНТЕГРАЦИОННЫХ СИЛ И СМЕНА ПРИОРИТЕТОВ НА АМЕРИКАНСКОМ КОНТИНЕНТЕ.....301

Nəşriyyat redaktoru: **Günel Əliyeva**

Kompyuter tərtibatı: **Günel Muxtarova**

Çapa imzalanıb: 10.12.2019. Format: 84x108 1/16.
Həcmi: 19, 5 ç.v. Tiraj: 300.

TƏRCÜMƏ
VƏ NƏŞRİYYAT-POLİQRAFİYA MƏRKƏZİ

Az 1014, Bakı, Rəsul Rza küç., 125/139b
Tel./faks 596 21 44
e-mail: mutarjim@mail.ru
www.mutercim.az

Hörmətli müəlliflər!

«Humanitar elmlərin öyrənilməsinin aktual problemləri» adlı ali məktəblərarası elmi məqalələr məcmuəsində çap olunmaq üçün elmi məqalələrin qəbulunu davam etdirir. Məcmuəyə **dilçilik, ədəbiyyatşünaslıq, pedaqogika, psixologiya, fəlsəfə və ictimai elmlərin aktual problemləri**nə dair məqalələr daxil edilir.

Məqalələr aşağıdakı şərtlərlə qəbul edilir:

- Məqalələr Azərbaycan, rus və ingilis dillərində qəbul edilir.
- Məqalələrin həcmi 5 səhifədən az olmamalıdır.
- Məqalələr kompüterdə yığılmış formada elektron daşıyıcıda təqdim edilməlidir (Word proqramında, səhifənin ölçüləri – A4, şrift 14, sətirlərarası məsafə 1,5 interval, sağ və soldan 2 sm, yuxarı və aşağıdan 3 sm.; Azərbaycan dilində mətnlər Times New Roman, Times-Latin, rus və ingilis dillərində mətnlər Times New Roman şrifti ilə).
- Məqalələrdə istinad və mənbələrin göstərilməsi vacibdir. İstinad və mənbələr bu qaydada göstərilir:

1. Ədəbiyyat siyahısı mətnin sonunda əlifba sırası ilə verilir.
2. İstinad olunan ədəbiyyat nəşr olunduğu dildə verilir.
3. Ədəbiyyatlar AAK-nın tələbləri əsasında göstərilir:
   Məs.: **Rəhimov A.N. Ana dilinin tədrisi metodikası. Bakı: Mütərcim, 1997.**
   Nağısoylu M.N. Abbasqulu ağa Bakıxanovun "Riyazül-Qüds" əsəri orijinaldır, yoxsa tərcümə // «Mütərcim» jurnalı, №1-2, 18 mart 2003-cü il, s. 34-35.
4. İstinad olunmuş ədəbiyyatın nömrəsi və səhifəsi mətnin içində göstərilir. Məs.: (**5, s. 112**).

- Məqalənin əvvəlində Azərbaycan, rus, ingilis dillərində 5-6 açar söz göstərilməlidir.
- Məqalənin sonunda məqalənin yazıldığı dildən başqa iki dildə (Azərbaycan dilində yazılmış məqalələrə ingilis və rus dillərində; məqalə rus dilində yazılıbsa, Azərbaycan və ingilis dillərində, məqalə ingilis dilində yazılıbsa, Azərbaycan və rus dillərində) xülasə verilməlidir.
- Məqalədə müəllifin elmi dərəcəsi, elektron poçt ünvanı, işlədiyi təşkilatın adı və ünvanı dəqiq göstərilməlidir.
- Məqalələrə bu sahə üzrə elmi dərəcəsi olan mütəxəssisin və ya müvafiq elmi müəssisənin Elmi Şurası rəy verməlidir.

Ünvan: **Bakı şəh., Rəsul Rza küç., 125/139b**
tel.: 596 21 44
e-mail: mutarjim@mail.ru
Məcmuənin elektron variantı: **www.mutercim.az**